Prof. Fazil QARAOĞLU

# ERMƏNİLƏR VƏ HƏQİQƏTLƏR

(RƏSMİ SƏNƏDLƏRLƏ)

I CİLD

NURLAN

BAKI – 2007

9(C)-Азербайджан. История

**Elmi məsləhətçi:** T.E.N. L.Məmmədova

**Baş redaktor:** Ə.Əmirbəyli

**Redaktor:** B.Abdullayev

**Korrektor:** K.Eyvazova

**Prof. Fazil QARAOĞLU**
**ERMƏNİLƏR VƏ HƏQİQƏTLƏR (RƏSMİ SƏNƏDLƏRLƏ)**
**Bakı «NURLAR» Nəşriyyat Poliqrafiya Mərkəzi, 2007, 400 səh**

Professor F.Qaraoğlunun bu kitabında zəngin arxiv sənədləri və ilkin mənbələr əsasında ermənilərin tarixindən, sosial-iqtisadi həyatından, mədəniyyətindən, dinindən, yaşadıqları bölgələrdə ətrafa olan münasibətlərindən və türklərə qarşı törətdikləri məzalımlardan bəhs edilir.

Bu kitab xalqımızın bilmək məcburiyyətində olduğu tarixin bəzi qaranlıq səhifələrini oxuculara təqdim edir.

P 23448/1

ISBN 9952 - 426 - 20 - 4

© F.Qaraoğlu, 2007

© F.Qaraoğlu, 2007

Navoiy
O'zbekiston MK

## MÜNDƏRİCAT


Ön söz ... 6
Ermənilərin tarixinə qısa bir baxış ... 17
Səlcuqlu dövrünə qədər ermənilər ... 28
Səlcuqlu idarəsində ermənilər ... 35
Osmanlı idarəsində ermənilər ... 43
Ermənilərin dini inamı ... 62
Ermənilərin xristianlığı qəbul etmələri ... 63
Təhsil yuvalarımı, yoxsa...? ... 66
İki yaşından böyük türk uşaqlarının kəsilməsi haqqında qərar ... 77
İxtilal və üsyana təhrik bildiriləri və türk-islam düşmənçiliyi ... 78
Erməni gənclərinə bildiri ... 81
Musa bəy hadisəsi ... 84
Hnçak komitəsinin yaranması ... 97
Daşnaksütyun komitəsinin yaranması ... 99
Erməni komitələrinin fəaliyyətləri ... 103
Ermənilərin Van vilayətində törətdikləri hadisələr ... 153
Zeva faciəsi ... 162
Ermənilərin Bitlis və Muş vilayətlərində törətdikləri hadisələr ... 170
Ermənilərin Ərzurum vilayətində törətdikləri hadisələr ... 176
Ermənilərin Azərbaycanda törətdikləri hadisələr (1918-1920) ... 199
Bəzi yazışmalar ... 231
Bəzi sənədlər ... 296
Qaziantepin müdafiəsi ... 311
Mondros sülh müqaviləsi ... 317
Lozann konfransı ... 323
Erməniləri köçə zorlama məsələsi ... 338
Sevr müqaviləsi ... 344
Soyqırım ... 349
Erməni mənbələrində Lozann konfransı və sonrası ... 359
Lozanndan sonra ermənilərin vəziyyəti ... 378
Mənbələr ... 382

**Prof. Fazil Qaraoğlu tərəfindən yazılmış "Ermənilər və həqiqətlər" (rəsmi sənədlərlə) I cild kitabına**

## RƏY

XVIII yüzilliyin sonlarından etibarən beynəlxalq münasibətlər sisteminə daha bir uzunömürlü problem də əlavə olundu. Bu, "Şərq məsələsi" idi. Bunu Rusiya, İngiltərə, Fransa və Avstriya dövlətləri yaratmışdırlar. Ancaq başlıca maraqlı tərəflər kimi Rusiya və İngiltərə çıxış edirdilər. "Şərq məsələsi"nin əsas hədəfi olaraq isə Osmanlı İmperatorluğu – "orta əsrlərin yeganə əsl hərbi dövləti" seçilmişdir.

XIX yüzillikdə müxtəlif amillər üzündən Osmanlının çökməsi prosesi daha da sürətləndi. Belə bir şəraitdə Osmanlı İmperiyası ilə bağlı çoxsaylı plan və layihələr ortaya çıxdı. "Şərq məsələsi" bir çox qol – budaqlara malik olan beynəlxalq siyasət kimi dəyərləndirilir. Belə ki, Rusiya və qərb dövlətləri öz mənafelərindən çıxış edərək vaxtaşırı "Kıprıs problemi"ni, "Erməni məsələsi"ni və s. beynəlxalq münasibətlərin gündəminə gətirmişlər.

"Şərq məsələsi"nin əsas hissəsini təşkil edən "erməni problemi" onun aparıcı qollarından biridir. "Erməni məsələsi"nin meydana gəlməsini onların Türkiyədə və Azərbaycandakı acınacaqlı durumları, müxtəlifyönlü təzyiqlərə məruz qalmaları ilə "əsaslandırmağa" çalışan baxış və mövqelər kökündən yanlışdır.

Türk – Erməni münasibətlərinə dair dünyada aparılan araşdırmaların ətraflı öyrənilməsi mühüm məsələlərdən biridir.

Fazil Qaraoğlunun "Ermənilər və həqiqətlər" adlı kitabı məhz bu səpkidə yazılmış əsərdir. Kitabda 350 adlı qaynaq və elmi əsərlərdən istifadə olunmuşdur. Bunların sırasında ermənilər tərəfindən yazılan əsərlərin təhlili və onların qeyri-elmi baxışı, mövqelərinin qeyri-obyektiv olması sübuta yetirilir. Eyni

zamanda kitabda Türkiyə Cümhuriyyətinin arxiv sənədlərindən geniş istifadə olunmuşdur və bu da Azərbaycan tarixşünaslığı üçün böyük maraq kəsb edir. Bunların sırasında erməni komitələrinin yaranması və fəaliyyəti, Van vilayətində törətdikləri hadisələr, Zera faciəsi, Bitlis və Muş vilayətlərində ermənilərin törətdikləri vəhşiliklər, eyni zamanda 1918-1920-ci illər ermənilərin Azərbaycanda törətdikləri hadisələr rəsmi sənədlər əsasında açıqlanır.

Hesab edirəm ki, kitabın konsepsiyası düzgün qurulmuşdur. Böyük dövlətlərin "erməni məsələsi"ni ortaya ataraq, erməni faktorundan istifadə edərək Osmanlı dövlətini yıxmaq, Quzey Azərbaycan ərazisində etnik təmizləmə aparıb əz torpaq iddialarını həyata keçirmək olmuşdur. Maraqlı məsələlərdən də biri kitabda araşdırılan "erməni məsələsi"ndə kilsənin roludur. Erməni millətinin formalaşmasında və ona vətən yarada biləcək güc kimi kilsə həlledici rol oynamışdır. Kitabda sübuta yetirilir ki, kilsə "erməni məsələsi"nin müəlliflərindən biridir.

Fazil Qaraoğlunun "Ermənilər və həqiqətlər" kitabı tarixi hadisələri dürüst təsvir edir. Türk gənclərinin fəal vətəndaşlıq mövqeyinin, geniş dünyagörüşünün yetişməsində bu əsərin böyük rolu ola bilər. Deyilənləri nəzərə alaraq əlyazmanın çapını və başqa müxtəlif dillərə çevrilməsini lazım bilirəm.

*Tarix elmləri doktoru,*
*BDU-nun professoru*
*E.Muradəliyeva*
*10.06.2007*

# ÖN SÖZ

Dünyada erməni milləti və ermənilərlə əlaqəli məsələlər haqqında çox sayda əsərlər yazılmışdır. Bu əsərlərin böyük bir qismi, xüsusilə də son illərdə yazılan əsərlərin əksəriyyəti, əsasən türk düşmənçiliyi fikri üzərində qurulmuşdur. Hətta bu mövzuda aparılan "elmi tədqiqatlar" nəticəsində yazılan "elmi əsərlər" və siyasi məqalələr həqiqətlərdən çox uzaqdır. Tarixi hadisələrin tədqiqatı zamanı rəsmi sənədlərə və yazışmalara müraciət etmək qaçılmazdır. Beləcə, tarixi hadisələr olduğu kimi ortaya çıxar.

Türk torpağının çörəyi, suyu ilə yaşayıb var olmuş, sonra isə türk xalqına və bütün Türk dünyasına düşmən kəsilmiş, onlara qarşı tarixdə görülməmiş qətliamlar törətmiş ermənilər barəsində yazmaq o qədər də asan deyildir. Rəsmi sənədlərə və yazışmalara dayanaraq çox ciddi və yorucu araşdırmalar nəticəsində ortaya çıxarılmış bu kitabı oxuduqca, türk insanları ilə böyük-kiçik demədən düşməncəsinə rəftar edən bu şovinist münafiqlərin törətdiklərini meşədə yırtıcı heyvanların belə etmədiyini görəcəksiniz. Bu kitabın yazılmasında istifadə olunan rəsmi sənədlərin və yazışmaların dəyəri ermənilərin tarix boyu, eləcə də günümüzdə ortaya atdıqları uydurma problemlərinə qarşı qoyma baxımından əvəzsizdir.

Rəsmi sənədlərə əsaslanan bu əsərin yükləndiyi vəzifənin məsuliyyətini daşıyaraq seçdiyi "Ermənilər və həqiqətlər" mövzusu bu kitabda öz əksini tapmışdır. İnsanlarımızın, xüsusilə də müasir gənclərimizin bu əsərdən faydalanmaları və kimin kim olduğunu öyrənmələri məsləhət görülür.

Cəmiyyətlərin məqsədləri nə olursa olsun, keçmiş hadisələrin, itirilmiş dəyərlərin intiqamını almaq üçün qan davası aparmaq zəifliyinə çağdaş dünyada yer yoxdur. Dünyada baş vermiş tarixi həqiqətlərin alt-üst edilməsilə mənafe əldə etməyə çalışan çevrələrin başlatdıqları təbliğatlar uydurma xarakterli olarsa, insanlıq buna ancaq və ancaq acıma hissi ilə baxmalıdır.

Bəzi ölkələrdə təşkilatlanan erməni komitələrinin milli siyasət izləyərək erməni çoxluğuna psixoloji təsir göstərmə çalışmaları dünya ictimaiyyətini Türkiyəyə, Azərbaycana və ümumiyyətlə, türklərə qarşı çıxarma səyləri hər şeydən əvvəl bu böyük çoxluğa zərər verəcəkdir. Bu erməni komitələrinin tarixi qalıntılar içərisində bilinən və sınanmış modelləri istifadə edərək erməni "problemini" dövlətlərarası səviyyəyə çıxarma səyləri da, hər zaman olduğu kimi, arxasına və ya yanına sığınılan dövlətin xeyrinə xidmət edəcəkdir.

Türklərin səssizliyi heç kəsə cəsarət verməməlidir. Türklər dünya tarixinin hər anında insanlığa, inkişafa, mədəniyyətə göstərdikləri xidmətlərlə və bütün insan haqlarına olan sevgi və hörmətləri ilə hiss etdikləri rahatlığın təsiri içərisində müəyyən olmayan davranışlardan çəkinmiş ola bilərlər, bu da heç kəsə davasının haqlılığını isbat etmə fürsəti verməz. Türklər istəmədən qarşılaşdıqları və ya qarşılaşacaqları hadisələrə dünyanın bütün gücləri bir araya gəlsə belə, lazım olan dərsləri verə biləcək gücdə və birlik içərisindədirlər.

Biz dünya ictimaiyyətini əmələ gətirən informasiya vasitələrini, gənc nəsilləri, bu mövzularla əlaqəli təşkilatları və ya şəxsiyyətləri tamamilə uydurma, həqiqətlərdən uzaq və müəyyən məqsədlər üçün hazırlanmış əsərlərlə baş-başa buraxmamalıyıq. Həqiqətləri onlara anlatmağa məcburuq. Qoy onlar müzakirə və mübahisə etsinlər, həqiqətləri araşdırsınlar, sonra vicdanla qərar versinlər.

Bu gün bir çox ölkələrdə yaşayan erməni azlıqlarının da həqiqi rəsmi sənədlərə ehtiyacları vardır. Bəlkə də onlar həqiqətləri öyrənmək istəməyəcəklər. Lakin bir gün onlar həqiqətlərlə baş-başa qalacaqlar. Bu zaman kəsimini uzatmanın heç bir faydası yoxdur. Biz onları da xəbərdar etməliyik.

Rəsmi sənədlərə əsaslanaraq bu əsəri ortaya çıxarmaqda məqsədimiz tarix boyu baş vermiş hadisələri canlandırıb, "qana-qan" deyib intiqam istəmək deyildir. Son 18 ildə şiddətlərini və istəklərini artıran ermənilər qarşısında Azərbaycanda rahat və huzur içərisində yaşayan erməniləri təşvişə salmaq heç

deyildir. Mədəniyyət sahibi olan ermənilərin incimələrinə səbəb olmağa niyyətimiz yoxdur. Biz sadəcə ciddi araşdırmalar nəticəsində əldə etdiyimiz tarixi sənədlərə əsaslanaraq həqiqətləri ortaya qoymaq istədik. Çünki bütün dünyaya yayılmış ermənilər xüsusilə çox inkişaf etmiş və həlledici siyasi gücə sahib olan ölkələrdə "lobbi" yaradıb çox sayda uydurulmuş nəşriyyatlar ortaya qoymuş, türk millətinə qarşı əsasən sevgi hissi duymayan və türkləri yaxından, yaxşı tanımayan millətlərdə nifrət oyandırmağa çalışmışlar və bu çirkin işlərinə davam edirlər. Beləcə, erməni əsilli yazıçılar, parlamentarlar, mediya işçiləri məsələnin əslini gözlərdən uzaq tutmağa, erməniləri haqlı göstərməyə çalışırlar. Onlar sözdə elmi əsərlərdən, teleproqramlardan istifadə edərək türklüyü, xüsusilə də Türkiyəni və Azərbaycanı hədəf alan, bu ölkələrin torpaqları üzərindəki "haqlarını" ortaya qoyan uydurma mövzularla təbliğ edir, ayrı-ayrı cəmiyyətləri öz təsirləri altına almağa və dünyada bir erməni davasının varlığına inandırmağa səy göstərirlər. Bu mövzuda bir şey əldə edə bilmədikləri zaman da qəddarcə terror hərəkətlərinə başlayırlar. Bunlar insan sevgisi və həqiqi mənada Vətən anlayışından uzaq olan adamlardır. 1973-1985-ci illərdə 200-dən artıq terror aktı törədən bu insanlar çox sayda türk diplomatının canına qıymış, minlərcə türk uşaqlarının, qadınlarının, qızlarının yox edilməsinə səbəbiyyət vermiş, yaxın tarixin ən qəddar qətliamlarını, cinayətlərini törətmişlər.

Xüsusilə Türkiyəni və Azərbaycanı hədəf alan ermənilər bu dövlətlərin nizam-intizamını və rejimini təhlükəyə soxmaq, xaricdə olduğu kimi daxildə də türklük xainləri ilə birlikdə ortaq bir davanın başladılmasını qarşılarına məqsəd qoymuşlar. Onlar Türkiyənin və Azərbaycanın zəifləməsini, bu ölkələrin xarici ölkələrlə düşmən halına gəlmələrini, uydurulmuş "soyqırım" və "Qarabağ" mövzularını ortaya ataraq tərəfsiz və düşmən ölkələrin Türkiyəyə və Azərbaycana qarşı çıxmalarını istəyirlər. Ermənilər erməni terror aktları açıqlandığı zaman bu aktları bir növ "Milli qurtuluş mübarizəsi" kimi qələmə alır, dünya xalqlarını yardıma çağırırlar. Əslində onlar bu qeyri-adi hərə-

katlarilə Türkiyə, Gürcüstan, Azərbaycan, İran, İraq və Suriya torpaqlarında çaxnaşmalar törədərək faydalanmaq, "Böyük Ermənistan" qurmaq istəyirlər. Biz bu süni olaraq yaradılmış vəziyyət qarşısında başda Türkiyə Cumhuriyyəti olmaqla digər ölkələrin də araşdırmaçı elm adamları tərəfindən bu mövzunun ciddiyyətlə tədqiq edilməli, dünya ictimaiyyətini aydınlatmaq üçün illərcə qapalı bir görüntü içərisində gizlədilməyə çalışılan erməni məsələsinin iç üzünü bütün açıqlığı ilə Birləşmiş Millətlər Təşkilatına təqdim edilməli olduğu düşüncəsindəyik.

Rəsmi sənədlər və yazışmalardan, hətta bəzi erməni müəlliflərin mənbələrindən əldə etdiyimiz mə'umatlar əsasında yazdığımız bu kitab erməni məsələsini əsas xətlərilə oxuculara açıqlayır və tarixi həqiqətlərin ortaya çıxmasına vəsilə olur.

Bu da bir həqiqətdir ki, bəzi dövlətlərin erməni məsələsini bir vasitə olaraq öz maraqları naminə istifadə etdikləri olmuşdur və olmaqda davam edir. Uydurulmuş bu mövzu bir çox dövlətin mənfəətləri, məqsədləri və hədəflərilə əlaqəli hala gətirilməkdə və "sülhsevər" çalışma mövzusu edi'məkdədir. Bu mövzu heç də yeni deyildir. Erməni məsələsi tarix boyu süni olaraq yaradılmış, bir çox dövlətin Osmanlı ölkəsinin üzərindəki mənimsəmə fikirləri nəticəsində ortaya çıxarılmış, şəkillədirilmiş mübarizələrə və müharibələrə səbəb olmuşdur. Zamanın şərtləri altında aparılan siyasətlərdə görünən dəyişmələr dövlətlərin davranışlarına təsir etmiş olsa da, onların məqsədlərini aradan qaldırmamışdır.

Erməni məsələsi üzrə fikir ayrılıqları və bu məsələyə fərqli yaxınlaşmaları erməni terrorunu dumanlar arxasında buraxaraq, onun həqiqi məqsədini və təhdidini dünya ictimaiyyətinin gözlərindən və bilgisindən uzaq tutub gizləməkdə, insanlıq dünyasının göstərəcəyi əks təsirin qarşısını almaqdadır.

Erməni məsələsinin və ya erməni davasının doğru və olduğu kimi tanıdılmamış olmasını erməni terroruna bağlamaq, yaradılan duman pərdəsini bu təşkilatın bir əsəri saymaq doğru deyildir. Əksinə, bu təşkilatlar bu mövzunu canlı tutmaqla meydana gətirdikləri qarışıqlıq şəraitindən faydalanıb mənfəət əldə

etməkdə və ancaq qeyri-müəyyən mübahisələrlə, çalışmalarla hazırlanmış bir zəmin üzərində yaşama şanslarını davam etdirirlər. Xüsusilə 1973-1985-ci illər arasında erməni terroru ən böyük mənfəət və dəstəyi əvvəl erməni məsələsini, sonra da terror hadisələrini bir milli qurtuluş davası kimi, iştirakçılarını isə milli qəhrəmanlar olaraq qəbul və elan edən yazıçılardan, elm adamlarından, istintaq orqanlarından, bəzi siyasətçilərdən, türklərə və Türk dünyasına qarşı hələ xaçlı zehniyyət və düşüncəsini buraxa bilməyən kilsə və kilsə birliklərindən görmüşlər.

Son illərdə bəzi erməni tərəfdarı yazıçıların, bəzi dövlətlərin öz davranışlarını qeyri-adi yollarla bildirmələri və erməni mövzusunu, erməni məsələsini beynəlxalq bir güc və rəqabət mübarizəsi olaraq ələ almaları diqqət çəkicidir. Əslində erməni mövzusu tarix boyunca heç bir dövlətin həqiqi məqsədi olmamışdır. Fəqət erməni məsələsi hər zaman rəqabət və güc mübarizəsində bir vasitə rolu oynamışdır və hər zaman dövlətlərarası əlaqələrdə və mübarizələrdə zərər çəkən tərəf yenə də ermənilər olmuşlar.

Biz bu kitabımızda erməni məsələsinin həqiqi tərəfini bilən bir çox xarici yazıçıların ermənilərə qarşı duyduqları kin və nifrətin bir ifadəsi olan alçaldıcı sözlərə mümkün qədər yer verməməyə çalışdıq. Həqiqəti öyrənən xarici yazıçıların da ermənilər barəsində... Nə isə...

Biz bu araşdırmalarımızı əsasən Osmanlı dövlətinin və Türkiyə Cumhuriyyəti arxivinin sənədləri üzərində apardıq və bu rəsmi sənədlərə əsaslanmağa çalışdıq. Hadisələrin xronoloji axışını təsbit etmədə dövrün ümumi mahiyyətdə yazılmış əsərlərindən də faydalandıq.

"Erməni məsələsi" mövzusunda qərb dillərində bir çox əsər yayınlanmışdır. Fəqət bunların əksəriyyəti erməni əsilli müəlliflər tərəfindən uydurma fikirləri təbliğat məqsədilə qələmə alınmışdır. Bununla bərabər tərəfsiz görünməyə çalışan erməni və digər xarici müəlliflər də mövcuddur. Biz belə müəlliflərin də əsərlərindən faydalandıq. Xüsusilə nüfuz statistikalarında

Osmanlı mənbələrini geniş ölçüdə istifadə etmiş olan Vital Cuinet "La Turquie D'asie" və şəxsən Şərqi Anadolunu gəzib dolaşaraq incələmələr aparan H.F.Livhinexin "Armenia, Travels and Studies" kimi araşdırmalar mövzumuz üçün olduqca əhəmiyyətli və faydalı olmuşdur.

Əsasən arxiv sənədlərinə əsaslanan bu tədqiqatımızın, tariximizin bir çox zamanında olduğu kimi, günümüzdə də yenidən xortladılmaq istənən, daha doğrusu xortladılan erməni məsələsinə işıq tutacağı ümidindəyik.

Bu gün ermənilər tərəfindən təcavüzə məruz qalıb yaşamını itirən, ömür boyu şikəst qalan Anadolu türkləri, azərbaycanlılar unudulmuşlar, ermənilər isə müdafiə edilir, günahsız sayılırlar. Onlar dünya ictimaiyyətinin diqqətini uydurulmuş erməni "probleminə" çəkərək, keçmişdə türklərin əzlərilə qeyri-insani davrandıqlarını ortaya atıb işğal etdikləri bölgələrdə çoxluq əldə etmək üçün insanlarımızı qətl etdilər. Onların bütün dünyanın gözü qabağında Xocalıda törətdikləri soyqırımın sadəcə Azərbaycan türklərinə qarşı deyil, bütün insanlığa qarşı işlənmiş bir cinayət olduğu ortadadır: uşaq, qadın, qoca, cavan demədən, meşədə vəhşi heyvanların belə törətmədikləri işgəncələrlə insanları öldürmüş, cəsədləri yandırmış, bütün qəsəbəni yer üzündən silmişlər. Bu erməni şovinistlərin törətdiklərinin isbatı üçün rəsmi sənədlərə ehtiyac yoxdur. Çünki bu soyqırım günümüzdə bütün dünya ictimaiyyətinin gözü qabağında törədilmişdir. Şuşada, Xankəndində, Laçında, Ağdamda, Füzulidə, Kəlbəcərdə, Qubadlıda, Zəngilanda, Cəbrayılda... tarixi abidələrimizi, qəbristanlıqlarımızı yerlə-yeksan etdiklərini, bir milyondan artıq insanımızın 18 ilə yaxındır ki, çadırlarda və vaqonlarda yaşadıqlarını unutdurmaqmı istəyirlər?.. Erməni milliyyətçiliyini dünyaya əks etdirib "Böyük Ermənistan" ideyasını həyata keçirməkmi istəyirlər?.. Onsuzda Azərbaycan torpağının yüzdə 79-u işğal altındadır, 41 milyon insanımızın 7,8 milyonu azad, qalanı təzyiq altında yaşamaqdadırlar!..

Biz günahı başqalarında deyil, özümüzdə axtarmalıyıq! Elmin, xəbərləşmənin bu qədər inkişaf etmiş olduğu günümüzdə

belə, səsimizi dünyaya çatdıra bilmirik, həqiqətləri dünya ictimaiyyətinə anlada bilmirik!... Ermənilər isə nəinki İrəvana, Göyçə mahalına, Şuşaya sahib çıxırlar, tarixi insanlarımızı belə özlərininki sayırlar və bu yalanları dünyaya yaya bilirlər...

Baxın, XX əsrin başlarında bugünkü Ermənistanın yaradıldığı İrəvan xanlığında yaşayanların yüzdə 12-si erməni olmuşdur. Birinci Dünya müharibəsi zamanı ermənilər ikiüzlülük, xəyanət, satqınlıq, qocalara, qadınlara, qızlara, uşaqlara, dini ibadətgahlara və təbiətə qarşı törətdikləri vəhşiliklər və türk ordusuna qarşı etdikləri silahlı xəyanətlər nəticəsində "köçə zorlandılar." Mülteci vəziyyətini haqq edən bu ermənilərin əksəriyyəti Qarsda, Sürməlidə, Ərdəhanda, Naxçıvanda, Tiflisdə, Batumda, Axıskada, Axalkəlakidə, İrəvan xanlığında... yaşayan ermənilərin yanına yerləşdilər.

Yaranmış vəziyyəti, yəni Gürcüstanın bir çox bölgəsinin ermənilər tərəfindən istilasını görən, o zamanlar bolşevik inqilabının başında duranlardan biri olan İ.Stalin Gürcüstanı ermənilərdən təmizləmək qərarına gəlir. Beləcə, Sovet Rusiyası Gürcüstana, Naxçıvana, Qarsa, Sürməliyə, Ərdəhana... doluşan erməni azlıqlarını İrəvan xanlığına – azərbaycanlıların ata-baba yurdu olan torpaqlara sıxışdırıb, sahəsi bir az daha genişləndirilmiş bir Ermənistan Respublikasının yaradılmasına qərar verir. (Daşnaklar 28 may 1918-ci ildə İrəvan xanlığında 9 000 kv. km ərazidə qondarma bir "Ermənistan Respublikası"nı elan etmişdilər). Fəqət, beynəlxalq qanunları heçə sayan bolşeviklərin 29 noyabr 1920-ci ildə rəsmən elan etdikləri Ermənistan Respublikasının (ermənilərin 2500 illik tarixində hər zaman qurmaq istədikləri Ermənistan ilk dəfə bu tarixdə rəsmən müstəqillik əldə etmişdir) sahəsi ermənilərə azlıq etmiş və A.Mikoyan ilə İ.Stalinin qurduqları planla Azərbaycanı tamamilə Orta Asiyaya köçürmək və Azərbaycanın sahəsini Gürcüstan ilə Ermənistan arasında bölüşdürmək istəmişlər. (Bu fikir Mikoyanın təşəbbüsü ilə 1942-ci ilə qədər davam etdirilmişdir. Lakin Mir Cəfər Bağırovun ciddi tədbirləri nəticəsində Stalin bu fikirdən vaz keçmişdir). Bu ərəfədə toplanan Qafqaz Respublikalarının yı-

gıncağında İ.Stalin və A.Mikoyanın qurduqları plandan xəbərdar olan N.Nərimanov öz çıxışında o gündən etibarən Zəngəzur ərazisinin Ermənistana aid olduğunu elan edib İ.Stalini və A.Mikoyanı qurduqları plandan uzaqlaşdırmışdır. Beləcə, Mikoyanın planı baş tutmadıqda torpaqlarımız hissə-hissə kəsilib ermənilərə verilməyə başlanmışdır. Ermənistanın ərazisi əvvəl 26 000 kv. km., sonra 29 000 kv. km., bu gün isə işğal altında olan Qarabağı və digər bölgələri nəzərə alsaq, bu rəqəm 46 200 kv. km. çatdırılmışdır. Halbuki "Ermənistan Respublikası"nın qurulması belə qanunlara uygun olmamışdır. Çünki o zamanlar Türkiyədən, Gürcüstandan, İrandan, İraqdan və Suriyadan köçürülüb İrəvan xanlığına yerləşdirilən ermənilərin sayı yenə də azlıqda qalmış, yəni yüzdə 50-ni aşmamış, orada yaşayanların yüzdə 42 faizini təşkil etmişdir. Bu isə beynəlxalq qanunlara görə, müstəqil bir dövlətin qurulmasına yol vermir. Bəs onda Lozann müqaviləsində heç bir yeri olmayan bu dövlət necə qurulmuşdur?..

Lozann kulislərində Avropa dövlətlərinin təmsilçilərinə Şərqi Anadoluda müstəqil bir Ermənistan dövlətinin qurulması fikrini qəbul etdirməyə çalışan, bir zaman Türkiyənin Xarici İşlər Naziri olan və ikiüzlülüyü nəticəsində bu məsul vəzifədən qovulan Norandukyan bir ara utanmadan Türkiyənin Lozann konfransına göndərdiyi heyətin rəhbəri İsmət paşa ilə də görüşmüşdür. İsmət paşa öz xatirələrində bu anı belə anlatmışdır: "...Paşalyan əfəndinin sözlərini Norandukyan əfəndi kəsdi: "Biz bir erməni yurdu istəyirik,"- dedi. "Necə bir erməni yurdu?" - deyə soruduğumda, o, "Türkiyənin bir yerini ayıracaqsınız" tərzində izah etdikdə mən sordum: "Türkiyənin harasında istəyirsiniz? Şərqindəmi, cənubundamı, yoxsa qərbindəmi?" Norandukyan: "Harada olursa olsun, erməni yurdu olaraq bizə bir yer verin, biz də orada toplanaq, orada yaşayaq,"- dedi." ("İnönünün xatirələri", "Ulus" qəzeti, 15 sentyabr 1968, s. 4). İsmət paşa ilə Norandukyan arasında keçən bu söhbət Ermənistanın İrəvan xanlığında qurulmasının heç bir qanuni əsasının olmadığını, İ.Stalin və A.Mikoyanın istəyi ilə qurulduğunu

sübut edir. Doğrudur, bu gün orada yaşayanların yüzdə 98-i ermeni, qalanı isə rus əsgəri və digər millətlərdəndir. Heç şübhəsiz, bu rəqəm ermənilərin necə bir millət olduqlarını ortaya qoyur! Bütün bunlar azmış kimi, ermənilər Qara dənizə, Xəzər dənizinə və Ağ dənizə çıxışı olan "Böyük Ermənistan" iddiasındadırlar?!

Biz bu tədqiqatımızda, ümumiyyətlə, ermənilərin yaranma tarixinin başlarına qədər getdik, onların dünyaya baxışlarını incələməyə və məsələni geniş bir perspektiv içərisində dəyərləndirməyə çalışdıq. Bu dəyərləndirmədə, şübhəsiz ki, milliyyətçilik hisslərimizi bir kənara qoyduq. Vətən və millətimizin varlığını yaxından təhdid edən, münafiqlik üsulu ilə bəzi super güclərdən istifadə edib İrəvanı, Zəngəzuru, Göyçə mahalını... ələ keçirən, bunlar azmış kimi indi də Qarabağ bölgəsini, yer üzünün ən gözəl nöqtələrindən biri olan Şuşanı işğal edən ermeniləri, onların terrorçu komitələrini, dəstələrini, acımasızca törətdikləri qətliamları və erməni məsələsi mövzusunu uydurmalarla deyil, ancaq və ancaq bütün açıqlığı və həqiqətlərilə tarixi hadisələrə və rəsmi sənədlərə əsaslanaraq ortaya qoymağa səy göstərdik. Beləcə, erməni məsələsinin yalnız Anadolu türklərini və azərbaycanlıları təşvişə salan bir azlıq məsələsi olmadığını, Orta Şərqdə olan bəzi dövlətləri də maraqlandıran bir məsələ olduğunu gördük.

Keçmişdə olduğu kimi, günümüzdə də dünyanın bir çox ölkələrinə dağılmış bir neçə milyon erməni kütləsinin hərəkətə keçib böyük lobbilər qurması, bu lobbilərin də "Böyük Ermənistan" iddiasını ortaya atmaları və bu iddianı "soyqırımla" dəstəkləmələri onların sərbəst iradələrinə bağlana bilməz. Bu iddiaların arxasında fövqəlgüclərin də olduqları və bunu Türkiyə, Azərbaycan, İran, İraq və Suriya üzərindəki əməllərini həyata keçirmək üçün istifadə etdikləri qətidir. Dünən ermənilər Türkiyəyə, Azərbaycana qarşı o zamanın fövqəlgüclərı tərəfindən necə istifadə olunmuşlarsa, bu gün də eyni düşüncələrlə istifadə olunurlar. Beləcə, fövqəlgüclərin təzyiqi ilə 17 ölkə tarixi sənədləri incələmədən "soyqırım" məsələsini qəbul etmiş-

lar? Heç şübhəsiz, yaxın zamanda tarix bu qəbulların doğru olub-olmadıqlarını, ümumiyyətlə, soyqırımın olub-olmadığını ortaya qoyacaqdır. Bizim incələmələrimizə görə, yalnız 1915-ci ildə deyil, I Dünya müharibəsinin başından sonunadək ölən ermənilərin sayı 1,5 milyon deyil, 600 mini belə aşmır. Belə olduqda bir sual ortaya çıxır: "Əgər müharibə şəraitində 600 min erməninin ölməsi "soyqırım" sayılırsa, onda bəs necə olur ki, öz torpaqlarında, öz evlərində şəhid edilmiş iki milyondan artıq türkün öldürülməsi soyqırım sayılmır?"

Biz belə hesab edirik ki, bizim bu incələmələrimiz ermənilərin əminamanlığı üçün də bir ibrət sənədi olacaqdır. Bir insan olaraq onların da yaxşılığını istəmək insanlıq borcumuzdur. Dünən onlar bu və ya digər müstəmləkəçi dövlətlərin oyunlarına alət olaraq istifadə olundular. Olan isə ermənilərə oldu. Onlar yaşadıqları yerləri və yüzminlərcə insanlarını itirdilər, adları ləkələndi... Heç olmasa, bu gün tarixdən dərs alaraq özlərini atəşə atıb məhv etməsinlər, eyni təhrik və oyunlara, saxta vədlərə alət olmasınlar, yaxşıca düşünüb tarixi olduğu kimi araşdırsınlar, vaxtilə peşman olduqlarını, aldadıldıqlarını xatırlasınlar...

Yalan-yanlış təbliğatlar nəticəsində Türkiyənin şərqindəki torpaqların böyük bir hissəsini ermənilərə vermək istəyən ABŞ-ın keçmiş Prezidenti Vilsonun vəziyyəti incələmək üçün Anadoluya göndərdiyi heyətin rəhbəri General Harborda General Kazım Qarabəkirin söylədiyi: "...**Çox təəssüflər olsun ki, siz türk millətini tanımırsınız, haqsız və utanmadan həyata keçirilən təbliğatların təsiri altındasınız. Əvvəla siz bizimlə anlaşın, müstəqilliyimizi və şərəfimizi hüzursuz etməyin və bundan sonrasını türkün haqq duygusuna və sözünə əmanət edin. Cahanda türkün sözü qədər inanılan bir sığorta yoxdur. Bax, tarix (yəni rəsmi sənədlər)... Alın və oxuyun...**" sözləri türk millətinin xasiyyəti və azlıqlara qarşı münasibəti mövzusunda nə qədər haqlı və yerində bir qarşılıqdır...

Bu da bir həqiqətdir ki, rəsmi sənədlər incələndikdən sonra ermənilərin uydurmaları və onların Anadoluda törətdikləri

qeyri-insani hadisələr ortaya çıxmış, Prezident Vilson da öz istəyindən vaz keçmişdir...

Alman alimi Niestzax belə deyir: "**...Yanlış və doğru hərəkətlər hafizədə qaldığı və bir iz buraxdığı zaman yanlışlığı davam etdirmək bir alın yazısı olmaqdan çıxar... Buna görədir ki, böyük millətlər tarixi hadisələri unutmayanlardır...**"

Arxiv sənədlərinin tədqiqatı nəticəsində ortaya çıxan bu əsər erməni tarixinin bilinməyən səhifələrini geniş oxucu kütləsinə təqdim edir. Heç şübhəsiz, bu kitab torpaqlarımıza qarşı irəli sürülən iddialara tutarlı bir cavab olacaqdır! Biz bundan əminik.

Tarixi rəsmi sənədlərə əsaslanaraq və ürək ağrısı ilə görülən bu iş millətimizin dostunun və düşməninin tanınmasına, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsinə xidmət edən bir töhfədir...

***Hörmətlə,***
***Prof. F. QARAOĞLU***
***Bakı, 2006***

## ERMƏNİLƏRİN TARİXİNƏ QISA BİR BAXIŞ

Ermənilərə görə, Ermənistan böyük və kiçik Ermənistan deyə ikiyə ayrılır. Böyük Ermənistan şimaldan Qara dəniz və Gürcüstan, qərbdən Qızılırmaq, şərqdən İran və Xəzər dənizi, cənubdan İran və İraq ilə çevrəli yerlərdir. Kiçik Ermənistan isə Fərat çayının qərbində qalan yerlərdir. Bundan əlavə, ermənilər Tarsus və Toros dağlarının cənubunda və Ağ dənizin şimalında qalan Kilikiya dedikləri yerləri də ermənilərin vətəni sayırlar.

Ermənilərə görə, Nuhun gəmisi tufanda Ağrı (ermənilər Ağrı dağını Ararat deyə adlandırırlar) dağı üzərində durmuş, sular çəkildikdən sonra Nuhun oğulları və nəvələri bu bölgədə yerləşmiş və ətrafa yayılmışlar. Erməni tarixşünaslarının fikrincə ermənilərin kökü Nuhun oğlu Yafəsdən olan nəvəsi Qaykdan gəlir. Onlar erməniləri ilk əcdadlarının adı ilə qayklar adlandırırlar. Nuhun nəvəsinin nəvəsi olaraq qəbul etdikləri Qayk Mesopotamiyaya getmiş, Babil qülləsinin inşasında iştirak etmiş, daha sonra "Böyük Ermənistan" dedikləri Şərqi Anadolunun dağlıq bölgəsində yerləşmiş və burada ermənilər ondan törəyərək çoxalmışlar. Qaykın nəvələrindən olan Aramın da 300 uşağı olmuşdur. Aram Asur hökmdarı Bel ilə vuruşmuş, ona qalib gəlmiş və bir dövlət qurmuşdur. Beləcə, Aramın adından alınma olaraq erməni milləti və dövləti meydana gəlmişdir.

Erməni tarixşünasların bir çoxu ermənilərin kökünü mənbə olaraq özlərinə daha yaxın olan qövmlərin – asur, yunan və yəhudilərin əsərlərinə bağlayırlar. Onların "Böyük Ermənistan" dedikləri Şərqi Anadolu ilə Kilikiya deyə adlandırdıqları Adana və Tarsus bölgələrinin Asur hökmdarlarından Salmanazar ilə Sardanepal zamanında Asur dövlətlərinə bağlı olduqları görülür.

Evald Banse belə deyir: "Ermənistan tarixi Asiya dövlətlərinin bu məmləkətin keçid qapılarını ələ keçirmək qayəsilə apardıqları mübarizələrdə asurilərin keçmiş hökmdarlarının, Roma, ...

201_ _ _ _ yilidagi
11834 O'zbekiston MK

nın partlara, Bizansın yeni İrana və nəhayət, türklərin iranlılara və ruslara qarşı apardıqları müharibələrdən ibarətdir." (1)

Bəzi erməni tarixşünasları da Xorenli Movses ilə eyni düşüncədə olanlara qarşı çıxırlar. Dr.Daqavaryan bunlardan biridir. (2). O, bu xüsusda belə deyir: "Milli tarixşünaslarımız Aqatanqelosdan başlayaraq müqəddəs kitabdakı Torqama ailəsini və Asqanaz kəlməsini irqimizə yaraşdırırlar. Halbuki Toqarma Ermənistanın cənubi-şərqində ayrı bir ölkədir. Mismarla yazılı kitabələrdə Tilqarima qalası Asuristandan şimalda göstərilmişdir...

...Asqanaz İskuza dediyimiz bir İskit hökuməti idi. Atalarımız müqəddəs kitabda özlərinə bir kök tapmaq üçün qonşuları Asqanaz və Torqamaları irəli sürmüşlər və ermənilərin də bu iki qonşu millətdən başqa kökləri olmaz deyərək, Qaykı Torqomun oğlu saymışlar."

Bu açıqlamalara görə, Xorenli Movses və digər erməni tarixşünasların irəli sürdükləri köklərinin Yafes ilə bağlantılı Qayk əfsanəsinin və xəyali krallıq silsiləsinin heç bir elmi əsası yoxdur.

Bundan əlavə, erməni tarixində ən parlaq dövr olaraq arşaqunilərdən (partlardan) bəhs edilməsidir. (3).

Erməni tarixində Arsak olaraq adı keçən (Arsace) Dahnascyth qəbiləsindəndir. Partlar haqqında Girarde Rial bu məlumatı verir: "Hyrcania Xəzər dənizinin şərqindəki düzənliyin böyük bir hissəsi idi, hətta Oxusun (Ceyhunun) digər tərəfinə qədər davam edərdi. Bəziləri buranı İberiya və Albaniya ilə sərhədli göstərmişlər. Qitənin mərkəzinin Asterabad olduğu şübhəsizdir. Bunların yarı partlar aryaeraniyen bir mədəniyyətə sahib olmaqla bərabər, türklərlə eyni irqdən olduqları isbatlanmışdır. Achemenidələr səltənətindən, yəni miladdan əvvəl altıncı yüzildən etibarən Ari ölkəsində tatar (türk) millətindən qəbilələrin olduğunu Orta Asiyadakı insan irqlərinə aid bir əsərdə görmək mümkündür.

Hyrcanielilərlə partlar bir rəhbərlik altında idilər. Dara kitabələrinə görə, orada bəzi tatar qəbilələri də vardı. Bunlar im-

peratorluğun şimal sərhədlərini qarət etməklə məşğul olar və səltənət iddiasıyla üsyanlara yardım edərdilər. Part İmperatorluğunu quran Arsace Daiyen qəbiləsinin rəhbəridir." (4).

Başqa bir əsərdə də: "Partların Şimali İranda bir Scytion (yəni Türk) qəbiləsi olduğu..." bildirilir. (5). Renee Grousset də partlarla sakaların eyni qövmə mənsub olduqlarını deyir. (6). Sakalar, partlar, partların ən soylu xanədanı olan Dailər əsl türkdürlər. (7). Bu gün də Türkiyənin Qaziantep bölgəsində Dai soyadını daşıyan ailələr mövcuddur.

Saint Martin keçmiş yunan tarixşünaslarından gələn "parthe" kəlməsinin iskitcə olduğunu və (xaricə atılmış) mənasına gəldiyini yazır. (8).

"Divani-lüğət-it türk"də də part kəlməsi (qarnı çölə çıxmış) mənasındadır. (9).

Partların başındakı xanədanın adı yunan əsərlərində Dahi, Daee və Dai, çinlilərdə Thai, yaponlarda Dai, ərəblərdə Dai olaraq keçir. (10).

Belə ki, Xorenli Movses Bəlh şəhərinin part xanlarının ana yurdu olduğunu bildirir. (11).

Armeniya adı tarixdə ilk dəfə m.ə.518-ci il tarixindən qalma "Bahistun" yazılarında keçir. Fars kralı I Dariusun yazılarında Erqani-Elazığ bölgəsində baş qaldıran bir qövm deyə "Arminə və Arminia"dan bəhs edilir. (12). M.ə.188-ci il tarixində qurulan Artaksias krallığı zamanında Aramice "Yüksək / Yuxarı ölkə" demək olan Armeniya adı Muş və Əhlat bölgələri üçün istifadə edilən coğrafi bir termindir. Sonraları bu ad romalılar tərəfindən orta və yuxarı Murad suyu ilə Kür və Araz çayları üçün də istifadə edilmiş, bilavasitə avropalılar tərəfindən də qəbul olunmuşdur.

Özlərinə "Qaik" deyən və "Qayk" adlı bir atadan törədikləri əfsanəsini yaşadan və türklərlə bütün xaricilərin "erməni" dedikləri qövmlə Armeniya ölkəsi adının bir əlaqəsi yoxdur. (13).

Səlçuqlu türklərin ilk Anadolu fəthi və Səlçuqlu-Bizans münasibətləri haqqında "Byzance et les Turcs Seljoucides dans l'Asie Occidentale jusquen 1081, Nancy 1913" adlı mühüm bir

əsər yazmış Nancy Universitetinin tarix professorlarından Jean Laurent ermənilərin 1920-ci ildə Parisdə nəşr etməyə başladıqları və nəşr edənlərin fransız xalqının dəstəyini istədikləri "Ermani etüdləri" jurnalında Ermənistan ilə əlaqəli olaraq belə deyir: "...Həqiqətən, yazılı tarixin başlanğıcından bəri Armeniya adı verilən bir bölgə vardır... Lakin əsrlərdən bəri bu şəkildə adlanan bir ölkə deyil, bir coğrafiya terminidir. Şübhəsiz, ermənilərin bu bölgədə yaşadıqları olmuşdur, fəqət bu bölgəyə sırf Armeniya adını daşıdığı üçün nə ermənilərin müqəddəratı, nə də Ermənistan dövləti adını daşıyan bir dövlətin varlığı qətiyyətlə bağlana bilməz." (14).

Ermənilər nə Armeniya coğrafi adını, nə də xaricilərin onlara verdikləri armen / erməni adını mənimsəyib istifadə etməmişlər və məmləkətlərinə "Hayastan" adını vermişlər (15). İrəvan Universitetinin professorlarından A.Xaçaturyan 1933-cü ildə İrəvanda nəşr etdirdiyi "Ermənistanın mismar yazısı dövrünün mühakiməli tarixi" adlı erməncə əsərinin sonundakı xəritədə Hayastanı 41-45 dərəcələri arasında, yəni Ərzurumun qərbindən İrəvanın şərqinə qədər uzanan yerlərdə göstərmiş və Hitit kitabələrində yuxarı Ermənistan üçün "Hayasa" adından istifadə etmişdir (16). Qarabağ-Zəngəzur ermənilərindən olan Prof.N.Adontz ermənilər haqqında ilk dəfə bir tarix yazan və tarixi son zamanlara qədər bütün erməni tarixi üçün əsas tutulan Xorenli Movsesdən bəri (VII əsr) erməncə mətnlərdə keçən Hayastan (Hayistan = erməni ölkəsi) adı ilə Hitit mətnlərində keçən bu hayasanı birləşdirməkdə və hayasalıları ermənilərin ataları olaraq göstərməkdədir. (17).

Asiya tarixi üzrə incələmə və tədqiqatları ilə tanınan məşhur fransız şərqşünası Renee Grausset yazdığı "Səlçuq hakimiyyətinə qədər Armeniya" / Şərqi Anadolu üçün ən qiymətli və – bəzi mənşə məsələləri xaricində – ən çox rəsmi vəsiqəyə, sənədə əsaslanan elmi əsərində N. Adontzun fikirlərini dəstəkləyir. (18).

İngilis alimi C.A.Burney də ermənilərin özlərinə "hay" deməkərinə əsaslanaraq, onların hayasalılardan olduqları fikrini

müdafiə edir. (19). Ermənilərin bu qövmün idarəsində "hay" adını almış olmaları fikri daha güclü görünür.

Erməni tarixi ilə məşğul olan nə qərb, nə də erməni elm adamı və tarixşünasları arasında bu ilk dövrə aid qəti bir fikir birliyi yoxdur. Ermənilər barəsində bu günə qədər aparılan tədqiqatlar tam və güvənilən bir incələməyə dayanmır və bütün bunların arasında müəyyən bir bənzərlik vardır.

M.ə.325-ci ilə qədər ermənilər İranın kiyaniyan (Akameniş – Achemenide və ya Ahemeniş) sülaləsi krallarının idarəsi altında olmuş və onlara bağlılıqlarını sürdürmüşlər. Xristianlıqdan əvvəl atəşə sitayiş etmə iranlılar ilə ermənilərin arasında ortaq bir din idi. Beləcə, Ermənistan Makedoniyalı İskəndərin m.ə.325-ci ildə III Dariusu Arbelada (Ərbildə) məğlub etməsinə qədər İranın hakimiyyəti altında olmuşdur.

Makedoniyalı İskəndər İran imperatorunu məğlub etdikdən sonra o torpaqların tək hakimi oldu. Beləcə, Ermənistan da İskəndərin əlinə keçdi. İskəndər əsli iranlı olub Sardes qalasını ona təslim edən Mithirinesi Ermənistanın valisi vəzifəsinə təyin etdi. Makedoniyalı İskəndər gənc yaşında ikən Babildə xəstələnərək vəfat etmişdir. Bu, m.ə.323-cü ildə baş vermişdir. Mithirines müstəqilliyini elan etmədi, əvvəlki kimi Ermənistanı idarə etdi.

İpsos (İsos)* müharibəsindən sonra ermənilərin yaşadıqları bölgələr selefkosların əlinə keçdi və bir müddət sonra da bu bölgədə selefkoslar tərəfindən Artanas və Orontes adındakı komandanlar arasında bölüşdürüldü. Makedoniya kralı Antiokhosun m.ə.190-189 illərdə Maqnesia (Manisa) müharibəsində romalılar tərəfindən məğlub edilməsi üzərinə Antiokhos tərəfindən Şərqi Anadolu bölgəsində əvvəlcə vali olaraq təyin edilmiş General Ataxias və Tokat, Divrigi, Ərabkir, Malatya, Maraş, Saimbəyli və Kayseri bölgələrində vəzifələndirilmiş General Zadriades müstəqilliklərini elan etdilər.

Ermənilərin yaşadıqları torpaqlardakı selefkosların gücsüz hakimiyyəti 150 ilə yaxın sürdü və bölgənin partların əlinə keçməsilə sona çatdı.

Partlar m.ə.248-ci ildə Xəzər dənizinin cənub-şərqini ələ keçirərək Part dövlətini qurmuşlar. Daha sonra bu dövlət liderlərinin adıyla Arsaklılar dövləti olaraq tanınmışdır.

Part dövlətinin qurucusu Arsak Saka türklərinin Part boyundandır.

Arsaklılar (partlar) daha sonra Araz çayı bölgəsinə hakim olmuşlar və m.ə.123-95 illərində geniş bir sahəni ələ keçirmişlər.

Bu zamanlarda ermənilər digər millətlərə tabe olaraq yarı müstəqilliklərini sürdürmüşlər.

Ermənilərə görə, miladdan 150 il əvvəl İbrahim peyğəmbər soyundan gəldiyi iddia edilən və həqiqətdə partlı olan Arşak (Arsace) ermənilərin başına keçəcək Eşkanıyan (Arşaquni) sülaləsini qurmuşdur. m.ə.150-ci ildən m.433-cü ilə qədər sürən bu sülalənin idarəsi bir zaman partlara bağlı olaraq həyata keçirildi. Daha sonra bu sülalənin dördüncü kralı I Ardaşes (m.ə.115-90) Part kralı Arşaquninі tanımadı, üsyan etdi və müstəqilliyini qazandı. Arşaquni krallığının torpaqları m.ə. 64-cü ildə Roma imperatorluğu ilə aparılan müharibədən sonra Romal Lucullus və daha sonra Pompe tərəfindən ələ keçirildi. Lakin arşaqunilər bəzi torpaqlarını romalılara vermək, vergi ödəmək və Romaya bağlı qalmaq şərtilə varlıqlarını qorumağı sürdürdülər.

Arşaquni sülaləsi zamanında (M.226) ermənilərin yaşadıqları bölgələr təkrar İranlı Sasani sülaləsinin əlinə keçdi. İranlılar bu bölgələrə 26 il hakim oldular. Daha sonra ermənilər yenə yarı müstəqilliklərini qazandılar.

Hakkı Raif Ayyıldız bu mövzuda belə deyir: "Ermənilərin yaşadıqları bölgələr İran və Roma kimi özlərinə düşmən iki böyük rəqib dövlətlər arasında sıxışıb qalmışdı. Ermənilər xristian olduqlarına görə İran hökmdarları bu qonşularını daha çox Romaya yaxın və bağlı sayırdılar. Romalılar isə ermənilərin müstəqilliyini qorumaqdan çox onlara düşmən gözüylə baxır və İrana qarşı uyğun bir qala vəsfindəki bu torpaqları saxlamaq istəyirdilər. Xristian ermənilər Roma kilsəsi ilə ilk zamanlardakı

kimi sıx əlaqələrini davam etdirə bilmədilər. Çünki erməni kilsəsi milli və müstəqil bir təşkilat (Qriqoryan) olmuşdu. Romalılar bu müstəqillikdən xoşlanmır və ermənilərlə düşməncəsinə davranırdılar. M.396-cı ildə ermənilərin yaşadıqları yerlər İran və Roma nüfüz bölgələrinə ayrıldı. O yerlərin şərq qismi İranın, qərb qismi isə Romanın idarəsi altında qaldı. Romalılar özlərinə aid olan qismi erməni və bizanslı prinslərlə idarə etdilər, iranlılar isə erməni krallığına izin verdilər. Əslində bu krallar İranın əlində bir oyuncaq halında idi. Bu vəziyyət 433-cü ildə Arşaquni sülaləsinin dağılmasına qədər sürdü. Krallıqlarını itirdikdən sonra ermənilər Şərqdə İran, Qərbdə Bizans valiləri tərəfindən idarə edildilər." İranlıların bu bölgədəki Marzlan dedikləri valiləri, ümumiyyətlə, erməni əslindən olmayan kəslərdi. Bunların çox azı İran dövlətinə bağlılıqları qəti olaraq təsdiq olunan ermənilərdən seçilmişdi. İran valilərinin çox geniş səlahiyyətləri vardı. Onlar bir səfər zamanı erməni əsgərlərindən istifadə edir, ancaq çox ciddi olan hallarda İrandan əsgər çağırırdılar." (20).

Beşinci əsrin ortalarında Bizans imperatoru Qeraklius ermənilərin işlərinə qarışmış və David Saharhuni adında birini erməni prinsliyinə gətirmişdir. Ancaq üç ilə yaxın idarəni əlində tutan bu prins ermənilər tərəfindən qəbul edilməmiş və geri qaytarılmışdır.

Ermənilər Şərqi Roma idarəsində ikən romalılaşdırılmaq istənilmişlər. Onlar Qriqoryan məzhəbində dirənmələri üzündən hər cürə zulm və işgəncəyə məruz qalmışlar. Bizans imperatorları bu məzhəbi ortadan qaldırmaq və heç olmasa ortodoksluqla birləşdirmək üçün müxtəlif təzyiqlər göstərmişlər. Onların inamlarında dirəndiklərini görən İmperator II Justinyanos şərqdəkiləri Trakiyaya və zorla İstanbula köçürmüşlər. (21).

582-ci ildə İmperator Marik zamanında minlərcə erməninin ortodoksluğun olduğu yerlərə yerləşdirildiklərini, bunların da bir çoxunun işgəncələrə dözə bilməyib can verdiklərini görürük.

Konstantinin Şərq səfərində ermənilərin "İpək yolu"ndan əldə etdikləri imkanlar əllərindən alınmış və imperatorluğun müxtəlif yerlərinə sürgün edilmişlər.

Bizans İmperatoru Qerakliusun yerinə keçən oğlu Konstantinin zamanında islamiyyət inkişaf etməyə və genişləməyə başladı. Ərəb orduları Suriyaya gəldilər. Sonra onlar ermənilərin yaşadıqları bölgələri ələ keçirdilər. Onlar Şimalda Anadoluya, Şərqdə İrana və Hindistana, Qərbdə Afrikaya doğru irəlilədilər və yollarının üzərindəki romalılara bağlı olan ölkələri də ələ keçirməyə başladılar. Ermənilərin yaşadıqları bölgələr ərəblərin əlinə keçdi və ermənilər ərəblərə vergi verməyi qəbul etdilər.

Ərəblərin ermənilərə qarşı həyata keçirdiyi idarə üsulu iranlıların onlara tətbiq etdiyi idarə üsulundan fərqli olmuşdur. İranlılar erməniləri dinlərini dəyişdirməyə, xristianlıqdan ayıraraq atəşpərəst olmağa zorlamışlarsa, ərəblər onları öz din və inamlarında tamamən sərbəst buraxmışlar.

Ermənilərin yaşadıqları yerlər Şərq ilə Qərb arasında bir keçid yeri olduğuna görə buralardan bir çox qövmlər gəlib keçmişlər. Onların bəziləri buralarda yerləşmişlər. Bu gəlib keçən qövmlərin törətdikləri müharibə və təcavüzlər nəticəsində bölgə çox dəyişmişdir: bəzən genişləmiş, bəzən də dağılmışdır. Bu yüksək və geniş sahələr keçmiş çağlarda qurulan dövlətlərdə hərbin və ticarətin əhəmiyyəti böyük olduğuna görə qonşu dövlət və imperatorluqlar arasında rəqabətə səbəb olmuş və hər zaman hücumlara məruz qalmışdır. Buralarda bir-birinə düşmən dövlətlər qurulmuş, buna görə də onlar xaricdən gələn təcavüzlərə dayana bilməmiş və çox zaman krallıqlarını itirmişlər.

Geoloji incələmələr bu sahələrdə ilk mədəniyyət və dövlət quranların Orta Asiyadan gəldiklərini göstərir. Aparılan qazıntılar nəticəsində ortaya çıxan həqiqətlərə görə, bölgənin bilinən ən keçmiş xalqı Asur yazıtlarında adları keçən nairilər, sonra da urartular olmuşlar.

J.Deniker: "Ermənilər maddi bir çox ünsürlərdən əmələ gəlmiş qarışıq bir irq kütləsidir. Bunlar Hindu, Əfqan, Asuri və Türk irqlərindən əmələ gəlmişlər."- deyir. (22).

Robert de Qais də belə deyir: "Ermənilər Orta Asiyanın Pamir yaylalarından gələn Aryen boylarına, Mesopotamiyadan Şərqə çıxan sami irqinə mənsub tayfaların qarışığıdırlar." (23)

W.S.Monroe də: "Ermənilər irq baxımından iranlı, Beluç və çingənələrlə (qaraçı) əqrəbadırlar, rəngləri ağdan zeytun rənginə qədər müxtəlifdir. Saqqalları şabalıd rəngində, gözləri iri, qara və mavi, burunları yəhudilərinki kimi müəyyən bir şəkildə çıxıntılıdır. Yəhudilərlə fiziki və ruhi bir çox ortaq yönləri vardır. Onlara "xristian yəhudi" və ya "vəftiz edilmiş yəhudi" deyilməsinin səbəbi də budur,"- deyir. (24)

Dr.Henrich Pudor, Londonda nəşr edilən "Times" qəzetinin 13 iyun 1917-ci il tarixli sayında, "Ermənİ günü" münasibətilə yazdığı yazıda belə deyir: "Ermənilər xristian olmaqla bərabər Sami irqindəndirlər. Onların gözə çarpan ən böyük xüsusiyyətləri burunlarının qalın və qaba olmasıdır." (25)

İrq mütəxəssisi Vyanalı I. Suferəyə görə, ermənilər yəhudilərlə birlikdə hititlərdən gəlmədirlər. Dr.S.Valsinberq "Ermənilər və yəhudilər" başlıqlı məqaləsində ermənilərlə yəhudilər arasında nəzərə çarpan bir bənzərlik olduğunu, bu bənzərliyin yalnız fiziki olmayıb ruhi sahəyə də keçdiyini söyləmişdir.

Qafqaz və Gürcüstanda ermənilər üçün verilən hökm "ermənilər xasiyyət baxımından diqqət çəkicidirlər" hökmüdür. "Gürcüstan və ümumi hərb" kitabının yazıçısı bu kitabın xüsusi nəşrinin 61-ci səhifəsində belə deyir: "Tacir və alverçi olan ermənilər Qafqaz xalqını soymaqda, onlara vergi kəsməkdə və məmləkət üçün bir fəlakətdirlər. Ermənilərin Qafqazda sevilməmələrinin səbəbi də budur. Onların müxtəlif şəhərlərdə xüsusilə də Tiflisdə oynadıqları rollar Varşavadakı yəhudilərin rollarına bənzəyir." Eyni yazıçı ermənilərin Qafqazın mədəniyyət ünsürü olduqlarıyla bağlı bütün Avropaya yayılan düşüncələrə də qarşı çıxmışdır. (26).

M.Brossetin "Arxeoloji raportlar" və "Ani xarabalıqları" adlı əsərlərində "Anidəki Qoluzun oğullarının ana dillərinin türkcə olduğu yazılıdır. Demək, Anili Qriqoryan erməniləri sayılan bu insanlar da Orta Asiyalıdırlar,"- deyir. (27).

Tarixdə insan axınlarının davamlı keçid yerləri olan bu bölgələrdə yeni-yeni xalqların və mədəniyyətlərin əmələ gəldiyi, mövcud mədəniyyətlərin də davamlı dəyişikliklərə uğradıqları bilinən bir həqiqətdir. Şərqi Anadolunun bir qismində yerləşmiş ermənilər M.III əsrdə Saint Greqoire tərəfindən xristianlaşdırılmış və xristianlıqla birlikdə camaat olma haqqını qazanmağa başlamışlar. Ermənilərin istər yeni doğmaqda olan bir qrup olmaları, istər nüfuz baxımından eyni bölgəni paylaşan digər xalqlara nisbətlə çoxluqda olmamaları və istərsə də bir cəmiyyəti cəmiyyət edən digər xüsusiyyətlərlə birlikdə ortaq mədəniyyət dəyərlərinin bir çoxundan məhrum olmaları səbəbilə camaat olma haqqını qazandıqdan sonra belə, uzun müddət öz başlarına bir varlıq göstərə bilməmələri bir faktdır. Fəqət onlar bölgədə hakimiyyət qurmaq və ya hakimiyyətlərini sürdürmək istəyən Bizans, Pers, Əməvi, Abbasi və Səlçuqlular kimi böyük güclərin və daha sonralar xaçlılar və monqolların öz siyasətləri istiqamətində istifadə edə biləcəkləri mühüm unsürlərdən biri olma istedadını göstərmişlər. Daha sonralar davamlı istifadə edilən və istifadə edildikcə inkişaf edən bu istedad erməni cəmiyyətinin tale cizgisini, milli və siyasi mədəniyyətinin təşəkkül və yönlənməsinə təsir edən faktların ən əhəmiyyətlilərindən biri halına gəlmişdir.

Düşmən güclər erməni cəmiyyətlərini bir-birlərinə qarşı istifadə edərkən bəzən çətinliyə düşmüşlər, fəqət çox vaxt cəmiyyətin tamamına və ya yarısına müxtəlif vədlər etmə yolunu seçmişlər. Bu siyasətlər içərisində erməni xalqının tamamı deyil, sadəcə ortaya çıxan erməni bəyləri və ya kilsə liderləri öz mənfəatlərinə uyğun gələn tərəflərlə ortaq hərəkət etmə və ya tez-tez tərəf dəyişdirmə qabiliyyəti göstərmişlər. Bunun da normal qarşılanması lazımdır. Çünki hər bir cəmiyyətdə olduğu kimi, erməni cəmiyyətində də şərtlərə görə bəzi qabiliyyətlərin inkişaf etməsi və müxtəlif mənfəat və mədəniyyət çevrələrinin və ya alt qruplarının əmələ gəlməsi olduqca təbii idi. Daha açıq bir ifadə ilə desək, xarici güclərin müxtəlif siyasətləri ermənilərin ictimai quruluşunu və mədəniyyətini böyük ölçüdə təyin edirdi.

Sonrakı hadisələrdə daha açıq görüləcəyi kimi, bir tərəfdən rəqib olan xarici güclərin özlərinə xas "müştəri," yəni istifadə edə biləcəkləri şəxs və alt qruplar tapma və ya əmələ gətirmə siyasətləri, digər tərəfdən də ermənilərin istər cəmiyyət olaraq varlıqlarını sürdürə bilmələri və ya sahib olduqlarını qoruya bilmələri üçün xarici güclərə möhtac idilər. Bu da ermənilər arasında bölünməyə yol açırdı. Beləliklə, m. V əsrdən etibarən bölgə üzərində mənfəətləri və ya epidemik işğalçı əməlləri olan xarici güclərin hamısı ermənilər arasında "müştəri," istifadə edə biləcəkləri şəxs və qrupları eyni anda tapmaqda və ya əmələ gətirməkdə çətinlik çəkməməyə başlamışlar.

Qeyri-adi və xaricə bağlı olaraq ortaya çıxıb inkişaf edən, yəni doğarkən uşağını da yanında gətirən erməni cəmiyyətinin ilk mühüm siyasi qərarı İran təhlükəsinə qarşı Nice (İznik) şurasına qatılması olmuşdur. Bilindiyi kimi, m.325-ci ildə İmperator I Konstantin tərəfindən toplanan şura din və dünya işlərinin imperatorun şəxsində toplandığını elan edərək, Qərbin tarixində Xristianlıq'a birlikdə açılan "dualizm" (din və dünya işlərinin bir-birindən ayrılması) dövrünə son verməkdə idi. Bu qərarla ermənilər İran və qonşuluqda olan kiçik bəyliklərə qarşı varlıqlarını sürdürə bilmək üçün özlərinə daha yaxın gördükləri Bizans imperatorluğunun və kilsəsinin himayə və qəyyumluğuna girmişdilər.

Bu tarixdən sonra Bizans idarəsinin ermənilərə qarşı təqib etdiyi siyasətin əsasını onları xarici düşmənlərə qarşı istifadə etmək və bizanslaşdırmaq şəklində yekunlaşdırmaq mümkündür. Bizans öz siyasətinə tərs gələn erməni bəy və katolikoslarını qovaraq yerlərinə təzələrini gətirib yerləşdirərkən Bizans ermənilər arasında yeni dostlar və düşmənlər qazanmaqda, erməni cəmiyyəti isə yeni qarışıqlıqların və daxili düşmənçiliklərin içərisinə sürüklənməkdə idi. Bizans idarəsi tərəfindən təltif edilən erməni liderləri siyasi səbəblərlə Bizansa qarşı olan və ya Bizans idarəsi tərəfindən mövqe və digər mənfəətləri əllərindən alınanlara tərs düşməklə həm özlərinə, həm də Bizans idarəsinə qarşı olanların kin, düşmənçilik və qısqanclıq'larını öz üzərlərinə çəkməkdə idilər.

Sayları getdikcə artan qeyri-məmnunlar zümrəsi isə Bizans və onun yerli iş birlikçilərinə qarşı başqa xarici güclərin yardımını axtarmağı və onların əməkdaşlığını qəbul etməyi ən təbii çıxış yolu olaraq görən vəziyyətə düşmüşlər. Buna görə islamiyyətin ilk yayılma illərinə qədər keçən zaman içərisində erməni cəmiyyətinin zəif ictimai quruluşu parçalanmış və bu parçalardan hər biri birdən artıq xarici gücün təsiri altına girmişdir.

Ermənilər çox sayda krallıqlarının olduğunu iddia edirlərsə də, bunlar heç bir zaman müstəqil, azad bir quruluş olmamışlar. Erməni krallıqları Roma imperatorluğunun və onun yerinə keçən Bizansın və İran dövlətinin hakimiyyətini qəbul etmiş, kralları Roma, Bizans və ya İran imperatorlarının idarəsilə iş başında qalmışlar. Ermənilər bu imperatorluqların bəzən birinə, bəzən digərinə, bəzən də ikisinə birdən vergi ödəmişlər. Erməni millətinin bütün tarix boyunca azad və müstəqil olmadığı, hətta seçdikləri kralların bəzilərinin İran əsilli olduqları nəzərə alındıqda, bu millətin boyunduruq altında yaşamış olduğu həqiqəti ortaya çıxır.

476-cı ildən sonra Ermənistan İran və Bizans arasında paylaşılmış. Şərqi Ermənistan İranın, qərbi də Bizansın idarəsində olmuşdur.

## SƏLÇUQLU DÖVRÜNƏ QƏDƏR ERMƏNİLƏR

Ermənilər bütün tarix boyunca Şərqi Anadoluda və ya dünyanın hər hansı bir yerində azad və müstəqil bir dövlət qura bilmədikləri kimi, mədəniyyət baxımından da ciddi bir iz buraxmamışlar. Şərqi Anadolu miladdan əvvəl və daha sonra islam dininin yayılmasına qədər iranlılar ilə bizanslılar arasında döyüş sahəsi olmuş, bəzən birinin, bəzən də digərinin əlinə keçmişdir. Bu bölgədə yaşayan ermənilər də İranın və Bizansın təzyiqi altında əsir və qul həyatı sürdürmüş, müsəlmanlar buraya hakim oluncaya qədər həm İran, həm də Bizansdan böyük

zulmlər görmüşlər. Onlar dini inamlarına görə toplu halda qətl və ya sürgün edilmişlər. Bu gün belə onların məzhəbi olan Qriqoryan məzhəbində həm İran, həm də Bizans dinlərinin izləri görünməkdədir.

Müqəddəs islam dini Ərəbistan yarımadasında güclənib yerləşdikdən sonra Şərqdə bütpərəst İran, Qərbdə xristian dininə mənsub Bizans kimi iki böyük düşmən qüvvələrlə qarşılaşmışdır. İslam hüququnda Uca Allahın birliyini və Məhəmməd əleyhissəlamın peyğəmbərliyini, yeni islam dinini təbliğ etmək müsəlmanların üzərinə düşən bir vəzifədir. Bunu qəbul edənlər özlərini təhlükəsizlikdə hiss edəcəkləri kimi, din qardaşlığına da qəbul olunurlar. Qəsbkarlığın, qarətin və digər mənfəətlər üçün savaşmanın islamda yeri yoxdur. (28).

Az bir zamanda İranın tamamı islam dinini qəbul etdi. Beləcə, islam ordusu bizanslılarla qarşı-qarşıya qaldı. Müharibə başladı. Bizanslılar Suriya, Fələstin və Misiri müzəffər islam ordusuna təhvil verib Şimala çəkildilər. Bu müharibələrdə müsəlmanlar daima bizanslılar ilə vuruşdular, qarşılarına nə bir erməni dövləti, nə də bir erməni ordusu çıxdı. Belə olduqda müsəlmanlar Anadolunu ermənilərdən deyil, bizanslılardan almış oldular.

Kilikiya bölgəsinə gəlincə: Adana ilk dəfə Hz.Ömər zamanında fəth edilmişdir. Daha sonra Xəlifə Əbdülməlik Adana və ətrafını tə Sivasa qədər fəth edib islam ölkələri arasına qatmışdır.

Səlcuqluların axınından əvvəl Kilikiyada heç bir erməni varlığı görülməmişdir. Böyük türk axınının önündən qaçan ermənilər Kilikiyanın dağlıq bölgəsinə yerləşib buranı özləri üçün mərkəz etmişlər. Ancaq onlar burada da heç bir zaman azad və müstəqil bir dövlət qura bilməmişlər. Onlar zaman-zaman səlcuqlulara, misirlilərə və xaçlılara vergi verən kiçik prinsliklər qurmuşlar.

Bu torpaqlar dörd xəlifə zamanından sonra Əməvi, Abbasi, Səlcuqlu, Mangucəkli, Artuk oğulları, Ağqoyunlu, Qaraqoyunlu, Ramazan oğulları və nəhayət, Osmanlı dövlətinin hakimiyyətində rahat və xoşbəxt bir həyat sürdürmüşlər. Bu saydığımız

dövlətlərin hamısı da islam dövləti nizamı içərisində idarə olunmuşlar.

Abbasilər zamanında İslam-Bizans mübarizəsi davam etmiş, ermənilər islam hakimiyyəti altında yaşamışlar. Bizanslılar erməniləri ortodoks etmək üçün onlara müxtəlif təzyiqlər göstərmişlər. Müsəlmanlar ermənilərin din və vicdan hürriyyətlərinə toxunmadıqlarına görə ermənilər islam idarəsini milli varlıqlarını qorumaq üçün əlverişli hesab etmişlər.

Xəlifə Mehdi zamanında Abbasi dövləti içərisində çıxan qarışıqlıqdan faydalanmaq istəyən bizanslılar 777-ci ildə Maraş və Amiq ovasına qədər irəlilədilər. 778-ci ildə Həsən B. Kahtaba (29) komandanlığındakı islam ordusu bizanslılara qalib gəldi. Daha sonra Xəlifə Mehdi oğlu Harun Rəşid komandanlığındakı ordunu Bizansın üzərinə göndərdi. İslam ordusu Anadolunu başdan-başa fəth etdi. Bizans imperatoru ildə 70 min qızıl vermək şərtilə sülh bağlamaq məcburiyyətində qaldı. Abbasilər Çukurovadan Ərzincana qədər çəkilən cizginin şərqindəki bölgəni Avasim adıyla yeni bir sərhəd vilayəti halına gətirdilər. Beləcə, Fərat çayının qərbindəki ermənilər də Abbasi hakimiyyətinə keçmiş oldular.

Aradan uzun bir zaman keçmədən Xəlifə Məmun zamanında bizanslılar yenə abbasilərin torpaqlarına hücum etdilər. Xəlifə Məmun 830-cu ildə Bizansın üzərinə bir ordu göndərdi. Onların hücumunun qarşısını alan bu ordu 831 və 832-ci illərdə Bizansa qarşı hərəkatını davam etdirərək Antakiya və Tarsusu yenidən fəth edib bir çox Bizans qalasını da ələ keçirmişdir.

Sonralar Abbasi dövlətinin daxilində çıxan səltənət və məzhəb davalarından faydalanmaq istəyən Bizans imperatorluğu abbasilərin hakimiyyətində olan torpaqlara yenidən hücum etdi. Onlar Malatyaya qədər irəlilədilər. Belə olduqda islam ordusu türk əsilli Afşinin komandanlığında Bizans ordusunu Ankarada qarşıladı. Aparılan döyüş nəticəsində Afşinin ordusu qalib gəldi. Bizanslılar çox itki verdilər. Bundan sonra bizanslılar uzun müddət abbasilərə qarşı müharibə etmək cəsarətini göstərə bilmədilər.

Bir xeyli zamandan sonra Abbasi dövləti içərisində məzhəb, taxt və səltənət davaları yenə ciddi bir vəziyyət yaratmışdı. Yaranmış vəziyyətdən faydalanmaq istəyən Bizans ordusu islam ölkələrinə təcavüz etməyə başladı. Bir tərəfdən gündən-günə çoxalan daxili davalar, digər tərəfdən də Bizansın təzyiqi Abbasi dövlətini aradan qaldıracaq qədər böyük bir təhlükə halına gəlmişdi. Bizans ordusu 948-ci ildə Maraşı işğal etdikdən sonra 953-cü ildə Suruçu işğal etmiş, İraq torpaqlarını sarsmağa başlamışdı. Bizanslılar işğal etdikləri Maraş və Suruç çevrəsindəki müsəlmanları qılıncdan keçirərək hər tərəfdə dəhşətverici qorxu yaratmışdılar.

Abbasilər bu yaxın təhlükə qarşısında toplanıb güc birliyi ilə 956-cı ildə Bizansın üzərinə hücum etdilər və Bizansı məğlubiyyətə uğratdılar. Bir neçə il sonra Bizans yenidən hücuma keçmiş, Çukurovanı və ətrafındakı bir çox qala və şəhərləri yenidən işğal etmişdir. Bu dəfə bizanslılar Şərqi Anadolunun, yəni ermənilərin Böyük Ermənistan dedikləri yerlərin bir çoxunu ələ keçirmiş və kiçik erməni prinsliklərini təkrar özlərinə bağlamışdılarsa da, buraları uzun zaman əllərində tuta bilməmiş və geri çəkilmək məcburiyyətində qalmışlar.

Bundan sonra Abbasi dövləti daxili davalar nəticəsində elə zəifləmişdir ki, valilər və komandanlar özlərini ayrı-ayrı quruluşlar elan edərək öz aralarında vuruşmağa başlamışlar. Artıq Abbasi dövlətinin Bizansla döyüşəcək gücü qalmamışdı. Yaranmış vəziyyətdən faydalanan bizanslılar kiçik erməni prinsliklərini ələ keçirib, onları özlərinə bağlamışlar. Bizans İmperatoru VasilII 1023-cü ildə Ani prinsi Ohannes Sempatı cəzalandırmaq istəyirdi ki, Ohannes Sempat müsəlman türklərə arxa çevirib Bizans idarəsinə üstünlük vermişdir. Beləcə, bütün Şərqi Anadolu Bizansın hakimiyyəti altına girmişdir.

Bizanslılar müstəqil olmayan erməni prinsliklərini zəbt etdikdən sonra ermənilərə etmədikləri zülm qalmadı. Onlara qarşı çox ağır vergi tətbiq etdilər. Ani, Muş, Bitlis, Van, Bəyazit, Ərdahan, Malazgird Bizans əsgərlərilə dolub-daşdı. Erməni kilsələri hücuma məruz qaldı. Katolikos və papazları tutub Bizan-

sa göndərdilər. Ümumiyyətlə, ermənilərlə bizanslılar arasında məzhəb düşmənçiliyi vardı. Buna görə bizanslılar erməniləri tamamilə yox etməyə çalışdılar. Din və vicdan hürriyyətinə riayət etməyərək, onları öz məzhəblərinə keçməyə zorladılar. Beləcə erməni prinsləri bizanslılar üçün kölə halına gəldilər. Yaranmış vəziyyəti dəyərləndirən erməni tarixşünası Mathieu: "İqtidarsız və qadınlaşmış rum milləti erməni prinsliklərinin ən cəsur övladlarını yurdlarından qoparıb atdılar, millətimizi təhqir etdilər, türklərin istilasını asanlaşdırdılar," – demişdir.

İranlılar da erməni prinsliklərinə hakim olduqları zaman erməniləri xristianlıqdan ayırmaq, öz dinləri olan Zərdüşt dininə, atəşə və bütlərə ibadət etməyə məcbur etmiş, bir çox işgəncə və təzyiqlərə baş vurmaqdan çəkinməmişdilər. Müqəddəs İslam dininin endirildiyi ilk illərdə isə, Hz.Ömərin xəlifəliyi dövründə erməni prinslikləri fəth edilmiş, müsəlmanlar erməni prinsliklərinə hakim olmuşdular. Fəqət onlar ermənilərin din, hürriyyət və vicdanlarına toxunmamışdılar, sadəcə can və mal əmniyyətlərini təmin etmək üçün və onların dini ayinlərini sərbəstcə yerinə yetirə bilmələrinin qarşılığında cizyə deyilən vergi ödəmələri lazım gəlmişdi. Halbuki bizanslılar erməni prinsliklərini işğal etdikləri zaman onları öz məzhəblərinə dönməyə zorlamışdılar. Bizans imperatoru Konstantin müstəqil olmayan erməni prinsliklərini işğal etdikdə hər tərəfi yandırıb-yaxmış, erməni xalqını yox etməyə başlamış, ermənilərin ruhani lideri Nerses onu çətinliklə yumşaltmışdı. Bu vəhşiliklər erməniləri bizanslıların məzhəbinə zorlamaq məqsədi güdürdü.

O zaman hər yerdə olduğu kimi, müstəqil olmayan erməni prinsliklərində də dərəbəylik idarəsi var idi. Müsəlmanlar ermənilərin idarə şəklini dəyişdirmədilər. Onlar idarəni tamamilə erməni prinslərinə həvalə etdilər. Onlara fərmanlar və xələtlər verdilər, mal, can, din və vicdan hürriyyətlərinə toxunmadılar. Bu kiçik erməni prinsliklərin islam dövlətinin valisinə vergi ödəməkdən başqa heç bir məcburiyyətləri yox idi. Öz işlərində tamamilə müstəqil hərəkət edər, qanun və adətlərinə görə yaşayardılar.

Ermənilər müsəlmanlardan bu qədər yaxşılıq gördükləri halda, Sasundakı ermənilər üsyan edib valini öldürdülər. Xəlifə bu azğın erməniləri cəzalandırmaq üçün Böyük Buğa (30) komandanlığında bir ordu göndərdi. Böyük Buğa ordusu ilə əvvəl Muş bölgəsinə gəldi, üsyanı yatızdırdı. Sonra Van üzərinə basqın etdi. Van bölgəsində Aşot adlı bir erməni adamlarını başına toplayıb üsyan etməyə hazırlaşırdı. Fəqət o, Böyük Buğanın gəldiyini eşitdikdə bunu bacara bilməmiş, onu hədiyyələrlə qarşılamışdır. Böyük Buğa Aşotu Bağdada göndərdi. Beləcə, Böyük Buğa bütün Ermənistanı Ağrıya (Ararata) qədər öz itaəti altına aldı.

Əməvi xəlifəsi MərvanII Ermənistanın idarəsini Baqratuni (31) ailəsinə vermişdi. Abbasi xəlifəsi Mutəvəkil bu ailədən olan Aşotu Ermənistan valisi təyin etdi. Ermənilər çox məmnun oldular. Aşot xəlifədən özünə prinslik verilməsini istədi. Xəlifə də bunu qəbul etdi. Aşotun prinsliyi ermənilər arasında etirazlar, qısqanclıqlar əmələ gətirdi, asayiş pozuldu.

Aşotun oğlu Sempat Abbasilərin Azərbaycan valisi Afşin tərəfindən prins olaraq qəbul edildi. Aşota tac və xələt göndərdi. Aşot isə müsəlmanlara nankorluq etdi. O, bizanslılarla gizli əlaqələr qurdu. Azərbaycan valisi Afşin Aşotun oğlu Sempatın nankorluğuna çox hirsləndi. Bir ordu ilə onun üzərinə hücum etmək istədi. Lakin Afşinin ordusu gəlmədən Sempatın ordusu İraq valisi tərəfindən darmadağın edildi. Belə olduqda Sempat təkrar xəlifəyə itaətini ərz edərək vergisini ödəməyə davam etdi.

Ermənilər müsəlmanlardan bu qədər yaxşılıq gördüklərinə baxmayaraq, tarix boyu xainlikdən geri durmamışlar, günümüzdə də durmurlar, gələcəkdə də durmayacaqları şübhəsizdir. Prins Sempat müsəlman valiyə qarşı sui-qəsd hazırlığı gördü. Fəqət bu hazırlıq planı ortaya çıxınca sui-qəsdçilər və Sempat edam edildilər. Ermənilərin bu xainliyinə qarşılıq Xəlifə Mutesi böyük bir əfv hissi və duyğusu ilə Sempatın yaxınlarından birini vali təyin etdi.

Bilindiyi kimi, Konstantin IX (1045) Aniyi zəbt edib Bağdad hakimiyyətinə son verərək yepiskopxanaları, monastırları

qərar eldirməsi ermənilərin Səlçuqlu idarəsinə asanlıqla boyun əymələrinə səbəb olmuşdur. (32).

Bu qərardan sonra özlərindən "sədaqət andı" istəyən Konstantinə ermənilərin verdikləri cavab hər halda müsəlmanlar üçün qürurvericidir: "Sizə sədaqət andı içmək özümüzü ölümə və yox olmağa məruz buraxmaq deməkdir. Bizi himayə edən bugünkü sahiblərimizə (müsəlmanlara) buraxın." (33).

"Bizansdan əvvəl ərəb hakimiyyətində keçən ilk əsr ermənilər üçün milli və ədəbi bir inkişaf dövrü olaraq qəbul edilir." (34).

Abbasılər zamanında Malatiya, Kayseri Avasim adında bir vilayət halına gətirilmişdir. Şərqi Anadolu və Kilikiya dörd xəlifə zamanından sonra da əməvilər və abbasilərin əlinə keçmişdir. Zaman-zaman bu bölgə müsəlmanlar ilə bizanslılar arasında döyüş yeri olmuşsa da, istər Şərqi Anadolu, istərsə də Kilikiya onuncu əsrin sonuna qədər müsəlmanların hakimiyyəti altında qalmışdır. Onuncu əsrin sonunda Şərqi Anadolunun bəzı yerlərinə bizanslılar hakim olmuşlarsa da, İran üzərindən gələn türkmən axınlarının nəticəsində burada Böyük Səlçuqlu dövləti qurulmuş, Anadoluya digər bölgələrdən də müsəlman türklərinin axını başlamışdır. 1071-ci ildə isə Malazgird zəfəri ilə Bizans sadəcə Şərqi Anadolunu deyil, bütün Anadolunu Türk hakimiyyətinə tərk etmək məcburiyyətində qalmışdır. Beləcə, Anadolu türk-islam diyarı halına gəlmişdir. Bundan sonra xaçlı səfərləri başlamışdır. Müsəlman türklər də Anadolunun hər qarış torpağını öz qanlarıyla sulayaraq buraları həqiqi bir Türk Vətənı və islam diyarı halına gətirmişlər.

Bu açıqlamalardan sonra istər ərəblər, istərsə də türklərin ermənilərin Ermənistan dedikləri Şərqi Anadolunu onlardan almadıqları, Bizans orduları ilə savaşıb qan tökərək bizanslılardan aldıqları bir daha aydın olur. Bu bölgədə yaşayan ermənilər də Bizansın zalım boyunduruğundan qurtulub islam dövlətinin adil hakimiyyəti altına girmişlər. Onlar Bizansdan gördükləri zülmlərə qarşılıq müsəlmanlardan gördükləri ədalət sayəsində bu günə qədər milli varlıqlarını qoruya bilmişlər.

## SƏLÇUQLU İDARƏSİNDƏ ERMƏNİLƏR

Səlçuqlu türklərinin Anadoluya hakim olmaları dünya tarixinin ən əhəmiyyətli hadisələrindən biridir. Bu hadisə islam dünyasını xristianlıq təhdidindən qorumuş, yeni bir ruh, yeni bir iman qüdrətilə xristianlığa qarşı islamı müdafiə edən bir millətin tarix səhnəsinə çıxmasıdır.

Anadoluda qurulan Səlçuqlu Türk hakimiyyəti xaçlı səfərlərin qırılmasını təmin etmiş, müsəlmanlar tərəfindən müqəddəs bir şəhər sayılan və Peyğəmbər əfəndimizin fəth ediləcəyini müjdələdiyi İstanbulun fəthindən sonra üç qitədə əsrlərcə müsəlman türkün bayrağını dalğalandıran Osmanlı dövlətinin quruluşunu hazırlamışdır.

Bilindiyi kimi, Anadolu torpaqları üzərində ən mühüm rolu türklər oynamışlar. Böyük köçlərlə 50 ildən artıq bir zaman kəsimi içərisində Anadolunun türkləşməsi gerçəkləşmişdir. Anadolunun türkləşməsi Malazgird zəfərindən daha əvvəl başlamış, bu böyük zəfərlə də Anadolunun qapıları müsəlman türk köçlərinə ardına qədər açılmışdı. Ana yurdlarından qopub gələn türklərin islam dinini qəbul etməsilə islam dünyasının bir çox böhranları sona çatmışdır. Bu böyük köçün gətirdiyi yeni güc Anadoluda yeni bir mədəniyyət vücuda gətirmiş, müsəlmanlar arasındakı ideoloji məzhəb davalarının qarşısını almış, bütün islam ölkələrində yeni bir dövrün başlanğıcı olmuşdur.

Anadolunun türk yurdu halına gəlməsi avropalılar tərəfindən qavranılmayacaq, qəbul və həzm edilməyəcək bir hal olaraq görülmüşdür. (35). Görəsən, Səlçuqlulardan əvvəlki dövrlərdə Anadoluda türk qövmü vardımı? Aparılan tədqiqatlar Oğuzlardan çox-çox əvvəllər əsaslı türk tayfaları olan Kimmerlərin (36), Sakaların (İskitlərin) (37), İdil (Volqa) Bolqarlarının (38), Hunların (39), Sabirlərin (40), Xəzərlərin (41), Şərqi Anadoluya yerləşdiklərini, yenə Qars və Van tərəfində görülən Bolqar kütlələri ilə Peçenək (42) türklərinin bu torpaqlara gələrək bölgəni bir türk yurdu halına gətirdiklərini göstərir.

Xüsusilə yunan və erməni tarixşünasları tərəfindən qəsdən irəli sürülən fikirlər türklərin 1071-ci il tarixindən sonra Anadoluya gəldikləri istiqamətindədir. Halbuki türklərin Anadolunu 1071-ci il Malazgird müharibəsindən sonra böyük köçlərlə gələrək, yurd olaraq tutmaları xüsusən müsəlman türklərə, Səlcuqlulara (Oğuzlar) aiddir. Professor Afif Erzenin (43) əsərilə əlaqəli olaraq "Armenia" jurnalının 46-cı saylı (iyul-avqust 1979) nüsxəsində çıxan "Eski Tarih Konusundakı Türk Bilimsel Araştırmaları (Keçmiş tarix mövzusunda türk elmi tədqiqatları)" başlıqlı yazıda "Çox şükür ki, tarixdə ermənilərin türklərdən çox-çox əvvəl bu torpaqlar üzərində olduqlarını bilirik" (s. 30) deyilir. Bu ifadə ermənilərin öz tarixlərini yaxşı bilmədiklərini göstərməsi baxımından diqqətçəkicidir. (44).

Səlcuqlu – Bizans mübarizəsində ermənilərin Anadoludakı yeri və onların vətən olaraq xəyal etdikləri, Ermənistan deyə adlandırdıqları Şərqi Anadoludakı vəziyyətləri necə idi? Əslində ermənilərin bu torpaqlarda heç bir zaman müstəqil bir dövlət qura bilmədiklərini, İran, Roma, Bizans və islam dövlətlərinin himayəsində yaşadıqlarını daha əvvəlki bölümdə bildirmişdik. Burada biz Səlcuqlu türklərinin və onların yerini alan osmanlıların buraları ermənilərdən almadıqlarını açıqlayarkən, çox vaxt ermənilərin Bizans zülmündən qaçıb müsəlmanlara, daha sonra Səlcuqlulara sığınıb, onların himayədarlıqlarını istədiklərini və böyük türk köçləri nəticəsində çox kiçik azlıq halına gəldiklərini bildirmək istəyirik.

Səlcuqlular Toğrul bəyin icazəsilə qardaşı Çağrı (Çakır) bəy idarəsində 1018-ci ildə Azərbaycana, Anadolu qapılarına gəldikləri zaman orada özlərindən əvvəl gəlmiş bəzi türkmən qruplarına rast gəldilər. Səlcuqlular onlarla birlikdə Anadolu hüdudlarını aşaraq kiçik bir erməni prinsliyi olan Vaspurakana, yəni Van gölü bölgəsinə girdilər. (45).

Onuncu yüzildə müdafiəyə keçmiş və daxili böhranlarla sarsılmış islam dünyası səlcuqlular sayəsində yeni bir qüdrət qazanaraq hücuma keçmiş, islamın əzəli düşməni və rəqibi olan Bizans ilə hesablaşmağa başlamışdır. Bax, Anadolunun fəthi bu

zəruretlərlə ilk Böyük Səlçuqlu Toğrul bəy, Alparslan və Məlik şahın təqib etdikləri dövlət siyasəti və ilk islam xəlifələrindən özlərinə miras qalan Anadolunun fəthi kimi ənənəvi bir islam siyasətinin təcəllisi olaraq gerçəkləşmişdir. (46).

Yazılan və ya yazdırılan təbliğat mahiyyətindəki erməni tarixlərində irəli sürülən iddiaların əksinə (47), Səlçuqlu türkləri Şərqi Anadolunu ermənilərdən deyil, bizanslılardan fəth etmişlər, özlərini də qətliama və sürgünə tabe tutanlar olmuşlar. Hələ 1064-cü ildə ermənilərin Qars Bagratlı kralı Qagik-Abbas krallığını Bizans imperatoru X Konstantin Dukasa ötürmüş, qarşılığında Kapadokiyada (Kayseri-Niğdə) Zamantı şəhərini almışdı. Vaspurakan kralı Senekerim 1021-ci ildə və Ani kralı II Qagik-Hacik da 1045-ci ildə torpaqlarını İmperator Konstantin Monamaka hədiyyə etmişdi. (48).

XII əsrdə yaşamış və ən böyük erməni tarixçisi sayılan Urfalı Mathieu Ermənistanın Bizansa dövr edilməsindən şikayətlənib belə bəhs edir: "...Bax, erməni milləti bu surətlə əsarət altına alındı. Məmləkət qara bulandı və bir ucundan digər ucuna qədər çalxalanan bir qan dəryası halına gəldi. Erməni millətinin yunan millətı üzündən çəkdiyi iztirabları kim təsvir edəcəkdir? Çünki yunanlar erməni millətinin komandanlarını öz ev və ayalətlərindən çıxarıb aparmış, ermənilərin krallıq taxtını devirmişdilər."

Türk ordusu Bizans ordusu ilə Həsənqalada böyük bir döyüşə girmişdi. Onlar Bizans ordusunu məğlub etdilər. Bizanslılar öz xristianlıq anlayışlarını, məzhəblərini ermənilərə zorla qəbul etdirmək üçün onlara zülm edir, işgəncələr verirdilər. Buna görə ermənilər bizanslılara nifrət edirdilər, onları müdafiə etmirdilər. Bizanslılar isə kilsələrdə belə qarışıqlıq çıxarırdılar. Onlar bu hərəkətləri ilə bütün erməni prins və komandanlarını Şərqdən çıxarıb öz məmləkətlərində yaşamağa məcbur edirdilər. (49).

Ştutqart Universitetinin professorlarından W.Heyd də "Histoire du Commerce du Levant au Moyen-Age, Paris 1936" adlı əsərində belə deyir: "...İlk xaçlılar Asiyaya gəldikdən az əvvəlki

bir dönəmdə Fərat çayının yuxarı hissəsilə sulanan ölkələrdə rum irqinin getdikcə artmaqda olan üstünlüyü ilə təhdid olunan bir çox erməni milliyyətlərini itirməmək üçün oradan köçmüşdürlər." (50)

Türklər Malazgird müharibəsindən əvvəl Anadoluda bir çox yerləri fəth etmişdilər. Anadoluda güclü bir Bizans ordusu varkən bu qələbələr türklərin Anadoluda yerləşmələrinə kifayət qədər təhlükəsizlik təmin edə bilməzdi. Sultan Alparslan 1070-ci ildə Əhlat, Diyarbəkir və Malazgirdi fəth etdikdən sonra Hələbi mühasirəyə aldı. Bu vaxt Bizans imperatoru Romanos Diogenes böyük bir ordu ilə Anadoluda irəliləyərək Ərzuruma gəldi. Ordusunun böyüklüyünə güvənən imperator zəfərdən əmin idi. İmperatorun ordusunda çox sayda erməni vardı. Bizanslılar daha əvvəl erməniləri bu bölgədən çıxarıb Sivasa sürgün etmişdilər. Ancaq indi Sivasa sürgün edilən erməniləri imperator köhnə yerlərinə yerləşdirməyə söz verib onları ordusuna qatmışdı. Erməni komandan Vasil imperatorun əmrinə girmişdi. İmperator Romanos Diogenes Malazgirtdə toplanan Alparslanın ordusunun üzərinə hücum etmədən əvvəl bir erməni birliyini öncü olaraq göndərdi. Bizans öncüləri uduzmaq üzrə ikən dağılaraq Malatiya bölgəsinə qaçdılar.

200 min nəfərlik ordusuna güvənən Romanos Diogenes Alparslanın sülh təklifini rədd etdi. O, 40 min nəfərlik bir türk gücünü əzib keçəcəyini zənn edirdi. Fəqət onun qarşısında duran Alparslandı...

İki ordu 1071-ci il 26 avqust, cümə günü Malazgird ovasında qarşılaşdılar. Bu zaman Bizans ordusunda qalan ermənilər ordunu tərk etdilər. Çünki onlar türklərin sayəsində öz dinlərini qoruya bilmişdilər. Mathieunun dediyi kimi, "Türklər Anadolunu Bizansdan aldıqdan sonra ermənilər, həqiqətən, qurtulmuşdular." İndi ermənilər türklərə Malazgird qələbəsində yardım edirdilər. Buna görədir ki, o dövrün xristian yazıçıları erməniləri xristianlığa xəyanətdə ittiham etmişlər. Erməni tarixşünası ermənilərin qorxaqlığını gizlətmək məqsədilə imperatorun "Erməni əsgərlərinə və millətinə səbəbsiz yerə ölkələri-

diyini" söyləyərək, ermənilari müdafiə etməyə çalışarkən Süryani tarixşünası Mixail: "Ermənilər döyüşdən qorxaraq arxalarına dönüb qaçdılar", – deyərək ermənilərin can qayğısıyla qaçdıqlarını bildirir.

Ermənilər Malazgird zəfərindən sonra da türk idarəsi, ədaləti və inam hürriyyətindən kifayət qədər istifadə etmişlər (51). Bu gün İstanbulda Qriqoryan-erməni patriarxxanası ilə bir erməni camaatının varlığı bunu sübut edir.

Malazgird döyüşü türklüyün üz ağı, qələbələrinin ən əhəmiyyətlisi idi. Bizans imperatoru Romanos Diogenes Alparslana əsir düşmüşdü. Alparslan məğrur düşməninə qarşı yaxşı davranmış, türklərin yüksək xarakterə sahib olduğunu isbat edərək Bizans ordusunun baş komandanı imperator Romanos Diogenesin həyatını bağışlamış, onu məmləkətinə geri göndərmişdi. Bu arada, Bizansda Mixail Dukas imperatorluq məqamını ələ keçirmiş, Romanos Diogenesi taxtından endirmiş, Tokatda zindana atdırıb Kilikiyaya sürgün etmişdir. Kilikiya erməni prinsi Senaharid yeni rəhbəri Mixail Dukasın əmrilə keçmiş rəhbəri Romanos Diogenesin gözlərini oydurub kor etdirmişdir.

Malazgird zəfərindən sonra türklərin keçmiş Vətəni (Oğuzlardan çox-çox əvvəl əsaslı türk tayfaları olan Kimmerlərin, Sakaların, İdil Bolqarların, Hunların, Sabirlərin, Xəzərlərin Şərqi Anadolunu məskən etdiklərini, Qars və Van tərəflərində görülən bolqar kütlələri ilə peçenək türklərinin bu torpaqları bir türk yurdu halına gətirdiklərini mənbələrə əsaslanaraq qeyd etmişdik) qapılarını yenidən türklərə açmışdı. Türklük Qərbə yönəldi. Türk köçəriləri Anadoluya yerləşməyə başladılar. Bizansın təzyiqi və Səlçuqlu türklərin axınları nəticəsində ermənilər Orta Anadolu və Fəratın dağlıq bölgəsilə Toroslar, Kilikiya, Malatiya, Maraş və Urfa bölgələrində cəmləşdilər. Bu bölgələrdə cəmləşən ermənilər kiçik prinsliklər qurdular. Erməni Filaret (Philaretos) Fərat bölgəsindəki erməni prinsini – Sasunlu Toniki məğlub etdikdən sonra Franklar ilə ittifaq quraraq Fərat bölgəsində 1075-ci ildə meydana çıxan Vasağı da 1075-ci ildə öldürmüş, Antakiyaya qədər irəliləmişdi. Getdikcə güclə-

nan Flaret rumları qatl edarak Xarput, Malatiya, Maraş, Göksun, Tarsus, Urfa va Antakiya şaharlarini da içina alan böyük bir prinslik qurdu. Hakimiyyatini sürdürmak üçün ikiüzlü siyasat izladi. Girdiyi yerlardaki xristianları qatl etmakdan çakinmadi. Süleyman şahın hakimiyyatini qabul etdirmak üçün Malik şahla görüşdü. Zahiran özünü bir müsalman kimi göstardi. Bundan sonra müsalmanlığının yalan olduğu ortaya çıxmasın deya, xristianlara qarşı zülmünü bir qat daha artırdı. Flaretin davranışları Süleyman şahı şübhalandirmiş, torpaqlarının öz hakimiyyatina keçmasini istamişdi. Süleyman şah ordusu ila xalvatca harakat etdi va 1084-cü ilda Antakiyanı yenidan fath etdi. O, xalqla çox yaxşı davrandığına göra Halep va atrafı taslim oldular. İki Salçuqlu sultanı Süleyman şah ila Malik şah bir-birila döyüşdülar. Süleyman şah şahid oldu. Malik şah bu bölgani Urfaya qadar istila etdi.

1095-1096-cı illarda Suriya üzarindan iralilayan xaçlı orduları Elbistan va Maraşı işğal edarak ermanilara çox acı zülmlar etdilar. Xaçlıların zülmlarindan qurtulmaq istayan ermanilar Salçuqlu sultanı I Kılıçaslandan yardım istadilar. I Kılıçaslan da ordusu ila Elbistan va Maraşa hücum edib xaçlıları mağlub etmiş, ermanilari qurtarmışdı. Ermani tarixçisi Mateos Kılıçaslanın adalatini va ermanilarla çox yaxşı davrandığını, din farqini nazara almadığını, har kasi barabar tutduğunu bildirdikdan sonra onun vafatı haqqında: "Kılıçaslanın ölümü xristianlar üçün yas oldu" - deyir. I Kılıçaslanın bu yüksak va adalatli idarasini nazara alan Elbistan ermanilari dindaşları olan xaçlıları deyil, Salçuqlu islam idarasini istamışdilar. Malatiya suryanilari da ermani Qabrielin idarasi yerina Salçuqlu idarasini istamişdilar.

Türklarin insani va adalatli idarasina baxmayaraq ermanilar zaman-zaman türklara qarşı savaşmaqdan geri durmamışlar. "Danişmentnama," Niksarı mühasiraya alan türk asgarlarina qarşı çıxan xristianlar arasında çox sayda ermanilarin da olduğunu yazır. Romanos Diogenos Malazgirda girarkan Sivası başdanbaşa yandırmış, buradakı ermani prinsliyina son vermiş, çox sayda ermanini öldürmüş olmasına baxmayaraq, ermanilar avval

Bizans ordusu ilə birlikdə Alparslana qarşı savaşmaqdan geri durmamışdılar, ancaq qorxaqlıqlarından geri dönüb qaçmışdılar.

Ermənilərin ikiüzlülüyü və arxadan vurma siyasətləri hətta monqol istilasının bütün ağırlığı ilə Anadolunun üzərinə çökdüyü zamanlarda da davam etmişdir.

1242-ci ildə monqollar Anadolunun işğalına girişdikləri zaman monqol ordusunda erməni əsgərləri də vardı. Monqol təhlükəsi qarşısında Səlçuqlu dövləti özünə bağlı olan prinsliklərdən yardım istədi. 1243-cü ildə Kilikiya erməni prinsliyinin kiçik bir ordusu Sıvasa qədər gəldisə də, döyüşə girmədən geri dönüb qaçdılar. Monqollar Sivası işğal etdikdən sonra Kayserini mühasirəyə aldılar. Şəhər təslim olmadı, çətin döyüşlər getdi. Monqollar geri çəkilmək istərkən erməni Hayk oğlu Həsən gizlicə monqol komandanı ilə anlaşdı. Bu ermənínin xainliyi nəticəsində Kayseri monqollar tərəfindən işğal edildi. Monqollar hər yerdə etdikləri kimi, şəhər xalqını və Səlçuqlu əsgərləri qılıncdan keçirdilər.

Monqol istilasının dəhşətindən qorxan sultan anasını, qızını və cariyələrini yanına alaraq erməni prinsi Konstantinə sığındı. Oradan Hələbə getmək istəyirdi. Erməni prinsi monqollara yaxınlıq üçün sultanı və yanındakıları monqollara təslim etdi. Monqol istilası önündə yenidən köçlər başlamışdı. Tək dayanacaq yer Kilikiya erməni prinsliyi idi. Ermənilər isə özlərinə sığınan türkləri monqollara təslim edirdilər. Beləcə, ermənilər həm türklərdən intiqam alır, həm də monqolları qazanmağa çalışırdılar. Səlçuqlu dövlətinin keçirdiyi bu böyük sarsıntıdan faydalanmaq istəyən ermənilər Səlçuqlu ölkəsinin hər tərəfində təzyiqlər, dəhşətlər saçmağa davam edirdilər.

Ermənilər Səlçuqlu dövlətindən üz döndərib monqollara bağlandılar. Səlçuqlulara ödədikləri vergini monqollara ödəməyə başladılar. Erməni prinsi Kösə dağı döyüşü zamanı anlaşması olmasına baxmayaraq bu döyüşə əsgər göndərmədi. Bir sözlə, ermənilər monqol istilası zamanında saçuqlulara qarşı hər cür pisliyi və xəyanəti etməkdən geri durmadılar.

1245-ci ildə səlçuqlular monqol xanı Batı xan ilə sülh müqaviləsi bağladıqdan sonra ermənilərdən onlara sığınan türkmənlərin geri verilməsini istədi. Erməni prinsi türk sultanının bu istəyini rədd etdi. Onda Səlçuqlu sultanı ordusunu Çukurovaya endirdi. Qarşı dura bilməyəcəklərini anlayan ermənilər dağlara qaçdılar.

Monqol istilası təsirini azaltdıqda Bizans və ermənilər öz qabıqlarına çəkilmək məcburiyyətində qalmış, Səlçuqlu torpaqlarına təcavüz etmək cəsarətlərini göstərə bilməmişlər.

Monqolların Anadolunu istila etmələri türk-islam mədəniyyətini böyük ölçüdə təxrib etmiş olmasına baxmayaraq, Anadolunun ikinci dəfə türkləşməsini təmin etmək baxımından çox əhəmiyyətli olmuşdur. Çünki monqol istilasından qaçan türkmənlər kütlələr halında Anadolunun fəthini və türkləşməsini təmin etmişlər. Malazgird zəfərindən sonra türklər Anadoluya necə axışırdılarsa, monqol istilasından sonra yenə eyni şəkildə axışmağa başlamışlar. Beləcə, yeni türk axını Anadolunu türkləşdirmişdir. Ermənilər və rumlar bu türk axını qarşısında varlıqlarını ortaya qoya bilməmişlər.

Monqol istilası zamanı ermənilər səlçuqlulara verdikləri vergini monqollara verirmişlər. Buralara Misir məmlukları hakim olduqdan sonra isə ermənilər vergini onlara verməyə başlamışlar. Xülasə, Anadoluya hansı dövlət hakim olmuşsa, ermənilər o dövlətə vergi vermişlər.

Erməni prinsi Hetum Bularqunun islami idarəsindən məmnun olmamışdır. Buna görə də o, Olçaytu xanın yanında Bularqunun məmluklara meyilli olduğunu və ilk fürsətdə Kilikiyanı onlara təslim edəcəyini nəsihət ilə fitnə-fəsad toxumları əkmişdir. Prins Hetumun bu fitnə-fəsadını öyrənən Bularqu prinsi və adamlarını öldürtmüşdür.

Hetumun yerinə keçən Prins Osin tə Təbrizə qədər gedib İlhana Bularqu barəsində şikayət etmişdir. Aparılan mühakimədə Bularqu günahkar görülüb 1307-ci ildə edam edilmişdir. Bu hadisələrdən sonra Olçaytu xan Oşini erməni prinsliyinə təyin etmişdir.

Monqol valisi Timurtaş 1321-ci ildə üsyan edən ermənilərı cəzalandıraraq Çukurovadakı şəhərləri işğal etdikdən sonra qarət etdirmiş və yandırtmışdır.

Bax bu zamanlarda Osman oğulları Marmara bölgəsini türkləşdirir, Osmanlı dövlətini qururdular. Məmluk və Karaman oğullarının orduları tərəfindən aparılan fəthlər və türkmən köçlərinin axınları nəticəsində Kilkikiya erməni prinsliyi ortadan qaxmışdır.

## OSMANLI İDARƏSİNDƏ ERMƏNİLƏR

Kilikiya erməni prinsliyinin sona çatması ilə ermənilər Karaman oğullarının torpaqlarına dağıldılar. Onlar Konya, Əskişəhər, Kutahya ətrafına yerləşdilər.

1324-cü ildə Bursa osmanlılara mərkəz olunca Kütahya və Əskişəhər ətrafında yerləşmiş ermənilər Bursaya köçdülər. Onlarla bir ikdə erməni ruhani rəisi (patriarx) də Bursaya köçdü. Fatih Sultan Məhməd İstanbulu fəth etdikdən (29 may 1453) sonra özünü Roma imperatorluğunun yeganə qanuni varisi saymışdı. Yunanlı Georgics Trapezuntios da Fatihə belə xitab etmişdi: "Heç kim şübhə etməz ki, sən Roma imperatorusan. İmperatorluq mərkəzini hüquqən əlində tutan kəs kimdirsə, imperatoru da odur. Roma imperatorluğunun mərkəzi İstanbuldur." (52). Beləcə, Fatih Sultan Məhmədin fəthdən əvvəl Ədirnə sarayında topladığı yüksək bir məclisdə söylədiyi tarixi və uzun nitqində dediyi kimi (53): "Türklər tarixi vəzifələrini yerinə yetirib atalarına xeyirli bir xəlifə olduqlarını ortaya qoyacaqlar..." Həqiqətən də, türklər Bizansın varisi olmağı haqq edəcəkdirlər.

Fətih Sultan Məhməd İstanbulu fəth edib iylənmiş Bizansa son verdikdən sonra rumlara lütf və ehsan etdiyi din və vicdan hürriyyətini ermənilərdən də əsirgəməmişdir. Ermənilərin Osmanlı idarəsinin altına girmədən əvvəl nə siyasi, nə də iqtisadi bir təşkilatlanmaları vardı. O bölgələrdəki güclü dövlətlər onları yüzillər boyunca bir qul kimi çalışdırmış, onlara bir haqq

verməyi heç düşünməmiş, din və iqtisadi mövzularda özləri ilə birləşmələri üçün onları təzyiq altında tutmuşdular. Ermənilə-ri bu vəziyyətdən qurtaran, onlara hər cür haqqı verən və ermə-niləri himayəsi altına alan Fatih Sultan Məhməd İstanbulu fəth etdikdən sonra erməniləri dini inamlarında sərbəst buraxmış, Bursadakı erməni ruhani rəisi Hovakimi İstanbula gətirərək er-məni patriarxlığını qurdurmuş, ona "Bütün Türkiyə ermənilə-rinin patriarxı" adını vermişdir. Bu patriarxa Rum ortodoksları xaric, bütün digər xristian məzhəblərinin din işlərini idarə et-mək vəzifəsi də verilmişdir. İstər erməni, istərsə də rum pat-riarxları öz camaatlarının dini və sosial işləri ilə maraqlanır, ca-maatlarına aid əmlakı idarə edir və bu əmlakın gəlirlərini top-layardılar. Osmanlı idarəsindəki ermənilər nə siyasi, nə də icti-mai bir təşkilat qura bilməmişlər, ancaq islamın xoşgörüsündən faydalanaraq din və vicdan hürriyyətləri ilə birlikdə milli mədə-niyyət və varlıqlarını qoruya bilmişlər. Osmanlı idarəsi altında türklərin adətlərini mənimsəmişlər. Dövlətin güclü zamanla-rında əllərində hər hansı bir pislik etmə imkanı olmadığı üçün sadiq bir varlıq olaraq düşünmüşlər. Onlar əsgərliyə alınmadıq-larına görə sayıları çox tez artdı. Türk-islam dövlətinin bağışla-dığı hürriyyətlərdən geniş ölçüdə istifadə edərək sənət, ticarət və ziraətdə irəlilədilər. Türkiyənin ticarət və sənətini əllərinə aldıqları kimi, Anadolunun ən məhsuldar torpaqlarının da sahi-bi oldular. Ermənilər Osmanlı imperatorluğun çökmə dov-ründə özlərinə hami deyə qəbul etdikləri Rusiyaya Türkiyədə çox azad və xoşbəxt yaşadıqlarını anlatmışlar. Erməni tarixşü-nası Vartanyan belə deyir: "Türkiyə ermənisi rus ermənisinə görə erməni mədəniyyəti, dili, tarixi və ədəbiyyatı baxımından çox güclü və sərbəst idi. XIX əsrin əvvəllərində ermənilik bir millət olaraq hələ Avropada bilinmirdi. Erməniləri yer üzünə dağılmış tacirlər, öz mənfəətlərindən başqa bir şeylə əlaqəsi ol-mayan şəxslər, yəhudilər kimi vətənsiz, milliyyətsiz, sərsəri olaraq tanıyırdılar."

Ermənilər bu dövrdə o zamana qədər heç bir məmləkətdə və bir başqa dövlətin idarəsində çata bilmədikləri din, dil,

**du§iinco sorbostliyile siyasi va sosial haqlara Osmanh dovlatinin har hansi bir vatanda$i kimi sahib olmu§ va belaca ya§ami$lar. (54). Oslinda ermanilarin Bizansm ziilmundan qorunmalan u^iin Anadoluda ayri bir camaat olaraq to$kilatlanmalarma icaza veranlarin ilki Osmanh pad$ahi Orxan (1326-1362) olmu§dur. Mozhob yonundan birlik gostarmalari sabobila milli ehtiraslanni qoruya bilmami§, turkle§mi$, hatta dil olaraq bela turkcani manimsami§ bir camiyyet olan ermanilor (55) XIX asrin awallarinda "Milli Sadika" adi ila adlandinldilar. Onlar 1856-ci il islahat farmanmdan sonra valilik, ba$ mufatti$lik, el<;ilik, hatta nazirlik movqclarino belo gotirildilar. (56).**

**Ba§langicda siyasi movzularla maraqlanmayan ermoni din adamlan zaman ke^dikca siyasatde 90X ahamiyyatli rollar oynamaga ba^ladilar. Iralida biitiin ayrmtilanyla ai;iqlayacagimiz ermoni probleminin" ortaya ^ixmasinda XIX asrin sonlannda Osmanh torpaqlarmda muxtalifamalleri olan xarici ddvlatlarin tohriklari naticasinda miixtalifmoqsodlarla faaliyj'at gdstaran ermani komitolori ila birlikda ermani din adamlanmn da boyiik pa>т vardir.**

**Osmanh idarasi ermanilara o qadar geni$ haqlar vermi$di ki, ermoni patriarxi dz ixtiyan ila ruhani raislarini tutduqlan vazifalardan azad edir, ke$i$lari ruhanilikdah ayinr, dini ayinlar haqqinda qorar verir, nigah i§larini idara edirdi. Xiilasa, ermanilar Ttirkiyada t^ox xo$boxt bir hayat siiriirdular. Ermanilarin Osmanh idarasinda bu qadar sakit va xo§baxt heyatlarim pozan tak bir masalo onlarin dz aralarmdaki mazheb davalari idi. Bazi ermanilar 1701-ci ilda papaliga, yani katolik mazhabi-**

rin "keçmiş ədalətlərini" tamamilə unutmuş olduqlarını izah etdikdən sonra belə davam edir: "Keçmişdə özlərinin nə olduqları üzərində qətiyyən düşünmürdülər... Fikir baxımından bir inqilab planını qavraya biləcək qabiliyyətdə deyildilər. Hətta Osmanlı dövlətinin çökəcəyi günün yaxınlaşmaqda olduğu özlərinə söyləndiyi zaman bundan məmnun olmadıqları belə görülmüşdür." Bir erməni lideri olan Mıqırdıc Dadyan da

1867-ci ildə qələmə aldığı bir tədqiqat əsərində Osmanlı rejiminə təşəkkür etməkdə idi. XIX əsrin ilk yarısındakı erməni cəmiyyətini anladan bu yazısında Mıqırdıc Dadyan, Osmanlı ermənilərinin tam bir hürriyyət içərisində sosial inkişafları türklər tərəfindən əngəllənmədən dini təşkilatlarını necə inkişaf etdirdiklərini şübhəyə yer buraxmayan bir şəkildə göstərməkdədir. (58). Elə isə ermənilərin Osmanlı imperatorluğunda yüzillər boyunca zülm gördüyü, əzildiyi və himayəsiz buraxıldığı yolundakı iddiaların tarixi həqiqətlə bir əlaqəsi yoxdur. Bunların sənədləşdirilməsinə də imkan olmadığı üçün təbliğat məhsulu iftira və isnadlar olaraq qəbul edilmələrindən başqa görüləcək bir iş yoxdur.

Erməniləri müstəqillik xamxəyalına sürükləyənlərin başında erməni patriarxı və din adamları ilə fransız ixtilalının və o günün modası sayılan hürriyyət aşiqliyinin olduğuna şübhə yoxdur. Osmanlı dövləti başda Rusiya olmaqla, Avropa dövlətlərinin təzyiqlərindən qurtulmaq üçün 1839-cu ildə reform fərmanını elan etdi. Reform fərmanının gətirdiyi yaxşılığı öyənlərin yanında onun Osmanlı dövlətinin çökməsini hazırlayan səbəblərin başında gəldiyini iddia edənlər də çoxdur. Buna görə izahlı Osmanlı tarixi xronologiyası yazıçısı İsmail Hami Danişməndin düşüncələrini əks etdirən şərtlərin aşağıya alınmasını mövzumuza uyğun görürük: "Gülhanə fərmanının yenilik və demokratiya baxımından böyük dəyərinə qarşılıq dövlət daxilindəki təhlükəli təsirini də inkar etmək qəbul deyildir. Bütün imperatorluqlarda bir hakim millət vardır. Avstriya imperatorluğunda alman irqi, Moskva çarlığında rus, İngilis cəmiyyətində ingilis, Amerika Birləşmiş Ştatlarında

anqlo-saksonlar hakim vəziyyətdədirlər. Bu dövlətlərin varlıqları o hakimiyyətlərə bağlıdır. Bu baxımdan Osmanlı imperatorluğu bir istisna sayılır. Osman qazinin istiqlal tarixi 1299-cu ildən islahatın elanına qədər (1839) keçən 540 illik dövrdə hakim bir millət yoxdur. Hakim bir ümmət vardır. Dövlətdə "müsavatı islamiyyə" – islam bərabərliyinin hakim olması qılınc altında baş vermişdir. Bu dövr məğlub millətlərdən boşnakların, rumanların, çıtakların və bir çox millətlərin dövlətin sahibi olan türk irqilə hüquqi bərabərliyə sahib olduqları və ortaq bir hüquqi kütlə təşkil etdikləri dövrdür. Bu dövlətdə qurucusu və sahibi olan türk millətinin xanədanlığından və rəsmi dilin türkcə olmasından başqa bir türklük işarəti olmamışdır. Belə bir vəziyyətdə ümmət hakimiyyətinin yıxılması o zaman belə xalq arasında narazılığa səbəb olmuş, oyandırmış, müsəlmanlar kədərlənmiş, qeyri-müslümlər isə sevinmişlər..."

Tanınmış tarixşünas Əbdürrəhman Şərəf bəy də: "Bütün rütbə və dövlət məqamları qeyri-müslümlərə açıldı. Müsəlmanların şahidlikləri dinlənməzkən, müsəlmanlara hökm etmək üzrə məhkəmə üzvlükləri qeyri-müslümlərə verildi. Müsəlmanların nail olduqları nemətlərə ortaq olmaqdan əlavə, ticarət və sərraflıq işlərilə pul qazanıb tərəqqilərə və rifaha qovuşdular. Bu da onlarda artıq dərəcədə ehtiras və istəklər əmələ gətirdi..." - deyir.

Xarici məmləkətlərdə, xüsusilə də Rusiyada təqib, işgəncə və zülmə uğrayan ermənilər Osmanlı dövlətinin himayəsinə sığınaraq canlarını qurtarmış, Anadoluya yerləşərək mal, sərvət sahibi olmuşlar. Beləcə, Osmanlı dövlətində ermənilərə təhlükəsizlik və etimad on doqquzuncu əsrin yarısından sonrasına qədər davam etmişdir. Bu tarixdən sonra Osmanlı dövlətinin siyasi vəziyyətindən faydalanmaq istəyən xarici dövlətlərin əlində alət olan erməni komitəçilərlə azadlıq ideyaları ilə beyinləri yuyulmuş ermənilərin istəyilə ortaya bir "erməni məsələsi" çıxarılmış və dövlətin ermənilərə olan keçmiş etimadı və təhlükəsizliyi sarsılmışdır.

Osmanh dbvlatinin daxili vo xarici problemlorlo mo$gul ol-dugu, dbvlotin tahlukoli bir zamamnda avropahlara $irin gbrunmok iiciin elan edilon siyasi islahatlar formam Turkiyodo-ki butiin xristian millotlori orkbyiinlojdirdiyi kimi, ermonilori do orkbyunle§dirmi$dir.

Rusiya bz ermani votondajjlarma Osmanh fothlorindon son-ra Tiirkiyo ermanilarinin oldo etdiklari hurriyyotin onda birini belo vermomi$dir. (59). Rahib Y.GQark 1953-cu ildo no^r edi-lon osorinda: "Fatih Sultan Mohmod xanm istanbulu foth etma-silo ermonilorin istiqbali iiciin yeni bir ulduzun parlamaga ba$-ladigim..."- sbyloyir. (60). Rahib (parkin bz ifadosilo: "Ogor tiirklar Istanbula golmami$ vo ya golmolori gecikmi^ olsaydi, ermonilorin Istanbula yerlo§molori va inki^aflan «;ox ?iibhali olacaq, hotta balka da izlori belo qalmayacaqdi."

Sonra golon sultanlar da Fatihin cizdigi yolda ermoni varhgi-mn irolilomasini istomi^, hotta buna imkan yaratmijlar. Ermoni-lorin ttirklardan gbrdtiklori bu yaxmhq onlann da "boyiik impe-ratorluq" iiciin qtisursuz xidmot etmolarino sabab olmu^dur.

Vartanyan o tarixdoki ermonilorin vaziyyatini belo anladir: "Tiirkiyo ermanisi rus ermanisina gbra madaniyyatinde, dilin-do, tarixindo, adobiyyatmda giiclii vo azad olmu^dur. Yer tiztino dagilan tacir ermonilor da dz xeyirlorindon ba§qa bir $ey dti§tin-meyen vo yohudilar kimi votonsiz, milli hissiyyatsiz... kimi ta-mnmi$lar." (61).

Rusiyadaki ermani filosofvo yazi^dan ke^mi^don bari na^r etdirdiklori kitab va maqalolorilo ras va osmanh crmenilorini tiirklar oleyhinda ta§viq etmijlor. Hatta onlar: "Ya Rabbi. San ermoni millotino morhomat et. I)ti$mon ttirkii qahr et” kimi mahnilarla ttirklori tohqir etmiflor.

Tebii ki, Rusiyadaki bu caravan Tiirkiyedoki ermonilora

9. Ermənilərdə ixtilal ruhu oyandırılmış, milli erməni məsələsi masaya yatırılmışdır.

Ermənilərə çox geniş haqlar tanıyan, adətən dövlət içərisində bir dövlət deyilə biləcək qədər bir vəziyyət yaradan bu nizamnamə 6 bənd, 95 maddədən ibarət idi. Bugünkü deyimlə "Ermənilərin konstitusiyası"nın beşinci bəndində "ermənilərin millət vəkilləri" anlamına gələn "ermənilərin deputatları" deyilməkdədir. Bu iki deyim ermənilərin öz müstəqillikləri üçün necə hazırlandıqlarını göstərir.

19 mart 1863-cü ildə Osmanlı hökuməti tərəfindən təsdiq edilən bu nizamnamə erməni vətəndaşların siyasi və sosial varlıqları üzərində böyük faydalar təmin etmişdir. Osmanlı hökumətinin ermənilərlə nə qədər yaxşı davrandığını göstərən bu nizamnamənin giriş qismi qısaca belədir:

"Osmanlı dövlətinin müsəlman olmayan uyruqlar üçün vermiş olduğu ayrıcalıqlar əsasən hamısı haqqında bərabərdirsə də, hər bir azlığın bunu həyata keçirməsində öz adət və üsullarına görə, xüsusi bir qayda vardır.

Erməni patriarxı erməni camiyyətinin başı və xüsusi hallarda Osmanlı dövləti qanunlarının icraçısıdır. Patriarxxanada ruhani işlər üçün bir məclis və dünya işləri üçün də ayrı bir məclis vardır. Lazım olan hallarda bu iki məclis qarşıq olaraq toplanır.

İstər patriarx, istərsə də bu məclislərin üzvləri xalqdan əmələ gələn mərkəzi təşkilatda seçilir. Din və dünya işləri məclislərinin vəzifələri və əmələ gələn şəkilləri haqqında kifayət qədər qaydaların olmadığına görə müxtəlif anlaşmazlıqlar meydana çıxmaqda, xüsusi hallarda mərkəzi məclisin təşkilində də bir çox çətinliklər görünməkdədir.

İslahat fərmanı hökmlərincə bu kimi hallarda hər bir camaatın müəyyən bir zaman içərisində ayrıcalıqlarının və bağışlıqlarının incələnməsi, zamanın mədəniyyətinə görə alınmış məlumatların uygun gördüyü reformun müzakirə edilərək hökumətə ərz edilməsi, ruhani rəislərə verilmiş izin və ixtiyarın, bu camaatlara verilən haqların halli və yeni hala uyması lazımdır.

Bu nizamnamə qaydaları ermənilər üçün yuxarıda bildirilən vəzifələri yerinə yetirmək üzrə erməni liderlərindən əmələ gələn bir komissiya qurulması üçün hazırlanmışdır...

Ermənilərə çox geniş haqlar verən bu nizamnamənin üçüncü bəndi erməni məclisinin umumi vəzifələrini belə açıqlayır: millətin ədəbi ehtiyaclarının həllinə çalışmaq, erməni kilsəsinin inamlarına ləkə sürməmək, sözlərini, qərarlarını axsatmamaq; qız və oğlan uşaqlarının təhsillərini yüksək səviyyədə keçirmək; kilsə, xəstəxana və məktəb kimi milli təşkilatları yaxşı hala gətirib inkişaf etdirmək; bunların gəlirlərini artırmaq, xərclərini ödəmək; milli işlərdə çalışanların umumi vəziyyətlərini düzəltmək və gələcəklərini təhlükəsizlik altına almaq, yoxsullara yardım etmək; millətin irəliləməsinə canla-başla çalışmaq...

Nizamnamənin dördüncü bəndində isə: millət tərəfindən seçilmiş namizədlərə, millət heyəti yerində olanlara, nəzarətçi və idarəçi olaraq vəzifələndirilən hökumətə "milli idarəçi" adı verilir. Bunlar Osmanlı torpaqlarındakı ermənilərin daxili işlərinə baxarlar. Milli idarə Osmanlı dövləti tərəfindən özünə verilən xüsusi nizamnamə və ayrıcalıqlarla vəzifələndirilmiş olub cəmiyyətini uyğun önləmlərlə idarə etmək idi...

Nizamnamənin ümumi məclisin xalqdan seçiləcək üzvlərinin seçim şərtlərini müəyyən edən 65-ci maddəsində namizədlərin milli dəstək verə biləcək gücdə olanlardan, dövlət məmurlarından, doktor, faydalı kitab yazıçılarından, müəllimlərdən və millətə faydalı işlər görmüş olanlardan seçilməsini istər...

Nizamnamənin patriarxa verdiyi ixtiyara gəldikdə isə bunları oxuyuruq: 8-ci maddə patriarxın nizamnamə hökmlərini yerinə yetirməyə diqqət və nəzarət edəcəyi, özünə gələn işləri müzakirə üçün məclislərə göndərəcəyi, məclisin verdiyi qərarların patriarx tərəfindən imzalanmadıqca məqbul olmayacağı, təcili işlərdə patriarxın məsuliyyəti öz üzərinə almaq şərtilə qərar verə biləcəyi və qərarını məclisin rəyinə təslim edəcəyi yazılıdır. 10-cu maddə: rahiblər, müəllimlər, kilsə, xəstəxana, məktəb məmurlarının nizamnaməyə qarşı davrandıqları təqdirdə, onları tutduqları vəzifədən azad etmək səlahiyyətini də

patriarxa vermiş, ancaq bunları ümumi məclisin təsdiqinə təslim etməyi də şərt qoşmuşdur.

Yuxarıda qısaca ərz etdiyimiz "Nizamnamey-i Milleti Ermeniya"dan ermənilərin Osmanlı idarəsində son dərəcə sərbəst bir idarəyə qovuşduqları aydın olur. Rusiyanın İstanbul səfirinin baş tərcüməçisi Mandelştamın bu nizamnamə haqqında: "Erməni milləti 1863-cü ildə həqiqi bir qanuni əsasa, konstitusiyaya sahib oldu. Bu konstitusiyaya görə, ermənilər İstanbul patriarxxanasında toplanmaq üzrə bir ümumi məclisə sahib olmuş kimidirlər," – demişdir.

Tarix boyunca imperialist dövlətlər sərhədləri içərisində yaşayan digər millətləri öz təzyiqləri altına alaraq "assimile" edərkən, Osmanlı türklərinin ermənilərə tanıdıqları geniş imkanlarla özlərindən daha rahat bir yaşama haqqı verdiklərini görürük.

Romalı Prof. Yurqa XVIII əsrin sonlarında polşalı səyyah Mickoschanın: "Türklər tərəfindən ermənilərə başqa millətlərə göstərilməyən hörmət və izzət göstərilməkdədir. Ermənilər türklər tərəfindən verilmiş məzhəb hürriyyətinə rumlardan artıq sahibdirlər." – dediyini yazmışdır. (64)

Əgər türklər istəsəydilər, o möhtəşəm imperatorluğun hüdudları içərisində yaşayan macarlar, serblər, Balkan və Makedoniya qövmləri v.s. dil, din və sosial baxımdan türkləşdirilib əridilər və bu gün onların heç birindən ən kiçik bir iz belə qalmazdı. Amma xeyr! Türk dövlətinin vətəndaşlar arasında din, məzhəb və irq ayırımı etmədən hamısını bağrına basdığı, hətta bunların arasından erməniləri hər zaman həddsiz dərəcədə himayə etdiyi inkar edilməsi mümkün olmayan tarixi bir həqiqətdir.

Osmanlı ölkəsində türklərlə ermənilər arasındakı birlik XIX yüzilin ikinci yarısına qədər davam etdi. Bu tarixdən sonra Osmanlı dövlətində yaranmış siyasi vəziyyətdən faydalanmaq istəyən xarici dövlətlər, xüsusilə də Rusiya erməni komitəçilərdən istifadə etmək məqsədilə bir erməni məsələsi uyduruh ortaya atmışlar. Bu da Osmanlıların ermənilərə olan etimadını sarsıtmışdır.

İstanbul erməni patriarxlığı türk dövlətinə sadiq görünürdü. Rusiyadakı erməni kilsəsi isə rus siyasətinə alət olaraq Nersis Aştarakis adındakı katolikos "Vətən mühafizləri" adı ilə təşkil etdiyi 60 min nəfərlik bir quvvənin başında Rusiya – İran müharibəsinə qatılmışdı. Rusların əməllərinə alət olan katogikoslar Türkiyə ermənilərini öz nüfuzları altına almaq üçün görünüşdə sadəcə dini baxımdan özlərinə bağlı saydılar. Türkiyə erməniləri isə öz talelərini istədikləri kimi idarə edə bilmək üçün çalışmalarına başladılar. Lakin Rusiyanın Türkiyədəki səfarəti siyasi məmurlarının yardımıyla patriarxların bəzilərini ələ alaraq, onları yavaş-yavaş Osmanlı əleyhinə çalışmalara başlatdırdılar.

Osmanlı dövlətinin ermənilər haqqındakı yaxşı niyyətlə yazıb sənədləşdirdikləri "Nizamnaməyi-Milleti-Ermeniyə" nizamnaməsi heç bir işə yaramadı. Çünki artıq ermənilər Osmanlı dövlətindən ayrılmaq, türkün minillik ana Vətəni olan Şərqi Anadoluda müstəqil bir Ermənistan dövləti qurmaq niyyətində olub bütün çalışmalarını bu hədəfə yönəltmişdilər.

Osmanlı dövlətinin bu xoş niyyətinə qarşı ermənilər Zeytunda bir üsyan çıxardıb müstəqil bir erməni dövləti qurmaq istədiklərini bütün dünyaya elan etdilər.

1865-ci ildə bu fitnə-fəsad İstanbula sıçradı. Zeytunda üsyan edən ermənilərin liderləri İstanbula gəldilər. Erməni ocağı üzvləri və erməni ziyalıları bu azğın caniləri qurtarıcı olaraq böyük coşqunluqla qarşıladılar. Ermənilər qanunların sərhəddini aşaraq məmləkətin iç işlərinə və siyasətə qarışmağa başladılar.

Rusiya Türkiyədəki müsəlman olmayan azlıqları himayə edər kimi görünməklə kifayətlənməyir, onları Osmanlı dövlətinə qarşı təhrik edirdi. 1867-ci ildə Rusiya verdiyi bildiridə xristianlar haqqında Avropa hökumətlərinin nəzarətləri altında olmaq qeydilə aşağıdakı xüsusların yerinə yetirilməsini istəyirdi:

1. Osmanlı Avropasında torpaq paylaşımı əsaslarına görə olmalı.

2. İdarənin təyini.

3. Məhkəmə təşkilatlarının islahı.
4. Əsgəri islahat.
5. Mali islahat.
6. Təhsildə islahat.
7. Ümumi islahat.

Prins Korçakov Türkiyədə xaricilərə mülkiyyət haqqı verildiyi zaman (64) Rusiyanın Osmanlı dövləti ilə əlaqəli Şərq siyasətini "xristianlara müstəqillik" şəklində açıqlamaqdan çəkinmirdi.

XIX əsrin başından bəri Rusiya Türkiyədəki xristianların qoruyucusu rolunu oynayırdı. Rusiyanın Krım müharibəsində aldığı məğlubiyyətin nəticəsində səsi qısılmışdısa da, 1870 Fransa – Almaniya müharibəsi nəticəsində dünya siyasətinin pozulan müvazinəti onların səsinin açılmasına səbəb oldu. Osmanlı dövlətinin qəddar düşməni olan Prins Korçakov Rusiyanın Şərq siyasətini açıqlayarkən:"Ya xristianlara muxtariyyət verilməli, ya da Osmanlı imperatorluğunun analizi olunmalı və ya o imperatorluğun torpaqları parçalanıb bölünməlidir," – deyirdi.

Rusiya öz torpaqlarında ermənilərə ən ağır təzyiqləri edərkən ermənisiz Ermənistan siyasəti izləyir, erməni yazıçıları Türkiyə əleyhindəki yazılara təşviq edirdi. Bu ölkə Eçmiədzin katolikosunun Türkiyə əleyhindəki çalışmalarını əlindən gəldiyi qədər asanlaşdırmaq istəyirdi. Ermənilərin Türkiyədə çıxardığı üsyanları da müdafiə etməkdən geri durmurdu. Belə ki, İngiltərənin İstanbul səfiri Eliot öz hökumətinə verdiyi raportda: "...Onunla görüşən və hökumət işləri ilə heç bir əlaqəsi olmayan yüksək məqam sahibi bir ermənininin "Bütün bu hadisələrin rusun təşviqi nəticəsində baş verdiyini" söylədiyini və bu xəbərin digər mənbələrin verdikləri xəbərlərə uyduğunu" yazmışdır.

İngiltərənin İstanbul səfiri Eliot öz hökumətinə yazdığı başqa bir raportda belə yazır: "Məni ziyarət edən erməni patriarxı: "Əgər avropalıların bu hadisələrə qarışmaları və ya onların diqqətlərini bu işə cəlb etmək üçün bir ixtilal və ya bir üsyan çıxarmaq lazımdırsa, bunu etməyin heç də çətin olmadığını," – dedi."

Tarixi sənədlər incələndiyi zaman Anadoluda süni olaraq yaradılan erməni məsələsi Rusiyanın təşviqi və erməni millətinin liderlərinin, xüsusilə erməni din adamlarının uydurduqları hadisələrin nəticəsində ortaya çıxmışdır. Belə ki, 1877-1878 Türk – Rus müharibəsindən əvvəl Vandakı Varak kilsəsi papazlığından İstanbul erməni patriarxlığına tayin olunan Mıgırdıc Xrımyanın xaricilərin diqqətini cəlb etmək, xüsusilə Avropa dövlətlərinin müdaxiləsini həyata keçirmək məqsədilə Turkiyədəki ermənilərin yalnız xristian olduqlarına görə təzyiq altında olduqlarını, erməni qadınlarının zorla müsəlmanlaşdırıldıqlarını, onlara qarşı cinayətlər törədildiyini, din və vicdan hürriyyətinə hörmət edilmədiyini, buna görə üsyan çıxardıqlarını, üsyan çıxardıqlarına görə də qətl edildiklərini uyduraraq Avropaya yaymağa çalışırdı.

Ermənilər öz başlarına müstəqillik və ya muxtariyyət qazana bilməyəcəklərini anladıqlarına görə daima xarici böyük dövlətlərin yardımını və uydurma erməni məsələsinin həllinə əyilmələrini ön planda tutmuşlar. Buna görə də türklərin ermənilərə xristian olduqlarına görə zülm etdiklərini və hətta kütləvi öldürdüklərini hər tərəfə yayırdılar. Bu minvalla da özlərinin törətdikləri qətliamları asanlıqla maskalaya bilirdilər. Doğrusu, bir çox xristian yazıçıların da şahidlik və qəbul etdikləri kimi, din inam və düşüncə azadlığına ən çox əhəmiyyət verən dövlət bəlkə də Osmanlı dövləti idi. Bu mövzuda Edqar Granville belə deyir: "Erməni məsələsi Avropada müsəlmanlığa qarşı hiss edilən fanatizm səbəbilə Qərbə yaxınlaşmaq uçün çırpınan ermənilərlə müsəlmanlar arasında yüzillik bir çatışma şəklində tanıdılmışdır. Həqiqətdə isə bu, Osmanlıya düşmən dövlətlərin yaratdıqları oyunların süni bir məhsuludur. Keçmişdəki türk erməni əlaqələrinə baxıldıqda, onların yüzillər boyunca ən kiçik bir anlaşmazlığa düşmədən dostca yaşadıqları görünür. Osmanlı tarixinin bir az dərinliklərinə enə bilənlər imperatorluqdakı bütün irq çatışmalarının xaricilər tərəfindən çıxarıldığını görəcəklər..." (66).

Ermənilərin Osmanlı imperatorluğuna üsyan etmələrində və onların ixtilalçı vəziyyətlərə girmələrindəki xarici təsir və təhriklər belə sıralana bilər.

1. Rusiyanın 1877-ci ildə Qafqazı istila etdikdən sonra Çarın xidmətində liderlik edən erməni zabitlərin Osmanlı imperatorluğundakı ermənilərin bir çoxu ilə təmas qurmaları və bunların Osmanlı ermənilərini dövlətə qarşı təhrik etmələri. (67)

2. XIX yüzildən etibarən Osmanlı imperatorluğuna gəlməyə başlayan Amerikalı misyonerlərin istər məktəblər vasitəsilə, istərsə də danışıqlar apararaq təsir etdikləri ermənilərin mənşələrini araşdırıb milli duygularını inkişaf etdirmələri. (68)

3. Amerikadan Osmanlı imperatorluğuna gələn ermənilərin fəsadçı hərəkətlərə girişmələri. (69)

4. Avropa dövlətlərinin təhrikləri; böyük dövlətlərin erməni məsələsini yaratmaları və erməniləri sistemli bir şəkildə təhrik etmələri.

Yuxarıda göstərilən səbəblərlə Osmanlı imperatorluğunda müstəqil Ermənistan üçün başladılan üsyanlar bir nəticə verməmişdir.

1877–1878 Osmanlı – Rusiya müharibəsindən sonra Patriarx Nerses Varjapetyan və doqquz yepiskop rus çarına və Prins Korçakova müraciət edərək bir erməni muxtariyyatının qurulmasını tələb etdilər. 1878-ci ildə ruslar ermənilərin məskun olduğu Şərqi Anadolunu işğal etmişdilər. Onlar Qarsı əsgəri bir mərkəz, Batumu isə bir ticarət mərkəzi etmək istəyirdilər. O zaman ruslar ermənilərin yaşadıqları bütün Şərqi Anadolu vilayətini öz idarələri altında ermənilərin yaşadıqları bölgələrlə birləşdirməyi düşünürdülər. Lakin avropalı böyük dövlətlər buna razı olmazdılar. Ermənilərin Osmanlı torpaqları üzərində müstəqil bir dövlət qurmaları da rusların işinə yaramırdı. Çünki belə bir vəziyyət yaradılsa idi, Rusiya vətəndaşı olan ermənilər həmcinsləri ilə birləşmək istəyəcəkdilər. Bu da rusları qane etmirdi. Əslində ruslar Türkiyədə müstəqil bir Ermənistanın qurulmasını istəmirdilər. Onların hesabı ermənilərin ağızlarına bal sürtüb onlardan istifadə etmək və Osmanlı imperatorluğunu yıxmaq idi.

Ermənilər Osmanlı imperatorluğu içərisində müvəffəqiyyət əldə edə bilmirdilər. Meydan xarici ölkələrdə yaşayan ermənilərə qalmışdı. Xaricdəki erməni hərəkatına iki qrup hakim olmuşdu. Bunların biri Fransa və İsveçrədəki erməni tələbələrin 1887-ci ildə qurduqları Hncak komitəsi, digəri isə Rusiyada çarın ölkəsindəki radikalizmi yox etmək üçün həyata keçirdiyi təzyiqlər nəticəsində dağılan erməniləri birləşdirmək məqsədilə 1890-cı ildə qurulan İxtilal Federasiyası, başqa adıyla Daşnaksutyun komitəsi idi. Bu komitələr haqqında sonrakı səhifələrdə geniş məlumat verəcəyik. Qısacası, bunların proqramlarındakı ortaq xüsusiyyətlər belə müəyyənləşdirilə bilər:

1. Osmanlı torpaqlarına girərək dövlət məmurları ilə ermənilərə qarşı fərq qoymadan hücum etmək.
2. Təxbiş və qətliamlar törədəcək qruplar (partizan qrupları) qurmaq.
3. Böyük dövlətlərin müdaxiləsini təmin etmək və müsəlmanların qovulacaqları və ya öldürüləcəkləri altı Anadolu vilayətində müstəqil bir Ermənistan Respublikası qurmaq (70).

Bu komitələr tərəfindən törədilən bütün hadisələrdə xarici güclərin böyük rolları olmuşdur. Xüsusilə Rusiya Osmanlı imperatorluğunun daxili işlərinə qarışa bilmək üçün ermənilərdən artıqlaması ilə istifadə etmişdir. Şərqi Anadoludakı kürd türklərini təhrik edərək ermənilərə hücüm etdirmək, onları davamlı olaraq Osmanlı hökumətinin acizliyi qarşısında xarici güclərə müraciət etdirmək Rusiyanın əsas siyasəti olmuşdur. (71). Onsuzda ermənilər dünyanın böyük dövlətlərinin, xüsusilə Rusiyanın Osmanlı dövlətinə müdaxilə etməsini hazırlamaq məqsədilə yalan-yanlış, uydurma hadisələri ortaya ataraq bütün dünyaya yayırdılar. Onlar qətliam təbliğatını yüzildən artıq bir zamandan bəri sürdürməkdədirlər. Bu gün belə Amerikada, Rusiyada, İngiltərədə, Fransada və digər böyük ölkələrdə 1,5 milyon erməninin türklər tərəfindən öldürüldüyünü təbliğ etməklə yanaşı, abidələr qurdurur, haqlarının yeyildiyini söyləyir, özlərini yazıq yerinə qoyurlar.

Uzun bir zamandan bəri sürdürülən bu məqsədyönlü təbliğatı açıqlamaq üçün uzun illər Van və Bitlis vilayətlərində Rusiya konsulu olaraq çalışmış Mayevskinin "Van və Bitlis vilayətləri əsgəri statistikası" adlı kitabından bizim mövzu ilə əlaqəli bəzi bölümləri oxucularımıza çatdırmaqda fayda vardır.

"...Müsəlmanlara gəlincə, türklər xristianları kəsərlər, kəsdiklərinin orqanlarını ayırarlar, qadınlara zorla təcavüz edərlər və s. Əgər Avropa qorxusu olmasaydı, Şərqi xristianlardan yer üzündə əsər qalmazdı... Qətliam kəlməsi Qərbin dilinin balzamı halındadır...

Buna bənzər çirkin iftiralar qətiyyətlə rədd edilməlidir. Əgər Avropa Şərqin xristianlarıyla daha az məşğul olarsa, çox təşəkkür alarlar. Çünki Trabzon vilayətində yaşayan bütün xristianlar hallarından son dərəcə məmnundurlar. Burada erməni də var, rum da... Lakin Avropa barmağı yoxdur... Ona görə də buradakı xristianlar məsuddurlar.

Müsəlmanlar və türklərə yaraşdırılan vəhşiliyi təkrar-təkrar və qəti olaraq rədd etmək lazımdır. Çünki türklər xristianlara qarşı böyük bir üstünlüyə sahibdirlər.

Müsəlmanları və xüsusilə türkləri yaxşıca tanıyıb bilənlər bunların bəzi gözəl əxlaq və xasiyyətlərini keçmiş qəhrəmanların həyatına bənzətməkdən özünü tuta bilməz. Bu bir çox hadisə ilə sənədləşdirilmişdir. Aşağıda təqdim etdiyimiz hadisə bunlardan biridir:

Son əsrdə türklər torpaqlarının yarısından çoxunu itirmişdilər. Türklərin ruslardan gördükləri zərərlər fransızların almanlardan gördükləri zərərin on qatıdır. Buna baxmayaraq, türklər arasında ruslara qarşı hörmət vardır. Bu hörmətin türklərin ruslardan qorxduqlarına görə olduğunu saymaq yanlış olardı. Çünki aşağıdakı nümunə göstərir ki, türklər xain və kin saxlayan deyildirlər. Türklər istər onlara qalib gələnlərə, istərsə də onlara məğlub olanlara qarşı sülh hissi keçirərlər.

Yunan müharibəsindən sonra türklərin ilk zamanlarda rumlara qarşı bir düşmənçilik hissi bəsləmələri lazım idi. Lakin həqiqətdə buna bənzər hissləri açığa çıxaran bir türk, hətta yu-

nan muharibəsi zamanında Anadoluda rum kəndlərinə qarşı pis bir davranış görülmədi. Bu, heç bir türkün ağlına belə gəlməmişdir.

Müharibədən sonra hər cür düşmançilik unudulmuş və adətən aralarında heç bir şey olmamış kimi bir vəziyyət ortaya çıxmışdır. Bu vəziyyət erməni hadisələri ilə qarşılaşdırılırsa, görəsən yunan muharibəsi zamanı niyə Anadoluda bir rum kəndinin qətliam hekayəsi yada duşmədi? Bu sual istər-istəməz ağıla gəlir. Əgər türklər Qərbin dediyi kimi, həqiqətən, qana susamış barbardılarsa, bundan daha yaxşı bir fürsət ələ duşərdimi? Madamki rumlar Osmanlı dövlətinə müharibə elan ediblər, "hərdə bir rum gördün, vur öldür!" - türklər üçün bundan daha asan bir iş olardımı? Bəlkə böyük şəhərlərdə Avropa müdaxiləsi ağıla gələ bilərdi. Lakin kənarda, bir küncdə qalmış bir neçə evlik rum kəndləri türklərin qarşısında Yunanıstana yardım toplayarkən bunların heç birində qətliam etmək "barbar"(!) türklərin ağlına belə gəlməmişdir. Elə isə, bəs ermənilərlə türklər arasında o qanlı döyüşlər, qırğınlar, qətliamlar niyə baş verdi? Bəli, türk yunan muharibəsi namuslu bir müharibə idi. Fəqət erməni-türk boğazlaşmasının xarici görünüşü başqa, daxili görünüşü başqa olmuşdur. Burada satqınlıq, ikiüzlülük, xəyanət və bir çox gizli məqsədlər güdən bir komediya oynanmışdır. Bu məsələdə müsəlmanların ermənilərə qarşı düşmənçiliyini göstərəcək heç bir iz görülməmişdir. Rum və başqa xristian xalqı bu məsələdə tərəfsiz qalmış və heç bir zərər görməmişlər.

Xarici mətbuatın alçaq iftiralarını oxuduqca gözlərinə inana bilmirsən. Bir də yazılıb-söyləndiyi kimi xristianlar arasında islam dinini yayma məsələsi son əsrdə heç bir yerdə görülməmişdir. Bu xəbərlər qəti olaraq yalan və iftiradır. Məsələn, Van və Bitlis vilayətlərində heç kəsin ağlına din və məzhəb çalışması gəlməmişdir. Xristianlardan tək-tük müsəlman olan varsa da, bunda zərrə qədər məcburiyyət, aldatma və qorxutma olmamışdır. Bu, tamamilə yalan və iftiradır. Xüsusilə Avropa müdaxiləsi olacağı səbəbilə ermənilərin yoxsulluq üzündən islam di-

nini qəbul etməyə məcbur edildiklərinə dair çıxan xəbərlər başdan-başa yalan və uydurmadır. Məsələn, bir gün 1891-ci ildə Trabzonda müsəlman olmaq üçün valiyə müraciət edən bir rum məsələni valiyə açıqladığı zaman valinin ona verdiyi suallara cavab verdikdən sonra vali polis rəhbərini çağırtdırıb haqqında qanuni işləm aparılmasını əmr etmiş, sonra da bir fincan kofe içirtdikdən sonra (bu kofe qonaqlığı Trabzonda çox məşhurdur) biçarə ruma əlli dayanak vurdurmuş, sonra da sərbəst buraxdırmışdır. Bax, Osmanlı hökümətinin xristianları müsəlman olmağa məcbur etməsi dedi-qodusuna gözəl bir misal..."

General Mayevskinin kitabının başqa bir bölümündə də: "Erməni kəndləri davamlı bir oğurluq və banditizm altında qalmamışdır. Əgər həqiqət belə olsaydı, indiyə qədər bu bölgədə heç bir erməni kəndi qalmazdı. Halbuki erməni kəndliləri türk kəndlilərindən daha zəngin və gəlirlidirlər." - deyilir.

Yüz ildən artıq bir zamandan bəri, tarixin ən keçmiş zamanlarından günümüzə qədər imperatorluqlar qurmuş, tarixin axışına istiqamət vermiş, çığırlar açmış Böyük Türk millətinin şərəf və şanla dolu tarixinin sona çatmaq üzrə olduğuna inanan erməni kilsəsi və onun din adamları ermənilər türklərə qarşı qatı düşmən etmək üçün əllərindən gələn hər cür pisliyi etmişlər. Onlar öz millətinin fəlakətini hazırlamaqla yetinməyib bir çox məsum türkün də qanının axıdılmasına səbəb olmuşlar. Bu həqiqəti rus generalı, "Bitlis və Van vilayətləri əsgəri statistikası" kitabının müəllifi General Mayevski belə açıqlayır: "...Erməni ruhani rəislərinə gəlincə, bunların din haqqında heç bir çalışmaları yoxdur. Buna qarşılıq, onların milli fikirlərin inkişafında "böyük xidmətləri" (!) olmuşdur. Yüz illərdən bəri onların düşüncələri monastırların səssiz divarları arasında inkişaf etdirilmişdir. Bu düşüncələrdə ruhani ayin yerinə xristian-müsəlman düşmançılığı yerləşdirilmişdir. Məktəblər və kilsə məktəbləri bu xüsusda ruhanilərə çox kömək etmişlər. Beləcə, din yerinə milli hislər keçmişdir. Ermənilərin qəlbində din duyğusu yox deyiləcək qədər az yer tutar. Buna görə erməni komitəçiləri papazları çox tez öz aralarına aldılar. Onlar türklərə son dərəcə

nifratla baxmağa başladılar. Şərq xristianları və kilsələri xristianlığın əsas inam və ənənələrini bir tərəfə buraxıb din yerinə millət təbliğatını özlərinə məşələ etmişlər.

Qərbli diplomatlar da öz tərəflərindən bu millət qasırğasından zalım bir tərzdə faydalanmağa çalışmışlar. Onlar ermənilərin milli hislərini qıcıqlandıraraq, heç sıxılmadan Türkiyədə uydurulmuş bir erməni məsələsini ortaya çıxarmışlar..."

Yazıçı rus ordusu üçün erməni məsələsini rusun xeyri baxımından göstərmiş və erməni-türk münaqişəsinin həqiqi cavabdehinin öz millətindən çox qərbli diplomatların olduğunu isbat etməyə çalışmışdır.

Osmanlı dövləti tərəfindən bir lütf olaraq verilən "Nizamnameyi Milleti-Ermeniyan"ı erməni patriarxları öz millətinin rifah və inkişafı üçün istifadə etmələrinin əvəzinə onu tərs bir yöndə, bir çox hadisələrin çıxmasıyla nəticələnən siyasi çəkişmələrdə istifadə etdilər.

Bura qədər verdiyimiz açıqlamalar bu həqiqəti ortaya qoyur: ermənilər yunanlıların Avropa dövlətlərinin müdaxiləsi sayəsində əldə etdikləri müstəqilliyi nümunə alaraq Anadoluda müstəqil bir Ermənistan qurma siyasətinə sarılmışlar. Bu siyasətin çıxılmaz bir yol olduğunu və erməni millətinin fəlakəti ilə nəticələnəcəyini söyləyən ağlı başındakı erməniləri xainlik və qorxaqlıqla günahlandırmış, bir çox günahsız insanın qanını boş yerə axıtmışlar. Aradan bu qədər zaman keçdikdən sonra eyni boş düşüncələrə batmış ermənilərin mövqeyi, həqiqətən, üzüləcək bir mövqedir.

## ERMƏNİLƏRİN DİNİ İNAMI

Qədim zamanlarda ermənilər iranlıların təsiri altında Günəşə, Aya, atəşə Nəmrud kimi alov saçan yanar dağlara, ulduzlara sitayiş edərdilər. Onlar yaxşı və pis ruhlara, dünyanın bir öküzün buynuzu üzərində durduğuna, zəlzələnin də bu öküzün buynuzunu tərpətməsilə baş verdiyinə inanardılar. O

zaman onların məbədləri yox idi, dini ibadətlərini açıq havada yerinə yetirər, Ayı təbiətin anası, ağac və bitkilərin bəsləyicisi olaraq qəbul edirdilər. Ermənilər ruhların pisliklərinə uğramamaq üçün sehr və əfsuna da əhəmiyyət verirdilər. Günəşə atı, öküzü, keçini və qoyunu qurban edərdilər. Erməni məbudlarının bir qismi Hindistan və İran dinlərindən gəlmişdir.

Ermənilərin inamına görə, Armazad bütün bütlərin atası, yerin, göyün yaradıcısı, feyz və bərəkət bütü idi. Armazadın Kemahda (səcdəgah) tapınağı vardı. Anahit millətin qızı, müqəddəs bakirə və ən böyük ilahə sayılırdı. Onlar müqəddəs bakirə saydıqları Anahitə keçini qurban edərdilər. Ermənilər bu ayin gününü xristianlığı qəbul etdikdən sonra da yaşatmışlar. Bu ayinə "İsanın təcəllisi" bayramı demişlər. Bu bayrama gül bayramı da deyərmişlər. Anahitin heykəlini güllərlə örtərmişlər.

Bütün bunlardan başqa ermənilər Yunan, Roma, Hind və İran dinlərindən alınmış bir çox bütlərə də sitayiş etmişlər. Ermənilərin Roma ilə əlaqələri çoxaldıqca, miladdan əvvəlki yüzildə, yəni romalıların ermənilərə hakim olduqlarından sonra Roma və yunan inamları və məbudları yayqınlaşmışdır.

Ermənilər xristianlığı qəbul etdikdən sonra İranın təzyiqi ilə öz dinlərini dəyişdirməyə zorlanmışlar. Buna görə də bugünkü ermənilərin xristianlıq anlayışları digər millətlərin xristianlıq anlayışından fərqli olmuş, İranın zərdüştlük və bütlərindən bir çox izlər görülməkdədir. Erməniləri digər xristianlardan ayıran xüsusiyyətlərdən biri də onların nəzir qurbanı kəsmələridir.

## ERMƏNİLƏRİN XRİSTİANLIĞI QƏBUL ETMƏLƏRİ

Xristianlıq Ermənistana aşağı Ermənistanın kralı Apkarın (Ukama) cüzam dərdinə şəfa diləmək üçün Hz.İsaya bir məktub yazıb, ondan yardım və rəsmini istəməsilə girmişdir. Hz İsa da bezi üzünə sürtmüş, rəsmi bu bezə çıxdıqdan sonra həvarilərindən Tatyos Karanı Apkarın yanına göndərmişdir. Xəstə

Hz.İsa adından sagaldıqdan sonra Tatyos Apkarı vaftiz etmişdir. Beləcə, xristianlıq Ermənistana daxil olmuş və ermənilər dünyada ilk olaraq xristian olmuşlar. Bu sözlərin tarixi həqiqətlərlə bir əlaqəsinin olmadığını yenə erməni tarixçiləri özləri bildirmişlər. (72).

Erməni tarixçilərinə görə, xristian dini ilk dəfə 4-cü əsrdə Kirkor Lusaroviç tərəfindən Ermənistanda yayılmışdır. Erməni tarixçisi Novres Xorenli Kirkor Lusaroviç barəsində belə deyir: "Tiridad çoxdan itirdiyi hökuməti əlinə alınca bu müvəffəqiyyəti ilahə Anahitin lütf və himayəsindən bilərək ilahə adına məbəddə qurban kəsdi. Yanındakılara və Kirkor Lusaroviçə bu ilahəyə təşəkkür üçün mehrabına çiçəklərdən və budaqlardan bir çələng təqdim etməsini əmr etdi. Kirkor Lusaroviç xristian olduğu üçün kralın əmrini rədd etdi. Kirkorun xristian dinindən dönməsi üçün ona çox işgəncələr edildi. Onu zəncirə vurub Ağrı (Ararat) dağına göndərdilər və orada onu bir quyuya atdılar. Kirkor orada on beş il yaşadı. Erməni kralı Tiri-dad rahibələrlə evlənmək istədi. Rahibələr razı olmadılar. Tiri-dad o rahibələrı öldürtdü. Bu hadisədən sonra Tiridadın vücuduna şeytan girdi. Krala onu ancaq Kirkor Lusaroviçin sağalda biləcəyini söylədilər. Bu səbəblə Kirkor quyudan çıxardılır və o, kralı sagaldır. Bu hadisədən sonra Kirkor Lusaroviç etibar görür. Köhnə ibadətgahlar sökdürülür. Beləcə xristian dini Ermənistana girmiş olur. Sonra Kirkor Lusaroviç Ermənistanın ruhani başı olur. Kirkorun nəsli tükənincəyə qədər ermənilərin ruhani başları hey Kirkorun soyundan gəlir. Bunun ermənicəsi katogikosdur ki, bu, "millətin təmsilçisi" deməkdir. Onun siyasi işlərdə də çox əhəmiyyətli vəzifəsi vardır. İlk katogikoslar Ecmiadzində yerləşdilər. Halbuki Kirkor Lusaroviç Muşdakı Ardişatda yerləşmişdi. Ecmiadzin VII əsrdə əhəmiyyət qazanmışdır. Katogikos Komidas (619-623) də Eçmiadzin kilsəsini təmir etdirdi və ora yerləşdi.

Erməni kilsəsi Latın və Ortodoks kilsələrindən ayrı inamlara sahibdir. Ermənilər ilk üç məclisin inamlarını qəbul, digərlərini rədd edərlər. Beləcə onlar həm Latın katolik, həm də Rum ortodoks kilsələrindən ayrılarlar. Bunlara Qriqoryanlar

deyilir. Ermənilər arasında katolik və protestant olanlar da vardır. Bunlar Qriqoryanlara uymazlar.

İran hökmdarı II Yezdicerd ermənilərı xristianlıqdan döndərmək üçün onlara çox böyük təzyiqlər etmişdir. Ermənilər dinləri üçün Yezdicerdə qarşı çıxmış, Yezdicerdin ağırlığı qarşısında Bizans imperatoru Marciendən yardım istəmişlər. İmperator ermənilərə yardım etməmişdir. Bu hadisə ermənilərin rum kilsəsinə qarşı olmalarına səbəb olmuşdur. İran qüvvələrinin Ermənistanı istila etməsilə ermənilər rum kilsəsindən daha çox uzaqlaşmışlar.

Tarixçilərə görə, ermənilərin ilk ruhani mərkəzləri Kutahyadır. Bu mərkəz Osman bəyin Bursanı işğal və paytaxt elan etməsi nəticəsində bura daşınmışdır.

Erməni kilsəsini Roma kilsəsindən ayıran xüsuslar bunlardır.

1. Ermənilər Romanın üstünlük və hakimiyyətini qəbul etməzlər.
2. Chalcedoince ruhani məclisinin qərarlarını qəbul etməzlər.
3. İsadakı baba ilə eyni təbiət və cövhərdə bir uluhiyyət olduğuna inanırlar.
4. Arafa (təmizlənmə) inanmırlar.
5. Papanın günah bağışlamasını rədd edirlər.
6. Heyvanları qurban edər, keçmiş zamandakı ayinləri sürdürərlər.
7. Roma kilsəsinin "İncil"ə olan yozumlarını qəbul etməzlər.
8. Eçmiadzin... (Allahın biricik övladının endiyi yer deməkdir). Ermənilərə görə, Hz.İsa bura enmiş və ilk kilsəni qurmuşdur. Roma kilsəsi isə Saint Pierre tərəfindən qurulmuşdur. Saint Pierrenin Hz.İsanın xələfi olduğunu qəbul edən Roma kilsəsinə qarşılıq Papanın üstünlüyünü qəbul etməzlər. Buna görə Papanın təfsirlərinə qiymət verməzlər.

Bu gün ermənilər arasında ən çox yayılmış olan kilsə Qriqoryan erməni kilsəsidir. Ermənilər arasında katolik və protestantlar da vardır. Lakin onlar azlıqdadırlar və bir-birlərini sevməzlər, aralarında düşmənçilik vardır.

## TƏHSİL YUVALARIMI, YOXSA...?

Osmanlı dövlətinin "Erməni millətinin nizamnaməsi" ilə erməni protestant kilsəsini tanıması Amerika missionerlərinin qayələrinə çatmaq üçün rahat "çalışmalarına" imkan hazırlamışdı. Müsəlmanları və yəhudiləri xristianlaşdırmaq üçün Türkiyəyə gələn Amerikalı missionerlər yerli xristianlar arasına girərək türkə qarşı fəaliyyətlərə başladılar.

İstanbuldakı Robert kolleci xristian papazı Dr.Syrus Hamlin tərəfindən qurulmuşdu. Məqsəd türklüyü yox etmək, xristianlığı yaymaq idi! Kollec ilk olaraq "Erməni keşiş məktəbi"nin bir dairəsində ixtilalçı təhsilə başlamışdı. (73). Məktəbin bütün xərcini Fransız yəhudilərinin çəkdiklərini söyləməkdə fayda vardır. Onu da qeyd etməliyik ki, bolqar ixtilalını təmin edən bir çox erməni komitəçiləri bu kollecin məzunları idi.

Amerikalı misyonerlərin erməniləri türklərə qarşı təhrik etdiklərini anlatmaq üçün tipik bir nümunə olaraq onların Qaziantepdə göstərdikləri fəaliyyətlərini anlatmaq kifayət edər.

1817-ci ilə qədər Qaziantepdə misyoner olmamışdır. Türkiyə erməniləri ilə məşğul olan Amerikan Bord ajanı 1818-ci ildə bu şəhərə yerləşərək çalışmalarına başlamışdır. (74).

Ali Nadi Ünler "Qaziantepin müdafiəsi" adlı əsərində Amerikalı misyonerlərin Qaziantepə gəlişlərindən əvvəl Qaziantep şivəsi ilə türkcə danışdıqları və ermənicəni Amerika kollecində öyrəndiklərini qeyd edir. (75).

Amerikalı misyonerlər Qaziantepdə yaşayan erməniləri təhrik etmədən əvvəl onlar ibadətlərini belə türkcə yerinə yetirirdilər.

İstanbulda qurulan ilk kilsələr birliyindən sonra ikincisinin 1848-ci ildə Qaziantepdə qurulması diqqət çəkicidir. Amerikalı misyonerlər Qaziantepdə bir tibb fakültəsi, bir də Amerika kolleci qurdular. (76). Bu fakültədən məzun olanlar Amerika təqaüdü ilə Bəhakdə ali təhsil görüb təkrar Qaziantepə dönürdülər. Qayacıq protestant məktəbinin 58 tələbəsindən 52-si

Türkiyə əleyhdarı bir təşkilat olan "Kiliya ittihade"nin təqaüdü ilə oxuyurdular. (77)

Erməni mənbələri 1860-cı ildə İstanbulda 42 erməni məktəbinin olduğuna işarət edir. 1871-ci ildə isə İstanbuldakı erməni məktəblərinin sayı 51 olmuşdur. O zamanlar hələ bütün erməni məktəblərinin idarəsində əsas olan nizamnaməyə görə:

"Maddə 3. Tələbə hər sabah dərslərə başlamadan əvvəl kilsəyə gəlməli və dini ayinlərdə iştirak etməlidir. Dərslərin sonunda isə kilsədə dua etmədən evinə dönməməlidir...

Maddə 7. Dini tədrisə son dərəcə yüksək əhəmiyyət verilməlidir.

Maddə 8. Tələbənin erməncə danışmasına və xarici kəlmələrdən istifadə etməməsinə ciddi əhəmiyyət verilməlidir."

Osmanlı dövlətində "Maarifi-Umumiyə Nezareti"nin quruluşu 1847-ci ildə olmuşdur. Bundan 6 il sonra 22 oktyabr 1853-cü ildə də "Erməni maarif komissiyası" qurulmuşdur. Reforma fərmanında "Dövlətin müsəlmanların dövləti" olmadığı qəbul edilməsilə, Dr Serviçen, Kaspar Sinapyan, Dr.Panarok Feruhan kimi erməni liderlərindən əmələ gələn "Erməni maarif komissiyası"nın milli bir erməni təşkilatı olması son dərəcə yadırğanacaq bir hadisədir. Göründüyü kimi, ermənilərin imperatorluq hüdudları içərisində ayrı məktəbləri, müəllimləri, maarif komissiyası olmuş və istedadlı erməni tələbələrinə dövlət tərəfindən yardım edilmişdir. (78)

Bu maarif komissiyasının milli erməni ideologiyası istiqamətində işləyən və qısa bir zamanda yüzlərcə məktəb açan bir quruluş olduğu görülür. Bu məktəblər erməni ixtilalçılarla əməkdaşlıq halında olmuş, hətta xarici ölkələrdən gələn ajanlara bu məktəblərdə dərslər verdirilmişdir. Bu məktəblər sayəsində erməni cəmiyyətinin "təhsili" yetərsiz qaldıqda, erməni cəmiyyətinin "təhsilində" patriarxxanaya bağlı bəzi təşkilatlar erməni cəmiyyətinə kömək etmişlər.

Beləliklə, Birinci Dünya müharibəsi yaxınlaşarkən erməni azlığı milli təşkilatlanmasını tamamlamış olurdu. Xüsusilə ermənilərin haqq iddia etdikləri bölgələrdə açılan və müharibə

zamanı ermani güclarinin döyüş sursatlarının ambarı olaraq istifada edilan maktablarin sayı mini aşmışdı. Əlda edilan malumata gora, Birinci Dünya müharibasi arafasinda Asiya Türkiyasinda 1.145 ermani Qriqoryan maktabi vardı. Bu raqama katolik ermani maktablari, protestant ermani maktablari va xüsusi ermani maktablarini da alava etdikda "maktablarin" sayı xeyli artır.

Ermani ganclarini coşdurmaq üçün tablolar hazırlayır, ermani döyüşçülarini oyan va ermani uşaqlarını hala beşikda ikan türk düşmançılıyı ila tarbiya edan laylalar, şeirlar yazan ermani şairlari va tablolar cızan ermani rassamlarını da unutmamaq lazımdır (79).

Bu arada, 1877-1878 türk – rus müharibasinda rus ordusuna qoşulan iki ermani generalı Arşak Derqosyan ila Loris Melikovun adları da milli ermani faxrlari arasında dolaşır, onların rasmlari har bir ermani maktabina paylanıb, uşaqların qoyunlarında gazdirilirdi.

"Artıq çatlayan imperatorluqdan sağlam bir Ermanistan çıxarmanın har cür şartlari hazır idi. Türkün tütününü bükdüklari siqaret kağızlarında bela Ermanistan xaritalari vardı. Osmanlı ermanilari har bir qırmızı içkini türk qanı deya hopmağı adat halına gatirmişdilar." (80).

Türkün qanını içmak üçün qurulan maktablar silah anbarı kimi istifada olunurdu. Uzun illar müsalman türkün diqqatından qaçan bu haqiqat Ərzurum hadisalari ila ortaya çıxacaqdı. (81)

Türkiya sarhadlari içarisinda bir masala çıxarmaq üçün bahana axtaran komitaçilar Rusiyadan bol miqdarda gatirdiklari silahları, bombaları Ərzurumda Sanasaryan maktabila kilsalara doldururdular. Ərzurum valisi Samih paşa vaziyyatdan xabar tutunca buraların axtarışını amr etdi. Komitaçilar amri avvalcadan öyranmiş va ehtiyat işlari görmüşdülar.

Axtarış üçün galan zabitlarin üzarina ataş açıldı. Üç türk asgarı va bir türk polisi şahid edildi. Buna baxmayaraq silah üçün ambar halına gatirilan maktab va kilsalar arandı, çox say-

da tapança, mərmi, qılınc düzəltməyə yarayan mexanizmalar tapıldı." (82).

Erməni komitəçilərinin zərərli fəaliyyətləri Osmanlının daxili vəkaləti tərəfindən təsbit edilmiş və əsgəri mətbəədə neşr edilmişdi. Erməni məsələsinin ən əhəmiyyətli mənbələrindən biri olan bu kitabda komitəçilərin məktəblərdəki fəaliyyətləri haqqında bu qeydlərə rast gəlirik:

"...Komitəçilər məktəblərə də girdilər. Müəllimlər, xüsusilə fanatik daşnak, hncak və ramqavar mənsublarından seçildi. Uşaqların fikirlərini pozacaq ixtilal, millət və istiqlal üzərinə kitablar yazılmağa, türklüyə və türklərə qarşı nifrət və kinləri artıracaq əsərlər hazırlanmağa başlandı." (83).

İndi də ermənilərin 1-ci sinifdən başlayaraq orta məktəblərdə oxudulan kitablardan nümunələr verək:

"Hamiyeti Yervant" başlıqlı yazı belədir: "Yervant dostumuzdur. Onu çox istəyirəm, çünki patriot bir uşaqdır. Çox gözəl ermənicə danışır. Dilimizə, milli tariximizə aid dərsləri bütün diqqətilə təqib edir. Ana dilini bilməyən, danışdıqda xarici kəlmələrdən istifadə edən və daima Avropa kitablarını oxuyan uşaqlara oxşamır. O, sizə erməni məsəllərini, erməni krallarının qəhrəmanlıqlarını və uğradıqları fəlakətləri izah edə bilər. Harda məhlərəm bir erməni yazıçının rəsmini görsə, tanıyar və sizə onun ismini söyləyə bilər." (84).

Eyni kitabda "Erməni uşağı" adlı bu şeirə rast gəlirik:

"Mən erməni nəslindən bir erməni uşağıyam,
Haykın, Aramın dilini danışıram,
Tacım, qızılım, almazım yoxdur,
Lakin könlüm zəngindir.
Namusluyam.
Millətimin həsrət və sevgisi ilə yanıram.
İçimdə qəhrəmanların ruhu yaşayır.
Əcdadımın ruhundakı müqəddəs atəşini xəzinələrə dəyişmərəm.
Hər nə qədər bədbəxt olsa, zülm və işgəncəyə uğrasa,
Erməni heç bir zaman heç kəsdən çörək dilənməz..."(85)

Eyni yazıçılar orta məktəblər üçün bir oxuma kitabı da yazmışlar. Bu kitabda "Erməni uşağı" adlı bir başqa şeirdə də belə deyilir:

"Ey erməni uşağı,
Qəhrəman uşaq,
Sən qəhrəman Vartanın nəslindənsən.
Namuslu ol,
Millətin səninlə öyünsün,
Böyük bir alim ol,
Vətəninə rəhbərlik et,
Böyük bir lider ol.
Millətinin ruhunu ucalt
Hər erməni uşağı
Qəhrəman əcdadının əsərini təqib etməyə
Və Vətənə hörmətli olmağa
Məcburdur." (86).

Eyni kitabdakı "İttihad" adlı bir şeirdə belə deyilir:

"Ermənilər!
Hansı məzhəbdə olursunuz olun,
Daima yan-yana çalışın,
Eyni tarixə, eyni dilə sahibsiniz,
Bir-birinizə bağlı qalın.
Ermənilər!
Hansı komitəyə mənsub olursunuz olun,
Daima əl ələ yeriyin,
Bir dilimiz, bir vətənimiz var,
O halda bir qayəyə, bir ruha sahib olun.
Ermənilər!
Hansı mövqe və sinifdə olursunuzsa olun,
Daima könül-könülə bağlı qalın,
Həyatınızı daima eyni fırtına dağıtdı
Ayrılmaz və axirətdə bir dostlar olun.

Ermənilər!
Hansı ulduz altında yaşayırsanız, yaşayın,
Çalışırsanız, çalışın,
Sizə qardaşlıq sevgisi lazımdır.
Babalarınız
Məzarlarından
Sizə ittihad tövsiyə edirlər..." (87).

Başqa bir dərs kitabında (88):

Birinci dərs Ermənistandır. Atalarımızın yaşadıqları qitəyə millətimizin adına nisbətlə Ermənistan deyilir ki, indiki vəziyyətdə üç dövlət arasında bölüşülmüşdür. Ermənistan əvvəlcə çox izdihamlı məsud bir qitə idi.

Ermənistan Şimalda Pontus (Qara dəniz) və Rasdan (Gürcüstan), Şərqdə Xəzər dənizi və İran, Cənubda Assuristan və Əlcəzair, Qərbdə Alıs çayı (Qızılçay) ilə çevrəlidir."

Eyni kitabda (89) belə deyilir:

"Türkiyədə ermənilər. Ermənistanın böyük bir qismi türklərin əlinə keçdikdən sonra tatarların zülmü təkrar başladı. Ermənilər və digər millətlər konstitusiyanın elanına qədər uzun zaman iztirab çəkdilər. Rusiya hökuməti xristianları himayə məqsədilə Osmanlı hökumətinə müharibə elan etdi..."

Və erməni məsələsi belə anladılır (90):

"Ermənistanda meydana gələn zorakı ihtidalar, qəsb və qarətlər, qətliamlar və s. kimi hunqarlıqlar ermənilərin imhası üçün Sultan Həmid hökumətinin icraatı, ermənilərin vəziyyəti türkləri Avropaya şikayətə səbəb oldu. Beləcə, erməni məsələsi ortaya çıxmış oldu.

1878-ci ildə türk – rus müharibəsi bitdi. Ayestefonasda xarici səfirlərin hüzurunda anlaşma imzalanarkən ermənilərin möhtərəm patriarxı Nerses Varjapetyan səfirlərə ermənilərin çəkdikləri ələm və iztirabları anladaraq buna bir çarə tapmalarını xahiş etdi. Erməni məsələsi 16-cı maddə şəklində qəbul olundu. Lakin həmin ildə Berlində keçirilən konfrans bunu pozaraq istəklərimizi 61-ci maddə ilə sağlamlaşdırdı..."

Eyni kitabda erməni komitələri və erməni qətliamları adı altında özlərini haqlı göstərən, körpə beyinləri zəhərləyən bir qisim yazılara yer verilmişdir. (91)

Orta məktəbin coğrafiya kitablarında Vanın adı – Vasporaqan, Ərzurumun adı – Qarin, Diyarbəkirin adı Dikranagerd olaraq keçir.

"...Coğrafiya kitablarında ən çox təfsilat Şərq vilayətlərinə ayrılmışdır. (92). Komitəçi müəllimlər Osmanlı dövlətindən bəhs etdikləri zaman türklərin Anadolu vilayətlərini ermənilərdən zəbt etdiklərini, hər bir erməni üçün atalarının məmləkətlərini türklərin boyunduruğundan qurtarmağa çalışmanın milli bir vəzifə olduğunu anladırlar. Komitəçilərin əməllərinə görə tərtib edilən və patriarxxana tərəfindən seçilən kitabların məktəblərdə oxudulması məcburi idi. Ədəbiyyat kitablarına daxil edilən çox həyəcanlı, qədim və yeni şeirlərin tələbələr tərəfindən əzbərlənməsi məcburi idi. Tələbələrə verilən dəftərlərdə, ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat və başqa dərs kitablarında uydurulmuş Ermənistanın xəritəsi və gerbi var idi. Məktəb rəhbərliklərinə və müəllimliklərinə patriarxxana tərəfindən komitə rəhbərləri və Rusiyadan gəlmə komitəçilər tərcihli olaraq təyin edilirdilər. Qalatadakı böyük erməni məktəbi (Getronaqan) bu adamların əlində bir fürsət ocağına çevrilmişdi. Komitəyə aid ən mühüm müzakirələr və münaqişələr bu məktəblə Sanazaryan məktəbində cərəyan edirdi.

Məktəblər və kitablardan sonra erməni yazıçıları tərəfindən hər il nəşr edilən salnamələr də diqqətəlayiqdir. Bunlardan Teotik adında birinin hər il İstanbulda çıxardığı "Armenon Daresevisi" adlı salnaməsi sadəcə erməni komitəçilərin rəsmlərini, bunların şeir və məqalələrini erməni məsələsilə uğraşan xaricilərin rəsmlərini ehtiva edirdi. Yuxarıda illik salnamələr adlandırılan 1914-cü il tarixli nüsxəsində rus ordusunda işləyən erməni əsgər və generalların rəsmləri qoyulmuş və tərcümeyi-halları yazılmışdır. Ayrıca, bunların xatirələri və qəhrəmanlıqları təqdirlə anladılmış, bilavasitə erməni məsələsinin tarixi təfsilatı ilə qələmə alınmışdır."

Gənclərin oxuduqları şeirlərin, məktəblərdə yeni nəslə oxudulan parçaların üsyan və ixtilal mövzularından başqa bir mövzunu ehtiva etməməsinə çalışılırdı. "Sakar – Mesrop," "Erməni sülaləsi," "Taşra salnaməsi" kimi bir çox nəşriyyatlar bu yıxıcı təbliğatlardan geri durmurdu. Komitə marşları ilə məktəblərdə və digər yerlərdə söylənən mənzumələrin aşağıdakı nümunələri komitələrin ruh hallarını və erməniləri nə cür yollara sövq etdiklərini göstərir:

## DAŞNAKSAĞAN MARŞI

Daşnaksağan çetəsi, Sasona gedəyin.
İgid dostlarımız bizi gözləyirlər.
Qəhrəman Andranik cəsur yoldaşlarıyla
Müharibə istəyir, baharı gözləyirlər.
Çetə başçıları can və könüldən and içərək,
Fədailərilə irəliləyirlər.
Ən qabaqda qəhrəman Andranik
Nərə çəkərək hərb istəyir.
Yetişin artıq, qardaşlar, çox yatdıq.
Bu qədər səbr və təhəmmül kafi deyilmi?
İndi güclüyük, təkrar alağın.

## İSTİQLALA DƏVƏT

Ermənilər, silah başına, qılınc belə, tüfəng çiyinə.
Türk Ermənistanından bizi bir səs çağırır.
Dağdan dağa dəhşətli bir fəryad cınlayır,
Vətənə qaçın, ermənilər, Ermənistana qaçın.
Ermənistanda ermənilər yenə qiyam etdilər.
Aslanlar kimi intiqam deyə bağırırlar.
Bütün ovalar qana boyandı,
Bütün dərələrdən qan axır.

Düşmən qorxusundan, dəhşətindən qaçdı,
Ermənilərə bir çox qənimət buraxdı,
Bir ağızdan zəfər deyə bağıraq,
Düşmən məğlub oldu, yaşasın Ermənistan!

## XANIN MAHNISI

Ay yoxdu, qaranlıq bir gecə idi,
Bir çətə tez-tez gedirdi,
Bu çətə qəhrəman xanın çətəsi idi,
Hamısı da silahlı idi.
Qəhrəman xan Pasinə çıxdığı zaman
Top səsləri eşidildi.
Erməni qəhrəmanlarının silahlarından
Çıxan mərmilər guruldayırdı.
Ermənistan torpağında
O qəhrəman qanını tökdü,
Ağlama, onu xatırla,
Qəhrəman xanın adını heç unutma.

## HNCAKYAN MARŞI

Sən uzaq illərdə qərib-qərib oturduğun halda,
Vətənin fəlakətini yaxından bilirsən.
Yeni əməllərin uca və cəsur vaizi,
İxtilalın cınlayan hncağı (cıngırağı),
Sənin saçdığın, əkdiyin yeni böyük idealının,
Gözəl meyvələri tez yetişsin.
Ərzurumda, İstanbulda əsən şimşəyin,
İlk hərəkətin zəngini tez çal.
Ermənilər hər tərəfdə ayaqlansın,
Əsarət zinciri qırılsın, yeni günəş doğsun,
Huruz, hncaq komitəsi çınla...

## ERMƏNİSTAN FƏĞANI

Əməlinə çatım de,
İstəyirsən, məni dar ağacına çıxarsınlar,
Dar ağacından boğuq səslə
"Ah Ermənistan" deyə bağıracağam.
Ah Ermənistan, qəlbimi, ruhumu
Sənə ithaf edirəm, qəbul et
Mümkünsə mən ölüm, yalnız,
Biçarə Ermənistan həyat tapsın.
Mənim də hazırlanmış tacım,
Bir kralım olsun,
Ermənistan bayrağı dalğalansın.

## ANA VƏTƏN ERMƏNİSTAN

Məzarımın yanına, daşımın üstünə,
Bu zəfər abidəsini tikin,
Ermənistanı görsün, erməni qəhrəmanları oxusun,
Şəhid olan dostlar ana Ermənistanı xatırlasın.
Qəhrəmanların önündə durduğum zaman
"Haydı irəli" deyə bağırdım,
Qəhrəman ermənilər, düşmənimizə qarşı vuruşağın...
Cəsarətimizi, erməniliyi onlara göstərəyin,
Sümüklərimiz qəbir içində rahat olsun,
Hür bayraqlarıyla məzarımızı erməni qəhrəmanları örtsün.

Komitəçilərin, ixtilalçıların bu mahnıları məktəblərdən başqa teatr səhnələrində, erməni çayxanalarında, klublarında, küçələrdə açıq-açığına söylənirdi. Məsələn, heç bir məmləkətdə oynanmasına icazə verilməyəcək dərəcədə, daşqınca yazılmış olan "Vartan Mamikonyan" pyesi Bəyoğlunda, Üskudarda oynandığı zaman ermənilərin ən həyəcanlı ixtilal havalarından

olan "Pamp Orodan" hey bir ağızdan söylənir, erməniliyi təmsil edən qoca "Hür Ermənistan, hür ermənilər" kəlmələrini söylədiyi zaman xalq həyəcanının son dərəcəsinə gəlirdi. "Yaşasın Ermənistan!" deyə bağıranlar belə olurdu. Bu qədərlə də bitmirdi. Bu mahnılar vallara oxunub hər tərəfə göndərilirdi. Görəsən, bu qədər azğınlığa harada təhəmmül oluna bilərdi? Təbliğatın komitələrcə özəl bir əhəmiyyəti olduğuna görə pulla tutulmuş xatiblər məhəllə-məhəllə gəzərək xalqı təhrik edirdilər. Erməni yazıçısına gəlincə, onsuzda bunların hamısı "Hürriyyətin elanı"ndan sonra tək bir ədəbi, ciddi bir əsər yazmamış və qələmlərini tamamən komitəçiliyə, ermənilərin əməllərinin dirildilməsinə, ixtilala və pozğunluğa paylamışdılar.

"Bilavasitə tarix kitabları diqqətçəkicidir. Məşrutiyyətdən sonra hər kəs bir tarix yazdı. Tarixşünaslardan biri Bizans imperatorlarından 14 və ya 18-nin erməni irqinə mənsub olduğunu söyləyəcək qədər çox qəribə iddialar irəli sürmüşdür."

Patriarxxana bütün varlığı ilə tam bir komitəçi yatağı olmuşdu. Məktəblərdə Ermənistan tabloları ən qiymətli yeri işğal etmişdi. Psikoposluqlardan Osmanlı tuğrasını qaldıraraq yerinə Ermənistan gerbi, Ermənistan xəritəsi asdılar. Bombalar təmin edildi. Bomba istehsalını öyrənmək üçün Ərzurum, Kayseri, Diyarbəkir və Vandan Rusiyaya, Amerikaya və Avropaya adamlar göndərildi. Komitə qəzetləri ən kiçik kəndlərə qədər soxuldu, pozğunçuluq hər tərəfə yayıldı. Bu qəzetlər hökumət adamları və türklüyün əleyhinə ağıza alınmayacaq söyüşlər yağdırdılar.

Ədəbi və digər qəzetlər mövzularını tamamən tərk edərək keçmiş erməni həyatını dirildəcək mövzularla məşğul olmağa başladılar. Bütün kitablar, mahnılar hökumətin və türklərin dini hisslərinə təzyiq və təhqir edəcək nə varsa, hamısından istifadə etdilər.

Təəssüf hissilə söyləmək lazımdır ki, Osmanlı hökuməti ruslarla müharibəyə başladığı zaman Türkiyənin suyu, çörəyi ilə böyüyüb boya-başa çatmış ermənilər sərhədlərdə və daxildə arxadan vurma, yıxıcı, vəhşi fəaliyyətlərə başlamışlar.

## İKİ YAŞINDAN BÖYÜK TÜRK UŞAQLARININ KƏSİLMƏSİ HAQQINDA QƏRAR

Eyni zamanda erməni məktəblərində müəllimlik edən komitəçilər bu qeyri-insani cinayəti çox-çox əvvəllər qərara almışdılar. Komitəçilər əvvəl 5 yaşından böyük olan türklərin qətlə yetirilmələrini qərarlaşdırmış, sonra 5 yaşından kiçik olan uşaqların da erməni milləti üçün təhlükəli olacaqlarına hökm verərək, iki yaşından böyük olan bütün türklərin "kəsilmələrinə" qərar vermişlər. Bu qərarların mətni belə idi:

**"Qərar No: 1**

Türk milləti vəhşiliyinin ortadan qaldırılması Avropa ölkələrinin əsgəri güclərinin qərarı olmuş və bu əməlin yerinə yetirilməsi üçün aşağıdakı şəkildə icrasına qərar verilmişdir:

"İlk öncə rus dövləti ordusunun qarşı tərəfdən Ərzuruma doğru hərəkəti ilə hücuma keçəcək orduya qarşı türklərin mübarizəyə məcbur olacaqları təbii olduğuna görə bu fürsətdən istifadə etmək üçün geridə hazırlıq görmüş qəhrəman erməni çətələri (partizan dəstələri) Türk ordusunu arxa tərəfdən vurmaqla iki tərəf arasında qalan düşmənin hamısının beş yaşından böyük olanları ilə birlikdə yox və qətl edilmələri qərara alınmışdır."

İmzalar: Rəis: Hənzərli Murat
Artilleriya komandiri: Bünyamin (93).

**Qərar No: 2**

"Öncəki qərarda hər nə qədər 5 yaşından böyük olanların kəsilməsinə qərar verilmişsə də, bu beş yaşındakı uşaqların nüfuz etibarilə əhəmiyyəti qabaqcadan görmək və irəlidə mənsub olduqları milləti yada salaraq gələcəkdə erməni milləti

uçün bir təhlükə təşkil edəcəklərinə görə iki yaşından böyük olanların kəsilmələrinə birlikdə qərar verilmişdir."

İmzalar: Rəis, Hanzarlı Murat
Artilleriya komandiri: Bunyamin (94).

Erməni azlığını sevq və idarə edən erməni komitəçilərinin 2 yaşından böyük olan bütün türklərin kəsilməsini qərarlaşdırdıqları zaman ermənilərin Türkiyədə iki mindən artıq məktəbi vardı: Ərzurumda 16, Quruçayda 8, Kemahda 8, Bayburtda 8, Amasyada 301, Yozqatda 31, Sivasda 15, Divrikdə 19, Zarada 15, Diyarbakırda 95, Muşda 9, Hafikdə 12, Maraşda 19, Harputda 13, Erqanidə 41, Siirtdə 26, Vanda 11, Şebinqarahi-sarda 500-dən artıq erməni məktəbi vardı.

Ermənilərin Paris konfransında Amasya, Giresun, Trabzon, Qars, Ərzurum, Ərzincan, Sivas, Adana, Maraş, Malatiya, Muş, Diyarbakir, Bitlis, Van, Mardin və Hakkarı şəhərlərindən bir Ermənistan qurulmasını istədikləri düşünülürsə, erməni təhsil təşkilatının siyasi məqsədə yönəldiyi bir daha anlaşılacaqdır.

## İXTİLAL VƏ ÜSYANA TƏHRİK BİLDİRİLƏRİ VƏ TÜRK-İSLAM DÜŞMƏNÇİLİYİ

Ermənilər türk milləti, hökuməti və türkün minillik Vətəni olan Anadolu haqqında ixtilalçı düşüncələrini, müxtəlif tarixlərdə irəli sürdükləri bildirilərlə yayınlamışlar. İxtilal və üsyan düşüncələrini Anadoludakı ən kiçik erməni kəndinə papazlar, müəllimlər, misyonerlər çatdırmışlar.

Bu həqiqətin qavrana bilməsi üçün ermənilərin müxtəlif tarixlərdə yayınladıqları bildirilərin bir neçəsini vəsiqələrə əsaslanaraq, aşağıda verməyin yerində olacağına inanırıq.

"Ey ermənilər! Beş ildən bəri Ali dövlət vətənimizdə islahat aparmağı vəd etmişdir. Vətənimiz beş əsrdən bəri insanlıq düşməni Ali dövlət boyunduruğu altında səfil və pərişan halda

qalmışdır. Berlin sülh müqaviləsinin bütün maddələri həyata keçirildi. Ancaq anlaşmanın 61-ci maddəsilə vəd edilən islahat yerinə yetirilmədi.

Avropanın bizim işlərimizlə məşğul olmağa vaxtı yoxdur. Avropa öz çıxışları ilə məşğuldur. Biz bunu açıq-aydın gördüyümüz halda, boş yerə gözləyirik. Bizim bu gözlədiyimiz göydən qüdrət halvasının enməsini gözləməyə bənzər. Biz öz işlərimizlə özümüz məşğul olmasaq, türk hökumətindən vəziyyətimizin islahını gözləmək Avropanın müdaxiləsinə güvənmək və inanmaq qədər əbəsdir. Dünyada qurban vermədən, zülm və cəfa çəkmədən hürriyyətə qovuşmuş bir millət vardırmı? Avropa öz mənfəətlərini buraxarmı? Özümüz istəməsək, öz mənfəətini buraxıb bizim üçün qan tökərmi? Unutmayın ki, biz öz-özümüzü idarə etmək gücündə olduğumuzu isbat etmək və Avropanın diqqətini cəlb etmək üçün indiyə qədər heç bir şey etmədik. Bu, bizim ən böyük günahımızdır. Avropa bunu hər zaman başımıza vurmaqdadır. Arzumuz Ermənistanın barbarların boyunduruğundan qurtulmuş olduğunu görməkdir. Fəqət bu məqsədə çatmaq üçün dilənçi və məhbuslar kimi hərəkət edirik. Heyf! Erməni milləti boyunduruğundan qurtulmaq üçün sevimli övladlarını fədaya hazır olduğunu mədəni dünyaya isbat etməlidir.

Müstəqilliyini əldə etmək üçün kiçicik Yunanıstanın verdiyi qurbanların sayını kim unuda bilər ki? Mədəni dünyanın sevgisini qazanmaq, hürriyyətlərini əldə etmək üçün slavların torpaqlarını qana buladıqları inkar edilə bilərmi? İndi Türkiyədə dövlət idarəsi yoxdur. Anarxiya hökm sürməkdədir. Dövləti meydana gətirən millətlər bir-birlərinə düşməndirlər. Çünki can çəkişən bir hökumətdə idarə və siyasətin qaydasını qoruyacaq güc qalmamışdır.

Hökumət xalqı alçaldır, malını əlindən alır, zülm edir. Məhkəmələrində ədalət yoxdur. Çünki bu zülmləri edənlər idarəyə məmur olanlardır. Hökumət budurmu? Bizə görə, müxtəlif millətlərdən əmələ gələn bir hökumət bu millətlərin həmisini bir-birindən ayırmadan haqq və mənfəətləri istiqa-

matində çalışmaq məcburiyyətindədir. Hökumət əhalisinin möhtac olduğu şeylərin təmini, çalışanların himayəsi, sənətin inkişafı haqqında çalışmaq məcburiyyətindədir. Qısacası, hökumətin vəzifəsi xalqın irəliləməsinə yardımçı olmaqdır. Halbuki, Türkiyədə bunlara bənzər bir şey görə bilmirik. Buna görə gec-tez, nə vaxt olursa olsun, belə bir hökumət yıxılacaqdır. Hökumət ilə xalq arasındakı bağlar qopmuşdur. Türkiyədəki millətlər üçün heç bir xoşbəxtlik qalmamışdır. Dövləti-aliyyə gündən-günə zəifləyərək məhv olur.

Balkan yarımadasındakı bolqarlar və rumlar heç haqları yoxkən, yaşadıqları torpaqları türklərin əlindən zorla almışlar. Türkiyə buralardan başqa yerlərdəki müsəlmanlar arasında da etibarını itirmişdir. İndi Arnavutluqdakı müsəlmanlar Babi Alinin idarəsində deyillər. Misir də Osmanlı təbiyyətini tanımır.

Ey gənc ermənilər!

Biz ortaya çıxan fürsətlərin qeyb olmaması üçün daima hazırlıqlı olmağa məcburuq. İndi bizim vəzifəmiz millətimizə haqq və hüquq düşüncələrini aşılamaqla haqsızlığa qarşı dayanmağı anlatmaq, sonra canlarımızı fəda etməyə hazır olmağa çalışmaqdır.

Ey erməni gəncləri!

Vətənin müstəqilliyi sizinlə olacaqdır. İstiqlal bayraqlarını açmaq sizin vəzifənizdir. Kədər, yoxsulluq, zülm görmüş bir millət özbaşına hərəkətə keçə bilməz. Canlılıq verəcək bir ünsürün yardımına ehtiyacı vardır. Bax, siz bu vəzifəni millətə aşılamaqla vəzifəlisiniz.

Bildiriyə əlavə:

Bu bildirinin yayınlanması sırasında Ərzurumdan fəryadlarla dolu bir teleqraf gəldi. Bu teleqrafda nankor ermənilərin türklər əleyhində üsyana başladıqları bildirilir.

Bəli, bu bir üsyandır, zülm və haqsızlığa qarşı olan üsyandır. İnsanlıq aləminə haqqını təslim edən dinamik bir millətin arzusudur. Avropada şimşək kimi parıldamış bu hadisənin əhəmiyyətini kiçiltmək üçün Ali dövlət elçilərinin bir neçəsinin həbs olunduğunu, bunların da fəsadçılar olduğunu iddia etmək-

lə hadisənin çox şişirdilmiş olduğuna Avropanı inandırmağa çalışırlar. Halbuki müxtəlif mənbələrdən alınan xəbərlərə görə, 400 adamdan artıq ermənin tutulduğu bildirilməkdədir.

Ermənistandakı sənətkarlar nə haldadırlar? Tutulanların çoxunun işçi olduğu öyrənilmişdir. Bunlar zindanda olduqları zaman ailələri aclıqdan, soyuqdan və xəstəlikdən pərişan olacaqlar.

Ey ermənilər!

Sizin ən müqəddəs vəzifəniz tutulanların ailələrindən ac qalan, yardıma möhtac olanlara maddi və mənəvi yardımlarınızı tez çatdırmaqdır. Onlar özlərini vətənlərinin hürriyyəti üçün fəda etmişlər. Onların uşaqlarını din qardaşları qorumazlarsa, kim qoruyar? Bütün ermənilər Ermənistanı qurtarmaq üçün canlarını fəda etmiş qəhrəmanları qorumaq məqsədilə kömək, dəstək dəftəri açmalıdırlar.

İMZA: VƏTƏN İTTİFAQI" (95).

## ERMƏNİ GƏNCLƏRİNƏ BİLDİRİ

"Hər yerdə ölüm birdir.

İnsan bir kərə ölür.

Millətinin uğrunda ölənlər bəxtiyardırlar.

Ali dövlətinin əsasları çoxdan sarsılmışdır. Türkiyə xəstə adam vəziyyətindədir. Ölüm saatı yaxınlaşır. Halbuki bu qədər çalışqan varlığı zəif əllərilə əsarət zəncirinə zülmkar tutmaq istəyir.

Onun zülmkarlığına yunanlılar, bolqarlar, Balkan yarımadasındakı müsəlmanlar tərəfindən təhlükəli yaralar açılmışdır. Türkiyə oralardakı torpaqların böyük bir bölümünü itirdikdən sonra kiçik Asiyada Avropanın gözündən uzaq Ermənistanda zülmünü artırırdı. Guya bunun sayəsində ölüm saatlarını gecikdirəcəkmiş kimi zalım idarəsini orada daha çox duyurmaqdadır.

Bu idarə altında Ermənistan haydutluq və cinayət mənzərəsi göstərməkdədir. Türkiyənin zalım məmurları Babi Alinin

təşviq etdiyi vəhşi şeylərlə birlikdə çalışqan əhaliyə əzab və cəfa çəkdirir. Erməni kəndçisi nə canından, nə də malından əmin deyildir. Atasından miras qalmış torpaqlar (Ermənilərin Anadoluda özlərinə aid olduğunu iddia etdikləri torpaqlar) saysız vergilərlə kəndlinin malı deyildir. Kəndli çalışdığının qarşılığını rahatca əldə edə bilmir. Bu məhsul hökumətin zalım oğruları tərəfindən biçilir. Erməni kəndliləri çalışdıqları halda hissə-hissə atalarının torpağından köçməyə məcbur olurlar. Vətənlərini tərk edir və qürbətdə çəkdikləri sıxıntıdan ölürlər. Ermənilər mallarına görə çəkdikləri bu sıxıntıdan başqa başlarına təhdid qılıncı asılı durmaqda, dinləri təhqir edilməkdə, kilsələri ilə müqəddəs yerləri kirlədilməkdə, qızlarının gəncliyi və bəkarətləri zorbaların iştahlarına fəda edilməkdədir. Türkiyənin qanunları bu zülmlərə zəifliklə baxır, diqqət etmir. Lakin ermənilər həyatlarını qorumaq üçün qeyrətlənib namuslarını qorumaq məqsədilə üsyan edincə, unudulmuş qanunlar oyandırılır. Bu cəsur adamların əlləri, ayaqları bağlanır, diri-diri basdırılmaq üzrə qaranlıq, rütubətli zindanların qapıları açılır.

Ermənilər "Berlin sülh müqaviləsi"nin 61-ci maddəsilə vəd edilən islahatı gözləyirlər, fəqət bir şey görə bilmirlər. Avropa Dövləti Aliyyənin işlərilə məşğul olmur, müxtəlif daxili və xarici işlərlə məşğul olur. Yalnız İngiltərə islahat üçün ara-sıra səsini yüksəldir. Heç bir şey eşitməmiş kimi görünən türklər onun səsinə qulaq vermirlər.

Türk milləti tülkü hiylələrilə bu məsələnin həllini gündən-günə gecikdirir. Bizi əsl zorlayan hökumətin Ermənistan haqlarını yox etməyə çalışmasıdır. Biz insan haqlarının elanı üçün qanımızı tökməyə məcburuq. Hürriyyəti sevən, maddi cəhətdən və mənən yüksəlmək istəyən hər kəs hürriyyət uğrunda qanını tökməlidir. Ermənilər bu inamdadırlar. Ermənilərin hürriyyət adına hamısı birdən Ermənistan dağlarını, ovalarını sarmalarının zamanı gəlmişdir.

Ey ermənilər!

Vətənimizin bizdən istədiyi maddi fədakarlıq və mənəvi gücümüzlə əhalinin hürriyyəti yolunda canımızı fəda etmənin

zamanı gəlib çatmışdır. Hamımız Vətən sevgisilə duyğulanmalıyıq. Zehinlərimizdə yalnız vətəndaşın yüksək haqq və hürriyyəti düşüncəsi yerləşməlidir. Bu duyğular bizi müzəffər bir ittifaqa yönəldər... Lazım olan bilgiləri öyrənək. Beləcə, böyük və yüksək bir vəzifəni məmləkətdə yerləşdirməyə çalışaq.

Gənc qardaşlar!

Vətəndaşlarının qurtuluşu üçün müharibədən əvvəl xatirələri əbədi olan yunan, italyan və müsəlman gənclərinin qəhrəmanlıq əsərlərini xatırlayaq. Biz də Ermənistanda tarixin yüklədiyi vəzifələri yerinə yetirməyə hazır olaq.

Gənc ermənilər!

Millətimizin səfalətindən təəssüflənməyib, bu səfalətə ortaq olmayıb biganəmi qalacaqsınız? Özgün və kədərli əli, tər içərisində çöhrəsi solmuş və qana bulanmış kəndlinin həyatı Ermənistanın qəlbinə təsir etməyəcəkmi? Millətimizin çəkdiklərindən qəlbiniz sızlamayacaqmı? Əkinçi zülm boyunduruğunu atmadıqca, can və malını əmniyyət altına almağa müvəffəq olmadıqca, Ermənistan xalqının qurtuluşuna çalışmaqdan başqa bir məqsəd və istəyi olmamalıdır.

Elə isə, gənc ermənilər! Güclərinizi birləşdirin! Hamımız eyni duygu və düşüncələrlə dolu olaq. Komitələr quraq. Ermənilər yaşadıqları yerlərdə üzv olduqları komitələrə yardım etməyə qaçmalıdırlar! Hər gün hər cür yardımı əsirgəməyək! Aramızdan hər birimiz bu müqəddəs məqsəd üçün bir hədiyyə qoşaq.

Gənc ermənilər!

Şərqdə hürriyyət bayrağını ilk dəfə ermənilər qaldırır. Bu hürriyyət bayrağı şərqin məzlum millətlərinin qurtuluşu üçün bir rəhbər, bir ulduz olmalıdır. Asiya əsarəti adından şiddətli bir müharibənin işarəti olsun.

Gənc ermənilər!

Biricik arzu və məqsədləri uğrunda savaşmaq, çalışqan bir xalqa xoşbəxtlik, vətəndaşlıq hürriyyəti vermək niyyətində olan adamlara şərqdən qərbə, şimaldan cənuba qədər əl uzadaq! Vətən uğrunda fəda olanlar tərəfindən vaxtilə gedilmiş yoldan gedək, bizi mənfəətlərimizdən uzaqlaşma şərəfinə və

xalqı xoşbaxtlığa götürəcək yola yönələk. Müxtəlif şəxsi mənfəətlərdən uzaq duraq! Rahatlığımızdan vaz keçək! Biz zövq içərisində yaşamaq üçün doğulmadıq. Bizim dinimiz xalqın xoşbəxtliyidir. Vəzifəmiz əsla şəxsi mənfəətlərimizi aramadan xidmət etməkdir." (96).

## MUSA BƏY HADİSƏSİ

1877-1878 türk-rus müharibəsi rumın, serb və bolqarların müstəqil bir dövlət olaraq ortaya çıxmalarından başqa türklüyün təməl varlığı olan Anadoluda bir erməni dövləti xəyalının canlanmasına səbəb olmuşdu. Erməni patriarxxanasının və rusların təzyiqi nəticəsində "Ayastafonos sülh müqaviləsi"nin 16-cı maddəsi, "Berlin sülh müqaviləsi"ndə islahat mövzusunun 61-ci maddədə yer alması erməniləri türk millətinin min illik ana yurdu olan Anadoluda bir Ermənistan qurma xəyalına sürükləmişdi.

"Berlin sülh müqaviləsi"nin 61-ci maddəsi türkləri Avropa və Anadoludan sürüb çıxarmaq istəyən xristianların xaçlı zehniyyətinə yeni bir pillə olmuşdu. Avropalılar 620 il üç qitədə böyük və güclü bir imperatorluq sürdürmüş Osmanlı türklərini Balkanlardan və kiçik Asiyadan sürüb çıxarmaq, imperatorluğu yıxmaq üçün bu maddəni çiban başı etmişdilər. Onlar ermənilərin xam xəyalı olan Böyük Ermənistan məsələsini ortaya atmış, öz mənfəətləri üçün Osmanlı dövlətinin başına yeni-yeni sıxıntılar açmışdılar. Ermənilər türkün ana yurdu olan Anadoluda bir müstəqil Ermənistan qurmaq məqsədilə xristianların təəssübünü qamçılayaraq uydurma hadisələr törətmiş və törədilmiş hadisələri tərs göstərərək özlərini məsum, türkləri isə zalım və barbar kimi təqdim etməyə çalışmışlar.

İngilislər kiçik Balkan dövlətini böyütdükdən sonra Rusiyanı Hindistan yolundan uzaq tutmaq məqsədilə Şərqi Anadoluda tampon, müstəqil Ermənistan quraraq Türkiyəni iki tərəfdən məşə içərisinə almaq üçün xaçlı zehniyyətini canlandır-

mış, Fransa və digər Avropa dövlətlərini öz tərəfinə çəkmişdi. Rusiya isə bolşevik prins Lobanovun ermənisiz Ermənistan siyasətini izləməklə bərabər, Osmanlı imperatorluğunun zəifləməsində Rusiyanın saysız-hesabsız mənfəətlərinin olduğuna görə ingilislərin Türkiyə əleyhində yürütdükləri siyasəti dəstəkləmişdi. İngilislər bütün bu siyasi oyunlarının nəticəsində ermənlərin məzlum, türklərin zalım və barbar olduqlarını mediya diplomatiyası vasitəsilə xristianlıq dünyasına eşitdirmiş, Avropada geniş ölçüdə türk düşmənçiliyi yaymışdı.

Ermənilər Avropadan, xüsusilə də İngiltərədən gördükləri himayə və təşviqlərlə quzu dərisinə bürünmüş qurd kimi yox yerdən işgəncə və zülm hekayələri uydurub Avropanı Türkiyə əleyhində hazırlamağa çalışmışdılar. Bunun ilk aşkar nümunəsi Musa bəy hadisəsində görünür:

23 iyun 1889-cu il tarixində, cümə salamlaşmasında, 15 nəfər erməni göstərişli olaraq padşaha bir ərizə verib təbliğat işlərinə girişmişdilər.

24 iyun 1889-cu il tarixli yazıdan, "Dünən salamlaşma rəsmində on beş erməni tərəfindən Muş ermənilərı adından padşahımıza Musa bəy əleyhində bir ərizə ilə bir layihə təqdim olundu. Sorğu zamanı onların Musa bəyə qarşı şəxsi davalarının olmadığını, lakin İstanbulda şikayətçi və davaçıların olduğunu, Musa bəydən haqq iddiası üçün beş min erməninin Muşdan gəlmək üzrə olduqları anlaşılmışdır.

Ermənilərin təqdim etdikləri ərizələrində Musa bəyin Muşda ermənilərə verdiyi zülm və işgəncələrdən bəhs edilir və Musa bəyin təkrar Muşa dönməsinə izin verilməməsi istənir.

Bu ərizədə Muşdan buraya Musa bəy haqqında beş min davaçının gəlməkdə olduğundan bəhs edilir, halbuki beş min deyil, beş yüz adamın belə bura gəlmələrinin ehtimalı yoxdur.

Ermənilərin şikayətçi olduqları Musa bəy barəsində dövlət arxivindən əldə etdiyimiz sənədlərə əsaslanaraq aşağıdakı məlumatlarla mövzumuzu aydınlatmış olacağıq:

Musa bəy Muşda beş-altı bağ sahibi xanədan, qonaqsevər, zəngin bir bəydir. Onun atası Mirzə bəy Mutki Ahlatda rəhbər-

lik etmiş, qayda-qanunu sevən, tanınmış bir şəxs idi. Bandıtizmə qarşı dövlətə böyük xeyri dəymiş, gözəl xidmətlər etmiş, banditlərlə aparılan vuruşmaların birində şəhid olmuşdur.

Musa bəy müsəlman və qeyri-müsəlman əhalinin etibarını qazanmış bir şəxs olduğuna görə xalq tərəfindən (o vaxt bölgə müdirlərini xalq seçərdi) bölgə müdiri seçilmişdi. Muslu Saleh paşanın zamanında bölgə müdiri vəzifəsində işləmişdi. Musa bəy xalq arasında atası kimi intizamla davranmış, oğruları cəzalandırmış, öz vəzifəsini ədalətlə yerinə yetirmişdi. Buna görə Musa bəy yalnız müsəlmanlar tərəfindən deyil, ermənilər tərəfindən də sevilən və hörmət görən bir şəxs idi.

Bir ara Muşda Boqos Natyan adında bir erməni papazı ermənilərə dövlət əleyhində ixtilal və üsyana təşviqedici bildirilər yaymış, onları dövlətə qarşı təhrik etmişdi. Musa bəy bu dövlət xaini erməni papazını cinayət dəlilləri ilə yaxalatdırıb Muşun qanun keşiyində duranların ixtiyarına verdi. Beləcə Papaz Natyan məhkəmə qarşısına çıxası oldu. Onun törətdiyi cinayətlər arasında özünün yazdığı bir broşür də vardı. Papaz Boqos Natyan İstanbulda məhkəməyə çıxarıldı və sürgün cəzasına məhkum edildi.

Bu hadisə ermənilər və onların komitələrinin xoşuna gəlmədi. Onlar Musa bəyin əleyhində dedi-qodular çıxardıb olmayan iftiralar yaydılar. Xarici ölkələrdə çıxan erməni qəzetləri və komitələr Musa bəyi ermənilərə zülm və işgəncə verməklə günahlandırdılar. Hadisə siyasi bir rəng aldı. Ermənilərin Musa bəy barəsindəki iftiraları aylarca Avropa qəzetlərini doldurdu. Babi-Ali ermənilərinin açdığı, Avropanın da dəstəklədiyi bu geniş təbliğatı susdurmaq üçün Musa bəyi 1886-cı ildən etibarən iki il Muşda, bir il də Bitlisdə nəzarət altında tutdu.

Fəqət hökumətin erməniləri və Avropa mediyasını susdurmaq üçün aldığı bu tədbir fayda vermədi. Ermənilər və Avropa mediyası qaralamalarına aralıqsız davam etdilər. Bu vəziyyət qarşısında hökumət Musa bəyi başqa bir vilayətdə nəzarət altında saxlamağa qərar verdi.

Musa bəy məhkəmə qərarı olmadan özünə istinad edilən günahlardan heç biri haqqında bir hökm yoxkən hökumətin aldığı bu yeni, qeyri-qanuni qərarla razılaşmayaraq qaçmağa qərar verdi. Hökumət onun yaxalanması üçün əmr verdikdə isə o, Muş bölgəsinin ədliyyə işlərini təftiş etməyə çıxan ədliyyə müfəttişi İbrahim bəylə görüşdü və əleyhindəki dəlillərin toplanaraq məhkəməyə verilməsi şərtilə İstanbula gedib təslim olacağına söz verdi. Müfəttiş İbrahim bəy vəziyyəti Ədliyyə Nazirliyinə bildirdi. Musa bəyə istədiyi təminat verildi. Musa bəy də hökumətə təslim oldu. Beləcə o, xüsusi bir məmurla İstanbula göndərildi.

Ermənilər ingilislərin himayəsində olmaqdan elə arxayınlaşmış, elə qudurmuşdular ki, Bitlisdən gələcək şikayətçilərin yol xərclərilə məhkəmə prosesinin davamı süresincə olacaq məsraflarının da hökumət tərəfindən təmin edilməsini istəmişdilər. İngilis səfarətinin Babi Aliyə verdiyi memorandumda erməniləri dəstəkləməkdən utanmadığı Ədliyyə Nazirliyinin aşağıdakı yazısında belə açıqlanmışdır: "Davaçıların bu memorandumda çəkəcəkləri sıxıntıları və onların haqlarının təcəllisinə əngəl olacağı düşüncəsilə yol xərclərinin hökumət tərəfindən qarşılanması halında, şikayətçilərin güzəranının təmin edilməsi heç bir üsul və qaydaya uymaz." Ermənilərin verdikləri şikayətlərin baxılması süresincə bu məsrəflərin ödənməsi qəbul edilsəydi, məhkəmə gəlirlərinin tamamının buna yetməyəcəyi aydın idi.

Musa bəyə istinad edilən şikayətlər adam öldürmə, qəsb, oğurluq, zorlama olduqca qorxunc şikayətlər idi. Onun əleyhində verilən şikayətlərin bir neçəsi təqibsizlik qərarı ilə nəticələnmişdir. Bu şikayətlərin nə qədər yersiz və əsassız olduğunu, ermənilərin abırsızlıq, sırtıqlıq və utanmazlıqda nə qədər irəli getdiklərini bildirmək üçün bu qərarların bir neçəsini qısaca açıqlamaq yerində olar:

1 – Şikayətçilərdən biri Bəyoğlunda yaşayan, Ahlatın Tatvan kəndindən olan Asador adında bir ermənidir. Asador qardaşları Serop ilə Gevorkun on öküzünü on doqquz ay əvvəl Mu-

sa bəyin qəsb etdiyini, qardaşı Serepu öz adamlarına döydürərək ölümünə səbəb olduğunu iddia etmişdir. Fəqət bu iddiasını isbat edəcək nə bir şahidinin, nə də bir dəlilinin olmadığını bildirmişdir. Musa bəy Asadorun bu iddiasına qarşılıq o günlərdə Bitlisdə hökumətin nəzarəti altında olduğunu, Bitlisdən heç bir tərəfə ayrılmadığını və bu dediklərini rəsmi sənədlərlə isbat edə bilmədiyini nəzərə alan sorğu hakimi Musa bəy haqqında təqibsizlik qərarı vermişdir.

2 – Şikayətçilərdən biri də böyük Vezirhanda yaşadığını söyləyən Yervant Ula adındakı qızını Musa bəyin zorladığını və öz işlərini kəndlilərinə pulsuz gördürdüyünü iddia etmişdir. Sorğu hakiminin iddialarını isbat etməsini istəməsi üzərinə Musa bəyin qızı Ulanı zorlamasına Allahdan başqa bir şahidinin olmadığına, ikinci şikayətinin isbatının da özünə düşmədiyini söyləmişdir. Musa bəy də ona istinad edilən cinayətləri əsla törətmədiyini, şikayətçinin bu günahlandırmalar 23 liralik borcunu ödəməmək məqsədilə irəli sürdüyünü bildirmişdir. Sorğu hakimi isbatsız, şahidsiz və dəlili olmayan bu iddialar qarşısında Musa bəy haqqında təqibsizlik qərarı vermişdir.

3 – Dolahdorə Baxçaxanda yaşayan Ahlatlı Ovanes oğlu Qazzasın dörd il əvvəl iki qoyunu ilə iki inəyini çobandan başqa görən və bilən olmadığını, onun davaçı da olmadığını söyləməsi üzərinə sorğu hakimi Musa bəy haqqında təqibsizlik qərarı vermişdir.

Burada Musa bəy əleyhinə verilən şikayətlərin hamısı haqqında danışmanın mümkün olmadığını oxucularımız, əlbəttə, təqdir edərlər. Ancaq məhkəməyə verilən Əskıdang kəndi papazının qardaşı qızı Gülüzarı Musa bəyin zorladığının və onu müsəlman olmağa məcbur etdiyinin də uydurma bir şikayət olduğu, bunun kimi Qalırçı Əlinin mallarının Musa bəy tərəfindən qəsb edildiyi şikayətinin də ermənilər tərəfindən uydurulduğunun açığa çıxmağa başlamasının İngilis səfarəti tərəfindən verilən şikayətə səbəb olduğunu qeyd etmək istərdik. Çünki ingilislər irəli sürdükləri bu şikayət ilə haqq aramaq deyil, Osmanlı dövlətini qarışdırmaq istəyirdilər və bu məqsədlə ermə-

nilərdən istifadə edirdilər. Bu, ermənilərin də işinə yarayırdı. Çünki onlar həm dürüst bir türkü yox etməyə, həm də bundan istifadə edərək, ingilislər kimi Osmanlı dövlətini qarışdırmaq istəyirdilər...

O zaman Musa bəy nəzarət müdiri olub, asayiş xüsusunda yaxşı xidmətlərinə görə müsəlman və (ermənilərdən başqa) qeyri-müsəlman əhali ona minnətdar ikən bir hadisə bu işin tərsinə dönməsinə səbəb olmuşdu. Bir erməni papazının ermənilərı üsyana dəvət yolunda zərərli uydurma bildirişlər dağıtdığını Musa bəy tədqiq edib anladıqda papazı yaxalayıb yanındakı risalə və zərərli sənədlərlə birlikdə Muş ədalətinə təslim etmişdi. Bax, o zamandan bəri erməni fəsadçıları Musa bəy əleyhində üsyan etmişdilər.

Papazın vəziyyətinə gəlincə, o, haqqında lazımi tədqiqat işləri aparıldıqdan sonra cinayət məhkəməsinə həvalə olundu və sürgün edilmə qərarı ilə cəzalandırıldı. Məhkəmənin almış olduğu bu qərara bildirilən etirazlar papazın cəzasının çox yüngül olduğuna görə baş vermişdir. Çünki papazın yanında tapılan o zərərli sənədlərə görə o, edam cəzası ilə cəzalandırılmalıydı. Məsələn, bu cinayət İngiltərədə törədilsə idi, papaz dərhal asılardı. Sənədlər bir üst məhkəmədə incələndikdə, cəzanın çox yüngül olduğu görülmüş, lakin məhkəmənin tədqiqinə bir şey deyilməmişdir.

Bilinməlidir ki, ədalət günahkarların cəzalandırılması ilə günahsızların cəzalandırılmaması arasında olan bir işdir, lakin bunun iki ucu eyni ağırlıqda deyildir. Hüquq günahsız birinin cəzalandırılmasını yüz günahkarın cəzasız qalmasından daha ağır sayar. İngiltərədə jürilər çox vaxt canilərin onda səkkizini qurtarırlar. Məhkəmələr daima günahsızlıq tərəfinə meyl edərlər. Hüquqşünaslara görə, müttəhimin bəraət etməsini istəmək ayıb deyildir, lakin günahkar olmayanın cəzalandırılmasını arzulamaq çox ayıbdır.

Siyasi düşüncələr və dövlətin varlığını qorumaq üçün çox işlər görülə bilər. Biz buna qarşı deyilik. Fəqət məhkəmələrin siyasətə alət edilməsi alçaqlığını qəbul edə bilmirik.

O zaman Babi Ali idari bir tadbir ala bilardi. Lakin almamış va Musa bəyin aleyhindaki davaları mahkamaya havala etmişdı. Sonralar o, Avropa qazetlerinda çıxan xabarlara qarşılıq bela deyirdi: "Man istar mahkama rəhbarına, istərsə də mahkama uzvlarina tasir edar, nüfuzumu göstara bilərdim. Lakin nazirlık vazifəm qeyri-qanuni bir işlama yol verilməməsinə diqqat etmaya məni məcbur edirdi. Mahkamənin görəcəyi işlərə heç kəsin deyəcəyi bir şey olmamalıdır. Apelyasiya mahkaməsi prokuroru haqqında bir neçə sözlərin qulağıma gəlməsilə dərhal sənədləri aldım, incələdim, amma məhkəmə üsullarına qarşı bir işlam gormadim, gorsəydim, haqqından gələrdim.

Mənim bu sozlərimə qarşılıq Mr Sandison: "Prokurorlar hər yerdə muttəhimin aleyhinə olarlar. Onların vəzifələri budur. Xalid bəy vəzifəsinə təcavuz etmiş deyildir," - dedi.

Bu soz bir-iki mutərcimin ağzından eşidilmişdir. Halbuki bizim ticarət məhkəmələrinə gəlib-gedən tərcüməçilər ancaq ticarət movzularını bilirlər. Onlar digər qanunları bilməzlər. Hələ cəza usulu məhkəmələrin qanununu heç bilməzlər. Buna görə prokurorların vəzifələrini də bilməzlər. Prokuror bir günahkarı günahlandırar, məhkəməyə təslim edər, onun aleyhində fikir irəli sürər. Ancaq birinin yalan yerə şahidlik etdiyini gödükdə dərhal onun aleyhində cinayət işi qaldırar. Siz ədliyyə qanunlarıyla məşğul deyilsiniz, lakin bunları bilən adamlarınız vardır. Musa bəy barəsində aparılan istintaq işləmləri və digər işləmlər məhkəmə sənədlərində yazılıdır. Alın, qanundan anlayan birinə verin oxusun, əgər prokurorun istintaq usullarına qarşı bir işləmi varsa, gəlsin, mənə gostərsin. Lazım olanı yerinə yetirmək borcumdur. Lakin erməni qayğıkeşlərindən bir neçə adamın sozlərinə əhəmiyyət vermək yerində olmaz. Belə dedikdə Mr Sandison: "Bizdə deyil, amma Avropa qəzetlərində bu işə çox əhəmiyyət verildi. Biz də yaxşılığınız üçün sizə xəbər verməyə məcbur olduq," - dedi."

Bəli! Avropada bir iki komitə var. Burada da onları idarə edən zəngin ermənilər var. Bu yalanlar, uydurmalar onların qaralamalarından başqa bir şey deyildir. Mən də İngilis səfarəti bi-

zim məhkəmələrə söz keçirmək istəyir deyə London qəzetlərinə xəbər çatdırsam, görəsən, necə olar?" Babi Ali yaxın zamana qədər İngilis səfarətinin yaxşı niyyətli təşkilatları ilə iş görürdü. "Əlli ildən bəri bu səfarətin öyüdlərilə qulaq'arımız doldu. İngilis səfarəti "Məhkəmələrinizi islah edin, məhkəmələrinizin işlərinə qarışmayın" deyə öyüdlər verdilər. Biz indi sizin yaxşı niyyətli öyüdlərinizin üzərində irəliləyirik. Məhkəmələrimiz İngilis məhkəmələri qədər düzgündür demirik, lakin bir çox dövlətlərin məhkəmələrindən çox daha yaxşı olduğunu iddia edə bilərəm,"- dedim.

"Hər bir dövlətin qanunları ədalət üçündür. İndi sizin qanunların keşiyində duran hakimə bu işi həvalə etsəniz, Musa bəy əleyhində bir cinayət işi aça bilərmi? Xatir-hörmət üçün çox şey olar, amma məhkəmələrə müdaxilə edilməz. Çünki dövlətin təməli sarsılar,"- dedim.

Mr.Sandison susdu. Az sonra qalxıb getdi. Lakin bizim bu danışdıqlarımızdan razı qalmadığım anladım." (97).

Avropa mətbuatı İngiltərənin təzyiqi və siyasi oyunları ilə Türk ədalətini çaşdıra bilmədi, Musa bəy əleyhində açılan bütün cinayət işləri bəraətlə nəticələndi.

Avropa mətbuatı çox qəzəbləndi. Londonda Musa bəy əleyhinə tam 130 səhifəlik böyük boy "Condition of the populations in Asiatic Turkey and the trial of Mouza bey" adlı bir kitab nəşr edildi. (Bu kitab Türkiyə Cümhuriyyəti. Başbakanlıq arxivi, ulduz sənədlərinin 18-ci qismində mövcuddur).

Qərb mediyasının bu məsələdəki azğınlığı haqqında bir fikir bildirmək məqsədilə iki qəzetdən nümunə alaraq aşağıda verdiyimiz yazılar xaçlı zehniyyətinin nə dərəcədə olduğunu göstərməkdədir.

Macarıstanın mərkəzi Budapeştdə çıxan peştertoid qəzetinin 9 dekabr 1889-cu il tarixli sayından:

"...Musa bəyin cinayət məhkəməsi tərəfindən bəraət etdirilməsi Ermənistan məsələsini bir qat daha ağırlaşdırmışdır. Musa bəy ən ağır cinayətlərlə günahlandırılmış, şahidlərlə isbatlanmışdır. Musa bəyin qanunun pəncəsindən qurtulması ilə

Türkiyada ədalət və hüququn necə idarə olunduğunu hər kəs görmüşdür.

London və Afinadakı komitələr bundan faydalanaraq Türkiyədaki idarə və ədalətin yetərsizliyindən haqlı olaraq şikayət edəcəklər. Mr.Qladistonun ermanı məsələsində izlədiyi siyasət hər kəs tərəfindən bilinir." (98).

"Pel-mel-qazel" adlı qəzetin bir yazıçısından:

"Ermənistanda asayiş və təhlükəsizliyi qoruyacaq bir dövlət varsa, o da Rusiyadır. Əgər kürdlər altı aya qədər itaət altına alınmazlarsa, böyük dövlətlər Rusiyaya Ermənistanı işğal etməyə izin verəcəklər...

...Avropa Osmanlı ölkələrini bölüşmək istəyir. Onların müdaxiləsi ermənilori sevdikləri üçün deyil, öz mənfəətləri üçündür. Türkiyə müsəlman bir ölkədir. Əsrlərdən bəri Avropa xaçlı zehniyyətilə hərəkət etməktə türkləri Avropa və kiçik Asiyadan çıxarmaq əzmindədir. Avropanın ermənilər ləhinə Türkiyəyə müdaxiləsinin həqiqi səbəbi hax budur." (99).

Müxtəlif mənbələr XIX əsrin sonunda bütün dünyadakı ermənilərin sayının təxminən üç milyon olduğunu, bunun 1.300.000 Osmanlı ölkələrində və ümumi əhalinin ancaq 7%-ni təşkil etdiyini, bir milyon qədərinin Rusiyada, 300 mininin İranda və geri qalanının da Avropa və Amerikada yaşadıqlarını bildirirlər. Ermənilərin müstəqil Ermənistan dövləti qurmaq üçün çalışdıqları altı Osmanlı vilayətindəki (Şərqi Anadolu) saylarının Britanika Ensiklopediyasına görə 633 min olduğu, buradakı ümumi əhalinin ancaq %25-ni təşkil etdiyini, geri qalanlarının isə türk və digər müsəlmanların olduğu yazılıdır.

Bu həqiqəti avropalı diplomatlar açıq bir ifadə ilə bildirməkdə, müstəqil və ya muxtar bir Ermənistanın qurulmasına imkan olmadığını, hətta islahatın belə mümkün olmayacağını bildirdikləri halda, hər fürsətdə erməniləri Türkiyə əleyhinə təhrik etməkdən də çəkinməmişlər.

Ərzurumdakı İngilis konsulu M.Gravers New York Heraldın müxbiri Sidney Whitmanın sualına belə cavab vermişdir: "Erməni komitəçiləri olmasaydı və onlar erməniləri üsyana təş-

viq etməsəydilər, tək bir erməni öldürülməzdi."(100). Sonra eyni yazıçı öz əsərində bir yəhudinin: "Əgər bu hərəkatların biri Rusiyada olsaydı, tək bir erməni qalmazdı..." – dediyini bildirdikdən sonra – "Rusiyada ermənilər əsgərə alınırlar. Onlar məmləkətlərindən çox uzaqlarda xidmət edərlər. Onların məktubları nəzarətdən keçər. Türkiyədə isə ermənilər məsud və rifah içərisində bir həyat sürər, sərvət toplayar, əsgərə getməzlər. Onların məktəbləri sərbəstdir. Milli tarixlərini oxudarlar. Düşmənçilik təlqin edərlər..." – demişdir. Yazıçı əsərinin başqa bir yerində: "Avropanın yarısı qədər bir sahəyə dağılmış ermənilərin bir millət halında toplanmasına imkan vardırmı?"- yazır. (101).

"Ermənilər Türkiyənin hər tərəfinə dağılmışlar. Ermənistan dedikləri yerlərdə müsəlmanlarla qarışıq yaşayırlar. Buna Ermənistanın Türkiyə, İran və Rusiya arasında parçalanmış olduğunu əlavə edin. Bir müharibə nəticəsində bir Ermənistanın qurulmasını ona sürən yeni hökumətin yerini müəyyən etmək mümkün deyildir. Eyni çətinlik müstəqil və muxtar bir erməni vilayətinin qurulmasında da ortaya çıxır. Ermənistan harada başlayıb, harada bitir? Erməni məsələsi üçün bir çözüm, bir nəticə əldə etmək mümkün deyildir."- deyir Fransanın erməni sevən İstanbul səfiri M.Cambon (20 fevral 1894 il).

Ermənilərin Türkiyə torpaqları üzərində tarixi bir haqq iddia etmələri doğru deyildir. Çünki min illər əvvəl bu torpaqlar üzərində türklər yaşamış, daha sonra itirilmiş torpaqlarımızı bundan doqquz əsr əvvəl Səlcuqlu türkləri İran, Roma və bizanslılardan fəth edib Ana Vətəndə yaşamağa başlamışlar. Doğrudur, ermənilər də buralarda yaşamışlar, amma onlar hər zaman azlıqda olmuşlar və heç bir zaman müstəqil bir dövlət ola bilməmişlər. Onlar İran, Roma, Bizans və islam dövlətlərinin idarəsində kiçik bəyliklər halında yaşamışlar. Xristianlar buna nə deyə bilərlər? Bu ki tarixi bir həqiqətdir! Əslində xristianlar üçün nə çoxluğun, nə də sərhədlərin heç bir əhəmiyyəti yoxdur. Onlar genişlənmək, dünya millətlərini istila etmək, onları özləri üçün qul halına gətirməkdən başqa bir şey düşünməzlər.

Onlar çoxluğu azlıq halına gətirməyi çox yaxşı bilirlər. Əvvəl iqtisadi, idarı təzyiq, hər cür bəhanələrlə köçə zorlama, qarşı çıxanları həbs etmə, sürgün və nəhayət, qətliamlar!..

Çoxluğu ələ keçirmək çox "asandır". Endülusu, Krımı, Balkanları və Fələstini belə etmədilərmi? Endülus müsəlmanlarını qılıncdan keçirmədilərmi? Bu gün İspaniyada bir müsəlman cəmiyyəti vardırmı?..

Məgər ruslar Krımı aldıqdan sonra müxtəlif təzyiqlərlə türkləri azlığa düşürmədilərmi? Daha sonra sürgün və qətliamlara yol vermədilərmi?..

Məgər XX əsrin başlarında Azərbaycanın İrəvan xanlığında yaşayan ermənilərin yüzdəsi 12% deyildimi? Sonra ordan-burdan qovulan bu millətı İrəvan xanlığına soxaraq orada yaşayan ermənilərin yüzdəsini 42% çıxarıb, Beynəlxalq qanunlar yol verməsə də, "Müstəqil bir Ermənistan" quran ermənilərdimi?..

Azərbaycan türklərinin ata-baba yurdu olan İrəvan xanlığının 9 000 kv. kilometrlik ərazisində daşnakların elan etdikləri qondarma "Ermənistan Respublikası"nın ərazisini 26 000 kv. kilometrə, daha sonra bu torpaq sahəsini 29 000 kv. kilometrə çıxaran ermənilərdimi?..

Bütün bunlar azmış kimi bugün bu işğal edilmiş sahəni 29 000 kv. kilometrdən 46 000 kv. kilometrin üzərinə çıxaran ermənilərdimi? Bu gün bu 46 000 kv. km. torpaq sahəsində, azərbaycanlıların ata-baba yurdunda, ermənilərin "Türksüz bir Ermənistan" (bu gün oralarda yaşayanların yüzdə 98 faizi ermənilərdir) şüarını həyata keçirən ermənilərdimi? Xeyr, "insansevərlikləri" yüksək olsa da, az sayda olan ermənilər bütün bunları edə bilməzdilər.

Baxın, əgər Anadoluda ermənilərin "Ermənistan" adlandırdıqları bölgələrdə bir Ermənistan qurulsaydı, çox güman ki, bu gün oralarda tək bir türk qalmış olmazdı. Necə bilirsiniz, qalmış olardımı? Biz bu sualın cavabını bilirik və qətiyyətlə "Xeyr, qalmazdı!" - deyirik. Çünki ermənilər Birinci Dünya müharibəsində rusların, ingilislərin, fransızların himayəsi altında bu "işə"

yəni Anadolu türkünü qılıncdan keçirərək soyqırıma başlamışdılar... Amma türklər də elə-belə bir millət deyillər, istədikdə hər şeyə nail ola bilirlər. Onlar Alp ər Tunqadan (Əfrasiyab), Mete xandan (Oğuz xan), Atilladan törəmiş bir millət olaraq ermeniləri ruslarla birlikdə Anadoludan sürüb çıxartdılar. Uzun mübarizə dövründə verilən şəhidlərin al qanıyla boyanan bu mübarək torpaqlarda türkün azadlıq müharibəsi yoxluqlar içərisində zirvəyə çıxdı...

Mən bu son 2-3 cümlədən sonra çox duyğulandım. Amma bu duyğularım daha əvvəlki bölümləri yazarkən keçirdiyim duyğulardan fərqlənirdi... Bir az əvvəl Əlövsət adlı bir dostum mənə zəng etmişdi. Salamlaşmadan sonra "Nə var, nə yox?"- deyə hal-əhvalımı soruşdu. Mən də çox bikef və məyus olduğumu söylədim və yazımdakı son cümlələrimi ona anlatdım. Təbii ki, o da məyus oldu, çünki o da millətini və vətənini sevən bir insandır...

Bu son duyğularım qürurverici idi, çünki atalarımız Alp ər Tunqa, Mete xan, Atilla adları mənə çox şey deyirdi...

...Atamız Atilla 452-ci ilin baharında birləşmiş Avropa ordusunu dağıtdı və Romanın qapısına dayandı. Romanı böyük bir narahatlıq bürüdü. Tanrının qırmancı Romanın üzərində şaxlanacaqdı! Bundan qurtulmanın bir yolu olmalıydı. Romalılarlar Atillanın şəxsiyyətini təhlil etməyə başladılar. Atilla qorxusuz, yaman bir döyüşçü idi. Amma bir o qədər də sənətə və dinə qarşı hörməti vardı. Bəli! Çarə tapılmışdı. Atillaya ancaq bir din böyüyü təsir edə bilərdi. Ancaq Papa Birinci Leo Romanı yerlə bir olmaqdan xilas edər, Atillanın hirsinə qarşı bir sipər ola bilərdi. Haqsızlıq, ədalətsizlik qarşısında poladlaşan Türkün ürəyinə ancaq bir din adamı girə bilərdi...

Tarixşünaslar Papa Birinci Leonun Atillanı Romanın qapısında qarşıladığını və ona yalvarıb-yaxardığını yazırlar. Papanın sözləri Atillanın türk ürəyini hədəf almışdı:

– Ey yoxsulların qoruyucusu! Ey zalımların qorxusu! Ey böyük Atilla! Mən – bütün xristianların təmsilçisi Papa Birinci Leo sənin qarşında diz çökərək yalvarıram: Romaya girməyin.

Dünya xristianları adından deyiram, bizə yazığınız gəlsin!..

– Papa həzrətləri, qalxın! Bir din böyüyünün qarşımda diz çökməsinə ürəyim razı olmaz. Lütfən qalxın. Romanı və sizi bağışlayıram. Sülh və qardaşlıq içərisində yaşadığınız müddətcə məndən zərər gəlməyəcəyini bilin. İmperatorunuz romalılara ədalətlə rəhbərlik etdiyi müddətcə mən uzaqdayam, əks halda, mən çox yaxındayam! Salam söyləyin sizi buraya göndərən imperatorunuza!..

Düşmən düşməndir deyib keçməyək. Çünki düşmənin də mərdi vardır – atamız Atilla kimi! Lakin düşmənin naməRdi, xaini də vardır. Münafiq düşmənlərdən Allah qorusun...

Bu mövzuda bir neçə misal çəkək: 1890-cı ildə Ərzurumda ermənilər üsyan etdikləri zaman Rusiyanın konsulu Vali Samih paşaya: "Belə asi bir xalqı Rusiyada mütləq qırarlar,"- demişdir. Fəqət eyni konsul ermənilərə: "Türkiyə kimi vəhşi bir hökumətin idarəsi altında yaşamağa dəyməz", – deyərək bir tərəfdən erməniləri qanlı üsyana təhrik etmiş, digər tərəfdən də Babi Alini nota yağmuruna tutmuşdu.

Baş katib Təhsin paşa "Xatirələr" kitabının 237-ci səhifəsində belə deyir: "Ermənilərin Bitlis üsyanında ən böyük cinayətlərə imza atmış və məhkəmə prosesinin nəticəsində edama məhkum olmuş bir erməni qadınının bağışlanmasını ingilis səfiri Edvard Okonor bir cümə günü salamlama mərasimindən sonra hökmdardan şəxsən rica etdi. Sultan Əbdülhəmid xan ermənilərə qarşı şəfqətli və mərhəmətli olmanın heç bir faydasının olmayacağını söyləyərək ingilis səfirinin bu istəyini geri çevirmiş, elçi təkrar rica etdiyi zaman o, qadını bağışlamış və: "Bir bax gör dünyada nələr olur. İngilis səfiri maskasını ataraq siyasi məqsədlərinə alət etdikləri ermənilərin bağışlanmalarına şəfaətlə yanaşmaqdadır. Erməni üsyanının mahiyyətini bundan anlamalıyıq. Bu ermənilər bəzi dövlətlərin əllərində bir cinayət atəşindən başqa bir şey deyillər."

Bir başqa misal: "Ermənilər İstanbulda üsyan çıxarmış, bir neçə məsum türkü şəhid etmişdilər. Sultan Əbdülhəmid xan bu üsyanı əsgərlə yatırsa, iş böyüyə bilər, xaçlılar hamısı birdən sul-

lanın qarşısına çıxardılar. Buna görə də Sultan gömrükdə işləyən hambalları dayanəklərlə silahlandırıb bir neçə saat içərisində ermənilərin üsyanını yatırdır. Xaçlılar dururlarmı? Elçilər saraya gəlirlər və padşaha öz etirazlarını bildirərək erməni qətliamından söz açırlar. Sultan sarayın bir salonunda ermənilərdən toplanmış atəşli silahları elçilərə göstərərək: "Rus yanlısı ermənilər müsəlmanlara bu silahlarla hücum etmişlər. Belə silahları istehsal etmək üçün ermənilərin zavodu yoxdur." Sonra padşah elçiləri ikinci bir salona alaraq buraya yığılmış dayanəkləri onlara göstərmiş və: "Mənim adamlarım özlərini bu dayanəklərlə müdafiə etmişlər. Bu dayanəklər bizim meşələrdən tədarük edilmişdir."

Möhtərəm Sultan bu jestilə onların və böyük fəsadçı olduqlarını anlatmış olurdu. Amma onlarda qızaracaq üz varmı?

Türkiyədə çıxan üsyanlar xristian Avropa dövlətlərinin müdaxiləsi nəticəsində baş vermişdir. Bu dövlətlərin yönləndirməsilə ermənicə çıxan qəzetlər bəzən üstüörtülü, bəzən də açıqdan-açığa erməni müstəqilliyi fikrini yayınlamağa başlamışdılar. Bu yazılara bir nümunə olaraq Dəmirçibaşyanın "Punc" jurnalında çıxan "Vəzifə və hərb" başlıqlı yazısından bir parçası aşağıdadır:

"İyirminci əsr bir çox millətlərə hürriyyət verəcəkdir. Erməni hürriyyətini də o əsr gətirəcəkdir. Yenə bu əsrdə istehza olunan milli prinsiplər öz hökmünü verəcəkdir. Himayə altında yaşayan millətlər rüşdünü isbat edərək, talelərini öz əllərinə alacaqlar. Yenə bu əsrdə boyunduruq altında inləyən millətlər zəncirlərini qıracaqlar. Şübhə etməyin! Hürriyyət günəşi yenə bu müqəddəs əsrdə doğaraq Ermənistana hürriyyət şüalarını göndərəcəkdir..." (102)

## HNÇAK KOMİTƏSİNİN YARANMASI

Hnçak (can səsi) komitəsi ilk erməni komitəsi olaraq Rusiya vətəndaşı, Qafqazlı erməni tələbələr tərəfindən 1887-ci ildə İsveçrədə qurulmuşdur. Bu komitə ilk olaraq bir qəzet nəşr

etmaya başlamış va öz düşüncalarini yaymağa üz tutmuşdur. Osmanlı ermanilarinin "qurtarılmasını" hadaf alan bu komita bazi ermani ixtilal camiyyatlarinin iştirakıyla xeyli böyümüşdür. Bu komita ingilislardan gördüyü maraq va yardımlar naticasinda markazi idarasini Londona köçürtmuşdür.

Daha sonra İstanbulda bir şöba açmağa qarar verdilar. İstanbul taşkilatını qurmaq üçün Tiflisli Şamavon, Trabzonlu Ruben Hanazad, Batumlu Vezavayan va İran ermanilarindan S.Damoilyan İstanbulda toplandılar. Belaca, Türkiyada rahatca yaşayan ermanilarin taleyi ordan-burdan galmiş bir neça rus ermanisinin alina keçdi. Hncak komitasi çalışmalarına İzmirda, Halepda başlamış, sonra Türkiyanin bir çox böyük şaharlarinda davam etdirmişdir. Bu çalışmalar naticasinda Türkiyada qanlı harakatlar, sui-qasdlar, usyanlar baş vermişdir. İngiltaranin Trabzondakı konsulu 28 oktyabr 1895-ci il tarixli ingilis safirina yazdığı yazısında bela deyir: "Hncaklar planladıqları harakatları uzaqdan idara edirlar. Onlar özlari tamamila tahlükasizlikda olduqları halda, Türkiyadaki irqdaşlarının hayatlarını dayanılmaz bir hala gatirirlar. Onların maqsadlari müsalmanları xristianlara qarşı tahrik etmak, qatliamlar töratmak, mamlakati dahşatlar içarisinda buraxmaqdır. Bütün dünya bilmalidir ki, bu komitanin anarxiya yaradacaq bir xüsusiyyati vardır. Onlar terrorçu harakatlarla Ermanistanın yalnız islahını deyil, müstaqilliyini da tamin etmaya çalışırlar." (103).

Hncak komitasinin qayasi Şarqi Anadolunu ermani yurdu etdikdan sonra İran, Azarbaycan va Rusiyanın Xazar danizina qadar olan Qafqaz torpaqlarını alda etmak va "Böyük Ermanistan" dövlati qurmaqdır. Hncak komitasinin proqramı marksist, sosialist va markaziyyatçi idi. Bu komita ilk siyasi proqramındakı qayasini bela açıqlayır: "Türkiya Ermanistanı haqqında bu darin qanaati daşıyırıq: Onların taraqqilarina angal olan zancirlar mütlaq qırılmalı, bura siyasi müstaqilliya sahib olmalıdır."

Hncak komitasi üç boyunduruq (Türkiya, Rusiya, İran) altında azilan ermani millati üçün ideal bir fikri – bütün madani mamlakatlarda işçi va kandli sinifi birlaşmali, siyasi bir nüfuz

yaratmaq, kommunist ixtilalını həyata keçirməlidir - irəli sürmüşdür. İqtisadi sərbəstlik bütün ermənilərin qurtuluşu deməkdir. İstehsalat vasitələri cəmiyyətin malı olmalıdır. Yabancı idarə, vergi, maliyyə ermənilərı əzir. Köhnə idarə üsullarının erməniləri əzməməsi üçün bütün ermənilər sosializm sistemini qəbul etməli və bu sistemə nail olmalıdırlar. Beləliklə, ermənilər ixtilal, üsyan çıxarmaq, kapitalist hakim siniflərini yox etmək, əsarət vəziyyətindən qurtulmalıdırlar. Ermənilərin ən çox yaşadıqları yerlər Türkiyənin əlindədir. Ermənilərin davası "Berlin müqaviləsi"nin 61-ci maddəsi ilə Avropa dövlətləri tərəfindən qəbul edilmişdir. Belə olduqda ermənilər türk hökumətinin təzyiqi altında qalmamalı, Avropa dövlətlərini Türkiyəyə qarşı təhrik etməli və Anadoluda Ermənistan dövlətini qurmalıdırlar. Ermənilər asuriləri və kürdləri də ixtilal quruluşlarında əməkdaşlığa qatmalı və onların da türk hökumətinə qarşı çıxmalarını təmin etməlidirlər.

Qısa bir zamandan sonra Hncak komitəsində ikitirəlik yarandı. Komitənin bir bölümü Avetisin, digər bölümü isə yeni lider Aspiar Arpiaryanın arxasınca getməyə başladılar. Yaranmış tərəflərin proqramlarında elə ciddi bir ayrılıq yox idi. Fəqət erməniyə xas olan xüsusiyyət budur, onlar idarəçilərin hesabına bir-birilərilə boğazlaşmağa başladılar. Qahirə, London, Peterburq, Sofia, Tehran və digər bir çox şəhərlərin küçələri cəsədlərlə sərgiləndi. Ermənilər bu daxili çəkişməni xoş görmədilər. Hncak komitəsi əvvəlki əhəmiyyətini itirdi. Onun yerini Daşnaksütyun komitəsi a'dı.

## DAŞNAKSÜTYUN KOMİTƏSİNİN YARANMASI

Hncak komitəsinin daxilindəki liderlik mübarizəsi davam edərkən bu vəziyyətdən xoşlanmayanlar 1890-cı ildə "Truşak" (ermənicə bayraq deməkdir) adında bir qəzet yayınlayaraq öz düşüncələrini və tənqidlərini açıqlamağa başladılar. Sonra bir dərnək qurdular. Daha sonra bu dərnək federasiya mənasına

gələn Daşnaksutyun, tam ifadəsilə (Erməni İxtilal Cəmiyyəti İttifaqı) komitəsi olaraq birləşdilər.

Daşnaksutyun komitəsinin qurulmasındakı məqsəd Tiflisdə qurulan "Gənc Ermənistan," mərkəzi Vanda olan "Erməni cəmiyyəti – Armeneqanlar"ı, "Hncak komitəsi"ni birləşdirmək və Rusiyadan Türkiyəyə keçəcək çətələrə yardımçı olmaq idi.

Bu komitənin əvvəllər müəyyən bir proqramı yox idi. Onlar hər cür yollarla Türkiyədəki ermənilər üçün siyasi və iqtisadi müstəqillik əldə etməyi qarşılarına məqsəd qoymuşdular. Bu məqsəd isə Rusiyaya dost olan rus erməniləri tərəfindən Rusiyaya Ağ dəniz yolunu bağlayacaqlarını düşünərək uyğun görülmürdü. Buna görə də komitəçilər bu düşüncələrini açıq-aydın söyləyə bilmir, "siyasi və iqtisadi yollardan müstəqillik" istəyirdilər. Əslində Türkiyənin ermənilərin bu istəklərini yerinə yetirməsi erməni müstəqilliyini qəbul etməsi deməkdi. Daşnaksütyun komitəsinin ilk istəyi Türkiyəyə çətələr soxmaq, erməniləri silahlandırmaq, öyrətmək, çətələr qurmaq, çətə rəhbərləri yetişdirmək, üsyanları başlatmaq idi. Erməni yazıçısı M.Vartanyan "Daşnaksütyun tarixi" adlı kitabında belə yazır: "Daşnaksütyun komitəsinin parolu budur: türkü hər yerdə və hər cür şərtlər altında vur-öldür, sözündən dönənləri, erməni agentlərini, xainləri yox et, intiqam al."

Daşnaksütyun komitəsinin ilk məqsədi üsyan çıxarmaqdı. Bu üsyan nəticəsində Bolqarıstanda olduğu kimi müstəqillik və tam azadlıq əldə etmək idi. Komitə, əsasən, gənclik kütlələrinə güvənir, hürriyyət və müstəqillik düşüncələrini yayırdı.

Daşnaksütyun komitəsi bu düşüncələrlə yanaşı, demokratiya prinsiplərini də müdafiə edirdi. Buna görə də erməni zənginləri bu yeni qurulan Daşnaksütyun komitəsinə yaxınlaşmaq istəmirdilər. Amma kəndlilər, ziraət sahibləri, papazlar, esnaflar, müəllimlər, həkimlər, məmurlar, universitet əməkdaşları, sənətkarlar bu komitəyə girmişdilər. Daşnaklar hncak komitəsi ilə də birləşmək istəyirdilər, ancaq hncaklar Karl Marksın prinsiplərinə görə və erməni işçi sinfi üçün çalışmaq istəyirdilər..."

Daşnaksütyun komitəsi bir terror quruluşu olaraq 1896-cı ildə Osmanlı bankasına basqını, 1904-cü ildə ikinci Sason usyanını, 1905-ci ildə Yıldız sui-qəsdini həyata keçirmişdir.

Hncak və Daşnaksutyun komitələrinin quruluşundan dərhal sonra bu təzyiq, basqın, üsyan və sui-qəsdlərin baş verməsi ermənilərin, həqiqətən, hazırlıqlı olduqlarını ortaya qoyur. Belə ki, 1876-cı ildə II Əbdülhəmid padşah olmuş, məşrutiyyət elan etmiş və o gün Avropa dövlətlərinin İstanbuldakı səfirləri Topxanada toplanaraq basdırılmış olan Hersek və Bolqarıstan usyanlarını müzakirə edirdilər. Erməni patriarxı Nerses onlara müraciət edərək konfransda erməni mövzusunun da müzakirə edilməsini təklif edir. Mənfi cavab aldıqda: "Sizlərin maraq və simpatiyalarınızı çəkmək üçün bizim də usyan etməyimiz lazımdırsa, belə bir hərəkatı başlatmaqda bizim üçün bir çətinlik yoxdur," – demiş, hazır olduqlarını etiraf etmişdir...

Həqiqətən də, 1876-cı ildən başlayaraq sürəcək 35-40 il, Osmanlı dövlətinin əhəmiyyətli bir baş ağrısı erməni terror hadisələri, üsyanları, onları himayə edirmiş kimi görünən, əslində onları təhrik edən və hər şeyi ilə müdafiə edən Qərb ölkələrinin təzyiqləridir.

Daşnaksütyun komitəsi ilk dəfə 1890-cı ildə bu bildirini yayınlamışdır:

"Bu gün Avropa insan haqlarını müdafiə etməyə başlamış olan bir xalqı, bütün bir milləti görür. Belə tarixi bir bohran zamanında vətənpərvərləri maraqlandıracaq olan məsələ bütün ixtilal quvvələrini birləşdirmək, ortaq bir cəbhə qurmaqdır. Buna görə erməni ixtilal cəmiyyətləri ittifaqı bütün ermənilərə müraciət edərək onları bir bayraq altında birləşməyə çağırır. Türkiyə Ermənistanının siyasi və iqtisadi hürriyyətini əsas alan ittifaq əsirlərdə xalqın hökumətə qarşı başlatmış olduğu savaşa girmiş və vətəndaş hürriyyəti üçün qanının son damlasını axıtmağı öz üzərinə götürmüşdür.

Belə olduqda, ey dostlar, müqəddəs bir məqsəd uğrunda ümumi düşmənə qarşı birləşək! Ey gənclər, hər yerdə uca məfkurənin müdafiəçisi olan sizlər, xalqla birləşin!

Ey zənginlər! Siz də xalqın düşmənlərinə, tayfa boylarına qarşı sinələrini qoruya bilmələri üçün silah almalarını təmin edin!

Ey erməni qadını! Sən də bu müqəddəs işə ruh ver!

Din rəhbərləri, hürriyyət əsgərlərini uca tutun!

Gözləməcək zaman deyil... Toplanın, Vətənin qurtulması üçün qəhrəmanca irəli gedərək!" (104).

1890-cı ildə Ərzurum hadisəsi kimi bir çox qanlı döyüşlər olur. Aradan bir il keçir, 1891-ci ildə Daşnaksutyun komitəsi aşağıdakı ikinci bildirini yayınlayır:

"...Müqəddəs döyüş indidən zəif insanlara ümidsizlik verir. Bunlar nə edə bilərlər, nə topu, nə əsgəri, nə də qoruyucusu var? – deyə soruşurlar. Artıq güvən zəifliyi, eyni duygu, eyni ruh halı ilə hazırlanmış olaraq ermənilər birləşər və döyüşə hazır olarlarsa, buna qarşı heç bir şeyin dəyəri qalmaz. Nə düşmənin orduları, nə topları, nə də yabançı yardım..." (105).

Daşnaksütyun komitəsi bunun ardından da üçüncü bir bildiri yayınlayır:

"...Bizə ermənilərin olduqları yerlərdən bu qədər həyəcanverici xəbərlər gəlir. Daşnakların etibarlı sədaqətliləri bizdən həyəcanlı xalqa nə qarşılıq verəcəklərini, mənəviyyatlarını, duyğularını necə təmin edəcəklərini soruşurlar. Əslində ermənilər hədsiz fədakarlıqlar göstərirlər. Lakin bu böyük və müqəddəs iş üçün bu fədakarlıq kifayət etməz. Ehtiyatlı və uzaqgörən olmaq lazımdır. Zəfəri ancaq güclərimizi bir bayraq altında birləşdirib ordularımızı həlli bir qaydada tutsaq, əldə edə bilərik. Bunu hər bir vətənsevər ermənidən ürəyinə yazmasını xahiş edirik. Erməni yaşadığı hər yerdə hazırlansın və ümumi hərəkətə keçmək üçün dəvəti gözləsin. Daşnaksutyun komitəsi Türkiyə Ermənistanında çıxarılacaq üsyanı göstərəcək və hər kəsi əməli işə çağıracaqdır.

Ey erməni dostlar! Ümidlə, imanla, sönməz bir eşq və arzu ilə gecə-gündüz hazırlanın ki, biz də hər cür zülm və qanunsuzluqla qarşılaşan Türkiyə Ermənistanındakı qardaşlarımıza ümumi üsyan işarəti verə bilək..." (106).

Bu, daşnaksütyun komitəsi idi; erməniçilik fəaliyyətini bütün dünyaya yayan daşnaksütyun komitəsi, ortada heç bir şey yoxkən, təhriklər nəticəsində türklərlə erməniləri bir-birlərinə qırdıraraq dəhşətverici hadisələr çıxaran, Avropa və Rusiyanın müdaxiləsini Osmanlı dövlətinin üzərinə çəkib "Müstəqil Ermənistan" qurmağı planlayan daşnaksütyun komitəsi.

## ERMƏNİ KOMİTƏLƏRİNİN FƏALİYYƏTLƏRİ

Robert kollecinin qurucusu Dr. Hamlin 23 dekabr 1893-cü ildə "Boston Congregationalist Journal" qəzetində yayımlanan məktubunda bir komitəçinin dilindən erməni ixtilalçıların metodunu belə açıqlamışdır: "Osmanlı imperatorluğunun hər yerində təşkilatlanan daşnak çətələri türkləri və kürdləri öldürtmək, kəndləri yıxıb-yandırtmaq üçün onların üzərinə hücum edəcək, bəzi vəhşiliklər törədib dağlara qaçacaqlar. Bu vəhşi hərəkətlərdən quduran müsəlmanlar müdafiəsiz ermənilərin üzərinə hücum edəcək, eyni vəhşiliyi günahsız ermənilərə qarşı törədəcəklər, komitə üzvləri də Rusiya başda olmaqla bütün Avropa ölkələrini yardıma çağıracaq, Rusiya da insanlıq və xristianlıq adına Türkiyənin üzərinə atılacaqdır." Dr. Hamlin bu planı "ən insafsız və ən şeytani bir plan" olaraq adlandırdıqda onun yanında olan bir komitəçi belə demişdir: "Şübhəsiz ki, bu sizə belə görünür. Biz ermənilər nəyin bahasına olursa olsun, müstəqilliyimizi qazanmağa qəti qərar vermişik. Belə hadisələrdən sonra Avropa Bolqarıstanı qurtardı. Milyonlarca qadın və uşaqların qanları ilə yüksələcək səsimizə, şübhəsiz ki, həm Rusiya, həm də Avropa qulaq asacaqdır." (107).

Ermənilər Şərqi Anadoluda üsyanlar çıxararaq Avropa dövlətlərinin diqqətlərini çəkmək, "Berlin müqaviləsi"nin 61-ci maddəsini irəli sürərək ermənilərlə məskun yerlərdə islahat istəmək fikrində idilər. Bu islahatlar ermənilərin vəziyyətini müsəlmanlara nisbətən daha da gücləndirəcək, muxtariyyət və

ya müstəqil bir erməni dövlətinə yol açacaqdı. Bax bu hədəfləri ələ keçirmək üçün erməni milli komitələri qolları çırmamışdılar.

Şərqi Anadoluda ermənilərlə məskun yerlərdə erməni milli komitələri fəaliyyətə başlamadan əvvəl heç bir hadisə baş vermir, ermənilərlə müsəlmanlar bir arada yaxşı əlaqələr içərisində yaşayırdılar. Bu iki cəmiyyət arasında heç bir düşmənçilik yox idi. Belə ki, Qərbdə yaşayan bir erməni yazıçısı Sarkis Atamyan belə deyir: "Şərqi Anadoluda yaşayan ermənilərin çoxunu erməni kəndliləri təşkil edir. Bunlar o bölgədə yaşayan müsəlman kəndlilərindən zəngindirlər. Bu şərtlər altında iqtisadi olaraq öz-özünə kifayət edən bir ailə mühafizənin və çalışmanın hər cür sərbəstliyinə malikdir. (108).

Qərbdə yaşayan başqa bir yazıçı A.J.Arberyanın hazırladığı kitabda bunlar yer alır: "Həqiqətən, həm İstanbulda, həm də Osmanlı imperatorluğunun şərq vilayətində yaşayan və bu dövlətin vətəndaşlarının bir parçası olan ermənilər çox xoşbəxt, irəli dərəcədə rahat həyatlarından məmnundurlar." (109).

Başqa bir erməni yazıçısı Avendis K.Kajyan da bunlardan bəhs edir: "Bu xalqa (ermənilər və bütün qeyri-müslümlər) ədalət prinsipləri çərçivəsində davranılır, zülm edilməz və onlar rəsmi himayə altında öz ənənəvi hüquq qaydalarını, adətlərini sərbəstcə yaşadaraq həyatlarını rahatlıqla sürdürürdülər." (110).

Richard Davey də kitabında Şərqi Anadoludakı ermənilərin müsəlmanlara nisbətən çox daha zəngin olduqlarını, bunların müsəlmanlara ağır şərtlər altında faizlə pul verdiklərini, bu borcların ödənməməsi halında da Rusiyada yəhudilərin rus kəndlisini sıxışdırdıqları kimi, ermənilərin də Anadoluda müsəlman kəndlilərini sıxışdırdıqlarını, borclarını məhkəmələrə iş açaraq geri aldıqlarını yazır. (111).

Şərqi Anadoluda xüsusilə ermənilərin vəziyyətini incələmək üçün gəzməyə çıxan Amerikalı Papaz George H.Hep-worth da yazdığı xatirələrində ermənilərlə müsəlmanların 1893-cü ildə qanlı hadisələrin başlamasından əvvəl hüquqda bərabər ol-

duqlarını bir erməni alimin dilindən belə anladır: "Hepwordun "Hüquq sahəsində bərabərsinizmi?" sualına erməni alimi bu cavabı verir: "Bir neçə il əvvəl sülh və sakitlik içərisində yaşadığımız zaman ermənilər yaxşı bir vəziyyət şərtlərinə malikdilər. Hər hansı bir ermənin bir başqası tərəfindən qəsb edilən malı məhkəmə tərəfindən geri alınıb sahibinə qaytarılardı. Lakin bu komitəçilər gəldikdən sonra vəziyyət dəyişdi, rahatlığımız pozuldu." (112).

O zamanlar ermənilərin iqtisadi və sosial vəziyyətləri müsəlmanların iqtisadi və sosial vəziyyətlərindən çox-çox yaxşı idi. Elə ki buralara üsyan çıxarmaq üçün xaricdən erməni komitəçiləri gəlməyə başladılar və iki cəmiyyət arasında kin və düşmənçilik toxumları əkilməsi nəticəsində çox kədərli hadisələr baş verdi. Bu acı hadisələr baş verdiyi zaman Van və Bitlisdə Rusiyanın konsulu olan General Mayevskinin təsbitlərini oxuculara çatdırsaq, heç də pis olmaz. General öz əsərinin bir yerində Avropada bir ingilis-erməni ittifaqının varlığından bəhs etdikdən sonra bunları yazır: "...Turkiyədəki xristianların müsəlman türklərin zülm və təzyiqinə məruz qaldıqlarını Avropaya göstərmək lazım idi. Bu fikir çox doğru idi. Serbiya və Bolqarıstan belə əmələ gəlmişdi. Ermənilər də bu üsuldan istifadə etmək istəyirdilər... Təbliğ bu şəkildə aparıldı:

Ancaq qan tökmək lazımdır ki, ermənilər sərbəstlik qazansınlar!.. Qan tökün!.. Erməni komitəçiləri parıltı çıxararaq müsəlmanları ermənilərin əleyhinə sövq edərək fədakar göründüklərini zənn edirdilər. Nə olursa olsun, millətin qanı mütləq tökülməliydi?.. Erməni qanı töküldükdə Avropanın gəlib Ermənistanı qısa bir zamanda muxtar bir vilayət və ya Ermənistan dövləti kimi ortaya çıxaracağına inanırdılar. Yoxsa bu cür vəhşətə yol verilməzdi. Muxtariyyət idarəsinin əməlləri güclü olmasaydı, Londonun əmrilə minlərcə həyat tələf edilərdimi? Bütün bu dəhşətverici hadisələrə səbəb nə idi? Bu sualın cavabı sonradan: "Ermənilər kəsirlər,"- deyə bağıra bilmək, "Gəlin bizi xilas edin,"- deyə fəryad etmək idi! Doğrusu, erməni məsələsinə bənzər tarixdə başqa bir ixtilal görülməmişdir." (113).

"...İxtilal cəmiyyəti daşnak, hıncak, Ermənistan namina komitələrə ayrılmışdı. Bunlar kəndlini təşviq etmək üçün Sivasdan başlayaraq İrana və Rusiyaya qədər dağılmışdılar. Onlar məktəb müəllimlərinin vasitəsilə erməni gənclərini müsəlmanların əleyhində kin və qərəzlik hissləri ilə doldurmuş, üç-dörd il ərzində bir çox gənci məhkəməsiz ölümə hazırlamışdılar." (114).

"...Harada erməni komitəçilər görünmüşsə, orada mütləq qətliam olmuş və bunun ən bariz dəlili Sason hadisələridir. Erməni komitəçilərin olmadığı məhəllələrdə ermənilər çox rahat həyat sürmüşlər." (115).

"...1892-ci ildə Merzifonda baş verən erməni hadisələri möhür yerinə mərtini fişəyi basılmış komitə bildirilərinin cami həyətinə buraxılmasıyla başlamışdır. (116).

Bunu Malatiyada bombalarla yaxalanan Rusiya ermənilərindən "Şıhat"ın Merzifon ilə Havza arasındakı Çeltik boğazında 18 erməni çətəsi tərəfindən jandarmaların əlindən alınaraq qaçırılması və təkrar yaxalanması təqib etmişdir.

Ermənilər dövlətə bağlı olan erməniləri öldürürdülər. Onların fədailəri Vartsis ilə Kirkor bombaları və Qaradağ tapançalarıyla yaxalandılar.

Rusiya ermənisi Leon Perih qorumalarla vuruşmuşdur. Nəticədə, onun çətəsindən beşi ölü, dördü sağ olaraq ələ keçirilmişdir. Bu hadisədə əsgər və mühafizəçilərdən iki şəhid verilmişdir.

Ermənilər Merzifonda yanğın və qətl hadisələri hazırlamışdılar. 3 noyabr 1895-ci il cümə günü 40 nəfər erməni fədaisi namazdan əvvəl ermənilərə dükanlarını bağlatdırıb, onları öz kilsələrində toplayıb təhrik etmiş və kilsə zənglərini çaldıraraq türklərin üzərinə hücum etmiş, 20 nəfəri öldürmüş, bir çoxunu yaralamışdılar. Bu hadisələrdə təxminən 80 erməni öldürülmüşdür.

Merzifondakı erməni fəaliyyətləri haqqında Ser Clare Ford tərəfindən Lord Rosenberqə göndərilən hesabat baş verən hadisələrin işıqlandırılması baxımından çox böyük əhəmiyyət daşıyır. (117).

Ser Clare Ford hesabatında belə deyir:

"Dr.Franswort və Mr.Dodd üsyan və fəsad hərəkətlərinin yalnız Qriqoryan ermənilərı arasında qalmayaraq protestantlar arasında da yayıldığını, yayda komitə üzvlərinin dağlara çıxıb orada banditlik edəcəklərini, qoruyucuların canlarını burunlarından gətirəcəklərini, erməni məsələsi mövzusunda xarici dövlətlərin diqqətini çəkmək üçün ciddi məşğul olacaqlarını, bu qorxunc fikirlərini açıqdan-açığa söyləməkdə olduqlarını, nəticədə müsəlman xalqının həyəcan içərisində olduğunu və müsəlmanlarla xristianlar arasında ciddi bir gərginlik yarandığını mənə söylədilər.

Doktor Smith, aldığı məlumata görə, Merzifon, Amasiya və digər yerlərdə adlarını unutduğum bəzi rus ajanlarının bu hərəkətləri təşviq və himayə etdiklərini mənə bildirmişdir.

Mister Smith ixtilal cəmiyyətinin İngiltərə və digər məmləkətlərdə yaratdıqları əlaqə və dostluqdan cəsarət aldıqlarını və son zamanlarda onların hərəkətlərinin daha inamlı olduğunu da əlavə etmişdir. Onların ən sakit vətəndaşları belə qorxutmaları və özlərinə qarşı çıxan vətəndaşları vəhşicəsinə öldürmələri sakit və öz halında yaşayanlar arasındakı qorxunu daha da dərinləşdirmişdir. Bu sakit və öz halında yaşayan vətəndaşlar çox vaxt gizlicə pul və mal verməyə zorlanmışlar. Əgər onlar istənilən pulu və malı verməmiş olsalar, pis aqibətlərə uğrayacaqdılar, yox, əgər boyun əysələr, onda da hökumət tərəfindən bir üsyançı kimi günahlandırılacaqdılar. Beləcə, herbad və çıxılmaz bir vəziyyət yaranmışdır.

Dr.Franswort ermənilərin çoxunun hərəkət şəklinə deyilsə də, onların üsyan hərəkətlərinin mövzusuna və qayəsinə maraq göstərməkdə olduqları düşüncəsindədir. İstər özü, istər Mr.Dodd ermənilərin rum xalqından daha pis bir vəziyyətdə olmadıqlarını, əksinə, onların müsəlmanlarla bərabər, eyni dərəcədə olduqları fikrindədirlər.

Pozuq və adil olmayan bir idarənin pis nəticələri bərabər şəkildə müsəlman və xristianlar üzərinə yüklənməkdədir. Bu da bir həqiqətdir ki, müsəlmanların mənfəətlərini müdafiə

edəcək heç bir xarici dövlət yoxdur. Fəqət burada qanun qarşısında bərabərlik mövcud deyildir. Bir xristianın şahidliyi həlkə çox az yerdə bir müsəlmanın şahidliyi qədər dəyərlidir. Lakin bunlar daima bir çatışmamazlıq olaraq qəbul edilib düzəldilə biləcək şeylərdir. Son on il ərzində xristianların vəziyyətində bir düzəlmə vardır. Dr.Fransworth və Mr.Dodd bütün hal və vəziyyətin ermənilər arasında çox güclü olan və çox güman ki, yaxın gələcəkdə çox təhlükəli bir şəkil alacaq üsyan hərəkətlərini haqlı göstərməyəcəyi və bu vəziyyətin çox açıq bir şəkildə görülməkdə olduğu fikrindədirlər. Hər ikisi də bu yaxında Ankarada Tomanyanı görmüş və onun sağlam olduğuna və onunla yaxşı rəftar edildiyinə şahid olmuşlar.

Bu insanlarla apardığımız görüşmələr məndə belə bir iz buraxdı: məmləkət haqqında yaxşı məlumat və təcrübə sahibi olan bütün insanlar, xüsusilə ermənilər üsyan hərəkətlərinin bizim zənn etdiyimizdən daha artıq genişləndiyinə daha qorxunc olduğuna, ixtilal firqəsi liderlərinin sanıldığından daha güclü şəxsiyyətlər olub bunları başqa bir sahədə və başqa bir ölçüdə, hər halda müharibədən əvvəl Bolqarıstandakı vəziyyətə bənzər bir idarə sisteminin qurulmasını arzuladıqlarına inanmışlar."

Sənədlərdə türk tarixi jurnalında bu hadisələrin həqiqi tərəfilə əlaqəli bu maraq çəkici incələməyə rast gəlirik (118): Üsyan 1893-cü il yanvar ayının 5-də başlayacaqdı. Merzifon, Amasyıa, Sivas, Yozqat, Kayseri və Çorumda çox basırıq meydan və prostpektlərin divarlarına asılan elan, lövhə, plakatlarla ixtilal erməni xalqına eşitdiriləcək və böyük bir şiddətlə türklərə qarşı hücuma keçiləcəkdi. Amma belə olmadı. Yuxarıda bildirdiyimiz kimi hökumət hər şeyi bilirdi. Çünki bəyannamələri divara asmaqla vəzifələndirilənlərdən otuz nəfər adam "iş başında" bəyannamələrlə birlikdə polis və jandarmanın mərifətilə yaxalanıb həbs edilmişdilər. Onları məhkəmədə hakim qarşısına çıxarmaq üçün Ankaraya yollamışdılar. Digərlərinin də məsələnin böyüməməsi üçün qaçmalarına izin verilmişdi.

Bu arada elanların çap olunduğu Merzifondakı Amerikalı misyonerlər məktəbinin bitişiyindəki binalardan biri xristian

aləmini hərəkətə gətirmək məqsədilə yandırıldı. Osmanlı sənədlərinə görə, yanan binanın həm Amerikan məktəbində müəllimlik, həm də Merzifonda hökumət təbibliyi edən Osmanlı vətəndaşı bir ermənininin malı olduğu məlum olmuşdur. Bu ev inşa halında olduğuna görə içərisində qarovulçudan başqa heç kəsin olmadığı, yanğını görən qarovulçunun imdad istəməyə başlamasında məktəb işçiləri tərəfindən susdurulduğu və yanğın nasosu olduğu halda, istifadə olunmadığı qeyd edildisə də, qərb mənbələri Merzifondakı qız məktəbinin yerlə bir edildiyindən bəhs etdilər. Qısacası, üsyançıların təbliğat üçün yanğın çıxarmaları özləri baxımından faydalı oldu. Bütün Avropanın gözü mühakimə üçün tutulub Ankaraya gətirilən cinayətkarların (Avropa ictimaiyyətinə görə "məsumların") üzərinə çevrildi.

Merzifon üsyanından bəhs edilərkən, Merzifondankı qız məktəbinin tamamən yandırılıb yox edildiyindən ciddiyyətlə bəhs edilir və yazının sonunda hadisə zamanı nəşr edilmiş "əsərlərdən" toplanmış bir biblioqrafiya verildi. Xristian azlıqlar mövzusunda Qərbin çox romantik olan duyğularının həssas tərəflərinə toxunmaq məqsədilə məktəbin tamamının qız məktəbi olaraq tanıdılması komitəçilərin məqsədlərinə uygun idi. Bitişikdə olan binanın tamamilə yanması şəklində dünyaya duyurulması təbliğat işlərinin çox yaxşı idarə edildiyini göstərir. Məhkəmənin başlaması üçün iştirakı məcburi olan konsulun Ankaraya gəlməməkdə direnməsi, bu işi qəsdən uzadanın Türkiyə olduğunu, "məsum erməniləri mühakimə etmədən sorğusuz sualsız zindanlarda çürüdürlər" mənasında bütün dünyaya duyuruldu.

Avropa mediyası məsələni çox ciddi qarşıladı. Başda İngiltərə hökuməti olmaqla, Osmanlı Xarici İşlər Nazirliyinə məhkəmənin tezləşdirilməsi üçün müxtəlif təzyiqlər edildi. Nəhayət, İstanbuldakı səfirdən ciddi bir təlimat alan konsul məktəbdə axtarış aparılmasına hazır olmaq üçün təkrar Merzifona gəldi. Lakin arama işi ilə vəzifələndirilən Amasiya prokuroru aradan üç ay keçdiyini və bu müddət ərzində cinayətkarların la-

zım olan tədbirləri aldıqlarının bilindiyini, araşdırma aparılsa belə, bir şey tapmaq ehtimalının qalmadığını, bu qədər hazırlıqdan sonra alıbaş dönmənin, hökumət əleyhində yeni "faktlar" ortaya qoymanın mümkün olduğunu Sədrəzəmə bildirdi. Sədrəzəm də verdiyi cavabda ümumi prinsipin mühafizəsi üçün axtarışın və bu işin mümkün olduğu qədər gurultusuz aparılmasını 20.03.1893 tarixli yazılı əmrilə bildirdi. Nəticədə, üsyan bəyannamələrinin elanından tam dörd ay sonra məktəb səssizcə arandı və heç bir şey tapılmadı.

İngiltərənin Trabzon və Ərzurumdakı konsulları Ankaraya gələrək oradakı məsləkdaşları ilə görüşdülər. Və üçü birlikdə Valinin yanına gələrək Tomanyanın bir isim bənzərliyi nəticəsində yanlışlıqla tutulduğunu, əsl cinayətkarın eyni adla başqa birinin olduğunu və həbsdəki "zavallı" Tomanyanın Avropada, xüsusilə də Almaniyada çox tanındığını, alman və ingilis hökumətinin bu mövzuda həmrəy olduqlarını bildirdilər. İngilis konsullarının bəyanatları cinayətkarın arvadının Londondakı Osmanlı səfirinə verdiyi bəyanatın eynisi idi. (119)

İngiltərə cinayətkarın sərbəst buraxılması üçün İstanbula təzyiqini artırdı. İngilislərlə bərabər fransızlar da eyni mövzuda, yəni cinayətkarın isim bənzərliyi üzündən həbs edildiyini və sərbəst buraxılmasını istədilər. (120)

New York və Filadelfiyada hüzursuzluq o qədər artmışdı ki, Birləşmiş Ştatlar keçmiş İstanbul səfirini Xarici İşlər Nazirliyinə yollayaraq bu işin daha çox yayılmasının qarşısını almaq üçün məhkəmə işinin bitirilməsini tələb etmişdi. (121)

Almanlar imperatorun yaxınlarından və protestant kilsəsinin ən nüfuzlu şəxsiyyətlərindən olan rahib Hofmanı Berlindən Ankaraya yollayaraq cinayətkarlarla görüşmələrini təmin etdilər.

Digər tərəfdən bütün təhdidlərə baxmayaraq, Osmanlı Türkiyəsinin erməni vətəndaşları məhkəmədə öz həyatları bahasına olsa belə, komitəçilər əleyhində şahidlik edirdilər. (122)

Hökumət iki atəş arasında qalmışdı. Ya həqiqi günahkarları cəzalandıraraq erməni çoxluğunun razılığını təmin edəcək, ya da günahkarları azad edib Avropanı məmnun edəcəkdi. Os-

manlı dövləti təzyiqlərin qarşısında daha artıq dayana bilmədi və cinayətkarları azad edib padşahın əmrilə onları Türkiyə ərazisindən xaricə çıxartdı.

Yaranmış vəziyyətin yaxşılaşmasını istəyən dövlət işi əlbəhas etmək üçün əlindən gələni etdisə da, istədiyinə nail ola bilmədi. Məhkəmə bitdikdən sonra da ixtilalçılar hər fürsətdən istifadə edərək dövlətin güclərinə, müsəlman əhaliyə və özlərindən olmayan irqdaşlarına qarşı silahlı hücumlara başladılar. Şərqi və Cənubi Anadoluda dövlətin avtoriteti getdikcə azalırdı. Ortalıqda bir panika havası əsirdi. Canlarını qurtarmaq istəyən ermənilər qorxularından anarxistlərin tərəfinə keçir, digərləri isə köçə məcbur edilirdilər. Dövlət adamları başlanğıcda işi lazımi qaydada ciddiyə almadıqlarına görə ermənilərlə müsəlmanlar arasındakı kin getdikcə böyüdü. İki tərəf arasında keçmiş günlər bir daha geri gəlməyəcək dərəcədə pozuldu. Beləliklə, hər iki cəmiyyət 1915-ci ilinə qədər bir-birlərinə nifrət edərək yaşadılar.

Sasondakı ermənilər və kürdlər əsrlər boyu dostcasına ömür sürmüşdülər. Erməni komitaçıları bu bölgənin xüsusi vəziyyətinə görə, ixtilal təbliğatı üçün gözəl bir məhəllə tapmışdılar. 1893-cü ildə burada bir Damatyan ortaya çıxdı. Bir il sonra bunun yerinə Boyaçıyan gəldi. Bunların təhrikləri ilə çox az bir zaman içərisində bu iki millət arasında ardarda bir çox hadisələr baş verdi. 1894-cü ilin avqust ayında düşmənçilik artıq o dərəcəyə çatmışdı ki, oradakı münaqişələr adətən müharibə şəklində olub qalibiyyət ermənilər tərəfində görünməyə başlayırdı. Vəziyyət bu halda ikən hadisə yerinə Osmanlı əsgəri yetişirdi. .

Ancaq Sason hadisələri Avropanın qulağını doldurmaq üçün kifayət deyildi. Ona görə bütün Anadoluda Sason hadisələrinə bənzər hadisələr meydana gətirmək lazım idi. Belə

hadisələrin sayı artdıqdan sonra Avropa rəsmən müdaxiləyə başladı. Avropa mediyası da bu qarışıqlığı geniş ölçüdə yaymağa davam etdi." (123).

General Mayevski kimi Şərqi Anadoluda ermənilərlə müsəlmanlar arasındakı qanlı hadisələri başladanların erməni

komitəçilərin və onları təhrik edən imperialist dövlətlərin səbəb olduqlarına dair məlumat verən bir çox şahid və xarici yazıçılar vardır. Biz bunların bir neçəsinin etiraflarını yazmağa çalışacağıq.

Şərqi Anadoluda erməni üsyanlarının sürətlə baş verdiyi zamanlarda (1893-1896) bölgəni gəzən ingilislərin Ərzurumun konsulu Robert Graves burada yaşayan yerli ermənilərdə Osmanlı dövlətinə qarşı fitnə-fəsad ruhunun heç olmadığını, əsl üsyan müəlliflərinin Qafqazda, İsveçrədə və Afinada məskunlaşan gizli erməni cəmiyyətlərin olduğunu yazdıqdan sonra belə davam edir: "Bütün bunların içərisində sakitliyi pozan hadisələrə səbəb olanın ən təhlükəlisi xaricdə fəaliyyət göstərən gizli erməni cəmiyyətləriydi. Bunlar xalq arasında fəaliyyətdə olaraq üsyan və fitnə toxumlarını yayır, halından razı olmayan bəzi qəzəbli gəncləri məhəllənin üsyan cəmiyyətləri halında təşkilatlandırırdılar. Üsyana hazır olan bu təşkilatlara veriləcək bir işarətlə üsyan başladılacaq, türklərin bunlara müdaxiləsi qaçılmaz hala gələcək, nəticədə üsyançıların ümid etdikləri xarici müdaxilə şəraiti yaranacaqdı. (124)

Xatirə kitabında erməni komitəçılərinin Bitlisin şimalında yer alan Sason dağlarında gizlənib oranı təhrik və təbliğat mərkəzi seçdiklərindən bəhs edən Graves komitəçilərin buradan hərəkət edərək Osmanlı poçt dəstələrinə, jandarma təşkilatına, teleqraf xətlərinə və hökumətin qonaqlarına hücum edərək "əxlaqsız hadisələrə" yol verdiklərini yazır. (125)

İndi də başqa bir şahid, yuxarıda əsərindən bəhs etdiyimiz George H.Hepworthun şahidliyini qeyd edəcəyik. Edvin Pears Hepworthun "New York Herald" qəzeti tərəfindən Şərqi Anadoluya erməni iddialarını incələmək üçün göndərilmiş heyətə daxil edilən Amerikalı bir papaz olduğuna görə Sultan II Əbdülhəmidin bu heyətə yardımçı olmaq üçün rəfaqətlərinə bir əsgər ilə bir katib verdiyindən bəhs edir. (126)

Təhsin paşa öz xatirələrində: "Şərqi Anadoluda bitərəf və heç bir təzyiq altında qalmadan incələmələr aparan bu heyətin verdiyi məlumatlar və raportlarla ortaya çıxan həqiqətlərin nə-

ticəsində, Amerikanın ümumi fikrinin özlərini "səhv yola sövq edən erməni təbliğatçılarına çox hirsləndiklərini,"- yazır. (127).

Şərqi Anadoludakı qanlı hadisələrə xaricdən gələn erməni komitəçilərin və xarici dövlətlərin səbəb olduqlarından bəhs edən Hepworth xatirələrinin nəticə bölümündə bunları yazır: "İndi mən erməni qətliamlarına erməni komitəçilərin səbəb olduqlarını qısaca söyləsəm, bir həqiqəti, həm də çox əhəmiyyətli bir həqiqəti söyləmiş olaram... Bu arada erməni komitəçilərinin təcavüzlərini yeniləmələri mümkündür. Onlar məqsədlərini açıq-aydın söyləyirdilər: Özləri hadisələrin gerisində türklərlə erməniləri bir-birlərini öldürməyə təşviq etsələr, Avropanın qüvvəyə baş vuraraq müdaxilə edəcəyinə və bunun nəticəsində erməni krallığını yenidən quracaqlarına inanırdılar. Bu irəlini görə bilməyən, İngiltərə və Rusiya tərəfindən təhrik edilən ermənilər yanlış qərarlar alırdılar. İngiltərə onları yeni səyləri üçün öyür, təşviq edirdi. İngilislər gecə qaranlığı düşüncə şəhərin küçələrində gizlicə dolaşaraq öz dinləyicilərinə üsyana söz vermələri təqdirdə hökumətlərinin onlara kömək edəcəklərinə dair vəd verirdilər. Rusiya isə... Anadoluya gizlicə əl uzatmağa hazır idi. O, Ağ dənizə doğru yavaş-yavaş irəliləməyə çalışırdı. Qətliamlara gizlicə gülən Rusiya komitəçiləri təhrik edərək bir başqa üsyana səbəb olurdu. Bütün bunlara baxmayaraq, bir ana tək ermənilərə sahib çıxan Rusiya onların simpatiyasını qazanmaq və hami sifətini almaq istəyirdi." (128).

Erməniləri Osmanlı dövləti əleyhinə qaldırma fikri Türkiyədəki ermənilərdən deyil, Avropadan və Rusiyanın hakimiyyətində olan Qafqazdan gələn ermənilərdən irəli gəlirdi. Təbii ki, Qafqaz ermənilərinin belə hərəkət etmələri ağıla gəlməzdi. Onların arxasında Rusiya vardı. Rusiya Bolqarıstan hadisələrindən sonra indi də Türkiyəni ermənilərlə təhdid etməyə başlamışdı. II Əbdülhəmiddən bunları oxuyuruq: "Ermənilərin bizdən heç bir şikayətləri yox idi. Fəqət ruslar Bolqarıstan üzərindəki əməllərinə nail olduqda Osmanlı imperatorluğundan yeni bir parça daha qoparmaq üçün erməniləri barmaqlarına

doladılar. Gondardikləri ajanlarla avval papazları və müəllimləri ələ aldılar, sonra da tapdıqları macəraçı ermənilərı bizim aleyhimizə döndərdilər." (129). II Əbdülhəmidin adı keçən xatirələrində erməni komitəçilərinin metodunu və erməniləri türklərə qarşı necə düşmən etdiklərini də belə anladır: "Ermənilərin metodu müsəlmanları təhrik etmək, onlar arasında münaqişə yaratmaq, sonra da dünyanı ayağa qaldırmaqdı. Bundan sonra Avropa dövlətləri işə qarışacaqlar, bu iki unsurun bir arada yaşaya bilməyəcəklərini irəli sürərək muxtariyyət istəyəcəkdilər.

Papazlar, müəllimlər və ajanlarla aparılan bu təhriklər əvvəl o qədər də etibar görmədi. Bir çox Osmanlı ermənisi bu qışqırtmaları xoş qarşılamadı. Belə olduqda, qurulan çətələr əvvəl bu namuslu erməni vətəndaşlarımızı 'yola' gətirmək üçün bunları kəsib-doğrayıb öldürməyə başladılar. Bu vicdanlı ermənilər bir tərəfdən hökumətdən, digər tərəfdən də çətələrdən çəkinirdilər. Sonralar bunlar da çətələri dəstəkləməyə başladılar. Onlar çətələrə hər cür köməyi göstərir, onlarla bərabər türklərə qarşı olmazın hərəkətləri edirdilər.

Birinci səhifəsi belə bitən oyunun ikinci səhifəsinə keçildi. Türk qılığına girən ermənilər özlərinə yardım etmək istəyən vətəndaşını öldürüb sonra da: "Görmürsünüzmü, türklər sizi necə kəsib-doğrayırlar? Siz hələ bizim tərəfimizə keçməyəcəksinizmi?"- deməyə başladılar. Bir tərəfdən də müsəlmanların yaşadıqları kəndlərə girib, qadın-uşaq demədən xalqa işgəncə verərək öldürürdülər." (130).

Rus generalı Maevski bunları yazmışdır: "1895-ci ilə qədər ermənilərin Türkiyədəki yoxsulluqları bir xəyalı və şişirdilmiş uydurma hekayələridir... Hadisələr komitəçilərin xəyallarındakı təsəvvür etdikləri və icraya qoyduqları komediyadan başqa bir şey deyildir... 1895-ci ildə Vanda erməni-müsəlman əlaqələri çox yaxşı idi. Bu iki cəmiyyət bir-birilərilə dostca keçinirdilər. 1895-ci ildə bu gözəl əlaqələr birdən-birə tərsinə döndü. Komitəçilər müsəlmanları ermənilərə qarşı qışqırtmağa başladılar. Türk vəhşiliyi bir həqiqət olmayıb uydurulmuş siyasi bir

hekayədir. Həqiqəti olduğu kimi söyləmək lazımdırsa, Şərqdə vəhşi olanlar müsəlmanların deyil, əksinə, şərqli xristianların olduğunu söyləmək yerində olar. Muxtəlif pisliyi törədənlər şərqli xristianlar idi. Sonra onlar bu törətdiklərini kimsəsiz müsəlmanlara yükləyirdilər." (131).

Şərqi Anadoluya Avropa və Rusiyadan gələn daşnaksutyun və hnçak komitələrinin üzvlərini yerli ermənilər dəstəkləmirdilər. Lakin bu azğın komitəçilər onları zorla və muxtəlif şeytanı üsullarla müsəlmanlara qarşı çıxmağa məcbur edirdilər. Bu zorlamalar nəticəsində Ərzurum, Sason, Zeytun, Van və Adanada üsyanlar baş verdi. Bu üsyanlarla Avropanın diqqətini cəlb edib "Berlin müqaviləsi"nin 61-ci maddəsinə əsaslanaraq Türkiyəyə müdaxilə ediləcək, ermənilər lehinə islahat aparılması, imtiyazlar verilməsi istənəcək, "Onlara veriləcək bu imtiyazlarla, qurulması planlanan erməni krallığının toxumu əmələ gətiriləcəkdi." (132).

Erməni komitəçiləri bu sahələrdə çıxardıqları üsyanlardan bir nəticə əldə edə bilməyincə, fəaliyyətlərini İstanbula, hökumət mərkəzinə qaytaracaqdılar. Beləcə, Avropa dövlətlərinin diqqətlərini və müdaxilələrini daha asan çəkə biləcəklərini zənn edirdilər. Erməni komitəçilərinin İstanbulda yaratdıqları ilk hadisə onların 1896-cı ildə Osmanlı bankını basmaları hadisəsidir. Osmanlı bankı bir ingilis-fransız təşəbbüsü olduğuna görə, qərbli dövlətlərin bankı idi. Hadisə çıxarmaq üçün bu bankın seçilməsi onun Avropa ilə birbaşa əlaqəsinin olması ilə idi. Avropanın diqqətini erməni məsələsi üzərinə daha asan çəkmək üçün Osmanlı bankında bir hadisə çıxarmaq planlanmışdı. (133). Hadisədən bir il əvvəl, 10 sentyabr 1895-ci ildə Patriarx İzmirliyan, ətrafına topladığı ermənilərlə Kadırqa səmtindən Sultanəhməd meydanına qədər yeriyərək İstanbulda ermənilərin ilk gövdə göstərişini başlatmışdı. 1896-cı ildə baş verən banka hadisəsində də onun barmağı vardı. Buna görə də II Əbdülhəmid onu patriarxlıqdan qovdurmuşdu. (134).

Osmanlı bankını basan otuz erməninin hamısı daşnaksütyun komitəsinə mənsub olub xaricdən gəlmişdilər. "Osman-

lı bankına tacir sifatilə girərək küçədən keçən xalqı bombalarla öldürmüşdülər. Bankın ətrafını saran əsgərlərə xitabən "Rusiya səfiri M.Maksimov gəlmədikcə heç kimə təslim olmayacağıq, yoxsa, bankı havaya uçuracağıq" deyə çığır-bağır salmaqla Rusiya səfarətinə müraciət edilmiş və M.Maksimov gəlmişdi."(135). Maksimov əlində bir Rusiya bayrağı olduğu halda komitəçiləri bir fransız gəmisinə qədər gətirib onların sağ-salamat Türkiyəni tərk etmələrinə yardım etmişdi. İğtişaş əsnasında əlində bir zopa ilə saraya gələrək II Əbdulhəmidə: "Ermaniləri bununla öldürürlər,"- deyə fəryad edən də bu Maksimov idi." (129). Fəqət II Əbdulhəmid də Maksimovun hücumuna boyun əyməyib, yuxarıda qeyd etdiyimiz kimi, ona layiq olduğu cavabı vermişdi.

Erməni komitəçilərin istədikləri vəziyyət yaranmış, hadisə üzərinə Avropa dövlətləri "Türklər ermənilari qətl edirlər"- deyərək, İngiltərə başda olmaqla Fransa və Rusiya daşnaksütyun və xncak komitələrinin Avropa dövlətlərinə islahat üçün verdikləri tələb qarşısında Osmanlı dövlətindən islahat istəyirdilər. "İslahat yerinə ölümü tərcih edərəm"- deyən II Əbdülhəmid bu islahat istəyini də qəti bir şəkildə rədd etmişdi." (137).

II Əbdulhəmidin çox qərarlı olduğunu anlayan erməni komitəçilərinin Osmanlı bankını basması da bir nəticə vermədi. Artıq komitəçilər daxildə üsyan çıxarıb Avropa dövlətlərinin diqqətini çəkməkdə hədəflərinə çata bilməyəcəklərini anlamışdılar. Vəziyyət belə hal aldıqda, onlar yeni metodlar düşünməyə başladılar. Onların bu yeni düşüncələrinin əsasını II Əbdulhəmidin ortadan qaldırılması təşkil edirdi. Komitəçilərin sultanı hədəf almaları heç də səbəbsiz deyildi. Xaricdə erməni komitəçilərinin lehinə müdaxilə edən dövlətlərin arzularını təsirsiz buraxan onun siyasəti idi. Buna görə də sultanı öldürmək, onu təsirsiz bir hala gətirmək lazım idi. Erməni komitəçilərinin II Əbdülhəmidə qarşı sui-qəsdi olan və "Bomba hadisəsi" adı ilə tarixə keçən hadisə bu mərhələlərdən sonra ortaya çıxmışdır. Bu hadisə ilə əlaqədar Osmanlı "Təşkilati-Məhsusasında" (Təhlükəsizlik təşkilatı) vəzifəli olan mərhum

Polkovnik Hüsaməddin Ərtürk bunları yazır: "Ermənilər İstanbuldakı üsyanda (Qumqapı və bank hadisələri) müvəffəqiyyət əldə edə bilmədikdə Əbdülhəmidi ortadan qaldırmağa qərar vermişdilər. Bu məqsəd üçün İsveçrədə komitəçilərdən ibarət bir iclas keçirilmiş və komitəçilər arasında görüləcək işlər bölüşdürülmüşdü.

Elə bu zaman müstəqil bir İsrail yurdu olaraq düşünülən Qüdsü tələb etmək üçün sionistliyin qurucularından Teodor Herzel ilə Hahambaşısı girdikləri huzurdan Əbdülhəmid tərəfindən qovulmuşdular. Onlar da ermənilərlə birləşərək müştərək düşmənçiliyə başlamışdılar. Sui-qəsd hadisəsinin planı İsveçrədə hazırlanmış. Rusiyada ixtilalçı olaraq yetişdirilmiş bir yəhudi ilə sui-qəsd işlərində təcrübəsi olan bir macar yəhudi və fransız Edwart Jores ilə erməni komitəçilər bu planda xüsusi bir vəzifə almışdılar. Əbdülhəmidin saatlı bir bomba ilə qətl edilməsi uyğun görülmüşdü. Bomba bir fayton arabasının yaylarının üst qisminin içərisinə qoyulacaq və cümə salamlaşmasındakı mərasimə soxulacaqdı. Bu arabanın padşahın hər zaman mindiyi dörd at qoşulan səltənət arabasının civarında Ulduz sarayından Həmidiyyə camisinə qədər qət etdiyi məsafə daxilində və mümkün olduğu qədər ona yaxın bir yerdə buraxılması lazım gəlirdi. Bu araba Vyanada emal edilmiş və hər bir parçası ayrı-ayrı gömrükdən içəri keçirilmiş, sonra bir araya gətirilərək yığılmışdı. Aparılan tədqiqatlar nəticəsində bu parçaların gömrüklərdən rüşvətlə yoxlamasız keçirildiyi ortaya çıxmışdır." (138).

Leon Dabağyana görə, bu hadisədə çox əhəmiyyətli vəzifə alan Edwart Jores belçikalı bir yəhudi idi. Yenə ona görə, hadisədə ikinci şəxs olan və daşnaksütyunun qurucuları arasında yer alan Krisdaper Mikaelyan da yəhudi idi (139).

Sui-qəsdin hazırlığını etmək üçün 1905-ci ilin may ayında Rusiyadan İstanbula üç komitəçi gəlmişdi. Bunlardan biri daşnaksütyun komitəsinin qurucularından Simon Kayın adlı Kristoper Mikaelyan idi. Digəri bunun qızı Robino Kayın, üçüncüsü da Konstantin Kabulyan adı ilə tanınan Safo idi. Bunlara belçi-

kalı anarxist Jores də qatıldı. Bu dörd komitəçi İstanbulda bir ay qalaraq sui-qəsdin planlarını qurdular. Robino Kayın və Sofi İ paris adlı qadın komitəçilər gözəl paltarlarla kübar görünüşlü bir yabançı kimi xaricilərə məxsus giriş qapısından sarayın salamlığına bir neçə dəfə girərək oraları tədqiq edib bu nəticəni əldə etmişdilər: "Sultan Hamid minik daşından arabaya mindikdən bir dəqiqə qırx iki saniyə sonra caminin çöl qapısının ağzına çatmış olur. Saatla işləyən bir bombanın mexanizmi Sultan Həmidin minik daşından arabaya mindiyi dəqiqədə hərəkətə keçirilib bir dəqiqə qırx iki saniyə sonra saatın ibrəsi partlayış nöqtəsindən atəşə verilərsə, Sultan Hamid bu partlayış sahəsinə çatacaq və bütün mahiyyəti ilə havaya uçurulmuş olacaqdı."(140).

Bu təsbitdən sonra Vyanaya gedən komitəçilər cızdıqları xüsusi plan üzrə bir araba düzəltdirərək, arabanı parça-parça yurda soxub yığdıqdan sonra, 1905-ci il 21 iyul cümə günü Yıldız caminin çöl qapısına padşahın arabasına yaxın bir yerdə buraxmışdılar. Plan üzrə Sultan arabasına minərkən bu saatlı bomba partlayacaq və onu öldürəcəkdi.

Sultan Əbdülhamid caminin koridorlarında irəliləyərkən salama durmuş olan Şeyxulislam Camaləddin əfəndi ilə görüşdü. Bu görüşmə hər zamanınkından bir az artıq sürdü. Tam bu sırada bomba partladı. Partlayan bomba 26 nəfəri öldürdü. Hər kəs panika içərisində qaçdığı halda II Əbdülhamid soyuqqanlılığını qorumuş, başqa bir arabaya minərək xalqın alqışları altında heç bir şey olmamışcasına sarayına getmişdir. Hadisəni yaradan komitəçilər pasportları və qaçma tərtibatı əvvəldən hazır olduğuna görə Türkiyəni tərk edə bilmişdilər. Beləcə, erməni komitəçilərin bu planı da müvəffəqiyyətsizliyə uğramışdır.

II Əbdülhamid məşrutiyyət tərəfdarı olmasına baxmayaraq, o günkü şərtlərdə məşrutiyyətin Türkiyədə hələ tətbiq oluna bilməyəcəyi hökmünə inanır. Onun fikrincə, əgər məşrutiyyət Türkiyədə tətbiq edilsə idi, imperatorluq qısa bir zamanda dağılacaqdı. Padşaha görə, məşrutiyyət ancaq dili, dini, irqi bir olan cəmiyyətlərdə tətbiq oluna bilərdi. Osmanlı impe-

ratorluğunun müxtəlif dil, irq və din mənsublarını tərkibində saxlayan bir imperatorluq olması, ayrı dil, irq və din mənsublarının imperialist dövlətlərin təhriklərinə açıq olmasına görə sərbəst idarəsi olan məşrutiyyət şəraitində imperatorluq qısa bir zamanda parçalanıb yox ola bilərdi. II Əbdülhəmid bu fikirdə olduğuna görə məşrutiyyəti həyata keçirmirdi. Məşrutiyyət şəraiti, ayrı bir dövlət idealı uğrunda mübarizə aparan cəmiyyətlərə görə, Türkiyədəki yıxıcı fəaliyyətlərini daha rahat və asan yerinə yetirmək üçün əlverişli bir şərait olacaqdı. Erməni komitəçiləri də belə düşünürdülər. Bax bu düşüncənin nəticəsində onlar məşrutiyyət şəraitinin yaradılması və II Əbdülhəmidin missiyasının sıfıra endirilməsi uğrunda jontürklərlə ittifaqa girdilər. Jontürklər erməni komitəçilərinin II Əbdülhəmidə qarşı olan sui-qəsdlərini, Türkiyənin hər hansı bir yerində çıxan erməni partlulaının səbəbini II Əbdülhəmidin idarəsinə və məşrutiyyət idarəsinin olmamasına bağlayırdılar.

Gəlin Camal paşanın etiraflarına bir nəzər salaq: "Jontürklər 1894-1896 erməni hadisələrini II Əbdülhəmidin bir siyasi səhvi və öz istibdadını davam etdirmək üçün baş vurduğu zalım bir tədbir kimi qəbul etdilər. Buna görədir ki, o zaman Avropada olan Əhməd Rıza bəy və onun dostları bu baxımdan işi mühakimə edərək erməni ixtilalçılarına böyük yardımlar etdilər. Mənim kimi məmləkət içərisində olan ixtilalçılar da eyni fikri qəbul edərək türklük və xüsusilə Osmanlılıq üçün çox böyük zərərlər verə biləcək mahiyyətdə inkişaf edən erməni qətliamına görə Əbdülhəmidi ittiham etməkdən çəkinmədilər." (141)

Jontürklərin Ədəmi-Mərkəziyyətçi qolunun lideri Prins Səbahəddin erməni üsyanlarının səbəbini məşrutiyyətin yoxluğuna bağlayır, II Əbdülhəmidi "Ermənilari məhv etməklə" günahlandırırdı. (142)

Jontürklərə görə, məşrutiyyət gələr, II Əbdülhəmid təsirsiz hala gətirilərsə, ermənilərin şiddət hadisələri sona çatar.

Jontürklərlə ittifaq qurmaq təklifi ilk olaraq erməni komitəçilərindən gəldi. Onların etiraflarından bunları oxuyuruq:

Cenevrədəki erməni daşnaksütyun komitəsi, Adəmi-Mərkəziyyətçi cəmiyyətinə xitabən Prins Sabahəddin bəyə göndərdiyi bir məktubda mühüm bir məsələnin müzakirəsi üçün bir səlahiyyətli missiya qəbul edilməsini istəmişdir. Eyni şəkildə bir təklif Tərəqqi və İttihad Cəmiyyətindən mümessil sayılan Əhməd Rza bəyə də edilmişdi. Bir neçə ay sonra da daşnaksütyun komitəsinin səlahiyyətlisi Malimyan adındakı bir zat Berlin küçəsindəki Sabahəddin bəyin yazıxanasına gələrək onunla görüşmüş, bir konqress aktını, bir proqram ətrafında toplanmağı və bəzi icraat şəkillərini təklif etmişdir. Prins Sabahəddin bəy və onun dostları bu təklifi müvafiq görmüş və hansı nöqtələr ətrafında görüşüləcəyini təyin etmək üçün bir komitənin seçilməsini irəli sürmüşdülər. Bir neçə gün içərisində erməni nümayəndələrinin təşəbbüsü ilə istər Tərəqqi və İttihad Cəmiyyətindən, istərsə də Təşəbbüsü şəxsi qruppasından nümayəndələr seçilmiş və ilk iclas Berlin küçəsindəki Prins Sabahəddin bəyin bürosunda keçirilmişdir. Bu iclasda Adəmi-Mərkəziyyət qruppasından Dr.Nihat Rəşad Fazli bəy, Tərəqqi və İttihad qruppasından Dr.Bahəddin Şakir, Hüsrev Sami bəylər, ermənilərdən də Maqlumyan və digər biri vardı.

Birinci ictimada ermənilər məqsədlərini açıqca söyləmişlər və erməni komitələri tərəfindən Sultan Əbdülhəmid əleyhinə törədilən sui-qəsdin pis nəticələr verdiyini və buna görə bir çox pulların hədər getdiyini etiraf etdikdən sonra erməni komitələrinin müstəqil hərəkətləri istər məmləkət, istərsə də özləri üçün yaxşı olmadığına qənaət gətirdiklərini izah etmişlər. Müvafiq hədəfə çata bilmək məqsədilə müştərək bir proqram təqib ediləcək yolların indidən təyin və təsbitini təklif etmişdilər. Ümumi bir şəkildə göstərilən bu qənaət və düşüncələr hər kəs tərəfindən xoş görülmüşsə də, iş müştərək bir proqram şəklinə intiqal edincə fərqlər meydana çıxmışdır. Hətta bir ara görüşmələr pozulmağa doğru sürmüş, fəqət, nəticədə bu əsaslar üzərində anlaşma olmuşdur: hər cəmiyyət öz məsləyini mühafizə etməklə bərabər, prinsip düşüncələrini bir an üçün nəzərə almayaraq, digərlərinin tənqidilə məşğul olmayacaq,

özbaşınalığa yol verilməməsi üçün müştərək bir proqram altında çalışacaq, çalışma tərzini də bu üç cəmiyyətin gizli seçəcəkləri nümayəndələr təyin edəcəklər." (143).

Erməni komitəçilərin məqsədi yuxarıdakı sənəddən də anlaşıldığı kimi, II Əbdülhəmidə sui-qəsdlərinin müvəffəqiyyətli olması nəticəsində Sultanı təkbaşına təsirsiz hala gətirə bilməyəcəkləri qərarına gələrək bu əməllərini yerinə yetirə bilmək uğrunda güclərini jontürklərlə ittifaqa soxub hədəfə çatmaqdı. Bu ittifaqı yazıdan bunları oxuyuruq: "...Ermənilər də bu idarəni ittihada cəlb edirdilər. Ermənilərin ən böyük firqəsi ixtilalıyesi olan daşnaklar bu idarəni yıxmaq üçün bizimlə ittihad etdilər. Ancaq bu ittihad yalnız şəxsə aid olub hər firqə proqramında müstəqil hərəkət edəcəkdir. Bundan məmləkətimizə iki fayda vardır: birincisi lüzumsuz yerə qan tökən və xaricilərin müdaxiləsini dəvət edən firqələrin hərəkətinə sədd çəkmək, ikincisi də müştərək mənafeyə malik olan xristianlığın qüdrətindən istifadə etməkdir. Ondan sonra hər firqə öz proqramının icrasında sərbəst qalacaqdır.

Biz bir dəfə hökuməti yıxdıqdan və məclisi mühasirəyə aldıqdan sonra millətimiz sayəsində nə bir ovuc ermənidən, nə də Əbdülhəmid hökumətini təhdid edən avropalılardan qorxumuz qalmayacaqdır..." (144).

1906-cı ildə birləşən erməni təşkilatlarının jontürk cəmiyyətləri ilə özləri arasında ittifaq qurulması uğrunda təşəbbüs etməsi üçün vəzifələndirdikləri, Mağlumyanla jontürklərin ittihadçı və Ademi-Merkeziyyetçi qrupları arasında aparılan görüşmələr nəticəsində 27-29 dekabr 1907-ci ildə Avropada bir konqress keçirilməsi qərara alındı.

Tək ortaq əməli II Əbdülhəmidi devirmək olan bu konqres (145) müəyyən edilmiş gündə Parisdə "II Osmanlı Liberallar Konqresi" adı ilə toplandı.

Bu konqresdə II Əbdülhəmidin idarəsini devirmək xüsusunda, qısaca bu qərarlar alınmışdı: Hökumət devrilməli və yeni bir hökumət qurulmalı. Etiraz, nümayiş şərtləri: təzyiqə qarşı silahlı direnmə, hökumət və polis vəzifəliləri də daxil olmaq-

la siyasi və iqtisadi nümayişlərlə silahsız dirənmə. Vergi ödəməmə. Ordu içində təbliğat, lazım olduqda cəm halda nümayiş. Vəziyyət və şərtlərə görə digər hərəkət növləri. (146)

Sultan II Əbdülhəmid jontürklərlə erməni komitəçilərin əlaqələrindən günbəgün xəbərdar olur və lazım olan tədbirləri alırdı. O, xatirələrində bu əlaqələri belə yazır: "Mən ermənilərin istiqlal sevdasına qapılmalarına çaşmıram, hələ böyük dövlətlər tərəfindən durmadan təhrik edildiklərini bildikdən sonra... Lakin Avropaya qaçıb orada mənim əleyhimə qəzet nəşr edən bəzi jontürklərin erməni komitəçiləri ilə əməkdaşlıq edib əlbir olmalarına, hətta onlardan pul alıb satılmalarına çaşıram. Onlar həm Osmanlı ölkəsini parçalanmaqdan qurtarmaq istədiklərini söyləyir, həm də Osmanlı ölkəsini parçalayanlarla əlbir olurlar! Əgər onların aralarına nifaq salmasaydım, görəsən, bu işi haralara qədər aparacaqdılar?.. Anadolunun göbəyində bir erməni dövləti qurmaq, onların vətənpərvərliklərinin bir isbatımı olacaqdı?"(147).

Bu uğurda bir erməni yazıçı da jontürklərin erməni komitəçilərilə qurduqları ittifaqın Türkiyə baxımından zərərini belə ortaya qoyur: "İttihadçılar ilə daşnaklar arasında həqiqi bir səmimiyyət içərisində ittifaq ola bilərdimi? Təbii ki, ola bilməzdi. Çünki erməni komitəçilərinin özlərinə ideal olaraq seçdikləri yol hər baxımdan zəifləmiş vəziyyətdə olan Osmanlı imperatorluğundan torpaq qopartmaq və şərqdən qərbə qədər uzanan müəzzəm bir Ermənistan meydana gətirə bilməzdi. Doğrusu, bu, tamamən bir xəyal məhsulu idi və gerçəkləşə bilməsinə əsla imkan yox idi. Amma onlar bu ideala tam mənada inanmışdılar. Buna görə də belə bir komitə ilə ittihadçıların bir uyum içərisində çalışa bilmələri, əlbəttə, hər baxımdan imkansızdı... İttihadçıların bu məsələdə işlədikləri ən böyük xəta siyasi qayələrlə hərəkətə keçmiş olan komitəçilərlə ittifaq arxasınca getmələri olmuşdur. Halbuki tam olaraq xarici ölkələrdən əmələ gəlmiş və Türkiyə içərisində çöreklənmiş bu kimi quruluşların kökünü qazımaq, digər tərəfdən belə quruluşların qəhredici qısqacından qurtarmaq və camaatı öz taleyini təyin edə-

bilacək vəziyyətə gətirmək lazım idi. Sultan Əbdulhamid xan buna qismən də olsa müvəffəq olmuşdu. İttihadçılar isə daha əvvəl başlamış olan hadisələrdən də misallar alaraq daha bacarıqlı bir usul uyğulaya bilər və erməni məsələsini əsasından həll edərdilər. Amma belə etmədilər. Xüsusilə daşnaklar ilə ittifaq yolunu seçərək xeyli qan itirmiş və ölməyə üz tutmuş olan canavara təzə qan verdilər. Belə yanlış və məntiq almaz bir siyasətin necə bir məhsul vermiş olduğunun cavabını biz deyil, bilavasitə tarix versin." (148).

Erməni komitəçiləri məşrutiyyətin elanına qədər "Təşəbbüs və fəaliyyətlərinin sırf istibdadı devirməyə yönəldiyini iddia etmiş və beləcə cəmiyyəti aldatmağa (149) müvəffəq olmuş, məşrutiyyət şəraitində ixtilal üçün hazırlıqlara başlamışdılar. F.Mandelə görə də, ermənilər Sultan II Əbdülhəmidə qarşı jonturklərlə "keçici müqavilə" bağlamışdılar. Sultan devrilincə ermənilərdə aşırı dərəcədə hürriyyət havası oyandı. (150).

Məşrutiyyətin elanından sonra da jonturklərin erməni komitəçilərinə baxışları yaxşı niyyətlə davam etmiş, onların məşrutiyyətin elanı ilə birlikdə sadiq bir osmanlı vətəndaşı halına gələcəkləri düşüncəsinə qapılmış, məşrutiyyətdən əvvəl yıxıcı hərəkətlərinin səbəbini sırf məşrutiyyət idarəsinin yoxluğuna bağlamışdılar. Ermənilər jonturklərin bu vəziyyətindən faydalanmışdılar. Bax, bunun nəticəsində məşrutiyyətin elanından sonra Avropada işləyən erməni komitəçiləri, siyasi günahkarlar, məhkumlar, məhkumluqdan qaçanlar, sərsərilər paytaxta doldular. Rus ləhçəsində ermənicə danışan daşnaksütyunlular diqqət çəkirdilər." (151). "Türkiyədən xaricə nə qədər qaçan vardısa təkrar geri dönmələrinə icazə verildiyinə görə, Rusiyada olan ermənilərin də Türkiyəyə dönmələri üçün Moskva səfarəti və digər konsullar vasitəsilə dönənlərə pasportlar verilməsi əmri buyrulur. Bu arada, Rusiyada, xüsusilə Qafqaz və Qafqazdakı daşnaksutyun komitəçiləri tərəfindən ermənilərin Türkiyəyə girmələrini təmin etmək üçün lazım olan təşviq edilirdi. Qars Baş konsulluğundan hər həftə ən az min beş yüz pasport verilərək ermənilər Ərzurum yolu ilə ötürülürdü. Rusiya-

dakı bütün komita raisləri də pasport alaraq Türkiyəyə keçirdilər. Bu ümumi bağışlamadan o zamana qədər cinayət törədənlər də istifadə edirdilər." (152). Qaçan komitaçılar Türkiyəyə geri döndükləri kimi, Türkiyədəki fəaliyyətləri də aşkar hala gəlmişdi. "...Bax bu hövsələyə sığmayacaq ittifaq üzərinə məşrutiyyətdən əvvəl hökumətin şiddətlə təqib etdiyi gizli təşəkküllər artıq aşkar fəaliyyətə başlamış, hətta daşnaksütyundan başqa hıncak, Veraqamyol-hn-cak, Ramqavar v.s. ixtilal cəmiyyətləri də Anadolunu parçalama fəaliyyətlərini açıqdan-açığa etmək imkanını təmin etmişdilər." (153). Elə ki hər yerdə yenidən təşkilatlanırdılar, prospekt və küçələrdəki bürolarına tablolar asaraq fəaliyyət göstərirdilər. Türkiyəyə qarşı üsyanda istifadə etmək üçün bu ölkəyə bol miqdarda silah soxdular. Bu silahlar bazarda, mağazalarda sərbəstcə satılırdı. Erməni məktəbləri bir ixtilal yuvası halına gətirilmiş, erməni uşaqlarına "Türklərin Anadolu vilayətlərini ermənilərdən zəbt etmiş olduqlarını, hər bir erməni üçün atalarının məmləkətlərini türklərin boyunduruğundan qurtarmağa çalışmanın milli bir vəzifə olduğunu anladırdılar." (154).

Yeni şəraitdə erməni komitaçıları belə Osmanlı məclisi deputatlığına deputat olaraq girmişdilər. Bunlar Pastırmaçıyan və Vartakeşt idi. Ən mühüm və gizli nəzarətlər olan xarici və poçta, teleqraf nazirliklərinə iki erməni – Qabriyel Norandukyan və Oskar gətirilmişdilər. Bunlar olarkən, ittihadçıların bütün hərəkət nöqtələri məşrutiyyət gəlməklə erməni qarışıqlıqlarının sona çatacağı və ermənilərin sadiq bir Osmanlı vətəndaşı olacaqları düşüncəsi idi. Lakin hələ məşrutiyyətin elanından bir il keçmədən ittihadçıların düşüncələrinə qarşı nə edə biləcəklərini ortaya qoydular. Məşrutiyyət havasının gətirdiyi sərbəstlik şəraitində üsyan üçün hazırlanan və 31 mart hadisəsi qarışıqlığından faydalanan Adanadakı ermənilər əllərindəki silahlarla türklərə hücum etməyə başladılar. Komitaçılar nəzdində Sultan Həmidin aradan qaldırdığı üsyanlar məşrutiyyət rejimində aradan qaldırılmaz sayılır, ittihadçıların dostluğuna güvənilirdi." (155).

Adana hadisəsinin səbəbi "Avropa dövlətlərinin əsgəri müdaxiləsinə səbəb olaraq Kilikiyada bir erməni hökuməti qurmaq idi." (156). Hadisədə Rusiyanın da barmağı vardı. Rusiya Ağ dənizə enmə uğrunda uzun zamandan bəri Adana və ətrafındakı ermənilərini Osmanlı dövlətinin əleyhinə təhrik edirdi. (157).

Adana üsyanlarından ermənilərin hesabı bu idi: üsyan çıxarılacaq, Avropa dövlətləri Mersinə əsgər ötürərək müdaxilə edəcək və buranı ermənilərə verəcəkdilər. Üsyan məşrutiyyət şəraitindən faydalanaraq hazırlanmışdı. "Ermənilər arasında teatr səhnələri oynanılır, səhnələr erməniləri təhrik edirdi: səhnədə rol alan gənc bir erməni qızı ağlayanlara: "Nə üçün ağlayırsınız? Vətəni qurtarmaq sizin əlinizdədir. Millətimiz sizdən fədakarlıq gözləyir. Namussuz yaşamaqdansa, namuslu ölmək şərəflidir. Ölümdən qorxanların aramızda yeri yoxdur," - deyə xitab etməklə qəzəbləri son həddinə çıxarırdı. Səhnədən çıxan erməni gəncləri bu təsir altında küçələrdə "Yaşasın erməni krallığı!" deyərək nəqərat atırdılar. Rusiyadan gələn erməni komitəçiləri durmadan erməni gənclərinə atəş və silah təlimi verirdilər." (158).

Hadisələrin başçısı Yepiskop Muşeq idi. Komitəçilərin təhriklərinə bu papazın da təhrikləri əlavə olunca, ermənilər əllərindəki silahlarla müsəlmanlara hücum etdilər. Bu hadisədə çox sayda müsəlman və erməni həyatını itirdi. Muşeq Avropaya qaçdı.

Üsyan olanda təşvişə düşən İttihadçıların hadisə qarşısında olan tövrləri maraqlıdır. Bu hadisə ilə əlaqəli olaraq Camal paşa və Tələt paşanın xatirələrinə bir nəzər salaq. Camal paşa belə yazır: "Adanaya gəlişimdən dörd ay sonra yalnız Adana şəhərində hərb divanı məhkumlarından otuz müsəlmanı edam etdirdiyim kimi, ondan iki ay sonra da Erzin qəsəbəsində on yeddi müsəlmanı edam etdirdim. Bununla bərabər yalnız bir erməni edam olunmuşdur. Edam olunan müsəlmanlar arasında Adananın adlı-sanlı və zəngin ailələrinə mənsub gənclər olduğu kimi, Baxça qəsəbəsinin müftüsü də vardı. Bu müftünün o bölgə

nin türkləri nəzdində çox böyük nüfuzu vardı." (159). Tələt paşa da bunları yazır: "Adana hadisələri 31 martda və irtica günlərində olmuşdur. Təqib edilən məqsədin xalq kütlələrinin təəssüburu təhrik edərək qətliama səbəbiyyət vermək surətilə Avropanın diqqətini üzərimizə çəkmək və Kilikiyada muxtar bir erməni birliyi təşkil etmək olduğuna şübhə yoxdu. Mən bu işdə bitərəf bir dövlət adamı sifətilə siyasi məqsədimi unutmaq və müsəlman olsun, erməni olsun, qətliam fəaliyyətinə görə layiq olduqları cəzaya çatdırmaq istəyirdim. Bu hadisələr zamanında müsəlman xalqı qətliama təşviq etmiş olan müftü və digər müsəlmanların da cəzalandırılmasını təkid etdim. Belə olduqda məhkəmə müftünü və şəriklərini edama məhkum etdi və bu edam qərarının nazirlər heyəti tərəfindən təsdiqini təmin edən yenə mən oldum. Yüngülləşəcəkləri qənaətində idim, komitələrə qarşı daima ən böyük səbri göstərdim və onların həqiqi məqsədlərini bilmirmiş kimi hərəkət etdim. Lakin hökumətin bu hərəkət tərzi komitələrin ehtiraslarını yüngülləşmək bir yana dursun, əksinə, onları gücləndirdi." (160).

İttihadçılar Adana hadisələri səbəbilə "Zərər çəkən ermənilərə təzminat olaraq paylamaq üzrə Vali Camal bəyin əmrilə iki yüz min qızıl verilmişdi. Müsəlmanlara isə heç bir təzminat və saira verilməmişdi. Qız və oğlan erməni yetimləri bu pul ilə bəslənmiş və baxılmışlar." (161).

"Məclisdə komitəçi deputatlar vardılar, dedik. Bunlardan Pastırmaçıyan vəhşi və qızğın erməni komitəçilərindən biri idi. Əbdülhəmid zamanında o, dostları ilə birlikdə Osmanlı bankına girərək oradan xalqın üzərinə bombalar atmış, nəticədə, yaxalanmış olduğu halda Rusiya səfirinin qoruması sayəsində heç bir cəza almadan İstanbulu tərk etmiş sevilməyən bir adamdır." (162). Komitəçi deputatlardan Vartakes isə, "Vanda çıxarılan ixtilalın təşkilatçılarından olduğuna görə edama məhkum edilmiş və ancaq ingilis səfirinin təzyiqilə cəzası ömürlük həbs cəzasına çevrilərək Erqani mədəninə göndərilmiş bir sərsəri idi." (163). II Əbdülhəmidə hal qərarını təbliğə məmur üçün qurulan heyətdə olan erməni Aramı bu heyətə sırf "Ada-

nə hadisələrinin ermənilər üzərindəki mənfi təsirini yox etmək və hadisədən Sultan Həmidi cavabdeh göstərmək üçün seçmişdilər.' (164).

Qabriel Norandükyanın Xarici İşlər Nazirliyinə gətirilməsi yaxşı olmadı. Bu adamın nazirliyi zamanında və daha sonralar zərərləri görülmüşdür. O, həyatını Türkiyənin zəiflədilməsi və bunun nəticəsində erməni dövlətinin qurulması uğrunda sərf etmişdir. Nazirliyi zamanında verdiyi zərərlərdən biri tarixə "Trablusqarp hərbi" adı ilə keçən türk-italyan müharibəsində italyanlar hesabına çalışması olmuşdur. "Fazlı bəy böyük kabinə zamanında Müdafiə Naziri Nazim paşanı ziyarətə gedir. Onun yanında ziraət Naziri Rəşid paşa da vardı. Ziraət Naziri Nazim paşaya: "Paşam, aramızda xainlər var," - deyə sözə başladı. Trablusqarp hərbi münasibətilə italyanlarla sülh müzakirə edilərkən cərəyan edən bu hadisəni nəql etmişdir: "Mən italyanlardan ləhimizə bəzi şeylər qoparmağa çalışdım və bu xüsusda dostlarımı da yola gətirməyə müvəffəq olmuşdum. Lakin bir ara İtaliyanın səlahiyyətli nümayəndəsinin hərəkətlərində dəyişiklik hiss etdim və səbəbini soruşdum. İtaliyanın nümayəndəsi cavabında: "Dəyinlər vəkili Noqara İstanbuldan göndərdiyi raportda Xarici İşlər Naziri Norandukyanı evində ziyarət etdiyini bildirir və Norandukyan, "Vəziyyətimiz çox pisdir nə istəsəniz verməyə məcburuq, fürsəti qaçırmayın, istədiklərinizdə təkid edin,' tövsiyəsində olduğunu yazır,"- demişdir. Bunu mənə şəxsən Fazıl bəy anlatmışdır." (165).

Trablusqarp müharibəsinin sonunda imzalanan "Türk-italyan müqaviləsi"nin Türkiyə əleyhində maddələr ehtiva etməsi bilavasitə 12 adamın itirilməsinə böyük ölçüdə bu adam səbəb olmuşdur.

Qabriel Norandukyan Xarici İşlər Nazirliyi zamanında verdiyi zərərlərdən biri də Türkiyənin başına Balkan müharibəsinin gətirilməsinə yardımçı olmasıdır. Balkanlarda müharibə olmayacağına dair Rusiyadan aldığı saxta təminata əsaslanaraq: "Balkanlardan imanım qədər əminəm. Müharibə olmayacaq" - deyərək, hökuməti yuxuya verən və bölgədən təlimi 120 ba-

talyon əsgərin azad edilməsinə səbəb olan odur. (166). Bu qədər əhəmiyyətli bir quvvənin Rumelidən çəkilməsi Balkan millətini cəsarətə gətirərək Turkiyəyə hucum etmələrinə səbəb olmuşdur. İşin qəribəliyinə baxın ki, onun təhlukəli vəziyyəti aydın olduğu zaman qorxudanmı, yoxsa ermənilari çətinə salmamaq üçünmü, tədbir görülməmişdir: "Böyük kabinetdə Norandukyana dostları "xain" gözü ilə baxırdılar, lakin bunu açıqdan-açığa söyləyə bilmirdilər." (167). "Xarici İşlər Naziri Norandukyan bu müharibənin (Balkan müharibəsi) ən böyük məsuliyyətlisi idi. Bir gün Şeyxulislam: "Ah o Xariciyyə Naziri Norandukyan var haa, o!"- demişdi. Bu istehzasına cavabən də: "Hamımızın fikrini oğurlayan odur. Çünki hər dəfə sözü o mövzuya gətirib: "Müharibə qeyri-qəbuldur deyirsəm əgər, inanın əfəndim,"- deyərək cövhərini udur, sonra da bizi müharibəyə təşviq edirdi,"- dedi." (168).

Qabriel Norandukyan Xarici İşlər Nazirliyindən "Böyük kabinetin" istefa etməsi nəticəsində nazirlikdən uzaqlaşdı. Turkiyənin I Dünya müharibəsinə girməsilə Türkiyəni tərk edən Norandukyan bu müharibə şəraitindən faydalanaraq Avropada bir erməni dövlətinin qurulması uğrunda çalışmalara başlamışdır. "Birinci dünya müharibəsi zamanında məmləkətimizdən ayrılmış olan Qabriyel zəkasından gözlənilməyən bir qavrayışsızlıq və yersiz bir ehtiras şaşqınlığı ilə artıq məhv olduğuna qənaət gətirdiyi Türkiyə torpaqlarında erməni komitələrinin xəyallarında canlandırdıqları muxtar Ermənistan qurulması qayəsini Avropada müdafiəyə girişmiş və bu surətlə çox heyf ki, özünü dövlətin ən yüksək bir əmniyyət məqamına çıxarmaq qədirşünaslığında olmuş müqəddəs türk millətinə qarşı xəyanət etməyə böyük bir nankorluqla sui-istifadə etmişdir." (169).

Norandukyanın erməni dövləti qurma uğrunda Avropadakı çalışmaları İstiqlal müharibəsi zamanında da davam etmiş, zəfərdən sonra, sulh görüşmələri başlayınca bu səfər də postunu Lozanna sərmişdir. Lozann kulislərində Avropa dövlətləri təmsilçiliyinə Şərqi Anadoluda müstəqil bir erməni dövləti qurulması fikrini qəbul etdirməyə çalışan Norandukyan bir ara

Türkiyənin baş numayəndəsi İsmət paşa ilə də təmas etmişdir. İsmət paşa öz xatirələrində bu anı belə anladır: "Paşalyan əfəndinin sözlərini Norandukyan əfəndi kəsdi: "Biz bir erməni yurdu istəyirik,"- dedi. "Necə bir erməni yurdu?"- deyə soruşdum. Türkiyənin bir yerini ayıracaqsınız tərzində izah etdikdə mən soruşdum: "Türkiyənin harasında istəyirsiniz? Şərqindəmi, cənubundamı, yoxsa qərbindəmi?" Norandukyan: "Harada olursa olsun, erməni yurdu olaraq bizə bir yer verin, biz də orada toplanaq, orada yaşayaq,"- dedi." (170).

Qabriyel Norodukyan kimi digər erməni liderləri də I Dünya müharibəsində Türkiyəni tərk edərək Avropa və Rusiyada erməni dövləti qurma uğrunda çalışdılar. Basdırmacıyan Osmanlı məclisində deputat ikən Qafqaza qaçaraq, orada könüllü erməni batalyonları qurub Rusiya ordusu sıralarına girmiş, bu batalyonlarla Vanda türkləri qətl etmişdir. (171). Jön-türklərlə hiyləli əlaqələrə girən bütün ermənilər eyni xainliklə pis yollara baş vurmuşlar. Bütün bunları burada uzun-uzadı sıralamağı uyğun görmürük. Jöntürklərin erməni komitəçiləri ilə ittifaqlarının çox acı nəticəsini iki ittihadçının etiraflarından oxuyaraq bu bəhsə son verəcəyik. "Jöntürklər məşrutiyyətin elanında erməni vətəndaşlarına qarşı ən böyük səmimiyyətlə hərəkət etmiş və istiqbala tam bir etimadla baxdıqlarını göstərmişlər. Fəqət daşnak və hncak erməni komitələri 1908-1918-ci illərdə Türkiyədəki ixtilalçı fəaliyyətlərini genişlətmək və xalqı silahlandırmaq xüsusunda böyük istək sərf etdilər. (172). "Cəmiyyətə adətən rəqib kimi baxırdılar, dərmanlar, çarələr arasında ziddiyyət vardı. Onlar bizdən ayrı muxtariyyət istəyirdilər. Biz isə ümumi bir islahat tələb edirdik. Qanuni əsası Millət Məclisi ümumi xoşnud edəcəkdi." (173).

Jöntürklərin səmimiyyətinə və vətənsevərliyinə şübhə edilməz. Ancaq təcrübəsizliklərindən bəhs edilə bilər. Onların ermənilərlə yaxınlaşmalarında, gizli bir niyyətləri yoxdu. Ümumiyyətlə, erməniləri də rumlar, bolqarlar, ərəblər, arnavutlar və yəhudilər kimi siyasətlərinin ana təməllərindən biri olan "Osmanlı vətəndaşlığı" çərçivəsində dəyərləndirirdilər. Fəqət

ermәni komitәçilәri jontürklәrә gizli niyyәtlәrlә yaxınlaşmış, hiylәli әlaqәlәrlә onları aldatmışlar.

Daşnaksutyun komitәçilәri Üçüncü Türk artilleriyasını illәr boyu mәşğul etmiş, sәrhәddәki müsәlman-türk kәndlәrinә qarşı qәtliamlar, qarәtlәr vә ağıla gәlmәyәn әn pis hәrәkәtlәri hәyata keçirmişlәr. Bu çәtәlәrin başında Serop, Andranik, Tatol, Aşol, Arziv, Avak olmuşlar. Bunların arasından "Qaniçәn Andranik" deyilәn çәtә başçısı 1917-ci ildә Әrzurum qәtliamını Rusiya generalı forması ilә idarә etmişdir. Andranik Sason ermәni üsyanında da iştirak etmişdir. (174)

Daşnaksütyunun tәbliğat mәrkәzi Paris olmuşdur. Burada Pierre Geillard rәhbәrliyindә "Pro-Armeniya" adlı bir qәzet çıxarılır, bütün tәrәfdarları bu qәzet әtrafında toplanırdı. Digәr tәrәfdәn Truşak, Haraç, Alik, Hayrenik vә Razmik kimi komitә qәzetlәri dә Avropa ictimaiyyәtini ermәni mәsәlәsinә hazırlayırdılar. Paris, London, Brussel, Berlin, Leypziq, Cenevrә, Roma vә Milanda bu mәsәlәnin tәbliğatı üçün әlverişli şәraitlәr yaradılmışdı.

Ermәni komitәçilәri onlara yardım etmәyәn ermәni zәnginlәrini dә öldürürdülәr. Moskvada Jambaryan, İzmirdә Balyozyan, Novorossiyskidә rus ermәnisi Bahalyan daşnaksütyun komitәçilәri tәrәfindәn öldürülmüşlәr. İstanbulda da komitәçilәrә üz vermәyәn advokat Haçik, Gedikpaşa kilsәsinin Baş papazı Dacad Unekyan, polis Markar, mәclis ruhani üzvü Mampre Vartapet, Hacı Dikran, Mıgırdıc Tütüncüyan küçәlәrdә vәhşicәsinә qәtl edilmişdilәr. (175)

Ermәni patriarxı Aşıkyan da komitәçilәrin sui-qәsdinә uğrayanlar arasındadır. Fransanın İstanbuldakı sәfiri Cambon Fransa xarici kәşfiyyatına bu xüsusda aşağıdakı mәlumatı verir: "Keçәn bazar günü, Patriarx Aşıkyan ayindәn dönәrkәn Qumqapı kilsәsini tәrk etdiyi zaman 18 yaşındakı bir ermәni gәnci onu nişan alaraq bir neçә dәfә atәş etmişdir. Güllә isabәt etmәyәn patriarx özündәn getmiş vә iqamәtgahında müalicә edilmişdir. Gәnc ermәni polis idarәsinә götürülmüş vә işlәdiyi cinayәtin sәbәbi haqqında sorğuya çәkildikdә Aşıkyanın ermә-

nilərin düşməni olduğunu, durmadan hökumətə xəbərlər çatdırdığını, erməni millətinin də bu adamdan qurtulmaq üçün and içdiklərini söyləmişdir. (176)

Buna qarşılıq, ermənilər arasında özlərindən olanların belə öldürülmələrini haqlı görən din adamları da vardı. 1909 Adana hadisəsini hazırlayan Yepiskop Museq bunlardan biridir. (177).

Bu arada Robert College (kollec) müdiri Dr Hamlinin Birləşmiş Amerikanın Boston şəhərində çıxan "Congregationalist" jurnalına göndərdiyi məktubda "Hncak ixtilal partiyası" haqqında şikayət etdiyini və "Köklərinin Rusiyada olduğunu, "rus qızılı və zəkası ilə idarə edildiyini" yazmış olduğunu görürük. (178).

Daşnaksütyun komitəçiləri tayfalarla işbirliyi yaradaraq, onları Osmanlı dövlətinə qarşı birlikdə ayağa qaldırmaq üçün çox məşğul oldular. Çətəbaşı erzincanlı Keri və yoldaşları 1896-cı ildə Dersim və çevrəsində xeyli dolaşdılar və tayfa bəyləri ilə birləşərək çıxaracaqları usyanlara yardımçı olmalarını, heç olmasa tərəfsiz qalmalarını təmin etməyə çalışdılar. (179).

Eyni şəkildə daşnak komitəsi adından rahib Vartar Vartapetyan ilə çətəbaşı Xrayr və Gevork Çaluşun Van, Bitlis və Muş ətrafında Aram, İşhan və Varimyanın, Xaçemanlı, Çivanlı və Heydəranlı tayfalarının bəyləri ilə apardıqları görüşmələr bir nəticə vermədi. Onda daşnak komitəçiləri Diyarbakır bölgəsindəki İbrahim paşa, Pencencan və Alikan tayfa rəisləri ilə Siverekdəki tayfa bəylərinə qiymətli hədiyyələr vermək istədilərsə də, yenə bir nəticə ala bilmədilər.

Daşnak komitəçiləri makedoniyalılar və bolqarlarla da birlikdə çalışmağa yol tapmışlar. Daşnak komitəsinin Türkiyədə istifadə edəcəyi bombaları belə bolqarlar istehsal etmişlər. Daşnak komitəçilərin tərəfdarlarına türk-bolqar sərhəddində açılan hərbi məktəbdə bolqar ordusunda yüzbaşı olan Boğazyan təlim keçmişdir. Bu məktəbdə təhsil alan gənclər Türkiyədəki usyanlarda çoxlu türk qanı axıtmışlar.

Erməni komitəçilərin Qafqazda yaşayan türklərə qarşı verdikləri zülmün həcmini və formasını saymaqla bitməz. Ermənilərin Qafqazda yaşayanlar haqqındakı duyğularını Vartanyan

hələ dilə gətirir: "Ermənilər üçün Qafqazın Türkiyədən heç bir fərqi yoxdur. Bunların ikisi də turanlıdırlar... Sason nədirsə, Qafqaz da odur..." (180)

Daşnaksutyun komitəçiləri bu bölgədə yaşayan türklərə hücumu bir neçə yerdə planlamışlar (181). İlk hücum Bakıda 1905-ci ilin fevral ayında baş vermişdir. Hadisə rus əsgərləri tərəfindən məhkəmədən həbsxanaya aparılan Aşurbəyov adlı bir türkün əsgərlər arasında olan bir erməni tərəfindən güllələnərək öldürülməsi ilə başlamışdır. Belə olduqda orada olan Babayev adlı bir türk də erməni əsgərini öldürmüşdür. Bundan sonra bir neçə erməni Babaevi təqib etmiş və onu da öldürmüşlər. Daşnaklar türkləri öldürmək, onların mallarını ələ keçirmək, evlərini, iş yerlərini yandırmaq üçün əllərindən gələn vəhşilikləri törətmişlər. Məsələn, komitəçi Nikol əsgəri təhsil görmüş Tuman adlı çətəsilə Bakıya gəlmiş və türk məhəllələrindəki evləri yaxıb-yandırmış, çox sayda türkün ölümünə səbəb olmuşdur. Ermənilər əleyhinə qarşı çıxan Bakı Valisi Nakadzeni ölümlə hədələmiş, bunu həyata keçirmək üçün Tro adlı bir çətə başçısına təlimat vermişdir. 15 may 1905-ci ildə Tronun atdığı bomba ilə vali parça-parça olmuş, onu daşıyan arabaçı da ölmüşdür. Türk liderlərindən Məmmədbəyov ilə gürcü Mikeladze da sui-qəsdlə öldürülmüşlər.

Bu hadisələr avqust ayında təkrar başlamış, Tro İrəvanda oturub Ağrı dağı çevrəsindəki erməni üsyanını idarə etmişdir. O, bu bölgədəki erməniləri silahlandıraraq çətələr qurdurmuş, başçıları şəxsən özü təyin etmiş, onlardan "komitə vergisi" almış, milis təşkilatları, çətələr qurmuş, onları silahla təmin etmiş, müdafiə planları qurmuşdur. Yaradılmış bu erməni çətələri də ağlasığmaz vəhşiliklər etmişlər: qadın, uşaq, qoca demədən mühafizəsiz məsum insanları öldürmüş, onların cəsədləri ilə olmazın vəhşilikləri etmişlər.

Başqa bir erməni çətəçisi Vartan da öz qruplaşmasını Qarabağa göndərmiş, oradakı türklərə qarşı başlatdığı vəhşiliklərlə 500-ə yaxın silahsız, dinc türkü öldürtmüşdür. Bununla da kifayətlənməmiş, şəhər və kəndləri atəşə verdirmişdir.

Sivaslı erməni çetəçisi Murad həmzasp, türklərin çox olduğu Naxçıvan bölgəsində böyük miqyasda işgəncə və qətliamlara girişmiş və çox sayda türkü vəhşicəsinə öldürtmüşdür.

Bu arada daşnak komitəsi yayınladığı rusca məlumatlarda, "polislərin, jandarmaların və bələdiyyə rəhbərlərinin ermənilərin əllərindən silahlarını almağa cəhd etdiyi halda bir-bir öldürüləcəklərini..." elan edir. Bakı Valisi Nahadze, Konzak, Vali yardımçısı Andreev, Solfsky, Şemerlenk, Baxlov, polis raisı Saxacaq, Pristav Naçansky, Cəferov, Şumakeviç və Dersxakovun ölümlərindən ibrət alınmasını xatırladırdı.

Erməni çətə rəhbərlərindən Sako və Abraham Gulxançıyanın çətələri türklərin yaşadıqları Gəncə bölgəsində talan və qanlı cinayətlər törətmişlər.

Bakıdan Davud bəy, Məlik Boylaryan adlı ermənilər çətələrilə Tiflis üzərindən Batuma gələrək türk kəndlərini yandırıb-yaxdılar və böyük həcmdə qətliamlar törətdilər.

Bu qətliamlar 1905-ci ilin noyabr ayında da Tiflis türklərinə qarşı törədildi. Tiflis qətliamında erməni çətələrini Durbah, Armen Karo, Keri, Bagdesyan, Dikran və Stepanyan kimi banditlər idarə etmişlər.

Türklərin səbrləri tükənmiş, özünümüdafiə usulu bitmişdi. Onlar əks-hücümə keçib ermənilərə qarşı vuruşdular və onları qanlarına boyadılar. Ermənilər burada unutmayacaqları bir dərs aldılar. Tarix həqiqi günahkarların ermənilərin olduqlarını yazır. Fransızlar, ingilislər, amerikalılar istəməsələr də, bu belədir.

Ermənilər Rusiyanın Qafqazdakı Ümumi Valisi vasitəsilə sülh istədilər. Tarix boyunca hər zaman bağışlayan türklər bu dəfə də bağışlamağa razı oldular və ermənilərə qarşı aşağıdakı şərtləri irəli sürdülər:

1. Erməni katolikosu müftünün ayağına gedərək əfv diləyəcək.
2. Papazlar kilsələrdə erməni qətliamları, yangın və qarətləri pisləyəcəklər.
3. Öldürülən türklərin qatilləri hökumətə təslim ediləcəklər.

Qafqazın bir çox yerlərində polis və hakimlər türklərdən ibarət idi. Zənginlik və ərazi baxımından türklər daha çox və daha zəngindilər.

Qafqaz hadisələrindən sonra Baş Vali Vorontsov Tiflisdə və *Peterburqda türk təmsilçilərinə: "Müsəlmanların əxlaqi dəyərlərini* və tərbiyələrini bəyəndiklərini, Bakı fəlakətində onların günahsız olduqlarından əmin olduğunu..."- söyləmişdir. (182)

Ermənilər türklərin şərtlərini qəbul etdilər. Ancaq katolikos xəstə olduğu üçün piskopos Saturyan müftünün yanına gedərək əfv dilədi. Papazlar kilsələrdə hadisələri pisləyəcəklərinə, lakin qatilləri Rusiya hökumətinə təslim etməyib özləri cəzalandıracaqlarına söz verdilər. 1905-ci il hadisələri belecə sona çatdı.

Qafqaz ermənilərinin fikrincə, bu hadisələrin səbəbləri qısaca belə verilə bilər:

1. Ermənilər Bakıda türklərdən çox sayda neft mənbələri almış, irəliləmişlər, bunu da müsəlmanlar həzm edə bilməmişlər.

2. Ermənilərin türk yurdunda daima vuruşmaları, Avropanın müdaxiləsilə sərbəst və müstəqil bir Ermənistan qurma çalışmaları Qafqaz türklərincə uyğun görülməmişdir.

3. Ermənilərin inkişafı, komitə fəaliyyətləri, birləşmiş milli bütünlük meydana gətirmələri türklərin xoşuna gəlməmişdir.

4. Rusların, iranlıların, türklərin qarşısında titrəyən ermənilərin gündən-günə yüksələrək, Rusiya hökumətinin zəifliyindən faydalanıb müstəqillik qazanmaq ehtimalı vardır. (183).

Onu da qeyd etmək lazımdır ki, Qafqazdakı çatışmaların əsl qayəsinin bu əsassız iddialarla heç bir əlaqəsinin olmadığı bir həqiqətdir. Yuxarıda qeyd etdiyimiz 1905-ci il vuruşmalarını meydana gətirən səbəbləri qısaca olaraq belə verə bilərik:

Türklər Qafqazda, xüsusilə də Bakıda mədəniyyət, iqtisadiyyat və demoqrafik baxımından hakimdilər. Ermənilər isə sıradan bir işçi halında idilər. Erməni komitələri türkləri əzmək və onların yerinə keçmək arzusu içərisində olmuşlar. Daşnaksütyun buraya gələn erməni işçilərini silahlandırmış, Bakıda və digər türk qəsəbələrində silah anbarları qurdurmuş, təşkilatlı-

rını gücləndirmişdir. Ermənilər iqtisadi baxımdan həyata keçirə bilmədiklərini zorla, üsyanlarla və hadisələr törədərək etmək istəmişlər.

Vartanyana görə: "Qafqazın Türkiyədən fərqi yoxdur. Sason necə Turanlıdırsa, Qafqaz da elədir." (184).

Tiflisdə çıxan başqa bir əsərdə bu səbəbləri belə görürük:

1. Din fərqi var idi.

2. Daşnaksütyun türk böyüklərinin nüfuzunu qırmaq istəmişdir. (185).

İkinci Əbdülhəmid xan səltənətinin ilk günlərindən bəri sürüb gələn erməni məsələsinin səbəblərini ilk erməni üsyanı – Sason hadisələrini təhlil etmək üzrə Şəfik və Cəlal paşalarla Məhməd və Ömər bəylərdən əmələ gələn xüsusi bir heyəti Samsuna göndərmişdi. Bu heyətin apardığı tədqiqatlar nəticəsində erməni üsyanlarının çiban başı patriarxxana ilə erməni komitələrinin türk millətini zalım və qaniçən göstərmək, erməni millətinin məzlum olduğu fikrini yaratmaq məqsədilə çıxarıldığı anlaşılmışdır. Bu hadisələrin sadəcə Osmanlı dövlətini zəiflətmək və güclü Avropa dövlətlərinin müdaxiləsini təmin etmək üçün başladıldığını ortaya qoymuşdur. Bu heyət ermənilərin çıxardığı üsyanların həm türk dövlətinə, həm də ermənilərə çox ağır itkilərə səbəb olduğunu, ancaq son vermək üçün patriarxxananı əldə etmək, erməni komitələri ilə görüşüb anlaşmaq türk və erməni millətlərinin iztirablarına son vermək istəmişdi. Əfsuslar olsun ki, patriarxxana xarici dövlətlərin yalanlarına aldanmış papazların əlində olduğu kimi, komitələr də Türkiyə ermənilərinin iztirablarını qıraqdan seyr edən bir neçə rusiyalı erməni komitəçisinin əlində idi. Bunlar öz xeyirlərini düşünür, öz millətlərinin əzablarını düşünmək istəmirdilər. Onlar üçün əhəmiyyətli olan hadisələrin beləcə sürüb getməsi, öz xeyirlərinin təmin olunması idi.

Bu həqiqətləri Adana erməni üsyanının təhrikedici yepiskopu Muşeqın "Erməni kabusu" adlı əsərindən öyrənirik:

Tiflisin Arzuruni klubunda Türkiyə ermənilərinin həyatları haqqında aparılan görüşmədə Türkiyə erməniləri komitəçi-

larindən Çakıryanın rusiyalı ermənilərin Türkiyə ermənilərinin psixologiyasını, həyatını, vəziyyətini əsla bilmədikləri üçün oradakı işlərdə faal bir rol oynamaları haqqında irəli sürdüyü müddəasında Xristofor Mizaklayan: "Bu məsələdə qərar verməyə lüzum yoxdur. Çünki tale Türkiyə ermənilərinin qurtuluşunun rusiyalı ermənilərin əli ilə olmasını istəmişdir. Biz bu şərəfi heç kəsə buraxmarıq."- demişdir. Bəli, psikopos Muşaq belə demişdir: "Rusiyalı ermənilər Türkiyə ermənilərini qan və pul verməklə cavabdeh görürlər."

Daşnaksutyun komitəsinin başçılarından biri olan H.Kaçaznuni "Artıq Daşnaksutyunun görəcəyi iş yoxdur" adlı əsərində bu həqiqəti daha açıq bir şəkildə bildirir: "İllərcə bundan əvvəl Kostomla olan bir görüşməmi xatırlayıram. İran ixtilalı başlanğıcında idi. Mən daşnakın İranda bir işinin olmadığını, bizim oradakı işlərə qarışmağımızın sadəcə bir avantüra olacağında təkid edirdim. Koçtom birdən-birə: "Yaxşı, hələlik Rusiyada ixtilal boğuldu. Türkiyə də ixtilalçılarla uyuşdu. İrana da qarışmayaq, deyirsən, onda biz nə edək?"- dedi. Yəni o: "Şərab və viskinin pulu haradan gələcəkdir?"- demək istəmişdir.

Erməni yazıçısı Leo öz əsərində daşnakların bu davranışlarından belə söz edir: "Ermənilərin vəziyyəti o qədər pis idi ki, əgər onun adına hərəkət edən təşkilatın da bir az ürəyi yanmış olsaydı, pis olmazdı!.."

Fəqət Sultan II Əbdülhəmid xanın idarəsinə qarşı birlikdə çalışmaq qərarı ilə bir konqress keçirildi. Bu konqresə qatılan Hncak, Troşak və Daşnak erməni komitələri "Berlin konfransı"nın 61-ci maddəsinin tətbiqi şərtilə Sultan Əbdülhəmidə qarşı birlikdə çalışacaqlarına dair müqavilə bağladılar. Bunlar bu müqavilə ilə Türkiyədəki rejimin devrilməsi, yəni Sultan II Əbdülhəmid xanın taxtdan çəkilməyə zorlanması, bu məqsədlə silahları və terrorçuluğu buraxmamağa, ümumi üsyana, silahlı, silahsız hökumətə qarşı dirənməyə, hökumətə vergi ödəməməyə qərar verdilər.

Erməni komitələri Taluri bölgəsini seçərək ikinci bir ixtilal sınağına girişdilər. Onlar bu bölgədə həyata keçiriləcək yeni bir

hərəkat üçün erməni çətələrini hazırlamış, İrandan Türkiyəyə silah keçirmək üçün ən uyğun və etibarlı yol olan Hanəsor bölgəsindəki maneə Mazrik tayfasını aradan qaldırmaq üzrə hücuma keçmişdilər. Mərkəzi idarə komitəsinin bir atlı birliyi dəstəyilə 400 nəfərə yaxın çətəçi hər tərəfdən axın edərək Mazrik tayfasının böyük bir qismini yox etdilər. Əgər bu qətliama əsgər yetişərək çətəçiləri İrana qovmasaydı, Mazrik tayfası yox olub gedəcəkdi. Bu erməni çətəsi arasında biri Kirkor adlı qafqazlı, digəri Vartan adlı vanlı papazlar da vardılar. Rus ordusunda təlimat görmüş Qafqazlı ermənilərlə tanınmış təlimatçıların da türk torpaqlarına girmələri 1895-ci ilin ilk baharına rast gəlir.

Çətəçi Andranik ilk dəfə türk torpaqlarına girdikdən bir neçə gün sonra xalq arasında "güllə batmaz" deyə tanınan bir şeyxi öldürərək, cəsədini gölə atdığını söyləyir. (186).

Sonrakı ildə də bəzi komitə təşkilatçıları Sason və Muş bölgələrinə gələrək oralara yerləşmiş və üsyan hazırlıqlarına başlamışlar. Oralar fəaliyyət mərkəzi seçilmiş, silahların orada toplanmasına qərar verilmişdi. Beləcə, bu bölgəyə 1500-ə qədər silah, çox sayda ləvazimat göndərilmişdi. Əsli Əhlatın Sohart kəndindən olan komitəçi Seropa Bitlis, Əhlat, Muş və Sasonun bir növ əsgəri valiliyi verilmişdi. Lakin bir gecə rəqibləri onu zəhərləyərək öldürmüş, yerinə Andraniki seçmişdilər.

Sason dağlarında fəaliyyətə keçən Andranikə Qafqazdan atlı və piyada çətələr göndərildi. Bunların arasında vəhşiliyi ilə tanınan məşhur çətəçi Sivaslı Murad ilə Səbuh, Gevork, Çavuş, Mko, Görün və Muşlu Sempat da var idi. Tanınmış çətəçi Tuman atlılarıyla Sasona gəlmiş, erməni xalq ədəbiyyatına marşları ilə keçən Andranik baş komandan seçilmişdi. (187).

Sason təpələrindən Muş ovasına, Vana qədər yayılan erməni üsyanları və döyüşlərində çətəçi Səbuh ağır yaralanmış, Ağçalı Gevork və Səbuhu vurulduğu yerdə buraxmaq istəməyən Hrayr da ölmüşdülər.

Daşnaksütyun bu döyüşün on iki saat davam etdiyini və 53 tüfəng ilə 500 mərmi ələ keçirdiyini, 800-dən artıq adam öldürdüklərini açıqlamışdı.

Zeytun hadisələrindən sonra erməni komitəçiləri arasında çıxan anlaşmazlıqlar və qruplaşmalar nəticəsində bir çox keçmiş komitəçinin Rusiya, İngiltərə, Misir, Bolqarıstan, Qafqaz və İranda küçələrdə öldürüldüklərini görürük. Buna baxmayaraq, zeytunlular hökumətə vergi vermir, səfərbərliyin elanından sonra hökumətə qarşı üsyan etməyə başladılar. Əsgərliyə çağırıldıqları zaman etiraz edib getmirdilər. Əsgərlik üçün müraciət edənlərin qarşısını kəsir, pul və əşyalarını alaraq özlərini də öldürürdülər.

Zeytunun Təkyə monastırı sayları yeddi-səkkiz yüzə qədər olan erməni çətələri tərəfindən işğal edildi. Bu işğala qarşı aparılan əməliyyatda Maraş jandarma komandiri Minbaşı Süleyman əfəndi ilə 25 əsgər şəhid edildi, 34 əsgər də yaralandı. Aparılan bu əməliyyat ilə üsyançıların böyük bir qismi yaxalandı, qalanları isə gecənin qaranlığında monastırı atəşə verərək qaçdılar. Bu qaçanlar ortaya qoyduqları cinayətlə kifayətlənməyib kəndləri yandırmağa, əsgər, məmur, dinc əhaliyə təcavüz etməyə başladılar. Onlar qarşılarına çıxan köçmənləri öldürürdülər. İznə ayrılan Zeytunlu Vali, Əlbistanlı Süleymanı, onun yanındakı iki əsgəri və jandarma İsmaili silahlarını alaraq öldürdülər. Ermənilər bir başqa basqında Dəvəngli, Afşarlı, Komparli, Fatmalı, Hartap və Əvək kəndlərindən olan on nəfəri öldürmüş, altı nəfəri yaralamış, 62 evi və 27 xırmanı yandırmışdılar. O kəndlərə aid bütün heyvanları qəsb etmişdilər.

Yaxalanan Zeytunlu üsyançı Melkon komitəçilərin onlara "İngilislərin İskəndəruna çıxacaqlarını" söylədiklərini və belə olduqda "Ermənilərin ixtilal çıxardaraq hökuməti işğal etmələrini, səfərbərliyə görə onları çətin vəziyyətə salmalarını və ingilislərə kömək etmələrini" istədiklərini bildirmişdilər.

Aparılan operativ axtarışlarda Zeytunluda 30 baylık mauzer, bir martin, bir Henri martini, 69 əldə düzəltmə martini, 612 müxtəlif silah, 21 qoşalülə, 12 mauzer tapançası, müxtəlif bombalar, 61 bandit və bunlara aid sənəd və komitə möhürləri ələ keçirilmişdir.

Van bölgəsindəki erməni üsyan hərəkatlarının digər bölgələrə nisbətən daha güclü olduğu görülür. Ermənilər Van və Bitlisdə müsəlman xalqa görə özlərinin çoxluqda olduqlarını göstərirlər. Halbuki müsəlmanlar buralarda o tarixlərdə hər zaman əhalinin ən az 80%-ni təşkil etmişlər. Bir məbus seçkisi ilə əlaqəli vilayətin "dərhal əhali sayımını" aparmaq istəməsinə komitəçilər tərəfindən qarşı çıxılması da bunu göstərir.

Ermənilərin bu bölgədə qətliamlar, talanlar, zülm və işgəncələrlə erməni qalmadığını iddia etmələrinə qarşılıq aparılan incələmələr nəticəsində ticarətin ermənilərin əlində olduğu və müsəlmanların bunların hesabına işləməkdə olduqları aşkar olunmuşdur.

Məşrutiyyətin elanından əvvəl ermənilərin güclü çətələri ətrafa qorxu salmış, törətdikləri zülm və qətliamlara görə idarəçiləri uzun zaman arxalarından qaçırtmışlar. Bu qruplaşmaları Rusiyadan qaçıb Osmanlı ölkəsinə sığınan erməni ixtilalçılar idarə etmişlər.

Komitəçilərin başında Qafqazlı İsxan, Aram dururdular. Bu iki bandit Rusiyada edama məhkum olunmuş, sonra oradan qaçaraq həyatlarını qurtarmış, torpaqları, məmləkətləri, vətənləri olmayan kəslərdi. Bunlar Türkiyədə komitələrin başlarına keçdikdə burada əldə etdikləri pullarla adamlarını kəndlərə müəllim və eyni zamanda komitə təmsilçisi olaraq təyin etmişlər. Bu arada, İstanbulda və bir çox yerlərdə erməni üsyançılarına qoşulmuş, komitə fəaliyyətlərində yaxından iştirak etmiş Daniyel adındakı bir canavar "müşavir" seçilmişdir. Beloca, Aram, İşxan, Yaznık, Daniyel, Vartapet ilə keçmiş İran komitəçilərindən erməni məktəbləri müfəttişi Rafael və Sarkis, Karçkanlı Varan, Osepməbus Veramyan və Papazyan kimi kəslər Van Daşnaksütyun təşkilatının başına keçərək fəaliyyətləri sövq və idarə etmişlər.

Komitə təşkilatları kəndlərə qədər genişlədilmiş, bütün ermənilər silahlandırılmışdır. Buna görə də Qafqaz-İran yolu ilə çox sayda Rusiya bəylik tüfəngləri Osmanlı ölkəsinə soxulmuş, bunlardan başqa o zamanlar dənəsi otuz liraya satılan çox sayda silahla təmin etmişlər.

Komitəçilər ermənilərdən müxtəlif üsullarla vergi alır, vergidən qaçanları kənddən qovur, onları nigah, seçki kimi haqlardan məhrum edir, haqlarında edam kimi cəzalar verirdilər. Bu vilayətdəki ermənilər hökuməti deyil, komitəni bir rəhbər təşkilat olaraq tanımışlar, komitəçilər də xalqı hökumətə yanaşmaqdan uzaq tutmuşlar.

Erməni komitəçiləri türk və erməni cəmiyyətlərinin arasında hər zaman düşmənçilik yaratmağa çalışmışlar. Onlar məmləkəti hüzursuz və asayişsiz göstərmək üçün əllərindən gələni etmişlər.

Komitə liderlərinin etibar və açıqlamaları da göstərmişdir ki, ermənilərin istəklərinin hamısı yerinə yetirilsə belə, onları məmnun etmək mümkün deyildir. Çünki onların istədikləri Avropa kontrolunda olan müstəqil bir Erməni dövlətinin təşəkkül etməsi idi. Buna görə də hər bir təşəbbüs qanuni sayılırdı. İslahat və s. kimi təkliflər isə komitəçılardan başqalarının ağlından belə keçməzdi. Əslində hər bir erməni vəziyyətindən və həyatından məmnun idi. Məmnun olmayanlar məmləkət ilə əlaqəsi olmayan komitəçilər idi.

Erməni komitəçiləri özlərini ermənilərin hamisi və haqlarının qoruyucusu kimi göstərmələrinə baxmayaraq, onların üzərində çox qatı bir haqsızlıq sürdürürdülər.

Günəş batdıqdan sonra, axşamlar Vanın mərkəzində, erməni məhəllələrində silah atma adəti silahlar bu bölgəyə yığıldıqca daha gurultulu olmağa başlamışdı. Məşrutiyyətdən sonra isə bu vəziyyət dəhşətverici hal aldı. Erməni evlərində partlayan bu yüzlərcə silah səsi "Türk boyunduruğu altında inləyən, hər cür haqları əllərindən alınmış" deyilənlərdən gəlirdi.

Vandakı erməni komitəçilərin də ən səmimi dostları və ağıl müəllimləri ingilis, rus və fransız konsulları idi. Erməni papazlarının belə rus torpaqlarına girmələri, Qafqazlı ermənilərlə görüşmələri qadağan və Çarın izninə tabe olduğu halda, rus konsulluğunun öz torpaqlarında adam öldürmüş, edama məhkum edilmiş, hətta yaxalandıqları zaman dərhal öldürülmələri üçün

amr çıxarılmış erməni komitəçiləri üçün bağlı olan sərhədləri açıq idi. Yetər ki, onlar türk düşmənçiliyi etsinlər.

Səfərbərliyə qədər Vanda baş vermiş bütün hadisələr komitələrin tərtibləri ilə törədilən siyasi cinayətlərdi. Səfərbərlikdən sonra da bu çevrədəki ermənilər komitə əmrlərinə uyaraq rusların hərəkətlərini asanlaşdırmaq üzrə Qafqaz erməniləri ilə birlikdə hərəkət etməyə qərar vermişdilər.

Vanın rusların nüfuz və istilaları altında olan Azərbaycanın sərhəd qonşusu olması və Rusiyaya yaxınlığı böyük əhəmiyyət daşıyırdı. Burada da ermənilər Osmanlı hökumətindən səfərbərlik çağırışına uymadılar. Müharibənin elanından sonra rusların könüllü erməni dəstələrilə sərhədlərimizə hücum etmələri nəticəsində Vandakı və o ətrafdakı ermənilərin davranışları dəyişməyə başladı. Hökumət məmurları ilə jandarmalara həqarət və hücum hadisələri baş verdi. Ətrafdan gələn silahlı ermənilər Vanın mərkəzində toplanmağa başladılar.

Komitə türklərə endiriləcək zərbənin daha təsirli ola bilməsi üçün bütün ermənilərin baş qala və saray istiqamətində irəliləyəcək olan ruslara qoşulmalarını istədi. Döyüşlərə erkən başlanılması halında isə çox qan töküləcəyi, daxildəkilərin təhlükədə olacaqları bildirildi.

Bu təbliğatdan xəbərdar olmayan kəndlilər dərhal hərəkətə keçdilər. Bir çox jandarmanı şəhid etdilər. Bitlis sərhəddindəki Karçkan jandarma idarəsi təcavüzə uğradı. Ermənilər teleqraf tellərini qırıb-dağıdaraq çox əhəmiyyətli mövqe və yolları işğal etdilər. Osmanlı sərhədləri içərisində irəliləməyə başladıqları zaman ermənilərin silaha sarılaraq onlara kömək edəcəklərini ruslar bilirdilər. Belə ki, bəzi iranlılar bu xüsusu bilavasitə rus zabitlərinin ağzından eşitmişdilər.

1914-cü ilin fevral ayında Timarda qoyun sayımı məsələsindən üsyan çıxmış və qısa bir zamanda qarşısı alınmaz bir hala gəlmişdi. Rusun silahlarıyla silahlanmış mindən artıq üzü dönmüş ermənilər qonşu müsəlman kəndlərinə hücum edib çox sayda türkü, o cümlədən Banat kəndindəki yüzbaşı Süleyman bəy ilə ona bağlı bir çox əsgəri şəhid etdilər. Üsyan hərə-

katləri Gevaş və Şetak (Çıtak) kəndlərinə də sıçradı. Müsəlman kəndlərındəki ermənilər erməni kəndlərinə köçə başladılar. Butun bunlar "Mudafaayı-Şahsiye üçün Təlimat" adlı komitə göstərişi ilə baş verirdi.

"Mudafaayı-Şahsiye" adlı və 64 səhifədən ibarət olub Rusiya, İran və Turkiyə erməniləri üçün hazırlanan bu əsərin əhəmiyyətli bölümləri beladir:

"Silaha ehtiyacı olan kəs hər şeydən əvvəl güvəndiyi adamdan ən yaxşı silahın hansı olduğunu sormalıdır. Şubhəsiz ki, Avropada istehsal olunan silahlar daha mukəmməl olanıdır. Lakin bunlardan ermənilərə bir fayda yoxdur. Çünki bu silahların təmin edilməsi çox çətindir, patronların təmini isə daha çətindir, hətta, imkansızdır. Buna görə silahlarımızı öz ətrafımızda axtarmalıyıq. Rusiya hokumətinin bir neçə silah zavodu vardır, Turkiyədə isə heç bir silah zavodu yoxdur. Buna görə silah tədarükü xüsusunda Rusiya erməniləri Türkiyədəki qardaşlarına yardım və vasitəçilik etməyə məcburdurlar...

...Hər bir kənd "birlik" meydana gətirəcək və bütün mövcud güclər silahlarıyla bu birliyə daxil olacaqlar. Birliklərin hər biri a) sabit, b) səyyar adları ilə ikiyə ayrılacaqdır. Hər birinə bir rəhbər və bir yardımçı təyin ediləcəkdir. Sabit və səyyar birliklər hər kənddə bərabərcə öz aralarında təcrübəli bir rəhbər seçəcəklər. Bu rəhbər kəndin ən böyük rəhbəri olacaq və oradakı bütün qüvvələr bu rəhbərə tabe olacaqlar. Bu rəhbər eyni zamanda bölgə komandirinin hərbi vəkilidir. Eyni bölgədə olan bütün kəndlərin rəhbərləri toplanaraq öz aralarında üç nəfərdən ibarət mürəkkəb, keçici bir hərbi heyət seçəcəkdir. Anidən bir hücuma məruz qalan bir kənd yardım istəmək üçün qonşu kəndlərə xəbərçilər göndərəcəkdir. Duşmənin əlinə düşən silahın əvəzini kənd xalqı ödəyəcəkdir. Düşməndən alınan silahlar alanlarındır."

Geri çəkilmə xətti əvvəldən təyin edilərək təhlükəsizlik altına alınacaqdır. Hücum ediləcək kəndin ancaq üç tərəfi mühasirə altına alınmalı, sakinlərinin qaçmaları üçün bir tərəf açıq buraxılmalıdır. Kənd dörd tərəfdən mühasirə altına alınarsa,

düşmən ciddiyyət və qeyrətlə qarşı çıxaraq zəfəri təhlükəyə so-xa bilər. Sərbəst buraxılan tərəfdə təzyiq edən bir dəstə gizlə-nərək qaçanları sıxışdırıb zərərə salmalıdır. Təlaş və qarışıqlı-ğın tam mənasıyla təmin edilməsi üçün yanğın çıxarmaq və bu-nu bir neçə yerdə birdən edərək genişləndirmək doğru olar. Buna görə də hücumdan əvvəl lazım olan şeylər təmin edilmə-lidir." Hücum edəcək qrupda süvari yoxsa, yaralı və ölülərin ta-nınmamaları üçün onları erməni kəndlərinə daşıyacaq bir neçə at saxlamalı. Hücuma keçmədən bir neçə gün əvvəl güclü və etibarlı bir neçə məmur seçilib göndəriləcək. Bu məmurlar şəx-siyyətlərini bəlli etmədən məmur olduğu bölgədə lazımi qədər qalaraq tədqiqat işlərini tamamladıqdan sonra geri dönür, ha-zırladığı raportu verir və bu raporta görə lazım olan tərtibat alı-nır..."

Məşrutiyyətin elanından sonra komitəçilər həm erməniə-rin üzərindən keçir, həm də özlərinə bir mövqe hazırlamaqdan vaz keçmirdilər. Ermənilər üzərində bir ad-san əldə etmiş bu pozğunçular məhus oldular, komisyonçuluq və silah qaçaqçılığı edərək böyük pullar qazanırdılar.

İngilis, rus, və fransız konsulları Vandakı komitəçiləri ida-rə edir, on'arla görüş halında olub yol göstərirdilər. Ən əhə-miyyətli görüşlər Rusiya konsulluğunda keçirilirdi. Erməni ko-mitəçilərini himayə edən Rusiya hökuməti, bunları Rusiya tor-paqlarında edama məhkum etmiş və sərhədlərini bunlara bağ-lamışdı. Konsulların işbirlikçisi olan papazların hələ Rusiyaya girə bilmələri çarın xüsusi icazəsinə bağlı idi. Bu papazlar Ru-siyaya başlarında rus qalpağı olacaq şəkildə və heç bir erməni ilə görüşməmək şərtilə gələ bilirdilər. Ruslar bunları öz ölkələ-rində saxlamayıb, düşmən olaraq gördükləri ölkələrin torpaq-larında istifadə edirdilər.

Səfərbərliyin elanına qədər meydana gələn hadisələr ko-mitəçilərin tərtiblərilə yaradılmış "siyasi cinayətlərdən" başqa bir şey deyildi.

Komitəçilərlə yanaşı, erməni patriarxxanası da Şərqi Ana-doluda geniş ölçüdə üsyan və ixtilal hazırlığına girişmişdir. Er-

məni papazları ən kiçik və uzaqda olan kəndlərə belə gedərək erməni kəndçilərinə Ermənistan və ermənilik haqqındakı fikirləri izah etmiş və sevdirmişlər. Qəsəbə və kəndlərdəki ermənilərdən "məktəbə yardım" adı altında ildə bir neçə dəfə pul toplamaqda, erməni məsələsini kəndçilərin damarlarına qədər işlədərək, yoluna qoyduqları gizli nüfuz dəftərlərini erməni patriarxxanasına çatdırırdılar.

Sivasda ələ keçən və erməni patriarxı Nerses Varjapetyanın imzasını daşıyan sənəd patriarxxananın ermənilərin zehnlərinə ixtilal və üsyana təşviq baxımından çox əhəmiyyətlidir. Nerses Varjapetyanın təbliğ etdiyi sənəd belədir: Bu çox əhəmiyyətli təlimat islahat komissiyasının qərarı ilə bütün yepiskoplara göndərildiyi kimi, sizə də göndərilmişdir. Yaxşı-yaxşı incələyib oyanıq olun.

Ermənistanın təhlükəli zamanlarında ermənilərin gördükləri zülm və işgəncələrin ortadan qalxmasını və islahat məsələsini millət ələ almışdır. Bu, bir millət olma borcudur. Bu məsələ ilə məşğul olmaq bütün zehnləri cırmaqlayarsa, millətin ayrılığına səbəb olar. Ermənistan məsələsinə zərər verər. Erməni millətindən olub məzhəbcə protestant, katolik, ortodoks və buna bənzər digər məzhəblərdən olan ermənilərin hələlik məzhəb ayrılıqlarına baxmayaraq bu məsələdə hamısını bir araya toplayın və birlik yaradın ki, Ermənistan məsələsi yaşaya bilsin. Məktəblərdəki uşaqların fikirlərini belə Ermənistan məsələsilə doldurun. Məktəbi olmayan və müəllim tutmağa gücü çatmayan kəndlərdə də papazlar oğlan və qız uşaqlarına heç olmasa imza atmağı öyrətməlidirlər. Bundan əlavə, şəhərlərdə və kəndlərdə oxumayazma bilməyən böyüklərə də yazı yazmağı öyrətsinlər. Heç olmasa imza ata bilsinlər. Çünki bu irəlidə lazım olacaqdır. (188).

Avropa dövlətləri Anadolunun hər tərəfinə konsul təyin edirlər. (189). Oradakı erməni məclisləri və rəhbərləri tez-tez bu konsullarla görüşməlidirlər. Onlar erməni millətinin dərdlərini konsullara açıqca bildirməlidirlər ki, konsullara yaxın olan ağızlardan təkəli rəngdə bildirilməsinə imkan qalmasın...

Mədəni Avropa məzhəb fərqi qoymadan bütün ermənilərin haqlarına arxa çıxır. *Buna görə harada olursa olsun, qarşı-*

za çıxan avropalı yolçuları gülərüzlə qarşılayıb hörmət edin, ermanilərin yaradılışındakı qonaqpərvərliyi göstərin. Onlara keçmiş ermənilik hekayələrini söyləyib Ermənistanın bugünkü həqiqi vəziyyətini anladaraq onların yardımını diləməlisiniz. Bunları kilsə camiyyəti ilə papazlara və kilsə camaatına eşitdirin. Avropalı yolçular xəstə və ya sizə möhtac olarlarsa, onlara yardım edin, onlarla səmimi əlaqələr qurun."

1908-ci il inqilabının gətirdiyi səyahət hürriyyəti ermənilərə silah satışı ilə bomba istehsalı üçün bir fürsət yaratmışdı. Məşrutiyyəti anlatmaq məqsədilə kəndlərə gedən daşnaksütyun komitəsinin üzvləri: "Türklərin məşrutiyyət və qardaşlıq sözlərinə qəti olaraq inanmayın. Ermənilərin hürriyyəti silah və bomba ilə əldə ediləcəkdir. Öküzlərinizi satıb silah və bomba təmin edir." - deyirdilər. (190)

Bu arada, Pinqanlı Piza Mığırdıç, Göğdünlü Murad, Suşəhərli Şəbinqarahisarın kəndliləri silahlandırmağa çalışdıqlarını görürük.

1913-cü ilin noyabr ayında Suşəhərinə bağlı Ezbidar papazı Keribinin evində bir oğurluq səbəbilə axtarış aparılır. Oğurlanan əşyadan başqa silah və silah ləvazımatları tapılması ilə əlaqədar papaz həbs edilir. Bu hadisə Şəbinqarahisar yepiskopluğun məlumatı daxilində baş vermişdi. Yepiskopluq Keribin "möhtərəm bir şəxs" olduğunu müdafiə edərək əvvəl onu qurtarmağa, sonra da heç olmasa həbsdə rahat olmasını təmin etməyə çalışır. Daha sonra Keribin Şəbinqarahisar üsyanında ermənilərin başında silah və bombalarla görülmüşdür.

Aparılan tədqiqatlar nəticəsində erməni komitəçilərinin Sivası üç bölgəyə ayırdıqları, birinci bölgəyə Sivaslı Murad (Ambarsum) olmaqla, digər bölgələrə iki bandit komandan təyin edilmişdir. Bunların Osmanlı ordusunu arxadan vurmaq niyyətində olduqları anlaşılmış və hökumətin zamanında aldığı tədbirlər sayəsində qarşısı alınmışdır.

Sivas bölgəsində meydana gələn hadisələrin yanında, əsgərə çörək bişirən bəzi erməni çörəkçilərin çörəyə zəhər qoymaqla əsgərləri zəhərləməyə çalışdıqları belə olmuşdur.

"...Yanlarında komita təlimatı olan iki rus Amasiyadan Tokata gələrək Tokat komitəsinin rəisi Sarkis Dırdıryanın evində toplanmışlar. Simon Qəhrəmanoğlu onbaşı edilmiş, həbsə düşərsə qurtarılacağına dair təlimat verilmiş və poçtun vurulması, bu işin də dağlarda gəzən Armenak Çakıcıoğlu, Sarkis Kalostoğlu, Sarkis Pəhlivan, Kaspar Kalostoğlu, Nişan Keşişoğlu, Ovadis Bezirqanoğlu və Leun Melkinoğlu tərəfindən həyata keçirilməsi qərarlaşdırılmışdır. (191).

Sarkis Dırdıryan bu yeddi çataçı bandita Dikran Çakıcıoğlu vasitəsilə albalı rəngli çuxadan gürcü paltarı tikdirmiş, pulu komitə tərəfindən ödənilmişdir." (192).

Erməni bandıtlər Tokata saat yarım uzaqlıqda Gomeç kəndi yanındakı körpünün altında gizlənərək hücum etmişlər. Bunlar poçta tatarı Məhmədi şişləmək, boğmaq və qollarını sındırmaqla vəhşicəsinə öldürüb poçtu soymuşlar. Onları təqib edən əsgər ilə çıxan qarşıdurmada çavuş Abdullah şəhid olmuşdur.

Banditlər yaxalanmış və Tokat hərbi divanı tərəfindən cəzalandırılmışlar. (193).

Ermənilərin ən çox olduqları yerlərdən biri də Yozqat və ətrafı idi. Bu bölgədəkı hadisələr ilk dəfə Evrin erməni kəndi xalqının Çayır şəhəri kəndinin üç nöqtəsinə dinamit qoymaları ilə başlamışdır. Sıddıq adlı kiçik bir uşağın ağır yaralanması nəticəsində Ervin, Menteşe və İğdeli erməni kəndlərində aparılan axtarışlarda dinamit və bombalarla birlikdə 27 qranat, yüzdən artıq digər silahlar və minlərcə fişəng ələ keçirilmişdir.

Ermənilər əsgər toplamaq üçün yola çıxan jandarma komandanı ilə yanındakı əsgəri birliyin yolunu kəsərək, üzərlərinə saatlarca mərmi yağdırmışlar. Bu hadisədə jandarma sıravilərindən biri şəhid edilmiş, silahı aparılmışdır. Bu arada evlərdə aparılan axtarışlarda dinamit kapsul və fitilləri, komitaçılara aid sənədlər ələ keçirilmişdir.

Çatkehir kəndi yaxınlığındakı meşəlikdə gizlənən yüzdən artıq silahlıdan əmələ gələn bir erməni qruplaşması jandarma və əsgəri birliklərə hücum etmiş, bir xeyli silah və mərmiləri qəsb etmişdir.

Boğazlıyan Rumdikanın erməni xalqı gecənin birində kəndin jandarma idarəsini basaraq jandarmaları güllə yağmuruna tutmuşlar. Jandarmanın Şükrü adındakı əsgəri ermənilər tərəfindən şəhid edilmiş, Yaqub və Musa adlı iki türk vəhşicəsinə öldürülmüşlər.

Komitəçilər İngiltərədən gətirilən silahları erməni kəndlilərinə payladıqdan sonra əvvəl özlərinə qatılmayan erməniləri öldürmüş, sonra da mədən poçtunun sürücüsünü və qoruyucusunu öldürüb pulları və qızılları qəsb etmişlər.

Bundan sonra onlar müsəlman kəndlərini basıb soyğunçuluq etdikləri kimi, bölgə müdürlüyünə aid nə varsa soyurdular. Bəzi soyğunçular və hökumət əleyhində üsyana təşviq edənlər məhkəmə qərarları ilə asılmışlar.

Avropa, Amerika, Suriya, Livan və bir çox başqa yerlərdə davamlı olaraq həyata keçirilən mediya xəbərlərində, mitinq və konfranslarda bu düşmənçilik bugün də davam etdirilir!

Rusiya ermənilərinin Qafqazdan Osmanlı torpaqlarına keçiş yeri olan Ərzurum bölgəsi komitələrcə "Qarin" adlandırılır və çox böyük əhəmiyyət daşıyırdı. Bir gün Ərzurum valisi Samih paşaya ermənilərin Rusiyadan gətirdikləri silahları Sanasaryan erməni məktəbində və kilsədə gizlətdikləri xəbəri gəldi. Vali axtarış əmri verdi. Ancaq bunu xəbər alan ermənilər dirənməyə qərar verdilər. Onlar hadisə yerinə gələn əsgərlərin üzərinə atəş açaraq iki əsgəri və bir polisi şəhid etdilər. (194)

Bu hadisəni görən bir erməni axtarış xəbərini iki saat əvvəl "Müdafi vətəndaşlar" təşkilatının üzvü "Köpək Boğos"un verdiyini, milli tarix kitabları ilə dəftərlərin ortadan qaldırıldığını, beləcə axtarış zamanı heç bir şeyin tapılmadığını və ermənilərin "Türklərin kilsəyə girməsi murdarlıqdır!"- deyə bağırışdıqlarını anlatmışdır (195). Daşnaksütyun komitəsinin qərarıyla öldürülən və "Müdafi vətəndaşlar" təşkilatının qurucularından olan Cergesyanın adamları xalqı üsyan etməyə çağırdı. Beləcə, dükanlar bağlandı, kilsələrdə ayinlər qadağan edildi, zənglər çaldırılmadı. Üsyançılar "Ermənilər üç gündür hürdürlər. Biz bu hürriyyətimizi silahla qoruyacağıq."- deyə bağırmağa başla-

dılar. Onların istəkləri arasında hökumətin vergiləri azaltması, əsgərlik əvəzinin qaldırılması, müqəddəsliyi pozulan kilsələrin uçurdulub təzədən tikilməsi və "Berlin müqaviləsi"nin 61-ci maddəsinin həyata keçirilməsi də vardı.

Ermənilər 3-4 gün məzarlıqda, kilsədə və məktəblərdə qalaraq evlərinə dönmədilər və onların dağılmalarını istəyən öncül erməniləri təhqir edib döydülər. Gergesyanın qardaşının atəş açaraq iki əsgəri öldürməsi nəticəsində çıxan iki saatlıq döyüşmədə 100-dən artıq adam öldü, 200-dən artıq adam da yaralandı. Ertəsi gün Ərzurumda olan konsullar şəhəri gəzdilər. Baş verən hadisələri konsullara hesabat kimi təqdim edən Dr.Aslanyan hökumət tərəfindən arandığı üçün şəhərdən qaçdı.

Erməni yazıçısı Hanazadyan bu xüsusda belə deyir: "Ərzurumdakı hadisələrdən sonra Avropa dövlətləri konsulları bu hadisəni öz hökumətlərinə müdhiş bir şəkildə işıqlandırdılar. Biz erməni məsələsinin bir nəticəyə bağlanmasını gözləyirdik. Bu olmadıqda çaşıb-qaldıq. İdarə heyətimiz bu nəticəyə gəldi: "Bundan sonra Böyük Avropa dövlətlərini bu daş kimi duyğusuzluqlarından çıxarmaq üçün padşahın paytaxtında, səfirlərin burunları dibində nümayişlər etmək..." (196)

Ermənilərin Ərzurumda törətdiklərinin mahiyyət və dərəcəsi (Təxribat və məzalim haqqında tədqiqat aparmağa məmur edilən komissiyanın hesabatında) bütün çılpaqlığı ilə görülmüşdür. 24.05.1916. (197).

Bu hesabatdan anlaşıldığına görə, ermənilər yaş və cins bilmədən əllərinə keçən türklərə tarixin qeyd etmədiyi və tarixdə görülməmiş alçaqlıqlarla dolu işgəncələr vermişlər. Onlar zərərli davranışlarına davam etməklə özlərinə müstəqil və ya muxtar bir Ermənistan veriləcəyinə inanırdılar. Halbuki bir millətin torpağına yerləşmiş, fəqət o millətdən olmayan irq, din və məzhəb fərqi olan insanlar azlıq sayılırlar. Buna görə müxtəlif bölgələrdə yaşayan azlıqların miqdar, irq, din və məzhəblərini bilməkdə fayda vardır. Bunlar dövlətlər hüququna görə o məmləkətdə həyata keçirilən idarəyə bağlı qalarlar və irq, din

və dil baxımından fərqli olmaqla bərabər, arasında yaşadığı millətin acısıyla acı duyar, sevincilə sevincli olarlar. Birlikdə yaşadığı millətin gedişinə ayaq uyduran azlıqlar həqiqi bir vətəndaş kimi yaşayarlar. Bir millətin içərisində yaşayan yabançıların və azlıqların o millətin zərərinə olacaq hər cür düşüncə və əməliyyatlardan çəkinmələri lazımdır. Əks halda, içərisində yaşadığı, nemətlərilə bəsləndiyi vətəninə hər hansı bir zamanda, hələ zorda qaldığı bir anda fənalıq və xainlik etməyə qalxarsa, buna ən zəif bir deyimlə nankorluq adı verilər. Bu hərəkətə verilən qarşılıq isə yaranmış vəziyyətə görə müxtəlif olar.

Müstəqil bir dövlətin torpağının orasına-burasına dağılmış olaraq yaşamaqda olan irqi, dini başqa xaricilər və ya azlıqlar bərabər yaşadıqları o vətənin övladlarından daha artıq haqq ararlarsa və o məmləkətə qarşı xainlik və faciəvi hadisələr törətməyə cəhd edərlərsə, təbii ki, belə adamların içərisində yaşadıqları müstəqil bir dövlətin torpaqlarında yerlərinin olmaması lazımdır.

Ermənilərin Osmanlı dövləti idarəsindən əvvəl və sonra XX əsrin əvvəllərində yaşadıqları bölgələrdəki nüfuz sayısı haqqında qəti bir məlumat yoxdur. Fəqət müxtəlif mənbələr aşağıda təqdim etdiyimiz məlumatları verirlər (198):

a) Alman Prof.Vamberi 1896-cı ilin fevral ayında, "Deutche Rundschau" jurnalındakı yazısında Şərqi Anadolunun doqquz vilayətində ümumi əhalinin 5.999.125 olduğunu, bu əhalinin 4.453.250 nəfərinin müsəlman, 1.131.125 nəfərinin də erməni olduğunu söyləmişdir.

b) Turubizenin 1900-cu ildə yayınladığı əsərində erməni əhalisinin:

| ÖLKƏ | ERMƏNİ ƏHALİSİ |
|---|---|
| Türkiyədə | 1.300.000 |
| İranda | 50.000 |
| Rusiyada | 1.200.000 |
| CƏMİ | 2.550.000 |

olduğunu göstərir və hələ bir əlavə edir: "Bu gün hər hansı bir ermənidən soruşsanız, o, dünyadakı ermənilərin sayının beş milyon olduğunu söylər. Bu çox şişirdilmiş bir rəqəmdir. Dünyadakı bütün ermənilərin sayı 3,5 – 4 milyon ola bilər.

c) İngilis Lynch 1901-ci ildə yayınladığı kitabında ermənilərin bütün əhalisinin 2 011 384 olduğunu, bu əhalinin də dünyaya bu şəkildə dağıldığını söyləmişdir:

ÖLKƏ ERMƏNİ ƏHALİSİ

Şərqi Anadolu və
Rusiyadakı erməni
bölgəsində 906 984
Qafqaz və qafqaz
ətrafında 50 000
Astraxan və
Basarabiyada 75 000
Anadoluda 751 000
Rumelidə 186 000
Azərbaycanda 28 000
Yeni Culfa bölgəsində ?
Bolqarıstanda 5 010
Rumıniyada 8 070
Avstriyada 1 320
CƏMİ : 2 011 384

Yuxarıdakı məlumatlarda Türkiyənin şərqi və Rusiyadakı erməni bölgəsində olan 906 984 nəfərdən Rusiyanın erməni bölgəsində yaşayan 600 000 nəfər çıxarılsa, geriyə qalan miqdara da Anadolu və Rumelidəki ermənilərin sayı əlavə edilərsə, Osmanlı dövlətinin sərhədləri içərisində yaşayan erməni azlığın 1 243 984 olduğunu görərik.

d) L. de Contenson 1913-cü ildə Parisdə nəşr etdirdiyi əsərində erməni əhalisinin:

ÖLKƏ ERMƏNİ ƏHALİSİ

Anadoluda 1.150.000
Rumelidə 250.000
Rusiya və Qafqazda 1.500.000
İranda 150.000
Misir, Amerika
və digər yerlərdə 50.000
CƏMİ : 3.100.000

olduğunu göstərir.

e) Rus yazıçı Selenov Rusiyanın Ərzurumdakı konsulu General-polkovnik Trodderdan aldığı məlumata görə, Anadolunun doqquz vilayətindəki ümumi əhalinin 4.629.175 nəfər olduğunu, buradakı erməni əhalisinin sayının isə 726.750 olduğunu bildirir. Bu da ümumi əhalinin ancaq 15,7 faizini təşkil edir.

Francis de Pressense 1895-ci ilin dekabr ayında "Revue des Deux Mondes" jurnalında qısaca belə deyir:

"Ən güvənilən yazıçılar Rusiya vətəndaşlığındakı ermənilərin 600-700 min, İran vətəndaşlığındakı ermənilərin 300-400 min, Osmanlı dövləti vətəndaşlığındakı ermənilərin sayını 1.200.000 olaraq təxmin edirlər. Heç bir yerdə, məsələn, Billis, Van, Ərzurum vilayətlərində, hətta soylarının törədiyi söylənən İravan bölgəsində belə ermənilər çoxluqda olmamışlar; ermənilərin çox olduqları Sivas vilayətində isə 170.000 erməniyə qarşılıq 840.000 müsəlman olmuşdur ki, bu da ümumi əhalinin ancaq 15 faizini təşkil etmişdir. Nəticə etibarilə heç bir vilayət, hətta bir qəsəbə belə göstərilə bilməz ki, erməni əhalisi orada çoxluqda olsun və ermənilər özləri üçün bir öncəlik və ya bir üstünlük iddia edə bilsinlər." (199)

Fransız yazıçının yuxarıda bildirdiyi müsəlman və erməni əhali sayları Osmanlı dövlətinin rəsmi rəqəmlərinə uymamaqla barabar, aradakı fərq doğruya yaxındır və buna görə 3 noyabr 1869-cu il tarixində Fransa parlamentində Denis Cochin və Jaures tərəfindən verilən statistikanı hökumət adından cavablayan Hanotaux belə demişdir: "Əlinizdəki statistika məlumatlarına görə, Osmanlı dövləti vilayətlərindəki ermənilər doğru bir şəkildə əhalinin 13 faizindən artıq olmamaqdadırlar. Bütün Osmanlı vilayətlərində ermənilərin cəmi sayı çətiyyətlə 3 milyon deyildir. Anadolu vilayətlərindəki bu əhali bərabər olmayan nisbətdə, bəzi yerlərdə dağınıq, bəzi yerlərdə bir az daha topludur. Nəticə etibarilə, Anadolu vilayətlərində ermənilərin çoxluqda olduqları bir nöqtə göstərilə bilməz ki, ermənilər orada bir Ermənistan və ya bir muxtariyyət qura bilsinlər."

Bütün bunlara baxmayaraq, I Dünya müharibəsinin başlamasına qədər Qərb ölkələrinin səfirlikləri ermənilərin lehindəki tələb və zorlamalarını aralıqsız olaraq sürdürmüşlər. Nəhayət, 8 fevral 1914-cü ildə Sadrəzəm Səid Halım paşa ilə xarici dövlətlər adından Rusiya məsləhətgüzarı Qolkeviç arasında bir müqavilə imzalanmışdır. (200).

Buna görə: Şərqi Anadoluda (Ərzurum, Trabzon, Sivas) şəhərləri ilə (Van, Bitlis, Elazığ və Diyarbəkir) şəhərləri iki bölgə sayılacaqdır. Bu iki bölgə ədalət, təhsil, daxili idarəetmə, polis və jandarma işləri baxımından muxtar bir mahiyyət alacaq və bu baş müfəttişlərin geniş səlahiyyətləri olacaqdır. Beləcə, ilk mərhələdə iki bölgəli bir Ermənistanın qurulması və Türkiyə torpaqlarının bölünməsi gerçəkləşməkdə idi. Padşah 1914-cü ilin iyun ayında çıxardığı bir fərman ilə Norveçli Hof və Hollandalı Vestenekı baş müfəttişliklərə təyin etmiş, onlar da Türkiyəyə gəlmişdilər.

Tələt paşa ermənilərin bu parçalama cəhdləri ilə əlaqəli olaraq öz xatirələrində belə deyir: "Vətənin bütün nemətlərindən faydalanan ermənilər onun taleyinə və sıxıntılarına əsla qatılmır, türk millətinin sıxıntılarından davamlı mənfəət əldə edirdilər. Onlar Vətən üçün heç bir müharibəyə qoşulmadılar.

bu yolda bir damla qan axıtmadılar. Əksinə, müharibə zamanı öz ticarətlərini sürdürdülər, sözləşməli işlərinə girişdilər, çoxlu var-dövlət əldə edib rahatlıq və sakitlik içərisində yaşadılar. Onlar bu rahatlığa bir "təşəkkür" olaraq çoxluqda olan türk xalqını qovmaq və müstəqilliklərini əldə etmək üçün Vətənin bir parçasını qoparmaq istəmişlər. Tarixdə belə bir nankorluğun bənzəri olmamışdır."

Göründüyü kimi, yabançıların təzyiqi ilə ölkədə çox ciddi bir parçalanma fəlakəti yaradılmışdı. Fəqət 3 avqust 1914-cü ildə başlayan I Dünya müharibəsi ölkənin parçalanma fəlakətinin qarşısını almışdır. Ermənistan qurma arzusunun bir anda yox olması erməniləri ölkəyə və türk-müsəlman insanlarına qarşı daha xain, qəddar və yırtıcı hala gətirmişdir. Onlar düşmənlərlə əlbir olub Vətənə qarşı xəyanət xüsusunda çox irəli getmiş, yüzillər boyu bərabər yaşadıqları insanlara qarşı vəhşiliklər törətmişlər. Bunların hər bir insana əsəb və nifrət verən davranışlarını müharibənin o ağır günlərində belə görmək mümkündür.

Aşağıdakı sətirlər ermənilər tərəfindən I Dünya müharibəsi zamanı Van vilayətində işlənən cinayətlərlə əlaqəli olan, Van jandarma alay komandanı tərəfindən aparılan tədqiqatların raportundan alınmışdır.

## ERMƏNİLƏRİN VAN VİLAYƏTİNDƏ TÖRƏTDİKLƏRİ HADİSƏLƏR

Ruslar Osmanlı sərhəddini keçdikləri zaman Van erməniləri əvvəldən bəri çıxarmaq istədikləri üsyana başladılar. Bunlar müdafiəsiz müsəlman kəndlərinə, yolçulara təcavüz etmək, müharibə vergilərini rədd etmək və ordu üçün istənilən sənədləri verməmək, bəzi keçidlərdə pusqu qurub soyğunçuluq etmək kimi hərəkətlərə girişdilər. Onların bu hərəkətləri get-gedə şiddətləndi və qeyri-adi bir vəhşiliyə çevrildi. Hökumət tərəfindən verilən tövsiyələrə qarşı istehza ilə cavablar verildi.

Başan Avadis adında bir erməni: "Biz nə edə bilərik, 1896-cı ildə anasını, atasını itirənlərə söz anlatmaq mümkün deyildir."- demişdir.

Vanda və kəndlərdə baş vermiş hadisələr:

Komitə rəhbərlərindən olan Aram və İsxanın təlimatları ilə ermənilər Şeta kəndində üsyana başlamışdılar. Onlar qalaya girərək köhnə bir topun mərmiləri ilə milislərə atəş açmışdılar. O gecə milislər qaça bilmişdilərsə də, bir çox məsum qadın, uşaq və qocalar hücuma məruz qalaraq şəhid olmuşdular.

Miqri kəndində Molla Həsən adındakı muxtar ruslara öncülük edən erməni çətələrinə qarşı "aman" işarəti vermişsə də, 7 kişi, 12 qadın və 18 uşaq vəhşicəsinə şəhid edilmişlər. Bir çox qız və gəlinlər ermənilər tərəfindən naməlum istiqamətdə aparılmışlar.

Çarpıkser kəndində bir uşağın quzu kimi qızardılaraq dirəyə bağlandığı bir çox adamlar tərəfindən andlarla ifadə edilmişdir. Meyidin qalıntısı millətə göstərilmişdir.

Ahorik ilə Azverik kəndləri arasında əlləri qarınlarına soxulmuş, cinsiyyət üzvləri kəsilərək ağızlarına buraxılmış olduğu halda dörd adamın cəsədi tapılmışdır.

Kavlik kəndində yeddi yaşındakı Fatma və doqquz yaşındakı Gülnaz adlarında iki məsum qız uşağının ön və arxalarından vəhşicəsinə təcavüz edilərək, xəstə bir hala gətirildikləri görülmüşdür. Bu gün bu məsum qız uşaqları ermənilərin zülmü və alçaqlıqlarının canlı şahididirlər. Onlar yaşamaq istəməsələr də, hələ həyatdadırlar. Yenə bu kənddə çənə sümükləri süngü ilə qırılaraq şəhid edilən və cinsiyyət üzvü kəsilərək ağzına verilən 70 yaşını aşmış Ülvi adında bir qocanın cəsədi bir müddət sonra gələn Osmanlı ordusunun bəzi mənsubları tərəfindən ermənilərə nifrətlə seyr etdirildikdən sonra dəfn edilmişdir.

Ahtocu kəndində Kemo adındakı bir şəxsin Zəlixa adlı həyat yoldaşı təndir başında çörək bişirərkən altı aylıq qız uşağı ermənilər tərəfindən atəşə atılaraq anasının gözü qabağında bişirilmiş və anaya yeməsi üçün əmr edilmişdir. Bu əmri yerinə

yetirmədiyi üçün zavallı ananın bir ayağı təndirə soxularaq mərhəmətsizcə yandırılmışdır. Bu gün bu qadın hələ həyatdadır və gördüyü dəhşətli zülmü göz yaşları içərisində fəryad edərək anladır, ətrafındakıları da ağladır. Yenə bu kənddə bir çox məsum uşağın təzək arasına atılaraq yandırıldıqları cəsədlərindən aydın olmuşdur.

Hereftil kəndində Hacı Osman adında bir zavallı işgəncə ilə öldürüldükdən sonra üç qızı və iki gəlininə, söz və qələmlə anladılmayacaq qədər çirkin təcavüzlər etmişlər. Bu zavallılar hələ fəlakətdən sonra üzüntülərindən yaşaya bilməyib vəfat etmişlər.

Holər xalqından muxtarın Gülbəyaz adlı 16 yaşındakı qızına ermənilər çirkincə təcavüz etmişlər. Bu xalqın bütün kişiləri bir samanlığa bağlanaraq başlarına növbətçi qoyulmuş və kimsəsiz qalan qadınlara təcavüz edilmişdir. Bütün bu hadisələr o xalqın əşrəfi tərəfindən and içilərək anladılmışdır.

Bezdeqan kəndində də ermənilər pis mənada görülməyən iş buraxmamışdılar. Yurdlarını tərk etməyə məcbur olan müsəlmanların 80 faizinin yollarda qətl edildikləri hələ çürüməmiş cəsədlərindən aydın olmuşdur.

Vanın Xəlil ağa məhəlləsindən keçmiş mühasib Həsən, zövcəsi və qızı, müəllim olan qardaşı Hüseyin, zövcəsi və dörd kiçik uşağı erməni canavarlarına qurban getmişlər. Həsənin qızı iffətini bu canavarların təcavüzündən qurtara bilməmişdir. İzmirdə mühasib məmurluğundan təqaüdə çıxan Dərviş Bəşiroğlunun zövcəsinin və bacısının həyat yoldaşı Səbri ilə zövcəsinin gözlərinin qabağında Hüriyə və Sədiyə adlarındakı iki qızına vəhşi heyvanları belə utandıracaq dərəcədə çirkin təcavüzlər etmişlər. Zavallı qızlardan biri daha sonra Van valisi Cövdət bəy tərəfindən Vestan qəsəbəsinə göndərilərkən yolda vəfat etmişdir. Bu çirkin təcavüzlərdən sonra ata-ana da qoyun kəsilən kimi kəsilmişlər. Yenə bu məhəllədə Nalçaçıoğlu Fəhim və hərbdə olan üç qardaşının 15 nəfərdən ibarət ailələri, Şətak kassiri Vehbi bəyin zövcəsi, atası, anası və əmisi ermənilərin zülmünə uğramışlar. Onlar vəhşicəsinə öldürülmüşlər.

Mezkur məhəlləsinin 90 yaşındakı imamı İsa ağa ilə 70 yaşını aşmış və müəllimlikdən əməkli olmuş Rasih ilə Hayraniyə imamı Hacı Dərviş rusların göz yummalarından istifadə edən erməni caniləri tərəfindən bir eşşəyə mindiriləreк küçələrdə gəzdirilib nümayiş etdirilmişlər. Onların saqqalları kəsilib nəcisə bulandıqdan sonra vücudları parçalanaraq öldürülmüşlər. Şəhid mərhum Rasih xocanın 60 yaşındakı zövcəsi təcavüzə uğradıqdan sonra cinsiyyət uzvünə odun soxularaq qorxunc bir şəkildə öldürülmüşdür. Yenə Mezkur məhəlləsindən Şəfik Kavasoğlu Xurşid və qardaşı Kamilin 12 nəfərlik ailəsindən yalnız üçü ermənilərin zulmundan qurtara bilmiş, doqquzu isə öldürülmüşlər.

Çilingiroğlu Süleyman ağa və zövcəsi, təqaüdçülərdən Xəlil bəy, iki oğlu və üç qızı Hacı Yaqub ağanın evində gizlənmişdilər. Ermənilər zorla evə girərək onların hamısını vəhşicəsinə parçalamışlar. Kərəmzadə Hidayət bəyin 70 yaşındakı zövcəsi Şameram məhəlləsindəki Məhməd bəyin evində təcavüzə məruz qalmışdır. Daha sonra təxminən 200 qadın və uşaq ixtilal mahnıları söyləmişlər. Lakin onlar nəşələnən ermənilər tərəfindən parça-parça edilmişlər.

Xəstə olan Leytenant İzzət və Dr. Məhməd bəy də ermənilərin zulmünə qurban getmişlər.

Məhməd bəy məhəlləsində Sədullahın qızı, Camalın zövcəsi Səhərin iki uşağı – biri beş, digəri yeddi yaşlarında analarının əlindən alınaraq xəncər ilə parçalanıb atılmışlar. Kor Həmzəoğlu Abbasın zövcəsi və üç qız uşağı, Xəlil Çavuşun zövcəsi Aişə və bacısı, 80 yaşındakı Hacı Abdullah və zövcəsi acı bir şəkildə döyüldükdən sonra başları daşla əzilərək alçaqca şəhid edilmişlər.

Səhaniyə məhəlləsində ayağa qalxa bilməyəcək qədər xəstə olan təqaüdçü leytenant Əbdürrəhman yatdığı otaqdan çölə çıxarılaraq vəhşicəsinə şəhid edilmişdir. Qonşularından xilas olan şəxslər and içərək bu hadisəni nəql etmişlər.

Tacir Hacı Ömərin külli miqdarda pulu əlindən alınmış, ermənilər tərəfindən vücudu ikiyə parçalanaraq öldürülmüş-

dur. Ruslar isə bu vəhşətə göz yummuşlar. Bu hadisə qonşuları tərəfindən and içilərək anladılmışdır.

Topçuoğlu məhəlləsinin keçmiş muxtarı Bəkirin 12 yaşındakı qardaşı qızı Zahidə ermənilər tərəfindən edilən təcavüzün təsirilə 15 dəqiqə içərisində vəfat etmişdir. Bununla kifayətlənməyən ermənilər uşağı bir divarın dibinə apararaq divarı onun üstünə aşırmışlar və beləcə cəsədi aradan qaldırmışlar.

Ermənilər Hafiz məhəlləsindən Güləş Mahmudun bacısı Adiləni, Məkuluzoğlu Bayramı və qəssab Abbası öldürmüşlər. Abbasın qızları Sədiyə və Fikriyə ruslar və ermənilər tərəfindən aparılmışlar.

Əmin paşa məhəlləsində həbsxana nəzarətçisi olan Əli və iki nəvəsi ilə zövcəsi və gəlini, nəzarət məmuru Bayramın Mustafa adında yeddi yaşındakı oğlu, Seyid Çavuşun oğlu, Mustafanın iki uşağı və zövcəsi ilə Hacı Qayaoğlu İbrahimin gənc zövcəsi də boğulmuşlar.

Abbas ağa məhəlləsində yaşayan, alay katibliyindən əməkli olan Məhməd Əlinin pulu alındıqdan sonra həyət bağçasına çıxarılmış, bir ağaca bağlanaraq iyirmidən artıq güllə ilə şəhid edilmişdir. Zavallının bağçada güllələnməsini gizlənərək seyr edən bacısı ilə zövcəsi həyəcana qapılaraq bağçaya qaçmışlar, canilər xəncərlərilə bu zavallı qadınları da parçalamışlar.

Məhməd Əlinin qonşusu Nəcib ilə zövcəsi də eyni canilərin zülm və işgəncələrinə məruz qalmışlar.

Səlim bəy məhəlləsindən Süvaroğlu Xalid, Ziya və qardaşı Faiq, Çevikoğlu Xoca Məhməd allidən artıq qonşularıyla bir evdə ikən Van ermənilərindən Patosla birlikdə gələn vəhşi hisslərinə sahib digər ermənilər bu zavallıları fəryadlarına və "aman" istəklərinə baxmadan öldürmüşlər. Kişilərlə oğlan uşaqları bir sıraya düzülmüş, qadınlardan "işə" yaramaz dediklərilə kiçik məsum qız uşaqlarını da bunların qarşılarına düzmüşlər. Patosun "atəş" əmrilə bunların üzərinə atəş edilmişdir. Kişilərdən sağ qalanlar boğulmuşlar. Beləcə, bu məhəllədə ölənlərin sayı 300-ü aşmışdır. Bu vəziyyət cinayətlərin izindən və vəhşicəsinə şəhid edilən Xoca Məhmədin iki uşağıy-

la birlikdə gizlənərək canını qurtara bilən talehsiz zövcəsinin bu hadisələri and içərək anlatmasından qələmə alınmışdır.

Təbriz qapısı məhəlləsindən cəbhədə olan Salehin və 5-15 yaşları arasında dörd qızı, qardaşının və bacısının 17 nəfərlik ailələri ələmverici bir tərzdə erməni sakinləri tərəfindən doğranmışlar. Bu vəhşilikdən sonra ermənilər bir sevinc əsəri olaraq məzlumların qanıyla əllərindəki xaçı boyamışlar. Yenə eyni məhəllədən Salehin bacısı Məhbub ilə üç oğlu və iki qızı vəhşicəsinə boğularaq öldürülmüşlər.

Camii Kəbir məhəlləsindən Qasımın zövcəsi Aişə ilə iki uşağı vəhşicəsinə boğularaq öldürülmüşlər. Əvvəl uşaqlar analarının gözü qabağında boğulmuşlar, sonra da bu gördüklərinin acısı içərisində olan qadın da öldürülmüşdür.

Van boşaldıldığı zaman xalqı daşıyan gəmilərdən beşi fırtına səbəbilə Ərciş və Adilcevaz qəsəbələri yaxınlığına gələrək gecəni orada keçirmək istəmişlər. Lakin gəmilər erməni çətələri tərəfindən dərhal mühasirəyə alınmış və 400 nəfərə yaxın insan güllələnərək öldürülmüş, bir çoxu da dənizə atılmışdır. Öldürülənlər arasında mühasib Siirtizadə Tofiqin ailəsilə birlikdə bir çox əsgər ailəsi də vardı. Bu ələmverici faciədən qurtara bilən polis Haşim və Cəlal ilə xalqdan bəzi kəslərin hüzurumuzda and içərək vicdanla verdikləri ifadələri qorxu verərək dərəcədə dəhşətlidir.

Alay katibi sivaslı Həsən Fəxrinin zövcəsilə tüfəkçi Dursun Ustanın anasını ermənilərdən Kavas Miko guya yazığı gəldiyinə görə evinə aparmış, fəqət bütün pulunu və zinətlərini aldıqdan sonra alay katibinin iki uşağını da onlara qataraq öldürmüşdür. Hadisəni bu gün belə həyatda olan qadınlar ağlaya-ağlaya anlatmışlar.

Üç yüz adamdan ibarət olan Şeyx Ayna kəndinin xalqı Vana köçərkən İskələ və Kələrin kəndlərinin erməniləri bunları yoldan döndərərək Ziva kəndinə aparmışlar. Kəndin 200 nəfərə yaxın olan kişilərinə bir çox işgəncə verdikdən sonra öldürmüşlər. Qoca qadınlarla uşaqlar da camiyə doldurularaq yandırılmışlar. Bu çox acıverici mənzərə bu gün belə həyatda

olan və bu hadisəyə şəxsən şahid olan kürd İbrahim və Şükrüoğlu Mustafa ilə Raşidoğlu Haqqının and içərək verdikləri ifadələrdən anlaşılmışdır. Bundan əlavə hər iki kənd xalqından heç kəsin hər hansı bir yerdə görülməməsi də bunu isbat etmişdir.

Molla Səlim kəndindən sərvət sahibi bir insan olan 70 yaşlarındakı Fevzi ağanın başı zövcəsinin qucağına qoyularaq kəsilmişdir. 9 yaşındakı oğlu Sabri ilə gəlini Huriyyə vilayət mərkəzinə gətirilmiş, sonra təkrar kəndə geri aparılaraq, mərhumun pulunu gizlətdiyi yer öyrənilmiş, daha sonra ikisi də vəhşicəsinə öldürülmüşlər. Bu kənddə olan şeyx Məhməd Şakır, oğlu Ziya və nəvələri Sədullah, Zeynəb, Məhəbbət, Fəhirə, Fəxriyyə və anaları Fatma, ögey nəvəsi Zəhra ilə birlikdə vəhşicəsinə öldürülmüşlər. Zavallı şeyx və qardaşlarının evlərində böyük-kiçik – 70 nəfərə yaxın qohumları da ermənilərin zülmünə məruz qalmışlar. Şeyxin gəlinlərindən Zahidə Vana gətirilərkən namusunu qurtarmaq üçün özünü suya atmışdır. Bu bəhs edilən faciələri gözləri ilə görən Salehoğlu Şərifin zövcəsi Mahi xanım and içərək anlatmışdır.

Arnik və Ayanis kəndlərində də ermənilər tərəfindən törədilən bir çox pisliklər sağ qalan kənd imamı Molla Yusuf və oğlu Sait ilə muxtar Cəfərin verdiyi ifadələrdən anlaşılmışdır.

Bağdaşar və Qaraağac kəndlərindən 15-20 yaşları arasında 17 qız uşağı ermənilər tərəfindən Rusiyaya doğru aparılmışlar. Taçar qəsəbəsi xalqının hamısı, Erçek və Havasor qəsəbələri xalqlarının da 70 faizi qətliama məruz qalmışdır.

Məndan kəndindən olan 45 nəfər Erçəkli Şirin adındakı erməni və dostları tərəfindən öldürülmüşdür.

Erciş və Adilcevaz qəsəbələri xalqının ancaq 50 faizi qurtula bilmişdir. Ercişli olub ermənilərə etdiyi yardım və insanlığıyla tanınan Hacı Həsən ağa bu nankorlar tərəfindən günlərcə işgəncəyə məruz qalmış, sonra öldürülmüşdür.

Çevaş və Vestan qəsəbələrindən 3000-dən artıq adam, Abira Dağında Muküs komitəsi tərəfindən öldürülmüşdür.

Hakkaridən çıxaraq qaçmaq istəyən 300 nəfərə yaxın musəvi Sel kəndində parça-parça edilərək öldürülmüşlər. Ca-

sədlər üst-üstə yığılaraq yandırılmışdır. Bu vəziyyəti bizə cəsədlərin qalıqlarını şəxsən görənlər anlatmışlar.

Vanın bütün camiləri və müsəlman məhəllələri tamamilə dağıdılmışdır. Van xəstəxanasında daşınmalarına imkan olmayan 80-nə yaxın xəstə diri-diri yandırılmışlar.

Qatırçı məhəlləsindən olan Rəcəboğlu Məhmədin dörd uşağıyla zövcəsini və Leytenant Hüseyin bəyin 12 yaşındakı qızını ermənilər yanlarına alaraq naməlum istiqamətdə aparmışlar. Ermənilər leytenantın qızını güllə ilə yaraladıqdan sonra namusunu kirlətmiş və pərişan bir vəziyyətdə buraxmışlar. Daha əvvəl Leytenant Hüseyin bəyin xidmətində olan bir erməni tərəfindən gizlədilən bu uşaq sonra Vali Cövdət bəy tərəfindən Bitlisə göndərilmişdir. Qızcığaz hələ də həyatdadır və müalicə olunur.

Rusların Vandan çəkilmələri əsnasında Əngel kəndi ilə Vestan qəsəbəsidən ermənilər tərəfindən öldürülən müsəlman kişi, qadın və uşaqların 10 000-dən artıq olduğu müəyyən olunmuşdur. Van xalqından Leytenant Şükrü bəyin 80 yaşındakı Təyyar adlı əmisi qoca zövcəsinin gözləri qarşısında əllərindən mıx ilə qapıya mıxlanmış, əvvəl burnu və qulaqları, sonra da çənəsi kəsilmişdir. Təyyar bəyin vəhşicəsinə öldürülməsindən sonra zövcəsi də şəhid edilmişdir. Erciş əsgərlik şöbəsinin rəisi Hikmət bəyin qızı zorla bir erməniyə verilmiş zurna-nağara ilə qəsəbədə gəzdirildikdən sonra Rusiyaya aparılmışdır. Bu qadının əri teleqraf müdiri Haqqı bəy ermənilərin bu qeyrətsiz hərəkətindən sonra zövcəsinin məruz qaldığı bu ələmverici mənzərə qarşısında dəli olmuşdur.

Vanın Xəlil ağa məhəlləsində yaşayan ayaqqabıçı Xəlil ağa komissiyamızın hüzurunda and içərək bu məlumatı vermişdir: "Vanın boşaldılmasından sonra ermənilər bizi Amerika müəssisəsinə apardılar. Bütün xalq oraya topladıldı. Bizə gündə bir çörək verirdilər. Bunu yeyənlərin dərhal saçları tökülür, qanlı sular axıdaraq ölürdülər. Qısa bir zaman kəsimi içərisində çox sayda insan öldü. Biz təxminən 100 nəfər qalmışdıq. Kəndlərdən toplanan xalqın üçdə ikisi Mermid çayına töküldü. Sonra

bizi buradan Fransız konsulluğunun yerləşdiyi evə apardılar. Biz orada həbs edildik. Ermənilərin qadınlarımıza qarşı etdikləri iyrəncliklər ağlasığmaz bir vəhşilik idi. Müsəlman məhəllələri qısa bir zaman içərisində dağıdıldı. Cəbheçioğlu Hacı ağa ilə evinə iltica edən üç uşaq və Təhsildar Hacı bəyin zövcəsi Sahak bəyin evinin yanında əyləncəvi hərəkətlərlə öldürüldülər."

Ermənilər Şətak qəsəbəsinə bağlı Hasnik, Hakan, Kasır, Köşk, Darinişşüfa, Berno, Cemik, Norevan, hasis, Virkez, Arkanis, Ekruhi, Sarnuhi, Süzvanis, Hist, Şukran, Reknan, Şeyhanis və Sevqan kəndlərində olan kişiləri tamamən süngüləmişlər, qız və qadınların gözəllərini Rusiyaya doğru aparmışlar. Bu hadisələri Berholu Ömər and içərək anlatmışdır.

Trabzonlu Hüseyin bəyin qızı olub rusların Vanı istila etməsindən sonra ermənilər tərəfindən yaralanan və hər necəsə qaçıb qurtara bilən Nadiyə xanım başından keçənləri belə anlatmışdır: "Erməni məhəllələrinin bitişiyindəki Qatırçı məhəlləsində yaşayan Rəcəboğlu bəkkal Məhməd bəyin evində gizli olan İngiltərə konsulluğunun qapıçısı Əli ağa zövcəsi və bunların 17 yaşında Həsən, 10 yaşında İhsan, 4 yaşında Təhsin, bir yaşında Kazım adlarındakı oğullarıyla qızı Zəhra və bunun qucağında altı aylıq uşağı və mən iki qızım və bir oğlum ilə bərabər olduğumuz zaman ermənilər birdən evimizi basdılar. Hökumətə xəbər vermək üçün qorxu və təlaş içərisində qapıdan çıxdım, dönüşümdə atılan güllələrin qorxusundan bir daha uşaqlarımı görə bilmədim. Ancaq beş yerindən yaralı olub bir xeyir sahibi tərəfindən Diyarbəkirə göndərilən zavallı məsum uşağımın uğradığı müsibət və anlatdığı faciələr ermənilərin zülm verməkdə nə qədər mahir bir canavar olduqlarını göstərir. Qapıçının oğlu Hüseyinlə qızı Zəhranın parçalandığını anam söylədi. Onun qucağındakı uşağı erməni yepiskopluğuna apardılar və orada öldürdülər. O evdə olan digər dostlarımın necə olduqlarını bilmirəm. Bəkkal Məhməd bəyin böyük qızı Hüdiyyəni Təbriz qapısı camisində vəhşicəsinə öldürdülər. Zövcəsi Həbibə ilə kiçik qızı Sabitəni Amerika müəssəsinə apardılar və orada öldürdülər. Mənim yarama yepiskopluqda baxılmadı. Yepiskopluğun

pəncərəsindən baxdığım zaman ermənilərin beş altı aylıq bir uşağı öldürdüklərini gördüm. Sonra digər beş uşaqla bir hamilə qadını öldürdülər. Şeyx Əbdurahman baba ziyarətgahına iltica edən bir qadın da ermənilərin hücumlarından qurtula bilmədi. Alay katibi Mahməd Əli bəyin evində olan saray müavinini və daha bir neçə qadını parçaladıqlarını yepiskopluqda olan ermənilərdən eşitdim. Zülmün hansını sayım. Ayağım ombamdan çıxmış, şikəst və müalicədən aciz bir haldayam. Bu vəziyyəti heç unutmayacağam..."

Ermənilərin Van və ətrafında törətdikləri vəhşiliklər, yazılması cildlər tutacaq zülm və işgəncələr yuxarıda anlatılanları doğrudan-doğruya aparılan tədqiqatdan və ya zülmlərə şəxsən məruz qalmış şəxslərin and içərək verdikləri ifadələrdən anlaşılmışdır.

KOMİSSAR : Askeriyeden Emekli Vanlı Teğmen
RECEP
SÜREYYA : Van Jandarma Alay Komutanı
ALİ"

## ZEVƏ FACİƏSİ

Zeva Vanın şimalında, Vana 14 km. uzaqlıqda Van gölünə baxan kiçik bir təpənin ətəyində bir kənd xarabası və şəhidlər yatağıdır. Zeva Birinci Dünya müharibəsindən əvvəl həyat dolu, canlı, yamyaşıl, boğaziçi kimi mavi və duru suları olan Van gölünün qucağında yerləşən bir kənd idi. Bu gün bura Vanın millət, namus, şərəf və dini uğrunda can verən şəhidlərinin yatdığı bir məzarlıqdır.

Van ruslar tərəfindən işğal edildikdə Xıdır, Şeyx, Ayna, Pakiz, Kurtsatan, Sırüsrat və Xanga kəndlilərinə qatılan Vanlılarla birlikdə mühacir olmağa qərar verib yola çıxmışlarsa da, İskələ Kalecik, Bardaqçı kəndlilərinin ermənilərı yolları kəsdiklərinə görə Zevaya gəlmiş, orada düşmənlə ölüm-dirim müharibəsi aparmaq məcburiyyətində qalmışdılar.

Aşağıda verdiyimiz yazılar Zevə faciəsinin canlı şahidlərinin açıqlamalarıdır və "Vanın tanıtma və tanıma cəmiyyəti"nin yayınladığı "Zevə" adlı broşürundən alınmışdır.

**1. Həmzə dayı anladır:**

"...1 may gününü xatırlayıram. Erməni çətələrinin Şeyxqaraya basqın etdiklərini xəbər aldıq. Biz də 28 silahlı ilə oradakıların yardımına getdik. Bir az vuruşduqdan sonra ermənilərin Qalaçığa doğru çəkildiklərini gördük. Bunların Qalaçıq erməniləri olduğunu öyrəndik. Ermənilərin bu hərəkətindən sonra biz də kəndi tərk etdik. Niyyətimiz molla Qasımdan Ayansa, oradan da Amikə keçib müdafiəni Amik qalasından etmək idi. Qızılburnuna gəldikdə Vanda Səlimiyyə qışlağının yandığını və dumanların göylərə yüksəldiyini gördük. Ermənilər Səlimiyyə qalasını yandırmışdılar.

Zevəyə yaxınlaşdığımızda Xıdır, Pakiz, Sırsurat kəndliləri də orada idilər. Zevəlilər bizi qonaq etdilər. Onlar: "Biz ermənilərə təslim olacağıq. Onlar bizə söz verdilər, bir şey etməyəcəklər,"- dedilər.

Biz o gecə orada necə hərəkət edəcəyimizi düşündük. İkinci gecə oradakı beş kənd xalqı ilə, zevəlilər də daxil olmaqla ölüm-dirim mücadiləsinə yekdilliklə qərar verdik. Bu qərarımızı ermənilərə bildirmək üçün Bardaqçı kəndinə getmək istəyən Zevəlili Əhmədi buraxmadıq. O günü səhər səhər Bardaqçı kəndinin ermənilərindən on qadın Zevəyə gəldi. Bunların məqsədi bizim vəziyyətimizi öyrənib kişilərinə bildirmək idi. Biz o qadınların hərəkətlərindən şübhələndik və onları axşama qədər kənddə saxladıq. Axşam olunca qadınları buraxdıq, onlar da öz kəndlərinə döndülər.

Biz bu iki günü Zevədə boş keçirmədik. Qoca-cavan – bütün kişilər, hətta bəzi qadınlar bir müdafiə xətti qurmaq üçün çalışmalara başladıq. Göldən çaya qədər üç sıra və bir insan boyunda səngərlər qazdıq. Şəfəq vaxtı Zevəli İbrahim: "Allahını istəyən toplansın. Mormutin qərdərəsi ermənilərlə doludur. Onlar üzərimizə gəlirlər,"- dedi.

Biz əli silah tutan 200 nəfər, qadın və uşaqlarla təxminən 2 min nəfərdik. Döyüş öncəsi halallaşmağa başladıq. Bu zaman amansız döyüş başladı. Atam Şükrü:

– Gəl bir yerdə səngərə girək, – dedi.

– Xeyr, ata, eyni səngərə deyil, gəl ayrı-ayrı səngərlərə girək. Çünki mən vurulsam, sən də qaça bilməz, mənimlə məşğul olarsan. Sən vurulsan, mən özümü itirər, atəş edə bilmərəm,- dedim.

Bu zaman yanımızda olan müəllimim Osman xoca:

– Oğlum, günahın, vəbalın boynuma olsun, canınız sağ olduqca barmağınızı tətikdən çəkməyin,- dedi.

Mən də ayrı bir səngərə girdim və ermənilərə güllə yağdırmağa başladım. Bir anda ermənilər geri çəkilməyə başladılar. Bizim olduğumuz yer Quşluğa yaxın idi. Bir qismimiz səngərdə ikən mən camiyə getdim. Abdəst alıb "Quran" oxumağa başladım. Bir az sonra məni çağırdılar. Ermənilər yeni güc toplayıb hücuma keçmişdilər. Döyüş yenidən və şiddətlə başladı və günortaya qədər davam etdi. Bu zaman kəsimi içərisində bizdən ölən olmadı, ancaq bir neçə nəfər yaralımız vardı. Döyüş durduqda mən yenə camiyə getdim. Abdəst alıb günorta namazını qıldım. Oturub bir az "Quran" oxudum. Sonra yenidən səngərə girdim. Ermənilər yenə üzərimizə gəlməyə başladılar. Rusiya erməniləri yerli erməniləri qabaqlarına qatıb bizə doğru gəlirdilər, önlərinə də 3-4 sıra sığır qatmışdılar. Onlar hücuma keçdilər. Vuruşduq. Ermənilər sayca bizdən qat-qat artıq idilər. Bu üstünlük bizi yavaş-yavaş geri çəkilmək məcburiyyətində buraxdı. Beləcə, ilk səngərimiz alındı, yəni ermənilər ön səngərimizi işğal etdilər. Biz də kəndimizin təpələrinə yerləşdik, ancaq bu təpələri bir saata qədər müdafiə edə bildik. Mən və mənimlə bərabər kəndin mollası, əmimin oğlu ilə birlikdə kəndin camisinin həyətində müdafiə olunmağa davam edirdik. Mollamız mənim yanımda şəhid oldu. Biz caminin həyətində vuruşmağa davam edərkən 28 yaşlı Şeyx Zübeyr ağır yaralı olduğu halda, durmadan bizə mərmi daşıyırdı. Bu zaman mənim tüfəngimin lüləsi partladı. Lüləsi partlayan tüfəngimdən çıxan dumanlara

çarəsiz halda baxarkən əlimə başqa bir tüfəng keçdi. Yenidən həyəcanla atəş etməyə başladım. Bizim tərəfimizdəki silah səsləri get-gedə azalırdı. Belə olduqda mən özümü caminin yanındakı mədrəsəyə atdım. Özümdən getmiş olduğum halda, tez toparlandım və atəş etməyə başladım. Yanımda şəhid olan Osman xoca idi. Barmağım tətikdə hey atəş edirdim. Başımı qaldırıb ətrafa baxdığım zaman ermənilərin hər tərəfdən kin və intiqam hissləri ilə bizə doğru yaxınlaşdıqlarını gördüm. Mən özümü Şeyx Sadi həzrətlərinin nəvələrindən Şeyx Sultan Hamza Vəlinin türbəsinə atdım və əllərimi açaraq dua etməyə başladım: "Allahım, bu günahsız, sevimli qulunun üzünün suyu hörmətinə məni bu azğın düşmənin şərindən qoru. Sənə sığınıram,"- deyə yalvardım. Dodaqlarımdan bir-iki duanın daha axdığını indiki kimi xatırlayıram.

Ətrafıma baxdığımda ağır yaralı 8 yaşındakı Zubeyr ilə İbrahimin və Səyyad çavuşun yanımda olduqlarını gördüm. Ziyarətgahın qapısı ağzından baxdığımda erməni çetəsinin başçılarından Fetisin camiyə quru otları doldurub atəşə verdiyini gördüm. Güllə səslərindən qulaqlarım uğuldayırdı. Yarı huşsuz bir halda idim. Çöldən erməncə bəzi sözlər eşidilirdi. Səslərin gəldiyi tərəfə baxdıqda onların kölgələrini belə fərq edirdim. Ermənilər bir-birinə yüksək səslə: "Orada bir kəs varmı?"- deyə soruşurdular. Yaxınımızdakılar da uzanıb içəri baxır, "Burada şeytan belə yoxdur,"- deyərək qarşılıq verirdilər. Məni görəcəklər deyə qorxumdan titrəyirdim.

Yatıb qalmışdım. Vaxt gecə yarısı idi. Oyandım. Yanımdakı Zevali Məmin Dursun yaralıydı. O: "Buradan qaçaq,"- dedi. Biz ziyarətgahdan çıxıb camiyə girdik. Bütün kənd alovlar içərisində, müdhiş tüstülər çıxararaq yanırdı. Ətrafımızdan bir çox yaralıların inilti̇si, ahu-naləsi eşidilirdi.

Ermənilər ağır yaralıları samanlıqlara doldurub atəşə verdilər. Yaxınlığımızdakı bir ağır yaralını diri-diri yandırdılar. Onun adı Əbdürrahim idi. Ətrafımızdakı acı fəryadlara dayana bilməyib bayıldım. Ayıldığımda yanımda heç kim yox idi. Bütün dostlarım getmişdilər, yaxud şəhid olmuşdular. Səhərin açılma-

sına az qalırdı. Mən gizlənə-gizlənə, yavaş yavaş kənddən uzaqlaşmağa çalışırdım. Kənddəki yangın hələ bütün şiddətilə davam edirdi. Kənddən çıxıb kəndə hakim təpələrdən baxdığım zaman ermənilərin ələ keçirdiklərini yanlarına alaraq getdiklərini gördüm. Onlar qəsb etdiklərini Mərmit kəndinə daşıyırdılar. Qızılburuna gəldim. Burada qaldığım müddət ərzində ermənilərin qadın və uşaqları Vana apardıqlarını gördüm. Mən axşama qədər Qızılburunda qaldım. Gecə olduqda dağ yolu ilə Erçəkə doğru yola çıxdım. Sabahısı Erçək bölgəsində bir tayfa rəhbərinin qonağı oldum. O, məni himayə etdi."

**2. Güllü bacı anladır.**

Zeva kəndində 90 yaşındakı Güllü bacı göz yaşları içərisində ürəkləri yandıran bir səslə Zeva faciəsinin qara günlərini belə anlatmışdır:

"Ermənilər quşluq çağında kəndi mühasirəyə aldılar. Şiddətli bir döyüşdən sonra qətliam başladı. Qanlı ermənilər hər tərəfi yaxıb-yandırır, uşaq-böyük demədən qarşılarına çıxanı vəhşicəsinə doğrayırdılar. Bələ qırğından sonra qadınları əsir alaraq Vana göndərir, ruslara təslim edirdilər. Vana gedərkən bəzi qadınlar özlərini ermənilərə təslim etməmək üçün Mərmit çayına atılaraq öz canlarına qıyır, şəhid olurdular. Bu qadınların bir çoxunu da ermənilər öldürürdülər. Sağ qalan 20 qadını ruslar molla Qasımın yanına apardılar. Mən də molla Qasımın yanına aparılanlardan idim. İki sıra erməni arasında Zevadən Vana aparılan biz zavallı, pərişan türk qadınlarına ermənilər hər cür həqarətlər etdilər. Onlar bizləri öldürmədən əvvəl tez-tez bu mahnını oxuyurdular:

"Aman, amana düşdü qadınlar,
Halınız yamana düşdü qadınlar,
Bildirki xoş gününüz,
Bu il yamana düşdü qadınlar."

Bu öldürücü, qəhredici, istehzalı sözlər qarşısında ağlayan bəxtsiz, çarəsiz, pərişan, zavallı, müsəlman türk qadınlarına verilən çörəyin içinə ermənilər mavi şərab, kibrit, sabun və heyvan nəcisi qatırdılar. Bu çörəklərdən yeyənlər dərhal xəstələnirdilər. Şeyxqaralı İbad ağanın qızı silahı ilə Zevəyə hakim təpələrə çıxmış, ermənilərlə vuruşmuşdu. Zevə camisinə müsəlmanları doldurduqdan sonra qazla tutuşduraraq yandırmışdılar. Van kəndlərindəki dəyirmançılar erməniydilər. Onlar buğda çəkməyə gedən müsəlman qadınların namuslarını zorla kirlədirdılər.

Ermənilər Zevədə və rast gəldikləri hər yerdə kiçik uşaqların qırtlaqlarını süngü ilə yırtdıqdan sonra zavallı məsum uşaqların can çəkişmələrini qəhqəhə ilə seyr edirdilər.

Ermənilər 300 nəfərə yaxın müsəlman türk qadınını evlərə payladılar. Toplanan sürüyə qoç qatar kimi, təxminən 1500 erməni bu zavallı 300 türk qadınının iffətlərini kirlətdilər.

Ermənilər Ala kəndinin yanında insan cəsədlərindən bir yığnaq düzəltdilər. Cəsədlərin kəsilmiş cinsiyyət üzvləri də ağızlarına verilmişdi. Cəsədlər çılpaqdılar. Ölülərin alt paltarları başlarına keçirilmişdi. Bu cəsəd yığınını qadınlara göstərərək: "Ağlamayın, itlər gəbərmişlər,"- deyərək qırmanclayırdılar. Bu faciələri görən qadınlar bir-birlərilə halallaşır, özlərini suya atıb intihar etmək üçün hazırlanırdılar. Bir tərəfdən də göz yaşları və hıçqırıqlar arasında: "Namus getdi, övlad getdi, kişi getdi. Biz nə üçün yaşayırıq?"- deyərək ağlaşırdılar.

Bu zaman Amik və Ayans kəndlərinin qadınlarını da bizə qatdılar. Bu ilk qadın qafiləsi özlərini ermənilərin zülm və təcavüzündən xilas etmək üçün Mərmit çayına atdı. Bunu görən ermənilər qadınların üzərinə atəş açıb hamısını öldürdülər. Suya atılan qadınların bəzilərini də sudan çıxardılar və zavallı çarəsiz qadınlara: "Ərləriniz öldülərsə də biz sizlərə ərlərik. Niyə özünüzü suya atırsınız?"- deyib, onlara bir qat daha əziyyət verərək öldürmək istədilər. Molla Qasımlı Vahidəni qolundan vurdular. Bizi də gecənin qaranlığında Vana aparıb məzarlığa tökdülər. Ciyər atəşi, aclıq, susuzluq, yorğunluq və yuxusuz-

luq... "Ox, çox şükür Allahım, barı məzarlarda bir az yataq" dedik, lakin onlar bizi qamçılayaraq yaxındakı evlərə doldurdular. Burada namus və iffət kirlətmələri başlandı. Biz aclıqdan otları, ağac yarpaqlarını yeməyə başlamışdıq. Beləcə ac və susuz 7 gün keçirdik. Çox cansız və taqətsiz qalmışdıq. Sonra bizi Vanın erməni məhəlləsinə apardılar. Bizi tıxa-basa evlərə doldurdular. Bir neçə gün də orada qaldıq. Bizə yeməyə heç bir şey vermirdilər. Fağır bir qadın ağlaya-ağlaya, hıçqıra-hıçqıra: "Bizi öldürün və ya bir az su verin,"- deyirdi.

O gecə ermənilər yanımızdakı evdə olan müsəlman qadınları qoyun kəsən kimi kəsdilər. Biz onların fəryadlarını bütün gecə boyu eşitdik. Sonra bizi ruslar təslim aldılar. Onlar da bizə gündə bir çörəkdən başqa bir şey vermədilər. Orada yoluxucu xəstəliklər baş verdi. Ermənilərin bıçağından boğazını qurtaranların bir çoxu da bu yoluxucu xəstəliklərdən öldülər..."

3. Əsma nənə anladır.

Molla Qasım kəndindən 95 yaşındakı Əsma nənə yaşadığı faciəni hafizəsində qalan epizodlarla belə anladır:

"Ermənilər Molla Qasım kəndini yerlə bir etdikdən sonra Zevaya getdim. Zeva çayını keçə bilmədim. Məni atla gəlib aldılar. Zevada cəm halında olan qadınların hamısını ermənilər bir dama doldurduqdan sonra bu qadınlar yerdə otura bilməsinlər deyə, oranı su ilə doldurdular. Belimizin yarısına qədər su içərisində qaldıq. Sonra kişiləri ayırıb apardılar. Onları başqa bir damda diri-diri yandırmışlar. Ermənilər 15 yaşındakı uşaqları da bir tərəfə ayırdıqdan sonra süngüləyərək qətl etdilər. Qadınları da çılpaq halında Vana apardılar.

Ermənilər bir uşağı gözümün qabağında qoyunu kəsən kimi kəsdilər. Bir erməni bizim qonşumuz Firdevs xanımın oğlunu ayağının altına alıb iki ayağından ayıraraq iki parça halına gətirib şəhid etdi. Ermənilər o qədər çox müsəlman kəsdilər ki, axan qanlar böyük təndiri doldurardı. Nəhayət, Rusiya ordusunda vəzifəli olan bir tatar bu qorxunc faciəyə son verdi.

Ermənilər əsir aldıqları müsəlman qadınları iki sıra halında aralarına alıb mahnı söyləyərək, dəf çalaraq aparırdılar. Onlar tez-tez: "Qorxmayın, sizi Cövdət paşaya (Van valisi) aparırıq. O sizi plova qonaq edəcək."- deyirdilər.

Onlar xor halında:

> "Cövdət paşa, et tamaşa,
> Gəlinlərin oldu matuşka
> (fahişə anlamında),"- oxuyurdular.

Molla Qasım kəndindən olan Şeyx Səlimin gözlərini oyduqdan sonra şəhid etdilər. Yenə Molla Qasım kəndindən olan Müslüm əmini öldürüb, onun cəsədini namaz qılır kimi bir vəziyyətə gətirdikdən sonra islam dininə və imana söyərək lağ etdilər.

Ermənilər bir tərəfdən kişiləri öldürür, "Qorxmayın sizə bir şey olmayacaq,"- deyirdilər. "Onları Rusiyaya pul qazanmağa göndəririk" yalanını gözümüzün içinə baxa-baxa söyləyirdilər..."

4. Zevalı Sayyad onbaşı.

Bardaqçı kəndində yaşayan Zevalı İbrahim Sarqın anladır:

"Sayyad onbaşı çətin döyüşlərin sonunda Zevədə əsir düşmüşdü. Ermənilər ona: "Gəl, sən Sultan Rəşadın onbaşısısan. Andranik paşa sənin rütbəni artıracaq."- demişlər. Onlar Sayyad onbaşını çırıl-çılpaq soyundurараq, çiyinlərində xəncər ilə cib formasında rütbə yeri açaraq əllərini bu ciblərə soxmuşlar. Sayyad onbaşı beləcə qorxunc və canavarca işgəncə verilərək şəhid edilmişdir.

## EMƏNİLƏRİN BİTLİS VƏ MUŞ VİLAYƏTLƏRİNDƏ TÖRƏTDİKLƏRİ HADİSƏLƏR

Ermani komitaçılarinin Vandan sonra ən çox əhəmiyyət verdikləri bölgə Bitlis və Muş bölgələri idi. Buraların Van, Diyarbakir, Halep və İskəndarun yolunun üzərində və ilin hər mövsümündə hərəkətli olmaları bu əhəmiyyəti daha da artırırdı. Ermənilərin ən böyük və vəhşi cinayətləri bu bölgələrdə işlənmişdir. Bu bölgələrdə baş verən hər bir hadisənin arxasından da erməni komitələri çıxmışdır. Onlar özləri bilərəkdən ermənilərə qarşı qeyri-adi vəhşiliklər törətmiş və xarici ölkələrdəki şöbələri vasitəsilə bu vəhşilikləri "Türklərin zülmü" kimi qələmə almış, xarici dövlətlərin milli məclislərinə şikayətlər etmiş, etiraz mitinqləri tərtib edərək vəziyyətdən xəbəri olmayanları aldatmışlar. Belə hadisələri səbirsizliklə gözləyən "Türk düşmənləri" ortalığı qarışdıraraq ermənilərin hamisi və müdafiəçisi rolunda ortaya tökülmüşlər.

Belə vəziyyətləri yaradan komitələrin olmadığı zamanlarda bu bölgədə yaşayan müsəlmanlar və ermənilər arasında uyuşmazlığın olmadığı bir çox xaricilər tərəfindən ifadə edilmişdir. Hətta Bitlis və Muşun mərkəzləri ilə ətraflarındakı bir çox erməni kəndlərində yaşayan ermənilərin 1916-cı ilə qədər ermənicə bilmədiklərini söyləmək yerinə düşərdi. Erməni şair və yazıçıların əsərlərində, ermənilərin milli dastanlarında belə, bu bölgədə yaşananların xüsusi yeri vardır.

Erməni komitaçıları isə Avropanı ələ almaq üçün Osmanlı ölkəsində asayişin, təhlükəsizliyin, həyat və mülkiyyət haqlarının olmadığını söyləyir, qeyri-adi hadisələrlə asayişi pozurdular.

Daşnaksütyun komitəsi hadisələri istədikləri şəkildə Avropaya əks etdirən Vanda "Eşhadank" və "Vandosp," Ərzurumda "Harac," İstanbulda "Azamard" kimi mətbuat orqanlarına sahib idi.

Onlar konsulluqlara çəkdikləri teleqraflarda üsyan və hadisələrdə olan ermənilərin toplamını o qədər yüksək göstərirdi-

lar ki, o rəqəmlərə görə dünyada yaşayan ermənilərin sayının bitmiş olması lazımdı.

Səfərbərlik elan edildikdə ilk zamanlar səfərbərliyə qatılan ermənilər silahlarını aldıqdan sonra düşmən tərəfinə keçmiş, müsəlmanlara qarşı təcavüz və hücumlara başlamışlar. Bu başlanğıc əslində ermənilərin alışdıqları üsyan və qətliamla başlamalı idi. İndi isə onlar silahlandırılıb hazır vəziyyətə gətirilmişdilər. Onlar Vətən uğrunda döyüşməyə deyil, əksinə, müharibəyə gedən əsgəri birlikləri əngəlləməyə, onları məşğul etməyə başladılar. Onların Bitlisdə törətdikləri hadisələr bunlardır:

Dağıdılan camilər – Meydan camisi, Camii kəbir, Xocabəy camisi, Göymeydan camisi, Şeyx Həsən camisi, Qurupınar camisi, Qureyş camisi, Mərmut camisi, Daş camisi, Qılməscid camisi, Fərisiyyə camisi, Ələmdar camisi, Çıharsandıq camisi, Sultan Ərəb camisi. Bu camilərin bir qismi atəşə verilmiş, bir qismi də uçurulmuşdur. Ayrıca, Hatuniyyə camisi tövlə halına gətirilmişdi.

Dağıdılan dərvişxanalar– Kufrəvi dərvişxanası, Şeyx Əmin dərvişxanası, Şeyx Abdullah Bedahşani dərvişxanası.

Dağıdılan mədrəsələr – Göymeydan mədrəsəsi, Kerrafiyə mədrəsəsi, Qazi Bəkiyyə mədrəsəsi, Şərəfiyyə mədrəsəsi.

Dağıdılan ziyarətgahlar – Şeyx Abdullah Beddahşani, Vəli Şəmsəddin, Şeyx Bayo, Seylul-Qərib.

Dağıdılan məktəblər – Göymeydan orta məktəbi, Mərmut civarındakı lisə, Qızıl Məsud orta məktəbi, Çarşıbaşı orta məktəbi, Hersan məhəlləsinin orta məktəbi.

Yandırılan polis idarələri – Qurupınar polis idarəsi, Çarşı polis idarəsi, Sapırkor polis idarəsi, Kums polis idrəsi, Zeydan polis idarəsi, Məhəllәbaşı polis idarəsi.

Rəsmi binalar – Hökumət binası, Mərkəzi polis binası, Jandarma binası, Bələdiyyə binası.

Dağıdılan hamamlar – Paşa hamamı, Xan hamamı, Orta hamam.

Dağıdılan karvansaralar – Çarşı tacir karvansarası, Aşağı qaladakı Həmzənin karvansarası.

Yandırılan anbarlar – Göymeydanı əsgəri anbarı, Bələdiyyə əsgəri anbarı.

Uçurulan körpülər – Qərb körpüsü, Ələmdar körpüsü, Səfər bəy körpüsü, Diyadin körpüsü, Şarpınar körpüsü, Hatuniyyə körpüsü.

Bu sayılanlardan başqa çox sayda xüsusi binalar da ermənilər tərəfindən atəşə verilmiş və ya dağıdılmışdır.

Bitlisin ruslar tərəfindən işğalında qaça bilməyib şəhərdə qalan və erməni çətələrinin müxtəlif hücum və təcavüzlərinə uğrayan müsəlman xalqından bir çoxunun hüzurumuzda and içərək anlatdıqları yuxarıdakı qorxunc hadisələr törədilən və bu gün də izləri görülən zülmün və alçaqlıqların mində birini belə təşkil etmir..

İMZALAR: 1. Hacı Məlikzadə – Şeyx Yusif
2. Molla İsazadə – Əbdülhakim
3. Əsgəri orta məktəbin ərəbcə müəllimi – Əmər Hulusi
4. Polis müdür vəkili – M.Arif
5. Bitlis poçt vəkili – Hakkı
6. Kazəsgər Şeyxinin oğlu – Yusuf

Muş ətrafından Məhməd Rəsulun and içərək verdiyi ifadəsi belədir:

"Mən bir əsgər olaraq hərbdə idim. Aldığım yaraya görə Bitlisə tərəf çəkilən hissədən geri qalmışdım. Mənim kimi yaralı və xəstə olan üç əsgər də geri qalmışdılar. Bir müddət sonra Rusiya kazaklarının öncülləri olan erməni çətələri bizə çatdılar. Dostlarımızdan Harputlu Hüseyin əsgərin gözlərini çıxararaq, "Qalx, bax gör Osmanlı əsgəri gəlirmi?" - dedilər. Sonra o zavallı əsgərimizi güllələdilər. Digər əsgərin sağ tərəfindən dərisinin bir qismini üzərək çanta şəklinə gətirdilər. Bu zavallıya da: "Əlini sox oraya görək bu çantada padşahınızın pulu varmı?" - deyərək ona müxtəlif işgəncələr verdilər və onu da şəhid etdilər. Üçüncü əsgərimizi yerə uzadaraq cinsiyyət üzvünü kəs-

dilər və ağzına qoyaraq: "Sən bu durbanı çal ki, Osmanlı əsgəri sizin imdadınıza gəlsin."- dedilər və cürbəcür həqarətlərdən sonra onu da şəhid etdilər. Artıq növbə mənə çatmışdı. Bu alçaqlıqları törədənlər mənə yabançı gəlmirdilər. Mən onların üzlərinə diqqətlə baxdığım zaman aralarından üçünü müəyyən etdim. Bunların biri Muş ermənilərindən və Çufar məhəlləsindən Keşişoğlu Aram, ikincisi Muşun Yaş məhəlləsindən Bağdasar Körrükoğlu Aleksandr, üçüncüsü isə yenə Muşun Yaş məhəlləsindən vəkil Xrantın oğlu Xrant idi. Bunlar məni bir dərəyə apardılar, yandırdıqları atəşdə tüfənglərinin lülələrini yaxşıca qızdırdıqdan sonra məni 24 yerimdən dağladılar. Onlar mənim fəryad və yalvarmağıma heç əhəmiyyət vermirdilər. Tam bu zaman rus əsgərləri gəldilər və bunlardan biri gəlib məni bu canavarların əlindən aldı. Bu əsgər gizlicə qulağıma onun Rusiya müsəlmanlarından olduğunu söylədi. Sonra rus, kazak və erməni çətəsi mənsublarıyla birlikdə Bitlisə doğru yola çıxdıq. Yolda erməni zülmündən qaçan qafilələrə rast gəldik. Ermənilər bu müdafiəsiz qadın, qoca və uşaqlara qarşı şiddətlə hücuma keçir, bu zavallıları ürəkləri parçalayacaq bir vəhşətlə şəhid edirdilər. Muşun Ziyarət kəndinin xalqından olduğunu zənn etdiyim bir erməni ilə yeddi yoldaşları altı müsəlman qızını gətirdilər və hər kəsin gözü önündə namuslarını kirlətdilər. Onlar həm bu alçaqlığı törədir, həm də: "Bundan sonra müsəlmanlara belə namaz qıldıracağıq."- deyirdilər. Biz oradan hərəkət edərək Tel kəndinə gəldik. Burada üç gün qaldıq. Bu müddət ərzində daha əvvəl məni qurtarmış olan tatar Əbdülməlik mənə az da olsa çörək verirdi. Üçüncü gün artıq mənə yardım edə bilməyəcəyindən, bir müsəlmanı himayə etdiyi anlaşılarsa, onun şiddətlə cəzalandırılacağından bəhs edərək başımın çarəsinə baxmağımı söylədi. Mən gecə vaxtı bir yol tapıb oradan qaçdım. Şəfəq vaxtı Qazanan kəndinin qarşısındakı təpəyə çatdım. Kəndin içərisindən fəryadlar eşidilirdi. Erməni çətələri bir tərəfdən evləri atəşə verir, digər tərəfdən də xalqı qətl edirdilər. Mən oradan da qaçdım və bir çox təhlükənin qucağında köçərilərlə birlikdə geri çəkilə bildim."

Qala məhəlləsində yaşayan Muş jandarma əsgərlərindən Mövlüdoglu Məhmədin and içərək verdiyi ifadə belədir:

"Mən Muşun Liza bölgəsində olan əsgəri hissənin komandanına poçtu aparmaqla vəzifələndirilmişdim. 28 yanvar 1914-cü il tarixində yola çıxdım. Bir az irəli gedincə, erməni çətəsinə mənsub silahlı bəzi adamlar ətrafımı sardı. Bunlardan Bulanıqlı Keşişoglu Knyazı, Abri kəndindən Qazarı, Göyulən kəndindən Boduyu, Muşlu Malayin oglu Vanoyu tanıdım. Ermənilər tərəfindən şəhid edilmək üzrəydim. Hadisə yerinə yetişən rus əsgərləri məni qurtardılar. Bunlarla birlikdə Molla Davud kəndinə getdik. Məni zabitlərinə apardıqdan sonra bir otağa həbs etdilər, bir də başıma bir növbətçi qoydular. Onlar kənddən gətirilən gəlin və qızlarla şərab içərək əylənirdilər, mənə də bu alçaqlıqları göstərərək: "Bir zaman müsəlmanların halı belə olacaq."- deyirdilər. Bundan sonra kəndin gənclərini ayırdılar və müxtəlif işgəncələrdən sonra öldürdülər. Azyaşlı uşaqlara və qadınlara ağıla gəlməyəcək pisliklər etdilər."

Muş və Bitlis xalqından 11 nəfərin and içərək anlatdıqlarına görə, Şrinik kəndindən olan Tavinoglu Misak vasitəsilə Qaraməşə kəndindəki bütün kişilər öldürülmüş, qadınların namusları kirlədilmişdir. Malababa kəndindən 74 nəfər, Kazan kəndinin bütün xalqı, Heşkarvan kəndindən 12 nəfər, Erilcik, Agdad, Vartetyi, Samurşeyx kəndləri xalqının tamamı, Fick, Bulanıq, Hask, Küt, Nurkagak, Malakumran, Səmtuz, Alev-zerk, Kotanan kəndlilərinin də bir qismi öldürülmüşdülər. Qazanan kəndinin bütün fərdləri bir yerə toplanaraq amansızcasına yandırılmışdılar.

Muş xalqından Nasib Hacı Əlizadə Əbdülbakı və Hacı Əhmədoglu serjant Yunus ilə yoldaşlarının and içərək bizə nəql etdikləri müşahidələri də belədir:

"Müharibənin ön sıralarında erməni çətə rəislərindən Bəyazıtlı Surün ilə Ərzurumun keçmiş millət vəkillərindən Basdırmacıyan, Qaryagin idarəsindəki 1200 nəfərlik erməni çətəsi müsəlman kəndlərinə təzyiq edərək vəhşi heyvanlara rəhmət oxuyacaq bir tərzdə qabaqlarına gələn məsum müsəlman xalqı

doğrayırdılar. Onların mal və mülklərini qarət edirdilər. Yaramış və Ağca viran kəndləri xalqının çoxu öldürüldü. Bunların qanlı əlindən yaralı və xəstə əsgərlər də qurtara bilmirdilər. Lizə mövqeyində ordumuz tərəfindən zəruri olaraq buraxılan yaralı əsgərlərimizin hamısını daha sonra ruslar çəkildiyi zaman erməni çətələri tərəfindən şəhid edilmiş olaraq tapdıq. Ruslara yardım edən erməni çətələri Malazgirtdin 53 kəndini yandırıb, təxminən 20 min müsəlmanı öldürmüşdülər. Malazgirdın Yekzan kəndindən olan bərbər İlyasın oğlu Şövqətlə iki arvadı gözləri önündə namusları kirlədilmək istənən qızlarının buraxılmasını ağlayaraq, yalvararaq istəyirdilər. Fəqət ruslara yardım edən erməni çətələrindən Dolabaş kəndlisi Mardiros, Xarabə Qasım kəndindən Kələkçi Simon, Qala Qasalı Mardivazik, Gevrək kəndindən Sirop kimilər tərəfindən işgəncə ilə şəhid edilmişdilər. Malazgirdə bağlı Ada kəndi xalqından və Bidayət Məhkəməsi üzvlərindən Hüseyin bəy ilə Məclis idarə üzvlərindən Şamil bəy xidmətçiləri olan ermənilər tərəfindən ailələrinin gözləri qabağında bir çox işgəncəyə məruz qoyularaq şəhid edilmişdilər. Hətta özlərinə də təcavüz edilmişdir. Daha sonra ailələrinin namusları kirlədilmiş, çox kiçik yaşda bir qız uşağının da namusu kirlədilmişdir. General-mayor İbrahim paşanın qardaşı Əhməd bəyin evinə gələrək ailəsinə "bizim adətimizdə örtülü gəzmək yoxdur, açıq olmalısınız və bizə açıq olmalısınız" dediklərini, lakin ailənin bu təklifi rədd etməsi üzərinə Əhməd bəyin böyük qızına təcavüz etdiklərini bu ailədən həyatda qalanlar böyük üzüntü ilə anlatmışlar."

Muşun işğalında erməni komitəçiləri qana susamış canavarlar kimi ətrafa hücum edərək topladıqları müsəlmanları vəhşicəsinə öldürmüşlər və: "İntiqam alırıq," - deyərək küçələrdə sevinc nümayişlərilə dolaşmışlar. Bu vəhşi çətələr qadınların namuslarını kirlədir, qocaları atəşdə yandırır, gəncləri qılıncdan keçirirdilər. Əşrafdan Hacı Murad və Reşid, Günaylı Hacı Məhməd, Cəfər, Timər, Abdullah, Yusuf, Məhməd xan və Nadir xan ağalar ermənilər tərəfindən qoyun kəsilən kimi kəsilmişlər. Ermənilər Varto qəzasının Ayaz bölgəsi içərisində Ceb-

rən Aş'ratlərindən Cundi ağaya mənsub 15 kənd xalqını aparıb Murad çayının, Göl Hazal deyilən gölünə atmışlar və onların qurtula bilməmələri üçün ayaqlarına ağır daşlar bağlamışlar.

Şəhərin ortalarına çəkilmiş müsəlman xalqına hücum edən erməni komitəçiləri qoca qadın və kişiləri uşaqlarla bərabər "Şeyxul-qərib" deyilən gəmiyə dolduraraq yandırmışlar. Gənc qadınların məmələrini kəsərək asmışlar. Anası yaralı bir uşağın ağzına anasının kəsilmiş məməsini verərək əmizdirmişlər. Elm adamlarından Şeyx Əbdülqafarın başının dərisi soyularaq şəhid edilmişdir. Baş hakim Mustafa bəy 15-20 erməni komitəçının mindən artıq uşağı mahnılarla və qabaqda qadınları rəqs etdirərək apardıqlarını, ayrıca Qərb körpüsündən Dikilidaşa qədər minlərcə qadın və kişi cəsədi gördüyünü, bunların böyük bir hissəsinin çox faciəvi bir şəkildə boğulduqlarını and içərək anlatmışlar.

KOMİSSAR MÜAVİNLƏRİ: 1. Mehmet
2. Ahmet
3. Kamil."

## ERMƏNİLƏRİN ƏRZURUM VİLAYƏTİNDƏ TÖRƏTDİKLƏRİ HADİSƏLƏR

1915-ci ildə İspir ruslar tərəfindən işğal edilmişdir. Ermənilərin satqınlığı və bilavasitə iştirakı ilə kişi və qadın türklər zülm və işgəncələrə məruz qalmışlar. Qadınlar təcavüzə uğradıqdan sonra öldürülmüşlər. Türk qruplaşmaları haqqında məlumat verməyənlər də süngülənərək öldürülmüşlər, sonra da boyunlarına ip salınaraq küçələrdə sürüklənmişlər.

Varvens, Eşkens, Şehmus, Hontuz, Mezherek vilayətlərindən yüzlərcə türk qadın və kişi müxtəlif işgəncələrlə qətliamlara tutulmuşlar. (201).

İspirdə də bu hadisələrin eynisini etmək üçün Hodiçorda toplanma zamanı bəzi ermənilər bura Bayburtdan silah-sursat

gətirmişlər. İspirlilər baş verən hadisələri törədən daşnak çətələrini öz imkanları ilə aradan qaldırmışlar.

Ərzurumdakı erməni təxribat və zülmü haqqındakı istintaq aparmaqla vəzifələndirilmiş komissiya aşağıdakı raportu vermişdir (202):

"24 may 1916-cı ildə, çərşənbə günü böyük bir kənd olan Quruqola çatdıq. Bu kənd ermənilər tərəfindən törədilən təxribatlar nəticəsində acıqlı bir xarabalıq mənzərəsi verirdi. Bu mənzərə törədilmiş vəhşiliklərin sanki dilsiz bir şahidi idi. Bu xarabalığı böyük bir təəssüflə danışdırmağa çalışarkən Mizqeyik kəndindən ailəsilə birlikdə köçüb gəlməkdə olan, təxminən 65 yaşlarında Qaya Mehmet adında bir qocaya rast gəldik. Bu zavallı, bədbəxt adam Mizqeyik kəndində erməni çətələri tərəfindən işlənən cinayətlərə məruz qalmamaq üçün Ərzincana köçürdü. Şahid olduğu faciələr haqqında məlumat istədik. O, and içərək bunları söylədi: "Qadın və uşaqları hücumlardan qorumaq üçün onları evlərdə, torpaq altındakı anbarlarda, buğda quyularında gizlətməyə məcbur olduq. Ermənilər müsəlman qadınları tapa bilmədikdə hiddətləndilər və ələ keçirdikləri kişiləri öldürdülər. Mizqeyik kəndindən İsmail adındakı bir qocanın süngü ilə qəbəyindən, Əsat adındakı oğlunun da qılınc zərbələri ilə boynundan vuraraq vəhşicəsinə şəhid etdiklərini, Sabitoglu Mədət və Əlioğlu ağa ilə Dursunoglu Hüsnünün də müxtəlif zülm və işgəncə ilə yox edildiklərini şəxsən gördüm. Hələ Dursunoğlunun zövcəsi İzzət xatunu elə əziyyətlər verərək öldürdülər ki, bunları unutmaq imkansızdır. Zavallı qadının sağ ayağını ədətan qiymə doğrayarcasına süngü ilə parçaladılar."

Qoca bunları danışarkən davamlı ağlayır, gördüyü o qorxunc faciələrin təsirilə həyəcanlanırdı.

Yetmiş yaşlarında olan 3-4 qoca, zülmə uğramış gənc bir qız və bir neçə qadından başqa sakini qalmayan Terpusek kəndinə 24 may 1916-cı ildə axşamüstü çatdıq. Bu kəndin qocalarından Səadət oğlu Musa ilə muxtar Hüseyin və Süleyman oğlu Hürrəm and içdikdən sonra gördükləri zülmü nəql etməyə başladılar:

"Ruslardan əvvəl Terpuseka gələn erməni çətələrinin apardıqları soyğun və qəsb ilə törətdikləri zülm və işgəncələr söyləməklə bitməyəcək qədər çoxdur. Ermənilər gənc kişiləri küçələrdə quduzmuş itlər kimi bir-bir qətl etməyə başladılar. Çirkin təcavüzlərdən sonra qadınlara iyrənc həqarətlər etdilər və vəhşi işgəncələr verdilər. Bunlar insanları qətl etməklə kifayətlənməyərək ərzaq, əşya, zinət pul və heyvanlardan nə tapdılarsa, götürüb apardılar. Öldürülməkdən qurtulan pərişan çocaları da Ərzuruma oturdular. Bir zamanlar Tercan hakimliyi etmiş mərhum Xalid bəyin zövcəsi – əlli yaşlarındakı Aişə xanım bütün zinətlərini verdikdən sonra namusunu qurtara bildi. Düşmənin bu kənddəki zülmünü görən qadınlardan 20 nəfərə yaxını qorxularından anidən vəfat etdilər. Rusiya komandirinə etdiyimiz müraciətlərimiz də heç bir nəticə vermədi. Çünki ruslar ermənilərin bu vəhşiliklərinə göz yumur, bəzən də onlarla birlikdə olurdular. Yenə bu kənddə Mikdalın zövcəsi Sürə xatun namusunu təcavüzdən qurtara bilmək üçün bütün sərvətini – otuz qızıl lirəni çətə rəisinə verdiyi halda, çətənin çirkin təcavüzündən qurtula bilmədi."

Bu ifadələri aldıqdan sonra oradan ayrıldıq. Şeki kəndinə gəldik. Bu kənddə taxribata uğramayan ancaq bir-iki ev qalmışdı. Rusların köməyilə ermənilərin işğalında olan bu kəndin anbarlarında heyvanlara aid nə varsa hamısı aparılmış, kişilər toplanaraq Ərzurum tərəfinə sürgün edilmişdilər. Daha sonra gələn Rusiya birliyinin komandiri Aslan adında Kazanlı bir müsəlman olduğuna görə burada namusa təcavüz edilməmişdisə də, ermənilər yenə orda-burda namusları kirlətməkdən geri qalmamışdılar. Dəmiroğlu Muradın zövcəsi Zeynəb, Əhmədoğlu Məhmədin zövcəsi Həvva, Yağızoğlu Məhmədin qızı Güllü, Bəşiroğlu Şakirin qızı Zəkiyyə, Yavili Hafizin qızı Fəhimə ilə Bəşiroğlu Rafətin zövcəsi Fəhimə namusları kirlədilənlərdən bəziləridirlər.

Namusunu qorumağa çalışan bir müsəlman qadın bomba ilə şəhid edilmişdir. Vaxtilə bir erməni qadınla onun razılığı ilə evlənən Yavili Hafizin süngü ilə gözlərini çıxarmış, zövcəsilə 15 yaşındakı qızını götürüb aparmışlar.

Bu kiçik kənddə də belə faciələrin baş verdiyini öyrəndikdən sonra tədqiqlərə davam etmək üçün buradan ayrıldıq.

Şəki kəndindən hərəkət etdiyimiz gün saat 10-da Göydaş kəndinə gəldik. Bu kənd də əvvəlki kimi ermənilərin hücumu və təcavüzlərindən qurtula bilməmişdi. Ermənilər bu kəndi işğal etdiklərində kənddə olan və bir tərəfə gedə bilməyən, bütün zülmü öz gözləri ilə görən Rəşid, Mahmud, Həsən, Mövlüd, serjant Hüseyin və Mövlüd ağa ilə digər bəzi qocalara and içdirilərək ifadələri alındı.

Onlar belə dedilər: "Ermənilərin Pasinlərə göndərdikləri 12 gəncdən üçü qaçaraq Göydaşa döndülər. Bunların ifadələrinə görə, aralarından iki gənc aclıqdan ölmüş, digər ikisi də süngü ilə parçalanmışdılar. Bu kənddə 8-9 yaşlarındakı qızlar da daxil olmaqla bütün qadınların namusları kirlədilmişdir. Mailin Hədiyyə adındakı gəlinini həftələrcə yanlarında gəzdirərək istifadə etmişlər. Zavallı daha sonra min bir çətinliklərlə qaçaraq yarıcan halında geri dönə bilmiş, başından keçən fəlakətləri ağlayaraq anlatmışdır. Kənddə 27 ev tamamən yandırılmışdır. Göydaş xalqı bu yaramazlıqları edən ermənilərin çoxunun Tərcanlı olduqlarını görmüşlər və bunları şəxsən tanıdıqlarını ifadə etmişlər. O cümlədən Andranik paşa adıyla anılan Kötürlü Aleksandr oğlu Andranik, Çilinizli Nişan, Armenak Tokonun oğlu Oluş, məsikoğlu Sahak və yoldaşlarını tanımışlar. Ermənilər kəndin camisini də taxrib etdikdən sonra tövləyə çevirmiş və kirlətmişlər. Beləcə, islamın müqəddəs yerlərinə də təcavüz etməkdən çəkinməmişlər. 7-8 yaşlarında olan üç qız uşaqlarının bəkarətləri pozulmuşdur."

Biz buradan Alırık kəndinə hərəkət etdik. Bu kəndin də zülm və haqsızlığın ən müdhişinə səhnə olduğu açıq bir şəkildə görünürdü. Kəndin əşrafından Məhməd bəy ilə bəzi kəndlilər and içərək gördüklərini böyük bir təəssüf içərisində belə anlatdılar:

"Ermənilər Quruqoldakı saray kimi evimi taxrib etdilər. 200 qoyunumu, bir çox böyük baş heyvanımı və 600 qızıl liradan ibarət pulumu və zövcəmin bütün zinətlərini qəsb etdik-

dən sonra əmim oğlu Macid bəy, dayım oğlu Ağaoğlu Əhmədı qoyunu kəsən kimi boğazlayıb kəsdilər. Əmimin 50 yaşındakı şikəst xanımını şəhid etdilər..."

Məhməd bəy bunları anladırkən kədərindən ağlayırdı.

"...Kənddə təcavüzə uğramayan heç bir qadın qalmadı. Ermənilər Dahil ağa Məhmədin nəvəsini və Əmir xanın qızını, Yasinin nəvəsini və Məhməd onbaşının Əsma adındakı 20 yaşındakı qızını bir müddət istifadə etdikdən sonra yanlarına alıb apardılar. Kəndimizin imamı molla Şükrü bəyin 8 yaşındakı qızı Fatmanı, yenə minbaşı oğlu Şakirin 8 yaşındakı qızı Nigarı, Sılığlı Əli Mustafanın 7 yaşındakı qızı Münəvvəri zorla alıb bakarəlini kirlətdilər. Yenə kəndimizdən 45 yaşlarındakı Əli oğlu Süleymanı qılınc zərbələrilə parça'adılar. 60 yaşındakı Kiçik Ömər oğlu Əhmədin xəstəliyini nəzərə almayıb ayaqları altında əzərək şəhid etdilər. Kəndimiz Andranik paşa adını alan Kotorlu Aleksandr oğlu Andranik və dostlarının bir çox yaramazlıqlarına məruz qaldı. Bizim gördüyümüz zülmü anlatmaqla bitirmək mümkün deyildir."

Məhməd bəy bunları anladırkən kəndlilər də göz yaşlarını tuta bilmirdilər. Hər bir ürəyin təhəmmül edə bilməyəcəyi bu acı mənzərələri gördükdən sonra buradan da ayrıldıq...

Saat 8.30-da Parsenik kəndinə gəldik. Burada da kəndlilərin ev əşyalarından, malqarasından heç bir şey qalmamışdı. Kənd sakinlərinin and içdikdən sonra verdikləri ifadələrə görə, ermənilər burada təcavüz etmədikləri qadın-qız buraxmadılar. Onlar işə yarayan kişiləri ayıraraq Ərzuruma göndərmiş, camiləri uçurmuş, qəbristanlığı dağıdıb yandırmışdılar. Musa oğlu Fəhim adındakı bir qoca kişi ikisini kürəyindən, birini də baldırından aldığı üç dərin bıçaq yarasını göstərdi. Ermənilər tərəfindən şəhid edilən Pasinli Kəlilin oğlu olduğu anlaşılan kiçik bir uşaq gəldi və ağlaya-ağlaya atasının necə şəhid edildiyini anlatdı. Məsum uşağın bu təsirli halını heç bir qələm ustası təsvir edə bilməz...

1916-cı il may ayının 28-də Tercan qəzasının mərkəzi Mamaxatun qəsəbəsinə gəldik. Qəsəbədəki evlərin beşdə dördü

dağıdılmış, caminin minbəri uçurdularaq kilsəyə çevrilmiş və minarəsinə "kolokol" taxılmışdı. Ermənilər bəzi Rusiya kazaklarıyla birlikdə evləri soymuş, bir çox qadın və qızın namuslarını kirlətmişdilər. Mamaxatunlu Bayramoğlu Ethemin, jandarma serjantı rəhmətlik Camalın, Dədə oğlu Hüseynin və bələdiyyə katibi Bəkir bəyin ailələrilə Kiraz adındakı digər bir qadına təcavüz etmişdilər. Bunlardan serjant Camalın zövcəsi namusunu müdafiə etməyə müqavimət göstərə bilmədikdə intihar etmişdir. Aşçı Səlimin evini dağıdıb mal-dövlətini qarət etmiş, özünü isə öldürmək istəmişlər, lakin onu tapa bilməmişdilər. Ermənilər digər kəndlərdə olduğu kimi, burada da bəzi gəncləri ayıraraq Ərzuruma ötürmüşdülər. Buradakı incələmələrimizi bitirdikdən sonra Jazavardık kəndinə getdik.

Jazavardık kəndində də ermənilər çox sayda təxribatlar törətmişdilər. Qız və qadınlara zorla təcavüz etmiş, ailələrini müdafiə etməyə çalışan yeddi kişini də uşaqlarıyla birlikdə şəhid etmişdilər. Şəhid edilənlər bunlardır: Sərvət oğlu Süleyman, Mustafa oğlu Durak, Süleyman oğlu Mahmud, Mustafa oğlu Dursun, Mail, Rüştü, Məhməd, bayburtlu Mustafa. Bunlardan Mustafanın zövcəsi Fethiyyəni, özünü müdafiə etdiyi üçün süngü ilə parçalamışlar. 12 yaşında olan Nuriyə, yenə o yaşdakı Munciroğlu Osmanın qızı Peluka, Arifin qızı on yaşındakı Kadiyyə, Osmanın zövcəsi Hüsniyə və Sərvətoğlu Süleymanın evində yaşayan gənc bir qadın ermənilər tərəfindən müxtəlif işgəncələrlə çirkin təcavüzlərə məruz qalmışlar. Kəndin qoca qadınları belə eyni iyrənc təcavüzlərə uğramışlar. Hər qadına 10-30 arasında erməninin təcavüz etdiyini bu zavallı qadınlar fəryad içərisində və and içərək anlatmışlar.

Biz bu kənddən də ayrılıb Aktaş kəndinə gəldik. Buradakı müxtəlif qocaların və həyatda qələ bilən bəzi qadınların and içərək anlatdıqlarına görə, ermənilər kənd muxtarı Ethem ağanın belini dibçək ilə qırmışlar. Bəzi qadın və qızlar dağlardakı mağaralarda gizlənərək namuslarını qorumağa müvəffəq olmuşlar. Ancaq xəstə olduğuna görə bir yerə çıxa bilməyən Zübeydə adında 15 yaşlı bir qız uşağı alçaqcasına kirlədilmişdir.

Zavallı qızcığaz kədərindən dəfələrlə intihara təşəbbüs etmişsə də, ona mane olmuşlar.

Bu zülm qarşısında ürəklərin sızlamaması mümkün deyildir. Heyətimiz bu kənddəki incələmələrini tamamlayaraq Həgik kəndində hərəkət etdi. Bu kənddəki cami ermənilər tərəfindən təxrib edilmiş, tövləyə çevrilmişdi. Burada rast gəldiyimiz bəzi kəndlilərin and içərək verdikləri ifadələrini qeyd etdik. Bu ifadələrə görə, kəndlilərin bütün əşya və mal-qarası tamamilə qəsb edilmiş və xalq arasından Xancər oğlu Həsən, Həsən oğlu Dursun, Həsənoğlu Məhməd ilə anası, Həsən oğlu İsmail, Hüseyin oğlu Əli, Həsən oğlu Xalıs və Həsən oğlu Məhmud müxtəlif zülm və işgəncə ilə şəhid edilmişdlər. Mustafa oğlu Osman, Durak qızı Səyyarə, Mustafa oğlu 9 yaşındakı Asır və Molla Mustafanın 8 yaşındakı qızı qılıncla doğranıb-parçalanmışlar. Mustafa bəy çiftliyində Məhməd Əli Durak, Rıdvan oğlu Hüseyin və Güllü şəhid edilmişlər. Bunlardan Güllü vəhşicə döyüldükdən sonra nizə ilə dəlik-deşik edilmişdir.

Buradakı zülmü də beləcə gördükdən sonra Pekriz kəndinə gəldik. Bu talesiz kənd də ermənilərin zülm və işgəncələrinin çox iyrənc şəkillərinə səhnə olmuşdur. Bütün mal və əşyalar dağıdılmış, cami təxrib edilmiş, kirləndirilmişdir. Hər tərəf hunharca verilən zülmlərə dəlalət etməkdə idi. Xalqdan rast gəldiyimiz bəzi kəslərin and içdikdən sonra verdikləri ifadələr belədir:

"Düşmənlə birlikdə kəndə girən ermənilər Qaraçaylı Əmrah ilə Mahmudun biri 6, digəri 7 yaşlarında olan iki məsum uşaqlarını alıb kilsə qapısının ağzında qoyun kəsən kimi vəhşicəsinə kəsdikdən sonra uşaqların kəsik başlarını kilsə tərəfinə, bədənlərini isə qapının önünə buraxdılar. Qocalardan Fəttahın oğlu Əhmədi, Mirinin oğlu Əhmədi, Əhmədin oğlu Xilafəti, Onbaşı Akoğlu Qayanı, Ciddəli Məhmədi, Mehin oğlu Mollanı, serjant Məhmədi və oğlu Osmanı, Hafizin oğlu Xəlili, Dəllalın oğlu Səbrini və 7 yaşındakı oğlu Haqqını, Mustafanın oğlu Zihnəyi, Yusufun oğlu Mevcudu və 4 yaşındakı qardaşı Əyyubu; qadınlardan Altındaşlı Mövlüdün anasını; qızlardan Şeyx Bəşi-

rin 15 yaşındakı qızını, Mustafanın 6 yaşındakı qızı Fatmanı, Qarslı Bahrinin 8 yaşındakı qızı Naiməni və digər 4 yaşındakı qızı Əsməri çox qorxunc bir şəkildə şəhid etdilər. Pekriçli Əhməd bəyin evinə iltica edib gizlənən 150-yə qədər qadın bu adamın ailəsinin və Mamaxatunlu Mustafanın biri 12, digəri 14 yaşındakı iki qızını, Qaraçaylı Səlimin bir qızını, muxtar Molla Şükrünün yeddi yaşındakı qızı və bir çox qadının, qızın namusu çox sayda erməni tərəfindən kirlədildi. Bunlardan özlərini təslim etməyən dörd qadınla 30 yaşındakı İzzət Xatun adında bir qadının boğularaq quyuya atıldıqları anlaşılmışdır. Bu anladılanlar Molla Şükrü ilə dostlarının böyük bir təəssüflə anlatdıqları hadisələrdən alınmışdır. Heyətimiz kəndə çatdığı zaman anladılan yaramazlığın qurbanı olan İzzət xatunun kəsilmiş başı hələ dururdu. Bu zavallı qadının bir yaşındakı məsum qız uşağının barmağındakı üzüyü almaq üçün barmaqlarını kəsmişdilər. Bu kəndin qocalarından Dursun ağa adındakı adamı boynuna taxdıqları bir ip ilə quyuda başı aşağı asmışlar və öldürəcəklərini söyləyərək ondan pul istəmişlər. Qoca adam olan-qalan pulunun hamısını verdiyi halda, ermənilər bir çox işgəncədən sonra boynunun arxasından kəsməyə başlamışlar və nəyə görəsə, tam kəsmədən orada buraxmışlar.

Biz bu şəxsi boynundakı o qorxunc yara ilə kənddə dolaşarkən gördük. Bu kənddə işlənən zülmün həddi-hüdudu yox idi.

Ilıca Nahiyesi Müdürü Vilayət Hukuk Muşaviri
ŞÜKRÜ KEMAL"

Hınıs xalqından Cənab Əli və Hacı Yusuf ilə Cənab Tofiq oğlu Yaqubun and içdikdən sonra ürək ağrısıyla verdikləri ifadələr belədir:

"Ruslara öncülük edən ermənilər uğradıqları kəndlərdəki kişiləri tamamən qətl etdilər. Qadınlara qarşı da təcavüz və qeyri-adi alçaqlıqlar törətdilər. Uşaqlarla qocalar belə bunların zülm və vəhşətlərindən qurtula bilmədilər. Bəzi aciz qadınları

evlərə doldurаraq atəşə verdilər. Hamilə qadınların uşaqlarını süngülərə taxaraq nümayiş etdilər. Ermənilərin bu vəhşiliklərinə onların hücumlarından həyatlarını qurtaran yüzlərcə insan şahiddir. 500 nəfərdən artıq qoca kişi, qadın və uşaqlar bir qrup erməni və ruslar tərəfindən Arpadərəsi adındakı bir yerə götürülmüşlər və orada güllələnərək vəhşicəsinə öldürülmüşlər."

Erməni çətələrinin zülm və işgəncələrindən birini göstərən bu hadisə hüzurumuzda anladılmışdır.

Polis komussarı Jandarma taburu kom. vəkili
İSMAİL MEHMET"

Hınıslı Hacı Cəfər ağanın oğlu Hacı İsa, Dəllal Əli və Qəhvəçi Xeyrəddinin and içdikdən sonra verdikləri ifadələr:

"Əsgərlərimiz çəkildikdən sonra erməni çətələri Rusiya ordusunun öncüləri olaraq qəsəbəyə girdilər. Bu vəhşi insanlar əllərinə keçirdikləri müsəlman kişiləri qudurmuşcasına öldürür, qadınlara təcavüz edir, məsum bakirə qızlara açıqdan-açığa cumurdular. Bu erməni çətəsinə mənsub fərdlərdən bir neçəsi Fatma adında bir qadının qucağında süd əmən uşağını atəşə atmış və kabab halına gələn uşağı bədbəxt anadan yeməsini istəmiş, yeməzsə onu ölümlə təhdid etmişdilər. Müsəlman qadınlardan gözəl olanlarla gənc qızları ayıraraq namuslarına təcavüz edə-edə Rusiyaya doğru apardılar. Qəsəbəmizdə qalan insanlara verilən zülmləri anlatmaqla bitəcək deyildir."

ÜZV ÜZV Ergene Müdiri Adından
MEHMET HANEFİ YASİN HÜSEYİN HÜSNÜ"

## VALİLİK TƏDQİQATI

Ərzurum vilayəti daxilində Rusiya ordusuna öncülük və rəhbərlik edən erməni çətələrinin törətdikləri zülm və qeyri-insani hadisələr haqqında valilik tərəfindən bir tədqiqat aparılmışdır. Bunu xülasə olaraq aşağıya alırıq:

"Rusların işğal etdikləri sahələrdə erməni çətələri acı bir tarix yazmışlar. Başlanğıcda ordumuzun irəliləməsi nəticəsində əsl sərhəddə çəkilən rus əsgərləri pasinlər xalqından iki mindən artıq müsəlmanı özlərilə aparmışlar. Bunların bir qismi ermənilər tərəfindən öldürülmüş, bir qismi də içərilərə göndərilmişdir. O zamanlarda Səlimli kəndinə girən bir erməni çətəsi kənddə nə qədər bəkirə qız varsa, hamısına təcavüz etdikləri kimi özlərinə təslim olmayan Rəşid bəyin gəlinini öldürmüş, qayınanasını da yaralamışlar. Ərəb, Ardos və Üzveran kəndlərində 53 müsəlman cənazəsini öz gözlərimizlə gördük. Ərzurumun işğalından sonra Rusiya işğalına məruz qalan yerlərdə bilavasitə ermənilər tərəfindən törədilən zülm və işgəncələr dəhşətli bir yekun təşkil edir. Ərzurumdan, Aşqaladan və Tercandan qaçıb gələn Rəşid və yoldaşlarının verdikləri məlumatlara görə, əksəriyyəti erməni çətələrindən əmələ gələn Kazak dəstələri Aşqala, Rayıcə, Tercan qəzalarında nəyə rast gəlmişlərsə, hamısını qəsb etmişlər. Hevik kəndi ilə Pekriç Nahiyyəsində başda imam olduğu halda, yüzdən artıq müsəlman qadına təcavüz etmişlər. Rusların öncü güclərinin erməni süvarilərindən meydana gəldiyi anlaşılmışdır. Perkiç Nahiyyəsində ermənilərin qurduqları və məhkəmə adını verdikləri Zalım heyətinin aldığı qərarlarla Tercan və ətraf kəndlərindən üç-dörd yüz adam edam edilmişdir..."

Tiflisə gələn Rum köçərilləri 12 mart 1918-ci ildə Ərzurumdan qaçan ermənilərin Qars və ətrafında törətdikləri zülmü belə anladırdılar: "Ərzurumu qurtarıb irəliləyən türk ordusu qarşısında çəkilən erməni əsgərləri və silahlı əsgər qaçaqları yol boyunca baş çəkdikləri türk kəndlərini yer üzündən silərək hər şeyi atəş və qılıncdan keçirir və düşünülməsi belə imkansız bir vəhşət göstərişi edirdilər. Erməni ordusunun döyüş qənimətləri süngü ucuna taxılmış südəmər uşaqlarla çılpaq soyundurduqları qadınlar idi.

Bu cəhənnəm acılarını görərək dəli olmuş qadınlarla uşaqların ürəkləri parçalayan fəryadlarını və yaşlıların ümidsiz ağlamalarını dinləyə bilmək üçün insanüstü bir əsəbə sahib olmaq

lazımdır. Sarıqamışdan Arpaçaya qədər Qars vilayətindəki 82 kəndin mənzərəsi bu idi.

Məsesyan ilə General Aroşovun törətdikləri vəhşət və qətliamlar Rusiya kazaklarının 1915-ci ildə Çıldır, Ardahan, Golə, Hanak, Oltu, Sarıqamış və Qarsda üç ay boyunca törətdikləri canavarlıqları unutdurmuşdur. (203).

Rusiya erməni məsələsilə Türkiyəni yararsız hala gətirmək, Türkiyə üzərindəki əməllərini ermənilərdən istifadə edərək həyata keçirmək istəyirdi. Birinci Dünya müharibəsi başlamadan əvvəlki rus siyasəti milli erməni hərəkatının Osmanlı səltənətinin parçalanmasını asanlaşdıracaq və Rusiyanın Şərqi Anadolu vilayətlərini ələ keçirməsini hazırlayacaq bir vasitə olaraq görmüş və hətta bu hərəkatı qismən də olsa özü meydana gətirmişdi. Rusiya digər dövlətlərin də razılığını aldıqdan sonra Şərqi Anadoluda 6 vilayətin birləşdirilməsi təklifini irəli sürdü. Rusiya bu planı ilə erməni azlıq hakimiyyətini müsəlman çoxluğun hakimiyyəti səviyyəsinə gətirmək istəyirdi. Əgər ruslar bu vəziyyəti yarada bilsəydilər, şübhəsiz ki, onlar "ermənilər üçün" başqa şeylər də istəyəcəkdilər.

Rusiyanın islahat istədiyi vilayətlərdə ermənilər, həqiqətən, azlıqda idilər. Ermənilərin bu vilayətlərdəki faizinin ortalama yüzdə 21,3 olduğu ortaya çıxmışdı. Görünən o idi ki, bu faizi 50-dən artıq hala gətirmək çox çətin idi. Məhz buna görə idi ki, ermənilər yüzillərcə yan-yana yaşadıqları türklərlə vəhşicəsinə rəftar edir, onlara qarşı ağlasığmaz şiddətdə cinayətlər törədir və o vilayətlərdə yaşayanları qorxudaraq, onları öz vilayətlərini tərk etməyə zorlayırdılar. Görəsən, haqq, ədalət və demokratiyanın "çempionu" olan İngiltərə və Fransa bu haqsızlığa necə "səs" verirdi. Həqiqət budur ki, haqq, ədalət, demokratiya ingilis və fransız müstəmləkəçiliyinin maskası idi. Heç şübhəsiz, onların mənfəətləri bitdiyi zaman hər şey bitəcəkdi...

Almaniya II Əbdülhəmid zamanında erməniləri dəstəkləmədiyi kimi ittihadçı iqtidarlar zamanında da dəstəkləmədi. Sultan II Əbdülhəmidin siyasəti erməni məsələsində Almaniyanı Rusiya, İngiltərə və Fransadan qoparmağı bacarmışdı. It-

ittihadlar zamanında da Türkiyənin müttəfiqi olan Almaniya ermənilərə dəstək vermədi. Bu vəziyyət bir az da ermənilərin mövcud statusu və islahatlarla gətirilmək istənən şəraitin öz mənfəətlərinə qarşı olduğundan irəli gəlirdi. Buna baxmayaraq, almanların ermənilərə qarşı ümumi siyasətləri erməniləri öz idarələri altına almaqdan da geri qalmamışdır. Birinci Dünya müharibəsi davam edərkən ruslar və ingilislərin erməniləri istifadə etmələrindən qorxan almanlar Adana və İskəndərun bölgəsindəki erməniləri qazanmağa çalışmışdılar. (204).

Lakin onlar passiv qalıb, bu yolda müttəfiqləri olan Türkiyəni çətinə salmamaq üçün bu mövzuda aktiv bir çalışma aparmamışlar.

Balkan müharibəsindən sonra Rusiyanın erməni məsələsinin lideri olması erməni komitəçilərinin Rusiyaya olan bağlılıqlarını artırmış, Rusiyanın öz hakimiyyətində olan ermənilər üzərindəki təzyiqlərini və ruslaşdırma əməliyyatlarını unudan komitəçilər əməllərinə Rusiyanın dəstəyilə çatacaqlarını düşünmüşlər. Bu istiqamətdə onlar Birinci Dünya müharibəsini fürsət bilərək "Rusiyanın bu müharibədən müzəffər çıxması üçün bütün qüvvələrini istifadə etməyə başlamışlar. (205). Rusiya isə öz hakimiyyətində olan erməniləri ruslaşdırma fəaliyyətlərini bir an belə yüngülləşdirməmiş, Türkiyədəki ermənilərə qarşı qurtarıcı təbliğatını sürdürmüş, hətta onlara pul paylamağa başlamışdır. (206). Bu da erməni komitəçilərini Rusiyanın işğalçı siyasətinə alət olmağa vadar etmişdir.

Rusiyanın Bitlis konsulunun İstanbuldakı Rusiya səfirinə yazdığı 6 yanvar 1913 tarixli raportundan daşnakların Rusiyaya olan marağını və rus müdaxiləsini meydana gətirmək üçün müraciət etdikləri metodları öyrənirik: "Erməni millətinin ümumi vəziyyətinin bu hala gəlməsində daşnaksütyun cəmiyyətinin rolu böyükdür. Bu cəmiyyət ermənilərlə müsəlmanlar arasında yaradılacaq qarşıdurma nəticəsində meydana gələcək fəlakətli vəziyyət səbəbilə Rusiya dövlətinin müdaxiləsini və yaşadıqları məmləkətin rus əsgəri tərəfindən işğalını inadkarlıqla hazırlamağa çalışır...

Bu məqsədlə daşnaklar müxtəlif metodlardan istifadə edərək ermənilərin müsəlmanlarla, xüsusilə də Osmanlı əsgərləri ilə konflikt etmələrinə çalışırdılar. Məsələn, Bitlis və Muşdakı daşnak komitəsi dəhşət və həyəcanverici vəziyyətin yaranması üçün bazardakı erməniləri dükanlarını bağlamağa sövq etmişdilər. Yenə onlar bir erməni fədai çətəsi təşkil etmiş və bu çətə Hizan qəzasında oktyabr, noyabr aylarında uzun-uzadı dolaşdıqdan sonra öldürdükləri daşnaksütyun tərəfdarı və erməni məktəbinin müfəttişinin intiqamını almaq üçün bir neçə kürdü öldürmüşdür. Məqsəd müsəlmanların daşnaklara qarşı çıxmalarını təşviq etmək idi.

Türkiyənin Birinci Dünya müharibəsinə girdiyi günlərdə daşnak komitəsi tərəfindən Şam şöbəsinə yazılan bir məktubda müharibə əsnasında ermənilərin ruslarla necə işbirliyi edəcəyi belə anladılırdı: "Ruslar sərhəddi keçib Osmanlı orduları geri çəkilməyə başladığı zaman mövcud vasitələrdən istifadə edilmək surətilə hər tərəfdə ümumi bir üsyan çıxarılmalıdır. Belə olduqda Osmanlı ordusu iki atəş arasında qalacaqdır. Bütün rəsmi binalar uçurulacaq, hökumət dairələri işğal olunacaq və alman nəqliyyatına hücum ediləcəkdir. Osmanlı ordusu bunun üzərinə irəlilədiyi təqdirdə erməni əsgərləri silahlarıyla birlikdə bölümlərini tərk edəcəklər və çətə təşkil edib ruslarla birləşəcəklər." (207).

Türkiyə müharibəyə girdikdə Rusiya çarı Tiflisə gəlmişdi. Erməni katolikosu V Gevork bunu fürsət bilərək çarın hüzuruna çıxıb onunla bir görüş keçirdi. O, nitqinin bir bölümündə belə deyirdi: "...Türkiyə ermənilərinin qurtuluşu onların özlərini türk hakimiyyətindən ayıraraq müstəqil bir Ermənistan qurmalarından və bunu böyük Rusiyanın qüdrətli himayəsinə verməkdən keçir. Türkiyə ermənilərindəki müstəqillik düşüncəsi o qədər qəti bir haldadır ki, bütün milləti canlandıran, yaşadan yalnız bu fikirdir. Bu müstəqilliyin həyata keçməsi isə Çar həzrətlərinin uca buyruğuna bağlıdır. Əgər siz indidən Türkiyə Ermənistanının gələcəkdəki təşkilatı haqqında arzularınızın ifadəsini lütf etsəniz, bütün erməni millətı sonsuz bir xoşbəxtliyə

qovuşacaqdır və yenə bütün Türkiyə ermənilərinin qəlbi istər yüksək şəxsiniz, istər böyük Rusiya haqqında dərin bir minnətdarlıqla dolu olacaqdır." (208). Rusiyanın çarı Gevorkun bu çıxışından son dərəcə məmnun olmuş və yayınladığı bu bildiri ilə bütün erməniləri Rusiya ilə birlikdə türklərə qarşı savaşmağa çağırmışdır:

"Ey ermənilər!

Şərqdən Qərbə qədər Böyük Rusiyanın bütün xalqı mənim çağırışımı hörmətlə qəbul etdi.

Ey ermənilər!

Beş əsrdən bəri bir çoxlarınızın altında əzildiyi və hələ əzilməkdə olduğu zülmkardan qurtulub hürriyyətə qovuşacağınız saat gəlmişdir. Ruslar ermənilərin Rusiyaya qarşı hərəkətlərini iftixarla xatırlayırlar. Lozanovlar, Melikovlar və bunlara bənzər ermənilər slav qardaşlarının yanında Vətənin yüksəlməsi üçün müharibə etmişlər. Bu böyük gündə də bütün vəzifələrinizi sarsılmaz bir iman və qənaət ilə yerinə yetirərəyiniz, haqlı olan davamızla silahlarımızın qəti bir şəkildə zəfər qazanmasına çalışacağımıza əsrlərdən bəri olan sədaqətiniz mənim üçün bir dəlildir.

Ey ermənilər!

Çar hökuməti altında qan qardaşlarınızla birləşərək hürriyyət və ədalət nemətlərinə layiq görüləcəksiniz." (209).

Rusiya Birinci Dünya müharibəsində İngiltərə və Fransanın müttəfiqi olmuşdur. Bu üçlü ittifaq Türkiyəni məğlub etmək üçün hər yola baş vurmuşdur. Ermənilər Rusiyanın aktiv istifadəsində olmuşlar. Müharibə sürəsincə ingilislər və fransızlar da erməniləri Türkiyəni məğlub etmənin bir vasitəsi olaraq istifadə edəcək və onlara öz yardımlarını əsirgəməyəcəkdilər. Türkiyədəki komitəçilərin ən səmimi dostları, ağılverənləri İngiltərə, Rusiya və Fransanın konsulları olmuşlar. Ən əhəmiyyətli məsələlər komitəçilərlə Rusiya konsulluğunda müzakirə olunmuşdur. Komitəçiləri burada himayə və təşviq edən Rusiya hökuməti bunları öz torpaqlarında edama məhkum etmiş, ölkə içərisində yaxalandıqları zaman dərhal öldürülmələri

üçün qərar çıxarmış və sərhədlərini komitəçilər üçün bağlamışdı." (210).

İşin qəribliyinə baxın ki, Rusiyada rus təzyiqi, ruslaşdırma hərəkatlarına qarşı çıxdıqları üçün edama məhkum edilən komitəçilər Türkiyədə rusları xilaskar kimi qarşılayırdılar. Əgər Rusiya ermənilərı "qurtarmaqda" və müstəqil Ermənistanı qurmaqda səmimi idisə, bu komitəçilər əvvəl rusların erməniləri niyə ruslaşdırdıqlarının və niyə Rusiya ermənilərinə müstəqillik vermədiklərinin hesabını sormalı deyildilərmi? 1914-cü ilin avqust ayında erməni katolikosu V Gevork Rusiya Çarından Türkiyədəki bir ovuc erməni azlığın müstəqilliyini istərkən, görəsən, Rusiyadakı ermənilər müstəqildilərmi? Xeyr! Bəs onlar niyə Rusiyadan müstəqillik istəmirdilər? İstəyə bilərdilərmi?

Rusiya heç bir zaman müstəqil bir Ermənistan istəməmişdir. Ruslar ancaq erməni məsələsini ortaya ataraq Şərqi Anadolunu işğal edib ermənilər vasitəsilə İskəndərun körfəzinə enmək istəmişlər. Rusiya qurulacaq bir müstəqil Ermənistan dövlətini müstəqil Bolqarıstan kimi isti dənizlərə enmə yolu üzərində bir əngəl olaraq görmüş, buna görə özünə tabe bir Ermənistan istəmişdir. Bunu Rusiyanın sənədlərindən anlamaq, hadisələrin inkişafından açıqca görmək mümkündür. 1916-cı ildə Rusiyanın Xarici İşlər Naziri Sazanov Qafqaz kral naibi olan Böyük Hersoq Nikolay Nikolayeviçə yazdığı bir məktubda belə deyirdi: "Bilindiyi kimi, bizdə erməni məsələsini həll etmək üçün iki yol düşünülmüşdür: biri 1913-cü ildə bizə təklif edilən ölçüdə ermənilərə tam bir muxtariyyət vermək, digəri də buna qarşılıq olaraq ermənilərin siyasi əhəmiyyətini sıfıra endirmək və onların yerinə müsəlmanları keçirmək. Mənə elə gəlir ki, erməni məsələsinin istər o cür, istər bu cür həll olunması istər daxili, istərsə də xarici siyasət baxımından Rusiyanın mənfəətlərinə uymaz." (211).

Moskva panslavist cəmiyyətinin rəisi General Spiridoviç 1913-cü ildə yayınladığı "L'Europe Sans Turquie" adlı əsərində erməni məsələsinin həlli üçün dörd alternativin olduğunu ya-

zırdı: Avropa kontrolunda türk islahı, müstəqillik, yarı-müstəqillik və Rusiyaya qatılmaq. Spiridoviç ermənilərin Rusiyaya qatılmasını övür və belə deyirdi: "Rusiyaya qatılmaq ermənilərin rifahı və xoşbəxtlikləri, gələcəklərinin təmin olması üçün yeganə çarədir." (212). Sonra ruslar Birinci Dünya müharibəsi zamanında öz müttəfiqləri olan İngiltərə və Fransaya Türkiyə ilə əlaqəli bazarlıqlara "Türkiyə Ermənistanı" olaraq adlandırdıqları Şərqi Anadoluda heç bir zaman müstəqil bir "Ermənistan dövləti"nin qurulmasına icazə verməyəcəklərini bildirmişdilər. Əgər belə bir dövlət qurulacaqsa, bunun mütləq Rusiyanın nüfuzu altında olmasının üstündə qətiyyətlə durmuş, adı keçən bölgənin Rusiyaya birləşməsini müttəfiqlərinə qəbul etdirmişdilər. (213).

Ruslar Birinci Dünya müharibəsi davam edərkən ermənilərin gücündən maksimum istifadə edib Vanı işğal etdikdən sonra "ermənisiz Ermənistan" gizli siyasətlərini açığa vurmaqdan çəkinmədilər. Artıq rusların ermənilərin yardımına ehtiyacları qalmamışdı. Onlar ermənilərə dirsək göstərməyə, onların məskun olduqları yerlərə rus kazaklarını yerləşdirməyə başladılar: "Rus orduları ermənisiz bölgələri ələ keçirdikcə yerlərindən çıxarılmış ermənilərin oralara geri dönüb istər öz yerlərinə, istərsə də türk ordusu ilə birlikdə çəkilmiş müsəlman vətəndaşların yerlərinə yerləşmələrini əngəlləmiş və orada rus kazaklarını yerləşdirməyə davam etmişlər... Qısacası, "erməniləri türk boyunduruğundan" qurtarmaq deyimi ilə "Rusiyaya yeni torpaqlar qatmaq" proqramı həyata keçirilmək istənirdi." (214). Müstəqil Ermənistan dövləti ancaq 1917-ci ildə bolşevik ixtilalı ilə çarlığın dağılması nəticəsində əmələ gələn qarışıqlıq və avtoritet boşluğundan faydalanılaraq 1918-ci ildə qurulacaqdı. Lakin bir müddət sonra bu dövlətə sovet ordusu tərəfindən son veriləcək və ermənilər yenidən Rusiyaya bağımlı hala gətiriləcəkdi.

Ermənilər var gücləriilə Rusiyaya sarılıb ona dəstək olmuşlar ki, bəlkə onun sayəsində müstəqil bir dövlət qurələr. Rusiya isə ermənilərin bu zəifliyindən istifadə edərək Türkiyəni çö-

kəltmək uğrunda ermənilərı istifadə etməyə çalışırdı. Rusiya Türkiyədən qaçan erməni komitəçiləri ilə Rusiyada olan ermənilərdən türklərə qarşı savaşacaq erməni dəstələri qurdu. Rusiya ordusundakı erməni dəstələrinin komandanlığı erməni əsilli General Nazarbəyova verildi. (215). "Ermənilər müharibənin ilk günlərindən etibarən Rusiya ordusu ilə birləşmək qayəsilə Qafqazdakı Rusiya məqamlarıyla təmasa keçmək və onlardan yardım istəmək yolunu tutmuşdular. Van, Bitlis, Muş ilə Şərqi Anadolunun digər bölgələrində olan ermənilər ruslarla birləşmək üçün keçəri dəstələr halında rusların olduqları bölgələrə keçdilər. Bu ermənilər rusların olduqları bölgələrdə General Andranik ilə İsxaq komandanlığında üç piyada batalyonu təşkil edildi. Bu batalyonlar müharibə boyunca ruslarla bərabər vuruşmuşlar." (216). Rusiya ordusundakı könüllü erməni dəstələri türk ordusu ilə çarpışarkən hərəkat bölgələrindəki ermənilər də türk ordusunu arxadan vururdular. Bununla əlaqəli olaraq Hikmət Bayur fransız minbaşısı Larçherin "La Guerre Turque Dans ile Guerre Mondiale" adlı əsərinin 395-ci səhifəsində bunları yazır: "Hərəkat bölgəsindəki ermənilər açıqdan açığa ruslarla birləşmişdilər..." (217). Beləcə, ermənilər rusların xidməti altına girmişdilər. Onlar hər yerdə türkləri vurmağa başlamışdılar. Xüsusilə Van, Adicevaz və Tatvan bölgəsinin ruslar tərəfindən işğal edildiyi zaman ermənilər müsəlmanlarla vəhşicəsinə davranmış, onları açıqdan-açığa qətl etməyə başlamışdılar. Ermənilərin ruslarla döyüşən türk ordusunu arxadan vurmaları türk hökumətinin səbrini daşırmışdı. Rus ordusunun varlığına güvənərək müsəlmanları qətl edən və türk ordusunu arxadan vuran ermənilərə qarşı bir tədbir olaraq 14 may 1915-ci ildə köç etdirmə qanunu çıxarıldı. Bu qanunun maddələri beledir:

"**Maddə 1.**

Səfərbərlik zamanı ordu, artilleriya və diviziya komandanları və bunların vəkilləri, müstəqil bölgə komandanları, xalqdan, hökumətin əmrləri, məmləkətin müdafiəsi və asayişin qo-

runması ilə əlaqəli icraat və hazırlıqlara qarşı hər hansı bir müxalifət, silahlı təcavüz və müqavimət görülərsə, bu müxalifləri ən şiddətli şəkildə söndürməyə məcburdur.

**Maddə 2.**

Ordu, müstəqil artilleriya və diviziya komandanları əsgəri səbəblərə görə və ya casusluq, xəyanətlərini hiss etdikləri kənd, qəsəbə xalqını bir-bir və ya cəm halında digər bölgələrə sövq etdirə bilər.

**Maddə 3.**

Bu qanun nəşr tarixindən etibarən keçərlidir."(218).

Bu qərar 24 aprel 1915-ci ildə alınmış, 14 may 1915-ci ildə qanunilaşib qüvvəyə minmişdir.

Bu qanun çıxarılmasa idi, vəziyyət necə olardı? Bu sualın cavabını qanunun çıxarıldığı il Suriyada 4-cü ordu komandanı Camal paşadan oxuyaq: "...Ancaq bunu qəti bir imanla bilirəm ki, ermənilər Qafqaz ordumuzun arxalarını təhlükədə qoyaraq ordunun tamamilə pozulmasına səbəb olacaq təşəbbüslərdən geri durmamışlar. O dərəcədə ki, bütün Osmanlı Vətənini təhlükəyə soxacaq və Anadolunun ruslar tərəfindən istilasına səbəb olacaq bir ümumi fəlakətə imkan verməkdənsə, erməni millətini zərər verməyə səlahiyyətli olmayacaq bir sahəyə köçürməyi dostlarım uyğun görmüş olacaqlar." (219).

Qədirşünaslığa baxın ki, köç qanunundan sonra ermənilər müharibə bölgələrindən arxadan xəncərlədikləri, daxildən dağıtmağa çalışdıqları və cəbhədən vurduqları türk ordusunun himayəsində Mesopotamiya və Suriya kimi sakit bölgələrə köçürülmüşlər.

Bu zamanlar ermənilərin qətl edilməsinə dair Osmanlı hökuməti tərəfindən nə əmr verilmişdir, nə də ermənilər qətl edilmişlər. Ermənilərin "Türklər 1915-ci ildə 1,5-2,0 milyon ermənini qətl etdilər" iddiaları tamamilə bir uydurma əsəridir. Bu iddiaların uydurma olduğu buradan da bəllidir ki, yuxarıda

verdiyimiz aşadı malumata görə, ermənilərin Türkiyədəki sayı təxminən 1.300.000 olmuşdur.

Əksinə, Şərqi Anadoluda bütün müharibə bölgələrində ermənilər Rusiya ordusu ilə birlikdə yüzminlərcə müsəlmanı vəhşicəsinə qətl etdilər. Yüzminlərcəsi də yerlərindən yurdlarından çıxarıldılar. Bunlar Anadolunun daxilinə doğru qaçırdılar. Erməni və rusun hədəfi qətliamlar və köçə zorlamalarla Şərqi Anadoluda bir nəfər belə müsəlman buraxmamaqdı. Bu plana görə, ermənilər Şərqi Anadoluda bir müsəlman belə buraxmayıb, bu bölgədə azlıqdan çoxluğa keçmək istəyirdilər.

Ruslar isə ermənilərin xəbərləri olmadığı halda, 1915-1916-cı illərdə müttəfiqlərilə keçirilən görüşlər nəticəsində özlərinə verilən Şərqi Anadolunun böyük bir bölümündə müsəlmanın varlığını sıfıra endirib buralara kazakları yerləşdirmək istəyirdilər. Bu tarixlərdəki müzakirələrdə müttəfiq dövlətlər ermənilərdən istifadə etmək uğrunda dillərinə dolADıqları "Müstəqil Ermənistan" vədini unutmuş,"Ermənistan" dedikləri bütün bölgəni ruslara peşkəş etmişdilər. (220). Ermənilər isə bu dövlətlərin gücünə güvənərək müstəqillik ümidilə hər şeydən əvvəl ruslara yardımçı olmaq üçün İngiltərənin və Fransanın ordu birliklərinə könüllü olaraq qoşulub böyük bir fədakarlıqla türklərə qarşı vuruşurdular. (221). Onlar müqavilələ dövlətlərin özlərinə olan ikiüzlülüklərindən xəbərsizdilər. Gözübağlı uçuruma gedirdilər, milli varlıqlarını əsrlərdir qorumuş, onları qanadları altında şəfqətlə himayə etmiş türk millətinin fərdlərini qətl etməyə çalışırdılar. Rus ordusu Şərqi Anadoluda qaldığı müddətcə bu qətliamlar davam etmişdir. 1917-ci il ixtilalından sonra rus ordusunun Şərqi Anadolunu tərk etməyə başlaması üzərinə ermənilərin qətliamları faciəvi bir hal almışdı. Hadisələrə şahid olan rus podpolkovniki Xlebovun xatirələrindən oxuyaq: "Ərzincandan Ərzuruma çəkilərkən erməni hərbi sürüləri yolların üzərində olan müsəlman kəndlərini əhalisi ilə birlikdə məhv etmişdilər... İlıca qəsəbəsindən qaça bilməyən türklərin hamısının öldürülmüş olduğunu və küt baltalarla boyunlarından kəsilmiş bir çox uşaq cəsədlərini gördüyünü Ər-

zincirdən Ərzuruma dönduyu zaman şəxsən Odişelidze söylədi." (222). İlıca qətliamından üç həftə sonra, 11 mart 1918-ci ildə oradan dönən podpolkovnik Griaft da gorduklərini belə anladır: "Kəndlərə gedən yollarda orqanları təxrib edilmiş bir çox cəsədlərə rastlanmışdır. Hər keçən ermənı bu cəsədlərə bir dəfə söyər və tupurərmiş. camının 319 kv.m.həyətində üst-üstə iki arşın (142 sm) yüksəklikdə cəsədlər yığılmışdı. Bunların arasında hər yaşda kişi, qadın və uşaqlar vardı. Qadın cəsədlərində zorla təcavüz izləri bəlli bir halda idi. Bir çox qadın və qızların cinsiyyət uzvlərinə tüfəng fişəngi soxulmuşdu (223).

Birinci Dünya müharibəsinin sonunda Şərqin ən böyük şəhəri olan Ərzurumdakı mənzərə erməni zülmünü bütün dəhşətilə təkbaşına ortaya qoymağa kafidir. Muharibədən əvvəl 80 min əhalisi olan Ərzurumun əhalisi xeyli azalmışdı. Belə ki, ermənilər bu şəhərdən çəkilərkən təxminən 10 min müsəlmanı öldurmuşdülər. Şəhərdə qılıncdan qurtulan 3-4 min nəfər adam qalmış, qalanı ata-baba yurdundan qaçmaq məcburiyyətində olmuşdu. Məhəllələrdə daş üstündə daş buraxılmamışdı. Eyni şəkildə Bitlis və Van vilayətlərində də əhalinin sayı xeyli azalmışdı. (224).

Buna bənzər misalları çox sayda sıralamaq mumkündür.

Görünən odur ki, istər ermənilər, istərsə də ruslar Şərqi Anadoluda tam bir soyqırım törətmişdilər. Ermənilərin iddialarının əksinə, soyqırıma məruz qalan özləri deyil, türklərdir. Əgər türklər ermənilərə soyqırım tətbiq etsəydilər, doqquz əsr boyunca Səlcuqlu, sonra Osmanlı dövlətləri hakimiyyətində yaşayan erməni azlığını əridə bilərdilər. Onlar bütün erməniləri yox edət, onlara dillərini, dinlərini unutdura bilərdilər. Sonra Osmanlı dövləti Birinci Dünya müharibəsində də ermənilərə soyqırım tətbiq etməmişdir. Əksinə, onlar Osmanlı ordusunun himayəsində müharibə gedən bölgələrdən uzaqlaşdırılmışlar. Əgər Osmanlı dövləti ermənilərə qarşı soyqırım siyasəti yürütsəydi, erməniləri sağ salamat müharibədən uzaqlaşdırmaz, onları köçdürməz, qətl edərdi. Həqiqətdə isə, soyqırım tətbiq edən ermənilər olmuşlar. Amma türklər tarixdəki ad-

sanlarına yaraşmayan bu yola baş vurmamışlar, özlərini qətl etməyə çalışan qanlı ələ şəfqətli əllərini uzadaraq onları qorumuşlar, yüz illər boyu qoruduqları kimi. Türklər ermənilərin özlərinə xəyanət etmələrinə baxmayaraq, onları ən pis günlərində belə qorumuşlar. Camal paşa öz xatirələrində o zaman köç etdirilən 150 min erməniyə Suriyada ələ şəfqəti göstərib onları ən yaxşı bir şəkildə yerləşdirməyi bacardığını yazır. (225). Özünə düşməncə davranan bir cəmiyyətə qarşı dostluq göstərən türk millətinin alicənablığına hansı millətdə rast gəlmək olar! Tarixdə hələ bir nümunəyə rast gəlmək mümkün deyildir.

Ermənilər Birinci Dünya müharibəsində çox pis aldanmış və ya aldadılmışlar. Osmanlı dövlətinin onlara verdiyi əmin-amanlıq və rifah içərisində olmuşlar. II Məşrutiyyətin elanı ilə ermənilərin sahib olduqları vətəndaşlıq haqları eynən türklərinki kimi olmuşdur. Bir cəmiyyət düşünün ki, bu yeni dönəmdə türklərlə eyni haqlara sahibdir, əminamanlığı eyni dərəcədə sığortalanmışdır. Bu yeni düzəndə ermənilərin məclisdə deputatları, nazirliklərdə nazirləri, şöbələrdə məmurları, orduda əsgərləri vardı... Hər cür iqtisadi fəaliyyətləri sərbəst və türklərdən geri qalmırdı. O zamanlarda demokratiyanın önündə gedən Qərbdə belə bu vəziyyət yox idi. Bu vəziyyət yalnız Türkiyədə var idi və dövlət də, Vətən də erməni azlığı ilə türklər üçün tam mənada eyni bərabərlikdə istifadəyə girmişdi. Lakin ermənilər bu nemətı qəbul etməmiş, imperialist dövlətlərin təhriklərinə aldanaraq Türkiyənin də, özlərinin də fəlakətləri ilə nəticələnəcək oyunlara alət olmuşlar. Bu məsələdə günahkar Türkiyə deyil, başda imperialist güclər olmaqla, onlara alət olan ermənilər idi.

İmperialist dövlətlər Türkiyə üzərindəki əməllərini gerçəkləşdirmək, bölgədəki mənfəətlərini qorumaq üçün ermənilərdən istifadə etmişlər. Erməniləri özlərinə cəzb etmək uğrunda istifadə etdikləri "haqq," "hüquq," "qurtuluş" və sairə şüarlar məhz özlərinin əməl və mənfəətlərinin qorunmasının maskası olmuşdur. Erməni məsələsindəki bu zamanın təzahü-

rünü Birinci Dünya müharibəsinin başlanğıcından Türk İstiqlal müharibəsinin sona çatmasına qədər olan bir zaman kəsimində görmək mümkündür. Ermənilər əvvəl ruslar tərəfindən istifadə edilmişlər və erməni yardımıyla Vanın Rusiyanın əlinə keçməsindən sonra təkbaşına türklərlə başa çıxacaqlarını anlayan ruslar ermənilərı uzaqlaşdırmağa çalışmışlar. Bu zamanlarda bağlanan müqavilələrdə İngiltərə, Fransa və Rusiya ermənilərdən heç bəhs etməzlər və "Türkiyə Ermənistanı" dedikləri bölgəni Rusiyaya aid qəbul edərlər. Rusiyada baş verən Oktyabr inqilabı və Rusiyanın müharibə edən dövlətlər arasından ayrılması, müttəfiq hökumətlərin əvvəlcədən hazırlamış olduqları "Türkiyənin gələcəyini səhmana salma" planını da kökündən pozmuşdur.

"Sykes-Picott" müqaviləsinə görə, xalqın çoxluğunu türklərin təşkil etdikləri Şərqi Anadolunun böyük bir hissəsini Sazanovlar alacaqdılar. Çar və çarın hökuməti belə istəyirdi. Müttəfiqlər də buna razılıq verərək Şərqi Anadolunu Sazanovlara 'bəxş' və 'ehsan' edirdilər." (226). Ermənilərin müstəqil bir dövlət qurmaq uğrunda çalışdıqları Fərata qədər olan bölgə Rusiyaya aid ediləcək, ermənilər Rusiyaya tabe bir cəmiyyət halına gətiriləcəkdilər. Sonralar isə ermənilər o bölgədə "Böyük Ermənistan" qurmağa çalışacaqdılar. Ruslar Türkiyə üzərindəki əməllərini həyata keçirmək üçün erməniləri "qurtuluş," "hürriyyət" kimi saxta vədlərlə bir daha aldatmışdılar. Bu mövzuda bir erməni yazıçısının etiraflarını oxuyaq.

"1915-ci ilin ikinci yarısı və 1916-cı ilin tamamı bizim üçün ümidsizlik dönəmi olmuşdur. Bu zamanlar Türkiyədən qaçanlar ac, çılpaq Qafqaza doluşurdular. Ruslar bizi aldatdılar, bizə qarşı xəyanət etdilər, bilərəkdən çox ağır davrandılar, qərarsız qaldılar, irəli getdilər, zəbt etdilər, yerli erməniləri türklər yox edə bilsinlər deyə, yalnız buraxdılar və bu surətlə ruslar Ermənistanı boş, rəhbərsiz buraxmaq, oralara kazakları yerləşdirmək, Prins Lubanovun məşhur planını həyata keçirmək istədilər... Rusların fikirlərini açıqlamaq üçün onların bizi yox etmək planlarının olduğunu irəli sürməyə səbəb yoxdur. Ancaq yaxşı

bilinməlidir ki, rusların qayələri hər nəyə başa gəlirsə gəlsin, Türkiyə ermənilərini qurtarmaq deyil və heç bir zaman da belə olmamışdır. Həqiqətən, belə bir şey ola bilməzdi. Biz onlara öz arzumuzla xidmət etdik, sürükləndik, həqiqətdə isə, onların qayələrinə çalışmış olduq..." (227)

1917-ci ildə Rusiyada bolşevik inqilabı başladı. Bu inqilabın başlaması səbəbilə rus əsgərləri komandanlarını dinləməyərək cəbhəni tərk edib məmləkətlərinə dönməyə başladılar. Beləliklə Rusiya Birinci Dünya müharibəsindən çəkilmək məcburiyyətində qaldı. Belə olduqda İngiltərə, Fransa və Rusiya arasında Osmanlı imperatorluğunu paylaşma müqavilələri pozulmuş, inqilab yolu ilə Rusiyanın başına gələn yeni iqtidar ideologiya və quruluş etibarilə İngiltərə və Fransaya düşmən kəsilmişdi. Artıq Rusiya İngiltərə və Fransanın müttəfiqləri deyil, onların qorxduqları bir ölkə halına gəlmişdi. İngiltərə yaranmış bu vəziyyətdən hürkmüşdü. Buna görə də Qafqazda və ermənilərlə məskun bölgələrdə öz fəaliyyətlərini dərinləşdirdi. Buralara əsgəri qüvvələr yerləşdirməyə başladı. Onların əməli Bolşevik Rusiyasının Qafqaz üzərindən neft bölgəsi və Hindistan yoluna enməsini əngəlləmək idi. Bununla birlikdə İngiltərənin öz istəklərilə hələ özünə gəlməyən Türkiyəni də özünə gətirmələri lazım idi. Bütün bu əməllərini gerçəkləşdirmək uğrunda Qafqazda və Şərqi Anadoluda fəaliyyət göstərən İngilislər bölgədə yerləşmiş ermənilərdən istifadə etməyə başladılar. İngilislər Qafqazdan İskəndərun körfəzinə qədər bir qarışıqlıq əmələ gətirmək və Yunanıstanla müharibə etməkdə olan türklərə bir başqa yandan hücumlar tərtib etmək məqsədilə erməni hökumətini dünənki canahlarının əleyhinə təhrik və təşviq etdilər." (228). İmperialist dövlətlərin əlində onların əməllərini gerçəkləşdirmək uğrunda lovğa oğlan olmaqdan başqa bir şeyə yaramayan ermənilər Rusiyadan sonra indi də İngiltərənin istifadəsinə girirdilər. İngilislərcə 1913-cü ilə nisbətən 1918-1920-ci illər ermənilərdən istifadə etmənin tam zamanı idi. 23 yanvar 1913-cü il tarixli bir İngiltərə sənədində bunlar yer alırdı:

*"Ser E.Greydən Ser F.Bertiyəyə:*

.. Erməni məsələsinin indi ortaya çıxarılması uyğun deyildir. Kiçik Asiya məsələsini daha uyğun bir zamanda ələ alarıq."- dedi." (229).

İngilislər Şərqi Anadoluda və Azərbaycanda öz çirkin fəaliyyətlərini dərinləşdirdilər. Onlar buralara əlavə əsgər yerləşdirmiş, erməni komitələrinin qaniçən çətələrindən istifadə etməyə çalışırdılar. Məqsəd ermənilər üçün "Böyük Ermənistan" qurmaq deyildi, xeyr, əsas məqsəd zəngin neft yataqlarını ələ keçirmək, Rusiyanın cənuba enən yolunu bağlamaq idi.

Bu məqsədlə onlar "Böyük Ermənistan"ın qurulduğunu elan edir, dünyadakı bütün erməniləri buraya çağırırdılar. İngilis generalı Tomson Qafqaza çıxdığı zaman bir bəyannamə nəşr etdirmiş və bunu dünyaya bu şəkildə yaymışdı: "Böyük Ermənistan təşəkkül etmişdir, harada erməni varsa, çıxıb Qafqaza gəlsin."- deyirdi. Siyasi hadisələrin başına keçən İngiltərə Azərbaycanın bir qismini, Qafqaz və Türkiyənin şərqi yaşayış bölgələrini bir yerə qataraq, Adanadan Mersinə, yəni Ağ dənizə qədər "Böyük Ermənistan"ın qurulacağını ermənilərə müjdələyirdi. Bu çağırış nəticəsində Amerikada, Fransada, İngiltərədə, Misirdə və Yunanıstanda nə qədər erməni vardısa, hamısı axınaxın gəlib Qafqaza toplanmağa başladılar. (230).

## ERMƏNİLƏRİN AZƏRBAYCANDA TÖRƏTDİKLƏRİ HADİSƏLƏR (1918-1920)

Ermənilərin 1918-1920-ci illərdə Azərbaycanda törətdikləri qətliamlara və qeyri-insani hərəkətlərə keçməzdən əvvəl, rəsmi sənədlərin xaricinə çıxmadığımızı açıqlamaq istərdik. Çünki hər hansı bir məsələ barəsində rəsmi arxiv sənədlərinə dayanan elmi çalışmalar bu məsələyə arzu edildiyi kimi yanaşmaları aradan qaldırar. Erməni "problemi" haqqında Avropa və Amerika ölkələrində nəşr edilən əsər və məqalələrin rəsmi sənədlərdən uzaq olduqlarına görə qeyri-obyektiv və xətalı olduqlarını daha əvvəl bildirmişdik. Ermənistanın idarəçilərilə

əlbir olub çalışan erməni diasporası bu milləti dünyaya "əzilmiş, yox edilməyə çalışılmış" bir millət olaraq tanıtmağa çalışır. Beləcə, ermənilər özlərini məsum, soyqırıma uğramış bir millət kimi göstərir, Osmanlı Türkiyəsində, Azərbaycanda törətdikləri qətliamları, qeyri-insani davranışları, bu gün belə azərbaycanlıların ata-baba yurdu olan Qarabağda törətdiklərini, Xocalı vilayətini yer üzündən sildiklərini ört-basdır etməyə çalışır, işğal altında tutduqları torpaqları unutdurmaq istəyirlər. Halbuki arxiv sənədləri həqiqətləri bütün çılpaqlığı ilə ortaya qoyur. Bax buna görə də ermənilər türklərin təklifinə qarşı çıxaraq arxiv sənədlərinə yanaşmayıb uydurma fikir və düşüncələrini ortaya atır, dünya işlərini qarışdırırlar.

Ermənilərin Azərbaycan türklərinə qarşı törətdikləri qətliam 1918-ci ilin mart ayında Bakıda başladılmış, İrəvana qədər bütün Azərbaycan torpaqlarında faciəvi bir şəkildə davam etdirilmişdir. Türkiyə və Azərbaycan dövlətlərinin arxivlərindəki minlərcə rəsmi sənədlər ermənilərin türklərə qarşı törətdikləri qətliamları və qeyri-insani davranışlarını ortaya qoyur. Onlar 1905-1907-ci illərdə rusların yardımı ilə Azərbaycan türklərinə qarşı törətdikləri vəhşilikləri eynilə 1918-1920-ci illərdə, bu dəfə ingilislərin yardımı ilə təkrarlayır, özlərinin törətdikləri hadisələri azərbaycanlıların adına çıxır, panislamizm və pantürkizm düşüncələrini ortaya ataraq ermənilərin bütünlüklə yox olmaq üzrə olduqlarını bütün dünyaya yayırdılar. Halbuki onlar Bakıda, Qubada, Dəvəçidə, Şamaxıda, Kürdəmirdə, Göyçayda, Qarabağda, Şuşada, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Zəngəzurda, Naxçıvanda, Şərurda, Surmalıda, İrəvanda... yəni bütün Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı tarixdə bənzəri görülməyən vəhşiliklər törətmişlər.

## BAKI HADİSƏLƏRİNƏ DAİR VERİLƏN BƏZİ İFADƏLƏR

Rəsmi arxiv sənədlərinə görə, 1918-ci ilin mart ayında Bakıda təxminən 11 000 nəfər azərbaycanlı ermənilər tərəfindən qətl edilmişdir. Ermənilərin Bakıda törətdikləri zülm və qətliamа aid məlumatlar, hadisələrə şahid olan şəxslərdən alınan ifadə protokollarının qısaca xülasəsi aşağıda verilmişdir.

"Bakı şəhər sakinlərindən Abbas Eyvazovun verdiyi ifadədə N.Akopovun, F.Antonovun, J.Melikovun onlara hücum edib qardaşının xanımını öldürdüklərindən, qardaşını isə həbs etdiklərindən bəhs edilir.

Bakı şəhər sakinlərindən Abdul Cabbar Babayevin verdiyi ifadədə erməni Melikov oğlu ilə birlikdə hücum edib onun qardaşını öldürdüklərindən, sonra Zabrat qəsəbəsində ermənilər tərəfindən parçalanan müsəlman cəsədlərinin quyudan çıxarılmasından, Cavad Aşurbəyov və əsgəri doktor Kərimbəy Soltanovu öldürüb yandırmalarından bəhs edilir.

Bakı şəhər sakini M.A.Hüseynzadənin verdiyi ifadədə 1918-ci il mart hadisələrində erməni Vaçıyantsın müsəlmanların qətl edilməsində aktiv rol oynamasından, təxminən 80 iranlı tacirin ermənilər tərəfindən öldürülməsindən və müsəlmanlarla ermənilər arasında sülhün yaranmasının əngəllənməsindən bəhs edilir.

Keçmiş əsgəri komandan Zabit Qacar şahzadəsi Mənsur erməni Melikov və daşnaksutyun komitəsi üzvlərinin müsəlmanlara qarşı törətdikləri vəhşiliklərdən bəhs edib ifadə vermişdir.

Bakı şəhər sakini Ağabəy Səfərəliyev 14 nəfərlik bir ailənin qətl edilməsindən, küçələrin döşləri, burunları, qulaqları kəsilmiş, gözləri çıxarılmış və cinsiyyət orqanlarına zopa soxulmuş qadın cəsədləri ilə dolu olduğundan bəhs edib ifadə vermişdir.

Bakı şəhər sakini D.M.Xarçenkova evində ermənilər tərəfindən törədilən zülmdən və onların bir türkü öldürdüklərindən bəhs edib ifadə vermişdir.

Bakı şəhər sakini A.G.Səlimoğlu 1918-ci il 20 mart günü ermənilərin hücumuna uğrayıb dağıdılan "Səadət" məktəbində 300 nəfərə yaxın adamın öldürülməsindən, 1 yaşındakı bir uşağın və 95 yaşındakı şikəst bir qadının tüfəngin qundağı ilə başlarına vurularaq öldürülmələrindən və bir çox qadın və uşaqların həbs edilmələrindən bəhs edib ifadə vermişdir.

Bakı şəhər sakini M.T.Həsənoğlu verdiyi ifadədə başda Stepan Lalayev, M.Ter-Sarkisov və Antonovun uşaqları olmaqla, silahlı ermənilərin məscidlərdə qadın və qızların namuslarını kirlətmələrindən, insanları küçələrdə və meydanlarda qətl etmələrindən, onları quyulara atmalarından və məscidləri pisliklə kirlətmələrindən bəhs etmişdir.

Bakı şəhər sakini M.V.Səfərəliyev verdiyi ifadədə erməni ziyalıları Baqdasarov və Avakyantsın da aralarında olduğu erməni çətələrinin zülmündən və Hacı Akifin ailəsini yox etmələrindən bəhs etmişdir.

Bakı şəhər sakini M.T.Qənioğlu verdiyi ifadədə silahlı erməni çətələrinin sakit həyat sürən insanları qətl etmələrindən, bir axundu təhqir edib tüfənglərinin qundağı və süngü ilə öldürmələrindən bəhs edir.

Bakı şəhər sakini K.A.Almazoğlu verdiyi ifadədə qardaşının, qardaşı uşaqlarının və qayınatasının da aralarında olduqları 24 nəfərin silahlı ermənilər tərəfindən qətl edildiklərindən bəhs edir.

Bakı şəhər sakini M.İ.Məşədi Mövlüdoğlunun verdiyi ifadədə kişilərin silahlı ermənilər tərəfindən güllələnmələrindən, yaralı qalan insanların süngü ilə öldürülmələrindən, ölümcül halda olan bacısını xəstəxanaya gətirdikdə oradakı bir erməni həkim tərəfindən güllələnmək istəndiyindən, fəqət zorla qurtulduqlarından bəhs edilir.

Bakı şəhər sakini Həbib Sadıqov verdiyi ifadədə Hacı Akif və bütün ailəsinin süngü zərbələri ilə öldürülmələri və Təzəpir məscidinin həyətində 500-ə yaxın cəsədin olduğundan bəhs etmişdir.

Bakı şəhər sakini Əsəd Hacı Mustafayevin verdiyi ifadədə silahlı ermənilərin hücumları nəticəsində öldürülən insanlardan bəhs edilir.

Birinci müsəlman atlı alayı ikinci hissəsinin komandanı Əli Əsədulləyev verdiyi ifadədə ermənilərin müsəlmanları ruslara qarşı təhrik etmələrindən, müsəlman qadınlarını təhqir edib öldürmələrindən, bu vəhşətin partizanlıqdan ziyadə erməni milliyyətçiliyinə dayandığından və ermənilər tərəfindən 1918-ci ilin mart ayında 30 000-ə yaxın müsəlmanı qətl etdiklərindən bəhs etmişdir.

Bakı şəhər sakini Əli Əsgər Xuda Baxışdan alınan ifadədə Stepan Lalayev və Ruben Aqamalyantsın rəhbərliyində ermənilərin Bakıdan Petrovsk şəhərinə apardığı 760 nəfər müsəlmana verilən zülm və işgəncələrlə 555-nin öldürüldüyündən bəhs edilir.

Fövqəladə İstintaq Təşkilatının üzvü A.Novatskinin Aleksandr Naumoviç Kvasnikdən aldığı ifadədə ermənilərin məsum insanları qətl etmələrindən və bu qətliamın antibolşevik hərəkatının ortaya çıxmasının qarşısı alınma maskası altında törədildiyindən bəhs edilir.

Bakı şəhər sakini Ş. A Hacı Şahbazoğlu verdiyi ifadəsində özünün və ailəsinin ermənilər tərəfindən əsir alınmasından, evlərinin qarət edilməsindən və erməni ziyalılarının əsirləri təhqir etmələrindən bəhs edir.

Bakı şəhər sakini Umay xanım Soltanova verdiyi ifadədə başda Stefan Lalayev olmaqla, erməni çətələrinin törətdikləri qətliam və qarətlərdən bəhs etmişdir.

Bakı şəhər sakini Osman Osmanov verdiyi ifadədə ermənilərin həkim Soltanovu öldürüb evini qarət etmələrindən və məhəllə xidmətçisini öldürmələrindən bəhs edir.

Bakı şəhər sakini Tubi Abdullah qızının verdiyi ifadədə Bakının küçələrində insanların qətl edilmələrindən və mallarının qarət edilmələrindən bəhs edilir.

İran asilli Məşədi A.H Rızaoğlunun verdiyi ifadədə 20 yaşındakı oğlunun ermənilər tərəfindən yaralanmasından, sonra da vəhşicəsinə öldürülməsindən bəhs edilir.

Bakı şəhər sakini Fatma xanım Saleh qızı verdiyi ifadəsində evlərinə hücum edən ermənilərin əlindən qızı və həyat yoldaşı ilə birlikdə zorla qaçıb qurtulduqlarından, ancaq evdə qalan oğlunun vəhşicəsinə öldürüldüyündən bəhs edir.

Bakı şəhər sakini Əli Murad Səfər Əli oğlu verdiyi ifadəsində ermənilərin törətdikləri qətliamlardan, yaşlı, qadın, uşaq demədən insanları əsir almalarından və törətdikləri maddi zərərlərdən bəhs edir.

Bakı şəhər sakini Mir Sayyad Mir Zeynalabdin oğlu verdiyi ifadədə ermənilərin verdikləri maddi zərərlər nəticəsində dilənçi vəziyyətinə düşdüklərindən bəhs edir.

Bakı şəhər sakini Ağaxanım Kərimova verdiyi ifadədə ermənilərin silahlı hücumu nəticəsində qardaşının ağır yaralandığından və maddi zərərə uğradıqlarından bəhs edir.

Bakı şəhər sakini Əlibaba Dadaş oğlunun verdiyi ifadədə erməni çetələrinin silahlı hücumlarından, bacısının öldürülməsindən, özünün və anasının qaçarkən yaralanmasından və böyük maddi zərərə uğramalarından bəhs edir.

Bakı şəhər sakini Rəcəb Kalbalı oğlunun verdiyi ifadədə silahlı erməni çetələri tərəfindən anasının, həyat yoldaşının, uşağının və qardaşının öldürülmələrindən bəhs edilir.

Bakı şəhər sakini Murad bəy Muradovun verdiyi ifadədə silahlı ermənilərin müsəlmanların yaşadıqları məhəllələrə hücum etmələrindən, qardaşı və iki kişini öldürmələrindən, qardaşının evinin qarət edilməsindən bəhs edilir.

Bakı şəhər sakini Həmid bəy Rüstəmbəy oğlunun verdiyi ifadədə Sergey Melikov və Stepan Lalayev tərəfindən hazırlanmış əsgərlərin və tüfənglərlə silahlanmış ermənilərin Bakı müsəlmanlarına qarşı hücumlarından və törətdikləri qətliamlardan bəhs edilir..."

Aprel 1918
BCA. 930 01. 1-20-1 / 16, 2-25-1 / 9, 2-26-1 / 7, 3-48-1
ASPİHDA. 277-2-13, 277-2-25, 277-2-26
ADA. 894-4-65

## QUBA VƏ DƏVƏÇİ HADİSƏLƏRİ

Azərbaycan Hökumətinin Fövqəladə İstintaq Təşkilatının üzvü Novatskinin təşkilatın rəhbərinə verdiyi raportun qısaca xülasəsi:

"1918-ci ilin aprel ayında Bakı və Bakı əyaləti bolşeviklər tərəfindən işğal edilmişdi. O zamanlar bolşeviklərin təmsilçisi David Qolovani tabeliyində olan silahlı dəstəsilə Qubaya gəldikdə özünü komissar elan edib bunu Quba xalqına qəbul etdirməyə çalışdı. Sülhsevər müsəlman xalqı ilə tanış olduqdan sonra Qolovani təhlükə olmadığına görə həbsxanadakı 200 ermənini azad etdi.

Bir neçə gün sakit və rahatlıq içərisində keçdi. Fəqət sonra ləzgilərdən əmələ gələn bir birlik Qubaya yaxınlaşmağa başladı. Onlar Qolovaninin təslim olmasını istədilər. Qolovani təslim olmadıqda ləzgilər atəş açdılar. Beləcə hər iki tərəfdən atəş yağmuru başlamış oldu. Qolovani özünə dəstək olaraq erməniləri və bir çox ortodoks rusu yanına aldı. Bu zaman Bakıdan böyük bir silahlı dəstənin Qubaya doğru yaxınlaşdığı xəbəri gəldi. Bakıdan gələn bu dəstənin müsəlmanlara zərər verəcəklərini düşünmürdülər.

1 may 1918-ci il sabah saatlarında Qubaya çatan bu silahlı dəstənin komandanı daşnaksütyun komitəsinin təmsilçisi Amazasp, yardımçısı isə Nikolay idi. Bu dəstə tamamilə erməni militanlarından əmələ gəlmişdi. Onlar şəhərə girər-girməz atəş etməyə başladılar və qarşılarında gördüklərini, kişi, qadın, uşaq, qoca demədən öldürürdülər. Onlar evlərə girir, ailələri tamamən yox edirdilər. Qadınların əllərindəki kiçik körpələri belə bıçaqla doğrayırdılar.

Kərbəlay Məmməd Tağı oğlunun ailəsi 14 nəfərdən, Məhəmməd Rəsul oğlunun ailəsi isə həyat yoldaşı və 3 uşaqdan ibarət idi. Ermənilər Məhəmmədin qarnını yardılar, uşaqlarının başlarını kəsdilər. Hacı Dadaşbala Qasım oğlunun xanımını və oğlunu yandıraraq öldürdülər. Kərbəlay Abuzərin iki qızının

başını analarının qucağına qoyaraq kəsdilər. Məşədi Qəmbər, molla Məhəmməd Saleh oğlunun xanımlarını və azyaşlı uşaqlarını qətl etdilər.

Bunlardan əlavə, molla Şahbaz, Usta Məhəmməd, Rəsul Bayram oğlu, Rəsul Kazım oğlu, Məşədi Musa Zeynal oğlu, Məşədi Feyzulla oğlu, Kərbəlay Dadaş Bağır oğlu, Cabbar Məmməd Əli oğlu, Saibə, Səfərəli, Məşədi Talıb oğlu və digərləri işgəncə verilərək öldürüldülər.

Buralarda kişi, qadın və uşaq olmaqla təxminən 2 000 (iki min) nəfər öldürülmüşdür. Ermənilər təxminən 100 qadın və qıza təcavüz etmişlər. Bunların adlarının yazılmaması üçün əqrəbələri tərəfindən gizlədilmişdir.

Rəsmi olaraq Amazasp dəstəsi tərəfindən 2 milyon rus rublu dəyərində zərər verilmiş, 25 milyon dəyərində mal qəsb edilmiş, 100 milyon dəyərində 105 ev yandırılmışdır.

Müsəlmanlar ermənilərə təslim olmaq və öldürülməmək üçün ağ bayraqlı təmsilçilər göndərmişlərsə də, ermənilər bunu qəbul etməyib, onları da öldürmüşlər.

Dəvəçibazar və Qızılburun kəndləri də 11 nəfər yaşlı kişini seçib erməniləri duz-çörəklə qarşılamaq üçün göndərmişlər, fəqət ermənilər duz-çörəklə gələn yaşlıları da qətl etmişlər.

Amazaspın militanları islam dininə nifrət etdikləri üçün məscidləri və "Qurani-Kərim"i də yandırmışlar.

Qubada 122 kənd qarət edilmiş və yandırılmışdır. Bu kəndlərdən bəziləri bunlardır: Dəvəçi, Sədan, Çarxxana, Zaqlıcan, Əlixanlı, Əyinbulaq, Nərdərin, Siyəzən, Rəhimli, Surrə, Gülimlər, Bul-bul, Andreyabad, Xəlillər, Qaraqaşlı, Aşağı Kusi, Sərvan, Əmirxaim, Tura, Aygun və digərləri. Bu kəndlərdə 60 kişi, qadın və uşaqlar öldürülmüş, 53 kişi də yaralanmışdır. Verilən zərər 58 121 590 rus rubludur.

Qolovaninin verdiyi ifadəyə görə, Quba şəhərinə göndərilən Amazasp dəstəsi bir "cəza dəstəsidir." Bu, yalnız ermənilərdən əmələ gətirilən 2 000 nəfərlik bir dəstədir. Bu dəstə siyasi məqsədlə deyil, sadəcə müsəlman xalqından intiqam almaq məqsədilə daşnaklar tərəfindən göndərilmişdir.

Cəza dəstəsinin komandanı Amazasp: "Mən erməni xalqının qəhrəmanıyam, sizin və türklər tərəfindən öldürülən ermənilərin intiqamını almağa gəldim. Xəzər dənizindən Şah dağına qədər olan bölgədə yaşayan müsəlmanların kökünü kəsmək üçün buradayam," - demişdir.

Bu Amazasp dəstəsinə Qubadan qatılan ermənilər də olmuşlar: Arutün Ayrapetov, Bərdər Cavad, Arutünov, Avakov, tələbələr, Amirdanovlar, Vartan Melikov, Aleksandr Mukasyants, Yaqub Tatoes, Arutün və atası Babacan Karapet oğlu. Bunların cəza dəstəsinə qatıldıqlarını Quba şəhər təmsilçisi Əlibəyov, Hacı İsmail Orucov, Hacı İdhad Musayev, Məşədi İbad Bağırov, Məmməd Musa Məmməd oğlu, Kərbəlay Əbuzər Məstan oğlu və başqaları şahid olaraq təsdiq etmişlər.

Cəza dəstəsinə qatılan ermənilər barəsində istintaqın başladılmasını ərz edirəm.

NOVATSKİ"

Aprel 1918
BCA. 930.01. 5-104-1
ADA. 1061-1-95

Quba şəhərinə bağlı bölgələrdə ermənilər tərəfindən qarət edilib yandırılan kəndlərin adları (50 kənd) İnzibati Təşkilat tərəfindən Azərbaycan Hökumətinin Fövqəladə İstintaq Təşkilatına göndərilmişdir.

19.12.1918
BCA. 930.01. 6-115-3
ADA. 1610-1-97.

Dəvəçi qəsəbəsinin muxtarı Dadaş Musa oğlunun Azərbaycan Hökumətinin Fövqəladə İstintaq Təşkilatına verdiyi ifadə. Bu ifadə əsasında Dəvəçiyə bağlı Sadan kəndində daşnakların 400 xananı soyaraq yandırdıqlarına, bəzi kəndçiləri də öldürdüklərinə dair 22 dekabr 1918-ci ildə hazırlanan protokol.

28.12.1918
BCA. 930 01. 6-116-1
ADA. 1610-1-97

Dəvəçi qəsəbəsinə bağlı Əlixanlı kəndinin muxtarı Naci-madüllah İsmail oğlunun Azərbaycan Hökumətinin Fövqəladə İstintaq Təşkilatına verdiyi ifadə ilə Qubaya 12 km məsafədə Dəvəçiyə bağlı 240 xanalı kəndin ermənilər tərəfindən yaxılıb-yandırıldığına, qarət edildiyinə və 2 nəfərin öldürüldüyünə dair hazırlanan protokol.

22.12.1918
BCA. 930 01. 6-116-2
ADA. 1610-1-97

## ŞAMAXI, GÖYÇAY VƏ KÜRDƏMİR HADİSƏLƏRİ

Ermənilərin Şamaxı əyalətinə bağlı Meyniman kəndində törətdikləri vəhşiliklər nəticəsində Azərbaycan Hökumətinin Fövqəladə İstintaq Təşkilatının üzvü Novatski İstintaq Təşkilatının rəhbərinə bir raport yazdı. Bu raportun qısaca xülasəsi aşağıda verilmişdir:

"1918-ci ilin mart ayında erməni əsgərləri Ağcaqabul vağzalına gələrək Şamaxı əyalətinə bağlı Meyniman kəndinə hücum etdilər. Kəndlilər Kür çayının sahilindəki meşələrə qaçaraq özlərini qorudular, ancaq onların ev əşyaları qarət edildi, evləri yandırıldı. Bu vaxt tatar alayı gəldi və ermənilər geri çəkildilər. Tatar alayı başqa əyalətə göndərildikdə ermənilər ikinci dəfə hücum etdilər. Bu dəfə onlar 22 kişi, 16 qadın, 12 uşaq öldürüb 6 nəfəri də yaraladılar. Onlar 312 böyük baş, 807 kiçik baş heyvanı toplayıb apardılar. 34 evi tamamən yandırdılar. Toplam zərər 3.124.250 rus rubludur.

Kəndin muxtarı Surxay ağa Məhməd oğlu hücum edən ermənilər arasında öz kəndçilərindən İllarionovun, ayaqqabı təmirçiləri Nikolayın və Qriqorinin, tacir Kirkorun da olduğunu

söyləmişdir. Buna görə qanunun 13, 129, 927, 1633, 1636, 1453, 1607 maddələrinə əsaslanaraq, yuxarıda adları çəkilən ermənilərin istintaqa cəlb olunmalarını ərz edirəm.

İstintaq təşkilatının üzvü: NOVATSKİ İMZA"

Mart 1918
BCA. 930 01. 5-81-1
ADA. 1061-1-5

Ermənilərin Şamaxı əyalətinin Padar yaylağına hücum etmələri nəticəsində təxminən 80 kişinin, 25 qadının, 15 uşağın öldürülməsindən və 69 000 baş mal-qaranın oğurlanmasından bəhs edən və Stepan Lalayev, Qavril Qaraoğlanov, Uzun Mixail, Mixail Petrosov və Sadro Ağrıyevin bu çetələrə rəhbərlik etdiklərinə dair Fövqəladə İstintaq Təşkilatının üzvü A Novatskinin komissiya rəhbərinə yazdığı raport.

05.02.1919
BCA. 930 01. 6-113-1
ADA. 1610 -1-4

Fövqəladə İstintaq Təşkilatının silahlı erməni çetələrinin hücumuna məruz qalan Şamaxı əyaləti kəndlərinin muxtar və kəndlilərindən aldığı ifadə protokolu.

"Baloglan kəndinə hücum edən erməni çetələrinin arasında rusların da olduğu və təxminən 250 kişi, 150 qadın ilə 135 uşağın öldürüldükləri, 32 kişi, 16 qadın və 21 uşağın da yaralandığı və çox böyük maddi zərərin verildiyinə dair kənd muxtarının ifadəsi.

Köçarı olan Çayırlı Təzə kəndin xalqından 3 kişi, 2 uşağın öldürüldüyünə və çox sayda mal-qaranın oğurlandığına dair kənd muxtarının ifadəsi.

Ağcaqabul vağzalından hücum edən erməni əsgərlərinin 5 kişi, 1 qadın ilə 6 uşağı öldürdükləri və çox sayda heyvanı oğurladıqlarına dair Hilə yaylağı muxtarının ifadəsi.

Şorbaçı kəndinə hücum edən ermənilərin təxminən 15 kişi, 10 qadın ilə 5 uşağı öldürduklərinə dair kənd muxtarının verdiyi ifadə.

Şorbaçı kənd sakini Sarxan M Şirin oğlunun çox sayda heyvanlarının oğurlandığı, əkin sahələrinin dağıdıldığı və böyük zərərə uğradıqları haqqında verdiyi ifadə

Kovlar kəndinə hücum edən erməni çətələrinin 16 kişini qətl etdiklərinə, çox sayda heyvanı oğurladıqlarına və böyük maddi zərər verdiklərinə dair muxtar Hüseyin K Mustafa oğlunun verdiyi ifadə

Ermənilərin hücumu səbəbilə kəndlərin maddi zərərə uğradıqları haqqında Kazib kəndinin muxtarı Gülqasım Abdulqasım oğlunun verdiyi ifadə

Ermənilərin hücumu nəticəsində böyük maddi zərər görən II Talış kəndinin muxtarının ifadəsi.

Ermənilərin hücumu nəticəsində kəndlərdən təxminən 50 kişi, 15 qadın ilə 25 uşağın qətl edildiyinə və çox sayda mal-qaranın oğurlandığına dair Meynıman kəndinin muxtarı S.A. Məhəmməd oğlunun ifadəsi.

Ermənilərin hücumu nəticəsində kəndlərdən 46 kişi, 18 qadın ilə 22 uşağın öldürüldüyünə və çox sayda mal-qaranın oğurlandığına dair Abdulyanaç kəndinin muxtarı Gülalı Məhəmmədin ifadəsi

Ermənilərin hücumu nəticəsində 10 kişi, 1 qadın ilə 1 uşağın öldürulduyu, insanların kəndlərindən ayrılaraq 1,5 ay sonra geri döndükləri haqqında Tirani-Kelani kəndinin muxtarı M R. Seraslan oğlunun ifadəsi

Bozavənd kəndinə hücum edən ermənilərin 3 kişini öldürdükləri, çox sayda mal-qaranı oğurladıqları və kəndlərini tərk edən insanların 1,5 ay sonra geri döndükləri haqqında muxtar Məşədi Ftibar Kərbəlayı Əsgər oğlunun ifadəsi

Rəhimli kəndinə hücum edən ermənilərin 3 kişini qətl etdikləri və böyük maddi zərər verdikləri haqqında muxtar Beydulla Abdulla oğlunun ifadəsi.

Bəlməğəli kəndinə hücum edən ermənilərin 7 kişi ilə 4 qadını öldürdükləri, 2 kişi ilə 2 qadını yaraladıqları və böyük maddi zərər verdikləri haqqında muxtar Dadaş Məşədi Cəhi oğlunun ifadəsi.

Qaraqaşlı kəndinə hücum edən ermənilərin 60 kişi, 15 qadın ilə 12 uşağı öldürdükləri, kəndə böyük maddi zərər verən ermənilərin arasında Matrasa və Kerken kəndlərindən olan ermənilərin də olduqlarına dair muxtar Əziz Əli Hacı Cəfər oğlunun ifadəsi.

Navahi kəndinə hücum edən ermənilərin təxminən 555 kişi, 250 qadın, 140 uşağı öldürdükləri, 60 kişini yaraladıqları və böyük maddi zərər verərək kəndin məscidini də dağıtdıqlarına dair muxtar Əziz Bağır oğlunun ifadəsi.

Kuruzma kəndinə hücum edən ermənilərin 1 kişini öldürdüklərinə və maddi zərər verdiklərinə dair Şahmurbəy Abbas-bəy oğlunun ifadəsi.

13.02.1919
BCA. 930.01. 5-103-2
ADA. 1061-1-81

Ermənilərin Şamaxı əyalətinə bağlı Zərqaryan, Kevluç və İnqar kəndlərindəki müsəlmanları qətl etdiklərinə dair Azərbaycan Hökuməti Fövqəladə İstintaq Təşkilatının üzvü Novatskinin təşkilatın rəhbərinə verdiyi raportun qısaca xülasəsi:

"1918-ci ilin aprel ayında Şamaxı əyalətinə bağlı Zərqaryan, Kevluç, İnqar və digər kəndlərdə yaşayan ermənilər, Zərqaryan Cahangir Rüstəm oğlu rəhbərliyində Mıkırdıç Budaqov və yerli kənd papazının qardaşı Levon Pirverdov, Nerses Artyom oğlu silahlı olaraq Dıçatan kəndindəki müsəlmanlara hücum edib, onların kəndin ortasında toplanmalarını əmr etmiş, sonra qadın və uşaqları ayıraraq öldürmüş, kişiləri isə yerə uzandıraraq güllələmiş, canlı qalanları qılıncdan keçirmişlər. Bu hadisədə təxminən 50 kişi, 60 qadın və 21 uşaq öldürülmüşdür.

Qətliam törədən və yuxarıda adları keçən ermənilər barəsində istintaq işləri başladılmışdır.

Təşkilatın üzvü: NOVATSKİ"

Aprel 1918
BCA. 930 01. 5-109-2
ADA. 1061-1-102

Ermənilərin Şamaxıda yaşayan müsəlmanlara qarşı törətdikləri zülmə dair *Azərbaycan Hökuməti Fövqəladə İstintaq* Təşkilatının üzvü Novatskinin təşkilatın rəhbərinə verdiyi raportun qısaca xülasəsi:

Şamaxı şəhərində yaşayan müsəlmanlar 1918-ci il 18 mart gecəsi erməni və malakanların silahlı hücumuna uğradılar. Müsəlmanlar bu hücumu gözləmirdilər. Çünki Papaz Baqrat və malakan təmsilçisi Karabanov İncil üzərinə and içərək müsəlmanlarla yaxşı keçinəcəklərinə dair söz vermişdilər. Ancaq ermənilər sözlərini tutmayıb müsəlmanlara hücum etməyə başladılar. Onlar şəhərin zəngin və məşhur adamlarından olan Şıxıyev, Həsənov, Cəbrailov, Müftü Hüseyirbəyov, Əlimirzəyev, Əfəndiyev, Babayev, Böyükbəy Hüseynov, Hacı Yaqub Ələkbərov, Teymur Abutalıb, Hacı Fətəli Fəttahbəyov və başqalarına aid gözəl evləri yandırdılar. Bütün qiymətli əşyaları qarət etdilər.

Ermənilər yandırdıqları evlərin sahiblərini insanlığa yaraşmayan işgəncələrlə öldürdülər. Döşləri kəsik, qarınları yırtılaraq qətl edilən qadınların cəsədləri küçələrə atılmışdı. Uşaqları paya ilə yerə çaxmışdılar. Şamaxı şəhərində yaşayan müsəlmanlar bu vəziyyətə qalmışdılar.

Sonra şəhərə müsəlman ordusu gəldi. Ermənilər malakan kəndlərinə qaçdılar. Ancaq müsəlman ordusu dörd gün sonra Şamaxıdan ayrılmaq məcburiyyətində idi. Müsəlman ordusu getdikdən sonra ermənilər yenidən müsəlmanlara hücum etməyə və daha şiddətli və daha ağır işgəncəyə başladılar.

Birinci və ikinci hücum nəticəsində bir neçə min müsəlman öldürüldü. Ölən müsəlmanlar arasında məşhur insanlar da vardı: Dumanın üzvü Məhməd Tağı Əliyev, Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdülxaliq, Hacı Əbdül Hüseynov, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seyidov, Hacı İsrafil Səlamov, Ağa Əhməd Əhmədov, Hacı Əbdülqasım Qasımov, Əyyub ağa Veysov, Zeynəb xanım Veysova, Əli Abbasbəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürrəhim ağa Ağalarov və daha bir çoxları. Şamaxı müsəlmanlarının zərərləri təxminən 2 milyon rus rublu qədərdir.

Şamaxı müsəlmanlarının təmizlənmə planı Stepan Lalayev, Qavril Qaraoğlanov, Gulbandov, Mixail Arzumanov, Karapet Karamanov, Şuşintsa Ağamalova, Sedrak Vlasov, Samuel Daliev, Petrosyants, İvanovlar (ata, oğul) tərəfindən hazırlanmış və hücum zamanı yerli ermənilərdən istifadə edilmişdir.

Bu hadisələrdə şahid və cinayətkarların ifadələri ilə aşağıda adları keçən ermənilərin günahkar olduqları təsbit edilmişdir: Stepan Lalayev, Qavril Qaraoğlanov, Gulbandov, Mixail Arzumanov, Karapet Karamanov, Ağamalov (Qarabağ ermənisi), Sedrak Vlasov, Samuel Deliyev, Petrosyants, İvanovlar, Avanesov, Sandrak Ağrıyev, Artem Ter-Matevosyan, Yaqub Martirosyants, Armenak Yakuboviç, Martırosyants, Aleksandr Xaçaturov, Mixail Xaçaturov, Andrey Arzumanov və digərləri.

Bu səbəblə yuxarıda adı keçən günahkarlara qarşı istintaq başladılmasını ərz edirəm.

İstintaq Təşkilatının üzvü: NOVATSKİ İMZA"

18.03.1918
BCA. 930.01. 5-111-1
ADA. 1061-1-108

Şamaxıda qarət və qətliamlar törədib yaxalanan ermənilərin cinayətkar olduqlarına dair Azərbaycan Hökumətinin Fövqəladə İstintaq Təşkilatının verdiyi qərarın qısaca xülasəsi

"Azərbaycan Hökuməti Fövqəladə İstintaq Təşkilatının üzvü Novatskinin raportuna görə,

Məşədi Qədim. Məşədi Nadiroğlu, Cabbar ağa Məhməd oğlu, Ağacan Mehdi oğlu, Nəsrəddin İbrahim oğlu, Saday Adıgözəl oğlu, Əvəz Məhəmməd oğlu, İbrahim Osman oğlu, Ağaşərif molla Soltan oğlu, Fərzəli Qaray oğlu, molla Həmzə Əhməd oğlunun şahidlikləri və Əngəkaran kəndinin protokolunun nəticəsinə görə,

Çuxur yurd kəndlilərinin Boris İvanoviç Polovinkin, Vasiliy Borisoviç Polovinkin, Nikolay Borisoviç Polovinkin, Yakov Polovinkin, Aleksey Alekseeviç Polovinkin, İvan Alekseeviç Polovinkin, Semyon Polovinkin, Yetim Çerkasov, İvan Mixayloviç Lorin, Nikita Lorin, Pyotr Lorin, Kosma İvanoviç Lorin, Semyon Lorin, Andrey Koctrulin, Matvey Salamatin, İvan Lapin, Moisey Lapin, Mixail İvanoviç Kojin, Semyon Kojin, Yakov Kojin, İvan Drilyov, Semyon Popov, Pyotr İvanoviç, Pyotr İosifoviç, Boris Qerasimov və Jebani kəndindən İvan Korolyov və Stepan Nazariç din düşmənçiliyi səbəbilə müsəlmanların kökünü kəsib mallarını qarət etmək məqsədilə öz aralarında anlaşaraq bir neçə yüz nəfərlik silahlı dəstə əmələ gətirib 18 mart 1918-ci il tarixində Şamaxı əyalətinin Əngəkaran kəndində yaşayan müsəlmanları qətl etməyə başlamışlar. 200 nəfərin qulaqlarını, burunlarını kəsib, gözlərini oyaraq öldürmüşlər. Bütün qiymətli əşyaları qarət etmiş, böyük baş və kiçik baş heyvanları sürüb aparmışlar. Buna görə də qanunun 13, 129, 922, 927, 1630, 1633, 1634, 1453 və 1667 maddələri ilə müqəssir olaraq cəzalandırılmaları qərarlaşdırılmışdır.

Azərbaycan Hökuməti
Fövqəladə İstintaq Təşkilatı rəhbəri İMZA
üzvləri (4) İMZA

13.06.1919
BCA 930 01. 5-112-2
ADA. 1061-1-110

Göyçay əyalətinə bağlı Kürdəmir, Qarabucaq, Ərəb Mehdibəy kəndləri ilə Bakı və kəndlərində yaşayan müsəlmanlara qarşı törədilən qətliamlar və qarətlər haqqında Azərbaycan Hökuməti Fövqəladə İstintaq Təşkilatının Ədliyyə Nazirliyinə yazdığı 22 oktyabr 1918-ci il tarixli raportun xülasəsi

"Kürdəmir Azərbaycan dəmiryollarına yaxın bir bölgədir. Sahəsi 16 min dönümdür. Bu kənddə çoxluq olaraq müsəlmanlar yaşayırlar. Yaşayanların az bir qismi də ermənilərdir, ancaq bunların burada daşınmaz əmlakı yoxdur. Hər bir kənd kimi bu kənd də 1 iyun 1918-ci ildə erməni militanlarının təzyiqinə uğradı. Ermənilər əsgəri forma geyərək xalqa hücum etdilər. Evləri, dükanları və məscidləri qarət edib atəşə verdilər. Şahidlərin ifadələrinə görə, ermənilərin müsəlmanlara qarşı törətdikləri beynəlxalq bir düşmənçilik kimi qiymətləndirilmişdir. Ermənilər müharibənin ilk günlərindən müsəlmanlara qarşı düşməncə davranırdılar. Onlar müsəlmanları təhrik edir, həqarətlər yağdırır və təhdid edərək gələcəkdə müsəlmanlardan intiqam alacaqlarını söyləyirdilər.

Bolşeviklər kəndə girməyə başladılar, öndə ermənilər gəlirdilər. Onlar hər hansı bir evə girərək müsəlmanları öldürür, onlara işgəncə verir, sonra da evləri yandırırdılar. Kəndlərin mal və mülkünü qarət edirdilər. Bu hadisələrə qarşı çıxmağa çalışan müsəlmanlarla eyni kənddə yaşayan ermənilər arasında toqquşmalar başladı. Müsəlmanlar o bölgəni tərk edərək Bakıya sığındılar. Bu hadisələrdə Kürdəmirdə 56 ev və dükanlar, 127 evə bitişik mülklər, 2 məscid qarət edildi, yandırıldı. Yerli imama aid ev qarət edildi və yandırıldı. "Qurani-Kərim" yandırıldı, bəziləri cırıldı, parça-parça edildi. Kürdəmirdən sonra Cəngi kəndi, Qaravəlli, Qarabucaq, Mustafa, Xəlil Qasımbəy, ərəb Mehdibəyli kəndləri qarət edildi, zəngin bəylər Soltanov ilə Sədalinin evləri soyuldu. Bütün bu kəndlər ermənilər tərəfindən yandırıldı.

Çaylı kəndində evlər soyuldu və atəşə verildi. Bu kənddə qalan 20 nəfər işgəncə verilərək öldürüldülər.

Qaravəlli kəndində 30 ev vardı, hamısı yandırıldı.

Qarabucaqda isə 121 ev soyulub yandırıldı, 7 nəfər vəhşicəsinə öldürüldü.

Xəlil Qasımbəy kəndində 7 nəfər öldürüldü, 9 ev yandırıldı.

Ərəb Mehdibəy kəndində 84 ev soyulub yandırıldı, 83 nəfər öldürüldü. Bunların 78 nəfəri kişi, 4 qadın, 1 oğlan uşağı idi.

Yandırılan evlərin fotoşəkli çəkilmişdir. İstintaq davam edir. İstintaq nəticələri raporta əlavə ediləcəkdir.

Ermənilər eyni ilin mart ayında silahlı hücuma keçdilər. Bakı, Şamaxı və Şamaxı əyalətlərinə hücum etdilər. İyun ayının ilk günlərində aldığımız məlumata görə, bolşeviklər Kürdəmir tərəfinə gələcəkdilər. Onlar rus, malakan və ermənilərdən əmələ gələn bir birlik idilər. Xalq vahimə içərisində kəndləri tərk etməyə başladı.

İstintaq Təşkilatının rəhbəri : İMZA

22 oktyabr Bakı"
18.12.1918
BCA. 930.01. 1-21-2
ASPİHDA. 277-2-16

**QARABAĞ HADİSƏLƏRİ**

Ermənilərin təhrikləri nəticəsində Ağdam müsəlmanlarının Azərbaycan hökumətinin rəhbərinə çəkdikləri teleqraf.

10.06.1919
BCA. 930.01. 2-28-3
ASPİHDA 277-2-40

Qarabağın Ümumi Valiliyinin Vali Vəkili Mahmudbəyovun ermənilərin Əliqanlı kəndinə etdikləri hücumlar haqqında Daxili İşlər Nazirinə göndərdiyi teleqrafın xülasəsi:

Şuşa və Cəbrayıl əyalətlərinə aid Tağ, Muğdamı, Susalık, Ağdus, Hazabutı kəndlərindən əmələ gələn silahlı, təxminən

600 nəfər ermənininin Əliyanlı kəndinə hücum etdikləri, müsəlmanların qarşılıq verdikləri, çatışmada 16 ermənininin ölü ələ keçirildiyi, öldürülən ermənilərin ciblərində tapılan sənədlərdən onların Lənkəran əsgəri birliyinə aid zabitlər olduqlarına dair məlumatlar verilir.

12.01.1920
BCA. 930 01. 3-50-3
ADA. 894-7-21

Qarabağın Vali müavini Məhmudbəyovun Azərbaycan Daxili İşlər Nazirinə göndərdiyi Cəbrayıl əyaləti müdafiə dəstələrinin müvəffəqiyyətli bir şəkildə ermənilərə qarşı çıxdıqları, ermənilərin Əsgəranı ələ keçirdikləri, Şuşa və Xankəndini mühasirəyə aldıqları, Cəbrayıl və Zəngəzur əyaləti müdafiə dəstələrinin birləşməsilə müvəffəqiyyətli neticələr əldə edildiyi, silah-sursatın yetərsizliyi və Ağdam-Qaryagin telefon xəttinin ermənilər tərəfindən təxrib edildiyi haqqında raport.

26.03.1920
BCA. 930 01. 3-52-1
ADA. 894-7-29a

Müttəfiq ölkə təmsilçilərindən əmələ gələn komissiyanın sadəcə Qazax əyalətinə deyil, bütün əyalətlərə göndərilməsinə dair qərar.

Müttəfiq dövlətlərin təmsilçilərindən əmələ gələn komissiyanın bir tərəfli olmaması üçün yalnız Qazax əyalətinə deyil, Qars əyaləti və digər bütün əyalətlərə göndərilməsi və ermənilərin hücumuna uğrayan bölgələrin araşdırılmasının daha doğru olacağına dair Azərbaycan dövlətinin müdafiə komitəsinin qərarı.

08.04.1920
BCA. 930 01. 4-70-7
ADA. 970-1-113

Cəbrayıl əyaləti Düdükçü kəndinin dağıdılıb yandırılması

Cəbrayıl əyaləti idarəçilərinin Cəbrayıl əyaləti I Polis bölgəsinə bağlı Düdükçü kəndinin 31 dekabr 1918-ci ildə dağıdılıb yandırıldığından bəhs edən raportu.

08.01.1919
BCA. 930.01. 3-48-6
ADA. 894-4-65

**ZƏNGƏZUR VƏ ZƏNGİBASAR HADİSƏLƏRİ**

Ermənilərin Zəngəzura bağlı Gorusda törətdikləri zülm

Zəngəzur əyaləti idarəçi vəkili Kələntərovun Bakıya göndərdiyi teleqrafda Razdar, Əsgərlər və Vəlilər adlı müsəlman kəndlərinin dağıdılıb yandırıldığı bildirilir.

06.01.1919
BCA. 930.01. 3-48-5
ADA. 894-4-65

Zəngəzur əyalətinin idarəçisi Məlik Namazəliyevin teleqrafı.

İngilis nümayəndəliyinin rəhbəri Minbaşı Gibbonun bölgədə olmasına baxmayaraq, Zəngəzur əyalətindən 10 müsəlman kəndinin, General Andranikin silahlı qruplaşmaları tərəfindən dağıdılıb yandırıldığı və bu qruplaşmalarda Türkiyədən gələn ermənilərin də olduğuna dair Məlik Namazəliyevin teleqrafı.

10.01.1919
BCA. 930.01. 3-48-7
ADA. 894-4-65

Ermənilərin Zəngəzur kəndlərindəki zülmü və mühasirəsi davam edərkən ingilis təmsilçisi yol açmaqla məşğul idi.

Zəngəzur əyalətinin idarəçisi Mahmudbəyovun Quşulu Acılı, Arxasu, Ağsarlı kəndlərinin dağıdılması, Şatarcıq, Açaquv, Oxçu kəndlərinin təslim olması, Kıratəh, Mololu Kovnu, Karatağı, Gabarlı, Kiçik Vaşbakı, Mahmudlu, Kayddaşıh, Kegacatı, Quruyurd, Kayçan, Küra, Acıbacı kəndlərinin mühasirəyə alınması və bütün bunlar baş verərkən ingilis təmsilçisinin Şuşadan Gorusa keçmək üçün yol açmaqla məşğul olduğuna dair bir teleqrafı.

29.01.1919
BCA. 930.01. 3-48-8
ADA. 894-4-65

Ermənilərin Zəngibasar bölgəsində hücumlarına davam etdikləri haqqında teleqraf.

Azərbaycan Xarici İşlər Naziri F.Xoyski tərəfindən 21 dekabr tarixində ermənilərin Zəngibasar bölgəsində müsəlmanlara qarşı savaşmağa başlamalarının, Qarğabasar, Uluxanlı kəndlərinin dağıdılmasının, Çobankərə və Qaraqışlaq kəndləri yaxınlığında toqquşmaların davam etməsinin iki ölkə arasındakı ixtilaflı mövzuların sülh yoluyla həll edilməsini əngəllədiyi, ermənilərin 23 noyabr 1919-cu il tarixli anlaşmaya əhəmiyyət vermədiklərinin ifadə edildiyi Ermənistan Xarici İşlər Nazirinə göndərilən teleqraf.

27.12.1919
BCA. 930.01. 4-56-4
ADA. 897-1-38

## YEREVAN, NAXÇIVAN, ŞƏRUR, SÜRMƏLİ, VEDİBASAR VƏ MİLİSTAN HADİSƏLƏRİ

Azərbaycanın Yerevandakı İctimai İşlər Nazirliyinin təmsilçisi T.Makinskinin Azərbaycan İctimai İşlər Naziri V.V.Klenevskiyə erməni qətliamlarından qaçdıqları səbəbilə mülteci vəziyyətinə düşən müsəlmanların öz kəndlərinə dönə bilmədiklərinə görə çox sıxıntılı günlər yaşadıqları və hətta aclıqdan ölənlərin olduğu, qış aylarında bu ölümlərin artacağı, sağlamlıq probleminin olduğu, Yerevan, Ecmiadzin, Novo Bayazid, Sürməli, Zəngəzur əyalətləri başda olmaqla, bu bölgələrə təcili olaraq qida və sağlamlıq yardımının çatdırılması haqqında göndərilən raport.

09.09.1919
BCA. 930.01. 2-31-3
ASPİHDA. 277-2-58

Yerevan müsəlmanlarının qorunma istəkləri.

Yerevanın müsəlman cəmiyyəti İdarə Təşkilatının rəhbəri T.Makinskinin Azərbaycan hökumətinin rəhbərinə və Xarici İşlər Nazirinə Yerevandakı müsəlmanların müdafiəsi üçün aktiv fəaliyyətə keçilməsini istəyən müraciəti.

18.01.1919
BCA. 930.01. 4-60-1
ADA. 970-1-15

Ermənilərin Yerevandakı müsəlmanlara qarşı hücumları.

Azərbaycanın Gürcüstandakı diplomatik təmsilçi yardımçısı Vəkilovun Müttəfiq Dövlətlər Yüksək Komissarı Qaskelə göndərdiyi, ermənilərin Yerevan bölgəsi müsəlmanlarını silah gücüylə öz idarəsi altına almağa çalışdıqları, bu məqsədlə erməni əsgəri birliklərinin müsəlman kəndlərinə hücumlar tərtib edərək oraları yıxdıqları, yüzlərcə insanı mülteci vəziyyəti-

nə saldıqları, bu hücumların və qətliamların bir an əvvəl dayandırılması tələbini bildirən teleqraf.

30.12.1919
BCA. 930.01. 4-56-5
ADA 897-1-38

Ermənilərin əsir aldıqları müsəlman qadın və qızların azad edilmələri üçün müttəfiq dövlətlərin ordu komandanlığı ilə görüşülməsi barədə Azərbaycanın Gürcüstandakı diplomatik təmsilçi yardımçısı F.Vəkilovun Azərbaycan Xarici İşlər Nazirinə göndərdiyi yazı.

Yazıda ermənilər tərəfindən əsir alınıb zorla Yerevana aparılan müsəlman qadın və qızların çirkin və alçaldıcı hərəkətlərə məruz qaldıqlarının general Biçə anladılmasından sonra general Biçın Yerevanda olan müttəfiq dövlətlərin ordu komandanlığına bir teleqraf göndərərək əsirlərin azad edilmələrini əmr etdiyi və Paris konfransında olan Azərbaycan heyətinin rəhbəri Topçubaşovun Bakıya göndərdiyi gizli sənədlərin Batumda açılmasıyla, müttəfiq dövlətlər ordu komandanlığına etiraz notası verildiyi bildirilir.

31.03.1919
BCA. 930.01. 4-64-1
ADA. 970-1-54

Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Milistandakı müsəlmanlara yardım məqsədilə göndərilən təmsilçilərin təhlükəsizliklərinin təmin edilməsi haqqında.

Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Milistana göndərilən müsəlmanların vəziyyətini araşdıraraq pul yardımı etmək məqsədilə gedən təmsilçilərin əngəlsiz və mühafizəli bir şəkildə səfərlərinin təmini üçün Azərbaycan hökuməti rəhbəri H.Xoyskinin Transqafqazdakı müttəfiq dövlətlərin ordu komandanı general V.Thomsona yazdığı məktub.

03.04.1919
BCA. 930.01. 2-30-2
ASPİHDA. 277-2-57

Cənub-qərbi Azərbaycan müsəlmanları üçün məclislərindən Qafqaz müttəfiq yüksək komissarı polkovnik Qaskelə göndərilən muxtıra.

Cənub-qərbi Azərbaycan müsəlmanlarının Ümumi Məclis rəhbəri Əli Səbri Qasımov tərəfindən Transqafqazdakı müttəfiq dövlətlərin Yüksək Komissarı polkovnik Qaskelə, Sürməli, Vedibasar, Milistan, Şərur, Naxçıvan və Ordubad əyalətlərində yaşayan müsəlman xalqın tələblərini ehtiva edən muxtıra göndərilmişdir. Bu muxtırada qısaca bu xüsuslardan bəhs edilmişdir:

"Can və mallarını qorumaq məqsədilə öz güc və imkanlarından istifadə edərək erməni zülmünə qarşı çıxan bölgə xalqının əminamanlıq və güvən içərisində yaşama haqqını əldə etmək üçün bəzi tələblərinin olduğu bildirilməkdədir. Bunlar:

1. Sürməli, Vedibasar, Milistan, Naxçıvan və Ordubad əyalətləri Azərbaycanın bir parçasıdır.

2. Bu bölgələrin Ermənistana bağlanması istənə bilməz.

3. Əgər Azərbaycan hökuməti və Qafqaz Müttəfiq Yüksək Komissarlığı bu əyalətlərin Ermənistana bağlanmasını istərlərsə, bu vəziyyətə xalq tərəfindən qarşı çıxılacaqdır.

4. Müsəlman xalqın haqları geri verilib, mültəcilərin öz kəndlərinə dönmələri təmin edilər və hansı camiyyətdən olursa olsun, günahkar olanlar bərabər cəzalandırılarsa, erməni xalqı ilə dostluq və sülh içərisində ancaq o zaman yaşanacaqdır.

5. Seçilmiş təmsilçilərlə iqtidar təşkil edilməlidir.

6. Yerli idarəyə gətiriləcək rəhbərliklər azlıqların haqlarını təmin edəcək şəkildə olmalıdır.

7. Poçt-teleqraf, maliyyə və vergilər mövzusunda Azərbaycanla dövlət əlaqəsi qurulmalıdır.

8. Yuxarıda qeyd edilən maddələr yerinə yetirilməli, Yüksək Komissarlıq tərəfindən vəzifələndiriləcək Amerika təmsilçisi tərəfindən təmin olunmalıdır.

9. Qafqaz Sülh Konfransında bu mövzular qərara bağlanmalıdır.

10. Xalq müttəfiqlər və Azərbaycan hökuməti tərəfindən sıxışdırılmamalıdır.

Ayrıca, bir an əvvəl bütün müttəfiq ölkə təmsilçilərinin təmsil edildiyi müstəqil bir istintaq təşkilatı qurulmalı və günahkarlar cəzalandırılmalıdırlar.

Cənub-qərbi müsəlmanları
Ümumi Məclis rəhbəri: A.S.Qasımov
Həmşəhərlilik birliyinin rəhbəri: Z.Məmmədov
üzv.: R.K.Nəcəfov"

09.09.1919
BCA. 930.01. 2-31-6
ASPİHDA. 277-2-58

"Böyük Ermənistan"ın qurulmasında istifadə edilən İngiltərə Xarici İşlər Naziri Lord Curzonun qardaşı Alhay Ravlinson bir heyət ilə Ərzurumda yaşayır, şərqdən ermənilərin gəlməsini gözləyirdi. Lakin ermənilər Sarıqamışdan bu yana keçə bilmirdilər. Ravlinson planını yerinə yetirmək üçün bir çarə axtarırdı." (231).

Qars və ətrafında erməni zülmünə qarşı türk müqaviməti hökm sürürdü. Milli müqavimət cəmiyyətləri qurulmağa başlamışdı. İngilislərin buna qarşı tədbiri türk müqavimətini qırmaq üçün könüllü erməni çətələrini meydana gətirmək oldu. "Ermənilər ingilis dəstəyi altında bolşeviklərin zəif olduqlarından faydalanaraq Şərqi Anadolunu erməni yurdu etməyə qərar vermişdilər." (232). Bu istiqamətdə ermənilər Avropada da diplomatik fəaliyyətlər sürdürürdülər. Onlar Paris Sülh Konfransına qatılmış, "Sevr müqaviləsi" üçün aparılan danışıqlar və iclaslara da təmsilçilər göndərmişdilər. Bu iclaslarda ermənilərı daşnak komitəsindən Avadis Aharonqyan və fransızlara təmayüllü Boqos Nubar təmsil etmişlər. İngilislərin fəal dəstəyilə ermənilərin istəkləri nəticəsində 10 avqust 1920-ci ildə imzalanan "Sevr

müqaviləsi"ndə Şərqi Anadoluda "Erməni dövləti"nin qurulması maddəsi yer almışdır.

İngilislərin dəstəyilə lovğalanan ermənilər hələ "Mondros müqaviləsi"nin ardından yaxşıca azğınlaşmış, Şərqi Anadoluda türklərə təcavüzlərini artırmışdılar. Bu təcavüzlərə qarşı milli müqavimət hərəkətləri doğmuşdu. Lakin bunlar dağınıq bir halda idilər. Bunları bir qaydaya salmaq, sonra müttəfiqlərin sınağından uzaq Şərqi Anadoludakı türk güclərini dağıtmamaq lazım idi. Mustafa Kamal ilə görüşən Kazım Qarabəkir məmləkətin pis vəziyyətdən qurtarılması üçün birlikdə çalışmaq qərarı aldılar. Kazım Qarabəkir 3 mart 1919-cu ildə Ərzurumdakı artilleriya komandanlığına təyin edildi. Qarabəkir paşa bu bölgədə milli direnişçilərlə təmasa başladı. O, ingilislərin təkidinə baxmayaraq, əmrindəki artilleriyanı dağıtmamaq üçün hər çarəyə baş vurdu.

İngiltərə artilleriyanı dağıdıb ermənilərin bu bölgədə asanlıqla hərəkət etmələrini təmin etmək istəyirdi. İngilislərin milli müqavimət hərəkətları və milli mübarizə quvvələrinə qarşı istifadə etdiyi taktikalardan biri də ermənilərlə kürdləri ayrı-ayrı deyil, bunların güclərini birləşdirərək istifadə etmək idi. "Bu iki ünsürün bir-birlərilə yaxşı münasibətlər qurmaları və istiqbala aid şeylərindən müştərək hərəkət etmələri ingilislərin başdan bəri arzuladıqları bir xüsus idi. İngilislər uzun illər erməni və kürdlərin eyni soydan gəldiklərini və əqrəbə bir millət olduqlarını belə təbliğ etmişdilər. Erməni-kürd yaxınlaşması ingilis mənfəətləri üçün fövqəladə bir nəticə təmin edəcəkdi. Bunu rəsmi bir təşəkkülə sövq etmə istəklərinə girən İngiltərə ilk planda istəyinə nail olmuş və ermənilərlə kürdlərə müştərək bir cəmiyyət qurdurmuşdu. 1920-ci ildə Parisdə qurulan bu cəmiyyətə "Hoybarı" adı verilmişdi... Xüsusilə "Sevr müqaviləsi"nin bağlandığı zaman fəal olan bu cəmiyyət müqavilə hökmləri içərisində kürdlər ilə əlaqəli maddənin əlavə edilməsini də təmin etmişdi."(233).

Dünən kürdləri qətl edən ermənilər bu gün (1920) onları öz ittifaqlarına alıb əməllərini həyata keçirmək uğrunda istifa-

də etmək istəyirdilər. Onları bu yola təşviq edən ingilislər idi. Lakin kürdlər arasında bir ovuc aldadılmışlardan başqa bu ingilis-erməni oyununa uyan olmadı. Əksinə, bu oyun və təbliğata kürd qardaşlarımız qarşı çıxdılar. "Bütün cənub cəbhəsi üzərində ingilislərin apardıqları təbliğat ilə ermənilərin İğdır cəbhəsində söylədikləri söz eyni idi, hər ikisi də kürdlərlə ermənilərin qardaş olduqlarını iddia edirdilər. Beləcə məqsədlərini ortaya qoyur, tərəfimizdən bir söz söyləməyə lüzum buraxmırdılar. Düşmənin sözlərinin nə demək olduğunu tayfa ağaları çox yaxşı anladılar. İngilislərin qızıllarına arxa çevirdilər və cənub sərhəddimizə qarovulçu oldular." (234).

Milli mübarizə quvvələrinə qarşı erməni-kürd işbirliyini təmin edə bilməyən İngiltərə erməniləri təkbaşına axıra qədər istifadə etməyi əldən buraxmadı. Cənub-şərqi Anadoluda Urfa, Mardin və Qaziantepi işğal edən ingilislər bölgədəki erməniləri türklərə qarşı istifadə etdilər. İngilislərin dəstəyindən təkabbürlənən ermənilər türklərə hücum etmiş, bir çox insanı öldürmüş, onların mal və mülklərini qarət etmişdilər. Bu vəziyyət Qaziantepdə fəlakət halını almışdır. (235). Qərbi Anadoluda yunan hərəkatı ilə birlikdə şərqdən "Erməni Respublikası"nın silahlı quvvələrinin milli mübarizə qüvvələrinə hücumu əskik olmadı. Bu erməni hücumlarına son vermək üçün şərq cəbhəsinin komandanı Kazım Qarabəkir paşaya 24 sentyabr 1920-ci ildə ermənilərə qarşı hücum əmri verildi. Sarıqamış, Kağızman, Qars ermənilərdən geri alındı. Erməni ordusu məğlub edilmiş, türk ordusunun önü açılmışdı. Türklər daha irəliyə gedə bilərdilər. Bu vəziyyət qarşısında ermənilər aman dilədilər. 18 noyabr 1920-ci ildə türk qərargahına gələn erməni nümayəndələrilə sülh danışıqlarına başlandı. 3 dekabr 1920-ci ildə "Gümrü sülh müqaviləsi" imzalandı. Bu müqaviləyə görə, ermənilər "Sevr müqaviləsi"lə özlərinə verilən Ərzurum, Van, Bitlis, Diyarbəkir, Trabzon, Elazığ və Sivas vilayətlərindən vaz keçdilər.

Bolşeviklər 18 fevral 1921-ci ildə "Ermənistan Respublikası"na son verdilər. Ermənilər bolşeviklərə qarşı üsyan etdilər, hətta Mustafa Kamaldan yardım istədilər!

Yeri gəlmişkən bunu da qeyd edək: bolşeviklər də erməni məsələsindən istifadə edərək Şərqi Anadoluda bəzi vilayətləri "Ermənistan Respublikası"na daxil etmək, sonra isə bu "Respublika"ya son verdikdə bu vilayətləri Rusiyaya daxil etmək kimi bir mövqedə olmuşlar...

Bolşevik Rusiyasının şefləri ilə türk nümayəndələri arasında Brest-Litovskda müzakirələr davam edərkən 13 yanvarda "Pravda" qəzetində Leninin və Stalinin imzalarını daşıyan bir məlumat yayınlanmışdı. "13 nömrəli Dekre" adıyla verilən bu məlumatın məqsədi haqqında Hikmət Bayur belə yazır: "Kommunistlərin əvvəl bir dövlət kimi tanıdıqları ölkələri sonra bir-bir yenidən boyunduruq altına almalarına baxıldıqda Diyarbakirdən cənuba sürüşəcək bir Ermənistan yolu ilə çarların Ağ dənizə çıxmaq siyasətini həyata keçirməyi sınaqdan keçirdikləri hökm oluna bilirər." (236). Bu məlumat qısaca belədir:

"İşçi və kəndli hökuməti Rusiyada və Türkiyədə ermənilərin istərlərsə tam müstəqilliyədək öz talelərini özlərinin təyin etmə haqlarını dəstəkləyir. Nazirlər təşkilatı bu haqqın həyata keçə bilməsinin ancaq azad bir referendum üçün əvvəlcədən inam təmin etməsilə ola biləcəyinə inanır. Bu inamlar bunlardır:

a) Türkiyə əsgəri birliklərinin Ermənistanın sərhədlərindən çəkilməsi və bir erməni milisiyası qurulub orada mal və can güvənliyinin təmin olunması;

b) yaxın bölgələrə sığınmış erməni köçərilərinin yerlərinə dönmələri;

c) demokratik prinsiplərə görə seçilmiş simalardan qurulan keçici bir erməni Beynəlxalq hökumətinin yaradılması; bunun şərtləri Türkiyə ilə sülh danışıqları zamanı irəli sürülməli;

d) müharibənin başından bəri Türkiyə hökuməti tərəfindən qovulmuş ermənilərin yerlərinə dönmələri;

e) bunların yerinə yetirilməsi üçün Qafqaz İşləri Komissarı Şaumyanın ermənilərə yardım etməsi;

f) erməni torpaqlarının xarici birliklərə boşaldılması üçün bir yığma komissiyanın qurulması." (237).

Hikmət Bayırun dəyərləndirməsinə görə, bolşeviklərin qayəsi olan "Şərqi Anadolunu udma planı" olan bu planı Rusiyanın nümayəndəsi Çiçerin Türkiyənin nümayəndələrinə qəbul etdirmək üçün çox çalışmış, lakin türk nümayəndələrinin şiddətlə qarşı çıxmaları nəticəsində bu plan nəticəsiz qalmışdır. Bolşeviklər bu məlumatda bəhs etdikləri "Millətlərin öz talelərinin özləri tərəfindən təyini" prinsipinə sadiq qalmamışlar. Onlar 1918-ci ildə qurulan "Ermənistan Respublikası"na son verib onu Sovet İttifaqına qatmışlar. Əgər Sovet İttifaqının rəhbərləri Leninin və Stalinin imzaladıqları bu məlumat müsbət həll edilmiş olsaydı, Şərqi Anadolu bölgəsi də "Ermənistan Respublikası" adıyla Sovet İttifaqının sərhədlərinin içərisinə alınacaqdı.

Son zamanlarda ("Sevr müqaviləsi"ndən sonra) İngiltərənin erməni məsələsinə dair aldığı tövr bu məsələni ABŞ-ın üstünə atıb özünü dövrədən çıxarmaq olmuşdur. Bu vaxtlar ermənilər də ABŞ-da, ABŞ-ın mandatında bir "erməni dövləti"nin qurulması üçün sıx təbliğata və təzyiqlərə girişmişdilər. İngilislərin və ermənilərin təkidləri nəticəsində ABŞ vəziyyəti yerində analiz etmək üçün general Harbordun rəhbərliyində bir heyəti Anadoluya göndərdi. 1919-cu ilin sentyabr ayında Mersinə gəlib, buradan Şərqi Anadolu gəzisinə başlayan Harbord Ərzuruma qədər gəldi. Burada Kazım Qarabəkir tərəfindən qarşılanan Amerikalı generala türklərin ermənilərlə əlaqəli görüşünü ehtiva edən bir raport verildi. Ayrıca, Mustafa Kamal ilə də görüşən generala Mustafa Kamal paşa bir memorandum verdi. General Harbord Şərqi Anadolu gəzisi nəticəsində ABŞ Prezidenti Vilsona verdiyi raportda: "Böyük Ermənistanı gəzdim, lakin içərisində bir erməni belə görə bilmədim," – demişdir. Vilson da prinsiplərinin 14-cü maddəsinə görə, o bölgədə bir erməni dövlətinin qurula bilməyəcəyi qərarına gəldiyini açıqlamışdır. Bu hadisədən sonra ABŞ erməni məsələsinin adını bir daha anmamışdır. Beləliklə, İngiltərənin ermənilərin işinə ABŞ-ı qatıb, ondan istifadə etmək taktikası bir nəticə verməmişdir.

Birinci Dünya müharibəsindən sonra İngiltərə, Fransa və İtaliya dövlətləri arasında bağlanan müqavilələr nəticəsində

Anadolu bu üç dövlətin nüfuz bölgəsinə ayrılmış. Adana, Qaziantep, Maraş, Urfa və havalesi fransızlara verilmişdi. Fransızlar bu bölgəni ələ keçirmək üçün hərəkətə keçdilər. Bu bölgələrə yerləşmək və buralarda möhkəmlənmək üçün öz imkanlarını kifayət qədər görməyən Fransa hökuməti ermənilərdən istifadə etməyi planlaşdırdı. Beləcə, ingilislərdən sonra fransızlar da erməniləri Türkiyə üzərindəki əməllərini həyata keçirmək uğrunda bir oyuncaq olaraq istifadə etmişlər. Fransızların erməniləri müdafiə edib onlara kömək etmələri çox daha əvvəllər başlamışdı. "Fransada xalq üzərində böyük nüfuza sahib Clemencean, böyük sosialist lider Jaures və yazıçı Anatoel France 1900-cü ildə on beş gündən bir yayınlanan "Pro-Armenia" jurnalında birləşərək erməni müstəqillik hərəkatı üçün dəstək vəd etdilər." (238). Fransızlar bu davranışları ilə ermənilərin simpatiyalarını öz üzərlərinə çəkmək, Orta Şərqdəki əməllərini həyata keçirmək üçün ingilislər və ruslar kimi ermənilərdən istifadə etmək istəmişlər. Onlar erməniləri istifadə etmək fəaliyyətinə "Mondros müqaviləsi"nin ardından sürətli bir şəkildə başlamışlar.

"Mondros müqaviləsi" bağlanır-bağlanmaz Fransanın nüfuz bölgəsinə erməni axını başlamışdı. Fransızlar "Kilikiyanı sizə verəcəyik" vədilə erməniləri könüllü olaraq fransız ordusuna qatılmağa çağırmışdılar. "Daşnaksutyun bir yandan ruslar tərəfindən aldadılırkən, digər yandan da Fransa hökuməti tərəfindən aldadılırdı. 1916-cı ilin sonlarında Fransa Xarici İşlər Naziri Suriya və Anadolu ermənilərinin toplanıb Şərq regionunda vuruşacaq könüllülər istəyir və qarşılığında müharibədən sonra Fransanın payına düşəcək olan Kilikiyanın ermənilərə verilməsini vəd edirdi." (239). Bu çağırışlar nəticəsini verməkdə gec qalmadı. Fransız alhay Romiev idarəsində bir erməni dəstəsi İskəndəruna çıxdı. Sonra general Premonua "Ermənistanın idarə şefi" ünvanı ilə Kilikiyanın idarəsi verildi. Onun zamanında Adanaya Suriyadan 120 min erməni köçərisi gəldi. (240). İstər Fransız əsgəri uniforması geydirilmiş erməni əsgərləri, istərsə də erməni xalqı Fransa əsgərlərinin himayə-

sində türkləri qətl etməyə başladılar. Qətliam o dərəcəyə çatmışdı ki, fransızlar belə hürkməyə başlamışdılar. (241).

Fransızlar 21 mart 1918-ci ildə Albay Romiev komandanlığındakı erməni könüllü əsgərlərilə bərabər Adanaya girdilər. Bu zaman şəhərə böyük bir erməni axını başladı. Əvvəldən Adana ilə heç bir əlaqəsi olmayan minlərcə insan bura gəlib yerləşdi. (242). Fransızlar təşkilat və tərtibatı genişləndirmək fikrilə bir bayraqdar olaraq albay Normahı göndərdilər. Normah gəldiyi gün erməni gənclərini ətrafına toplayıb, onları silahlandırdı. Komitəçi Vahanı polisin müdir müavinliyində, bu qəbildən bəzi adamları da katiblik və tərcüməçilik kimi işlərdə istifadə etdi. Bütün bunlardan ermənilər çox təkəbbürləndilər. Fransızlar isə müdaxilələrini daha da artırdılar. Xalq çox həyəcan keçirərək necə qurtaracağını və necə bir tədbir alacağını düşünməyə başladı. Onlar can və mallarını qurtarmaq qayğısı ilə qarovulçulardan başqa özləri də gecələri sabaha qədər növbə tutmağı uyğun gördülər. (243). Erməniləri siyasi və iqtisadi mənfəətləri uğrunda istifadə edən fransızlar öz bayraqları və erməni bayraqlarının asılmasına icazə verdikləri halda, türk bayrağının asılmasına icazə vermədilər. (244).

Eyni vəziyyət Kozanda da baş verdi. 1919-cu ildə fransız yüzbaşı Tparuva "əsgəri mutəsərrif" sifətilə Kozana gəldi. Ermənilər onu fransız və erməni bayraqlarıyla qarşıladılar. Yüzbaşı türklərə təhdid savuran bir nitq söylədi. Kozanın mülki idarəsi və jandarmasını ermənilərə təslim etdi. Bu arada, hardan gəldiyi bəlli olmayan minlərcə erməni şəhərə girib yerləşdi. Bunların çoxuna fransız uniforması geydirib türklərə qarşı istifadə edirdilər. Erməni-fransız qruplaşmaları yollarda türkləri öldürməyə başladılar. Zəngin müsəlmanların pullarını və mallarını qəsb etdilər. (245).

Anadoluda fransız bölgəsinə ayrılan yerli fransız qüvvələrinin böyük bir qismini ermənilər təşkil edirdilər. Fransız dəstələrinin üçdə biri fransız əsgərlərindən, qalanı yerli ermənilərdən ibarət idi. Erməni millətindən olan əsgərlərin sayı 18 min nəfərə yaxın idi." (246).

Kilikiya və Suriya Fransız Quvvələri Baş Komandanı general Qouraunduın əmrində də üç böyük erməni dəstəsi vardı. "Erməni quvvələri dünyanın dörd tərəfindən gələn minlərcə milliyyətçi erməni könüllüsündən təşəkkül edirdi. Təbii ki, bu könüllü ermənilər fransız uniforması geyir, fransız bayrağı altında çarpışırdılar. Fəqət onların xüsusi bir bayraqları da vardı." (247).

Mustafa Kamal paşa 31 mart 1920-ci ildə Refet Beleyə İtalyan agenti vasitəsilə bütün dünyaya duyurulması üçün Adana və ətrafındakı vəziyyət haqqında bunları bildirirdi:

"Adananın əhvalı gündən-günə pisləşirdi. Fransızlar Maraş və Urfada etdiklərini Adanada da eynən tədbiq edərək erməniləri silahlandırırdılar. Bunlar müsəlmanlara hücum edir, Kozan ətrafında müsəlman əhalisindən toplanan silahları, heyvan və ev əşyalarını ermənilərə verirdilər. Kozan civarında Hamam, Qurdoğlu bağı, Toklunlu bağı, Çolağ Həsən, Yassı, Cani, Əhməd ağa və Qabasaqqal kəndləri erməni jandarma və könüllüləri tərəfindən tamamən yox edilmişdi. Bu kəndlərdən qaçaraq xilas olan əhalidən 1.750 adam Ceyhan və 1.500 adam Karşantı tərəflərinə hicrət etmişdilər. Yaşları uyğun olan ermənilər bir-birinin ardınca silahlandırılarkən tək bir müsəlman jandarma hələ qeyd edilmirdi."

Fransızların Kilikiyada və ətrafında yaratdıqları vəziyyət türklər və ermənilər arasında qarşılıqlı bir intiqam hissini oyandırırdı. Yaradılmış bu vəziyyət nəticəsində də işğal baş tutmasaydı, əhalinin bir-birini boğmaları elan ediləcəkdi. (248). Bu da bütün dünyanın qəbul etdiyi "mədəni" fransızlar!

Fransızların Birinci Dünya müharibəsindən sonra Anadoluya əsgər yeridmələri və özlərinə yardımçı olaraq erməniləri seçmələri onların türk millətini əsir almaq uğrunda son səyləri olmuşdur. Türk millətinin Vətəni qurtarmaq uğrundakı əzm və qərarı, Adana, Maraş, Urfa və Qaziantep xalqının fədakarca mübarizəsi düşmənin imperialist niyyətini qurşağında buraxmışdır. Fransızlara alət olan ermənilər də bu hərəkətləri ilə öz-özlərini xərcləmişlər.

Fransızların və ingilislərin ermənilərı necə istifadə etdiklərini Hikmət Bayur öz əsərində belə dəyərləndirir: "...Qısacası, bütün müharibə boyunca fransızların və ingilislərin ən iqtidarlı ağızlardan ermənilər lehinə çıxan sözləri siyasi olmaqdan çox insanlıq pərdəsinə bürünən bir xüsus daşımışdır. Yəni əbəs yerə ümidləndirilən ermənilər Osmanlı dövlətinə qarşı ayaqlandırılmış və beləcə məhvə sürüklənmişlər. Fransızlar ermənilərin əsl istəkləri olan muxtariyyət və müstəqilliyi heç bir zaman onlara açıqca vəd etməmişlər. Yəni ermənilər ancaq öz millətindən olan ziyalıların və komitəçilərin xəyal və səylərinin qurbanı olmuşlar." (249)

## BƏZİ YAZIŞMALAR

Birinci Dünya müharibəsi bitmək üzrə idi. Rusiyada baş verən Oktyabr inqilabından sonra rus əsgərləri komandanlarını dinləməyərək cəbhəni tərk edib öz məmləkətlərinə getmiş və cəbhədə Rusiya birliklərinə bağlı erməni çətələri qalmışdı. Bu çətələrin yaranmış vəziyyətdən faydalanaraq silahsız müsəlman xalqını öldürüb yox etməyə başladıqları haqda müsəlmanlardan yazılı şikayətlər gəlirdi. İşğal altında olan bölgələrdən qaçaraq Osmanlı ordusuna sığınan bəzi insanların ifadələri çox həyacanverici mahiyyətdədir.

Ərzincan çevrəsində məşhur erməni çətə rəislərindən olan və Birinci Dünya müharibəsi başlarında Şərqi Qarahisarda müsəlmanlara qarşı qətliam törədib Rusiyaya qaçan Sivaslı Muradın, Ərzurum bölgəsində dəhşətli və faciəvi hadisələr törədən erməni komandanlarından Andranikin, Bayburtda və Muşun yaxınlığındakı Talor vadisində qətliamlar törədən və bu yerədə Osmanlı ordusunun hissələrinə hücumlar təşkil edən Bayburtlu Arşakın adamlarıyla birlikdə törətdikləri qətliamlar tarixdə silinməz iz buraxmışdır.

a) Osmanlı Qafqaz orduları komandanı Rusiyanın Qafqaz Orduları Baş Komandanı general Przevalskiyə (250) 24 dekabr

1917-ci il tarixli və 7312 nömrəli rəsmi yazı ilə Suşeharindən göndərdiyi rəsmi məktubda belə deyirdi: "Rusiya ordusunun işğalı altında və ordularımın qarşısında olan bölgələrdə yaşayan Osmanlı xalqının istər yerli, istərsə də xaricdən gələn ermənilər tərəfindən mal, can və namusları təcavüzə uğradığı sənədlərdən anlaşıldığına görə, Rusiya ordusu yüksək komanda heyətinin istəklərinə qarşı olan bu vəziyyətin sərt əmirlərinizlə qarşısı alınmasına çalışılması ifadəsilə xahiş edir." (251).

b) Bu məktuba bir cavabın gəlməməsi və müsəlman xalqa qarşı törədilən zülmlər ilə e'aqəli şikayətlərin davam etməsi nəticəsində Qafqaz ordusu komandanlığı, Suşeharindən Rusiya Qafqaz ordusu komandanı general Odişelidzeyə16 yanvar 1918-ci il tarixli və 516 nömrəli rəsmi yazıda eynilə belə deyilirdi: "Ərzincanda imzalanan "atəşkəs müqaviləsi"nə görə, rus birliklərinin təsbit edilmiş bölgələrdən torpaq və dəniz yolu ilə geriyə çəkilmələri səbəbilə qismən boşalan, qismən də əsgər sayının azalan yerlərdə və bu cümlədən olan Trabzon, Ərzurum və Bitlis vilayətlərinə bağlı qəsəbələrdə, kəndlərdə və yollarda, xüsusilə erməni çətələrinin və rumlar ilə məskun yörələrdə də rumların davamlı olaraq müsəlmanların namusuna, canına və malına hücum etməyə başlamış, hətta vəhşicəsinə qətliamlar törədilmişdir. Bu cür faciəvi hadisələr sərhədləri müxtəlif yerlərdən keçərək birliklərimizə sığınan müsəlmanların ifadələrindən anlaşılmış və son zamanlarda bizim tərəfə sığınan iki rus zabitinin vermiş olduqları ifadələri ilə də doğrulanmışdır." - deyildikdən sonra bu vəziyyətin sərt əmrlərlə qarşısı alınması rica olunmuşdur. Eyni yazı təkrar Przevalskiyə də yazılmışdır.

c) Bu arada, Rusiyanın Qafqaz Orduları Baş Komandanı general Przevalskidən Osmanlı komandanına gələn 01 yanvar 1918-ci il tarixli və 56057 nömrəli rəsmi məktubun mətni eynilə belədir: "Hörmətli general, 24 dekabr 1917-ci il tarixli və 7312 nömrəli rəsmi məktubunuzda bildirilən istəyə uyğun olaraq, "Ərzincan atəşkəs müqaviləsi"nin 12-ci maddəsinə əsaslanıb

13-cü maddənin tamamilə ləğv edilməsi üçün heç bir çətinliyin olmadığını diqqətinizə ərz edirəm. Komandanlığım altındakı ordular tərəfindən işğal edilmiş bölgələrdəki müsəlman xalqa qarşı ermənilər tərəfindən törədilən və tərəfinizdən bildirilən zülm və uyğunsuz hərəkətlərə, işğal edilmiş vilayətlərdə bu maddə haqqında dərin və diqqətli bir araşdırma aparılması və bu vilayətlərdəki Osmanlı xalqına qarşı törədilən hər cür şiddətli davranışların zamanında qarşısı alınması üçün təsirli və şiddətli tədbirlərin düşünüldüyü haqqında təcili əmrlər verildiyini də ərz edirəm." (General Przevalskinin bu məktubu ilə ermənilərin işğal bölgəsindəki müsəlmanlara qarşı törətdikləri vəhşiliklər rəsmən doğrulanmışdır).

d) General Odişelidzedən Qafqaz Cəbhəsi Osmanlı Orduları Komandanına gələn teleqraf eynilə belədir:

"Aşağıdakı kədərli hadisələri dövlətinizə təəssüf hissi ilə ərz etməyi özümə bir vəzifə bilirəm. Bəzi pozğunçuların güya müsəlmanların ixtilal çıxaracaqları haqqında yaydıqları xəbərlərə görə, Ərzincanda 15/16 yanvar 1918-ci il gecəsi şəhərdə olan əsgəri birliklərə aid əsgərlər öz başlarına müsəlmanların evlərində axtarış aparmağa başlamışlar. Bu zaman tapança mərmisi ilə bir əsgərin yaralanması şəhərin müxtəlif yerlərində axtarışa qarşı çıxan müsəlmanlar əleyhində silahdan istifadə etməyə səbəb olmuş və nəticədə hər iki tərəfdən yaralanan və ölənlər varsa da, sayı hələ məlum deyildir. Zabitlərin müdaxilə etməsi qan tökülməsinə son vermiş və döyüşün genişləməsinə əngəl olmuşdur. Baş vermiş hadisəyə görə dərin kədərimizi dövlətinizə bildirir və istər təşəbbüsçü olanlar ilə əminamanlığı pozanlar haqqında, istərsə də müsəlmanlar haqqında doğru olmayan xəbərləri yayanlar haqqında tərəfimdən ən sərt tədbirlər görüldüyünü və günahkarların ən ağır cəzaya çatdırılacaqlarını ərz etməklə dərin hörmətlərimin qəbulunu rica edirəm.

Nömrə 132 10 yanvar 1918
ODİŞELİDZE."

e) Osmanlı komandanının general Odişelidzeyə göndərdiyi aşağıdakı məktubda da Ərzincan hadisələri anılmışdır:

"Rusiyanın Qafqaz Ordusu Komandanı general-mayor Odişelidze cənablarına.

Hörmətli General! Əvvəldən bəri Rusiya ordusunun işğalı altındakı torpaqların orasında-burasında görülən və sənədlərlə isbat edilən erməni zülmünə xüsusilə Rusiyanın Qafqaz Ordusunun 1 Artilleriya Qərargahının Ərzincandan çəkilməsindən sonra Ərzincan və ətrafındakı kəndlərdə daha böyük miqyasda davam edilmişdir. Ermənilər tərəfindən müsəlmanlara qarşı törədilən bu zülm yalnız qorumasız yerlərdə gördüklərini öldürməklə qalmayıb, son zamanlarda bəzi kəndlərdə müsəlman xalqının namusuna təcavüz etməyə, mallarını qarət etməyə və evlərini yandırmağa qədər irəli gedilmişdir. Bu cümlədən olaraq 12 yanvar 1918-ci ildə Ərzincanın 18 km cənub-şərqindəki Zakkih kəndi, xalqına hər cür zülm verildikdən sonra tamamən yandırılmışdır. Bundan başqa, təxminən bir həftə bundan əvvəl də Ardasanın (Gümüşhanə-Torul qəsəbəsinin mərkəzi) 3 km cənub-qərbindəki Koska müsəlman kəndinin 30 nəfərlik bir erməni çətəsi tərəfindən basılaraq müsəlman qadınlara təcavüz edildiyi və kəndin yandırıldığı anlaşılmışdır. Baş komandan general Przevalski tərəfindən 19 dekabr 1917-ci il tarixli və 56057 nömrəli rəsmi məktubuyla verilən etibarnamə tamamilə inandığım halda, hadisələr və bənzər hadisələrin önlənməsini zati-ali komandanından dostluq hissi ilə rica edər, insanlıq və mədəniyyət naminə Osmanlı müsəlman xalqının namus, can və mallarını qorumağa sərf ediləcək səylərə minnətdar qalacağımı ərz edirəm, hörmətli general..."

f) Hadisələr şiddətlənir, acıqlı xəbərlər gəlirdi. Xüsusilə Rusiyanın Qafqaz Ordusu 1 Artilleriya Qərargahının hərəkəti və Rusiya birliklərinin Ərzincandan hərəkəti və oraları tamamən tərk etməsi erməni çətələrinin Ərzincana hakim olduqlarını göstərməkdədir. General Przevalskinin məktubuna cavab verilməklə bərabər, erməni zülmləri haqqında əldə edilən məlumatlar generala aşağıda olduğu kimi bildirilmişdir:

**"Rusiyanın Qafqaz Orduları Baş Komandanı general Przevalski cənablarına**

Hörmətli General, 19 dekabr 1917-ci il (1 yanvar 1918) tarixli və 56057 nömrəli rəsmi məktubunuzu aldığımı söyləməklə şərəf duyuram. "Brest-Litovsk müqaviləsi"nin (252) 5-ci maddəsi "Ərzincan sülh müqaviləsi"nin 13-cü maddəsinin yerinə keçəcəyinə görə, bu sonuncu maddənin arzunuza uyğun olaraq sülh müqaviləsinin mətnindən çıxarılmasıyla əlaqəli olaraq sülh müqaviləsinə şərh verildi. Rus ordularının işğalı altında olan Osmanlı müsəlman xalqının ermənilər tərəfindən qəti olaraq zülmə məruz qalmamaları üçün əlaqəli məqamlara və məsul şəxsə sərt və qəti əmrlər verildiyini və hər cür uyğunsuz hərəkətlərin çıxması ehtimalına qarşı təsirli və sərt tədbirlərin alınacağını bildirməniz bütün qəlbimlə təşəkkür edirəm. Son zamanlarda baş verən bəzi hadisələri əngəlləyən tədbirlərin alınması ricası ilə Qafqaz Ordusu Komandanı general-mayor Odişelidze cənablarına bildirdiyim kimi, ermənilərin zülmü haqqında əldə edə bildiyim bəzi məlumatları şəxsinizə aşağıda olduğu kimi ərz etməyi faydalı gördüm.

Rusiyanın Qafqaz Ordusu 1 Artilleriya Qərargahının Ərzincandan hərəkətindən sonra Ərzincan qəsəbəsi ilə ətrafdakı kəndlərində ermənilərin zülmünün yalnız müdafiəsiz yerlərdə rast gəldiklərini qətl etmək, gecə bir neçə evləri basaraq sahiblərini öldürmək kimi nifrətin pislik olmaqdan çıxaraq bəzi kəndlərin tamamən dağıdılması, qadınların namusuna təcavüz edilməsi və yandırdıqları kəndlərdəki xalqın qətliamı dərəcəsinə çatdığını dərin üzüntü ilə dövlətinizə çatdırılmasını özümə vəzifə sayıram. Bu cümlədən olaraq 12 yanvar 1918-ci ildə Ərzincanın 18 km cənub-şərqindəki Zakkib kəndinin varlığı ermənilər tərəfindən qəzəblə sona çatdırılmışdır. Təxminən bir həftə əvvəl Ardasanın 3 km cənub-qərbindəki Koska müsəlman kəndi 30 nəfərlik bir erməni çətəsi tərəfindən basılaraq, insanlığı ağladacaq pisliklər törədildikdən sonra yandırılmışdır. Rusiyanın

Qafqaz ordusunun dincəlmək üçün gerilərə çəkilməsi ilə parçalanan ordu hissələrində rus məmləkətlərindən olan erməni dəstələri bu cür hərəkətlərə qarşı dövlətinizin əmr və qadağanlarını nə dərəcədə səmimiyyətlə yerinə yetirdiklərinin təqdirini sizə buraxıram. Onların hərəkətlərinə qarşı əngəlləyici ciddi tədbirlərin sürətləndirilməsi isabətli qərarınızı gözləyir. Səmimi olan hörmətimin qəbulunu rica edirəm, hörmətli General..."

q) Bu məktubdan sonra toplanan məlumatlar ayrı-ayrı həm general Przevalskiyə, həm də general Odişelidzeyə Qafqaz Cəbhəsi Osmanlı Orduları Komandanı tərəfindən aşağıda olduğu kimi yazılmışdır:

"Suşehrindən, 29 yanvar 1918-ci il.

Hörmətli General, Rusiya ordularının işğalı altında olan Osmanlı torpaqlarındakı müsəlman xalqa qarşı ermənilər tərəfindən davamlı olaraq edilən zülm və nalayiq hərəkətlərin nə qədər pis və acı olduğuna, bu dəfə xəbər alınan bəzi hadisələrı da böyük üzüntü ilə sizə çatdırmağa məcbur olduğuma görə kədərlənirəm. Yüksək Rus komandanlıq heyətinin və azad Rusiya ordusunun əsl hissiyatlarına tamamən qarşı olduğundan əmin olduğum üçün bu vəziyyətin qarşısının dərhal alınmalı olduğu düşüncəsindəyik:

1. Əslən Zazalar kəndindən olub Ərzincanda yaşayan Qara Məhmədin oğlu ilə dörd dostu bu ayın başında Xaşxaş dəyirmanında ermənilər tərəfindən parça-parça edilmişlər.

2. Ərzincanda Dəmirçilər yaxınında ermənilər kürd Məhməd ağaya hücum etmişlər və eyni məhəllədə yaşayan bir müsəlman qadınını zorla alıb aparmışlar.

3. Daha əvvəl Ərzincanda bələdiyyə katibi olan Məhmədi ermənilər əsir alaraq bilinməyən bir yerə apardıqları kimi, onun anasını, həyat yoldaşını və dörd yaşındakı uşağını da parça-parça etmişlər.

4. Ermənilər Ardoslu Gülbaharın oğlu Veysinin həyat yoldaşını zorla almaq istəmişlər, lakin onun qarşı çıxmasına görə Veysini öldürmüşlər.

5. Ermanilər Mezra kəndində Hüseyin oğlu Dursunu yenə öz evində öldürmüşlər.

6. Peçençli Mahmudunn oğlu İsmail ermənilər tərəfindən öldürülmüşdür.

7. Ermənilər 1918-ci il 12 yanvar günü Güləraş kəndini basaraq 17 müsəlmanın qollarını bağladıqdan sonra güllələmişlər.

8. Rus əsgərlərinin paltarlarını geymiş ermənilər 1918-ci il 18 yanvar günü Qara dəniz sahilindəki Fol qəsəbəsindən 50 nəfər qadın və kişini Trabzon tərəfinə aparmış və bunlardan Şarlıbazarının 4 km cənub-şərqindəki Şahmalak kəndində Çakır oğullarından Hüseyin çavuşun cəsədi tapılmışdır.

9. Şahlıbazarının 7 km cənubundakı Qızılağac kəndindən olan iki müsəlmanın əlləri ermənilər tərəfindən bağlanmış və sonra onların cəsədləri süngülənmiş olaraq tapılmışdır.

10. Rum əsilli Qarslı bir zabit və bir neçə erməni Fol qəsəbəsi camisinin minarəsinə çıxmış və qəsəbədə dolaşan dörd müsəlmanı güllə yağmuruna tutaraq öldürmüşlər.

11. Torul'un Ərikli kəndindən olan Cerberti Vasil və Kostı rum və erməni əsgərləri ilə birlikdə ətraf kəndlərdəki müsəlman xalqını qətl etməyə başlamış və müsəlman qadınlara təcavüz etmişlər. Təəssüflər olsun ki, bu hadisəyə Fol qəsəbəsindəki rus əsgərləri də qatılmışlar.

12. Bir aydan bəri rus əsgəri formasını geyən rumlar və erməni çətələri, Şarlıbazarının qərbində yerləşən Nefsi Şarlı, Ağ kilsə və Eynesil kəndlərinin müsəlman xalqını öldürmüş, qadınlarına təcavüz etmiş və mallarını qarət etmişlər.

13. 1918-ci il 25 yanvar günü rus əsgərləri ilə erməni çətələri Çavuşlunun 7,5 km cənubundakı Kırıklı kəndini və Görelenin şərqindəki Filtezoğlu ilə Gökeli arasındakı Aralıkoz deyilən müsəlman kəndini basaraq qarət etmişlər.

14. 50 nəfərlik erməni çətəsinin Ardaşanı (Torul qəsəbəsinin mərkəzi) basaraq qarət etdikləri və bazarı yandırdıqları xəbəri bizə çatdırılmışdır.

Yuxarıda ərz etdiyim hadisələr rəsmi sənədlərə və sağlam xəbərlərə əsaslanır. Haqqında sağlam məlumat olmayan hadi-

sələri nəzərinizə çatdırmağa lüzum görülməmişdir. Ərz edilmiş hadisələr haqqında lazım olan qərarların və tədbirlərin alınacağına və gecikmədən həyata keçiriləcəyinə umid bəslədiyimi bildirir, ən dərin hörmət hisslərimin qəbulunu rica edirəm, hörmətli General..."

h) Hadisələrin davamında təhlükəli bir vəziyyət alındığı və Rusiya birliklərinin tərxisi səbəbilə rus komandan heyətlərinin hadisələrin qarşısını ala bilmədiyi görülmüşdür. Rusiyanın Türküstan II Artilleriyası qərargahının Kelkitdən çəkilməsi o bölgəni də bir qətliam səhnəsinə çevirmiş, hətta Kelkitdəki müqavilə komissiyası üzvlərinin həyatlarının da təhlükədə olduğu anlaşılmışdır. Bu facia və hadisələrə bir an əvvəl son verdirilməsi üçün hər iki tərəfdən tədbirlər alınması Osmanlı orduları komandanlığı tərəfindən rus komandanına aşağıda olduğu kimi təklif edilmişdir (253):

**"Nömrə 815**
**Suşehrindən, 2 fevral 1918-ci il.**

Hörmətli General, Osmanlı torpaqlarının işğalınız altına giren yerlərində yaşayan müsəlman xalqın Rusiya əsgərlərinin çəkilməsi və yerlərinə ermənilərin yerləşməsilə uğradıqları zülmün və qanunsuzluğun çox irəli getdiyini, müsəlmanları diri-diri yandırmaq, onları bir-birinə bağlayaraq güllələmək kimi tükürpədici cinayətlərin bir-birini təqib etdiyi xəbərini alarkən hiss etdiyim kədəri şəxsinizə bildirməklə acılarımın sonsuz olduğuna inanmanızı xüsusilə rica edirəm.

Bu zülmün əmr və xəbərdarlıq ilə əngəllənməsi zamanının keçdiyinə inanaraq, bu yolda hər iki tərəfdən alınacaq təcili və təsirli tədbirlərin həyata keçirilməsinin gecikilməyərək şübhəsizdir.

29 yanvar 1918-ci il tarixli və 839 nömrəli bənzər təcavüzlərin getdikcə genişlədiyini və hətta Rusiyanın Türküstan artilleriyasının Kelkikdən ayrılmasından sonra orada olan yığma ko-

missiya üzvlərinin də həyatlarının təhlükəsizlikdə olacağının iddiaya dayar yeri olmadığını bildirməklə, seçmə haqqı olmaması səbəbilə Rusiya əsgərlərinin çəkildikləri bölgələrdəki zülm görmüş xalqın namus, mal və canlarının qorunması lazım gəldikdə, tərəfinizin müəyyən edəcəyi şəkildə tərəfimdən yardım etmə imkanının hər zaman mövcud olduğunu şəxsinizə çatdırmaqla şərəf duyur və bu münasibətlə təqdim etdiyim dərin hörmətlərimin qəbulunu rica edirəm, hörmətli General..."

General Przevalskiyə göndərilən yuxarıdakı məktubun bir surəti də general Odişelidzeyə göndərilmiş və ordan, çarəsiz qalan Osmanlı müsəlman xalqına yardım etməsi rica edilmişdir.

1) Ərzincandakı qətliamın seyri haqqında müxtəlif mənbələrdən məlumatlar alınmaqda və bu qətliamın qorxunclıuğu haqqındakı xəbərlər bir-birini təsdiq etməkdə idi. Qətliam o dərəcədə davam edirdi ki, süddən kəsilməmiş uşaqların öldürüldüyü, hamilə qadınların qarınlarının yırtılaraq uşaqlarının çıxarıldığı, insanların diri-diri yandırıldığı, bakirələrə hər cür pislik və alçaqlığın edildiyindən sonra onların parçalandığı və bir çox insanın evlərə doldurularaq yandırılması kimi qeyri-adi faciəvi zülmlərə rast lanırdı. Ərzincan ordu komandanı Albay Morelin Osmanlı ümumi qərargahına çatdırılmaq üzrə Rus sülh müqaviləsi komissiyasının üzvü yüzbaşı Tsxaplikinə verilən və eynilə nəşr edilən telefon danışığı, həqiqətən, diqqətləri cəlbedici xüsusiyyətdədir. General Odişelidzenin yuxarıdakı teleqrafı ilə tərs olan bu telefon danışığı təcavüzləri bütün çılpaqlığı ilə isbat edir. Bu telefon danışığıyla, içərisindən əsgərin üzərinə atəş edilən bir evin yüzlərcə qadın, uşaq və qoca doldurularaq yandırıldığı bildirilmişdir.

General Odişelidzenin bu hadisə haqqında anlatdıqlarını sonradan Ərzincanı təkrardan ələ keçirən türk komandan heyətlərinin və birliklərinin görüşləri və bu təcavüzlərə uğrayanlardan bir qisminin mövcud fotoşəkilləri doğrulayırdı. Xüsusilə Alman və Avstriya jurnalistlərinin işğal altında olan Osmanlı torpaqlarındakı erməni zülmünü yazmaq və müəyyən

etmək üzrə apardıqları araşdırma gəzintisi zamanında, Ərzincanda ermənilər tərəfindən öldürülərək quyulara doldurulan zülm görmüş insanların tanınmaları məqsədilə çıxarılmaları sırasında jurnalistlər tərəfindən çəkilən fotoşəkillər zülmü bütün çılpaqlığı ilə sənədləşdirməyə kifayətdir. General Odişelidzenin anlatdıqlarına görə, quyulardan səksən-səksən zülm görmüş cəsədlər çıxarılırdı. Bu quyuların sayı 200-dən artıq olmuşdur. Türk birliklərinin Ərzincanı təkrar ələ keçirməsi zamanı qəsəbə və ətrafından topladıqları 800-ə yaxın cəsəd quyulardan çıxarılanlara aid deyil. Çardağlı boğazından Ərzincana qədər olan bütün kəndlərin tamamən yaxılıb yandırıldığı, xalqının qeyb olduğu incələmə raportlarından aydın olur. Quyularda tapılan şəhidlərin cəsədləri və bir xarabalıq halına gəlmiş olan Ərzincan ovası bütün dünya mədəniyyətinin gözləri qarşısına sərilməyə hazır vəziyyətdədir.

Tarixşünas Əhməd Refik Ərzincandakı erməni zülmünü belə anladır: "Ərzincanda məhəllələr tamamən xarabalıq halında idi. Evlərin yıxılmış divarları ermənilərin türklərə verdikləri zülmün ən dəhşətlisinin buralarda olduğunu göstərirdi. Küçələrdə, quyularda yatan, qanları hələ qurumamış təzə cəsədlər ermənilər tərəfindən öldürülən zavallı türklər idi... Dar quyulara baxıldığı zaman insanı müvazinətdən çıxaran hadisələrin buralarda baş verdiyi görünürdü. Bədbəxt türklərin başlarının əzildiyi, quyunun daşlarına yapışmış saçları, dəlik-deşik paltarları görünürdü. Divar dibləri hey türk meyitləri, qolayaq parçaları, kəsilmiş başlar, yağlı sümüklərlə dolu idi... Məzarlığa doğru getdim. Orada bir neçə adam qəbir qazırdılar. Onların yanlarındakı çuvalda bir şey vardı. Baxdım, gənc bir adamın ölüsü idi. Əzilmiş, qap-qara olmuş, paltarları parçalanmış, ayaqları yarıya qədər çürümüşdü. O, 34 yaşında bir tacir imiş.

Onu əqrabaları quyudan çıxarmışdılar. Ermənilər bu talesiz adamı soyduqdan sonra bıçaqla kəsik-kəsik etmişdilər. Onun dörd uşağı varmış. Qəbir qazanlar bu faciəni anladır, cırıq köynəkləri ilə göz yaşlarını silirdilər..." (254).

i) Sülh müqaviləsi komissiyasından iki adamın Ərzincan qətliamını yerində araşdırmaq üçün general Odişelidzeyə yazdığı teleqrafa cavab alınmışdır: "Albay Morelin yüzbaşı Tsxaplikinə göndərdiyi məktubda bu iş haqqında araşdırma aparmaq üçün yığma bir komissiyanın Ərzincana göndərilməsi imkanı xüsusundakı təklifini, heyf ki, qəbul edə bilməyəcəyimi ərz edirəm. Çünki bu müqavilənin hökmləri adı çəkilən komissiyanın müqavilə şərtlərini həyata keçirdiyi zaman əmələ gələ biləcək hadisələr və yanlış anlaşmalar üçün məqbuldur. Buna görə də mən bu komissiyanın səlahiyyətlərinin genişləndirilməsinə tərəfdar olmadığım kimi, sonralar hər iki tərəf üçün də pis nümunə olmasını arzu etmirəm və bundan başqa, əvvəlcə 23 yanvar 1918-ci il tarixli və 15132 nömrəli teleqrafda ərz etdiyim kimi, Ərzincan hadisələrinə son vermək və günahkarların ən şiddətli cəzalara çatdırılması üçün mənim tərəfimdən qəti tədbirlər görülmüşdür. Dərin hörmətlərimi qəbul etmənizi rica edirəm.

ODİŞELİDZE
25 yanvar 1918-ci il, nömrə 15147."

**"Nömrə 967**
**Suşehrindən, 11 fevral 1918-ci il.**

**Rusiyanın Qafqaz Orduları Komandanı**
**general-mayor Odişelidze cənablarına**

Hörmətli General, 24 yanvar 1918-ci il tarixində aldığımız 15132 nömrəli teleqrafınızın mətni mənə bildirildi. Erməni zülmünün və xüsusilə Ərzincan qətliamına səbəb olanların cəzalandırılacağı haqqındakı vədlərinizə qarşı çox dərin təşəkkürlərimi və şərəf duyduğumu bildirməklə yanaşı, ermənilərin qılıncından qurtularaq tərəfimizə sığınan və yardım istəmək üçün gələn, oradakı hadisələrə şahid olan insanların verdikləri

məlumatlar ilə şəxsinizə bildirilən hadisələrin cərəyan edişi yönündən qismən bir-birinə bənzəməklə bərabər, sayı baxımından bir-birindən fərqli olduğunu ərz etməyimə icazənizi rica edirəm.

1. Ermənilərin yanvar ayında yollarda işlədiləcəkləri bəhanəsilə Ərzincandan toplayıb apardıqları 650 müsəlmanın getdikləri yer bilinməməklə bərabər kədərli aqibətləri meydandadır.

2. 31 yanvar 1918-ci ildə (18 yanvar 1918-ci il) Ərzincanda olan erməni çətə rəislərindən Sivaslı Muradın əmrilə şəhərdə gəzdirilən patrullar bütün müsəlmanların Ərzincanın kilsə meydanında toplanmalarını elan etdilər. Bu toplanmanın səbəbini öyrənmək üçün müraciət edən Qocalar Məclisinin üzvlərini çətə rəisi Murad dərhal edam etdirmişdir. Daha sonra erməni patrulları xalqı evlərindən çıxararaq əvvəl poçtaya toplamışlar, oradan da şəhərdə yaşayan Vahid bəyin qonaq evinə aparmışlar. Gecə saat 3-də, təxminən 1 500 müsəlman ilə doldurulan bu qonaq evi hər tərəfdən atəşə verilmişdir. Yanmamaq üçün özlərini pəncərələrdən atmaq istəyənlər də qonaq evinin ətrafında toplanan ermənilərin güllə və süngülərilə öldürülmüşlər.

3. Yenə həmin gecə şəhərdəki Qala Qışlağına və üç böyük qonaq evinə doldurulan qadın və uşaqlar vəhşicəsinə yandırılmışlar. Şəhərdə 1 000 yaxın evi uçurdub yandırmışlar.

4. Bayburtda olan erməni çətə rəislərindən Arşak 7 fevral 1918-ci il tarixində ətraf müsəlman kənd sakinlərinin Bayburtda toplanmaları haqqında xəbər göndərmişdir. Sonu bəlli olan bu vəziyyətdən qaçan xalqın bir qismi sığınmaq və yardım istəmək üçün Kelkitdəki müqavilə komissiyasına qədər gəlmişdilər. Bu dəvətə gedənlərin nəyə uğradıqları məlumdur.

5. Köse ilə Trabzon küçəsi üzərində Türküstan XXIII alayının gördüyü müsəlman ölülərinin sayı adamın tüklərini ürpərdəcək dərəcədə çox olmuşdur.

6. Son olaraq, Rusiya ordusundan ermənilərə ötürülmüş torpaqlarda müsəlman xalqın yeni doğulmuş körpə uşaqlara qədər öldürülməsi, Trabzon bazarının qarət edilməsi və yandırıl-

ması, Trabzondakı "Tekel" tütünlərinin mənimsənməsi, Rızənin alovlar içərisində qalması və buna bənzər bütün faciəvi hadisələr diqqətinizi çəkmək üçün məni müraciət etməyə və qəti tədbirlərin dərhal alınması təminatında olmağa zorlamışdır.

7. Ərzincandakı çətə rəisi erməni Muradın Ərzincana bağlı Mamahatunda (bugünkü Tercan qəsəbəsi) törətdiyi zülmü Əhməd Rəfik belə anladır: "Mamahatun dağıdılmış camilərini, yandırılmış evlərini və parçalanmış övladlarını sinəsinə gömmüş, sanki ağlayırdı. Ermənilər Ağqoyunlulardan qalma camini partlatmış, əhalidən bir çoxunu qoca-cavan, böyük-kiçik demədən acımasızca öldürmüşdülər. Aşağıdakı bir dərənin kənarında olan geniş bir çuxur yüzlərcə türkün cəsədləri ilə dolu idi. İylənmiş insan cəsədləri paltarlarıyla, çarıqlarıyla bir-birlərinə qarışmışdı. Bu cəsədlərin əriyən yağları, əzilmiş başları, qopmuş qolları və ayaqları üst-üstə yığılmışdı..." (255).

XV artilleriya komandanı general-mayor Kazım Qarabəkir 25 sentyabr 1919-cu ildə Ərzuruma gələn amerikalı general Harbordun heyətinə verdiyi raportda ermənilərin Mamahatunda törətdikləri zülmü belə anlatmışdır: "Ordumuz 22 fevral ayında Mamahatunu işğal etdi. Burada sağ olan bir nəfər belə qalmamışdı. Buranın bütün əhalisi böyük bir çuxura doldurularaq qətl edilmişdi, hər tərəf yanırdı. Bunları öz gözlərimlə gördüm..."

Muradın Bayburtdakı erməni çətə rəislərindən biri olan Arşaka verdiyi əmrlər və Arşakın yenə eyni kanalla Murada göndərdiyi raportlardan aydın olur ki, işğal altında olan torpaqlardakı müsəlman xalqın ermənilər tərəfindən tamamilə yox edilməsi daha əvvəl qərarlaşdırılmışdır. Bizə görə, bu raportlar şübhəyə götürən bir yer buraxmamışdır. Bu gün taleləri ermənilərin zülmünə və əsarətinə buraxılan Osmanlı müsəlmanlarından heç birinin namusu, malı və canı mühafizədə deyildir.

Hörmətli General, qəti və sərt tədbirlərlə bu zülmün qarşısına keçmək üçün başladığınız dərin insanlıq hissinizin heyranı və minnətdarıyam. Yalnız bu təmiz niyyətin təsirli olması üçün icrasının da məqsədlə birləşməsi və imkanların yaradılması, is-

tifadə edilməsi lazımdır ki, sizdən dərin hörmətlə rica etdiyim tərəf də budur. Dərin hörmətlərimin ..." (256).

J Rusiya əsgərlərinin öz məmləkətlərinə döndükdən sonra erməni çətələrinin işğal altında qalan torpaqlarda hakim vəziyyətdə olmalarına və onların törətdikləri qətliama qarşı Rusiya komandan heyətinin çarəsizlik içərisində olduğu görünür. Beləliklə, müsəlman xalqının planlı bir şəkildə qırğına doğru getdiyi aydın olur. Hər tərəfdən qətliam xəbərləri gəlməyə başlamışdır. Kəndlər dağıdılıb yandırılmış, mallar qarət edilmişdir. Osmanlı Qafqaz Ordularının Komandanı birliklərinin bir qismini irəli yeritmək məcburiyyətində qalmış və aşağıdakı teleqrafla vəziyyəti Rusiyanın Qafqaz Orduları Baş Komandanı general Przevalskiyə bildirmişdir:

"Rusiyanın sərhədd xətti girişindəki torpaqlarda olan rus əsgəri birliklərinin geri çəkilmiş olması o bölgələrdəki xalqımızın ermənilərin zülmünə buraxılmasına, buralarda təhlükəsizlik və asayişin tamamən ortadan qalxmasına səbəb olmuşdur. Müxtəlif tarixlərdə erməni zülmü və törədilən pisliklər haqqında ərz etdiyim məlumatlara əlavə olaraq bunu da qeyd etmək istərdim ki, asayişsizlik gündən-günə artmaqdadır və əldə edə bildiyim məlumatlara görə, Ərzincan, Ardasa (Torul), Gümüşhanə, Vaqfibəkir, Pulthanə ətrafı bir-birinin ardınca qətliam bölgəsinə çevrilmişdir.

Ərzincan əsgəri komandanlığının albayı Morel tərəfindən Rəfahiyə müqaviləsi komissiyasının rus üzvlərinə göndərilən və yüzbaşı Tsxaplikinin imzası ilə Rəfahiyədən mənə göndərilən teleqrafdan 1918-ci il 15/16 yanvar gecəsi Ərzincanda çox qorxunc bir hadisənin meydana gəldiyini böyük kədərlə öyrəndim. Alınan məktubda silah gizlədildiyi zənn edilən bir evin aranması zamanı guya bir müsəlman tərəfindən bir əsgərin yaralanmasının hadisəyə səbəb olduğu, Ərzincandakı əsgərlər arasında çaxnaşma yaradaraq müsəlmanlardan (mənə görə məsum olan) 100-dən artıq adamın öldürüldüyü və bu evin yandırıldığı qeyd edilmişdir. Bu gün Rusiya əsgəri birliklərinin Ərzincanda olmama-

sından istifadə edərək 25 ildən bəri Ərzurum, Van və xüsusilə Bitlis vilayətlərində üsyanlarla hökumətin sakitlik və rahatlığını pozmuş, dəfələrlə qətliama girişmiş və qiyabi olaraq Osmanlı məhkəmələri tərəfindən edama məhkum edilmiş erməni çətə rəislərindən Sıvaslı Murad başına topladığı adamlarıyla idarəni ələ almışdır. Albay Morelin şəklдən başqa bir mahiyyətinin və əmr etmə qüdrətinin olmadığına baxılarsa, bu son hadisə də 24 dekabr 1917, 22 yanvar 1918, 29 yanvar 1918, 2 fevral 1918-ci il tarixli və 7312, 632, 738, 816 nömrəli məktublar və teleqraf ilə göndərdiyim 11 fevral 1918-ci il tarixli və 917 nömrəli teleqrafımda bildirdiyim hadisələrin davamı olub, ermənilərin qurduqları bir plana uyğundur. Beləcə bir-birini təqib edən və edəcəyindən də ən xırda bir şübhə olmayan, evlərin yandırılması, insanların öldürülməsi, malların qarət və namusa təcavüz edilməsi kimi cinayətlərlə Osmanlı müsəlman xalqının yox edilməsi planlaşdırılmışdır. Rusiyanın yüksək komandan heyətinin yaxşı niyyətini bütün qəlbimlə dəstəkləməklə bərabər, heyif ki, seçmə haqqının bu anarxiyanın qarşısına keçməyə gücünün yetmədiyi, hadisələrin artaraq davam etməsilə açıqca görülməkdədir. Polkovnik Morelin Yüzbaşı Tsxaplikinə göndərdiyi teleqrafın bir paraqrafında eynən (Ərzurum – Ərzincan yolunun üzərində kürdlərin əsgərə, qatarlara və anbarlara davamlı hücumlarına görə, yolun iki tərəfində olan və kürd çətələrinə sığınacaq olan kəndləri dağıtmaq surətilə cəzaverici tədbirlər almağa məcburam) yazılmış olub əsgəri zərurətlərdən və müharibənin uyğun gördüyü hallar səbəbilə alınmış tədbirlərdən şikayət etmək ağla gələn məsələlərdən deyilsə də, evlərin yandırılması xüsusunun əsgəri zərurətlər ilə uyğunluq göstərən bir yeri olmadığı, bu kəndlərin məktubumda ərz və izah etdiyim şəkildə ermənilər tərəfindən yandırıldığı və bunun bəzi sahəblərlə bu şəkildə göstərilməsi lüzumlu görülən hadisələrdən bəlli olduğu qənaətini bəsləyirəm. Osmanlılar ilə ruslar arasında davamlı və sağlam bir dostluğa doğru müştərək addımlar atılarkən ermənilər tərəfindən törədilən bu cinayətlərin və yandırıb-dağıtmaların yanlış bir anlayış ilə ruslara yüklənəcəyi aşkardır. Bu səbəblə yerli xalqda əmələ gələcək

təhlükəsizliyin genişləyəcəyi də aşkar olub, bununla qurulmasına çalışılan sülhün və sevginin zəifləməsi və bunun yalandan başqa bir şey olmadığına inandığıma görə məni haqlı görməyinizi şəxsinizdən rica edirəm.

Kelkitdakı qarışıq sülh müqavilə komissiyasının Osmanlı və rusiyalı üzvlərindən aldığım bir teleqrafda da artilleriya və diviziya komandanlarının 4 fevral 1918-ci il tarixində saat 3-də Kelkiti tərk etdikləri və yuxarıda anılan ermənilər tərəfindən müsəlman xalqa qarşı törədilən zülmdən son dərəcə kədərli olduqları bildirilmişdir. Bu gün Kelkitdə tək bir Rusiya əsgərinin qalmaması səbəbilə komissiya üzvlərindən Kelkit və ətrafındakı insanların canlarını, əşya və ərzaq dükanlarını banditlərə qarşı qorumaq üçün kifayət sayda Osmanlı birliklərinin göndərilməsi adı keçən qarışıq müqavilə komissiyası üzvlərinin birlikdə hazırlayıb göndərdikləri protokol ilə istənilmiş və bildiyiniz kimi, onların bu istəkləri yerinə yetirilmişdir.

Sizin ciddi vədlərinizə baxmayaraq, əsgərin çıxarıldığı yerlərdə törədilən zülmün qarşısı alınması bir tərəfə dursun, zülm öz genişliyini də aşaraq atalarının və uşaqlarının, ailə, əqrəba və yaxınlarının tutulduğunu və yox edildiyini eşidən əsgərimi qıraqdan seyrçi olaraq tuta bilməyəcək bir vəziyyət meydana gəlmişdir. Bu səbəblə, rus əsgərlərinin boşaltdıqları bölgələrdəki vəziyyəti təcili tədbir və qərarlar ilə insanlıq və mədəniyyət naminə düzəltmək qanunla ortaya çıxmışdır.

Ancaq buna görə rəhbərliyim altında olan iki ordudan bəzi birlikləri irəli çəkmək məcburiyyətində qaldığını məlumunuza ərz edər, bu hərəkətin Rusiya ordusuna qarşı düşmənçilik göstərmə mənasında olmayıb, Rusiya ordusu birliklərinə qarşı qəti surətdə savaşa girməmək və harda rus əsgərinə rast gəlinərsə, onunla dostluqla davranmaları xüsusunda komandanlarıma qəti olaraq əmr etdiyimi əlavə edirəm. Buna görə 'Ərzincan müqaviləsi'nin Rusiya birliklərinin çəkilmiş olması səbəbilə hökmlərini itirən, sərhəd xəttinə aid maddələrindən başqa bütün maddələrinin keçmişdəki kimi qüvvədə olduğunu və bu hərəkətlərin bir ehtiyacdan doğulduğunu, bir insanlıq və mə-

dəniyyət hissilə görülüb başqa bir mənanın olmadığını açıqlar, yaxşı niyyət və dostluğumuzdan tamamən əmin olmanızı və hörmətlərimin qəbulunu..."

Ərzincan, Bayburt və Trabzon hadisələrinə aid general Odişelidzeyə yazılan 11 fevral 1918-ci il tarixli və 967 nömrəli teleqrafa aşağıdakı cavab alınmışdır:

"11 fevral 1918-ci il tarixli və 967 nömrəli teleqrafınızı aldım. Bunu ərz etməklə şərəf duyuram ki, sizə gələn zülmə aid xəbərlərin hamısı son dərəcə bir mübaliğədir. Məsələn, Trabzon şəhərinin ətrafında və cənubunda Osmanlı partizanlarının yerli rum kəndinə hücum etmələri, təbii ki, yerli xalq ilə əsgərin qarşı-qarşıya gəlməsinə səbəb oldu. Bayburt ətrafında isə Bayburt komissarının raportuna görə, müsəlman xalqın Bayburtda toplanmaları haqqında heç bir əmr verilmədiyi, tam tərsinə, adı keçən xalq tərəfindən komissara türklərə qarşı olan yaxşı niyyətinə görə təşəkkür etmək üçün bir müsəlman heyəti gəlmişdir. 15 / 16 yanvar gecəsi Ərzincanda baş verən hadisələrə gəlincə, bu hadisələr zamanında istər mənim tərəfimdən, istərsə də polkovnik Morel tərəfindən şəxsinizə bildirilmişdi. Lakin bu hadisə sizə son dərəcə şişirdilərək çatdırılmışdır. Polkovnik Morelin raportuna görə, yerli müsəlmanların qeybi əsla 200-ü keçməmişdir. Yuxarıda söylənənlərdən sonra sizdən bu xüsusa da inanmağınızı rica edirəm. Rusiya əsgərlərinin işğalı altındakı bölgədə olan yerli müsəlman xalqın mənfəətləri və təhlükəsizlikləri mövzusunda üç ildən bəri bir yerdə yaşamaq şərəfinə istər mən, istər Rusiya əsgərləri tərəfsiz olmalıyıq. Buna görə Rusiya əsgərlərinin işğalı altındakı bölgədə yaşayan müsəlman xalqının qətliamı məsələsi həqiqətdə uyğunlaşdırıla bilməz. Mən isə tərəfimdən Osmanlı müsəlmanlarının can, namus və mallarının qorunması üçün bütün tədbirlərin alındığı kimi, Ərzincan hadisəsinin yaradıcılarının cəzalarını da, əvvəlcə ərz etdiyim kimi, xüsusilə təsbit edəcəyəm. Dərin hörmətlərimin qəbulunu rica edirəm.

ODİŞELİDZE

31 yanvar 1918-ci il, nömrə 15195"

Bu teleqrafın nə dərəcədə generalın görüş və qənaəti xaricində yazıldığı onun 132 nömrəli teleqrafıyla qarşılaşdırıldığı təqdirdə anlaşılacaqdır. Belə ki, bu tarixdə işğal altındakı torpaqlarda olan Rusiya əsgərlərinin Lenin ixtilalından sonra komandanlarını dinləməyərək məmləkətlərinə getdikləri və yerlərinə erməni çətələrinin yerləşdirildiyi anlaşılır.

Erməni birliklərinin törətdikləri zülmün qarşısına keçə bilməyəcəyi generalın teleqrafından aydın olur. Onsuzda bu işin həllinin generalın əlində olmadığı aydın görünür. Ayrıca, Ərzurum Rusiyanın II Qala topçu alayı komandanı podpolkovnik Tverdo Xlebovun yayınlanan xatirələrinin yeddinci və səkkizinci səhifələrində "Ərzincan qətliamı" haqqında general Odişelidze bunları anlatmışdır:

"...Bundan bir müddət sonra Ərzincanda ermənilərin türkləri qətliama uğratdıqları xəbəri gəldi. Şəxsən Baş Komandan Odişelidzenin ağzından eşitdiyim bu hadisənin təfsilatı belədir. Qətliam hakim və məsuliyyətli bir adam tərəfindən törədilmişdir, yəni heç bir surətdə banditlər tərəfindən törədilməmişdir. Bu ermənilərin adlarını yaxşıca bilmədiyim üçün burada onların kimliyini açıqlaya bilməyəcəyəm. Hər cür müdafiədən məhrum və silahsız 800-ə yaxın türk öldürülmüşdür. Böyük çuxurlar açılmış, zavallı türklər bu çuxurların başına aparılıb heyvan kimi kəsilmiş və bu çuxurlara doldurulmuşlar. Bir erməni sayarmış: "Yetmişmi oldu? On nəfər daha alar! Kəs!"- deyincə, on nəfəri daha kəsər, çuxura atıb üzərlərini torpaqla doldurarlarmış. Şəxsən o məsuliyyətli şəxs əylənmək üçün 80 nəfərə qədər zavallıları bir evə doldurub sonra onlar qapıdan çıxarkən bir-bir başlarını parçalamışdır..."

Generalın bu etirafı ilə teleqrafda yazılanlar arasındakı ziddiyyət teleqrafın həqiqətlərin və rəsmi məlumatların xaricində yazıldığını göstərir.

Cərəyan edən hadisələr haqqında məlumat almaq üzrə sərhəddin şərqinə göndərilən bitərəf adamlardan və xüsusilə Giresunun Çinarlı məhəlləsindəki rumlardan olan Statios oğlu Yako gördüklərini 26 fevral 1918 tarixli məktubuyla bildirir. Bu

məktub sənədləri arasında 19 nömrədədir. Onun əl yazısı ilə yazdığı məktubdakı məlumatlar belədir: "Daldabanda (Gümüşhanədəki bir məhəllə) olduğumuz zaman düşmən əsgəri Zağna muxtarını altı dostu ilə yaxalayıb Daldabana gətirdi. Yolda bunları vəhşicəsinə döyüb qanlar içərisində buraxmışdılar. Muxtar və dostlarının düşmən anbarından 27 tüfəng oğurladıqlarını söyləyirdilər. Bundan sonra 15 rus və erməni əsgəri muxtarın evini basaraq həyat yoldaşı ilə qızını dağa apardı. Muxtar və dostlarının necə olduqlarını öyrənə bilmədik. Onların haraya aparıldıqları məlum olmadı" (257).

Ermənilər Daldabandan iki saat uzaqlıqda olan Tekke kəndində iki müsəlman ilə bir rumu öldürdülər. Trabzondan Batuma hərəkət edən bir neçə əsgər Surmənənin mağazalarını basıb qarət etmək istədilərsə də, xalq silaha sarılaraq bunlardan bəzilərini öldürdü. Ruslar irəliləmənin mümkün olmadığını gördükdə geri çəkildilər və Trabzona gəldilər. Ertəsi gün bu əsgərlərin bəziləri qayıqlara minib getmək istərkən eyni gün Surmənədən Trabzona gələnlər Surmənədə ruslara güllə sıxanların bunlar olduğunu ortalığa yayaraq bəzilərini yaxaladılar və arama ilə iki qayıqda üç tüfəng tapdılar. Eşitdiyimə görə bu tüfəngləri özləri Sürmənəlilərə satmışdılar. Bu zaman Sürmənəlilərin üzərinə atəş açdıqlarını və bunların bəzilərini dənizə ataraq öldürdüklərini gördük.

Eyni zamanda bu əsgərlərdən bir qismi süngülü silahlarıyla Trabzondakı Gavur meydanına gəldilər. Orada rus, erməni və tatar əsgərlərini bir arya toplayıb xalqı evlərinə çəkilməyə zorladılar. Bu əsgərlərin bazarda görüb müsəlman zənn etdikləri 600 nəfərə yaxın adamı topladıqları söylənilir. Bu günahsız insanları öldürmək üçün dəyirman dərəsinə aparmışlar. Yolda bunlardan üçü öldürülmüş, bəziləri qaça bilmiş, bəziləri də, eşitdiyimə görə müftü ilə mitropolitin sayəsində qurtulmuşlar.

Elə həmin gün ermənilərin Trabzonun tanha məhəlləsində 38 nəfər müsəlmanı öldürdükləri söylənilir.

Ermənilər Kisarna kəndində Ayakoz oğlu Yusuf ağanı öldürdülər. Mərhum Yusuf ağanı tanıyan trabzonlular onun çox

yaxşı bir adam olduğunu söyləyirdilər. Mərhumun zövcəsi bir xristian evinə sığınaraq qurtuldu. Bir neçə gün sonra ermənilər Yusuf ağanın evini basaraq zövcəsi ilə qardaşı oğlunu öldürdükdən sonra onların üzərlərindəki iki qızıl beşlik ilə 2500 lirəni aldılar, evi də yandıraraq getdilər..."

Zulmə son vermək üçün Türkiyə birliklərindən bir qisminə irəliləmək məcburiyyətinin doğduğu haqqında Qafqaz cəbhəsinin Osmanlı Orduları Komandanının Rusiyanın Qafqaz Ordusu Komandanlığına çəkdiyi teleqrafdan sonra ordu birliklərindən bir qismi hücuma keçmiş və Ərzincan-Kelkit-Trabzon xəttini işğal etmişlər. Bu xəttə gəlincəyə qədər yalnız Ərzincanda erməni birliklərinin bir neçə saatlıq müqaviməti ilə qarşılaşılmışdır.

Qəsəbəni işğal edən birliklər tükürpərdici bir vəhşət səhnəsi ilə qarşılaşmışlar. Qəsəbənin bir çox yerlərində alovlar yüksəlir, küçələrdə və kimsəsiz yerlərdə qalaq-qalaq kişi, qadın, qoca və uşaq cəsədləri görünürdü. Bununla bərabər Ərzincana qədər irəliləyən birliklər yaxılıb-yandırılmamış heç bir kəndə rast gəlməmişlər.

Ərzincana gələn Osmanlı ordularının komandanı Baş komandanlıq vəkalətinə 16 fevral 1918-ci il tarixində yazdığı raportda aşağıdakı sətirləri qələmə almışdır.

"Çardaglı boğazından Ərzincana qədər olan bütün kəndlərdə bir daxmanın belə sağlam qalmadığını, hər şeyin məhv edildiyini gördüm. Bağçaların ağacları kəsilmiş, kəndlərdən bir nəfər belə sağ buraxılmamışdır. Ermənilərin Ərzincanda törətdikləri zülmü dünya tarixi bu günə qədər yazmamışdır. Ermənilər tərəfindən öldürülüb ortada buraxılmış müsəlmanların cəsədləri üç gündür ki, toplanılmaqdadır. Şəhid edilən bu günahsız insanlar arasında süddən kəsilməmiş uşaqlar, doxsanını aşmış qocalar və parçalanmış qadınlar vardı..."

Ermənilər tərəfindən törədilən bu vəhşilik, bu zülm ermənilərin və rusların şahidliyi və onların verdikləri raportlarla sənədləşdirilmişdir. Bu cümlədən olaraq Ərzincanda əsir alınan Kürd kəndindən (Bugünkü Pınarönü kəndi) Haçik oğlu Kirko-

run Ərzincanda 1 Qafqaz artilleriya qərargahında verdiyi ifadədə zülmlə əlaqəli cümlələr eynən belədir (258):

"Osmanlı birliklərinin Ərzincanı işğal etməsindən 10 gün əvvəl qətliam törədildi və namusa təcavüz başladıldı. Vaqavir və Eprək (Ərzincan şəhərinə bağlı bugünkü Çilligöl) kəndlərindən bir qisim xalq şəhərə gətirilərək öldürüldü."

Bundan başqa erməni çətələrinin törətdikləri vəhşətdən iyrənərək bu çətələrdə zabitlik etmək istəməyən və Ərzincanda qalan Türküstan XIII Avcı alayına mənsub yüzbaşı vəkili Kazimir törədilən vəhşətlə əlaqəli yazdığı raportda bu vəhşətləri bütün çılpaqlığı ilə ortaya qoyur. Adı keçənin xatirəsində eynən bu cümlələr keçir: "Ermənilər müsəlmanları Sarıqamışda işlətmək bəhanəsilə topladılar və şəhərdən 2 km ayrılınca hamısını öldürdülər. Əgər ermənilər arasında rus zabitləri olmasaydı, zülmün daha geniş ölçüdə törədiləcəyi mütləq idi. Bir gecədə 800 müsəlmanın kəsildiyini bilavasitə ermənilərdən eşitdim. Ermənilər 15 / 16 yanvar gecəsi Ərzincanda müsəlman xalqına qarşı qətliam törətdilər. Polkovnik Morelin gördüyü tədbirlər nəticəsiz qaldı. Zülm və qarət davam etdi..."(259).

Ərzincanda qalmış olan qadın Passini ilə əsgər Aleksandr da yuxarıdakı hadisələri təkrar edirlər.

1 Qafqaz artilleriyası tərəfindən əsir alınan müdafiə zabiti Tiflisli erməni Morzoff Meguerdidze Ərzincan qətliamını özünün fransızca yazdığı raportunda bu şəkildə anlatmışdır (260):

"Bir tərəfdən əsgərlərin ermənilərin hücumlarına uğramaları, digər tərəfdən də kürdlərin ümumi bir üsyan hazırlığında olduqları xəbərlərinin ortada dolaşması polkovnik Moreli ruslara bütün xalqın həbs edilməsi əmrini verməyə vadar etmişdi. Bu andan etibarən heç bir tərəfdən əmr verilmədiyi halda qətliam başladı. Qətliama könüllülər ilə birlikdə əsgərlər də qatıldılar. Qətliam ən çox erməni kilsəsi ətrafında törədilmişdir. Verilən nəsihətlərə baxmayaraq, qətliama əngəl olmaq mümkün olmamışdır. Ərzincan ilə ətrafında təxminən 250 ilə 300 nəfərə yaxın müsəlman öldürülmüşdür."

Meguerdıdzenin yuxarıdakı ifadələri qətliamın necə başladığını və necə davam etdiyini ortaya qoyur. Onun raportunda qurbanların sayı az göstərilirsə də, hadisənin necə başladığını və necə idarə edildiyini açıq-aydın sübut edir.

Bu mövzuda Ərzurumdakı Rus II Qala topçu polk komandanının yayınlanan xatirələri oxunduğu zaman hazırlanan qüvvələrlə müsəlmanların sistemli bir şəkildə yox edilməsinə sürətlə başlanıldığı və buna erməni ziyalılarının da qatıldıqları aydın olur.

Osmanlı ordusu zülm və vəhşətə əngəl olmaq üçün öncü birliklərilə irəliləməyə davam edirdi. Bayburta qədər dəhşətverici səhnələrlə qarşılaşan öncü qüvvələr Bayburtda da qətliam səhnəsilə qarşılaşdılar. Bayburt və ətrafındakı müsəlmanların yox edilməsi üçün vəzifələndirilən Arşak qətliamı aşağıda olduğu kimi törətmişdir (261):

"Arşak yanına aldığı 484 erməniyə gündüzləri "dərs" verir, gecələri isə komitə rəhbərlərilə müharibədən əvvəl Bələdiyyə dairəsi olan binada təşkil etdiyi iclaslarda alınacaq tədbirlər və qurulacaq təşkilatlarla əlaqəli nitqlər söyləyirdi. Bayburt xalqından yalnız tam etibar qazanmış olan sənətkarların öz işlərilə məşğul olmalarına və öz evlərində oturmalarına izin verilirdi. Geri qalanları xüsusi binalarda yerləşdirilib əsgərcə davranışlara tabe tutularaq, təşkilat və tərtibatları ilə əlaqəli heç bir məlumatın xaricə çıxmamasına əhəmiyyət verilirdi.

Müsəlman xalqına qarşı çox dürüst davranmaları, heç bir şikayətə səbəb olmamaları və davamlı nəsihətlərdə olmalarına görə düşüncələri anlaşılmamışdı. Hətta Of və Sürmənə bölgəsində erməni çətələrini uzaqlaşdırmaq məqsədilə laz çətələrindən imdad istənildiyi müşahidə edilmiş və ruslar tərəfindən tərk edilən silahların da müsəlman xalqa paylanmasına Bələdiyyə rəhbəri olan, sonra öldürülən Hafiz Süleymanın mane olduğu məlum olmuşdur. (Müsəlman xalqına silah paylanmasına Hafiz Süleymanın mane olduğu rəvayəti rus və erməni təbliğatıdır. Rusların geri çəkilərkən silahlarını erməni çətələrinə buraxmaları bilinən bir həqiqətdir).

Beləliklə, müsəlman xalqını inandırdıqdan sonra 1 fevral 1918-ci ildə hər bir küçə və məhəlləyə patrul çıxararaq bir bəhanə ilə küçələrdəki xalqı toplamağa başladılar. Məhəllələr arasına çıxan patrullar rast gəldikləri kəndliləri və yerli xalqı "Sizi Arşak paşa çağırır, çox əhəmiyyətli bir məsələ müzakirə ediləcəkdir" kimi yalanlarla toplayaraq həbsxana halına gətirilən Saleh Həmdi ticarətxanasına doldururdular. Buraya gətirilən hər bir adamın qapı ağzında əvvəl üstü axtarılır və çıxan pul və qiymətli əşyalar əlindən alınırdı. Beləcə, adamlar müxtəlif zülm və işgəncə ilə həbsxana halına gətirilən bu ticarətxanaya ulurdular. Bazara gəlməyənlərin zorla evlərinə girilir, pul və mətli əşyaları alındıqdan sonra bəzisi qapılar qarşısında türülür, bəzisi isə zülmə uğradılaraq həbsxanaya göndərilirdilər. Bu vəziyyət 3 fevralın sabahına qədər davam etdi. 3 fevral sabahı ermənilər müsəlman qadınları da toplamağa başladılar və 14 qadın ilə 2 qızı Saleh Həmdinin ticarətxanası qarşısındakı Heydər bəyin otelinə salıb qapını bağladılar. Həbs edilənlərin qətliamı saat üçdə başlandı.

Saleh Həmdi ticarətxanasına qapıdan girildiyi zaman sağdan birinci otağa 23, soldan birinci otağa 4, ikinci otağa 60, üçüncü otağa 50 və koridorun sonundakı otaqlardan soldakına 48, sağdakına 8 adam olmaqla cəmi 193 müsəlman həbs edilmişdi.

Əvvəl soldan birinci otaqda olan Bələdiyyə rəhbəri Hafiz Süleyman ilə Kormas kəndindən Əhməd, Arbaslı İrfan və Vağındalı Piri otaqdan çıxarıldı. Onlar süngü, balta və dəmirlərlə faciəvi bir şəkildə öldürüldülər. Sonra sıra ilə digər otaqlara keçilərək "məhbusların" eyni şəkildə öldürülməsinə başlandı. Gözləri qarşısında vəhşicəsinə öldürülən dostlarını görən digər məhbuslar ürəkləri parçalayan bir səslə bağırırdılar və özlərinə sıra gəldikdə mümkün olduğu qədər canlarını müdafiə etməyə çalışırdılarsa da, bütün qoruma vasitələrindən məhrum olduqlarına görə işgəncə və vəhşətin ən böyüyünə məruz qalaraq, min cür əziyyətlə həyata vida edirdilər. Yalnız ikinci otaqda olan 60 adamdan serjant Murad, Şövqi, Saraç Hafiz və Zahid

mahallesindən Beydi oğlu Sadiq ölülər arasına soxularaq və özlərinə ölü halı verərək canlarını qurtara bilmişdilər. Süngü və balta ilə parçalamaq kafi deyilmiş kimi cəsədlərin üzərinə qaz yağı tökülüb atəşə verilmişdir. Beləcə, arada sıxışıb qalan və hələ ölməyənlər də yanaraq ölmüşdülər.

Buralarda faciəvi səhnələr bağlandıqdan sonra koridorun sonunda və solundakı otaqda olan 48 nəfərə sıra gəlir. Onların arasında olan Dağıstanın Konpo şəhərinə bağlı Hokal qəsəbəsi xalqından olub hadisədən səkkiz ay əvvəl Bayburta gələrək ayaqqabıçılıq edən 22 yaşındakı Məhməd oğlu Abdullah cərəyan edən faciəvi səhnələri görər-görməz yoldaşlarını özlərini qorumağa çağırdı. Onlar həbs edildikləri otağın döşəməsindəki kəmər daşlarını çətinliklə sökərək qapının ağzında barrikada qurdular. Öldürməyə gələn ermənilər bu vəziyyəti gördükdə qapını sındırdılar. Fəqət yığılan daşları aşıb içəri girmək mümkün olmadığına görə bombalarla, güllələrlə bu məsum insanlara hücum etdilər. Müdafiədə qərarlı olan bu zavallıların atılan bombaları təkrar çölə atmaq və daşlarla müdafiə olunmaq surətilə bir qismi məşğul ikən, digər qismi də otağın beton divarını deşməyə çalışırdı.

Bu faciəvi səhnələr davam edərkən Heydər bəyin otelinə doldurulan 14 qadını çıl-çılpaq soyundurduqdan sonra otelə bitişik Çavuşoğlunun otelinə apardılar və burada bir-bir öldürdükdən sonra oteli yandırdılar. Bu 14 qadından üçü paltarlarının çıxarılması təklifinə dayana bilməyərək özlərini pəncərələrdən çölə atmışdılar və otelin ətrafında olan erməni gözətçiləri tərəfindən öldürülmüşdülər. Özünü pəncərədən aşağı atan qadınlardan birinin özü ilə bərabər həbs edilən iki qızı yuxarıdan fəryada başlayınca, onlar da aşağı endirilərək analarının yanında öldürüldülər. Sonra analarının qolları arasına qoyularaq qazla yandırıldılar.

Bu faciəvi səhnələr zamanı məhəllələr arasında da qətliamlar, qarətlər və yanğınlar davam edirdi. Bununla yanaşı, qəsəbənin cənub-qərbində və küçənin sol tərəfində olan cəbbəxananın alovlanması və nəticədə meydana gələn partlayışlar qə-

liamə davam edən erməni əsgərlərini çaşdırdı. Onlar: "Qəsəbəni türk birlikləri sardı, bu partlayanlar toplardır." sözlərilə qaçmağa başladılar. Saleh Həmdinin ticarətxanasında dustaq ikən sağlam müdafiələri sayəsində o zamana qədər ermənilləri məşğul etməyi bacaran o 48 qəhrəmandan sağ qalanları oradan çıxaraq qorxudan gizlənmiş xalqı xəbərdar etdilər və yanğın içərisində olan qəsəbəni söndürməyə başladılar."

Bayburt qətliamından əvvəl erməni çətə rəislərindən biri olan Arşak Bayburt və ətrafındakı bütün müsəlmanları yox etmək məqsədilə, "Mühüm bir qərar alınacaqdır" bəhanəsilə kürd bəylərinə və müsəlman kəndlərin imam və muxtarlarına 1918-ci il 7 fevral günü qəsəbədə toplanmalarını əmr etmişdir. Nəticəsi bəlli olan bu əmrə kənd xalqı uymayaraq Kelkitdəki türk birliklərinə sığınmışlar. (262)

Bu vəziyyəti görən Kelkit rus atəşkəs komissiyasının rəhbəri polkovnik-leytenant Vorofov hadisəni şifrəli bir mesaj ilə general Odişelidzeyə bildirmişdir. (263).

Ermənilər Bayburtun kəndlərindəki müsəlmanlardan yalnız orada-burada rast gəldiklərini öldürə bilmişlər. Bayburt şəhərinin mərkəzində isə eynən Ərzincandakı kimi, faciəvi hadisələrlə, çox şiddətli və qeyri-insani bir şəkildə qətliamlar törətmişlər. Türk birliklərinin gördükləri səhnələr, onların Bayburt zülmü ilə əlaqəli apardıqları araşdırmalar və tərtib etdikləri protokollar Bayburtda törədilən qətliamın dəhşət dərəcəsini göstərməyə kafidir.

Ermənilərin Ərzincanda və Bayburtda törətdikləri qətliamların bir-birinə bənzərliyi nizami qüvvələrlə türk insanının sistemli bir şəkildə acımasızca yox edilmək istəndiyini doğrulamışdır.

Erməni birliklərinin türk birlikləri qarşısında geri çəkildikləri, yol üzərində və yaxınında olan bütün müsəlman kəndlərini darmadağın, qadın, kişi və uşaqları vəhşicəsinə öldürdükləri müşahidə olunmuşdur.

Mamahatun istiqamətində irəliləyən türk əsgərləri hamın qəsəbənin kül halına gətirildiyini və xalqının evlərə doldurularaq yandırıldığını, onların qadın, uşaq, qoca demədən, əsasən

süngü ilə faciəvi bir şəkildə işgəncə verərək, vəhşicəsinə öldürüldüklərini görmüşlər. Mamahatun və onun ətrafında şəhid edilər, türk birlikləri tərəfindən toplatdırılan insan cəsədlərinin sayı 300-ə çatmışdır.

Bayburt-Mamahatun-Aşqala-Qarabıyıkxanları istiqamətində irəliləyən türk əsgərləri bu yolun da faciəvi halda olduğunu görmüşlər. Madənxanlarında beş və bu bölgənin cənub-şərqindəki Haroti kəndinin xalqından üç müsəlmanın cəsədi yol üzərində tapılmışdır.

İrəliləyən türk birlikləri 1918-ci ilin fevral ayında Ərzurumun qərb və şimalında olan müdafiə sərhədlərinə yaxınlaşdılar. Bu xəttə qədər törədilən qətliam, qeyri-insani vəhşiliklər və zülmlərlə əlaqəli raportların araşdırılması aşağıdakı hadisələri ortaya qoyur:

1. Təzəgül kəndindən 30 qadın və uşaq öldürülmüş və 25 kişi naməlum istiqamətdə aparılmışdır. Bunların da eyni faciəvi aqibətə uğradıqları anlaşılmışdır.

2. Tülkü təpəsinin 2 km cənubundakı Ciniş kəndində olan 600-ə yaxın qız, qadın və kişidən 13-ü xaric, hamısı süngülənib yandırılmışlar. Hamilə qadınların qarınları yarılıb çıxarılan uşaqlar analarının qucaqlarına qoyularaq faciəvi bir şəkildə şəhid edilmişlər.

3. Örəni kəndi tamamən yandırılıb kül halına gətirilmiş, xalqı yox edilmişdir.

4. Qərargahını Ərzurumun 13 km cənubundakı Alaca kəndinə köçürən I Qafqaz artilleriya komandanı adı çəkilən kənddə ermənilərin törətdikləri zülmə dair gördüklərini belə anlatmışdır:

a) otaqlara doldurularaq öldürülmək istənən müdafiəsiz müsəlmanlardan 278-i ölü, 42-si ağır yaralı olaraq tapılmışdır;

b) 278 şəhid içərisində namuslarına təcavüz edildikdən sonra öldürülərək ciyərləri çıxarılan və divarlara asılan gənc qızlar, qarınları deşilmiş hamilə qadınlar, beyinləri çıxarılmış və ya vücudlarına benzin tökülərək yandırılmış uşaq və kişilər tapılmışdır;

c) İlıca da eyni aqibətə uğramışdır. Burada yüzlərcə məsum insanlar öldürülmüşlər. (264).

Bir-birini təqib edən bu qətliamlar sistemli və planlı bir şəkildə törədilmişdir. Xüsusilə Cinis, Alaca və İlıca qətliamları dəhşətverici bir şəkildə törədilmişlər. Qadınlar divara mıxlanıb ürəkləri çıxarılaraq divarlara asılmışdır; hamilə qadınların uşaqları çıxarılaraq qucaqlarına verilmişdir. Ermənilərin müdafiəsiz müsəlmanlara qarşı davranışlarıyla əlaqəli Rusiyanın Ərzurumdakı II Qala toplu birliyinin komandanı Tverdo Xlebovun xatirələrində İlıca və Alaca hadisələri olduğu kimi qeyd edilmişdir. Ərzurumda əsir alınan rus komandanı Tverdo Xlebov öz xatirələrində İlıca və Alaca qətliamlarını belə anladır:

"...İlıca qəsəbəsindən qaça bilməyən türklərin hamısının öldürülmüş olduğunu və küt baltalarla kürəklərindən kəsilmiş bir çox uşaq cənazələrini gördüyünü Ərzincandan Ərzuruma dönərkən şəxsən Odişelidze söylədi... İlıca qətliamından üç həftə sonra 11 mart 1918-ci il tarixində oradan dönən polkovnik-leytenant Qryaznov gördüklərini belə anlatmışdır: "Kəndlərə dönən yollarda cinsiyyət üzvləri taxrib edilmiş bir çox meyitlərə rast gəldim. Hər keçən erməni bu cəsədlərə bir dəfə söyər və tüpürərmiş. 25,5-31,9 kv. m. cami həyətində cəsədlər bir-birinin üstünə yığılmışdı. Bunların arasında hər yaşda qadın, kişi və uşaqlar vardı. Qadınların cəsədlərindən onların namuslarına zorla təcavüz edildiyi bəlli olurdu. Bir çox qadın və qızların cinsiyyət üzvlərinə fişəng soxulmuşdu." Alacada bir inşaatçı tərəfindən çalışdırılan bir erməni 1918-ci il 12 mart günü Alacada törədilən vəhşət haqqında bunu anlatmışdır: "Ermənilər bir qadını canlı olduğu halda divara mıxlamışlar, sonra ürəyini çıxarıb başının üstündən asmışlar. .." (265)

Ərzurumdakı qətliam isə general Odişelidzenin Ərzurumdan ayrılmasından sonra başlamışdır. Yəni türk birliklərinin Ərzincana girdikləri 10 fevral 1918-ci il tarixindən etibarən Ərzurumda və ətrafında ümumi qətliam başladılmışdır. Ərzurum qətliamı Andranik və Dr Azarev tərəfindən təşkil olunmuş və həyata keçirilmişdir. Ərzurumun bütün məhəllələri patrullarla doldurul-

muş, bazarlarda və ətrafda olan kişilər Qarsa yol çəkmək bəhanəsilə toplanmış, Qars yolu üzərinə gətirilib pul və qiymətli əşyaları əllərindən alındıqdan sonra əvvəlcədən hazırlanmış çuxurlara doldurulub öldürülmüşlər. Hava qaraldıqdan sonra Ərzurum qarnizonunda olan bütün erməni əsgərləri evlərə hücum etməyə başlamışlar. Beləcə, ağlasığmaz qətliamlar, qarət və namusa təcavüz kimi eybəcərliklər bütün şiddətilə törədilmiş, qadın, uşaq, qoca demədən ələ keçən bütün müsəlmanlar şəhid edilmişlər. Bu qətliam türk birliklərinin Ərzurumu xilas etmə – 24 fevral 1918-ci il tarixinə qədər davam etmişdir. Ərzuruma girən türk birlikləri şəhərdə 2127 şəhid kişi cəsədlərini dəfn etmişlər. Qars yolu üzərində isə təxminən 250 cəsəd tapmışlar. Bu cəsədlər üzərində balta, süngü və güllə yaraları görülmüşdür. Ayrıca, çiyinləri çıxarılmış, gözlərinə mismar çaxılmış vəhşicəsinə qətl edilən cəsədlərə də rast gəlinmişdir. (266).

Türk birliklərinin Ərzurumu sürətli bir şəkildə qurtarmaları geri qalan müsəlman xalqını qətliamdan xilas etmişdir. Rusiyanın II qala topçu birliyinin Ərzurumdakı komandanının ermənilərin törətdikləri zülm və qətliamlarla əlaqəli yazdığı xatirələri Ərzurumdakı hadisələr haqqında doğru məlumatları verir. Rus komandanın bu istiqamətdə apardığı qeydləri yuxarıda anladılan qətliamı bütün açıqlığıyla ortaya qoyur. (267.)

Ərzurumdan geri çəkilən erməni birlikləri Pasinova kəndlərində də qətliamlara davam etmişlər: Həsənqala tamamən dağıdılmış və bütün xalqı öldürülmüşdür. I Qafqaz artilleriya komandanı general mayor Kazım Qarabəkir 25 sentyabr 1919-cu il tarixində Ərzuruma gələn amerikalı general Harbord heyətinə verdiyi raportda ermənilərin Həsənqalada və Ərzurumda törətdikləri qeyri-insani vəhşilikləri olduğu kimi anlatmışdır. (268).

Həsənqalaya ilk gələn türk birlikləri küçələrdə acı-acı bağıran pişik və köpəklərdən, alovlar içərisində yanmaqda olan qəsəbədən, küçələrdə öldürülmüş qoca, uşaq və qadın cəsədlərindən başqa bir şeyə rast gəlməmişdilər. Qəsəbədə öldürülənlərin sayı 1.500-ü aşmışdır. (269).

Həsənqaladakı dağıntılar arasında canlı qalan 100, Körpü kənddə 85, Badicivanda 200, cəmi 385 nəfər ağır yaralı qadın, kişi və uşaq türk birlikləri tərəfindən toplanaraq müalicə üçün xəstəxanalara yerləşdirilmişdir.

Ərzurumun şimalından çəkilən erməni birliklərinin bir qismi bu bölgəni də qətliam səhnəsinə çevirmişdilər. Onlar Ərzurumun şimalında yerləşən Erginis kəndindən 50-ə yaxın qadın, uşaq və qocaları öldürüldükdən sonra bu kəndi tamamən yandırmışdılar. (270).

Ərzurumun şərqindəki vadi kəndlərindən olan bir çox qızın namusuna təcavüz edildiyi, bir qisminin də naməlum istiqamətdə aparıldığı anlaşılmışdır.

Həsən və Kalçık kəndləri xalqından təxminən 50 kişinin cəsədləri Gümgümdə tapılmışdır. Makalisor kəndi xalqıyla Gümgümdəki bütün kişilər yol düzəltmək bəhanəsilə aparılmış və bunların aqibəti naməlum qalmışdır. Erməni dəstələri Gümgüm qəsəbəsindən olan 20 qadın və uşaqları öldürdükdən sonra oranı tərk etmişlər.

Xınısdan Kərpukənd istiqamətində geri çəkilən erməni çətələri yol üzərində və yola yaxın olan kəndləri yaxıb yandırmış, oralarda yaşayan xalqın mal və qiymətli əşyalarını qarət etdikdən sonra acımasızca öldürmüşlər. (271).

Nəticə etibarilə, Ərzincandan 1877-1878 tarixdəki Osmanlı-Rusiya sərhədlərinə qədər olan kəndlərdən çox azı erməni çətələrinin zülm və vəhşətindən qurtula bilmişdir. Ərzincandan bu sərhədə qədər olan bölgələrdə aparılacaq bir araşdırma ilə erməni çətələrinin müsəlman xalqına qarşı vəhşicəsinə törətdikləri zülmü təsbit etmək bu gün belə mümkündür.

Sarıqamış, Qars, Gümrü, Kağızman, Ərdəhan və Ahılkələk bölgələri ardarda faciələr səhnəsi olmuşlar. Buralarda yaşayan müsəlmanlar tamamilə yox edilməyə çalışılmışdır. Sarıqamış və Ahılkələk yandırılmışdır. Ermənilərin bu bölgələrdə törətdikləri zülm və işgəncələr, qısaca olaraq aşağıda verilmişdir (272):

1. 25 aprel 1918-ci il tarixində Qarsın şərqindəki Subatan kəndində böyüklü-kiçikli 750 müsəlmanı süngü, balta və bıçaq-

la acımasızca öldürdükdən sonra yandırmışlar. Maqosto (Qarsda Arpaçayın sağında yerləşən, Magazberd adı verilən qala yöresi) və Alaca (Qars-Diqor qəsəbəsinə bağlı bir kənd) kəndlərində 100-dən artıq qadın və uşaqlar eyni şəkildə vəhşicəsinə öldürülmüşlər. Təknəli, Hacıxəlil, Kaləkənd, Xaraba (Qars mərkəzinə bağlı bugünkü Dərəcik) kəndi, 671 nəfər əhalisi olan Kaləkəndindən qurtulan 11 nəfərdən biri olan Aşıq Qəhrəman (1863-1944) bu kənddə 360 yaxın müsəlmanın bir samanlığa doldurularaq necə yandırıldığını kədərli dastanında yad etmişdir. (273). Vaqor, İlanlı, Kinak kəndlərinin sakinləri tamamən yox edilmişlər. Qarsdakı türk əsirlərindən bir qismi Qarsda, digər bir qismi də Gümrüdə süngü ilə vəhşicəsinə öldürülmüşlər.

2. 29 aprel 1918-ci il tarixində Gümrüdən təxminən 500 araba ilə Ahılkələkə aparılmaqda olan 3 000-ə qədər kişi, qadın, qoca və uşaqlar yolda işgəncə verilərək faciəvi bir şəkildə öldürülmüşlər.

3. 1 may 1918-ci il tarixində 100-ə yaxın erməni əlləsi Şişdərə (Bugünkü Gümrüdə olan Düzkənd), Dorkono və ətrafından 60 nəfər kişi, qadın, qoca və uşaqları acımasızca öldürmüşlər.

4. 1 may 1918-ci il tarixində Ahılkələk ətrafındakı Acaraça, Danqal, Milanıs, Mİrcahid, Padıqna, Havur və Kumrus kəndləri yandırılmış, xalqları da tamamən yox edilmişdir. Arpaçay üzərindəki Kehorkinevskinin şimalındakı Yoğurdlu və İrəvanın şimal-şərqindəki Şamran və ətrafındakı kəndlərin xalqı ermənilər tərəfindən öldürülmüş, kəndlər tamamən yaxılıb-yandırılmışdır.

5. Borçalı qəzası mərkəzindən Matoyev imzasıyla III Gürcü piyada diviziyasının komandanlığına yazılmış olan və əsli ələ keçirilən 17 aprel 1918-ci il tarixli raportda erməni zülmü haqqında eynilə bu cümlələr keçir: "Ermənilər əmrə və intizama baxmayaraq, bir neçə müsəlman kəndini yandırdılar. Bunu edənlər tapılmadı. Abbasduman və Borjomi ilə teleqraf və telefon danışıqlar kəsilmişdir. Kəndlilər bizdən yardım istəyirlər, bizdə isə imdada çatacaq bir güc yoxdur." (274)

6. Avtomat, tüfəng və topla silahlanmış 1.000-ə yaxın bir erməni əsgəri qüvvələri Kağızmanın şərqindəki Kulp (Tuzluca qəsəbəsi) və İrəvan bölgəsindəki müsəlman kəndlərini yaxıb-yandırmış, kişi, qadın, qoca və uşaqlara işgəncə verərək öldürmüşlər.

Bakı (İslami) Xeyriyyə cəmiyyətinin 36-cı Qafqaz tümeni komandanlığına göndərdiyi məktubda İrəvan vilayətindəki müsəlmanların yox edilməkdə olduqları, 30-dan artıq müsəlman kəndinin yandırıldığı, xalqının öldürüldüyü və İrəvandan qaçaraq gələn yaralı və xəstə köçərilərinin sayının gündən-günə artmaqda və səfalət içərisində üzməkdə olduqları göstərilir və bunlara sığınacaq bir yer göstərilməsi xahiş olunur (275).

Erməni birliklərinin belə vəhşicəsinə davranışlarına qarşı türk birliklərinin davranışları haqqında Kutaisi valisi Çıkvişvilinin Kutaisi vilayəti ilə mərkəzə bağlı olan yerlərə yazdığı teleqraflardan diqqəti çəkən bölümlər aşağıya alınmışdır (276):

"Türklər kəsir, öldürür deyə xəbərlər çıxır. Mən sizə bildirirəm ki, bu, doğru deyildir. Türk hökuməti və türk əsgəri dinc əhaliyə heç bir şey etməz. Əksinə, onların mal və mülklərini qoruyaraq yardım edər. Xalqın öz yerlərinə dönməsini, onların sahibsiz qalan evlərindəki əşyalarına sahib olmalarını və bunların zay olmaqda olduğunu Türkiyə hökuməti bizə bildirir. Trabzondan və Batumdən əsgərlər silahlarını alaraq qaçdılar. Bu, utanılacaq bir şeydir. Müharibədə kiçik-böyük - hər kəs vəziyyəti mühafizə etməlidir!"

Borçalı müsəlman xalqının uğradığı zülmü Tiflisdə çıxan "Albayraq" qəzetinin xüsusi sayı açıq-aşkar ortaya qoyur (277):

a) Barbarlıq və zalımlığın ağıla gələ bilməyəcək dərəcəyə çatdığı görülməkdədir. Ermənilərin Ahılkələk bölgəsindəki müsəlmanlara qarşı törətdikləri zülmlər haqqında rus məmurlarından I Aksiye şöbəsinin rəisi Xoroşenko öz əl yazısı ilə verdiyi raportda hadisələri aşağıda olduğu kimi açıqlamışdır (278): "1917-ci il noyabr ayından etibarən 1918-ci il 21 may ayına qədər ermənilərin Ahılkələkdə yerli və sadiq müsəlman xalqına qarşı törətdikləri vəhşətləri açıqlayacağam. Yerli gürcülərin mə-

nə anlatdıqlarına əsaslanaraq və şəxsən görmüş olduğum hadisələri gözlərim yaşlarla dolu olduğu halda yazmağa başlayıram. Keçən il noyabr ayının sonunda Ağbabalı səkkiz müsəlman yerlilərdən at satın almaq üçün Boqdanovka kəndinə (Ahılkələkin cənubunda olan Rusiya koloniyasının olduğu kənd) gəldi. Bundan xəbər tutan Xocabəy kəndinin ermənilər o səkkiz müsəlmanın ətrafını sarıb xəncərlərlə üzərlərinə hücum etdilər, dördünü öldürdükdən sonra onların gözlərini oydular, dillərini kəsdilər və cəsədlərə müxtəlif həqarətlər yağdırdılar. Sonra qalan dörd nəfəri də silahla öldürərək cəsədlərini Ağbabalılara verdilər. Onlar xəncərlərlə öldürdükləri o dörd nəfərin cəsədlərini yandırdılar. 1918-ci ilin yanvar ayında ermənilər müsəlman kəndlərinə hücum etməyə başladılar. Əvvəl: "Silahlarınızı bizə versəniz, sizə bir şey etmərik."- deyərək söz verdilar. O doğru-dürüst müsəlmanlar da ermənilərin sözlərinə inanaraq silahlarını təslim etdilər. Halbuki ermənilər yalan söyləmişdilər. Onlar müsəlmanların silahlarını aldıqdan sonra Tospiya, Kokiya, Verivan, Tonokom, Kulilis, Pankana, Soqomakuvasi, Alovejva və Gumris kəndlərini yaxıb-yandırdılar. Bu kəndlilərin heyvanlarını, yeməklərini və bütün əşyalarını alıb apardılar. Kənd xalqının bir qismi elə oradaca öldürüldü, geri qalan kişi və qadınları əsir alaraq Ahılkələk qəsəbəsinə apardılar. Orada onlara 24 saatdan bir 400 qramlıq çörək ilə sudan başqa heç bir şey vermədilər. Aclıq və pislikdən irəli gələn tif xəstəliyi başladı. Doktorlar əsirlərin daha yaxşı bəslənmələri və təmiz tutulmaları üçün müraciət etmişlərsə də, ermənilər bu müraciətləri diqqətə almadılar və müsəlmanların hesabsız qırılmalarına səbəb oldular. Heç kim onlara yardım etmədi. Çünki ermənilər müsəlman əsirlərin saxlandıqları binanın ətrafına belə heç kəsi buraxmırdılar.

21 may 1918-ci ildə türk ordusu Kurzah (bugünkü Karsak) kəndini işğal etdiyi zaman ermənilər qaçmağa başlamadan əvvəl əsirlərin tutulduqları binaları yandırdılar. Müsəlmanlar bu odun-alovun altında qaldılar. Cəsədlərin bir qismini çuxurlara tökdülər və onların da üzərlərinə neft töküb yandırdılar! Bax, XX əsrdə "mədəni" ermənilərin törətdikləri budur!"

Görünən odur ki, ermənilər 1877-1878-ci il Osmanlı-rus sərhəddinin qərbindəki işğal altında olan torpaqlarda yaşayan müsəlman xalqına verdikləri zülm və vəhşəti sözü gedən sərhəddin şərqində sakit, öz iş-gücülə məşğul olan, milli haqlardan uzaq çarəsizlərə də tətbiq etməkdə davam ediblər. Bu soyqırım planının müntəzəm qüvvələrlə həyata keçirildiyi, məqsədin çoxluq təşkil edən müsəlmanları azlıq vəziyyətinə düşürülməsi və hətta onların varlıqlarının tamamən yox edilməsindən ibarət olduğu anlaşılmışdır. Ermənilər bu vəziyyəti bu gün belə Azərbaycanın torpaqlarında elan edilən "Ermənistanda" yaratmış, Qarabağda da yaratmaq arzusundadırlar. Onlar bu çılğınlıqlarını özlərinin görmüş olduğu zülm qarşısında etdiklərini iddia etsələr də, bu iddianın çürüklüyünü 1877-1878-ci illərdəki Rusiya sərhəddinin şərqində və qərbində törədildiyi aşkar olunan qanlı hadisələr də göstərir.

h) Məşhur erməni çətə rəislərindən Andranik öz dəstəsilə Naxçıvan ətrafında törətdiyi qətliamı heç durmadan davam etdirilmişdir. Erməni baş komandanı bu qətliamın məsuliyyətinin özünə yönələcəyini anlayırdı. Bu sırada erməni artilleriyasının komandanı general Nazarbekovun (Nazarbekyan istər ermənilərin məsələsində, istərsə də Azərbaycan və Van ətrafındakı hərəkətlərdə Rusiyanın I Qafqaz ordusunun qərargahının rəhbəri olan general Yudeniçin baş müşaviri və müavini idi) I Türk artilleriyası komandanlığına çatdırılmaq üçün erməni komissiyası rəhbərliyinə 27 iyun 1918-ci ildə göndərdiyi 1008 nömrəli məktub törədilən zülmün dəhşətini və miqyasını göstərir: "Aldığım məlumatlarda əmrlərimə qarşı çıxdığına görə, komandanlığım altında olan artilleriyadan 5 iyun 1918-ci il tarixində tutduğu vəzifədən bütün dəstəsilə uzaqlaşdırılan Andranikin Naxçıvan ətrafında, həqiqətən, bir çox zülm və faciələr törətməkdə olduğunu türk komandanlığına bildirmənizi rica edirəm ..."

1918-1920-ci illərdə Qafqazda törədilən erməni zülmünü TBMM hökumətinin Şərq cəbhəsi komandanlığı belə anladır (279): "...Türk ordusu 30 oktyabr 1918-ci ildə imzalanan sulh

müqaviləsi ("Mondros sülh müqaviləsi") şərtlərinə əməl edərək müharibədən əvvəlki sərhəd içərisinə çəkildikdə himayəsiz qalan müsəlmanlar yenidən erməni qətliamı və zülmü ilə qarşı-qarşıya qaldılar. Türk ordusunun boşaltdığı torpaqlarda çoxluğu təşkil edən müsəlman əhalisinin yox edilib bitirilməsinə gedən bu qətliamlar, zülmlər, işgəncələr... toxumluq istəmək, səbəbsiz vergilər yükləmək və silahları toplamaq kimi ən sadə bəhanələrlə törədilmişdir.

Zülm görən müsəlmanların düşdükləri bu acı vəziyyətlərin zənciri Avropada, Amerikada, qısacası hər yerdəki ermənilərin təbliğatları nəticəsində guya müsəlmanlar tərəfindən törədilmiş cinayətlər kimi göstərilir, müsəlmanların qarşılaşdıqları fəlakətlərdən, zülm və qətliamlardan yenə müsəlmanlar əleyhində minlərcə yalan və iftira vasitəsi kimi qələmə alınırdı.

Fəqət 1920-ci ildə türk ordusu müsəlmanlar üçün qanlı və qorxunc bir fəlakət səhnəsi olan 1878-ci il sərhəddinin şərqindəki bölgəyə yenidən girdiyi zaman ermənilərin buraxdığı vəhşət izlərini gözlərilə görmüş, müxtəlif heyətlər tərəfindən aparılan rəsmi araşdırmalarda həqiqətlər ortaya çıxmışdır.

Gözlə görülənlərə, sənədlərə, dəlillərə və sağ qalan yerli xalqın anlatdıqlarına əsaslanaraq bir kitab halında toplanan müxtəlif məlumatları, indiyə qədər ermənilərin təbliğat pərdələri arxasında gizlətməyə çalışdıqları, bənzərləri görülməmiş acı və qorxunc tabloları insanlığın bilgi və düşüncəsinə təqdim etmək, bunların yayınlanıb bildirilməsi bir insanlıq vəzifəsi sayılmalıdır.

İngilislərin hiylə və uydurmaları nəticəsində Qars Milli Şura hökuməti 13 aprel 1919-cu ildə (İngiltərənin Qarsda parlament binasını qəflətən basıb mühasirəyə alaraq hökumət adamlarını Maltaya sürgün etməsilə) idarəni buraxdıqdan üç gün sonra erməni general Osepyan əsgərlərilə birlikdə Qarsa girərək daşnak ermənilərindən general Karqanovu hökumət maqamına vali olaraq seçdirdi. Bu seçkidən bir həftə sonra da erməni zülmü yenidən başladı.

Ermənilərin törətdikləri bəzi hadisələr aşağıda verilmişdir.

Ermənilər Milli Şura qurucularından Cahangiroğlu İbrahim (Aydın), Həsən (Aydın), Əziz (Cahangiroglu) Musa bəy, Gumrülü (Xalıcızadə), Yusuf (Arpaçay), Tevhiduddin (Orenburq), Mamilov (Diqorlu Salahoglu), Qarslı Ataman oğlu Muxlis, Rus (Polonez) millətindən Simon Rasinski (Rum Paşlo Çamışov), Kagızmanlı Rıza Ataman bəy, Rəşanlı (İgdırlı və Qars valisi) Məhməd bəy, Talınlı Hüseyin Kanaga və Ağbabalı Əhmədi (Qaraçanta) bir gecədə həbs edib uzaqlaşdırdıqdan sonra onların hamısının mal-mulkunu mənimsəyib aşyalarını qarət etmişdilər.

Ermənilər Birinci Mustafa ağanı öldürdükdən sonra ona aid bütün aşyaları qarət etmişlər.

Fırıncı Məhməd oğlu Həsənin 700 Osmanlı atını və 2000 banknot pulunu köməkçı Çalıquşyan ilə qəza hakimi hiylə və qorxutma nəticəsində qəsb etmişlər.

Paslı kəndindən Molla Məhməd "Türkiyə ilə xəbərləşirmiş" iftirası və yalanıyla Qala qapısına aparılıb başının sağ tərəfindən dərisi soyulmuş, alləri kəsilmiş, vucüdunun yan hissələrində "ciblər" açılmış və əllər; bu ciblərə soxulmuş halda qorxunc bir işgəncə ilə öldürulmuşdür.

1919-cu il iyun ayında Qarsın Hacıxəlil kəndindəki türkləri Sumbat oğlu Murad (Nazifə) adlı bir erməni 500 atlı ilə muhasirəyə alıb 8 000-ə yaxın qoyun, 500 dən artıq öküz, 200 000 lirə nağdı pul və qiymətli əşyalarını götürərək ailə başçılarından 8 nəfəri öldürmuşlər. Kiçik Yusuf, Hacımoho (Varimli) San və Ağadəvə kəndlərinə də hücum edərək 30-a yaxın adamı şəhid etdikdən sonra evlərini qarət etmişlər, 2.000 qoyun və öküzü Qarsa aparmışlar ki, bu cinayətlər erməni generalı Osepyan ilə Qarsın erməni valisi Karqanovun əmri ilə edilmişdir.

10 sentyabr 1919-cu ildə Bardibdəki Bakim, Gurəşkən, Çermik kəndlərinə hücum edərək müsəlmanlardan bəzilərini öldürmuş və mallarını qarət etmişlər.

Ermənilər 14 sentyabr 1919-cu ildə Karaurqanın (Keçmiş türk-rus sərhədd rəhbərliyinin olduğu yer) 15 km şərqindəki

Çaymaz kəndinə hücum edərək müsəlmanlardan bir neçəsini öldürmüş, bir neçəsini də köç etməyə zorlamışlar.

1919-cu ilin dekabr və 1920-ci ilin yanvar və fevral ayları ermənilərin verdikləri zülm, işgəncə və qətliamların çoxluğu və genişliyi baxımından çox qanlı və qorxunc hadisələrlə doludur.

General Osepyan komandanlığındakı erməni birlikləri və çətələri Qars ətrafındakı Qarapınar, Çamurlu, Ağdərə (Aqkom), Gölbaşı, Bəralik (Alçılı), Aynalı, Qızılçakçak (Qayadibi) kəndlərinə hücum edərək yüzdən artıq günahsız, silahsız müsəlmanı şəhid etdikdən sonra 2 000-ə yaxın qoyun və mal-qara ilə 100 min liralik xalça, ev əşyaları və qiymətli əşyaları zorla alaraq aparmışdılar. Ermənilərin bu zülm və vəhşiliyi səbəbindən Qars ətrafını buraxaraq Göle ilə Çıldır tərəfinə qaçmaqda olan müsəlmanlardan çoxu qadın və uşaq olmaqla 500 nəfərə yaxın türk insanı soyuqdan donaraq şəhid olmuşdur. Bu qorxunc və qanlı faciələrin tərtibçisi Vali Karqanov ilə General Osepyandır.

1920-ci il 2 yanvar günündən başlayaraq Qars-Gümrü dəmiryolu üzərindəki Şahnalar kəndinə hücum edən ermənilər vaqonlardan top atəşi açaraq, təkcə bu kənddə 500-dən artıq kişi, qadın və uşağa çox acı verərək öldürmüşlər. Bu faciədən qaça bilən 200 nəfərə yaxın müsəlman da qar çovğununa düşərək həyatlarını itirmişlər.

Yenə bu zamanlarda ermənilər Qarsa bağlı Diqor qəsəbəsindən 38 kəndi yandırıb dağıtmış və bu kəndlərdən kişi, qadın və uşaq olmaqla 14 620 müsəlmanı şəhid edərək bütün mallarını qarət etmişlər. Bu həqiqətlər alınan 38 kənd xalqından sağ olaraq qaçıb-qurtulan və bir gün yenə geri dönərək erməni qaniçənliyinə, vəhşiliyinə açıq və acı bir ibrət lövhəsi sayılan xarabalar içərisində göz yaşları tökərək yenidən yuva qurmağa çalışan zavallıların yanıb-yaxılaraq anlatdıqlarına və yerində aparılan tədqiqatlara dayanmaqdadır. Ermənilər bu 38 kənddən 15-ni elə yaxıb yandırmışdılar ki, buralar hələ də xarabalıqlar halındadır.

Qars Milli Şura hökumətinin düşməsindən sonra ermənilər Sarıqamışa gəlib, o bölgənin rəhbəri Varcabut Akop ilə ev-

vəllər Şura hökumətinin xidmətində telefonçu olan yeddi müsəlmanı acılar içərisində öldürmüşlər.

Ermənilər Sarıqamışa girdiklərinin ikinci həftəsində Məscidli kəndinə basqın edərək İrəvan köçərilərindən Dərviş ağa ilə ailə başçılarından 20 nəfəri şəhid etmiş, kəndi topa tutaraq kəndlilərin mallarını və əşyalarını qarət etmişlər. Bu hadisənin ertəsi günü qorxunc hücuma etiraz edən Millət Vəkili və Sarıqamışın keçmiş rəhbəri Bəkir Sidqi bəyin Həmalı kəndindəki evi ilə birlikdə bütün kəndi topla dağıdaraq onun bütün qohum-əqrəbasını və yaxınlarını öldürmüş, pul və əşyalarını qarət etmişlər.

1 aprel 1920-ci il tarixindən başlayaraq general Osepyan və Vali Karqanov ilə alay komandanı Mirmanovun əmrilə Osmanlı köçərisi olan erməniləri Sarıqamış kəndlərinə yerləşdirməyə başladılar. Bundan sonra çətəbaşı Şebonun Manzerist deyilən atlı çətələrinin başlarında çətə üzvü, erməni serjantı Sabo Murad, Nazık Hacıbab və Sarıqamış jandarma komandanı Arşak Hayrapet olduğu halda, bir-bir müsəlman kəndlərini qarət etməyə başladılar. Buralarda 32 kəndi yaxıb-yandırdılar, 1970 nəfəri yox etdilər və çoxlu mal, əşya və pul topladılar. Karranlı kəndində ayrı-ayrı üç böyük binada 800-dən artıq müsəlmanı diri-diri yandırdılar, geri qalanları isə canlarını qurtarmaq üçün Türkiyəyə sığınmaq məcburiyyətində qaldılar.

Ermənilər Gölenin Cedik, Toptaş və Kelpikor kəndləri əhalisindən də 600-ə yaxın müsəlmanı evlərə doldurub yandıraraq erməni vəhşətinə bir yenisini əlavə etmişlər. Onların bu kəndlərdən alıb apardıqları 26 qız və gəlinlərə nə olduğunu heç kəs bilməmişdir. Qətliam zamanında bu kəndlərdən qaçmağı bacarıb sağ qalan dörd nəfər bu qorxunc hadisələrə şahidlik etmişlər.

1920-ci ildə Bardız mərkəzinə bağlı Gəraşkan Zakim, Çermık, Vartanut, Kürkçü Mıtinder, Ehriz, Posik, Təmurkışla, Vanık Nüsnuf, Katresi Tirpanak, Dağır kəndlərindən 912 adamın bəzilərini güllələyərək, bəzilərini də yandıraraq şəhid etmiş olan ermənilər 150 evi də yıxıb-yandırmış, qoyun, taxıl, qiy-

malli aşya va pulları qarat etmişlar. Bu kandlardan olan bir çox qız va qadınlarla canavarca raftar etmiş, onların namuslarını kirlatmiş va 29 ganc qızı özlarila aparmışlar.

Bu qatliam zamanı daha avval qatliama uğrayan kandlardan Kürkçü ila Vartanut kandlarina gatirilib yerlaşdirilarak baslanan 125 nafar kimsasiz qız va oğlan uşaqları da acı va qorxunc bir şakilda öldurulmuşlar.

Bütün bu qorxunc va acı qatliamları töradanlar alay komandanı Mirmanov ila Sıvaslı Murad adındakı qaniçan çataçılar olmuşlar.

Ermanilar Qaraurqan yanındakı Sıradaşlar kandinin sakinlarini Osmanlı sarhaddi boyunca muselmanların yaşamasının uygun olmadığı bahanasila Qarsa doğru yola çıxarmış va Sarıqamış ila Qars arasında bu zavallıların aşya va heyvanlarını qarat edarak 150-ya yaxın adamı şahid etmişlar. Bu cinayatlari töradan jandarma komandanı Arşak olmuşdur.

1920-ci ilin yanvar va fevral aylarında Qars ila Sarıqamış bölgasinda olduğu kimi, ermanilar yerli İslam Şurası heyati tarafindan idara edılan Çıldır, Zarşat va Ağbaha bölgalarina top va tufangli dastalarila hücuma başladılar. Yanvar ayında Zarşat qasabasinin Göyarçın Mamiş, İncillipınar kandlari ermani çatalarinin hücumuna uğramış va bu kandlardan 130-dan artıq adamın bir hissasi diri-diri ataşda yandırılaraq öldurulmüş, ganc qızlardan 30-u Gumruya aparılmışdır.

Yena bu zamanlarda ermanilar Gölanin Çullu kandina topçu ataşila va qruplarla hücum edarak butün ahalini öldurmüş, qız galinları isa asır alıb aparmışlar. Bu arada, mal va aşyaları da qarat etmişlar. Gölanin Yuxarı Çatak va Aşağı Çatak kandlari da ermanilarin hucumuna maruz qalmış, kişilarin bir hissasi qaçmış, qalanı öldurülmuşdür. Qadınların iffatlari ceynanmiş, mal-qara va aşyaları qarat edilmişdir.

Ermanilar Hasköydan dord kişi ila bir neça qadını asir almış va bir çox mal-qara ila aşyaları qarat edib Ərdahana aparmışlar.

Ermanıların İslam Şurası tarafindan idara edilan bu bölgalari zorla ala keçirmaya qarar verdiklarini va hücum etmaya

hazır olduqlarını 30 yanvar 1920-ci ildə erməni birliklərinin komandanı tərəfindən yayımlanan qorxuducu bildiriş də aşkar edir. Evlərin topçu atəşilə yandırılacağından və malların qarət ediləcəyindən bəhs edən bu bildiriş ermənilərin zülmünə bir rəsmi nümunə sayılacağına görə olduğu kimi aşağıya alınmışdır:

**"30 yanvar 1920-ci il, saat 12**
**Romanov stansiyası.**

Zərşat bölgəsi əhalisinə:

Sizin tərəfinizdən bilinir ki, mən (Romanov) yol boyunca stansiyaya gəldim. Sizin qərar verməyiniz üçün iki gündür ki, səbr edərək gözləyirəm. Qadınlarınıza, uşaqlarınıza acıyaraq erməni təbliğini mənimsədiyinizi bildirmək üçün namizədlərimizi göndəririk. Bəlkə sizcə də bilinir ki, Ermənistan Respublikası böyük dövlətlər tərəfindən müstəqil olaraq tanınmışdır. Ermənistan, Gürcüstan, Azərbaycan arasında birlikdə sülh içərisində yaşamaq üçün təhlükəsizliyə aid bir dostluq ittifaqı imzalanmışdır. Bundan ötrü sizə xəbər vermədən istər erməni, istər rus (malakan) və ya müsəlman olsun, kəndlərinizdə, qəsəbələrinizdə qan tökmək istəmirəm. 31 yanvar 1920-ci il saat 12-yə qədər ən gec olmaq üzrə təbliğinizi təsdiq etmək üçün on nümayəndəni Romanov stansiyasına, mənim qatıma göndərməyinizi məsləhət edirəm.

Nümayəndələrinizin hürriyyətlə yaşamalarını boynuma alıram. Əgər təbliği mənimsərsəniz, sizin hürriyyətinizi, mallarınızın mühafizəsini öz üzərimə alıram. Yoxsa, evlərinizi topçu atəşilə yıxmağa və mallarınızı yox etməyə məcbur olacağam. Ailələrinizə dəyəcək zərərin məsuliyyəti sizə aiddir.

Bir neçə fəsadçılar sizi yanlış yola yönəltdi: "Əgər erməni hökumətinə tabe olsanız, ermənilər sizi kəsəcəklər," - deyərək aldadırlar. Bunlara inanmayın.

Siz bilirsiniz ki, Golə, Sarıqamış və Kağızman tərəflərində müsəlmanlarla ermənilər sülh içərisində, anlaşmış bir vəziy-

yolda yaşayırlar. Zərşat bölgəsinin xalqı, siz də belə yaşayacaqsınız.

GENERAL-MAYOR
N.N.NARSİSOV Per."

25 yanvar 1920-ci ildə Ərdahanın İdarə rəhbəri, naxçıvanlı İbrahim Qədimov və əsgəri komandan Mərzimanovun imzasıyla Çıldır əhalisinə, millət vəkillərinə yazılan məlumatda: "Çıldır əhalisi üzərinə hər tərəfdən əsgəri birliklər göndəriləcəyini və bu birliklərin qarşısına duz-çörəklə çıxıb boyun əyərək təslim olmağın lazım gəldiyini, əgər təslim olmazlarsa, İrəvan şəhərindəki müsəlmanlara rəva görülən qətliamlar və bu gün Gölədə baş verən qətliamlar göz qabağında ikən özlərinin ermənilərə güvənib etimad göstərə bilməyəcəklərini..." – söyləyib bildirmişlər. Belə olduqda, 27 yanvar 1920-ci ildə erməni birlikləri topçu və piyada hissələrinin atəşilə hücuma başlamışlarsa da, əhalinin müqaviməti nəticəsində geri püskürtülmüşlər.

Ermənilərin İrəvanda müsəlmanlara qarşı törətdikləri qətliamlar, köçə zorlama zülmü və Çıldır, Gölə, Qızılçaq, Zərşat, Susuz, Arpaçay və Ağbaba ətrafında baş verən təcavüzlər yanvar ayı 1920-ci ildə Məşhədi Səməd ağa rəhbərliyindəki İslami Şura heyəti tərəfindən Tiflisdə olan Amerika təmsilçiliyi qarşısında etirazla qarşılanmışdır.

Heç bir yandan müdafiə görə bilməyən bu zavallı müsəlmanların haqlı və acıqlı səsləri Azərbaycan dövlətinin Milli Məclisində səsləndirilərək yüksəltilmişdir.

Bu qətliamlar nəticəsində ortaya çıxan dözülməz vəziyyəti nəzərə alaraq Azərbaycan hökuməti Xarici İşlər Nazirliyi tərəfindən Ermənistan hökumətinə nota verilmişdir. İngiltərə, Fransa və İtaliya siyasi təmsilçilərinə də verilən bu notanın mətni Batumda çıxan "İslam. Gürcüstan" qəzetinin 4 mart 1920-ci il tarixli sayında yayınlanmışdır.

Bu notanın mətni aşağıdadır:

"ERMƏNİSTAN HÖKUMƏTİ
XARİCİ İŞLƏR NAZİRLİYİNƏ

Hökumətimiz Qars hadisələri və törədilmiş faciələr haqqında Qars islam əhalisinin nümayəndələri tərəfindən göndərilən sənədi, 30 yanvar 1920-ci il tarixində general Osepyan tərəfindən yayımlanan 1 nömrəli əmrnamənin suratini, Qarsda yazılan teleqrafda Zərşat nümayəndələrinin cavabını və bunlara bənzər sənədləri almışdır. Azərbaycan hökuməti tərəfindən alınan sənədlər və məlumatlar Ermənistan hökumətinin Qarsda sülhün və sakitliyin hökm sürdüyünü bildirməsinə və tərəfinizdən Qars şəhərinin müsəlman əhalisi əleyhinə göndərilən teleqraflara bütünlüklə qarşıdır və onların əksini isbat etməkdədir.

30 yanvarda general Osepyan tərəfindən yayımlanan 1 nömrəli əmrnamə Zərşat bölgəsi əhalisinin itaətə gəlməsini, yoxsa top və tüfəng atəşlərilə yox ediləcəkləri təhdidini ifadə edir. Zərşat müsəlman əhalisi nümayəndələri general Osepyana verdikləri cavabda ermənilərin törətdikləri qətliam və qanunsuz davranışlarından bəhs edərək, qanunsuzluğun qarşısının alınmasını, kəndlərin dağıdılıb məhvedilməməsini diləmişlər və belə edilməzsə, ortaya çıxacaq məsuliyyətin Osepyan ilə Ermənistan hökumətinə aid olacağını bildirmişlər. Qars şəhərinin müsəlman əhalisi tərəfindən verilən məlumatlara görə, Maznovun komandası altında olan erməni əsgərləri 17 yanvarda müsəlmanların yaşadıqları kəndlərə hücum etdiyi kimi, Osepyan da 1 nömrəli əmrnaməsindəki təhdidlərini etmişdir. Beləcə, Göyərçin, Qızğınlı, Geçid, Barçalı Məscidli Künbət, Ağzıaçıq, Mamaş, Bendivan Qalacıq kəndləri erməni əsgərləri tərəfindən tamamən yandırılaraq bütün mallar talan edilmişdir. Bununla yanaşı, Ahılkələk ilə Tiflisdə olan Çıldırlı Dr. Esat Okay və Sürəgəl Dayanıqlı ağa kimi Qarslı ziyalı müsəlmanlar tərəfindən verilən məlumatlar bu faciəvi hadisələri doğrulayır.

Müsəlmanlar və erməni millətli arasında müsbət əlaqələrin qurulması istəyilə bu kimi vəhşicə və qorxunc davranışlara son verilməsi xüsusunda lazım olan tədbirlərin görülməsini hökumətimiz adından rica edir, yoxsa ortaya çıxacaq məsuliyyətin Ermənistan hökumətinə aid olacağını bildirirəm.

XARİCİ İŞLƏR NAZİRİ
Xan Xoyski."

Artıq dayanılmaz bir hal alan erməni zülmünə dözə bilməyən müsəlmanların fəryad və şikayətləri sürüb gedincə, Tiflisdəki amerikalı albay Haskal ilə bir ingilis yüzbaşısı 1920-ci ilin fevral ayında Şahnalar və ətrafındakı kəndlərə gələrək əhalini sakitləşdirmiş və bundan sonra müsəlmanlara əsla hücum edilməyəcəyini qeyd etmişlər. Bu vədlərə inanan müsəlmanlar artıq can, mal, namuslarının mühafizə altına alındığını zənn edərək silahlarını atıb kəndlərinə dağılmışdılar. Fəqət aradan çox zaman keçmədən erməni çətələri yanlarına yeni dəstələr alaraq yenidən müsəlmanlara qarşı qətliama başlamışlar. Onlar 28 fevralda Zərşat qəsəbəsinə hücum edərək müsəlmanlara çox böyük itki verdirmiş, 28 kəndi yandıraraq qoca, qadın və uşaq demədən 2000-dən artıq adamın qanını axıdıb öldürmüşlər. Bu kəndlərin gənc və gözəl qızlarını Gümrüyə və Qarsa aparıb erməni canavarlarının evlərinə dağıtmışlar və bu zavallıları heyvancasına istifadə etmək üçün əsarət altına almışlar. Bu kəndlərdən aparılan əşyaları satmaq və sərgiləmək üçün Qarsda bir bazar açılmış və xüsusilə qadınların işləməli don və köynəkləri açıq artırmalarla satılmışdır.

Bu bölgələrdə heç bir silahdan istifadə etmədən ermənilərə təslim olan kəndlərdə də belə qətliam, qarət və namusa təcavüz bütün qorxuncluğu ilə törədilmişdir. Yanvar və fevral aylarında top və tüfənglərlə təchiz edilmiş erməni birlikləri Ağbaba, Çıldır, Zərşat və Gölə bölgələrinə dəfələrcə hücum etmişlər, bu hücumların çoxu böyük itkilərlə nəticələnmişdir.

"İşi sülh'ə həll etmək" kimi özünü göstərən erməni və ingilislərdən qurulan heyətlər qorxusuz və namuslu yaşamaq və torpağını qorumaqdan başqa bir diləyi olmayan müsəlmanlar arasındakı birliyi pozmaq üçün hər cür fəsad və pozğunçuluğa müraciət etmişlər. Bu bölgələrdə aparılan araşdırmalar nəticəsində ermənilərin törətdikləri zülm və faciələrin genişliyi və qorxuncluğu ortaya çıxmışdır.

26 yanvar 1920-ci ildə erməni komandanlığından Borotov və Marzmanovun top, avtomat silah və digər partlayıcı maddələrlə silahlandırdıqları erməni əsgərləri Arı kəndindən təxminən 40, Dayrıolıqdan 98, Bacıoğludan 56, Varranlıdan 109, İlanlıdan 41, Ağümüzdən 73, Aslanxandan 37, Aralıqdan 32 müsəlman evlərini dağıtmış, mal-qara və əşyalarını qarət etmiş və bir çox insanları öldürmüşlər.

Ermənilər Zarşat qəsəbəsinin Təpəkəndində 5 kişi ilə 1 qadını öldürüb mallarını qarət etmişlər. Məscidli kəndindən 32, Ağçalardan 44, Ərdağından təxminən 60 evi dağıdıb-yandırmışlar, 70-80 uşağı diri-diri atəşə atmışlar və bu kəndlərdən 8 mindən artıq mal-qaranı sürüb aparmışlar.

Aparılan araşdırmalara görə, Göle qəsəbəsindən Güllü, Sənəmoğlu, Balçeşmə, Kiçikaltınbulaq, Qaratoyuq, Quytuca və Güllüstan kəndlərində ermənilər tərəfindən evlərinin dağıdıldığı, 180 müsəlmanın öldürülərək əşyalarının qarət edildiyi bildirilmişdir.

Ermənilərin 1919-cu ilin sonlarında və 1920-ci ilin əvvəllərində Ağbaba qəsəbəsində və kəndlərində müsəlmanlara bir çox zərər və ziyan verdikləri bildirilir. Onlar bu kəndləri yandıraraq əhalisini gürcülərə sığınmağa və Türkiyəyə köçməyə məcbur etmişlər. Bu illərdə Gölə və Oltu tərəflərində də türklərə zülm və işgəncələr vermişlər. Bu zülm və işgəncələr haqqında TBMM hökumətinin Şərq cəbhəsi komandanlığının hazırlamış olduğu kitabdan birlikdə oxuyaq (280).

"1919-cu ilin iyun ayında Marzmanovun birlikləri Pültümür (Dölekçayır) kəndinə hücum edərək heyvanlarla əşyaları qarət etmişlər. Bundan qaça bilməyib kənddə qalan 5-10 nəfərin ge-

yımlarini almış, özlərini öldürmüş, qadınlarının namuslarını ləkələmişlər. Bu kəndin xalqı dağlarda üç gün boyunca ac qalmış, ermənilər çəkilib getdikdən sonra kəndə döndükdə xarabalıq və fəsaddan başqa bir şey görməmişlər.

Azərbaycana və başqa yerlərə getmək üçün qatarla İrəvandan Gəncəyə gedən 500-ə yaxın türk Gümrü yaxınlığında vaqonlardan endirilərək öldürülmüşlər.

Ermənilər İrəvan şəhərinin 15 dəqiqəlik yaxınlığında Qaçaparaq kəndinə 16 fevral 1920-ci il gecəsi hücum edərək oralarda yaşayan xalqı yox etməyə çalışmışlar. Bu vəhşilikdən qaçıb qurtara bilməyən 6 kişini xəncərlə doğrayıb öldürmüşlər. Qadın və qızların iffətlərini kirlətdikdən sonra onları acımasızca yandıraraq öldürmüşlər. Kənd evlərini qarət etmişlər.

30 mart 1920-ci ildə Kağızmanın yanında və Arazın şimalında yerləşən Şorlu kəndinə gələn 40 nəfərlik bir erməni çətəsi gündüzləri Araz keçidindən gəlib-gedən müsəlman yolçularını yaxalayıb şəhid etmiş, gecələri də yollarda pusqu quraraq vəhşətlərini nümayiş etdirmişlər.

Kağızmanın yanındakı Dəvəhüküdən erməni banditləri tərəfindən 400-ə yaxın heyvan oğurlanmış, erməni hökumətinin bu banditlərlə ortaqlığı olduğuna görə müsəlman əhalinin şikayətlərinə heç baxılmamışdır.

Ermənilər 6 aprel 1920-ci ildə Zəngəzur, Ordubad, Vedi bölgələrindəki müsəlman kəndlərinə hücum edib zülm və vəhşiliyin ən iyrənc növlərini, insanlığın nifrət edəcəyi alçaqlığı törətmişlər.

Azərbaycan Daxili İşlər Naziri 7 aprel 1920-ci ildə Xarici İşlər Naziri Xoyskiyə göndərdiyi məktubda general Baqdasarov və Albay Vartanyanın komandanlığındakı erməni ordusunun Qazax vilayətinə doğru hərəkətə keçdiklərini, Azərbaycanın "atəşkəs"ə əməl etməsindən faydalanaraq, iki müsəlman kəndini yox etdiklərini bildirmişdir.

Ermənilər 17 aprel 1920-ci ildə İğdırın 6 km şərqindəki Oba kəndinin xalqını və kəndə 1 km uzaqlıqda olan 300 evdən ibarət Yaycı kəndinin də xalqını qismən öldürmüşlər.

Ermənilərin İğdır zülmünə qarşı üsyan edən türk xalqı 21 aprel 1920-ci ildə İğdıra girib ermənilərə qarşı çıxmışlarsa da, ermənilərin hücumuna və qeyri-adi insani hərəkətlərinə tab gətirməyib İğdırı tərk etmişlər. Bu arada, ermənilər Ağrı dağının ətəyindəki kəndlərdə yaşayan Çunkanlı və Bannki türk tayfalarına hücum edərək onlardan 24 nəfəri şəhid edib yandırmışlar.

Ermənilər 1920-ci ilin may ayında İrəvanın Uluxanlı qəsəbəsinin yanındakı Qaradağlı kəndinin əhalisini zorla yerlərindən çıxararaq əşyalarını qarət etmiş, özlərini isə köçə zorlamışlar.

1920-ci il 23-24 may gecəsi 300-dən artıq erməni süvarisi Uluxanlının 5 km şimalında yerləşən Cebaçalı kəndini mühasirəyə alaraq əli silah tutan türkləri bir yerə toplayıb hamısını süngü ilə şəhid etmişlər.

Ermənilərin hücumu zamanı Zek kəndindən Alakilsəyə köçüb orada yaşayan 18 müsəlmanın 29 iyun 1920-ci ildə, ermənilərin Oltuya hücum etdikləri zaman, erməni jandarmaları tərəfindən, əkin biçdirmək bəhanəsilə aparıldığında, Sırbasan Boğazında qarşılarına çıxan silahlı erməni əsgərləri tərəfindən meşədə 17-si ağaclara bağlanaraq faciəvi bir şəkildə öldürülmüşlər.

Ermənilər 1920-ci il iyun ayının 19-da Zəngibasar kəndlərini işğal etdikdən sonra kəndlilərdən bir qismi tüfənglə öldürülmüş, 1 500-ə yaxın qadın və uşaq Aralık mərkəzinə qaçarkən arxalarından yetişib, suda boğmuşlar.

1920-ci il 27 iyun gecəsi, yenə İrəvanda Hacı bayram və Xəbərhayli kəndlərinə basqın edən ermənilər əhalinin mal-qarasını və qiymətli əşyalarını qarət etmiş, bir çoxunu öldürmüşlər. Qətliamdan qurtulan müsəlmanların bir qismi Araz çayından cənuba keçərkən ermənilərin basqını nəticəsində boğulmuşlar.

Türkü yox etmək üçün hər zaman bir fürsət axtaran ermənilər 1920-ci il iyul ayının 2-də İğdırın qərbindəki Duzluçay bölgəsinə hücum edərək 300-dən artıq insanı öldürmüş, mal-qara və əşyaları qarət etmişlər.

4 avqust 1920-ci ildə Sivin (Filizli) kəndinə hücum edən ermənilər 200 inək və öküz ilə 20 at və bir çox qiymətli əşyaları qarət etmişlər. Kənd xalqından 6 nəfəri də bir samanlığa soxub yandırmışlar. Yenə bu zamanlarda Dəmirqapı kəndinə hücum edərək bütün kişiləri öldürmüş, 20 qadının da namusunu kirlətmişlər.

Gölə qəsəbəsinin mərkəzi Merdin ilə yaxındakı Ağçuş və Yatlacıq kəndlərinin əhalisi ermənilərin törətdikləri zülm və qətliamdan qorxaraq Oltu yönlərinə köçməkdə ikən, Erzinek yanındakı Karcıkı Boğazı ilə Pertel arasında ermənilərin hücumuna uğramış və 28 türk öldürülmüşdür.

Bir ermənirin anlatdığına görə, Qəssab paşa deyə anılan Marzmanov Allahu Əkbər dağının yanındakı Aydarasi deyilən mağarada gizlənən köçəri müsəlmanlardan 80 nəfərini parçalədaraq öldürtmüşdür.

Kosor qəsəbəsinə bağlı Egidkamu, Karkrirk, Hegbesar, Balqaya, Ağımder, Erzinek, Köşk kəndləri ermənilər tərəfindən yandırılmışdır. Bundan başqa Kosor qəsəbəsindən sayılan 31 kəndin mal-qarasını və qiymətli əşyalarını qarət etmişlər. Bu kəndlərdən dağınıq halda 5000-dən artıq müsəlman-türk öldürülmüşdür.

Oltu şəhərinin Olur qəsəbəsinə bağlı 26 kənd 1920-ci ilin əvvəllərindən ermənilər tərəfindən hücumlara, təxribatlara uğramışdır. Ermənilər bu kəndlərdə hər cür eybəcərliklər və qətliamlar törətmiş, qoca, qadın, uşaq demədən türk insanını vəhşicəsinə öldürmüş, yaşayış yerlərini dağıtmış və ya yandırmış, malqara və əşyalarını qarət etmişlər. Bu kəndlərin əhalisindən 2 832 müsəlman ermənilər tərəfindən öldürülmüşdür.

Bu bölgədəki erməni vəhşiliyi və zülmündən qaçaraq Oltuya getmək istəyən 40 arabalı köçərilər qatarına Penok qarşısında və şosse üzərində ikən top, tüfəng atəşləri açaraq 200-dən artıq kişi, qadın və uşaqları alçaqcasına şəhid edib 3 000-dən artıq mal-qaranı, çoxlu pul, əşya və arabaları qarət etmişlər.

Bu cinayətlər alay komandanları Mirmanov və Marzmanov ilə çətəçi Oltulu Kor Artinin oğlu Muradxan və Muşlu Pilos Aş.Bedros adlı ermənilər tərəfindən idarə edilmişdir.

Beləcə, ermənilər bir yandan bu qanlı və zəncirvari cinayətlərlə qətliam proqramlarını həyata keçirməyə davam edərkən, digər yandan da hiylə və yalanlarla dolu bildirilərlə Türkiyə torpaqlarında yaşayan türklər arasında ayrıcılıq, bölücülük təbliğatı aparırdılar. Ermənilərin yayımladıqları bildirişlərin birində belə deyilir:

"Ey kürdlər! Biz ermənilər və kürdlər minlərlə ildən bəri torpaq və su qardaşı və qonşusu olaraq yaşadıq. Türklər aramıza girmədən əvvəl bizim atalarımız uzun zaman bir-birilə kirvə olmuşlar. Bu, heç kimin və heç bir tarixin inkar edə bilməyəcəyi bir həqiqətdir. Lakin son zamanlarda türklər xaricdən gələrək aramıza fəsad toxumu əkdilər və qurduqları tələ ilə bizləri bir-birimizə düşmən etdilər, rahatlığımızı pozdular. Onlar öz mənfəətləri üçün hər iki tərəfdən bir çox günahsız qanların tökülməsinə səbəb oldular.

Buna görə sizə səslənərək, əbəs yerə qan tökülməməsini təklif edirik. Sizə son sözümüz budur: "Tələsin, hökumətə müraciət edərək itaət edin, mənfəətlərinizi ayaqlar altına atmayın. Bundan sonra erməni və kürd qanının tökülməsinə Allah razı deyildir. Ordumuz hələ işə başlamadan, razılaşmaq üzrə öz tərəfinizdən bizimlə danışmaq üçün adam göndərməyinizi təklif edirik. Yoxsa, başlayacaq bir müharibədə biz istəmədən şiddətli davranmağa məcbur olacağıq. İnanın ki, bu da haqqınızda yaxşı olmayacaqdır."

Ermənilərin Şərqdə törətdikləri zülm həyatı alt-üst edərkən 15-ci artilleriya komandanı general Kazım Qarabəkirin İrəvan erməni komandanlığına bu məktubu yazdığını görürük:

"ONBEŞİNCİ ARTİLLERİYA
KOMANDANLIĞI Ərzurum, 21.03.1920

İrəvan əsgəri komandanlığına.

Erməni hökuməti içərisində qalan müsəlman əhaliyə qarşı əvvəldən bəri törədilən qətliam və zülm çox doğru məlumatlarla sənədləşdirilmiş və bu zülmün ermənilər tərəfindən törədildiyi Ərzurumdakı İngilis təmsilçisi podpolkovnik Mister Ravlinsonun anlatması və şahidliyilə gerçəkləşmişdir. Ayrıca, ailəsini, uşağını, malını-mülkünü itirərək ac və pərişan halda bizə sığınan minlərcə Qars və İrəvandan qaçan köçəriləri amerikalı general Harbordun heyəti 1919-cu il sentyabr ayının sonlarında görmüş və bu zülmün şahidi olmuşdur. Topla, tüfənglə təmin edilmiş birlikləriniz xalqımızın gözləri qarşısında (Şərqi Bayazit, Eleşgird, Pasinlərdəki sərhədlərimizə yaxın) bir çox müsəlman kəndlərini yaxıb-yandırmışlar. Belə davranışlara son veriləcəyi umulurkən, təəssüflər olsun ki, 1920-ci il fevral ayının başından bəri Sürəgəl, Ağbaba, Zarşat və Çıldır başda olmaqla, müsəlmanlara qarşı törədilən zülm daha da artırılmışdır.

Bu bölgələrdə olan bir çox müsəlman kəndinin yaxılıb-yandırıldığı və minlərcə müsəlmanın öldürüldüyü, əşya və heyvanlarının qarət edildiyi, gənc müsəlman qadınların Qarsa və Gümrüyə aparıldığı, bu kəndlərdən qaçan yüzlərcə qadın və uşaqların dağlarda donaraq öldükləri, müsəlmanların mallarına, namuslarına təcavüzün hələ də davam etməkdə olduğu xəbər alınmaqdadır.

Din qardaşlarına qarşı törədilən bu alçaqlıq və faciələri eşidən bütün müsəlmanlar idarəniz altındakı yerlərdə əqrəba və yaxınları olan ordu əsgərləri və tayfalar camiyyəti qeyri-adi şəkildə coşub-daşmağa başlamışlar. Hələ son günlərdə komandanlarınız və məmurlarınızın imzalarıyla sərhəd yanlarında ora-bura atılan və göndərilən: "Kürdlər ilə ermənilərin anlaşdıqlarına və ayrıca bir Kürdüstan hökuməti qurulduğuna, Van, Bitlis, Ərzurum və Trabzonun ermənilərə verildiyinə" dair uydurma xəbərlərlə bütün müsəlmanlar arasına bölücülük soxmaq məzmununda olan bildirilər. Şərif paşa kimi vicdanını düşmən pullarına satmış olan Vətən xaini kəslərin heç bir vəkalət haqqının olmadığı və bunların kürdlər adından danışma

haqlarının olmadığı, kürdlərin Osmanlı birliklərindən heç bir şəkildə ayrılmayacaqları bütün kürdlər tərəfindən hər yana və ittifaq hökumətlərinə teleqraf və protokollarla bildirilmiş, Şərif paşa ilə bənzərləri böyük qəzəb, nifrət və lənətlə qarşılanmış və bütün bu hallar var olan coşqunluq və həyəcanı artırmışdır.

Ermənilərin Qars və İrəvan şəhərlərində törətdikləri zülmə görə müsəlmanlar arasında ortaya çıxan coşqunluq həyəcanını yatışdırmağa və xalqı sakit olmağa çağırırıqsa da, həyəcanın keçməsi və xalqın inanması üçün zülm və qətliama son verilməsi, müsəlmanlardan alınan hər bir şeyin geri qaytarılıb zərərlərinin ödənməsi və müsəlmanların namus, can, mal və hər cür haqlarının qorunması erməni hökumətinin üzərinə düşən bir vəzifədir.

15-ci ARTİLLERİYA KOMANDANI
GENERAL-MAYOR KAZIM QARABƏKİR"

Aşağıdakı sətirlər general Kazım Qarabəkirin amerikalı general Harbordun heyətinə verdiyi 1919-cu il 25 sentyabr tarixli raportundan alınmışdır:

"...İngilislər müqavilənin hökmlərinə uymamışlar, bizi səfalət və sıxıntılara qatlanmaq məcburiyyətində buraxmışlar. Müqavilənin hökmlərinə uyaraq Qars, Ərdəhan və Batumdan çəkilərkən Gümrü, Qars, Axıska, Ərdəhan, Naxçıvan və Batumdan ordumuz üçün satın aldığımız və tədarük etdiyimiz çox miqdarda ərzaq, geyim əşyaları, xüsusilə tibbi ləvazimat və dərmanları daşımağa imkan verməmişlər, bunların hamısını müsadirə etmişlər. Bu, ordumuzu və məmləkətimizi böyük ehtiyaclar içərisində buraxmışdır. Ordumuzun yenidən ərzaq satın alması millətimizi böyük səfalətlə qarşılaşdırmış, xalqımızı böyük sıxıntılara soxmuş, çox sayda insanımız acından ölmüşdür.

Batumdan tərxis edilən ordunun silahları yenə Batumda anbarlara qoyulmuş, qorunmasına zabit və əsgərlər ayrılmışdı. Fəqət buradakı silahlarımızın hamısı ermənilərə və rumlara verilmişdir. Azərbaycan hökumətindən satın aldığımız qaz, ben-

zin, mazut kimi maddələr Batumda qarət edilmişdir, birliklərimizin gəlirdikləri ərzaqlar belə vaqonlarıyla birlikdə müsadirə edilmişdir.

İngilislər müxtəlif bəhanələrlə türk zabitlərini təhqir etmişlər. Azərbaycan bölgəsindəki ordumuzun komandanı Nuru paşanı, beşinci diviziyanın komandanı Mürsəl bəyi, on ikinci diviziya komandanı polkovnik Əli Rza bəyi heç bir günahları olmadan həbs etmiş və böyük komanda mövqeyində olduqlarını nəzərə almadan izzəti-nəfslərini qıracaq hərəkətlər etmişlər. Onların heç bir günahları olmadığı halda, Batumda hərb divanında mühakimə etmişlər, günahları isbat olmadığı halda, Qarsda bir qəza nəticəsində yanan teleqraf stansiyası məsələsindən ötrü yeddi min lirə pul ödəmə cəzasına məhkum etmişlər.

Müqavilə nəticəsində Osmanlı ordusu tərxis edildikdən sonra ingilislər əldə qalan əsgərləri öz yanlarında qalmağa təşviq etdilər. Buna görə bir çox təbliğat nəticəsində ordumuzdan qaçmış Şamlı Nuri adında birini ingilis yüzbaşısı Farel yanına aldı. Ərzuruma gələrkən yanında gəzdirərək əsgərləri himayə etdiyini göstərmək istədi. Xorasan və sərhəddəki birliklərimizin qarşısından keçirərək Qarsa apardılar. Belələrinə casusluq da etdirdilər..."

Müqavilədən sonra Osmanlı ordusunun 1919-cu il 1 yanvar tarixində Qars, Ərdahan, Kağızman bölgəsindən çəkilməsilə bu bölgənin çoxluğunu təşkil edən müsəlmanlar Qarsda milli bir şura təşkil etmiş, şura təqdir ediləcək ölçüdə bölgəni idarə etməyə başlamışdır. Onlar asayiş və təhlükəsizliyi təmin etmişlər. Şura idarəsi zamanında bölgədə heç bir pislik görülməmişdir. Asayiş və təhlükəsizlik yaxşı vəziyyətdə olmuşdur. Türk ordusu Qarsdan çəkildikdən sonra İngiltərənin təmsilçisi gəlmiş, şura idarəsini qəbul etmiş, onların asayiş və təhlükəsizliyi təmin etdiklərini öyməllərinə baxmayaraq, 1919-cu ilin aprel ayında şuranı əsgərlərlə basaraq dağıtdırmış, şura üzvlərini də Malatyaya sürgün etdirmişdir.

İngilislər o bölgənin idarəsini şuranın əlindən aldılar, heç kimin xəbəri olmadan Gümrüdən Qarsa erməni əsgərlərini gətirdilər və oranın idarəsini ermənilərə verdilər.

Beləliklə, ermənilər ingilislərin himayəsində o bölgənin hər tərəfinə yayılmağa, müsəlmanları, böyük-kiçik demədən yox edib əhali sayında çoxluq əldə etmək üçün silahsız türklərə qarşı qətliama və faciəvi işgəncələrə başladılar. Bölgədəki asayiş və təhlükəsizlik pozuldu. Hər gün yüzlərlə müsəlmanın qanı axıdıldı.

Osmanlılar İraqdan çəkildikdən sonra ingilislər Zebaya qədər Musul vilayətini işğal edərək bu bölgəyə sahib olmuşlar. Onlar o tarixdən etibarən oradakı tayfalar arasında təbliğat işi aparmağa, onlarda müstəqillik fikirləri oyandırmağa və Süleymaniyyədən Vana qədər olan tayfaların Osmanlı dövlətinə olan bağlılıqlarını qırmağa çalışmışlar.

İngilislər Rumye, Hoy, Van, Cizrə bölgələrində kürdçülük fikrini yaymağa, fəsadçılıq etməyə çalışmışlar. Şəmdinanlı seyid Tahanı aldadaraq, onu öz düşüncələrinə alət etmişlər. Bir tərəfdən də qanlı Simko ağa deyilən tayfa başçısını pul ilə ələ alaraq seyid Taha ilə sazişə girməsinə səy göstərmişlər. Seyid Taha Musuldan döndükdən sonra onu Simko ağanın yanına aparıb aralarını düzəltməyə çalışmışlar. Və 1919-cu il 21 iyun tarixində iki ingilis zabiti Simko ağa ilə seyid Taha arasındakı müzakirələrdə iştirak edərək, onların arasında müsbət münasibət təmin etmişlər. İngilislər verdikləri top və silahlarla iki təyyarəni almaları üçün 500 davanı Revandizə göndərmişlər. Revandiz siyasi hakimi Fayl seyid Taha ilə Şəmdinana bağlı Mazır kəndinə gələrək o bölgənin rəhbəri Məhmədə Şəmdinan bölgəsinin ingilislərə verildiyini, məmurlarla əsgər və jandarmanın qəzanı tərk edərək Vana getmələrini təklif etmişdir. Bu təklif rəhbər və məmurlar tərəfindən rədd edilmişdir. Fayl getdiyi Rumye istiqamətindən geri döndükdə jandarma zabitinə təkrar qəzanı tərk etmələrini yazı ilə bildirmişdir. Jandarma zabiti Faylin yazısına verdiyi cavabında: "Mən son dərəcə heyrətlər içərisində qaldım. Axı necə olur ki, siz rəsmən yalan söyləyirsiniz? Məhməd əfəndi xəstə deyildir. Sizin burada olmağınız yersizdir. Son dəfə yazıram, gedin, yoxsa sizə həqarət etməyə məcbur olacağam."- demişdir.

İngilislər hər tərəfdə belə siyasi təbliğatla məşğul olmuşlar və Osmanlı dövləti əleyhində pul ilə üsyan hazırlamağa davam etmişlər.

İngilislər bir neçə dəfə Oltu şurasına da Oltunun ermənilərə verildiyini təbliğ etdilər. İngilis zabitləri Oltu şurasıyla görüşərək təkliflərinin qəbul edilməsini təkidlə istədilər. Oltu şurası Qars, Kağızman, Ərdahan, İğdır bölgələrində ermənilərin törətdikləri qorxunc zülmü ingilislərə anladaraq, onların təkliflərini qəbul etmədilər. Ermənilər top və tüfənglərlə Oltu və Bardizə bir neçə dəfə hücum etdilər, bir çox kəndi yaxıb-yandırdılar, çox sayda müsəlmanı qəddarcasına şəhid etdilərsə də, oraları işğal edə bilmədilər.

1919-cu il 31 iyul günü ingilis zabiti Bonfon yanında bir erməni zabiti və əsgəri Əhməd Robenson adında, əvvəlcə türk ordusunda xidmət etmiş bir tərcümənla Oltuya gəlmişlər. Əlindəki sənədi Oltu müvəqqəti hökumətinə göstərib bu sənədin ermənilərə verildiyini bildirərək, onların ermənilərə itaət etmələrini təklif etmişdir. Oltu hökuməti ingilis zabitinə hörmət göstərmiş, ermənilərin müsəlmanlara qarşı törətdikləri qorxunc və dəhşətli zülmü anlatdıqdan sonra on gün içərisində cavab verəcəklərini söyləmiş, lakin sonra savaşmağa qərar vermişdir.

Ermənilərin hücumları davam edirdi. İngilislər ermənilərin zülmündən qorxaraq dağlara sığınan müsəlmanların ermənilərə təslim olmalarına çalışırdılar. Onlar 1919-cu il 1 iyun tarixində Qars Milli Şurası üzvlərindən Əhməd əfəndi ilə görüşmək üçün bir ingilis zabitinin yanına bir erməni zabitini qoşaraq Gümrü dağına göndərdilər. Bu zabitlər Əhməd əfəndi ilə görüşlər keçirmiş və onların on günə qədər ermənilərə təslim olmalarını təklif etmişdilər.

Ermənilər 1919-cu il 5 iyul günü Qaraqum ətrafında bir neçə müsəlman kəndlərinə hücum edərək qətliam törətdiklərinə görə müsəlmanlar birləşərək müdafiə olunmuşlar. 7 iyulda bir ingilis zabiti bu kəndlərə top atdırmışdır.

1919-cu il 20 iyul tarixində ingilis zabitlərindən bir heyət Kağızmana gedərək yerli vətəndaşlara oranın "sahibləri" ermə-

onlara itaət etmələri üçün öyüd-nəsihət vermişlərsə də, ermənilərin törətdikləri qorxunc zülm və işgəncələri xatırlayaraq səs çıxarmamışlar.

1919-cu il 5 sentyabr ayında bir ingilis zabiti yanında 8 nəfər erməni jandarması olduğu halda Berdizə gəlmiş, orada tayfa rəhbəri Əyyub Başa ilə görüşərək onların ermənilərə tabe olmalarını təklif etmişdir. Sonra zabit ingilis hökumətinə qarşı çıxmanın çox ciddi bir məsələ olduğunu, əgər qarşı çıxarlarsa, bir çox cəzaların veriləcəyini bildirərək təhdid etmiş, onlara cavab vermək üçün üç gün möhlət vermişdir. Əgər qəbul edərlərsə, çox pul verəcəklərini də sözlərinə əlavə etmişdir.

İngilis təmsilçisi Ravlinson o tarixlərdə Qarsdan aldığı məlumatda 40 min müsəlman əsgərinin bu bölgəyə toplandığını, bir pislik ehtimalını önləmək məqsədilə Qarsa gedəcəyini bildirdi və getdi. Ravlinson bu səfərdən döndükdə ermənilərin Qars, Sarıqamış və Kağızman vilayətlərində böyük zülm və qətliamlar törətdiklərini qəbul etmişdir. O, verdiyi raportda da bunu qeyd etdiyini söyləmişdir. Ravlinsonun bu dürüstlüyünü qəbul edə bilməyən ermənilər onun əşyalarını daşıyan avtomobilə hücum edərək sürücü ilə bir ingilisi öldürüb əşyalarını qarət etdikləri halda, Ravlinsonla görüşərək müstəqillikdən bəhs etmişlər.

İngilislərin yardımı və himayəsi erməniləri çox qudurtmuşdu. Onlar müsəlmanlara qarşı törətdikləri zülmü gündən-günə artırdılar və Qars, Sarıqamış, Kağızman və Ərdahanı ingilislərdən təslim aldılar. Beləcə, ermənilər ingilislərin sayəsində bu bölgələrə yerləşdilər.

İngilislərin erməniləri öz himayələri altına almaları və onlara hər cür yardım etmələri erməniləri qudurtmuş, onların müsəlmanlara qarşı törətdikləri zülmün ağırlaşmasına yol açmışdır. Ermənilər müsəlmanları yox etmək üçün bir tərəfdən komitələr qurur, digər tərəfdən də əsgəri qruplaşmalarını topla-tüfənglə təmin edərək hər gün bir və ya bir neçə müsəlman kəndini yaxıb-yandırırdılar. Onlar ayrı-ayrı tayfalara hücum edərək qətliamlar, vəhşiliklər törədir, müsəlmanları yox etmə-

ya çalışırdılar. Onların mal və əşyalarını qarət edir, qadınların namusunu kirlədirdilər. Onlar müsəlman əsgərlərini və qadınlarını çılıl-çılpaq dolaşdıraraq, insanlıqdan və dünya mədəniyyətindən çox uzaq olar, bu hərəkətlərilə özləri haqqında tarixdə iz buraxmışlar.

Ermənilər ingilislərin nüfuzundanın faydalanmaq üçün bəzi zabit və əsgərlərinə ingilis formaları geyindirərək müsəlmanlara qarşı təxribat və zülmlər törətmişlər. Onlar çətin vəziyyətə düşdükdə bu hiylədən istifadə etmişlər.

1919-cu il 5 iyun günü İğdırdan Bəyazitə gedən bir ingilis baş leytenantının yanında bir erməni tərcüməçisi olduğu halda Bəyazit idarəçiləri ilə görüşmüş, Bəyazit bölgəsinin ingilis himayəsində qurulmuş erməni hökumətinə verildiyini təbliğ etmiş, əsgərin himayəsində bir aya qədər 10-15 min erməninin göndəriləcəyini bildirmişdir. Eyni gün "Bu ingilis baş leytenantı" İranın Azərbaycan bölgəsinə (Cənubi Azərbaycan) keçmişdir. İngilis formasında gələn bu zabitin bir erməni olduğu və bu təklifin heç bir əsli və əsasının olmadığını Ravlinson etiraf etmişdir.

1919-cu il 7 avqust günü Kağızmana iki avtomobil ilə ingilis formasında zabit və əsgərlər gəlmiş, Qaracaviran kəndlisi Ömər ağa adında bir türkü yaxalamağa çalışmışlarsa da, bacara bilməmişlər və avtomobillərinə minərək İğdıra doğru qaçmışlar.

Ermənilər ingiliscə və fransızca bilən ermənilərdən 300 nəfəri ingilis formasına soxaraq bir batalyon təşkil etmiş, Qars, Ərdahan və Sarıqamışa göndərmişlər. Bunların arasındakı bəzi ermənilər yerlilər tərəfindən tanınmışlar. İngilislər belə davranmaqla ermənilərin tərəfində olduqlarını və onlara yardım etdiklərini göstərərək müsəlmanların mənəvi güclərini qırmağa, onları köçə zorlamağa çalışmışlar.

Ermənilər 1919-cu il 25 iyul günü Sarıqamışa ingilis formasında zabit və əsgər olmaqla 200-ə yaxın əsgər və dörd ingilis topu ilə gəlmişlər.

Ermənilərin bəziləri Kağızman və Məcəngird kəndlərindəki müsəlmanlara: "Biz müsəlmanlarla xoş keçinmək istəyirdik.

Bizi müsəlmanlar əleyhində təhrik edən və qətliama səbəb olan ingilislərdir. Onlar bizə "Siz bizim dostluğumuza baxmayın, müsəlmanları öldürün, silah bizdən" deyirlər. Beləliklə, ermənilər bu işdə həm də ingilisləri günahlandırmışlar.

Ermənilərin Baş Naziri Hatisov ingilislərin ermənilərə çox əhəmiyyətli yardımlar etdiklərini belə etiraf edir: "Cənab Haqqa çox şükürlər olsun, erməni davası hər yerdə çox yaxşı qarşılanır. Yeddi vilayət Ermənistana verilmişdir. Bu bir faktdır. Əsgərlərimiz hər yerdə alicənab himayəçimiz ingilislərin cəsur əsgərləri tərəfindən çox qiymətli yardımlar görməkdədirlər. Məsələn, əsgərlərimiz tərəfindən işğal edilmiş və ana vətənə qatılması lazım olan yerlərə dərhal bir miqdar ingilis əsgəri və zabiti gedərək müsəlmanları aldadır, sonra bizə təhvil verirlər. Əsgərlərimiz onların açdıqları yolda rəsmi keçid düzəldərək girilməsi çətin yerlərə asanlıqla girirlər. Naxçıvan, Vedi bölgələri də beləcə fəth edilmişdir."

Ermənilər Qars, Ərdəhan, Naxçıvan, Şərur və İğdır bölgələrini işğal etdikdən sonra "Sərhəddimizə yaxın yerlərdə yeddi vilayət bizə verilmişdir"- deyərək, o bölgələrdə qarışıqlıq salmağa, müsəlmanları qorxudaraq köçə zorlamağa girişmişlər.

Ermənilər xaricdən gördükləri yardımlarla işğal etdikləri Qars, Kağızman və Ərdəhan bölgələrində törətdikləri qorxunc qətliamlarla köçə məcbur etdikləri minlərcə müsəlmanın evlərinə Rusiyanın müxtəlif bölgələrindən təşviq edərək gətirdikləri erməni ailələrini yerləşdirmiş olmalarına baxmayaraq, o bölgələrdəki əhalinin çoxluğunu yenə müsəlmanlar təşkil edirdilər. Nə olursa olsun, müsəlmanlar erməni hakimiyyətini əsla qəbul etmədilər. Xaricilərin, xüsusilə də ingilislərin ermənilərə itaət etmək çağırışı onları kədərləndirsə də, zülmə və qətliama qarşı həyat mücadiləsi verdilər.

1919-cu ilin iyul ayında Qarasurqanda olan erməni çətələri Sarıqamışdan gələn 100 ev müsəlman köçərilərindən 9 inək, 6 at, 6 ton taxıl və ərzaqlarını zorla almış, qadınların üst-başını aramış, tapdıqları zinət əşyalarını alıb onların gözləri qabağında bölüşdürmüşlər.

Ermənilər 1919-cu il iyun ayının 4-də Qars ilə Oltu arasındakı Ağqalaya bağlı dörd kəndə basqın etmişlər. Onlar bu kəndlərdən birinin əhalisini tamamilə, digər kəndlərin hər birindən altmış adamı əsir alıb şəhid etmişlər. Bu kəndlərə basqın edən erməni dəstələrinin komandanı tanınmış erməni canisi Arşak olmuşdur. Ermənilərin müsəlmanlara qarşı törətdikləri bu qətliamda altı top, çox sayda tüfəngdən istifadə olunmuşdur.

Ermənilər 1919-cu il iyul ayının 4-dən 12-nə qədər Qaraqurd bölgəsindəki müsəlman kəndlərinə çox sayda əsgər, top və avtomat silahlarla hücum edib oraları dağıtmışlar. 8 iyul tarixində Məscidli kəndində kəndin ağsaqqalı Dərviş ağanı şəhid etmişlər. Dərbxana, Başkənd, Armudlu, Qaziantep, Qaziqaya, Hepork, Kalyav, Ağqoyunlu, Honik, Qanlıqaya, Gülayıntəh, Kalbantəpə kəndlərində yaşayan müsəlmanları vəhşicəsinə şəhid etmiş, onların mal-qara və əşyalarını aparmışlar. Bu dəhşətverici səhnələrdən qorxan müsəlmanların bir çoxu dağlara qaçaraq çadırlarda yaşamaq məcburiyyətində qalmış, bir çoxu da Türkiyəyə sığınmışdır.

İyul ayının 19-da 150 nəfərlik rum və erməni piyadası Bulaqlı kəndinə hücum edərək bu kəndi işğal edib kəndlilərin mal-qarasını və əşyalarını qarət etmişlər.

Ermənilər Qars bölgəsində də vəhşiliklərini davam etdirmişlər. Onlar Qurudərə adındakı kəndi basaraq müdafiəsiz beş kişi və üç qadını şəhid etdikdən sonra 33 kişi, bir gəlin, bir qız uşağını və 440 baş mal-qaranı alıb aparmışlar. Yurkos qəsəbəsində bir müsəlmanın qardaşı ilə zövcəsini və qızını həbs edib özləri ilə aparmışlar.

İyul ayının 20-də Qars şəhərinin yaxınlığındakı Berdin kəndinin müsəlmanlarından 93 öküz, 50 qoyun, Kaluk kəndi müsəlmanlarından 4 öküz, 10 qoyun və bir çox qiymətli əşyalarını alıb aparmışlar.

Eyni gün erməni çətələri Qars şəhərindəki Yusuf paşa camisinin imamını azan oxuyarkən onu daşlamış və bağıraraq çirkin söyüşlərlə söymüşlər. Ümumiyyətlə, ermənilər Qars, Kağızman bölgələrindəki camilərdə azan oxunmasına mane olmuşlar.

Ermənilər Erkək, Gürəli, Bəvəkli, Savçaqqolu və digər iki kəndin xalqını kəndlərindən çıxarmış, onların əşya və heyvanlarını qarət etmiş, onlara qarşı vəhşiliklər törətmiş və bu məsum insanların dədə-baba yurdlarındakı evlərinə erməni köçərilərini yerləşdirməyə başlamışlar.

Ermənilər 1919-cu ilin iyun ayında Qarsda müsəlmanların yüzdən artıq irəli liderini, Osmanlı vətəndaşı və casusu deyə toplamış və naməlum bir istiqamətdə aparmışlar. Ermənilər Qars və Sarıqamışda iyun və avqust aylarında gənc müsəlmanları toplayaraq vəhşicəsinə şəhid etmişlər. Qars və Gölənin müsəlmanlarından irəli gələn səkkiz nəfəri şəhid etmişlər. Serjant Şükrü adındakı bir türkü gündüz günorta çağı asaraq öldürmüşlər.

Ermənilər vergi və hərbiyyə adıyla bu bölgənin müsəlmanlarından at, öküz, araba və bütün qoyunlarını zorla alıb aparmışlar. Bunu vermək istəməyən Ağcaqala ətrafındakı səkkiz müsəlman kəndinə toplu, tüfəngli 300 nəfərlik birliklərilə hücum etmişlər. Nəticədə, müsəlmanlar Al'ahu Əkbər dağlarına çəkilmiş və mağaralarda pərişan bir halda yaşamlarını davam etdirmək məcburiyyətində qalmışlar.

Osmanlı torpağına köç etmək istəyən Faxrəddin adında bir türkün və onun qardaşı oğlu Əlinin 500 lirə pulu, bütün mal və əşyaları erməni sərhədçiləri tərəfindən qalət edilmiş, onlara sərhəddən heç bir şey keçirmək haqlarının olmadığını söyləmişlər.

Ermənilər Sarıqamışda müsəlman köçərilərinə tərəf bir bomba ataraq bir qadın ilə bir kişinin ölməsinə, bir çoxlarının da əl və ayaqlarının qopmasına səbəb olmuşlar. Onlar Qars və Oltu arasındakı müsəlman kəndlərinə hücum edərək bir çox qorxunc hadisələr və vəhşiliklər törətmişlər. Diqor qəsəbəsində Qars Milli şurasının üzvü Keleş ilə digər bir qəsəbənin vətəndaşlarından 12-ni həbs etmiş, mal və əşyalarını qarət etmişlər.

Ermənilər 1919-cu ilin iyul ayında Merdenin ətrafında Sucavanq müsəlman kəndinə toplu-tüfəngli piyada dəstəsilə

hücum etmiş, kəndlilərin bəzilərini öldürüb mal-qara və qiymətli əşyalarını özləri ilə aparmışlar.

Zarşat, Göle, Şurgəl, Zağıbaba, Qurudərə, Nahıküldür kəndlərinin müsəlman sakinləri ermənilərə xərac verməkdən təngə gəlmiş və bu işdən imtina etmişdilər. Ermənilər bunların mallarını zorla almış, kişilərini də bir-bir vəhşicəsinə öldürmüşlər.

Ermənilər bu zamanlar harada bir müsəlmanı tək, kimsəsiz görmüşlərsə, ona işgəncə verərək vəhşicəsinə öldürmüşlər.

Yenə 1919-cu ilin iyul ayında Məscidli, Ağkilsə, Hamamlı, Hopirtək, Şadvan kəndlərini basıb müsəlmanlara işgəncə verərək qətl etmişlər.

*Ermənilərin bu qorxunc zülm və işgəncələrindən qurtularaq* Türkiyəyə sığınanlardan bəziləri bir neçə yerindən süngü ilə yaralı, bəziləri də qolları kəsik qadın və uşaqlar olmaqla Bayazitdə Amerika heyətinə göstərilmiş, fotoşəkilləri çəkilmiş, ancaq bir nəticə əldə edilməmişdir.

Sarıqamışdakı erməni birliyinin komandanının Saatvirak və Şemsekyan kəndlərindəki müsəlmanların yox edilməsi haqqında verdiyi əmrin bir nüsxəsini Gülaynıtablı Süleyman əldə etmiş və ermənicə yazılan bu əmrin mənasını anlayınca Saatvirak kəndində yaşayan müsəlmanlar qaçmağa başlamışlar. Ermənilər bu kəndlilərdən ancaq səkkizini tutub öldürə bilmişlər.

Yenə 1919-cu ilin iyul ayında Zek kəndi üzərinə bir erməni zabitinin komandanlığında on erməni sıravi əsgəri gələrək müsəlmanlardan daşına bilən nələri varsa, hamısını alıb aparmaq istəmişlər. Müsəlmanlar səslərini çıxartdıqda ermənilər onları öldürmüş və ələ keçən nə varsa, hamısını toplayıb aparmışlar.

Ermənilər Göle ətrafında axtarışlar aparmış, dövlət malı deyə müsəlmanların ev əşyalarını qəsb etmişlər.

Ermənilər Kiçik Yusuflu kəndindən olan Ömər Ağazadə Osmanı ayaqlarından asaraq üç gün başı aşağı asılı tutmuş, ona qeyri-insani işgəncələr verdikdən sonra 700 rubl rus pulunu alaraq buraxmışlar.

Ermənilər Ağkilsədə Koroğlu adındakı bir müsəlmanı vəhşicəsinə parçalamışlar.

1919-cu ilin 19 sentyabr günü bir erməni təyyarəsinin dağlarda olan müsəlman kəndlərinin üzərində uçduğu və oraları bombaladığı Türkiyə sərhəddindən müşahidə edilmişdir.

Ermənilər 1919-cu il 30 avqust günü Qaraçayır və Sofulu kəndlərini yandırmışlar, bu kəndlərin ətrafındakı dörd kəndin mallarını qarət etmiş, sakinlərini əsir almışlar.

Ermənilər 1919-cu ilin sentyabr ayında Samanlı kəndinə basqın edərək Qurban ağanın 32 adamdan ibarət əqraba və yaxınlarını çox qorxunc bir şəkildə şəhid etmişlər.

1919-cu ilin 2 sentyabr tarixində topla, tüfənglə təchiz olunmuş erməni birliyi Korəvt kəndinə hücum etmiş, oranın əhalisini qətl etmiş, ətrafındakı 3 müsəlman kəndini əkin sahələrilə birlikdə yandırmışdır.

1919-cu ilin 3 sentyabr ayında 300 nəfərdən ibarət silahlı erməni piyada dəstəsi Malakan yaylasına və Böyük Qumru kəndinə hücum edərək çox sayda müsəlmanı öldürmüşlər. Müsəlmanlardan bir çoxu canlarını qurtarmaq üçün dağlara qaçmağı bacarmışlar.

Sülh müqaviləsindən sonra türk əsgəri Araz bölgəsindən çəkildiyinə görə çoxluğu Azərbaycan türklərininn təşkil etdiyi Naxçıvan, Şərur, Şaxtaxtı, Vedi, Zəngibasar, İğdır bölgələrində müvəqqəti hökumət və şura quruldu. Qurulan müvəqqəti hökumət və şura bu bölgənin asayiş və təhlükəsizliyini təmin etməkdə müvəffəqiyyət əldə etdi. İngilislər Qars bölgəsində etdikləri kimi bu bölgələrə də əvvəl təmsilçilər göndərdilər. Müvəqqəti hökumət və şuranın ingilislərin ermənilərə itaət etmək təklifinə etiraz etmələrinə qarşılıq onlar əsgəri birliklər göndərib dəmiryolunu işğal etdilər. Təbriz və Tiflis yolu üzərində olan bölgəni ermənilərə təhvil vermək üçün 24 may 1919-cu ildə ingilis zabitlərinin komandanlığında müxtəlif erməni siniflərindən qurulmuş 6 000 nəfərlik erməni birliyi ilə hücum edib oraları işğal etdilər. İngilislər buraları ermənilərə təslim etdilər. İşğaldan üç gün sonra, yəni 27 may 1919-cu ildə

ermənilər müsəlman kəndlərinə hücum etməyə başladılar. Beləcə, ermənilər ingilislərin yardımıyla işğal etdikləri yerlərdə *müsəlmanlara qarşı zülm və işgəncələr törədərək* asayiş və təhlükəsizliyi yox edib, çox sayda müsəlmanın qanının tökülməsinə səbəb oldular.

Ermənilər tərəfindən törədilən vəhşilikləri nəzərə alaraq Naxçıvan, Şərur və Ordubad Milli Şurasına yardım edilməsinin lazım olduğunu ifadə edən Azərbaycanın Ermənistandakı təmsilçisi M.H.Tekinski Azərbaycanın Xarici İşlər Nazirliyinə bir teleqraf çəkmişdir.

Ermənilər Naxçıvan bölgəsinə girər-girməz müsəlmanların silahlarını toplamaq bəhanəsilə bir çox müsəlmanı öldürmüş, onların liderlərini toplamağa başlamış, ərzaq anbarlarını mənimsəmişlər. Müsəlmanlar bu vəziyyətdən qorxmuş və ingilislərdən təminat istəmişlər. İstənilən təminat ingilislər tərəfindən verildikdən sonra müsəlmanlar silahlarını da ermənilərə təslim etmişlər.

İngilislərə yaraşmayan bu aldatma nəticəsində ermənilər Naxçıvanda və Yenicədə yaşayan müsəlmanların silahlarını topladıqdan sonra silah arama bəhanəsilə hər gün bir kəndə basqın edib liderlərin təslim edilmələrini istəmişlər. Onlar ağıllı, əlindən bir iş gələn kəsləri yaxalamış, bir çoxlarını da təqib edərək tənha olduğu zaman öldürmüşlər. Bu zülmün sürüb gəlməsi, xüsusilə Vedidəki müsəlmanlara iki erməni dəstəsinin hücum etməsi ətrafda çaxnaşmaya səbəb olmuşdur. Müsəlmanlar belə ölməkdənsə, hər cür fədakarlığa hazır olaraq ermənilərə qarşı durmaq məcburiyyətində qalmışlar. Ermənilər Vedibasar deyilən yerdə müsəlman kəndlərinə (iyul ayı) təcavüz edib məsum insanlara vəhşicəsinə zülm etməyə başlamışlar. Onlar silah toplamaq bəhanəsilə müsəlmanların mallarını qəsb etmişlər. Kişilərin xüsusilə liderlərini yaxalamış, qorxunc işgəncələrlə öldürmüşlər. Ermənilər oralarda qarət etmədikləri bir kənd buraxmamışlar. Müsəlmanlar bu qorxunc zülm qarşısında kəndlərini tərk edərək qaçmaq məcburiyyətində qalmışlar, qadınlarını ermənilərin şərindən qorumaq üçün Çəmən kəndinə

toplanmışlar. Ermənilər müsəlman qadınlarının toplandığı Çəmən kəndinə on səkkiz gün hücum etmişlərsə də, kişilər qadınlarını qoruya bilmişlər. Ermənilər bu kəndi 25 gün top və avtomat silahlarla atəşə tutaraq bir çox qadın və uşağın ölümünə səbəb olmuşlar.

Erməni ordusunun Vedibasarda törətdiyi zülm haqqında Naxçıvan Milli Şurası rəhbərinin teleqrafının mətni aşağıda verilmişdir.

"Naxçıvan Milli Şurasının rəhbəri Əli Səbri Qasımov tərəfindən Azərbaycan Xarici İşlər Nazirinə göndərilən teleqrafda etibarlı şahidlərin verdikləri məlumata görə, ermənilərin Vedibasar bölgəsində qətliamə davam etdikləri, qatardan müsəlman sərnişinləri endirərək özləri ilə apardıqları, ayrıca, Ermənistan hökumətinin Naxçıvan və Şərurda bir çox müsəlmanı həbs etdiyi, Naxçıvan və Aleksandrov vilayətlərində müsəlmanların liderlərindən Teymur Həsən Kazımov, Mirzəlibəy Bəkdaşov, Hüseynağa Novruzov, Cəfər bəyin günahları olmadan həbs edilib İrəvan həbsxanasına apardıqları və iki xalqın uyum içərisində yaşamaları üçün bunların sərbəst buraxılmalarına dair" bir teleqraf çəkmişdir.

Erməni çətələrinin, Van və Sasun hadisələri adınının verildiyi bu bölgədə öldürdükləri və vəhşicəsinə yer üzündən sildikləri müsəlmanların çox olduğu anlaşılmışdır.

Ermənilər Vedi bölgəsində 1919-cu il iyul ayının əvvəllərində qətliam törətdikləri zaman Şərur, Şaxtaxtı, Naxçıvan bölgələrinə də hücum edərək müsəlmanların bir çoxunu öldürmüş, müxtəlif vəhşiliklər törətmişlər. . Onlar oralarda liderləri toplamış, silah axtarma bahanəsilə onların mallarını mənimsəmiş, gənclərini sürgün etmişlər. Ermənilər 13 müsəlman kəndini bir anda basaraq kişiləri qeyri-insani hərəkətlərlə şəhid etmiş, qadınları alçaqca kirlətmişlər. Bu hadisələr üzərinə müsəlmanlar qadınlarını bir yerə toplayaraq qorumağa çalışmışlar. Ermənilər isə bunların üstünə top, avtomat tüfənglərlə hücum edərək qadın, uşaq və qocaları ayırd etmədən, qarşılarına çıxanı öldürmüşlər.

Ermənilərin Vedi bölgəsində törətdikləri qətliama etiraz olaraq Azərbaycan Xarici İşlər Naziri M.Y.Cəfərov Ermənistanın Bakıdakı təmsilçiliyinə 1919-cu il iyul ayının 12-də bir etiraz notası vermişdir. Bu notada Azərbaycan'ın iki ölkə arasındakı problemləri siyasi yollarla həll edilməsindən yana olduğunu, ancaq Ermənistanın bu düşüncələrə yanaşmayıb müsəlman kəndlərinə əsgəri birliklər göndərərək qətliamlar törətdiyi bildirilir. Xüsusilə Vedibasar və Milistan bölgəsindəki qətliamların dayandırılması istənməkdədir. Notanın bir surəti İngiltərənin Bakıdakı ordu komandanına və bütün diplomatik təmsilçilərə göndərilmişdir.

Ermənilərin hazırladıqları planla Naxçıvan və Şərur bölgələrində törədəcəkləri basqın və hücumların proqramında komandanların birliklərinə verdikləri əmrlərdə eynilə bu cümlələr yer alır: "Şərur müsəlmanlarını Araz çayına tökmək üçüncü dəstə komandanının vəzifəsidir. Məqsəd Şaxtaxtı və Kıvanı basıb oradakı müsəlmanları belə Araz çayının arxasına tökməkdir."

Ermənilər Zəngibasar bölgəsindəki on səkkiz kəndin müsəlmanlarına 1919-cu il 14 iyul tarixində kəndlərini tərk edib getmələrini təklif etdilər. Bu təklifə qarşı çıxan kişi və qadınları vəhşicəsinə öldürdülər. Onların mal və əşyalarını qarət etdilər. Vəziyyətin belə bir hal aldığını görən müsəlmanlar çaşıb-qaldılar, ermənilərə nə istəsələr verəcəklərini, yalnız can və namuslarına toxunulmamasını istədilər. Bu kəndlilər ermənilərə pul, mal, silah və əşyalarını verərək bu qorxunc zülm və işgəncələrdən qurtulmuşlar.

İrəvanda yaranmış vəziyyəti nəzərə alaraq Azərbaycanın Gürcüstandakı təmsilçi müavini F.Vəkilov 12 iyul 1919-cu ildə general Koriya bir etiraz notası göndərmişdir. Notada ermənilərin müttəfiq ölkələrin ordularının bilgisi daxilində əsgəri qüvvədən istifadə edərək müsəlman kəndlərində törətdikləri qətliamların və İrəvan vilayətində yaşayan müsəlmanlara qarşı həyata keçirdikləri təzyiqlərin ağır nəticələr verəcəyi bildirilmişdir. Ayrıca, İngiltərə ordusunun nüfuzundan istifadə edən ermənilərin törətdikləri qətliamların dayandırılması istənmişdir.

Verilən bu etiraz notasına baxmayaraq, ermənilər İrəvan şəhərində gecələri müsəlmanların evlərinə hücum edir, onların mallarını alır, namuslarını kirlədir və ən qorxunc zülmü həyata keçirməyə çalışırdılar. Günəş batdıqdan sonra şəhər xaricində və ya stansiyada görünən müsəlmanlar bir anda yox olurdular. Müsəlmanlar qorxularından əkin sahələrinə, tarlalara gedə bilmirdilər. Çünki yaxalandıqları zaman dərhal öldürülürdülər. Müsəlmanların zənginlərindən pulu alınmamış bir nəfər belə qalmamışdı. İrəvan şəhərinin qəbiristanlıq məhəlləsində Əli oğlu Cabbarın evinə zorla girən ermənilər onun gözünün qabağında qadınların namuslarına təcavüz etdikdən sonra hamısını öldürmüşlər. Ermənilər bu qadınların döşlərini kəsərək Eçmiədzinə göndərmişlər. Ayrıca, Eçmiədzinə göndərilən Kırbulaqlı müsəlmanların aqibətləri bilinməməkdədir. İrəvan müsəlmanlarının çoxu bu qorxunc zülmdən qaçmış, dağlarda və mağaralarda ac, susuz, çılpaq dolaşmaq məcburiyyətində qalmışlar. Onlar da qorxunc səfalət nəticəsində tif kimi yoluxucu xəstəliklərə yaxalanaraq vəfat etmişlər.

Ermənilər Banibək qara kilsəsinin cənubundan Maymaq dağının cənubi şərqindəki Dəriçiçək deyilən yerdə olan müsəlman kəndlərinə hücum edərək qətliam törətmişlər. Bu ətrafdakı müsəlmanların aqibətlərinin necə olduğu naməlum qalmışdır.

Ermənilər Kəmərli ətrafındakı üç müsəlman kəndinin xalqını vəhşicəsinə qətl etmiş, cəsədləri Araz çayına atmışlar. Ermənilərin acımasızca yaratdıqları bu vəziyyət o bölgədə yaşayan müsəlmanları qorxutmuşdur. Onlar nə edəcəklərini bilmədən mal-qara və əşyalarını buraxaraq dağlara sığınmaq məcburiyyətində qalmışlar.

İrəvan bölgəsindəki Gor, Abbas, Siran, Reyhan, Cafərdır, Quranlı kəndlərindən Buruki tayfasının mənsubları bu gözü dönmüş ermənilərin qorxunc zülm və işgəncələrindən qorxaraq 900-dən artıq evdən 5.545 nəfər müsəlman olmaq üzrə köçərək Türkiyəyə sığınmışlar.

Ermənilər 10 iyul 1919-cu il tarixində Iğdır bölgəsindəki müsəlman kəndlərində yaşayan insanlara silahlarını təslim et-

mələrini təklif etmişlər. Sürməli, Qarabulaq, İncəsu, Xarabə kəndlərinin müsəlman əhalisi ermənilərə inanaraq silahlarını təslim etmişlər. Ermənilər isə silahları aldıqdan sonra liderləri bir yerə toplayıb öldürmüşlər. O bölgədəki yetmişə yaxın kənd sakinləri bu qorxunc hadisədən şübhələnərək ermənilərdən təminat istəmişlərsə də, ermənilər avtomat silahlarla hücum edərək o kəndlərdə vəhşicəsinə qətliamlar törətmişlər.

Ermənilər 1919-cu ilin 12 avqust tarixində İğdır bölgəsində Molla Ömər deyilən yerin cənubundakı Tovuz kəndinə qəflətən basqın edərək oranın əhalisini böyük-kiçik demədən tamamilə şəhid etmişlər.

Ermənilər 1919-cu ilin 13 avqust tarixində Yuxarı və Aşağı Kartı kəndlərinin kişilərini bir yerə toplayaraq əksəriyyətini şəhid etmişlər.

Yenə eyni günlərdə ermənilər Əli Xoca, Xamırkəsən, Parçatı kəndlərinin kişilərini qoca-cavan demədən hamısını qətlə yetirmişlər.

Ermənilər İğdır ətrafındakı 21 kəndi basaraq yaxalaya bildikləri kişiləri öldürmüş, qadınları isə çılıl-çılpaq olaraq Eçmiadzinə göndərmişlər. O ətrafın liderləri Eçmiadzin və Qarabulaq tərəfinə göndərilmişlərsə də, onların aqibətlərinin necə olduğu bilinməmişdir.

Ermənilərin törətdikləri qorxunc zülm və işgəncələr, namusa təcavüz, uşaqlara olan hücumlar, qadınları çılpaq olaraq əsgərlərinin aralarında dolaşdırmaları, heyvanlara mindirilib gəzdirmələri müsəlmanlar arasında qarışıqlığa səbəb olmuşdur. Sürməli, Qarasaçlı, Yağlı kəndlərindən və Zilan tayfasından olan 87 evdən 555 nəfər mal və əşyalarını alaraq sərhəddən keçib Türkiyəyə sığınmışlar. Ermənilər bunlara bir çox itkilər verdirdikləri kimi, onların öküz, qoyun, keçilərini də qəsb etmişlər.

Ermənilər Kağızman şurasının dağılmasından sonra Kağızmana girərkən liderləri işgəncələrlə şəhid etmişlər. Daha sonra qətliama başlamışlar. Kağızmanlı Kadı oğlu Əziz, bir dostu və ailəsilə Qarsa gedərkən Tiknis ilə Ağadavalar arasında ermənilər tərəfindən həbs edilmişlər. Sonra ermənilər bunlara işgən-

cə verməyə başlamışlar. Onlar bunların gözləri qabağında qadınlarına təcavüz etdikdən sonra öldürmüşlər. Sonra bunların əllərini kəsib vücudlarında ciblər açaraq əllərini bu ciblərə soxmuşlar, burunlarını, qulaqlarını, dodaqlarını kəsib sinələrində açdıqları ciblərə doldurduqdan sonra gözlərini də oymuşlar. Beləcə onların dördünü də vəhşicəsinə şəhid etmişlər.

Kağızmanın liderlərindən Mustafa Əfəndizadə Aslan bəy zövcəsi Nina xanım və İsmailzadə Əhməd bəy ilə zövcəsi Kağızmandan Qarsa gedərkən bir erməni polis idarəsinin qarşısından keçən yolun üstündən ermənilər bunlara hücum edib dördünü də şəhid etmişlər. Gözü dönmüş ermənilər bununla kifayətlənməyib dördünün də burun və dodaqlarını kəsmişlər. Hadisədən xəbər tutan erməni məmurları cəsədləri Kağızmana gətirib küçələrdə dolaşdıraraq terrorçuluq nümayişi yaratmışlar. Bu qorxunc hadisəni görən Kağızmanlı müsəlmanlar bütün mal varlıqlarını arxada buraxaraq qaçmışlar. Bu fürsəti əldən verməyən ermənilər də müsəlmanların bütün mal və əşyalarını qarət etmişlər.

1919-cu ilin 17 iyulunda ermənilərin müsəlman kəndlərinə atdıqları topların səsi Türkiyənin sərhəddindən eşidilmişdir. Ermənilər Çurük müsəlman kəndini qəflətən basmış, kəndlilərin mallarını və əşyalarını qarət etmişlər, kişiləri öldürmüş, qadınların namuslarına alçaqca təcavüz etmişlər. Ermənilər Kağızmanın mərkəzində də qadınlara hələ işgəncə verməkdən çəkinməmişlər.

Ermənilər 1919-cu il avqust ayının 11-də Kağızmanın liderlərini toplayaraq naməlum bir istiqamətdə aparmışlar. Bunlardan Məhməd bəyin cəsədi 17 avqust 1919-cu ildə Qarsın cənubunda, Kiçik Zaim kəndinin yaxınlığında, bədəni cib şəklində yırtılmış və əlləri bu ciblərə soxulmuş olduğu halda tapılmışdır. Ermənilər Kağızmanın müsəlman kəndlərinə hücum edərək uşaq, qoca, qadın, xəstə, şikəst ayırmadan qarşılaşdıqları bütün müsəlmanları qətl etmişlər.

Ermənilər 1919-cu il 10-20 avqust günlərində Kağızmandakı müsəlmanların bir çoxunu bir yerə toplayaraq qətl etmişlər.

Onların çoxu camilərə doldurularaq vəhşicəsinə yandırılmışdır. Bu qorxunc faciələri görən 200 nəfərə yaxın müsəlman mal və əşyalarını ataraq Çukurcam və Kükürdlü dağlarına qaçmış, günlərcə daş mağaralarda, ağac boşluqlarında ac-susuz yaşamışlar.

## BƏZİ SƏNƏDLƏR

**Sənəd No 1.**

"...Biz Rusiyanın Revan vilayətində olan Zilan aşirətindənik. Bundan bir neçə gün əvvəl ermənilər tərəfindən top, tüfəng gücü ilə məmləkətimizdən qovulduq. Ermənilər bütün əmlak və taxıllarımızı əlimizdən aldılar. Qarakilsə qəsəbəsinin sərhəd bölgəsindəki daşlıq yerlərdə müvəqqəti olaraq yerləşmişik.

Qış yaxınlaşır. Bizim olduğumuz yerdə qış hazırlığı görmək imkanı yoxdur. İrəlidə yurdumuza dönmək mümkün olmadığı təqdirdə Osmanlı torpaqlarında uyğun bir yerdə yerləşməyimiz üçün əmr buyrulmasını rica edirik.

Qarakilsə Zilan Aşirəti Başqanı
*Abdulfattah*"

**Sənəd No 2.**

"...Kağızmanın Xorasan bölgəsindəki min evdən artıq bir qəsəbədə yaşayan əhalininin hamısı aşirətimizdən və əqrəbalarımızdan ibarət idi(?) Bunların bu günlərdə ermənilərdən gördükləri zülm və işgəncə insanımızı məhv etmək üzrədir. Onların yardım xüsusundakı fəryadları ciyərləri parçalayacaq dərəcəyə çatmışdır. Biz ailəmizi və varlığımızı müdafiə etmək məcburiyyətindəyik. Ancaq əsgər olduğuma görə yardıma gedə bilmirəm. Qardaşlarımın və tayfamın yardımına çata bilmədiyimə görə özümü məsuliyyət altında görürəm. Tayfamın çax-

naşmasına əngəl olmağa gücüm çatmır. Necə hərəkət edəcəyimin bildirilməsini rica edirəm.

Zilan Aşirəti Başqanı
İxtiyar Mınbaşı Əli"

Sənəd No 3.

"...Qars və Kağızman sərhəddində olan din qardaşlarıma və tayfama qarşı ermənilərin törətdikləri qorxunc zülm hadisələri bizi məhv etməkdədir. Məndən hər gün kömək istəyirlər. Bu kömək istəkləri hər gün çiyarlarimizə qədər işləyir. Buna qatlanmaq gücümüzün xaricində olduğuna görə müsəlmanlara qarşı törədilən, ürəkləri parçalayan zülmə qarşı çıxmaq məcburiyyətində qalıramsa da, əsgər olduğuma görə əmr almadan ora getmənin uyğun olmayacağını düşünərək dövlətimə sığınmaq məcburiyyətində qaldım. Əmrlərinizi səbrsizliklə gözləyirəm. Tayfama yardım etmək üçün getməyimə icazə verilmədiyi təqdirdə aşirətimin həyəcanını sakitləşdirməyə gücüm çatmayacaq. Bütün aşirətlər bu vəziyyətdədir. Bu zülmün millətimizin üzərindən qaldırılmasını və ya necə hərəkət edilməsinin bildirilməsinə lütf və mərhəmət buyrulmasını ərz edirəm.
Sabiki Aşirəti Başqanı
İxtiyar Minbaşı Əbdülməcid."

Sənəd No 4.

"...Bu altı ildən bəri ermənilərdən gördüyümüz və görməkdə olduğumuz, açıqlanmasına imkan olmayan vəhşət və zülmlər hər kəsə məlumdur. Bu zamanlarda canavarlıqlarla yanaşı bir çox yerlərdəki böyüklərimizi yaxalayaraq hələlik həbs etdiklərini bilirsək də, daha sonra nə edəcəklərini bilmirik. Ermənilər rayonumuzda bir məhəllə hökuməti quraraq Qaraqurddan gəlib-gedən yolçuların, dəyirmana gedən müsəlmanların əllərindəki öküz, inək, qoyun və keçilərini, hətta yanlarını-

dakı çörəklərini zorla alırlar. Və yenə minik atlarımızı, namus və şərəfimizi qorumaq üçün əllərimizdəki tüfənglərimizi bir-bir, iki-iki toplayırlar. Biz buralarda çox sahibsiz qalmış bir vəziyyətdəyik. Ermənilər müsəlmanları açıqdan-açığa öldürürlər. Şikayət və sızlamalarımızın lazım olan böyüklərə bildirilməsini diləyirik. Şikayətlərimizi bildirəcək bizə yaxın böyük bir dövlət olmadığı kimi, ermənilərin qorxusundan uzaq yerlərə gedib dərdimizi anlada bilmirik. Bu niyaznaməmizi sizlərin vasitəsilə böyüklərimizin təqdiminə cəsarət edirik.

Qarapınar əhalisi adından
Ömər."

**Sənəd No 5.**

"Məsum bir cəmiyyətin namus və şərəfinin tapdalanmasına qərar verən ermənilərin pis ayaqları altında qalmaması, millətimizin müdafiəsi, haqlarımızın müəyyən edilməsi və qorunması üçün Cənab Haqqa sığındığımız bir zamanda qaçaraq yanımıza gələn Vedibasarlı Musa oğlu Əkbər və Abdullah oğlu İbrahim öz ifadələrində müsəlmanların sığındığı dörd böyük qalanın və dörd qəsəbənin qapısı olan Böyük Vedi şəhəri və ətrafını ermənilərin çox qısa bir zamanda məzarlığa döndərmək istədiklərini bildirmişlər. Ermənilər bu məqsədlə top və təxminən dörd min nəfərlik bir qüvvə ilə mühasirəyə aldıqları, müxtəlif müdafiə imkanlarından məhrum və məzlum olan müsəlmanları 5 kilometr uzaqlıqdakı qatarın vaqonlarından bombardman edirlər. Onlar məqsədlərinin müsəlmanları dağlara qaçıraraq tarladakı əkinlərini ələ keçirmək olduğunu söyləmişlər.

Osmanlı dövlətini təmsil edən zati-alilərinin aciz, kimsəsiz, zəif dindaşlarının bu qorxunc vəhşiliyə qurban olmalarına əslə razı olmayacaqlarını üç aydan bəri sürüb gələn fəryadımızla açıqlayıb bildirmişik. Zavallı qadınların, ağ saqqallı qocaların, südəmən uşaqların yardımçısı ola biləcək, ucları parıldayan süngü ilə təchiz olunmuş bir qüvvənin olması təbiidir. Ağladıq, sızladıq, yazdıq, bağırdıq, millət maskası altında insanlığı əzib

yox etməyə can atanlara qarşı hələ fəryad etdik. Bu səslərimiz başımızda parıldayan güllə səsindən eşidilməz. Müsəlman aləminin biricik şəfqətli hamisi olan xəlifəyə də fəryadlarımızı eşitdirə bilməsək, artıq biz kimə deyək? Hansı xariciyə sarılaq? Bu şikayətlərimizin yerinə bildirilməsilə bərabər, bizə qorxunc zülmü və işgəncəni verənlərə qarşı həyatımızın müdafiəsini rica edirik

Naxçıvan əhalisinin vəkili

Naki"

İngiltərənin Şərqi Anadoludakı türkləri kürdlük təhrikilə Türkiyədən ayırmaq, dövləti parçalamaq və beləcə ermənilərə yardımçı olmaq məqsədilə girişdikləri və göstərdikləri səyləri bildirməsi baxımından aşağıdakı sənəd çox əhəmiyyətlidir.

**Sənəd No 6.**

"...Bundan üç gün əvvəl bir ingilis generalı Köteke gələrək məni yanına çağırdı və ermənilərlə aramızdakı ixtilafın səbəbini soruşdu. Bu ixtilafın yeni olmayıb keçmiş olduğunu, biz özlərindən üç qat artıq olduğumuz halda onlara imtiyaz verilib bizə nə üçün verilmədiyini söylədim. General nə istədiyimizi soruşdu. Ərzurum, Ərzincan və bütün şərq əyalətlərini istədiyimizi söylədim. General Türkiyəni sevib-sevmədiyimizi, bunları verməyə razı olub-olmayacağımızı soruşdu. Mən də siyasəti sevmədiyimizi, məsələnin dövlətlərin həll edə biləcəklərini söylədim. General sülh konfransında düşüncələrimizi müdafiə edəcək siyasət adamlarımızın olmadığını söylədi. Ona qardaşlarımızın çağrılmayan bir yerə necə gedə biləcəyini, belə adamlarımızın İstanbulda olmadığını, İngiltərənin bunları nəzərə almasını rica etdim. Dörd-beş ildə bizim də siyasət adamı yetişdirəcəyimizi söyləyərək generalı məmnun etdim və ermənilərin törətdikləri zülmü anlatdım. Bunun üzərinə məni avtomobilinə mindirərək gəzdirdi, bizə yardım edəcəyinə söz verib Kağızmana getdi. Orada bir gecə qaldıqdan sonra ixtilaf səbəbini anla-

maq uçun Qaraqurda gəldi. İndi ermənilər Qaraqurtda silah partlatmaqla və silahlarını verməyən müsəlmanları oradan qaçırmaq çarələrini axtarmaqla məşğuldurlar. Çox yaxında bizim tərəfdə də bu işə başlayacaqlarını zənn edirəm.

HÜSEYİN BƏY."

**Sənəd № 7.**

"...Qaraqurd rayonuna gələn ermənilərin başımıza gətirdikləri fəlakətləri Allah rizası və Peyğəmbərin haqq və xətirinə Avropa dövlətlərinə bildirin. Bildirməsəniz, sabah qiyamət günündə məhşər qurulduğu zaman Allah hakim olur, Peyğəmbər şəfaətçi. Biz hamımız da şikayətçi olarıq.

1. Ermənilər kəndimizin liderlərini və ağlı kəsənləri bir-bir yaxalayıb üç gün, üç gecə ac, susuz buraxır və onlara gündə əlli dəyənək vururlar. Pulu olanlar qanlarını satın alırlar. Olmayanlar öldürülürlər.

2. Ermənilər mal və öküzlərimizi alırlar.

3. Hər gün iki kəndimizi top və avtomat tüfənglə yaxıb-yandırırlar. Müsəlman qadınlarının namuslarına təcavüz edirlər. Dünən ermənilər Məscidli, Ağkilsə, Hayviran və Şadırvan kəndlərindəki müsəlmanlara hücum etdilər. İyirmi adam şəhid oldu. Otuz beş nəfər yaralandı. Əgər belə gedərsə, Qars və İrəvan vilayətlərində müsəlmanların adları qalmayacaq. 600 ildən bəri bütün dövlətlərin içərisindəki müsəlmanlara heç bir zaman belə qorxunc zülm edilməmişdir.

4. Qars, İrəvan, Batum vilayətlərilə yuxarıda adı keçən yerlərdəki müsəlmanlar, görəsən, necə böyük günah işləmişlər ki, ermənilər qudurmuş köpək sürüləri kimi hücum edirlər. Qorunmağımız üçün başqa bir dövlət yoxdurmu? Ermənilərin törətdikləri qorxunc zülm Şəddad, Nəmrud, Fironun zamanında belə olmamışdır. İndi hamımızın həyatı təhlükədədir. Gördüyümüz zülmləri lazım olan məqamlara bir an əvvəl bildirməniz..."

Qazkiyan kəndindən Yuxarı və Aşağı Küplücə kəndindən
Acem oğlu Osman Ağa oğlu Bəkir
Vəli oğlu Əhməd Qadir oğlu Fıka Süleyman
Məhməd oğlu Əsəd əfəndi."

**Sənəd No 8.**

"...Qaraqurd qəsəbəsinə gələn ermənilər hər gün bir-iki kəndi xarabalığa çevirməyə çalışırdılar. Ermənilərin törətdikləri o qorxunc zülmlər Şəddad və Nəmrud zamanlarında belə olmamışdır. Hər gün bir-iki kəndimizi xarabalığa çevirirlər. Vəziyyət çox qorxuncdur. Zülm və işgəncə belə davam edərsə, 6-7 min evlik müsəlman camiyyətinin məzara basdırılacağından şübhə yoxdur. Allah və Peyğəmbər xatirinə, bizim vəziyyətimizi lazım olan yerlərə bildirin.

10 iyul 1919-cu il.

Örtülü kəndi adından Külçə kəndlisi
Sedik oğlu Bəkir Ağazadə Səid Abid
Luli Kazıka kəndi adından Zilan Aşirəti Rəisi Həsən
Acem oğlu Osman Armudlu kəndlisi
Yüzbaşı Şərif oğlu Hacı Salih Rüstəm oğlu Əli."

**Sənəd No 9.**

"...Dünyada ədalət və bərabərliyin təmsilçisi, insanlığın müdafiəçisi olduğunu elan edən İngiltərə dövləti bundan 3 ay əvvəl siyasət tələbi zəminində şuramızı ləğv edib üzvlərini qovduqdan sonra can, mal və namusumuzun təhlükəsizlikdə olacağına söz vermiş, şuramızın yerinə erməni hökumətini gətirmişdi. Əfsuslar olsun ki, bu vəd quru söz olaraq qalmışdır. Həyatımız, gələcəyimiz və bütün varlığımız məhv olmaqdadır. Erməni hökuməti tərəfindən ağıllara durğunluq verəcək zülm törədilməkdədir. Tarixdə indiyə qədər belə vəhşi və qorxunc zülm və cinayətlər görülmədiyinə görə təfərrüata varmaq istə-

mizik. Namus, mal və canlarımız ermənilərin top və qılınclarının altındadır. Hər gün qorxunc cinayətlər olur. Ermənilərin hər an hücumlarına hədəf olan ailə fərdlərinin canları və qadınlarımızın namuslarının qorunacağı umudu ilə törədilən qorxunc cinayətdən bir neçəsini ərz edirik:

Kağızman şura rəisi və keçmiş rəhbəri Aslan bəy və zövcəsi, liderlərdən Əhməd bəy iki xidmətçisi ilə Qarsa gedərkən silahlı ermənilər onların yollarını kəsərək Aslan bəyin gözünün qabağında zövcəsinin namusunu kirlətdikdən sonra hamısını canavarlardan daha artıq vəhşiliklə öldürdülər. Kiçik Yusuflu Ömər Ağazadə Osmanın sərvətini özlərinə tərk etməsi üçün min cürə işgəncədən sonra başı aşağı asaraq yeddi min rubl rus pulunu qəsb etdilər. Ermənilər müsəlmanları yox etmə siyasətini hər gün təkrar edirlər. Mal, can və namusumuz qudurmuş ermənilərin qorxunc zülmlərinə hədəf olmaqdadır. Fəryadımızın sakitləşməyəcəyi onlara əmr edilmiş olmalıdır ki, beləcə qorxmadan törədilən canavarlıqlar sürüb gedir. Mədəniyyət və insanlığın inkişaf etdiyi əsrimizdə fəlakətimizə acıyaraq can, mal və namusumuzu qoruyacaq, fəryadlarımızı dinləyəcək və bizə yardım edəcək, insanlığa yardım və ədalət göstərəcək və bunu isbat edəcək olan hökumətin Amerika hökuməti olacağını təqdir edərək adı keçən hökumətin bizə sahib çıxmasına sığınırıq. Fəryadlarımızın eşidilməsinə dəlalət buyrulmasını rica edirəm.

Qars vilayəti müsəlman əhalisinin adından
Millət Vəkili Bəri." (282).

Tanınmış tarixşünas Əhməd Rəfiq türk ordusunun Ərzuruma girişindən, yəni ermənilərin törətdikləri zülm və qətliamdan 55 gün sonra Ərzuruma çatmış və gördüklərini belə anlatmışdır:

"...6 may 1918-ci il Ərzurum. Bir yanğın yerindəyəm. Türklərin bu tarixi və fədakar şəhəri sanki bir xarabalıq halındadır... Küçələr, binalar, camilər, mədrəsələr başdan başa dağıdılmış-

dır... Evlər insan cəsədlərilə doludur. Yanmış, dağıdılmış evlərin çökuntüsü, qapqara kəsilmiş cəsədlər, dişləri ağara qalmış insan başlarına, uşaq başlarına, qol, ayaq, sinə, gövdə və ayaq parçalarına rast gəlinir.

Zavallı Ərzurum xalqı... Əsrlərdən bəri bütün varlığı ilə türk dövlətinə qulluq edərkən indi erməni çətələrinin zülmünə uğramışdır. Uşaqları çılpaq və pərişan, ailələrilə evlərinin sönən ocaqlarının qalıntıları altında qaralmış, iylənmiş cəsədlər altında yatırlar. Nə minarələrində bir zamanlar Palantökən dağının qarlı təpələrinə əks edən azan səsləri eşidilir, nə də küçələrində o vüqarlı xalqının millətinə xas sıxlığı görülür. Zərif binalar, möhtəşəm xanlar tarixi, türbələrlə bəzəkli dörd əsrlik türk qəhrəmanlığına şahid olan şəhərin üstündən müdhiş bir qan və atəş tufanı keçmiş, azyaşlı uşaqlar, qocalar, şikəst insanlar, övlad acısıyla belləri bükülmüş bəxtsiz analar sahibsiz, kimsəsiz, yanmış, yıxılmış və sönmüş ocaqlarının ətrafında gözlərində yaşlar titrəyərək ağır və səssiz addımlarla dolaşırlar..." (283).

Şərqi Anadolu'nun halı: "Ermənilər moskvalıların geri çəkilmələrilə qəsəbə və kəndlərdə elə təxribatlar törətmişdilər ki, Trabzondan Qarsa qədər heç bir kənddə bir canlı qalmamışdı. Əsasən torpaq binalardan ibarət olan kəndləri yaxıb-yarmışdılar. Vətənlərinə dönən tək-tük biçarələrdən bəziləri – erməni zülmünün qurbanı qadınlar və uşaqlar boş səhralarda, qarlı yollarda, soyuq vadilərdə ac, səfil dolaşırdılar..." (284).

"Mamahatun parçalanmış övladlarını köksünə gömmüş, dağıdılmış camiləri, yıxılmış evlərilə sanki ağlayırdı. Ermənilər Ağqoyunlulardan qalma camini havaya uçurmuş, xalqın çoxunu qətl etmişdilər. Aşağıdakı dərə kənarında geniş bir çuxur yüzlərcə türk cəsədilə dolu idi. İylənmiş insan cəsədləri paltarları və çarıqlarıyla bir-birinə qarışmışdılar. Bu cəsədlər əriyən yağları, əzilmiş başları, qoparılmış qolları və ayaqlarıyla yığınlar təşkil edirdi..." (285).

"Ilıca xalqı ermənilər tərəfindən qanla boğulmuşdu. Ərzurumun küçələrində minlərcə türk cəsədi vardı. Ermənilər yüzlərcə türkü Mürsəl bəyin və Enzirmikli Hacı Osmanın evinə

doldurub yandırmışdılar. Aralarından bir neçəsi divarda açılan deşikdən qaça bilmişdi. Torpaq bir az eşildikdə ya bir insan qolu, ya baş, ya da gövdə görünürdü. Zavallı xalq bu qorxunc sıxıntılar içərisində ana və atalarını axtarmaqla məşğul idi..." (286).

Ahmet Refik türk ordusu Ərzuruma girdikdən sonra ermənilərlə birlikdə rus istehkamlarına əsir düşən yuzbaşı ilə görüşməsini belə anladır:

– Bu bölqələri hey rus zabitləri idarə etmişlər – deyirlər.

Yuzbaşı qıpqırmızı oldu. Ordusuna cinayət ləkəsi sürdürmək istəmədiyi bəlli olurdu. O, əlini yellədi:

– Net (xeyr), biz qarışmadıq, hey ermənilər etdi.

Bizim polkovnik-leytenant bunları yazdı... Onun xatirələrini oxuyun..." (287).

Yazıçı xarabalıq halına gələn Ərzurumu gəzərkən yanına bir zabit soxulmuş və belə demişdir: "...Bu gördükləriniz belə şəhərin təmiz halıdır. Bu küçələr başdan-başa qadın və uşaqların cəsədlərilə dolu idi. Qadınların döşləri və məhrəm yerləri kəsilmiş, divarlara mıxlanmışdı. Bu teleqraf tellərinə hey uşaq başları asılmışdı. Qarınları deşilmiş yarıçılpaq qadın cəsədləri keçəcəyimiz yolun iki tərəfinə düzülmüşdü. Taleşiz millətimizin bu halını gördükdə dəli halına gəlmişdim. Baxaq görək mədəni Avropa bu böyük cinayətin icraçılarını cəzalandıracaqmı?.. Tarix belə bir vəhşilik qeyd etməmişdir..." (288).

Rus podpolkovniki Tverdo Xlebov öz xatirələrində rusları təmizə çıxarmağa çalışmaqla bərabər, Rusiyanın ordusundakı erməni əsilli zabit və əsgərlərin canavarlıqlarını da anlatmışdır. Onun sözlərinə görə, rus zabitlərinin erməni komandanı, insan qəssabı Andranik minarələrdən türkcə danışaraq təminat verib xalqın evlərindən çıxmalarına müvəffəq olmuş, onları tələyə düşürərək qətl etdirmişdir.

Erməni xa'çı ilə erməni əsgərləri saysız kiçik türk uşaqlarını divarların dibində yetim və kimsəsiz buraxmaq üçün əl-ələ vermişdilər. *(General Kazım Qarabəkir minlərcə belə kimsəsiz* uşaqları sənət məktəblərində yetişdirmək və digər məktəblərdə oxutmaqla həyata, yaşama hazırlatdırmışdır).

12 mart 1918-ci il qurtuluş günündən sonra Ərzuruma gələn bir məmləkət övladının söylədiklərinə qulaq asaq: "Ilıcaya gəldiyimizdə aldığımız xəbər çox acı idi. Ermənilər qətliam törətmişdilər... Şəhərdəki binalardan dumanlar çıxır, bəzi evlərdən ölülərimizin iyi gəlirdi. Böyük evlər, məktəblər insanlarla doldurulub güllələnmiş, süngülənmişdi və "içəridə sağ qalan ola bilər" düşüncəsilə onları yandırmışdılar..."(289).

Bu hadisə türk əsgərinin Ərzuruma gəlişindən bir gün əvvəl baş vermişdi. Bundan bir həftə əvvəl isə Ərzurum xalqı dəstə-dəstə vağzala aparılmış, yolların açılmasında çalışdırılmaq bəhanəsilə müxtəlif istiqamətlərə sürgün edilmişdilər. Sivişli və Uzun Əhməd dərəsi Ərzurum xalqının meyitləriylə doldurulmuşdu. Onlar yaylım atəşindən sonra süngülənmişdilər, sağ qalanlar varsa ortaya çıxsınlar deyə türk əsgərini təqlid edərək azan oxumuşdular.

Həsənqala yolu üzərindəki kəndlərdən Sarıqamışa qədər qətliam törədilmişdi. Buralarda öldürülən türklərin sayı 80 000-dən artıq olmuşdur.

Aşıq Qəhrəman bu zülmləri bu ağıyla dilə gətirir (290):

Bir gəlin gördüm: ayağa qalxmış,
Sandım ki, canı var, üzümə baxmış,
Kafir mismar ilə divaya taxmış,
Mismar çivi səsi ərşə dayandı.
Bir hamilə qadın davranmış qaça,
Erməni eyləmiş hey parça-parça,
Qılınc ilə vurmuş bölünmüş kalça,
Axan qızıl qanı, ərşə dayandı...

Onu da xatırlayaq ki, 1877-1878-ci illərdə rusların türklərə qarşı başlatdıqları müharibə haqqında Osmanlı parlamentinin Ərzurum deputatlarından erməni Hamzasp, Edirnə deputatı Ruben belə deyirdilər:

"...Rusiya illərdən bəri xristianları qorumaq hiyləsilə ortaya çıxmışdır. Onun girişdiyi intriqalar məlumdur. Lakin biz xris-

tianlar halımızdan məmnun olub himayəyə əsla ehtiyacımız yoxdur. Bu qədərini bəyan edim ki, erməni milləti 500 ildən bəri Osmanlı dövlətindən tam bir himayə və asayiş görmüşdür. Mən Ərzurum deputatı olan bir erməniyəm. Bundan 48 il əvvəl min bir hiylə ilə aldadılıb Rusiyaya köç etdirilən yüz min erməni oradakı həqiqəti gördükdən sonra təkrar ana Vətənə dönmək məcburiyyətində qaldı. Mən Osmanlı dövləti deyilən bir Vətənin övladıyam ki, indi bu Məclisdə Millət vəkilliyi sifətilə şərəflənmişəm..." (291).

Oltuda da Birinci Dünya müharibəsi illərində Çar Rusiyasının silahlı qüvvələri yerli rum və erməniləri təhrik edərək türklərə qarşı çox sərt davranmışlar, bir çox insanı ac və susuz buraxaraq çətin işlərə sövq etmişlər. (292).

Müharibə illərində çox sayda uşaq Cənub-qərbi Qafqaz, Ərdahan, Oltu və Qars bölgələrində müharibə və erməni qətliamlarından sonra kimsəsiz və yetim qaldı. Bu uşaqlardan bir qisminin təhlükəsizlik işini "Bakı İslam Cemiyet-i Hayriyesi (Bakı İslam Xeyriyyə Cəmiyyəti)" öhdəsinə götürdü.

1918-ci il 27 yanvar günü Oltunun idarəsi tək bir erməni qanı tökülmədən "Bakı İslam Xeyriyyə Cəmiyyəti"nə bağlı "Milli İslam Komitəsi" üzvləri tərəfindən ələ keçirildi.

1915-ci ildə rusların törətdikləri qətliamda Bahçecik, Havdos, Terpink kəndlərində kişilərin tamamı qılıncdan keçirilərək qətl edildi.

25 mart 1918-ci ildə Oltunun bütün yerləri Türk ordusuna təslim edilmişdir.

Oltu-Acara bölgəsində ruslara rəhbərlik edən erməni çətələrinin müsəlman xalqına verdikləri zülm Oltu köçərilərindən Hümzədə Hadis və qardaşı Ramizin and içərək verdikləri ifadələrdən alınmışdır (Ərzurumdakı erməni təxribatını və zülmünü istintaq etməklə vəzifələndirilən komissiyanın raportundan erməni komitəçilərinin məqsəd və hərəkəti-ixtilaliyyəsi): "Oltuya üç saatlıq məsafədə olan qəsəbədə yaşayırdıq. Buralara hücum edən erməni çətələri Sivri və Navorman qəsəbələrində yaşayan müsəlman xalqın mallarını və öküzlərini əllərindən aldı-

lər və müsəlman qadınlara təcavüzlər etdilər. Ermənilər Penes-kert, Örek, Çələpir, Oğladap, Hatdos və Kamis kəndlərinə hücum edərək "Osmanlı əsgərini siz çağırmışdınız"- deyərək, kişiləri öldürdülər, qadınların namuslarını kirlətdilər və uşaqları ata-analarının gözləri qabağında parçaladılar. Qaragördükoğlu Sülu adındakı şəxs ilə qapı qonşusunu, zövcəsini və iki uşağını erməni komitəçiləri Osmanlılara casusluq etməklə günahlandıraraq şəhid etdilər.

Peneskir kəndində kişiləri caminin həyətinə topladılar, ətrafına silahlı erməni növbətçiləri qoydular. Sonra kəndin içərisinə dağılaraq evləri qarət etməyə başladılar. Qadınların namuslarını ayaqları altına aldılar, kiçik uşaqları acımasızca öldürdülər.

150-ə yaxın çətə mənsubu Keban kəndinə hücum edərək qadınları bir yerə toplamış və ətrafdakı meşəliyə aparmışlar. Orada onların namuslarını kirlətmiş, bir çoxlarını da vəhşicəsinə öldürmüşlər.

Olur mərkəzinə gələn erməni çətə komandanı Artinov adam göndərib bizi yanına çağırtdırmış, çatdığımızda bizə xitabən belə demişdi: "Ətrafınızdakı kəndlərdə "toy və şənlikləri" görüb eşidirsiniz. Başqa kəndlərdən qaçaraq kəndinizə iltica etmək istəyənləri gizlətsəniz, sizin kəndinizdə də "toy" etməyə başlayacağıq. Sonra qadınlarınızı bir yerə toplayıb rus əsgərlərinə və sevimli erməni qəhrəmanlarına hədiyyə olaraq təqdim edəcəyik."

Ortunun Perinik kəndində müsəlman xalqı erməni çətələri tərəfindən qətl edilmiş, cəsədləri qazılan xəndəklərə doldurulmuşdur. Kiçik uşaqlar da bunlarla birlikdə diri-diri basdırılmışlar. Bu cəsədlərlə dolan xəndəklər buralara gizlicə göndərdiyimiz şəxslər tərəfindən görülmüşdür. Biz bir çox fəlakət və ölüm təhdidlərinə məruz qalaraq min bir çətinliklə hicrət etdiyimiz üçün bu qaniçən çətələrin törətdikləri zülmü canlı və açıq olaraq göstərəcək fotoşəkil kimi sənədlərə, çox təəssüflər olsun ki, sahib deyilik. Söylədiklərimiz erməni zülmünün yüz mində birini belə təşkil etməz!

KOMİSSAR POLİS MƏMURU

SEYİD ŞƏFİQ"

Narmanda ermənilərı Mıgırdıç adlı bir ermənin'n qurduğu çata ilə türkləri öldürərək (Tuzla dərəsində) qazd olan çuxurlara basdırmaq üzrə çalışdıqları bir zamanda bu xəbərin alınması ilə törədilən basqın ermənilərin tələf olmalarıyla nəticələnmişdir.

Ərzurum caddəsindən Narmana girişdə sağ tərəfə düşən bir heykəl qanlı faciələrin bir çox acılarını görmüş və məhəllə döyüşlərində böyük vətənsevərlilik göstərərək şəhidlik mərtəbəsinə yüksəlmiş bir narmanlının heykəlidir. Bu heykəl narmanlıların xatirələrini canlandırır (293).

Ermənilər Tortumda vicdan və namus tanımadan zülmlərinə zülm qatmışdılar. 21 mart 1918-ci il tarixində qəhrəman türk ordusu ermənilərə qalib gələrək Tortuma girdiyi zaman oralarda öldürülən türklərin sayının 25 000-ə yaxın olduğu ortaya çıxmışdır (294).

Erməni komitələri Sivas, Ərzurum, Şəbinqarahisar, Van və Elazığ bölgələrinə silah ötürülməsini Qara dənizin Samsun və Trabzon limanları vasitəsilə etmişlər. Bu işdə ticarət əşyası daşıyan böyük tacirlərdən istifadə olunmuşdur.

Komitə şöbələri ixtilaf dövlətlərinin buradakı konsulları vasitəsilə Rusiya və digər xarici ölkələrlə xəbərləşə bilirdilər.

Silah ixracatı üçün Giresun limanına da böyük əhəmiyyət verilirdi. Silah qaçaqçılığı Vahan Badelyan və Kel Artin adlı iki erməni tərəfindən idarə edilirdi. Bir gün rus gəmisi basılarkən çıxarılmaqda olan bir saman bağlamasının dağıdılması nəticəsində samanların arasında olan 400 martin ilə çox sayda mauzer tüfəngləri və mərmilər ortaya çıxmışdır. Beləcə, gömrük anbarlarında aparılan axtarışlarda da ticarət əşyaları arasından çox sayda tüfəng və digər silahlar ələ keçirilmişdir.

Giresunun bombardımanı zamanı ermənilər böyük sevinc səhnələri nümayiş etdirmiş, müsəlman xalqına və hökumət məmurlarına həqarətlər yağdırmışlar.

Ermənilər buralarda da müsəlman xalqına qarşı zülm və işgəncələrlə qətliamlar törətmişlər. Aparılan rəsmi tədqiqatın nəticəsi aşağıda verilmişdir (295): "Erməni çətələri Beşikdüzü

girişində Osman bəyin evinə sığınan bir çox qadın və uşaqları canavarcasına şəhid etmişlər. Bundan əlavə, 30 nəfərlik bir erməni çətəsi tərəfindən mühasirəyə alınan bir neçə evin qadın və uşaqlarını seçib bir dərəyə aparmış və hamısını orada boğmuşlar. Bu vəhşətdən qurtara bilən yaralı iki qadın sağaldıqdan sonra baş verən hadisələri kədər içərisində anlatmışlar.

Of qəsəbəsinin Kelali kəndindən beş nəfərlik bir erməni çətəsi bir qadına jandarmanın gözü qabağında təcavüz etmək istəmişdir. Qadını müdafiə etmək istəyən bu jandarmanı öldürüb zavallı qadının namusuna təcavüz etmişlər, sonra da yanağını dişləyərək qoparıb atmışlar. Yenə bu canavarlaşan erməni çətəsi bir elm adamını müxtəlif hərəkət və işgəncələrlə öldürmüşlər. Daha sonra bu erməni çətəsi bir çox mal-qaranı qabaqlarına qatıb aparmışdır.

Trabzon polisinə müraciət edərək and içdikdən sonra açıqlamalar verən bir şəxsin ifadəsinə görə, Of qəsəbəsinin Lazandos kəndinə girən erməni çətələri sakinlərin adlarını və evlərin sayını qeyd etdikdən sonra mövcud əşyanın tamamını Rusiyaya göndərmişlər. Kənd sakinlərindən Dilsizoğlu Əli Osmanın zövcəsi Yasəmənin bütün fəryadlarına baxmayaraq namusuna təcavüz olunmuş, əri isə çox ağır yaralanmışdır. Yenə Of qəsəbəsinə bağlı Pərvanə kəndindən Suiçməzoğlu Bican ağanın gözü qabağında zövcəsinin namusuna təcavüz etmişlər, sonra hər ikisini öldürmüşlər. Erməni çətələri Purnak, Böyük Zimlə və Kiçik Zimlə kəndlərinin sakinlərindən qaça bilməyən qadın və uşaqları qətl etmişlər. Alana kəndindən olan Çakıroğlu Süleymanın zövcəsinə təcavüz etmişlər. Telli oğlu Eminin, qəsəbə müəllimlərindən Əlinin, Hacı Mustafa oğlu Məhmədin, molla Mahmudun oğlu Əsgərin, Mahmudun və digər Mahmudun ailələrinin namuslarını kirlətmişlər. Kəmahçızadə Həmidin, Əli oğlu Məhmədin və Tabi oğlu Hüseyin ağanın qızlarına təcavüz etmiş və Ömər oğlu Osmanı öldürmüşlər.

Bütün bu hadisələr və tükürpədici alçaqlıqlar rusların təşviq və yardımları ilə erməni çətələri tərəfindən törədilmişdir.

Rusiyanın əsgərlərinə öncülük edən erməni çətələrinin zülmü haqqında müsəlmanların and içərək verdikləri ifadələrə görə, Yumra qəsəbəsinin Kalafka kəndinə girən ermənilər bir evə toplayaraq gizlənən Qulaq oğlu Hüseyni, zövcəsi Ülviyə və gəlini Hüsniyyəni, yenə Qulaq oğlu Əlini, zövcəsi Zəlihəni və bir neçə başqa qadın və uşağı gizləndikləri evdən çıxarıb kəndin qırağındakı dərədə əvvəl kişiləri qadınlarının gözləri qabağında boğub öldürdükdən sonra qadın və uşaqları qoyun kəsən kimi kəsmişlər. Kənddə qalan Paslı oğlu Əlinin 18 yaşındakı qızı Əminənin namusuna təcavüz etdikdən sonra öldürmüşlər. Bacısı Xədicənin də yeni doğulmuş bir qız uşağını havaya fırladaraq altına süngü tutmuş və süngüyə taxılan uşaq faciəvi şəkildə öldürülmüşdür. Qulaq Həsənin zövcəsi Əminə ilə Mövlüdənin və 8 yaşındakı qızı Şükriyyənin namuslarına təcavüz etmişlər. İspila kəndindən Ələmdar oğlu Həsən, Dəli Balta oğlu Həsən, Əyyubzadə Məhməd, Hacı Əhməd oğlu Osmanı və Həsən ağanı süngülərlə öldürmüşlər. Bunlardan Həsən ağanın əllərini, qollarını kəsərək özünü canlı olduğu halda atəşə atıb yandırmışlar. Əyyub oğlu Mustafanın da çox azyaşlı qızının namusunu kirlətdikdən sonra vəhşicəsinə şəhid etmişlər.

Ermənilər rusların bu bölgəni istilası zamanında qaça bilməyən polis məmurlarından Həsən bəy ilə keçmiş polislərdən Aldıqaçdızadə Hikmət bəyi misli görünməmiş zülm və işgəncəyə məruz buraxdıqdan sonra asaraq edam etmişlər.

Bu gün Giresun şəhərinin bir qəsəbəsi olan Şəbinqarahisar imperatorluq zamanında Şərqi Qarahisar adı ilə tanınan bir bayraqdar sayılırdı. 40-50 nəfərlik bir erməni çətəsi üzərini silah və bomba'larla təmin edib, yanlarına 4-5 aya yetəcək qədər yemək-içmək alaraq bu Şərqi Qarahisarın yanındakı Qarahisar qalasına girdilər. Bu qala yüksəklikdə olduğuna görə qəsəbəni yuxardan aşağı görmək mümkün idi. Erməni çətəsi bu qalaya yerləşməzdən əvvəl teleqraf tellərini kəsmişdi. Ermənilər türk bölgələri ilə əlaqəsi kəsilən bu qəsəbəyə güllə və bombalar yağdırırdılar. Vuruşmalar uzun müddət davam etmişdir. Qalaya

yaxınlaşmaq istəyən müsəlmanlar və jandarmalar asanlıqla öldürülürdülər.

Nəhayət, bu vuruşmadan xəbər tutan əsgəri birliklər qalanı mühasirəyə aldılar və erməni bandit sürüsünü təslim olmağa çağırdılar. Ermənilər bu çağırışa silahla qarşılıq verdilər. Beləcə, bir neçə gün atışmalar davam etdi. Qaladakılar təslim olmaq məcburiyyətində qalmışlarsa da bir çoxu fürsət tapıb qaça bilmişdir. Bu hadisədə yanğınların səbəb olduğu milyonlarca liralıq zərərdən başqa, 2 zabit, 84 əsgər şəhid olmuş, 140-a yaxın əsgər də yaralanmışdır.

Qalanın ələ keçirilməsilə aparılan araşdırmalarda ortaya çıxan 4 metrə ölçüdə 80-90 sm dərinliyindəki bir anbarda un, buğda, çörək, yağ, yorğan və müdafiəyə əlverişli siperlərin düzəldilmiş olması erməni qruplaşmasının uzun tədqiqatdan sonra buranı özlərinə istehkam yeri olaraq seçdiyi ortaya çıxmışdır. (296).

Ermənilərin Osmanlı dövlətinə qarşı əvvəldən hazırladıqları planın bir parçası olan bu hadisə türk millətinin müdafiəsi və daxili hüzuru baxımından erməni çətələrinin bu bölgələrdən çıxarılmasını zəruri qılmışdır. Ermənilərin belə hazırlıq görüb türklərə qarşı döyüşmələri, alınmış qərarın nə qədər doğru olduğunu göstərmişdir.

## QAZİANTEPİN MÜDAFİƏSİ

Qaziantepin əvvəl ingilislər, sonra da fransızlar tərəfindən işğalı zamanı şəhərdəki ermənilər işğalçılarla əməkdaşlıq edərək illərcə iç-içə yaşadıqları türk millətini arxadan vurmuş, müdafiəsiz, məsum insanlara qarşı qətliamlar törətmişlər. Qaziantepin 11 ay davam edən müdafiəsi zamanı ermənilərin törətdikləri türk millətinin tarixindən əsla silinməyəcək acı xatirələrdir.

Qaziantepin işğalından sonra ingilislər türklərin əllərində olan silahları toplayaraq öz anbarlarına daşıdılar.

Ermani kollecinin müdiri Mr.Weril ingilis işğal komandanlığına müraciat edarak türklarin elinda daha 26 min silahın olduğunu xabar verdi. Weril bu satqınlığıyla türklarin silahlarının ancaq dordda birini verdiklarini soylayirdi. (297)

İngilislar yeni bir elan yayımladılar. Bu elan ila naticə alına bilmayinca Qaziantepin liderlarini, ziyalılarını Halepe sürgün etdilar. Küçalara avtomat silahlı asgarlar yerlaşdirildi, türklarin evlari bir-bir arandı, ermanilara isa heç toxunulmadı. Belaca, ingilislar türklari silahsız ermanilari isa silahlı hala gatirmiş oldular.

Somon adında bir ermani ingilis işğal komandanlığına müraciatla Qaziantepin 30 km qarbindaki Levhan kandinda silah gizladildiyini xabar verdi. İngilislar bir zabit bolumu ila kandi basdılar. Silahları topladılar. Ermani tarcumeçilari Adro Leonyan ila birlikda, başda muxtar Hasan va Əlişan ağa olmaqla bir çox kandlilerin başlarını uzunboğaz çakmalari altında azdilar.

İngilislar ermanilarin getdikca artan söyüş va azğınlıqlarını taşviq edirdilar. Aralarındakı müqavilaya gora, 1919-cu ilda Qaziantep fransızların işğalına tark edildi. Qaziantepin fransızlar tarafindan işğalı fransız işğal birliyi komandanının 5 noyabr 1919-cu il cüma günü Agyol polis idarasi qarşısındakı türk bayrağını endirib yerina fransız bayrağı çakmasi ila rasman başladı.

Fransız birliklarinda ermani könüllülari yer almışdılar. Bu könüllular fransız birliklarinin yarısından çoxunu taşkil edirdilar. Bir başqa deyişla, ermanilarla fransızlar türklara qarşı al-ala vermişdilar.

Türklara qarşı insanlıq tarixinda görünmayan zulm va qatliamlar başladı. Yerli ermanilar türklara rast galdiklari yerda haqarat edirdilar. 10 noyabr günü fransız birliklarindaki ermanilar bir türk qadınına hücum edarak namusuna tacavüz etdilar. Bu arada türk polisi da tahdid edildi. Türkiya dovlati meydana galan hadisalara qarşı çıxdısa da, heç bir naticə ala bilmadi.

12 yanvar 1920-ci il tarixinda iki top va çox sayda avtomat silahlarla tachiz olunmuş, yarısı ermanilardan mütaşakkil 400 nafarlik piyada ordusu va 50 nafarlik zabitlar birliyi axşamçağı

Maraşa doğru yola çıxdılar. Qaziantep yaxınlarındakı Arabdar kəndinə çatdıqda kəndlilərə işgəncə və zülm edərək soyuq qış havasında qadın və uşaqları evlərindən çölə atdılar. Bunlar qarlı və palçıqlı bir gecədə ətrafdakı kəndlərə sığındılar.

Yarısını ermənilərin təşkil etdiyi birlik evləri yandırıb talan etdi. Bəzi qadınların namusuna təcavüz edildi. Ətraf kəndlərə gedən bu xəbər üzərinə türklər Bıyna oğlu Məmik və Yamaçobanlı Dədə ağanın başçılığında Arabdar kəndini sardılar. Fransız və erməni banditlərindən çoxu öldürüldü. Qalanları ətrafdakı meşələrə qaçdılarsa da, fransız birliyi tamamən yox edildi. Hadisəni dəhşətlər içərisində öyrənən fransız birliklərinin komandanı təlaş içərisində qaçıb dövlətə şikayət etdi.

Bu, qaziantepliləri fransızlara qarşı ilk silahlanması idi. Vəziyyəti öyrənən yerli ermənilər türk məhəllələrinə atəş açdılar. Bu vəziyyət axşama qədər davam etdi.

1 aprel 1920-ci ildə qaziantepllilər fransızlara qarşı müdafiə təşkilatı qurmağa başladıqda ermənilər bu hərəkata qarşı çıxaraq rast gəldikləri türkü güllələyirdilər. Fransızlarla türklər arasındakı ilk küçə döyüşü 3 aprel 1920-ci ildə cümə günü baş verdi.

Bu arada, Kılıç Əli bəy ermənilərin fransızlarla birlik yaradaraq düşmən vəziyyətinə keçmələrinin qarşısını almaq üçün çox çalışdısa da, ermənilər, "Ya Ermenistan, ya ölüm!.."- deyərək bağırmağa davam edirdilər. O günkü çatışmalarda 3 türk öldürüldü.

Ertəsi gün Kılıç Əli bəy, jandarma bölük komandanı, komissar müavini və daha bir neçə adamdan meydana gələn bir heyətlə Mardin qız məktəbinə gedərək, Erməni Millət Məclisi üzvlərindən Dr.Şiprel, Mr.Mervill və əlaqəli insanlarla görüşdülər. Ermənilər bitərəf qalacaqlarına söz verdilər. Ancaq bu bitərəflilik sözü iyirmi dəqiqə belə davam etmədi. Ermənilər türklərin göstərdiyi bu böyüklüyü zəiflik zənn etmişdilər.

Fransızlarla ermənilər 7 aprel 1920-ci ildə türklərə qarşı şiddətli hücuma keçdilər. Türklər siperlərin (qum torbaları ilə siperlər qurulmuşdu) arxasına yerləşdiklərinə görə hücumu asanlıqla qıra bildilər.

Ermənilər fransızlarla birlikdə Çinarlı bölgəsinin qərb və cənubuna yerləşdilər. Düşmənin inadla hücum etməsi, xüsusilə 13-14 aprel 1920-ci il gecəsi ermənilərin Kozanlı, Balıqlı Suhurcu və Çinarlı bölgələrinə etdikləri hücumlar bir nəticə vermədi.

Qaziantep 15-16 aprel 1920-ci il gecəsi fransızlar tərəfindən tamamilə mühasirəyə alındı. Ermənilər bu kədərli gündə əvvəldən hazırladıqları Fransa bayraqlarını evlərinə asdılar, məhəllələrini bəzədilər, müsəlmanlara həqarətlər və söyüşlər yağdırdılar.

"Sevr müqaviləsi"nin dəyişikliyinə görə, 30 may 1920-ci il tarixində fransızlarla bir müqavilə imzalanmışdı. Bu müqaviləyə görə, cəbhələrdə top, tüfəng və bomba səsləri kəsilərkən ermənilər türk cəbhəsinə qarşı atəş açdılar və Xamırkəsən kəndindən olan Dədə oğlu Həmzəni yaraladılar.

Bu müqavilənin şərtlərinə görə, fransızlar erməni məhəlləsini, türk xəstəxanasını, Bəyazoğlunun otelini və Mardin yetimxanasını boşaltdırdılar.

Cəbhələrdəki səssizlik ermənilərin 1920-ci il 8 iyun günü Çinarlı məscidinin həyətində türklərə daş atmaları və atlarına söyüş söymələri ilə pozuldu.

30 may 1920-ci ildə bağlanan müqaviləyə görə türk birlikləri türk xəstəxanasını təslim almış, erməni məhəlləsi türk bölgəsində qalmışdı. Ermənilər cürbəcür yalanlarla türklərə sığındılar və fransızlardan gördükləri alçaldıcı hərəkətlərdən şikayət edərək türklərdən və türk idarəsindən bir daha ayrılmayacaqlarına, türk bayrağı altında qardaş kimi yaşayacaqlarına and içdilər.

Buna inanan türklər iki ay özlərinə güllə yağdıran ermənilərə yemək-içmək verdilər.

Uzun illər boyu erməni kilsələri, papazları, müəllimləri və komitəçiləri türk və müsəlman düşmənçiliyini bir din və məzhəb halına gətirmişdilər. Buna görə də onların türklərə pislik etmələri hər zaman gözlənə bilərdi.

Ermənilərin istəyilə türk və ermənilərdən mütəşəkkil bir inzibati dəstə qurulmuşdu və bu dəstə Qaziantepli Əli Cənani

bəyin erməni məhəlləsindəki evində qalırdı. Bu dəstə asayişi təmin etməklə vəzifəli idi.

Bu arada, ermənilərin türklərə qarşı çox hörmətlə davrandıqları gözdən qaçmırdı. Bu hörmətin ermənilərin yemək ehtiyaclarından əmələ gələ biləcəyi heç kəsin ağlına gəlməzdi.

Bir gün türklərin "İldırım" birliyi erməni komitə başçılarından Adro Leonyan, Ohannes Kaləmkar, Fıstıkçıyan və dostları şərəfinə bir ziyafət verdi. Hər iki cəmiyyətin bundan sonra qardaş kimi bir arada yaşayacaqlarına dair nitqlər söyləndi. Bir neçə gün sonra da ermənilər "İldırım" birliyinin zabitləri şərəfinə bir ziyafət verdilər.

Erməni məhəlləsində yerləşən və türk məhəlləsinə yaxın olan İbn Əyyub Camisi türklərin ixtiyarına verilmişdi. Türklər bu camidə 30 nəfərlik bir əsgəri birlik yerləşdirmək niyyətində idilər. 1920-ci il 23 iyul günü türklərin "İldırım" birliyi camini təslim almaq üçün gəldiklərində ermənilər silahla qarşılıq verib türk əsgərlərini camiyə buraxmadılar. "İldırım" birliyinin birinci və dördüncü bölmələri çox soyuqqanlı davranaraq atəş açmadıqca ermənilər atəş açmağa cəsarət etmədilər.

Müqavilə müddəti sona çatan kimi ermənilər təkrar silaha sarılıb qurduqları səngərlərə yerləşdilər, türkləri məhəllələrinə buraxmaq bir yana dursun, yaralıların xəstəxanaya aparılmalarına belə mane oldular. Beləcə, ermənilərin iç üzü ortaya çıxmış, türklərlə əvvəlki kimi düşmən halına gəlmişdilər.

Fransızlar 1920-ci il 10 avqust günü Samsun təpəsini işğal edib türklərə minlərcə mərmi yağdırdılar. Türk birlikləri olduqca böyük itki verdilər. Bu birliklər güclü top atəşi altında geri çəkilmək məcburiyyətində qaldılar. Yaranmış vəziyyət erməniləri azdırdı. Dördüncü bölmə Mardin yetimxanasından çəkildikdə oralar ermənilərlə fransızlara qaldı.

Digər tərəfdən Sarı xəstəxanasındakı üçüncü bölmə ilə Boyazoğlu otelindəki birinci bölmənin də iki düşmənin atəşi altında qalmasıyla üzərinə onların da geri çəkilməsi uyğun görüldü. Ermənilər bunu fürsət bilərək fransızlarla birlikdə fransız bayrağı çəkərək türklərlə savaşa başladılar. Fransızların türklə-

ra "Təslim ol" çağırışı ilə bərabər, ermənilər də türklərin qeyd-şərtsiz təslim olmalarını istədilər.

İkiüzlü ermənilərin bu istəyi Qaziantep mücahidlərinə yeni bir güc vermişdi. Onlar türk bayrağını 1920-ci il 13 avqust günü qüllələrə tutaraq fransızlara və erməni çətələrinə qarşı ciddi hazırlıq görməyə başladılar.

Türklərin silaha böyük ehtiyacları vardı. Onlar jandarma anbarından xarab silahları təmir etdilər və 100 nəfərə yaxın silahlı bir dəstə təşkil edib erməni məhəlləsinə hücum etdilər. Ermənilər fransızlarla birlikdə mücahidlərə qarşı atəş quşmağa başladılar. Mücahidlər Çinarlı təpəsinə çəkildilər.

1920-ci il 5 oktyabr günü ermənilər ağır bir bombardımandan sonra fransızlarla birlikdə Çinarlı təpəsinə hücum etdilər. Qartal bəyin seçilmiş serjant və onbaşılarının idarəsindəki birliklər və mücahidlər dəstəsi düşmənin arxasında çox sayda ölü və yaralı buraxaraq geri çəkilməsini təmin etdilər.

Fransızlar və ermənilər 1920-ci il 16 oktyabr günü Çinarlı təpəsinə yenidən hücum etməyə başladılar. Erməni və Fransa birliyi "Hamam damı" deyilən yerdən siperlərə doğru irəliləyərkən Çavuş İbrahim və dostları son saniyyələrədək səssiz qaldılar. Düşmən atəş xəttinə girdikdə bir anda onların iyirmisini yerə sərdilər. Serjant İbrahimin bir az arxasındakı Mahmud xocanın istifadə etdiyi İldırım Yusuf adlı avtomat silah düşməni darmadağın etmişdi. Bu döyüşdə əsgərlərə mərmi və su daşıyan bir türk qadını kişilərlə birlikdə düşmənə qarşı döyüşdə qəhrəmanlıq dastanı yazmışdır.

1920-ci il 23 dekabrda fransızlar Musullu cəbhəsindən Qaziantepi top atışına tutdular. Onlar şəhəri yenidən bombalayaraq xarabalığa çevirdilər. O zaman mücahidlər geri çəkilmək məcburiyyətində qalmış, yerlərinə bir erməni, bir də fransız birlikləri girmişdilər. Bu vəziyyət türkə çox acı gəldi. Onlar geri dönüb ani bir hücuma, süngü hücumuna başladıqda düşmən süursuzca oraбura qaçırdısa da, türk süngüsü altında can verirdi.

25 yanvar 1921-ci ildə Qaziantep Şanlı Türk ordusu tərəfindən qurtarıldıqda ermənilər də fransızların ardına qoşularaq

Suriyaya qaçdılar. Beləliklə Qaziantep acgöz düşmən əlindən qurtarılmış oldu.

Bu mövzunu qiymətləndirən Arnold J.Toynbee belə deyir: "Fransızlar ordunun yükünü azaltmaq üçün Kilikiyada qurduqları Şərqi Harbi təşkilatına erməni könüllülərini qatmaqla məsuliyyətsiz bir siyasət izləmişlər. Onlar ermənilərin başı xarab çətələr əmələ gətirib silahlanmalarına şərait yaratmışlar. Beləcə, fransızlar ermənilərin 1915-ci ildəki başqa türklərlə yaranan acı hadisələrin əvəzini digər məsum türklərdən almalarını təmin etmişdilər. Bu intiqam alma duyğularını əvvəl təşviq edən, sonra da bu acı hadisələrə seyirici qalan fransızlar ermənilərdən daha çox günahkardırlar" (298).

## MONDROS SÜLH MÜQAVİLƏSİ

Cənubda fransızların dəstəyilə qırğın törədən ermənilər Şərqdə də ingilislərin dəstəyinə güvənərək Qızıl çaya qədər uzanan bölgədə bir Ermənistan dövləti qura bilmək üçün türkləri qırmağa başladılar. İrəvan bölgəsində toplanan çox sayda erməni İngiltərədən dəstək və güc alaraq birlik və çətələr halında qətliam və qarət cinayətləri törədə-törədə Ərzuruma qədər gəldilər. Amma ingilislər təhrik etdikləri erməniləri üzüstə buraxıb Amerikaya müraciət edərək bu ermənilərin geri dönüşünün təmin edilməsini istədilər. Lord George vəziyyəti Amerika generalı Harborda xəbər verdisə da, bunun maliyyətinin yüksək olacağını açıqlayan general bu hadisəyə qarışmadı.

Osmanlı dövləti Vilsonun ümumi sülh prinsiplərinə inanaraq, digər bəzi dövlətlər kimi müttəfiq dövlətlərə sülh təklif etdi və 30 oktyabr 1918-ci ildə "Mondros sülh müqaviləsi" imzalandı. Vilsonun sülh prinsiplərinin Osmanlı dövlətinə aid 12-ci maddəsi belə idi:

"Türklərə aid olan kəsimdən Osmanlı dövlətinin hakimiyyəti altında olan digər xalqların da həyatlarından əmin olaraq müstəqil bir üsulla inkişaf etmələri təminat altına alın-

malı və Çanaqqala bütün millətlərin ticarət gəmilərinə açıq olmalıdır."

Ermənilərə və Ermənistana aid maddələr bunlar idi:

**Maddə 4.** Müttəfiqlərin əsirləri, bütün erməni əsirləri İstanbulda toplanaraq qeyd-şərtsiz müttəfiqlərə təslim olunacaqlar.

**Maddə 11.** İranın şimalı-qərbində və Qafqazda olan türk qüvvələri geri çəkiləcəklər.

**Maddə 24.** Ermənistanın bir bölgəsində qarışıqlıq olduğunda müttəfiqlər bu bölgənin bir qismini işğal etməyə ixtiyar sahibidirlər."

Daha əvvəl İstanbula gələn erməni heyəti Qafqaza döndü. Onların arasından Axaronyan sülh konfransında hazır olmaq üçün bir fransız zirehlisi ilə Parisə tərəf hərəkət etdi.

Rəsmi ağızlardan "800 000 erməni öldürüldü" deyilən, ancaq heç bir rəsmi qeydlərə əsaslanmayan, sadəcə Osmanlı dövlətinin idarə və hökumətini tənqid edib qaralamaq üçün ifadə edilən bu rəqəm sulh konfransında Osmanlı dövlətinin əleyhində istifadə edilmişdir.

Müttəfiq dövlətlər ABŞ Prezidenti Vilsona Ermənistan mandatını qəbul etməsini və erməni – Osmanlı sərhəddini cızmasını təklif etmişdilər. Amerika dələtinin rəhbəri mandatı qəbul etməmiş, fəqət sərhəddi cızmışdı.

Mondros mütarikəsindən sonra ümumi müharibənin qaydalarına uyaraq, Osmanlı-rus sərhəddinin xaricində qalan müsəlmanlar qorumasız qalınca, ermənilər yenə qırğına başladılar. Müsəlmanlara qarşı törədilən qırğınlar isə Avropa və Amerika mətbuatında ermənilərə təzyiq olunduğu kimi təbliğ edildi.

Qaçdıqları, gizləndikləri yerlərdən dönən erməni komitəçilərinin türklərin milli şərəf və ləyaqətlərini yaralayan hərəkətləri, xüsusilə də erməni birliklərinin və çətələrinin ingilislərin yardımıyla şərq bölgələrində törətdikləri qeyri-insani qırğınlar və qətliamlar həddi aşmış, faciəvi bir hal almışdı.

13 aprel 1919-cu ildə Qars Milli Şura hökuməti ingilislər tərəfindən zəbt edilərək hökumət təmsilçiləri Malatiyaya sürgün

edildilər. 16 aprel 1919-cu ildə daşnak ermənilərindən general Karqanov Qars hökumətinə bir vali olaraq təyin edildi. Beləcə, 23 aprel 1919-cu ildən başlayaraq müsəlmanlara işgəncə verməyə davam edildi. Milli Şuradan qovulan təxminən 100 əsgər toplanaraq öldürüldü. Milli Şuranın qurucularından 17 nəfərin evləri və əşyaları əllərindən alındı. Çörəkçi Məhməd oğlu Həsənin 700 qızıl pulu ilə 2.000 lirası vali yardımçısı Çalquşyan tərəfindən qəsb edildi.

Paslı kəndindəm olan molla Məhməd "Türkiyə ilə bir xəbərləşmə edir." Nəticədə o, bu "iftirası" səbəbilə erməni qaniçənləri tərəfindən qalanın arxasına aparılır, başının sağ tərəfindən dərisi kəsilir, sonra böyürlərindən cib şəklində iki deşik açılır və iki qolu kəsilərək bu ciblərə soxulur. Bir din adamı beləcə işgəncə verilərək öldürülür. Buna vəhşilikdən başqa bir ad vermək mümkün deyildir.

Kazım Qarabəkir paşa ermənilərin bu cür hərəkətləri haqqında İstanbuldakı Müdafiə Nazirliyi ilə görüşür (299), bu erməni təşkilatları ilə əlaqəli Ermənistan Respublikasının Müdafiə Nazirliyinə məlumat verirdi. (300). Ancaq bu müraciətlər ermənilərin müsəlmanlara qarşı törətdikləri vəhşiliklərin qarşısını ala bilmirdi. Bununla yanaşı, Beynəlxalq qurtuluş müharibəsində Anadolu hərəkatına qatılan, Milli ordunu sonunadək dəstəkləyən və Anadoluya "Ladil" gəmisilə silah göndərən "La France" şirkətinin rəhbəri Şarl Kalçı Terziyan, Papazyanlar (iki qardaş), Karapet Xoqasyan və Bedeş kimi erməni yurdsevənlərini də unutmamaq lazımdır. (301).

Kazım Qarabəkir paşa 15-ci Artilleriya komandanı, general-mayor imzası ilə 20 mart 1920-ci il tarixində Ərzurumda Ermənistan Respublikası Müdafiə Nazirliyinə göndərdiyi məktubda ermənilərin törətdikləri işgəncə və qiyamdan bəhs edərək, yaranmış vəziyyəti bildirib məsələnin həllinə bir yol tapmalarını rica etmişdir. (302).

Bu arada, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan hökuməti də Ermənistan hökumətinə nota vermiş və ermənilərin törətdikləri qiyamdan bəhs edərək general Osepyana və Ermə-

nistan hökumətinə Xarici İşlər Naziri Xan-Xoyski imzası ilə xəbərdarlıq etmişdi (303).

Nəhayət, 10 avqust 1920-ci ildə "Sevr müqaviləsi" İstanbul hökuməti tərəfindən imzalandı.

Bu müqavilənin ermənilərə aid bəzi maddələri belədir:

**Maddə 88.** Türkiyə Osmanlı dövləti Ermənistanı müttəfiq dövlətlər kimi hürr və müstəqil bir dövlət olaraq tanıyacağını bildirir.

**Maddə 89.** Osmanlı dövləti ilə Ermənistan və müqaviləni imzalayan digər dövlətlər Ərzurum, Trabzon, Van və Bitlis vilayətlərində Osmanlı dövləti ilə Ermənistan arasındakı sərhəddin təyinini ABŞ Prezidentinin hakimliyinə buraxır...

**Maddə 92.** Ermənistanın Azərbaycan və Gürcüstan ilə olan sərhəddi əlaqəli dövlətlər tərəfindən anlaşaraq təyin ediləcəkdir. 89-cu maddədə açıqlanan qərar qəbul edildikdən sonra əlaqəli dövlətlər sərhədlərinin təsbitini bacara bilmədikləri təqdirdə bu sərhəd müttəfiq böyük dövlətlər tərəfindən təyin ediləcək və bunun ərazi üzərində tətbiqi özlərinə aid olacaqdır.

Əslində Osmanlı dövləti bu müqaviləni imzalamaqla, Türkiyənin edam hökmünü və məhv edilmə qərarını imzalamışdı. Fəqət ABŞ Prezidenti Vilsonun bu mövzuda qərar vermək üçün general Harbordu Anadoluya göndərməsi vəziyyəti dəyişdirmişdi. Çünki Ermənistan mandatı mövzusunun incələnməsi üçün 1 avqust 1919-cu ildə Anadoluya göndərilən Harbordun Şərqi Anadoluda və Qafqazda tədqiqatlar aparıb oktyabr ayında yurduna dönərək Vilsona təqdim etdiyi təsbitləri o vaxta qədər Vilsona təqdim edilən məlumatlardan olduqca fərqli idi. "Yola çıxarkən, həqiqətən, bir Ermənistan və qətliamlar görəcəyimizi zənn etmişdik" - deyən general Harbord heyətinin aparmış olduğu araşdırmalar nəticəsində bu bölgədə heç bir zaman və heç bir şəkildə erməni çoxluğunun olmadığına şahid olmuşdu. Harbordun rəhbərlik etdiyi heyət apardığı araşdırmalar nəticəsində türklərlə ermənilərin xarici ölkələrin təsiri olmadan yüzlərcə illər bir yerdə sülh və təhlükəsizlik içərisində yaşamış olmalarına inanmışdı. Bundan əlavə, general Harbordun rəhbərlik etdiyi

heyətin nümayəndələri türklərin ermənilərə qarşı hər hansı bir şəkildə soyqırım hazırlığında olmadıqlarını da öz gözləri ilə görmüşdülər. Türk birliklərinin Rusiya sərhəddində toplanmış olmalarına və Ərzurum ətrafında sivil xalqın ermənilərə qarşı hücuma hazırlanmaqda olduqlarına dair ən kiçik bir dəlilə rast-lanmadığı Vilsona verilən raportda qeyd edilmişdi. Əksinə, sərhəd bölgəsindəki türklərə sərhəddi aşmamaları üçün çox qəti əmrlər verilmiş olub, buna qarşılıq Türkiyəyə dönmək istəyən ermənilərin Türkiyə ermənisi olduqlarını isbat etmək şərtilə Türkiyəyə girişlərinin sərbəst buraxıldığı öyrənilmişdi. Heyət nümayəndələri Türkiyəyə geri dönən ermənilərin həyatlarının təhlükədə olduğunu düşündürəcək heç bir hadisə ilə qarşılaşmamışdılar. Ərzurumun başdan-başa türk memarlığının xüsusiyyətlərini daşıması, yüz illərdir buraya türklərin hakim olduqlarını isbat edərkən, qəbristanlıqların müsəlmanlara aid qisminin çoxluğu və Ərzurum Valisinin "Ərzurumun ölüsü də türk, dirisi də"- deməsi çoxluğun kimdə olduğuna heç bir şübhə yeri buraxmamışdır. Heyət nümayəndələrində türklərin ermənilər tərəfindən çox pis davranışlara məruz qaldıqları inamı da qətiləşmişdi. Ermənilərin birlikdə yaşadıqları xalqa özlərini sevdirmədiklərini qeyd edən Harbord buralarda keçmişdən bəri yaşamaqda olan ermənilərin vəziyyətinin, zənn edildiyinin əksinə, pis olmadığını, hətta mülklərindən, yoxluqlarında belə kirayə pulu aldıqlarını bildirmişdi. (304).

1920-ci ilin may ayında Ermənistanda bolşevik hərəkatı baş verdi və parlamentar hökuməti devrilərək diktatorluq idarəsi quruldu.

Şərqdəki erməni təzyiqi getdikcə artırdı. Buna görə 9 iyun 1920-ci ildə Türkiyənin Şərq bölgələrində müvəqqəti səfərbərlik elan edildi. Şərq cəbhəsinin komandanlığına Kazım Qarabəkir gətirilmişdi. Bu arada, ermənilər Oltuda qurulmuş yeni türk idarəçilərinə qarşı hücuma keçdilər. 7 iyul 1920-ci ildə Türkiyənin Xarici İşlər Nazirliyinin verdiyi xəbərdarlıqla əks hücuma keçildi. Səfərbərlik elanından 3,5 ay sonra Kötek və Bardız bölgələrində gedən şiddətli döyüşlər nəticəsində bu

bölgələr geri alındı. Hücumunu gücləndirən türk birlikləri 29 sentyabrda Sarıqamışı, 30 sentyabrda isə Mendərəki ələ keçirdi. 30 oktyabr ayında Qars, 7 noyabrda Arpaçaydan Gümruyədək olan bölgə türk orduları tərəfindən zəbt edildi.

Yaranmış vəziyyəti görən ermənilər atəşi kəsərək sülhün bağlanması üçün türk ordusunun rəhbərlərinə müraciət etdilər. Ermənilərin müraciətini qəbul edən türk tərəfi 8 noyabrda öz şərtlərini ermənilərə bildirdi. Parisdəki erməni təşkilatı digər dövlətlərin iştirakını istədilərsə də, onların bu təşəbbüsləri bir nəticə vermədi və erməni tərəfdarları olan xarici dövlətlər bu müqavilənin imzalanmasında iştirak edə bilmədilər. Ermənilər türk tərəfinin tələblərini qəbul etmək məcburiyyətində qaldılar və 2-3 dekabr gecəsi "Gümrü müqaviləsi" imzalandı.

*Bu müqavilənin imzalanmasında Türkiyə dövlətini Şərq* cəbhəsinin komandanı Kazım Qarabəkir paşa, Ərzurum Valisi Həmid bəy, Ərzurum Millət Vəkili Süleyman Nəcati bəy, Ermənistan tərəfini isə keçmiş Baş Nazir Aleksandr Hadisyan, Maliyyə Naziri Avram Külhəndanyan, Daxili İşlər Naziri Stepan Qurqanyan təmsil etmişlər.

"Gümrü müqaviləsi" 18 maddədən ibarətdir. Bu müqavilənin önəmli maddələri qısaca olaraq belədir:

**Maddə 1.** Türkiyə ilə Ermənistan Respublikası arasındakı müharibə vəziyyətinə son verilmişdir.

**Maddə 2.** Türkiyə ilə Ermənistan arasındakı sərhəd Araz çayı, Arpaçayı, Qaracan dərəsi, Tiknisin və Qımlının şərqi, Qızıldaş və Böyük Ağbaba dağı ilə müəyyən edilir...

**Maddə 3.** Yuxarıdakı maddədə gətirilən və hüquqi, tarixi və sosyal baxımından Türkiyənin üstünlüyünün ayırd edilmədiyi ərazilərə Osmanlı hökuməti zamanında köçən ermənilər istəsələr üç il müddətində geri dönə bilərlər...

**Maddə 4.** İmperialist dövlətlərin təsir və təhrik etməsinə imkan verməmək şərtilə, Ermənistan Respublikası, daxili təhlükəsizlik və intizamı qorumaq məqsədilə sərhədlərində müəyyən nisbətdə jandarma quvvələri yerləşdirə biləcəkdir.

**Maddə 5.** Bu vəziyyətdən Yerevandakı türk təmsilçilərinin hər zaman xəbəri olacaqdır.

**Maddə 6.** Müharibə zamanı düşmən ordularına qatılaraq, Osmanlı hökumətinə qarşı silahlanıb işğal təşəbbüsündə olanlardan başqa köçərilərin keçmiş yurdlarına dönərək ən mədəni ölkələrdəki azlıqlar kimi bütün hüquqi haqlardan faydalanmaları təminat altına alınır. Fəqət bu insanlar bu dönüşü bir il ərzində həyata keçirməzlərsə, heç bir şikayətə haqları yoxdur.

**Maddə 10.** Ermənistan hökuməti Türkiyə Böyük Millət Məclisinin qətiyyətlə qəbul etmədiyi "Sevr müqaviləsi"ni bütünlüklə yox saydığını elan edir.

**Maddə 14.** Ermənistan Respublikası hər hansı bir dövlətlə bağlanmış, lakin Türkiyənin faydalarına zidd olan bütün müqavilələri yox sayar. (305).

Hadisyan "Gümrü müqaviləsi"nin imzalanmasını kədər içərisində belə açıqlamışdır: "1920-ci ildə baş verən bütün rəzalətlərə daşnaksutyun komitəsi səbəb olmuşdur. Ətrafımızda olan dövlətlər də Ermənistanı tərk edincə Türkiyə bundan faydalandı..." (306).

Ermənistan Respublikasının müstəqilliyini qaldırıb Sovet İttifaqı Respublikalarından birinin vəziyyətinə gətirilincə, 16 mart 1921-ci ildə Türkiyə Böyük Millət Məclisi və SSRİ arasında bağlanan müqavilə ilə "Gümrü müqaviləsi" sağlamlaşdırıldı, Qars və ətrafı Türkiyə sərhədləri içərisinə alındı. (307).

13 oktyabr 1921-ci ildə yenə SSRİ ilə "Qars müqaviləsi" imzalandı. Bu müqavilə ilə 29 aydan bəri davam edən şərq cəbhəsindəki müharibə hər şeyi ilə sona çatdı.

## LOZANN KONFRANSI

20 noyabr 1922-ci ildə başlayan və 24 iyul 1923-cü ildə imzalanan Lozann Sülh Konfransında, əslində yalnız bir sülh müqaviləsi deyil, türklərlə millətlərarası sistemə hakim qüvvələr arasında böyük bir hesablaşma aparılmışdır. (308). Osmanlı

dövlətinin XIX və XX yüzillərdən qalan nə qədər məsələsi vardısa, hamısı konfrans masasına yatırılmağa çalışıldı. Tərəflər çox ciddi çıbanlaşmalı mübahisələrə baxmayaraq, qalıcı bir sülh müqaviləsinin imzalanacağına inanırdılar. Əsasən erməni məsələsinin əmələ gətirdiyi bu ixtilaflar seriyası Türkiyə ilə böyük güclər arasında saziş metodu ilə həll edildi. Bu sülh müqaviləsi 1923-cü ildən günümüzədək öz gücünü qoruya bilən, həqiqi mənada yeganə sülh müqaviləsidir. (309).

Erməni heyətinin nümayəndəsi A.Hadisyanın bildirdiyinə görə, "Ermənilər konfransdan əvvəl İngiltərə, Fransa, İtaliya, Yuqoslaviya və Yunanıstana müraciət edərək görüşmüşdülər, hətta ermənilərə dostluq göstərən bütün millətlər hərəkətə gətirilmişdilər..." (310).

Ermənilərin Türkiyə dövlətinə qarşı olan tələbləri:

1. Türkiyədəki azlıqlara dil, din və digər mövzularda bəzi haqların tanınması və bu haqların Millətlər Təşkilatı tərəfindən qorunması.

2. Xristianların əsgərlik çəkməmələri, buna qarşılıq bir "bədəl" ödəmələri.

3. Məzhəb imtiyazlarının qorunması.

4. Ümumi əfv çıxarılması.

5. Keçiş hürriyyətinin təmin olunması.

6. Yerlərindən çıxmış olan ermənilərin çıxdıqları yerlərə cəm halında dönmələrinin təmin olunması.

7. Ermənilərə Şərq vilayətlərində və Kilikiyada bir yurd verilməsi.

Lozann Sülh Konfransı ilk iclasdan başlayaraq Ankara ilə London arasında bir duel şəklini almışdı. Əslində İngiltərə üçün də Ankara ilə bir an əvvəl razılığa gəlməkdən başqa bir çarə yox idi. Çünki Anadolu hərəkatı müstəqilliyini öz milli iradəsi ilə əldə etmişdi.

Bu konfransın məqsədlərindən biri azlıqlar probleminə bir həll yolu tapmaq idi. A.Hadisyanın təşəbbüsləri ilə "Gümrü müqaviləsi"nə qarşı çıxılaraq Türkiyə Ermənistanı problemi konfransın gündəliyinə gətirilmək istəndi. B.Yeram ilə Gümüş

gerlərin təmsil etdikləri Birləşmiş Erməni Təşkilatı ilə Karo Basdırmacıyan və dövlət hüquq mütəxəssisi rus A Mandelsonun təmsil etdikləri Erməni Respublikası Təşkilatı Fransa ilə İngiltərənin Xarici İşlər Nazirliyinə müraciət etdi və 31 noyabr 1922-ci ildə İngiltərə Xarici İşlər Naziri Lord Qurzonun təmsilçisi, Xarici İşlərin Şərq bölümünün, xüsusilə türk-erməni işlərinin məsul işçisi Vankıdart və katib Akporn ilə görüşərək Lozann konfransında "Sevr müqaviləsi"nin isnfadəsini istədilər. Bunlar konfransın məqsədinin boğazlar problemi olduğunu, razılığa gələn dövlətlərin Türkiyəyə pul və silah yardımı etdiklərini, artıq hər kəsin müharibədən bezmiş olduğunu, Türkiyə ilə siyasi və iqtisadi müqavilələri pozmaq bahasına erməni problemini gündəliyə gətirəcəklərini zənn etmədiklərini söylədilər.

Erməni probleminin gündəliyə gətirilməsi üçün Fransaya müraciət edən erməni quruluşları Londonda aldıqları cavaba bənzər bir cavab aldılar. Fransanın Şərq işləri ilə məşğul olanlar da Norandukyana Franklin Bouillonun onlara "Əvvəl Türkiyə ilə qeyd-şərtsiz sülh bağlanılması, sonra bunların dostluğunun təmin edilməsi, sonra ancaq ermənilərin xüsusi istəklərinin bildirilməsini" uygun gördüklərini söylədilər.

Lozann konfransına Türkiyədən təmsilçi olaraq İsmət paşa (İnönü) göndərilmişdi.

12 dekabr 1922-ci ildə İngiltərənin təmsilçisi Lord Qurzonun təklifilə "azlıqlar problemi" gündəliyə alındı. (311)

İlk sözü Lord Qurzon aldı və: "Türkiyədəki azlıqlar problemi bütün dünya üçün maraqlıdır. Buna görə də bütün dünyanın gözü bu mövzuda veriləcək qərarın nəticəsi üçün Lozann konfransına çevrilmişdir. Anlaşanlar Türkiyə ilə müharibə etməyə başladıqları zaman məqsədlərinin biri də Anadoludakı azlıqların qorunması və mümkünsə onların xilas olunması idi. Ermənilərə hələ "Berlin müqaviləsi"ndə belə bir güvənc verilmişdi,"- dedi. (312)

Lord Qurzon bu girişdən sonra sözünə Türkiyədəki azlıqlardan kimlərin qorunmasının lazım olduğu mövzusuyla başladı. Ermənilər, rumlar, yəhudilər, keldanilər, nasturilər bunla-

rin arasında idilər. İngilis lordu Qurzon xüsusilə ermənilərin qorunmasında təkid edərkən "xristian azlıqlar" dedikdə elə həyəcan keçirirdi ki, İngiltərənin Xarici İşlər Naziri kimi deyil, Papanın yardımçısı vəz edirmiş kimi bir tövr, görünüş alırdı.

Çıxışının sonunda İngiltərənin baş təmsilçisi azlıqlar üçün üç əsas istək və tələb irəli sürdü:

1. Geniş həcmdə ümumi bir əfv.
2. Əsgərlikdən pul qarşılığında qurtarılma.
3. Sərbəst dolaşım.

Lord Qurzon: "Bunlar təmin edildikdən sonra Millətlər Təşkilatının davamlı nəzarəti altında tutulması üçün Türkiyədə bir nümayəndənin təmsil edilməsi lazımdır" – deyərək, sözlərinə davam etdi.

Lord Qurzondan sonra söz alan Fransanın təmsilçisi M. Barrere də azlıqların qorunmasını təmin etmək mövzusunda uzun-uzadı bir nitq söylədi. İtaliya təmsilçisi M Qarıonı da bu mövzuda çıxış etdikdən sonra çıxış etmək növbəsi İsmət paşaya gəldi. (313).

Türkiyə təmsilçisi İsmət paşa özü ilə gətirdiyi mətni oxumağa başladı. Azlıqlar və ayrıcalıqlar mövzusunda çox mənalı və əlaqəli bir şəkildə hazırlanmış olan bu mətn Türkiyədə azlıqlara tanınan haqq və təhlükəsizlik baxımından bitərəf düşüncələrlə dinləyənlərə yetdi. Bu azlıqlar mövzusunda türklər ittihamlarla o qədər üz-üzə qalmışdılar ki, bu mövzuda tarixi ortaya çıxarmaq zəruri hala gəlmişdi. Amma İsmət paşanın bu çıxışını öz təkliflərinə bir qarşılıq olmaqdan çox ümumi bir açıqlama olduğu kimi anlayan erməni, yunan tərəfdarı dövlətlərin nümayəndələri İsmət paşanı dinləməkdən sıxıldılar. Lakin İsmət paşa oxuduğu mətnə dərin məna verərək diqqətli və gur bir səslə oxumağa davam etdi. İsmət paşa üç saat davam edən bu çıxışın mətninin gecəyarısı Türkiyənin təmsilçilərinə bir gündəlik göndərən Lord Qurzon üçün də bir açıqlama olduğunu saydı.

O məşhur mətnin müdafiə etdiyi mövzu budur:

Türklər öz idarələrində olan azlıqlara qarşı geniş haqlar tanımış və yaxşı düşüncələrlə hərəkət etmişlər. Onlar ən güclü

olduqları zamanlarda belə müsəlman olmayanlara qarşı çox yaxşı davranmış və onların haqlarına hörmətlə yanaşmışlar.

İsmət paşanın oxuduğu mətn bu istəklərlə sona çatır:

1) Xarici təhriklərin kəsilməsi.

2) Türk-rum xalqlarının dəyişdirilməsi.

3) Digər azlıqlar haqqında türk siyasətinin verdiyi etibarnamənin yerinə yetirilməsi.

İsmət paşa öz çıxışını bitirdikdə Lord Qurzon söz aldı:

"Təmsilçilər indiyədək İsmət paşanı müvəffəq, xoş bir general və güclü bir diplomat kimi tanıyırdılar. Halbuki bu gün İsmət paşa özünün bir tarix professoru olduğunu da isbat etmişdir. O bizə Fatih Sultan II Məhmədin dönəmindən günümüzədək türk tarixi haqqında uzun bir konfrans verdi. Bu konfransın bir çox yerləri maraqlı olmaqla birlikdə, bütün mətnin bugünkü mövzu ilə bir əlaqəsi yoxdur. Təmsilçilər bir daha belə bir şey yazmaq istəsələr, onu oxumaq üçün dostlarına göndərmələri kifayət edər..."- dedi. (314).

İsmət paşanın oxuduğu mətn Lord Qurzonun bildirdiyi kimi, həqiqətən, əvvəldən hazırlanmış olub, konfransa qatılan erməni və yunan tərəfdarlarının sualarına bir cavab ola bilməzdi. Daha sonra Yunanıstan təmsilçisi Venizelosun rum azlıqları haqqındakı problemləri cavablandıran İsmət paşa çıxışını belə davam etdirdi:

"Türk milləti inkişaf etmiş mədəni dünyanın haqlarını azlıqlara tanıyır. Amma özünün müstəqilliyini təhlükə altında qoyacaq heç bir təklifi təsdiq etməz. Azlıqları qorumanın ən doğru yolu onları təkələyəcək əlaqələrlə təhrik etməmək, bu kimi əlaqələrdən qorumaqdır. Bunlar xaricdən gələn yaxınlığa istinad etməməlidirlər. Bax o zaman onların hamısı sülhdən sonra türk yurddaşları arasında yaşaya bilərlər.

Erməni problemini yaşayış vasitəsi və ya bir silah olaraq istifadə edən, xaricdə fəaliyyət göstərən komitəçilər aradan qalxarlarsa, iki tərəf də yaralarını sağalda bilərlər. Türkiyədə qalmaq istəyən ermənilər türk yurddaşları ilə qardaşca yaşayarlar. Ancaq türk torpaqları hər hansı bir erməni yurdu üçün parça-

lanmaz. Nə Şərq vilayətlərində, nə də Kilikiyada ana yurddan ayrılması mümkün olan bir yer yoxdur. Onsuzda bu gün Türkiyə müstəqil Ermənistan Respublikası ilə müqavilələr bağlamışdır. Başqa bir Ermənistanın qurulmasını Türkiyə tanımaz.

Azlıqların gedib-gəlmələri və mallarının qorunması isə Türkiyə Cümhuriyyəti qanunlarının həll edə biləcəyi bir işdir. Azlıqlar üçün nəzarət və ya təmsilçi göndərilməsinin Türkiyənin daxili işlərinə qarışma sayılacağına görə əsla təsdiq edilməz. Azlıqların qorunmasını Türkiyənin bütünlüyünə və müstəqilliyinə zərərverici bir səbəb olduğuna görə istifadə olunmasına yol verməərik."

İsmət paşanın bu qətiyyətli sözləri böyük diqqətlə dinlənildi. Bütün iştirakçılar Türkiyənin baş təmsilçisinin bu mövzu üzərində heç bir bazarlığa girişməyəcəyini onun hal və davranışlarından anladılar.

İsmət paşa: "Azlıqlar mövzusunda yaradılmış çətinliklərin xarici təhriklərdən ortaya çıxdığını və bu dürtülərin, xüsusilə Çar Rusiyasından gələn təbliğatlar nəticəsində olduğunu və bu təbliğatların bolşevik idarəsi zamanında da tamamilə kəsilmədiyini, ermənilərin keçmişdən bəri türk idarəsindən məmnun olduqlarını, iki millət arasında qardaşlıq duyğularının davamlı olduğunu, son zamanlarda ermənilərin uğradıqları dağılımın səbəblərinin rusların dəlicə davranışları və xaricin təhrikləri nəticəsində olduğunu söyləyərək sizdən soruşuram, bu tezis doğrudurmu? Nə üçün yüz minlərcə erməni bütün dünya üçün bir qalmaqal mövzusu oldu? Türklərin ermənilərə dostluq duyğuları göstərmələrindən mən xoşbəxtəm. Bütün dünyanın gözləri türklərə və ermənilərə tərəf çevrilsə də, ümumi dünya ictimaiyyətinin bu zavallı insanlara türk hökumətinin istədiyi ölçüdə dostluq duyğularının göstərilməsinə razı olduğunu zənn etmirəm,"- dedi.

Lord Qurzon isə azlıqlar mövzusunda bütün dünyanın türklərə düşmən olduğunu söylədikdən sonra sözlərinə belə davam etdi:

"Bu böyük ölkədə ermənilər üçün bir parça yer yoxdurmu?.. Biz burada böyük bir milləti təmsil edirik. Bu millətin və-

tandaşları arasında milyonlarca azlıqlar vardır. Biz Millətlər Təşkilatının qarışmasından qorxmuruq. Çünki əllərimiz təmizdir. İsmət paşa Türkiyənin Millətlər Təşkilatına hörmət bəslədiyini söylədi. Əgər onlar Millətlər Təşkilatına hörmət bəsləyirlərsə, onda bəs nə üçün bu cəmiyyətə üzv olmurlar? Artıq Millətlər Təşkilatı haqqında da türklərin davranış və düşüncələrini müəyyən etmənin zamanı gəlmişdir. Türklər Millətlər Təşkilatının üzvü olmaq, bu təşkilatın etibarından faydalanmaq istəmirlərmi? Anlaşıldığına görə, türklər azadlıq və müstəqilliklərindən qorxurlar. Türklərin müstəqillik və azadlığına hər kəs hörmət bəsləyir. Türklərdən ricam yenə inkişaf edə bilmək üçün sərbəst Türkiyənin bizimlə könül təmizliyi içərisində çalışmasıdır. Belə bir Türkiyə dünyanın hörmətinə layiq olar."

Qurzon azlıqların haqları haqqında millətin andının beşinci maddəsini oxuyaraq İsmət paşaya müraciətlə belə bir açıqlama verdi: "İndi İsmət paşa həzrətlərinə demək istəyirəm ki, mən bu gün çox əhəmiyyətli sözlər söylədim. Çünki istər bu mövzuda, istərsə də başqa mövzularda türklər bizim vəziyyətimizi, məqsədimizi anlamırlar. Bizim yalnız bir istəyimiz, bir məqsədimiz vardır. Bu məqsədə çatmaq üçün qarşımıza çıxan bütün əngəlləri aşmaq istəyirik. Amma türklər yeni əngəllər yaratmaq istəyirlər. Bu idarə sonunadək davam edə bilməz. Avropanın və bizim başqa işlərimiz vardır. Azlıqların məsələsi dünya mənfəətlərindən daha əhəmiyyətlidir. Bu konfransın çalışmalarını azlıqlar mövzusunun alacağı vəziyyət müəyyən edəcəkdir. Əgər türklər xoşgörülü olmayan davranışlarla konfransı kəsintiyə uğradıb Lozannı tərk edərlərsə, dünyada onların məsələsini müdafiə edəcək tək bir söz eşidilməz. Mən dostluq və hörmət duyğuları ilə düşüncələrimi söylədim. Mənim bu düşüncələrimi incələməyinizi rica edirəm. Siz düşüncələrinizi indimi, yoxsa günortadan sonramı açıqlayacaqsınız?" - deyə soruşdu.

İsmət paşa: "Sonra cavab verərəm," - dedi.

Lord Qurzon bu mövzu ilə maraqlanacaq bir komissiya daha quracağını və İsmət paşanı ondan əvvəl bir dəfə daha dinlə-

mək istədiyini sözlərinə əlavə etdi. Nəticədə, toplanacaq komissiyaya bir dəfə olmaq üzrə bütün baş təmsilçilərin getməsi və İsmət paşanın orada cavab verməsi qərara alındı.

Beləcə, toplantıda boğazlar probleminin ümidverici havasından sonra birdən-birə qarışıqlıq çıxmışdı.

Ertəsi gün İsmət paşa Türkiyənin Millətlər Təşkilatına girməmək kimi bir qərarının olmadığını, sülh müqaviləsi imzalandıqdan sonra Millətlər Təşkilatına girəcəklərini söylədikdə qızğın görünən Lord Qurzon yumşalacaqdı. İsmət paşanın çox mənalı çıxışından sonra heç kəs konfransın kəsilməsindən, ya da türklərin çətinlik çıxaracağından söz etməyəcək, hətta Lord Qurzonun sərt sözlərini, xristian dünyasına əsaslanan gücünü haqlı görənlər belə İsmət paşanın bu çıxışı nəticəsində ortaya çıxan sülh və müqavilə istiqamətlərini olduqca təbii görəcəkdilər.

Toplantı saat 11-də başladı. Lord Qurzonun hər bir sualına cavab verən İsmət paşa Qurzonun: "Biz Millətlər Təşkilatına giririk, çünki əllərimiz təmizdir," - sözlərinə qarşı, "Bizim əllərimiz xüsusilə təmizdir" - deyərək çıxışına başladı. Böyük təsir yaradan bu sözlər iclasda olan hər kəsə İsmət paşanın hörmətli bir insan olduğunu açıqladı.

Azlıqlar mövzusu gündəliyə gəldikdə İsmət paşa Lord Qurzonu hər zamankından fərqli bir dildən istifadə etdiyi üçün qınadı və azlıqların düşdükləri vəziyyətin yaradıcısının özlərinin olması nöqtəsində dirəndi. Bitərəf kitabların Türkiyədəki ermənilərin 1.290.000 - 1.500.000 olaraq göstərdiklərini anladaraq Qurzonun səhvini ortaya qoyan və sözlərini davam etdirən İsmət paşa (315): "Xalq dəyişmə təklifi əvvəl Doktor Nansen tərəfindən irəli sürülmüş, sonra da rəsmi olaraq Müsyö Venizelos və Lord Qurzondan gəlmişdi. Cənab Lord 'Türkiyə kimi böyük bir ölkədə ermənilər üçün bir parça yer yoxdurmu?' - deyə soruşdu. Ölkələri Türkiyədən çox böyük olan dövlətlər vardır. Həm də onlar bizdən yeni ayrılan torpaqlardan olduqca böyük yerlər əldə etmişlər. Türkiyə olaraq geri qalan ölkə heç bir zaman parçalana bilməz. Şərq vilayətlərimizdəki xalq öz yerlərini

heç kəsə verməz. Lord Qurzon əhəmiyyətli azlıqların yaşadıqları bir çox ölkələri olduğu üçün Millətlər Təşkilatından qorxmadıqlarından və əllərinin təmiz olduğundan bəhs etdi. Burada bir yanlış anlama olduğunu vurğulamaq istəyirəm: "Türkiyənin də Millətlər Təşkilatından qorxusu yoxdur," - deyərək, gözlərini Lord Qurzona çevirdi və sözlərinə hələ davam etdi: "Xaricin mediyası uzundan yıxılıb-dağıdılmış ölkəsində çalışan türkün əlləri xüsusilə təmizdir. Bu əllər heç bir zaman bir ölkəyə nə hücum, nə təzyiq etmiş, nə də onu yıxılıb-dağılmağa uğratmamışlar, qorxmadan digər əllərlə qarşılaşmağa dəyərlər və bu mənada haqlıdırlar."

İsmət paşanın bomba kimi partlayan bu sözləri olduqca ələqə və həyəcan yaratdı. Artıq bütün konfrans iştirakçıları Türkiyənin baş təmsilçisini daha yaxşı tanıyır və qarşılarında necə bir adamın olduğunu anlayırdılar.

Konfransın kəsiləcəyi qorxusunu yayanlara da İsmət paşanın cavabı bu oldu: "Əgər bu kəsimlərdən Türkiyə cavabdeh tutulmaq istənirsə, mövzu bu şəkildə ortaya qoyulmalıdır. Çünki Lord Qurzonun söylədiklərindən əvvəl azlıqlara haqq tanımağa biz özümüz səs vermişdik. Sonra Türkiyənin quruluşu heç bir çətinlik yaratmış deyildir. Konfransın kəsilməsi üçün azlıqlar mövzusunu uyğun bir səbəb olaraq istifadə etdilər və bu həqiqətlər öyrənilərsə, o zaman bizim ləhimizdə yüksələcək səs lordun zənn etdiyi kimi, yalnız Ankaranın səsi olmayacaqdır."

İsmət paşa sözlərini bu ifadələrlə bitirdi: "Bir daha söyləyirəm, Türkiyə sülh müqaviləsindən sonra Millətlər Təşkilatına girəcəkdir. Müsəlman olmayan azlıqlara isə ancaq Avropa dövlətlərinin təsdiq etdiyi təməl qaydalarda haqq tanıyacaqdır." (316).

İsmət paşanın nitqi nəticəsində konfransın havası yumuşalmış, təmsilçilər və razılıqda olan böyük dövlətlərin nümayəndələri paşaya təşəkkür edib, verdiyi etibarnaməni kifayət edici görərək sevinclərini bildirdilər və mövzunu ara komissiyaya göndərdilər.

Beləliklə, İngiltərə, Fransa, Rusiya təxminən 50 ildir Osmanlı dövlətinə qarşı üsyan etdirdikləri ermәniləri azad, müstəqil Ermənistan aldatmacası ilə imperialist məqsədləri namina istifadə etmiş, Anadoluda Mustafa Kamal paşanın rəhbərliyində bitən mübarizədən sonra onları üzüstə buraxaraq çəkilib getmək məcburiyyətində qalmışdılar. Bundan əlavə 50 ildir özlərinin mənfəətlərinə xidmət edən ermәniləri Lozann sülh görüşmələrinə belə almaq istəməmiş, ancaq üzüstə buraxmanın və uduzduqlarının əvəzini ödəyirlərmiş kimi "Azlıqlar problemi" başlığı altında özlərinin yaratdıqları erməni probleminə də mənasız tərzdə Türkiyə Cümhuriyyətinin bir həll yolu tapmasını istəyəcək qədər ifrata varmışlar.

Erməni məsələsini ələ almalarında nə qədər səmimi olduqlarını göstərmək baxımından İngiltərə nümayəndələrinin yazışmalarına baxmaq kifayət edəcəkdir. Konfransın ikinci dövrəsində Türkiyənin nümayəndələri azlıqların statusu mövzusunda Millətlər Təşkilatının standartlarına uyacaqlarını ifadə etdikdə İngiltərənin təmsilçisi Forbes Adam da bu şərtlər altında "torpaq baxımından erməni yurdunu və Türkiyədə erməni məsələsini gündəliyə salmanın tamamən lüzumsuz olduğunu" qəbul etmək məcburiyyətində qalmışdır. Bundan əlavə, Ser Xorace Rumbold: "Ermənistan Respublikasında başqa bir milli yurd və ya ermənilər üçün bir vətən torpağı təyin etmək praktik olaraq mümkün deyildir. Müqavilənin azlıqlarla əlaqəli ehtiva etdiyi hökmlər bütünlüklə faydalı və yetərlidir," – deyəcəkdir. Erməni milli nümayəndəliyinin rəhbərlərindən biri, bir zamanlar Osmanlı dövlətinin Xarici İşlər Naziri Qabriyel Norandukyan İngiltərə Xarici İşlər Nazirliyinə müraciət etdikdə ona verilən cavab diplomatik yazışmaların ola biləcəyi qədər sərt və qəti idi: "Cənabların bugünkü şərtlərdə bu məsələ üzərində çox dura bilməyəcəyini, müzakirələri təhlükəyə düşürə biləcəyi düşüncəsilə mümkün olmadığını və buna görə də indiki türk hökumətinin məqsədində dərhal və böyük bir dəyişiklik gözləmə ümidinin olmadığını bildirməklə mütəəssirdir." (317). Konfransın yenidən toplanmasından sonra müqavilədə ermə-

nilərin milli yurdundan bəhs edilmədiyi aydın olunca, millətlərarası erməni tərəfdarı birliyi qərara şiddətlə qarşı çıxaraq bunu "millətlərarası ədalətin iflası" kimi xarakterizə etdi. (318) Buna cavab olaraq Qurzon özündən sonra İngiltərə nümayəndəliyinə rəhbərlik edən M.F.Navillaya türklərin qəbul etdiyi mətnin xaricində bir qərarın konfransdakı İngiltərə nümayəndəliyinin vəzifə həcmini aşacağını, cavabdehliklərinin konfransa çağrılan dövlətlərlə Turkiyə arasında sulhü təmin edə bilmək olduğunu təkrarladı. Bundan əlavə Rumbold: "İngiltərə deleqasiyasının ermənilər üçün sərf etdiyi səy və əməllərin artıq bitdiyini... və sizi razı salacaq bir cavabı göndərə biləcək vəziyyətdə olmadığımı bildirməkdən səmimi olaraq təəssüf edirəm,"- deyə əlavə etdi. (319).

Yuxarıda qeyd olunanlardan ingilislərin erməni məsələsində "Kraldan artıq kral tərəfdarı" olmaqla konfransın gedişatını irəlidə görüləcəyi kimi, hüquqi təslim olmalar mövzusunda olduğuna bənzər bir daha təhlükəyə atmaq istəmədikləri anlaşılmaqdadır. İngiltərənin Lozanndakı nümayəndəliyinə bir mütəxəssis olaraq qatılan və Osmanlı Türkiyəsindəki Londonun son draqunu olan Ser Andrey Ryanın bu gün İngiltərə dövlət arxivində mühafizə edilən sənədi İngiltərənin bu mövzuya münasibətini aydınladacaq sənədləri ehtiva edir. Ryan xüsusi məktublarından birində belə yazmışdır: "Erməni milli yurdu mövzusunun konfransın hərdənsə ən böyük partlayışlarından birinə səbəb olmasına baxmayaraq, ciddi bir məsələ deyildi. Qorxuram, bu məsələ bir vitrin dekorasiyası olaraq ortaya atılmışdı. Bu məsələnin daxili də mağazalarda rəf-rəf gördüyümüz süd qabları qədər boşdu." (320).

Lord Qurzonun başda erməni milli yurdu olmaqla azlıqlar mövzusunu irəli sürməsi bir taktika məsələsi idi. Zorla köçürülməni gündəliyə gətirməklə türkləri dünya millətləri qarşısında rüsvay edəcəyini, utandıracağını zənn edirdi. Beləliklə Qurzon elə bilirdi ki, Ankara müdafiə olunmağa çalışacaq, o da onların bu geriləyən vəziyyətindən faydalanaraq istədiklərini diktə edəcəkdir. Bundan əlavə o, bu taktika ilə Moskva və An-

karanın arasının pozulmasını istəyirdi. Belə ki, Qurzon İsmət paşaya azlıqlar mövzusunda Millətlər Təşkilatının hökmlərini qəbul etdiyi və bu təşkilata üzv olduğu təqdirdə erməni məsələsini daha artıq qurcalamayacağını eyham etmişdi. Millətlər Təşkilatının imperialistlərin kollektiv bir təşkilatı olduğuna inanan Sovet İttifaqı Türkiyə kimi ideologiyası fərqli olsa belə, yaxın dostu olaraq gördüyü bir ölkənin bu təşkilata girməsini təbii olaraq xoş qarşılamayacaqdı. Qısacası, Qurzon İsmət paşaya erməni məsələsini unutma qarşılığında Millətlər Təşkilatına üzv olma alış-verişini təklif edirdi.

Deməк, Rusiya və ya bolşevik təhlükəsi İngiltərənin Lozannda erməni məsələsində mümkün olduğu qədər səssiz qalmasını təmin etmişdi. Özünə Türkiyədən erməni yurdu adı altında bir torpaq parçasını qopartmanın haqsız və uyğun olmadığını yazan Ryanaya Henderson İstanbuldan bu cavabı verirdi: "Doğrusu, mən Türkiyəni heç sevmirəm. Fəqət yenə bir nəticəverici siyasət əldə etmək üçün onlarla dost olmaq, onları istifadə etmək tərəfdarıyam. Ancaq bir küncə çəkilib: "Biz sizin şeytanlıqlar arxasınca qaçdığınızı bilirik və sizi durdurmağa çalışacağıq."- deyə bilmirəm. Mən üzügülər bir siyasətin tərəfdarıyam və türklərlə heç olmasa dost olmağa çalışacağam. Gec-tez belə bir siyasətin içərisinə düşəcəyimiz bir çuxuru qazmağa deyil, Britaniya imperatorluğuna böyük yardımlar edəcəyinə inanıram." (321).

İngiltərənin Xarici İşlər Nazirliyi artıq dinamikləşmiş bir Atatürk Türkiyəsinin ixtilalçı Sovet Rusiyasına qarşı erməni dövlətindən daha güclü bir tampon bölgə əmələ gətirəcəyinə inanırdı. Bu, çərçivə içərisində görünürdü. Başlarına nələrin gələcəyini anlayan erməni komitələri və bunlara bənzəyən diplomatik dərnəklər Qurzonu bir daha etirazlarla boğunca Xarici İşlər Naziri cavab yazısında diplomatik nəzakəti bir yana qoymaq məcburiyyətində qalmışdı. Lord Qurzon Williamın müraciətini eynilə belə qarşılamışdır: "Sizdən belə bir məktubun gəlməsi, həqiqətən, son dərəcə məyusedicidir. Çünki siz həqiqətləri ən az mənim qədər bildiyinizə baxmayaraq, İngiltərə hö-

kumətinin düşdüyü vəziyyəti anlamamaqda təkid edirsiniz. İngiltərəyə etibarə gəlincə, etimadınızı sarsıtmaq üçün İngiltərə nə etmişdir, deyə bilərsinizmi? Ermənilərin böyük qüvvələr arasında ən yaxşı dostlarının və ən davamlı dəstəkçilərinin krallar hökumətinin olduğunu bildiklərini zənn edirəm... Lakin siz bu ölkənin və ya hər hansı bir ölkənin Türkiyənin ləl̇əli bir bölgəsini seçib, oradakı digər bütün irqləri sahədə boşaldaraq ingilis süngülərinin ətrafında böyük miqdarda erməni mühacirlərilə doldurulmasına razı ola və beləliklə, ingilis vətəndaşlarından alınacaq vergilərlə orada bir erməni milli vahigini təşkilatlandıra bilməzsiniz. Bunu düşünmək belə, xamxəyaldır..." (322).

İngiltərənin ermənilərı dəstəkləməkdən vaz keçməsinin səbəblərindən biri də erməni komitəçilərinin Mondros mütarikəsindən sonra Şərqi Anadoluda törətdikləri qətliam qarşısında hiss etdikləri əsəb və narazılıqlar olmuşdur. Ermənilərin xüsusilə 1915-1920-ci illər arasında istər Şərqi Anadoludakı, istər Qafqazdakı müsəlmanlara qarşı törətdikləri qətliam ermənilər tərəfindən gizlədilməyə, hətta bu qətliamın müsəlmanlar tərəfindən onlara qarşı törədildiyi göstərilməyə və Avropaya çatdırılmağa çalışılsa da, dünyanın ən yaxşı məlumat agentliyinə rəhbərlik edən İngiltərə hökumətini sadə vətənaşları aldatdıqları kimi, aldatmaq mümkün deyildi. Üstəlik, zaman keçdikcə hadisələrin həqiqi üzü Qərb ictimaiyyətinə əyan olunca, xalq öz dövlətlərini belə vəhşət törədən dəstələri müdafiə etdiyinə görə tənqid etməyə başlayacaqdı. Yaranmış vəziyyətdə müttəfiqlərin siyasi platformda əli qanlı caniləri müdafiə etmələri, onların davalarına yardımçı olmaları keçmişə nisbətən asan olmayacaqdı. İngiltərənin Tiflisdəki təmsilçisi 4 mart 1920-ci ildə Qurzona belə yazırdı: "Heç tərəddüd etmədən deyə bilərəm ki, müsəlmanların can və mallarını daşnakçı bir erməni hökumətinə əmanət etmək insanlıq baxımından tövsiyə edilməz. Ermənilərin müsəlman idarəçilərinin rəhbərliyi altında daha salamat olacaqlarına, lakin müsəlmanların daşnak erməni idarəsi altında təhlükəsizlikdə olmayacaqlarına inanıram."(323).

Bu raportdan mutəəssir olan Qurzon Nubar Aqaronyan və İrəvan yepiskopundan təşkil olunmuş bir erməni nümayəndəliyinə vətəndaşlarının hərəkətlərinin çılğınca və dayanılmaz olduğunu söylədi. Ermənilər bu qədər "istiqrarsızlıq və iğtişaş sövdası" göstərdikləri təqdirdə heç kəsin Ermənistana baxmayacağını etiraf etdi. Erməni rəhbərləri bu qırğını inkara və günahı türklərə yükləməyə səy göstərdilərsə də, əldə bir şey edə bilmədilər. (324).

İngiltərə xarici siyasətləri daxilində daşnaklara Qars və Naxçıvana doğru yayılmalarında arxa çıxırdı. Ermənilərin fikrincə, ingilislər eyni yardımı Denikin yayılmacılığı və bolşeviklər əleyhində də verə bilərdilər. Denikin ancaq bolşeviklər üçün deyil, eyni zamanda gürcülər, azərbaycanlılar və ermənilər üçün də təhlükə təşkil etdiyinə görə qüvvələrini və azərbaycanlılar güclərini birləşdirərək öz aralarında bir müdafiə paktı imzaladılar. Onlar bu imzanı atarkən ermənilərin də bu pakta qatılmalarını istədilər. Fəqət ermənilər bu ittifaqa qatılmadılar.

Yuxarıda qeyd etdiyimiz kimi, ermənilər tarixdə rast gəlmədiyimiz anlamazlıqla hələ də "Böyük Ermənistan" uydurmasının arxasınca qaçır, Türkiyənin torpaqlarını ələ keçirmək üçün çabalayırdılar. Ermənilər "Böyük Ermənistan"ın Amerika başda olmaqla, bir Qərb dövlətinin himayəsində, hətta mandatı altında tutula biləcəyinə inanır və bu qüvvələrin işğalına dəvətnamə çıxarırdılar.

Ermənilərin bu düşüncələri bolşeviklərin Rusiya imperatorluğunu yenidən ortaya çıxarma yolunda qarşılarına çıxa biləcək ən böyük əngəllərdən biri idi. Bolşeviklər artıq ermənilərin bu fəaliyyətinə "dur" deməyin zamanının gəldiyini anlamışdılar. Odur ki, bolşeviklərin Millətlər Komitəsi Komissarı İ.Stalin öz komissarlığına bağlı bir erməni alt şurasını əmələ gətirərək başına Avanesovu təyin etdi. Aralarında bolşevik ermənilərin də olduğu bu komissarlığı təşkil edən səlahiyyət sahibləri erməni kütləsinin burjua mentaliteti ilə hərəkət etdiyini, onların marksist prinsiplərini həzm etməkdən aciz olduqlarını düşünür və bir an əvvəl daşnaksütyun kimi əksinqilabi qüvvələrin bita-

rəf edilməsini millətlərarası sosializmin hədəflərinə çatmaq baxımından vaz keçilməz bir əməliyyat olaraq görürdülər. Nəhayət, komissarlığın əmrilə aralarında Nazarbekyanın və Zavrevin də olduğu erməni milliyyətçiləri bir-bir həbs edilməyə başlandı. Bundan əlavə, ermənilərin Rusiya içərisində fəaliyyət göstərən nə qədər dərnək, təhsil, dini və siyasi təşkilatları vardısa, hamısı bağlandı, erməni mediyası tamamilə dağıdıldı. Bunların yerini yerli bolşevik qrupları və quruluşları aldılar və alınalmaz öz səylərini görülməmiş bir şiddətlə sürdürməyə başladılar. (325).

Qafqazdakı hadisələr təhlil olunduqda, daşnakların İrəvan xanlığında elan etdikləri "Ermənistan"ın həyatına son verən ölkənin Türkiyə deyil, Sovet Rusiyasının olduğu ortaya çıxır. Yəni Sovet Rusiyası Gürcüstana, Naxçıvana və digər bölgələrə sığınan erməniləri azərbaycanlıların ata-baba yurdu olan İrəvan xanlığına sıxışdırıb orada yüzdə 12 faiz olan erməni azlığını yüzdə 42-yə çatdıraraq, Beynəlxalq qanunlara uyğun olmasa belə, bir "Ermənistan Respublikası" qurmuş, onları öz səlahiyyəti altına almışdır. Beləliklə, ermənilərə rəsmi müstəqillik verilmiş, onların 2500 illik tarixlərində hər zaman qurmaq istədikləri Ermənistan Azərbaycan torpaqlarında qurulmuşdur. Bu azmış kimi Qarsda, Sürməlidə və Ərdəhanda yaşayan erməni azlıqlarını da İrəvan xanlığı başda olmaqla, Azərbaycan torpaqlarına yerləşdirib "Ermənistan"ın torpaq sahəsini bir az da genişləndirmişdir. Azərbaycanın torpaq sahələrinin bir bölümünün də zorla Gürcüstanın sərhədləri içərisinə alınmasını da unutmamaq lazımdır.

1921-ci ildən sonra ermənilərin Sovet Rusiyasına olan münasibəti müstəqil Ermənistan Respublikasının ilk Baş Naziri Ohannes Kaçaznuni tərəfindən 1923-cü ildə Buxarestdə toplanan daşnaksütyun konfransında dəyərləndirilmişdir. İfadələrinin tezliklə sərf edilmiş düşüncəsiz sözlərdən ibarət olmadığını xatırladan Kaçaznuni ermənilərin Rusiyanı korcasına qucaqladıqlarını, halbuki bu dövlətin "öz şəxsi mənfəətləri naminə onların cəsədlərini çeynəməkdə bir an belə tərəddüd etmədiyini"

qeyd etmişdir. Sonra o, 1923-cü ilda Ermənistan Respublikasının kommunist bir diktaturaya çevrildiyini bildirib, özlərinə heç bir əhəmiyyət kəsb etməyən bir Rusiyaya qarşı nə daxildən, nə də xaricdən bir anti-bolşevik hərəkatın izlənməsinin mümkün olmadığını da sözlərinə əlavə etmişdir.

## ERMƏNİLƏRİ KÖÇƏ ZORLAMA MƏSƏLƏSİ

Türk Vətəninin hər tərəfindəki cəbhələrdə türkün qanı axmaqda ikən, ermənilər "Xəyali Ermənistan" uğrunda könüllü çətələr təşkil edib rus ordusu ilə birlikdə Anadolunu işğal etməyə girişmişdilər. Osmanlı ordusundan silahlarıyla birlikdə qaçaraq çətələr quran ermənilər türk kəndlərini yaxıb-yandıraraq talan etməyə başlamış, kişiləri cəbhədə olan kəndlərin müdafiəsiz xalqını vəhşicəsinə qırmış, qadınların və qızların namuslarına təcavüz etmişlər. Onlar rus ordusuna yardım etmək məqsədilə planlı üsyanlar törətmiş, düşmənə casusluq etmişlər. Van işğal edildikdə isə artıq Vanın erməni vətəni olduğunu, bundan sonra rus bayrağının yanında erməni bayrağının da dalğalanacağını, Vanın işğal edilməsi səbəbilə dünyanın hər tərəfində zəfər şənlikləri təşkil etdiklərini qəzet və jurnallarında bəyan etmişdilər.

Bütün bu hadisələr ermənilərin hər mövzuda düşmənlə əməkdaşlığa girdiklərini, dövlətin və millətin varlığını hədəf alan fəaliyyətlərdə olduqlarını ortaya qoyur. Buna görə də Osmanlı dövləti öz varlığını qorumaq məcburiyyətində qalaraq və ermənilərin xəyanətini nəzərə alaraq, onları köçə zorlamışdır.

Bu hadisələrə və rəsmi sənəd və dəlillərə baxmayaraq, bəzi xristian yazıçılar ermənilərin köçə zorlanmadan əvvəl üsyan etmədiklərini, ancaq köçə zorlandıqdan sonra özlərini müdafiə etmək məqsədilə silaha sarıldıqlarını yazmışlar. Fəqət həqiqət olan ermənilərin zorlandıqdan sonra üsyan etdikləri deyil, onların xəyanət və satqınlıqlarına qarşı Osmanlı dövlətinin köçə

zorlama qərarını almasıdır. Bu həqiqət hətta erməni yazıçıların əsərlərindəki vəsiqələrlə də isbat olunmuşdur.

Ermənilərin bu gün belə keçirdikləri iclaslarda, mitinqlərdə, nümayişlərdə, konfranslarda erməni komitəçilərinin törətdikləri cinayətlərdən sonra irəli sürdükləri məsələlərin başında "erməniləri köçə zorlama" məsələsi gəlir.

Bu kitabda anladılan hadisələr, göstərilən mənbələr, rəsmi və xüsusi sənədlər, erməni komitəçilərinin etirafları, yerli və xarici qəzet, kitab və jurnallarda hadisələri yaşamış və ya bu məsələ ilə əlaqəli şəxslərin ifadələri isbat edir ki, Osmanlı dövlətinin 21 iyul 1914-cü ildə elan etdiyi səfərbərlikdən və Birinci Dünya müharibəsinə girməsindən sonra ermənilərin davranışları, onların törətdikləri üsyanlar, erməni çetələrinin türk və müsəlman əhalini qırıb yox etməyə çalışmaları, onların düşmənlə sözləşib əməkdaşlıq etmələri və türk ordusunu arxadan vurmaları Osmanlı dövlətini ermənilər haqqında bir qərar almağa məcbur etmişdir. Alınan qərar erməniləri qırıb yox etməkdən deyil, sadəcə onları başqa yerlərə köç etdirməkdən ibarət olmuşdur.

"Köçə zorlama" qanunu 14 may 1915-ci ildə rəsmiləşdirilərək bu maddələri ehtiva edir:

**Maddə 1.** Səfər zamanı ordu, artilleriya və diviziya komandanları, bunların vəkilləri və mövqe komandanları əhali tərəfindən hər hansı bir hərəkətlə hökumətin əmrlərinə, Vətənin müdafiəsinə və asayişin mühafizəsinə aid icraat və tərtibatına qarşı çıxma və silahlı təcavüz görülərsə, əsgəri güclər belə təcavüzü və tərtibata qarşı çıxmanı ən şiddətli surətdə dərhal yox etməyə izinli və məcburdur.

**Maddə 2.** Ordu, müstəqil artilleriya, diviziya komandanları əsgəri tələblərə dayanaraq casusluq və xainliklərini hiss etdikləri kənd və qəsəbələrin əhalisini tək və ya cəm halda digər yerlərə ötürə və yerləşdirə bilər.

**Maddə 3.** Bu qanun nəşr edildiyi tarixdən qüvvəyə minir.

Göründüyü kimi, bu qanun ancaq ermənilərə aid deyil, imperatorluq sərhədləri içərisində hökumətin icraatına qarşı çı-

xan, əmrlərə itaət etməyən, silahlı müqavimət göstərən, düşmənə casusluq edən hər kəsə aiddir. Bu qanunun ancaq ermənilərə qarşı istifadə olunması onların müxtəlif cəbhələrdə vuruşan Osmanlı ordularının və dövlətin təhlükəsizliyini təhlükəyə soxmaları, yəni dövlətə qarşı üsyan etmiş olmalarındandır.

Türkün qanı Vətənin hər tərəfində su kimi axarkən ermənilər "Böyük Ermənistan" xəyali ilə rus, fransız və ingilis ordularının arxasına düşüb Anadolunu işğal etmək istəmişlər. Onlar Osmanlı ordusundan oğurladıqları silahlarla çətələr qurub müsəlman kəndlərini talan etmiş, yaxıb-yandırmış, qadın, uşaq, qoca demədən müdafiəsiz xalqı vəhşicəsinə öldürmüş, mallarını mənimsəmiş, qadınların namuslarına təcavüz etmişlər. Bax, buna görə də Osmanlı dövləti "köçə zorlama" qanununu uyğun görmüş və tətbiq etmişdir.

Aşırı xristian və xaçlı zehniyyəti içərisində gözləri dönmüş Rene Pinan Marqethaw, Dr.H.Stumer, James Bryec və Papz Lespins kimi türk düşməni yazıçılarına görə, erməni üsyanları ancaq özünümüdafiədir, guya ermənilər köç etməyə zorlandıqlarına görə üsyan etməyə başlamış, türk əsgərinə qarşı çıxmışlar. Halbuki tarix bunun tam tərsini göstərir, yəni "köçə zorlama" qanununun qəbul edilməsi ermənilərin türk insanına qarşı törətdikləri vəhşiliklərdən sonra baş vermişdir.

Daşnaksütyun komitəçilərindən Van Millət Vəkili Vahan Papazyan yazdığı əsərdə "Türk hökumətinin aldığı qərarlara çox böyük əhəmiyyət verdiklərini, belə məlumatları Cercle dOrient klubunda öz aralarında çox ciddiyyətlə qiymətləndirdiklərini, könüllü təşkilatları ilə ruslara yardım etdiklərini, türk ordusunu çətin vəziyyətə salmaq üçün üsyan etdiklərini..." qeyd etmişdir. (326)

Yenə bir erməni yazıçısı olan Boryan rusca yazdığı əsərində, "Daşnak komitəsinin Rusiyanın imperialist amallarına xidmət etmək üçün ortaya çıxdığını..." yazır. (327)

Erməni yazıçısı Leo Mazi də 1915-ci ildə Tiflisdə nəşr olunan "Erməni probleminin sənədləri" adlı əsərində ermənilərin türk ordusuna qarşı "çar ordusu sıralarına girişlərini..." anladır. (328)

Leoya görə, erməni üsyanları "ermənilәri köçə zorlamadan" əvvəl başlamışdır. Leo bu mövzunu bu sözlərlə sənədləşdirir: "Muşda 7.000 erməni silahlandırılmış və kəndlərə dağıdılmışdır. Bunların bir çoxu silahları ilə birlikdə türk ordusundan qaçmışdılar. Rus ordusu yaxınlaşdıqda bu bölgədə hazır vəziyyətə gətirilmiş ermənilər üsyan bayrağını açmağa hazırdılar..." (329).

Vanın rus ordusu tərəfindən işğal edildiyi gün ermənilərin rus ordusu şərəfinə verdikləri ziyafətdə Van üsyanının dəstə başçısı Aram Manukyan adlı bir partizanın rus komandanı Nikolayevə söylədiyi bu sözlər yenə "köçə zorlama" qərarından əvvəl olmuşdur: "Üsyan etdiyimiz bir aydan bəri dirənirdik. Lakin vəziyyətimiz çox təhlükəli idi. Biz ya təslim olmalı, ya da ölməli idik. Ölməyi üstün tutduq. Siz gözləmədiyimiz halda imdadımıza çatdınız..." (330).

Heç şübhəsiz, erməniləri bu vəziyyətə salan və "köçə zorlama" hadisələrinə səbəb olan erməni patriarxxanası olmuşdur. Patriarxxananın bu fəaliyyətinin keçmişi 1877-1878 türk-rus müharibəsinə dayanır. Erməni Patriarxı Matyos İzmirliyanın Vahan Vartapet Minasyana, hnçak komitəsinin liderlərindən Cangülyanın Patriarx Aşiqyana göndərdikləri məktublar erməniləri təbriklərlə "köçə zorlama" səbəblərinin çox-çox əvvəllərə dayandığını göstərən sənədlərdir.

General Mayevski öz əsərində: "Erməni komitələri türklərlə ermənilər arasında elə bir soyuqluq yaratmışdılar ki, onların yenidən bir araya gəlmələri mümkün deyildi,"- deyir. (331).

Eyni əsərin digər bölümlərində bu ifadələrə rast gəlirik: "Erməni komitəçiləri qadın, qoca və uşaqların qanları ilə dərələri boyadılar... Baş komandanlıq Vanda yaranmış vəziyyəti nəzərə alaraq Xəlil bəy komandanlığındakı əsgəri birliyin Vana getməsinə əmr verdi..." (332).

Göründüyü kimi, Osmanlı dövləti "köçə zorlama" qərarını qəbul etməyə məcbur olmuşdur. Harada bir komitəçi görülürdüsə, orada hökuməti çətin vəziyyətə salacaq hadisələr baş verirdi.

Səfərbərliyin elan edildiyi 21 iyul 1914-cü ildən 11 aprel 1915-ci ilə qədər keçən 8 ay 20 günlük qısa bir zaman içərisin-

da bir zamanlar dövlətə qarşı göstərdikləri böyük bağlılıq və sədaqətin nişanı olaraq "Milləti Sadıka" adı verilən ermənilərin komitəçilərin rəhbərliyində türk və müsəlman kəndlərini talan edib qətliam hadisələri törətmə, yanğınlar çıxarma, müsəlman qadın və qızlarının iffətlərinə təcavüz etmə, casusluq edib Vətəni dağılmağa aparan hər cür hadisələri törətdiklərinə görə, Osmanlı dövlətinin "köçə zorlama" qərarını qəbul etməyə məcbur olduğunu görə bilməmək bağışlanması mümkün olmayan bir naqislikdir.

Osmanlı dövlətinin erməni patriarxına dəfələrcə müraciətlə bu işin bu şəkildə davam etməsinin mümkün olmayacağını, ixtilal və üsyanların mal, can və namus güvənliyini ortadan qaldırdığını, bu çətin müharibə şəraitində hər yerdə kifayət qədər əsgər və jandarma tutmanın mümkün olmadığını, ölkənin təhlükəsizliyini və asayişi qorumaq məqsədilə şiddətli tədbirlər almaq məcburiyyətində qalacağını əvvəlcədən söyləməsi, şübhəsiz ki, son dərəcə müsbət bir niyyətin məhsuludur.

Patriarxxana bu müraciətlərə qulaq asmaq yerinə erməniləri və çətəçiləri bu alçaqlığa daha da təhrik etmişdir. Ermənilər bununla da qane olmayıb əsgəri hərəkat və ordu haqqındakı bütün bilgiləri düşmənə məlumat vermək surətilə casusluq etməyə davam etmişlər.

11 aprel 1915-ci ildə bütün ölkə ərazisindəki erməni komitələrinin bağlanmasına qərar verdiyi zaman çox belə gec qalmışdı. Bu qərardan sonra erməni komitələrinin bu çirkin fəaliyyətlərini daha da artırdığını və komitə üzvü olmayan tək bir erməninin belə qalmadığı görülmüşdür.

Erməni komitələrinin ən kiçik kəndlərdə belə qurduqları erməni çətələri türk ordusunu təhlükəyə soxmuş və hökuməti "köçə zorlama" qanununu qəbul etməyə məcbur etmişdir.

Beləcə, sözdə erməni din adamları və erməni ziyalıları illərdən bəri arxasından qaçdıqları müstəqil Ermənistan xəyalı ilə həm Türkiyə dövlətinin, həm də özlərinin başlarına bəlalar açmışlar.

O zamanlar baş verən fəlakətlərdə hadisələri tərs işıqlandıran ermənilərin şikayət etdikləri rus, ingilis və fransızların böyük tarixi məsuliyyətləri və rolları vardır.

İngiltərə əvvəldən bəri erməni məsələsini təhrik etmiş, yalançı, uydurma sənədlər hazırlamış və özlərinin siyasi mənfəətləri üçün bol vədlər etmişdir. İngiltərə hökumətinin erməni məsələsinə dair nəşr etdirdiyi 149 sənədə əsaslanan "Mavi kitab" bunlardan biridir və erməniləri aldadıb getdikləri qanlı yolda irəliləməyə təşviq edən türk düşmənçiliyinə aid bir əsərdir.

Osmanlı hökumətinin çətin müharibə şərtləri altında, "köçə zorlama" qanununu qəbul etmədən əvvəl ermənilərin gedəcəkləri yerdə və yollarda müxtəlif ehtiyaclarını təmin edəcək şəkildə hazırlıq görülməsini istəmiş olması, ixtiyarındakı nəqliyyat vasitələrindən bir çoxunu bu işə ayırması, onların yerləşdiriləcəkləri bölgələrdə zərər görməmələri üçün hər cür tədbir görməsi, gedəcəkləri yollarda intiqam hissi ilə hərəkət edə biləcək, haqsızlığa məruz qalmış və ya şiddətə təhrik olmuş xalqdan qorunması, daşınır və daşınmaz mallarının qorunmasına dair qanun qəbul etmiş olması Böyük Türk millətinin tarixə keçmiş insani xüsusiyyətlərinin bir ifadəsidir.

Buna baxmayaraq, ermənilər, əsgəri birliklərinin himayəsi altında gələn qafilələrin ətrafını sararaq çox sayda jandarma və əsgərlərin şəhid olmalarına və bir çox erməninin ölməsinə səbəb olmuşlar.

"Köçə zorlama" qanununu ilk olaraq Kayseri, Amasiya, Yozqat, İzmit və Bursa kimi orta və Qərbi Anadoluda yerinə yetirilməsi istənmişdir. Köçə hazırlıqla əlaqədar bu şəhərlərdə aparılan axtarışlar nəticəsində ermənilərin çalışdıqları atelyelərin anbarlarında böyük həcmdə gizlədilmiş silahlar ortaya çıxarılmışdır.

Ermənilər tərk etdikləri bölgələrdəki evlərini və bəzən bütün kəndi yandırmaqla yanaşı, türk və rumların da ev və dükanlarını atəşə verib yandırmışlar. Şabınqarahisarda, İzmit və Adabazarında türk məhəllələri talan edilib kül halına gətirilmişdir. Haçında törədilən yanğın hadisəsi 53 saat davam etmiş

dir. Burada 2 000 ev, 5 kilsə, 5 məktəb, 150-ə qədər dukan, bələdiyyə və dövlət evləri ataşa verilmişdir. Nəticədə, bütün qəsəbədə 100-ə yaxın ev qalmışdır. Ermənilər Trabzon, Ordu, Bursa və daha bir çox şəhərdə də yanğınlar törətmişlər.

Rusiya, İngiltərə, Fransa və Amerikalı misyonerlər Anadolunun hər yerində erməniləri Osmanlı dövlətinin əleyhinə təhrik etmiş, türkləri onlara "barbar" kimi tanıtmışlar.

Əslində ruslar ermənilərə qarşı heç bir zaman yaxşı niyyətdə olmayıb, hətta qətliamlar törədib onları Anadoluya köçə zorlamışdılar. Buna baxmayaraq, Anadolu erməniləri rusların türklər əleyhindəki təhriklərinə aldanmış, hətta onların arxasınca düşüb yerli vətəndaşlarına qarşı vəhşiliklər törətmişlər. Erməniləri təhrik edən imperialist dövlətlərin dünya tarixində bir çox məzlum milləti də əzib keçdikləri bir həqiqətdir. Bu dövlətlər istifadə etdikləri azlıqlara belə heç bir haqq tanımamışlar. Belə ki, 1916-cı ilin əvvəllərində rus ordusu Ərzurumu işğal etdiyi zaman, Baş komandanlığın əmrindəki bu önəmli sətirlərə rast gəlirik: "...Ermənilər Ərzurumda yerləşmə haqqına sahib deyildirlər..." (333).

## SEVR MÜQAVİLƏSİ

Ermənilərin bu gün belə ortaya atıb bütün dünyada müzakirə mövzusu etdikləri "soyqırım" məsələsinə keçməzdən əvvəl onların həyata keçirmək arzusunda olduqları "Sevr müqaviləsi"ni bir daha müzakirə etmək istərdik. Çünki dünya ermənilərinin təbliğatı "Sevr müqaviləsi"nin hələ də qüvvədə olduğunu və buna əsaslanaraq müqavilədə bildirilən "erməni torpaqlarının" ermənilərə geri qaytarılmasını müdafiə edir.

Bu müqaviləni imzalayan dövlətlərin müqavilənin rəsmiyyət qazanmadan aradan qalxdığını və yerini "Lozann müqaviləsi"nin aldığını öz imzalarıyla təsdiq etmələrindən sonra bu gülünc iddia necə ola bildiyi məlum deyil. Bir də ermənilərin bir dövlət olaraq imzaladıqları başqa müqavilələr də vardır. Bunla-

rın başında Batumda imzalanan müqavilə gəlir. Daşnaklar 28 may 1918-ci ildə İrəvan xanlığında bir "Ermənistan Respublikası"nı elan etmişdilər. Osmanlı dövləti də 4 iyun 1918-ci il tarixində ermənilərlə Batumda imzaladığı müqavilə ilə bu respublikanı tanımışdı.

Ermənistan Respublikası Xarici İşlər Naziri Hadisyan bu müqavilədən sonra bunları söyləmişdir: "Türkiyə erməniləri Osmanlı imperatorluğundan ayrılmağı düşünmüşlər. Türkiyədəki ermənilərlə əlaqəli problemlər Osmanlılar ilə Ermənistan Respublikası arasında görüşmə mövzusu belə ola bilməz. Osmanlı İmperatorluğu ilə Ermənistan Respublikası arasındakı əlaqələr əladır və belə də olmalıdır. Bütün erməni siyasi partiyaları bu mövzuda eyni fikirdədirlər. Bu yaxşı qonşuluq əlaqələrinin davam etdirilməsi Xarici İşlər Naziri olduğum Ermənistan hökuməti tərəfindən izlənən proqramın əsas nöqtələrindən biridir." (334).

Daşnak mətbuat orqanı "Hairenik"də 28 iyun 1918-ci il tarixli nüsxəsində bunları yazmışdır: "Rusiyanın Türkiyəyə qarşı düşməncə güddüyü siyasət Qafqaz ermənilərini də cəsarətləndirirdi. İki dost arasında döyüşlərə Qafqaz erməniləri səbəb oldu. Çox şükürlər ki, bu vəziyyət uzun sürmədi. Rusiya inqilabı sonrasında Qafqaz erməniləri sahibliyin yalnız Türkiyədə olduğunu anladılar və əllərini Türkiyəyə uzatdılar. Türkiyə də keçmişdə olanları unutmaq istədi və uzadılan əli kavaler ruhu ilə sıxdı. Artıq erməni probleminin həll edilmiş və tarixdə qalmış olduğunu qəbul edirik. Xaricilərin ajanı bir neçə macərapərəstin əsəri olan qarşılıqlı inamsızlıq və düşmənçilik hissləri aradan qalxmalıdır." (335)

Bu maraqlı bəyanlardan aşağıdakı nəticələr çıxır:

a) erməni məsələsi bağlanmışdır;

b) hadisələrdən türklər yox, ruslar və ermənilər məsuldurlar;

c) bir haqsızlıq varsa, buna uğrayan türklərdir.

Göründüyü kimi, bizim bu gün dediklərimizin doğru olduğu bundan 88 il əvvəl daşnaklar tərəfindən də etiraf edilmiş-

dır. Ancaq bu açıq etiraflara baxmayaraq, məsələ ermənilər tərəfindən bağlanmış sayılmır və erməni çevrələri ilk fürsətdə öz etiraflarını unudub keçmiş xəyallarının ardınca gedirlər. Belə ki, Batum, Gümrü, Qars və Lozann müqavilələrinə baxmayaraq, erməni hərəkatı bu gün belə davam edir. "soyqırım" məsələsi bütün dünyanın gündəliyində, "Ermənistanda" azərbaycanlıların yaşadıqları şəhər, qəsəbə və kəndlərdə, Dağlıq Qarabağdakı şəhər, qəsəbə və kəndlərdə qətliamlar, qarətlər, yanğınlar, qadın, uşaq və qocalara qarşı törədilən vəhşiliklər, dağıdılan tarixi abidələr, kitabxalar və qəbristanlıqlar, yandırılan təbii gözəlliklər, dağıdılan yaşayış binaları, dövlət idarələri və dəmir yolları... (bunları saymaqla bitməz), bir milyondan artıq azəri türkləri ata-baba yurdundan zorla qovulmuş, didərgin salınmışlar. (Bu məsələlər barəsində kitabımızın 2-ci cildində rəsmi sənədlərlə geniş açıqlamalar veriləcəkdir). BMT bu mövzuda dörd dəfə qərar vermiş və ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etmələri istənmişdir. Ermənilər isə BMT qərarlarını heçə sayaraq Xəzər dənizi, Qara dəniz və Ağ dənizə çıxışı olan "Böyük Ermənistan" xəyalındadırlar.

Osmanlı dövlətinin Birinci Dünya müharibəsində məğlub olmaları və 30 oktyabr 1918-ci ildə Mondros mütarikəsinin imzalanması erməniləri yenidən hərəkətə gətirmişdir. Onlar yuxarıda qeyd etdiyimiz mənbələrdəki yazılanları unudub, böyük xəyallar arxasınca qaçan daşnak komitəsinin nəzarəti altında olan "Ermənistan Respublikası"nın quruluşunun birinci ildönümü günü, 28 may 1919-cu ildə "Türkiyənin Ermənistanı istila etdiyini" açıqlamışdılar. Bu açıqlama ittifaqda olan dövlətlər daxil olmaqla, heç kəs tərəfindən ciddi qarşılanmamışdır. Sevr diktəsi ilə nəticələnən Paris konfransı Ermənistanın sərhədləri mövzusunu ABŞ Prezidenti Vilsonun hakimliyinə buraxmış, Vilson da General J.G.Harbordun rəhbərliyində bir Amerika heyətini bu məsələni araşdırmaq üçün 1919-cu ilin payızında Türkiyəyə göndərmişdir. 1919-cu ilin sentyabr ayında Türkiyədə tədqiqatlar aparan Harbord heyəti əldə etdiyi nəticələri bir raport halında ABŞ konqresinə təqdim etmişdir. Həqiqətləri

ehtiva edən bu raportda "Türklər ilə ermənilərin yüzillərcə yan-yana, sülh içərisində yaşadıqları, "köçə zorlama" zamanı türklərin də ermənilər qədər acı çəkdikləri, türk kəndlərinin yandırıldığı, döyüşə gedən türklərin ən çox yüzdə 20-nin geri dönə bildiyi, Birinci Dünya müharibəsinin başlanğıcından ermənilərin "Türkiyə Ermənistanı" deyilən bölgələrdə heç bir zaman çoxluqda olmadıqları, "köçə zorlanan" ermənilərin geri dönmələri halında tək bir yerləşmə mərkəzində belə çoxluğu əmələ gətirə bilməyəcəkləri, geri dönən ermənilərin təhlükə içərisində olmadıqları və hadisələrə aid qorxunc iddiaların doğru olmadığının təsbit edildiyi" qeyd edilmişdir (336). ABŞ konqresi bu raport nəticəsində 1920-ci ilin aprel ayında Ermənistana mandat verilməsini rədd etmişdir.

10 avqust 1920-ci il'də erməniləri bir daha ümidləndirən "Sevr müqaviləsi" Osmanlı dövlətilə İngiltərə, Fransa, İtaliya və Yunanıstan arasında Fransanın paytaxtı Parisin Sevres qəsəbəsində imzalandı. Fəqət, Osmanlı Sultanı Vahdəddin xan ilə ingilis, fransız və İtaliya parlamentləri tərəfindən təsdiq edilmədiyi üçün hökmsüz qaldı. Müqavilə Osmanlı dövlətinin Ermənistanı azad və müstəqil bir dövlət olaraq tanımasını hökm edirdi.

Bilindiyi kimi, 10 avqust 1920-ci ildə Türkiyədə biri İstanbulda Osmanlı hökuməti, digəri Ankarada Milli Məclis hökuməti olmaqla iki hökumət var idi. "Sevr müqaviləsi"ni imzalayan Osmanlı hökumətidir. Mustafa Kamal Atatürkün Ankara hökuməti erməni "problemini" özbaşına həll edəcəkdir.

Mondros mütarikəsindən sonra fransızlar Adana vilayətini, ingilislər də Urfa, Maraş və Qaziantepi işğal etmişdilər. Daha sonra ingilislər işğal etdikləri bölgələri fransızlara buraxmışdılar. Fransızların öz əsgəri formasını geydirib özlərilə gətirdikləri ermənilər Anadoluda daha geniş sahələr əldə etmək üçün türklərə hücum etməyə başladılar. Ermənilərin bu hücumu türklərin acıqlı müqaviməti ilə qarşılaşmış, fransız-erməni işğalına qarşı türk müqaviməti təşkilatlanmışdır. Bu müqavimət yenə türklərin erməniləri qətl etdikləri təbliğatını başlatmış, an-

caq başda fransız komandanlığı olmaqla bu dəfə ermənilərə heç kəs inanmamışdır.

ABŞ konqresinin Ermənistan üçün mandat verməyi qəbul etməməsindən sonra Qafqaz "Ermənistan Respublikası"na bağlı tam tərtibli ordu birlikləri və çətələr 1920-ci ilin iyun ayında Türkiyəyə qarşı hücuma keçmişlər. 1920-ci ilin sentyabr ayında bu dəfə Ankara hökuməti əks hücumu əmr etmiş və türk ordusu erməni çətələrini ağır itkiyə və məğlubiyyətə uğradaraq bütün türk torpaqlarını erməni işğalından azad etmiş, sərhəddi aşaraq Gümrüyə girmişlər. Bu məğlubiyyət qarşısında erməni hökumətinin sülh istəməsi nəticəsində 3 dekabr 1920-ci ildə "Gümrü müqaviləsi" imzalanmışdır. Bu müqavilə ilə ermənilər "Sevr müqaviləsi"nin keçərsiz olduğunu qəbul etmiş və Türkiyədən torpaq tələblərindən rəsmən vaz keçmişlər. Ancaq bu müqavilə təsdiq edilmədən Qızıl ordu İrəvana dirmiş və Azərbaycan torpaqlarında "Ermənistan Sovet Sosialist Respublikası" qurulmuşdur.

18 fevral 1921-ci ildə Vrantsyanın başlatdığı üsyan ilə İrəvandakı rəhbərlik təkrar daşnak komitəsinin əlinə keçmiş və Vratsyanın rəhbərliyində bir hökumət qurulmuşdur. Vrantsyan hökuməti 18 mart 1921-ci ildə Ankaraya bir heyət göndərərək Ankara hökumətindən bolşeviklərə qarşı yardım istəmişdir. Tarixin nə gözəl cilvəsi! Hələ 2 il əvvəl Şərqi Anadolu torpaqlarını mənimsədiyini açıqlayan ermənilər bu dəfə varlığını davam etdirmək üçün Ankaranın yardımını istəmişdir.

Bu daşnak hökuməti uzunömürlü olmamış və bolşeviklər iqtidarı yenidən ələ keçirmişlər. Türkiyə 16 mart 1921-ci il tarixində Sovet İttifaqı ilə "Moskva müqaviləsi"ni imzalamış və Türkiyə – SSRİ sərhəddi təsdiq edilmişdir. Bu müqavilənin tamamlanması məqsədilə bu dəfə 13 oktyabr 1921-ci ildə "Ermənistan Respublikası" ilə "Qars müqaviləsi" imzalanmışdır. Hər iki müqavilədə də "Sevr müqaviləsi"nin tanınmadığına dair hökmlər yer alır. Beləcə, daşnak hökumətindən sonra qurulan "Ermənistan Respublikası" hökuməti də hər cür tələbdən vaz keçmiş, "Sevr müqaviləsi"nin təsirsiz olduğu rəsmiləşmişdir.

"Ermənistan Respublikası" ədalət və fəhlə komitəsinin komissarı Şaxverdiyevin "Qars müqaviləsi"nin imza mərasimindəki çıxışında, "Bundan sonra iki millətin başqalarının mənfəətləri uğrunda bir-birlərinə qarşı təhrik edilməsinin mümkün olmayacağını" qeyd etmişdir.

Bütün bu çıxışlara, verilən sözlərə və imzalanan müqavilələrə baxmayaraq, ermənilər dəvət olunmasalar da Lozann konfransına da qatılmış, yuxarıda qeyd etdiyimiz iddialarını ortaya ataraq, erməni məsələsinin konfransın ikinci komissiyasında müzakirə edilməsinə müvəffəq olmuşlar. Fəqət 24 iyul 1923-cü ildə imzalanan "Lozann müqaviləsi"ndə ermənilər haqqında heç bir hökm yer almamışdır. Beləliklə Türkiyə-Ermənistan məsələsi Lozannda tamamilə həll edilmişdir. Bu gün ermənilərin "Sevr müqaviləsi"nə dayanaraq müxtəlif iddialar irəli sürmələri heç bir məna daşımır.

## SOYQIRIM

Birinci Dünya müharibəsinin başlanması və Osmanlı dövlətinin 1914-cü ildə ittifaq bağlamış dövlətlərə qarşı Almaniyanın yanında müharibəyə qatılması ermənilər tərəfindən bir fürsət olaraq görülmüşdür. Loise Nalbandyanın bildirdiyi kimi, "Erməni komitələrinin qarşılarına qoyduqları hədəfləri yerinə yetirmək üçün üsyan başlatmanın ən uyğun zamanı Osmanlı dövlətinin müharibə halında olduğu zaman idi." (337).

Erməni komitələrinin Birinci Dünya müharibəsində fəaliyyətə başlayacaqlarından şübhələnən Osmanlı dövləti, müharibədən əvvəl 1914-cü ilin avqust ayında Ərzurumda daşnak idarəçiləri ilə bir iclas keçirdilər. Daşnaklar bu iclasda osmanlıların müharibəyə girməsi halında, sadiq bir vətəndaş olaraq öz vəzifələrini Osmanlı ordusu sıralarında lazımınca yerinə yetirəcəklərini vəd etdilər. Təəssüflər olsun ki, onlar bu vədlərini yerinə yetirmədilər. Çünki onlar bu iclasdan əvvəl iyun ayında yenə Ərzurumda keçirilən daşnak konfransında Osmanlı dövləti-

na qarşı aparılan mübarizənin davamına qərar vermişdilər (338).

Rusiya ermənilləri də rus ordusu ilə birlikdə Osmanlı dövlətinə qarşı müharibə hazırlıqlarına başlamışdılar. Eçmiədzin katolikosu ilə Qafqazın ümumi valisi arasında "Rusiyanın Osmanlı dövlətinə ermənilər üçün aparılacaq islahatın icra tələbləri qarşılığında Rusiya ermənilərinin qeyd-şərtsiz Rusiyanı dəstəkləmələri" yolunda razılığa gəlinmişdi. Daha sonra katolikos Tiflisdə çar tərəfindən qəbul edilmiş, o da çara "Anadoludakı ermənilərin qurtarılmasının ancaq türk hakimiyyətindən ayrılaraq avtonom bir Ermənistan təşkil etmələri və bu Ermənistanın Rusiyanın himayəsilə mümkün ola biləcəyini" bildirmişdi. (339). Əslində Rusiyanın niyyəti ermənilərdən istifadə edərək Şərqi Anadolunu ilhaq etmək olmuşdur.

Rusiyanın Osmanlı dövlətinə müharibə elan etməsilə daşnak komitəsi mətbuat orqanı "Horizon"da bu məlumatı yayınlamışdır: "Ermənilər ən kiçik bir tərəddüd göstərmədən ittifaq yaratmış dövlətlərin yanında yer almışlar. Onlar bütün güclərini Rusiyanın əmrinə vermiş və könüllü dəstələr təşkil etmişlər." (340).

Daşnak komitəsi öz təşkilatlarına bu təlimatı vermişdi: "Ruslar sərhəddi keçdikdə və Osmanlı orduları geri çəkilməyə başladıqda hər yerdə üsyanlar çıxarılmalı, Osmanlı iki atəş arasına alınmalıdır. Osmanlı ordularının irəliləməsi halında isə erməni əsgərlər silahları ilə birlikdə yerlərini tərk edəcək və çətələr təşkil edib ruslarla birləşəcəklər." (341).

Hnçak komitəsi də öz təşkilatlarına göndərdiyi təlimatında bunları bildirmişdi: "Komitə bütün gücü ilə mübarizəyə qatılaraq ittifaq qurmuş dövlətlərin, xüsusilə də Rusiyanın yanında yer alacaq və Türkiyə Ermənistanında, Kilikiya, Qafqaz və Azərbaycanda zəfəri təmin etmək üçün bu dövlətlərə hər cür vasitə ilə yardım edəcəkdir." (342).

Osmanlı məclisində Van deputatı olan Papazyan isə bir məlumat yayınlayaraq, "Qafqazda könüllü erməni dəstələrinin hazır tutulmalarını, onların rus ordularının öncüləri olaraq ermə-

nilərin yaşadıqları bölgələrdəki kilid nöqtələrı ələ keçirmələrini və Anadolu torpaqlarında irəliləyərək erməni dəstələri ilə birləşdirilmələrini" istəmişdir. (343).

Bütün bu əmrlər artıqlamasıyla yerinə yetirilmişdir. Rus orduları Osmanlı dövlətində yaşayan ermənilərlə Rusiyada yaşayan ermənilərdən qurulmuş könüllü dəstələrin öncülüyündə Osmanlı torpaqlarına şərqdən müdaxilə etmişlər. Osmanlı ordularında əsgərlik edən ermənilər isə silahları ilə birlikdə aradan çıxaraq məktəb və kilsələrdə gizlədilən silahları ortaya çıxarmış, əsgərlik şöbələrini dağıdaraq yeni silahlar təmin etmiş, yeni çətələr qurmuşlar.

Silahlanan çətələr terrorçu komitələrin "Qurtulmaq istəyirsənsə, əvvəl qonşunu öldür" təlimatıyla kişilər cəbhələrdə olduqlarına görə müdafiəsiz qalan türk şəhər, qəsəbə və kəndlərinə hücum edərək qətliamlar törətmişlər. Bu çətələr Osmanlı ordularını arxadan vurmuş, onların hərəkətlərini əngəlləmiş, təchizat yollarını kəsmiş, yaralı konvoyları yox etmiş, körpü və yolları dağıtmış, şəhərlərdə üsyan edərək rus işğalını asanlaşdırmışlar.

Rus ordularındakı erməni könüllü dəstələrinin törətdikləri qətliamlar o qədər ağır və dəhşətverici olmuşdur ki, rus komandanlığı belə bəzi erməni dəstələrini cəbhədən uzaqlaşdıraraq arxa xətlərə göndərmək məcburiyyətində qalmışdır. O zamanlar Rusiyanın ordularında vəzifəli olan zabitlərin xatirələri bu qətliamlara bütün açıqlığı ilə şahidlik edir. (344).

Erməni qətliamı ancaq məzlum türkləri hədəf almamış, Trabzon tərəfindəki rumlar və Hakkari tərəfindəki musəvilər də erməni çətələri tərəfindən qətliama uğramışlar. (345). Erməni komitələrinin məqsədi bu torpaqlar üzərində yaşayan ermənilər xaricində bütün vətəndaşları yox etmək və ya köçə zorlamaq olmuşdur. Beləcə qurulması xəyal edilən "Böyük Ermənistan" dövlətinin təşkili üçün ermənilərin çoxluqda olmalarını təmin etmək istənmişdir.

Rus orduları ilə birlikdə sərhəddi ilk keçən könüllü erməni dəstələrinin başında Armen Garo ləqəbilə tanınan, keçmiş Osmanlı idarəsinin deputatı Karekin Pastırmaçıyan olmuşdur. Ye-

nə Osmanlı idarəsinin keçmiş deputatlarından olan, Murad ləqəbilə tanınan Ambarsum Boyacıyan erməni çətələrinin başında türk qəsəbə və kəndlərinə hücum etmiş və müdafiəsiz türk insanını öldürtməklə qalmamış, erməni milləti üçün "təhlükə" təşkil edən türk uşaqlarını belə öldürtmüşdür." Osmanlı idarəsinin başqa bir deputatı Papazyan könüllü erməni dəstələri və çətələrilə Van, Bitlis və Muş bölgələrində qətliamlar törətməklə qalmamış, oraları yaxıb-yandırtmışdır.

Rus ordusunun 1915-ci ilin mart ayında Van bölgəsində hərəkətə keçməsi 11 apreldə Vanda böyük bir erməni üsyanı başlatmış və bu üsyan nəticəsində Van asanlıqla rusların əlinə keçmişdir. Rusiya çarı II Nikolay 21 aprel 1915-ci ildə Vandakı erməni komitəsinə bir teleqraf göndərərək Rusiyaya göstərdikləri xidmətlərə görə komitə rəhbərlərinə təşəkkür etmişdir.

ABŞ-da yayımlanan erməni qəzeti "Goçnak," 24 may 1915-ci il tarixli sayında "Vanda ancaq 1.500 türkün qaldığını" iftixarla bildirmişdir.

Daşnak təmsilçisinin 1915-ci ilin fevralında Tiflisdə toplanan Erməni Milli Konfransında söylədiyi nitqində "Rusiyanın Osmanlı ermənilərini silahlandırmaq, hazırlamaq və onların üsyanlar çıxarmalarını təmin etmək üçün müharibədən əvvəl 242.900 rus rublu verdiyini" söyləməsi (346) rus-erməni ittifaqı və erməni komitələrinin müharibədən əvvəl necə ciddi bir hazırlıq içərisində olduqlarını bütün açıqlığı ilə göstərəcək səviyyədədir.

Ermənilər bu üsyanların və qətliamların Osmanlı dövlətinin "köçə zorlama" qərarı ilə başladılan və özünümüdafiə xüsusiyyəti daşıyan bir hərəkət olduğunu bildirirlər. Halbuki o zamanlar hələ ortada qüvvəyə minmiş bir "köçə zorlama" qərarı yox idi. Üsyanlar "köçə zorlama" qərarına görə deyil, əksinə, "köçə zorlama" üsyanlar nəticəsində alınan bir qərardır.

Osmanlı dövləti yaranmış vəziyyət qarşısında Erməni patriarxını, deputatları və liderlərini çağıraraq ermənilərin müsəlmanları qətl etməyə davam etmələri halında lazım olan qərarları alacağını bildirmişdir. Alınan müdafiə qərarları bir nəticə

verməyincə 24 aprel 1915-ci ildə erməni komitələrini ləğv etmiş və idarəçilərdən 235 nəfəri dövlət əleyhində fəaliyyət göstərdiklərinə görə həbs etdirmişdir.

Xaricdəki erməni cəmiyyətlərinin hər il "qətliam" ildönümü deyə yad etdikləri tarixi "qətliam" hadisəsi, bax bu 24 aprel günü 235 nəfər erməninin yaşadıqları ölkəyə qarşı xəyanət və ikiüzlülüklərinə görə həbs edildikləri hadisədir.

Osmanlı dövləti məruz qaldığı bu böyük daxili və xarici təhlükələr səbəbilə bənzər təhlükələrlə qarşılaşan bütün ölkələrin almaqda tərəddüd etməyəcəkləri 27 may 1915-ci ildə müvəqqəti bir qərar almışdır. Beləliklə döyüş gedən bölgələrin yaxınlığında yaşayan ermənilər Cənubdakı Osmanlı torpaqlarına, Suriyaya köçürülmüşlər.

Erməni tarixşünası Leonun da bildirdiyi kimi, Osmanlı dövləti "Rusiyanın təhriklərinə uyaraq və rus silahlarına güvənərək qarışıqlıq və üsyanlar çıxaran erməni komitələri qarşısında öz varlığını qorumaq haqqından istifadə etmişdir."

Üstəlik, "köçə zorlama" bir cəza deyil, ancaq təhlükəsizlik səbəbilə müəyyən bir qrupu müəyyən bir yerdə yaşamaqdan vaz keçirməkdir. Bir müharibədə düşmən ilə əlbirlik etdiyi isbat olmuş bir cəmiyyətin zərərli fəaliyyətlərinin qarşısını almaq üçün müəyyən edilmiş bölgələrdə məcburi yaşamağa zorlanmaları etiraz ediləcək bir xüsus deyildir. Bu tədbir İkinci Dünya müharibəsində belə bir çox dövlətlər tərəfindən həyata keçirilmişdir.

Bu da bir həqiqətdir ki, Osmanlı dövləti ermənilərin "köçə zorlama" zamanı zərər görmələrinin qarşısını almaq üçün konkret bir istək də göstərmişdir. Bu məqsədlə yayınlanan əmrlər bunun isbatıdır. "Bəhs edilən qəsəbə və kəndlərdə yerləşmiş və köçürülməsi lazım olan ermənilərin yeni yerləşmə bölgələrinə hərəkət etdirilmələri və səfərləri zamanı rahatlıqları təmin olunmalı, canları və malları qorunmalıdır. Onların yeni yurdlarına tamamilə yerləşincəyə qədər qidalanmaları, mültəci quruluşlar tərəfindən qarşılanmalıdır. Onlara daha əvvəlki maddi vəziyyətləri və hal-hazırdakı ehtiyaclarına görə mal

və torpaq sahələri paylanmalıdır. Dövlət ehtiyac sahibləri üçün evlər tikməli, kəndçiləri toxum və kənd təsərrüfatı alətlərilə təmin etməlidir." (347).

"Bu əmrin tamamilə erməni üsyanının genişləməsinə qarşı bir tədbir olduğuna görə, müsəlman və erməni dəstələrinin qarşılıqlı qətliama girişmələrinə yol verilməməlidir." (348).

"Yenidən yerləşdirilən erməni qruplarına rəfaqət etməyə xüsusi vəzifəlilərin təmini üçün planlamalar olmalı, köçərilərin yemək və digər ehtiyacları təmin edilməlidir. Bu məqsədlə lazım olan xərcləmələr köçərilərə ayrılan dövlət təhsisatından qarşılanmalıdır." (349).

Yoxsul köçərilərin yerləşə bilmələri üçün kredit verilməlidir. Səfər halındakı adamlar üçün qurulan düşərgələr müntəzəm olaraq yoxlanmalıdır. Bu adamların rifahı üçün lazım olan ehtiyatlar görülməlidir. Ayrıca, asayiş və təhlükəsizlik təmin olunmalıdır. Köçərilərə kifayət qədər yemək verilməli və onların sağlamlıqları hər gün həkimlər tərəfindən yoxlanılmalıdır. Xəstələr, qadın və uşaqlar qatarla, digərləri isə dözümlüklərinə görə qatırla, arabayla və ya piyada olaraq göndərilməlidirlər. Hər konvoya bir dəstə mühafiz rəfaqət etməli, hər konvoyun yeməkləri göndəriləcəkləri yerlərə qədər qorunmalıdır. Düşərgələrə və ya yolçuluq zamanı köçkünlərə qarşı bir hücum olarsa, bu hücumlar dərhal püskürtülməlidir." (350).

Ermənilərin Şərqi Anadoludakı döyüşlər və "köçə zorlama" zamanı itki verdikləri doğrudur. Əslində bunu heç kəs inkar etmir. Bir dünya müharibəsi, bir ixtilal və ya üsyan "köçə zorlama" məsələsini ortaya çıxarar. Müharibə vəziyyətindən ortaya çıxan ümumi asayişsizlik şəraiti, şəxsi kin və intiqam duyğuları "köçə zorlanan" qafilələrin bir neçə hücumlara uğramasına səbəb olmuşdur. Osmanlı dövləti bu vəziyyətin qarşısını hər zaman almağa çalışmış və məsul gördüyü şəxs'əri cəzalandırmışdır.

Digər tərəfdən, müharibə günlərinin çətin şəraitlərini, minik, yanacaq, qida, dərman və digər imkanların yetərsizliyini,

ağır iqlim şəraitini və tif kimi epidemik xəstəliklərin yol açdığı təxribatı da nəzərə almaq lazımdır. 90 min nəfərlik bir Osmanlı artilleriyasının Şərq cəbhəsində soyuq və xəstəlikdən qırıldığı yaddan çıxmamalıdır. Cəbhələrə uzaq bölgələrdə hətta Paytaxt İstanbulda belə, çox böyük sıxıntılar ortaya çıxmışdır. Bu sıxıntılar yalnız ermənilər üçün deyil, bütün osmanlılar üçün də keçərlidir və çəkilən acılar hər kəs üçün ortaq acılar olmuşdur.

Ermənilərin "XX əsrin ilk soyqırımı" deyə elan etdikləri hadisənin əsli bax bundan ibarətdir. Bu gün ermənilər "soyqırım" deyə elan etdikləri hadisələrdə 1,5 milyon ermənini öldürüldüyünü iddia edirlər. Onlar bu hadisələrdə əvvəl 600 min, sonra 800 min erməninin öldüyünü irəli sürmüşlər. Lozann konfransında birləşmiş erməni heyətinin Lozann konfransındakı müttəfiq dövlətlər təmsilçilərinə verdiyi rəsmi sənəddə: "...Türkiyə Ermənistanının 2 250 000 ermənisindən 1 250 mini yox edilmişdir..."- deyilir. Daha sonra bu rəqəm 1,5 milyona çıxarılmışdır. Bu açıq artırmanın davam etməsinə və sabah, biri gün ermənilərin bu hadisələrdə ölənlərin sayını 2 milyona, hətta daha artıq bir sayıya çıxaracaqlarına çaşmamaq lazımdır. Belə ki, artıq bu itkinin 2 milyon olduğundan bəhs edilməyə başlanmışdır. Təəssüflər olsun ki, bu açıq artırmaya ciddiyyətləri ilə tanınan bəzi yayın orqanları da qatılmışlar. Məsələn, "Britannica Encyclopedia"nın 1918-ci ilki nəşrində ölən ermənilərin sayı 600 min olaraq qeyd edilir, 1968-ci ilin nəşrində isə bu rəqəm 1,5 milyon olaraq göstərilmişdir.

Bəs həqiqətən, o zaman ölən ermənilərin sayı nə qədər olmuşdur? Gəlin, bu rəqəmin təsbitinə başqa cür yanaşaq. Hər şeydən əvvəl onu da qeyd etmək lazımdır ki, bunu qəti olaraq təsbit etməyə, əlbəttə, imkan yoxdur. Ancaq ortada əsas olaraq götürə biləcəyimiz təməl bir mənbə vardır, bu da o zaman Osmanlı dövlətində nə qədər erməninin yaşamasıdır.

Mənbələrdə Osmanlı dövlətində yaşayan erməni vətəndaşlarının sayı barədə müxtəlif rəqəmlər verilmişdir. Təxmin ediləcəyi kimi, erməni mənbələrində açıqlanan və ya bu mənbələrə əsaslanaraq irəli sürülən rəqəmlər daha yüksəkdir.

Osmanlı dövlətindəki erməni vətəndaşların sayı haqqında-kı məlumatları belə bir table halında göstərmək mümkündür:

Erməni patriarxxanasının rəqəmlərini
əsas alan erməni əsilli Marcel Leartə görə 2.500.000

Erməni tarixşünası Basmaçıyana görə 2 380 000

Lozann konfransına qatılan erməni
heyətinə görə 2 250 000

Erməni tarixşünası Gevork Aslana görə 1 800.000

Fransanın sarı kitabına görə 1 555 000

"Ensiklopedia Britannica"ya görə 1 500 000

Ludovic de Constensona görə 1 400 000

H.F.B. Lyncha görə 1.345 000

Revue de Parisyə görə 1 300 000

Osmanlı statistikasına görə 1 295 000

İngilis İlliyinə görə 1 056 000

Erməni mənbələrində açıqlanan rəqəmlərin mübahisəli olduğu açıq-aydın bilinir. Biz bu mənbələri bir kənara qoyaq.

Qərb mənbələrinin rəqəmləri 1 056 000 ilə 1.555 000 arasında dəyişdiyini görürük. O zamanlar Osmanlı dövlətində yaşayan ermənilərin sayında Osmanlı statistikasına uyğun gəlməsə də, qərb mənbələrinin ortaya qoyduqları rəqəmlərin ortalamasını deyil, hətta ən yüksək, yəni 1.555.000 rəqəmini götürsək belə, yenə də 1,5 milyon erməninin öldürüldüyünü söyləmək mümkün deyildir. Çünki Osmanlı dövlətini tərk edən ermənilərin sayında həm Osmanlı, həm qərb, həm də erməni mənbələrinin üstündə durduqları rəqəm 700 mindir. Deməli,

erməni təbliğatının bu iddiasının həqiqətlə heç bir əlaqəsi yoxdur.

Elə isə, həs öldürülən ermənilərin sayı nə qədərdir?

Talat paşa İttihad və Tərəqqi partiyasının son iclasında ölən ermənilərin sayının 300 min olaraq təxmin edildiyini söyləmişdir.

Fransız din alimi Monseigneur Touchet Oeuvre dOrient quruluşunda verdiyi bir konfransda 500 min erməninin öldüyünün zənn edildiyini, ancaq bunun mübahisəli olduğunu ifadə etmişdir.

Toynbee ölən ermənilərin sayını 600 min olaraq göstərmişdir.

"Encyclopedia Britannica"nın 1918-ci il nəşrində də eyni rəqəm vardır. Ermənilər özləri də əvvəllər bu rəqəmi irəli sürmüşlər.

Türkiyə baxımından bu mövzudakı bir səhv mütarikədən sonra iş başına gələn və işğalçı quvvələrlə əməkdaşlıq edən Osmanlı Hürriyyət və İttifaq hökumətinin İttifaq və Tərəqqi iqtidarını məhkum etmək məqsədilə "köçə zorlama"da 800 min erməninin öldüyünü iddia etməsi olmuşdur. İşğalçı qüvvələrə faydalı olmaq məqsədilə uydurulan bu rəqəm ermənilərin ölü sayını yüksək göstərmələrində önəmli rol oynamışdır.

Bununla bərabər, həqiqi ölən ermənilərin sayı haqqındakı təxminlər 600 min civarındadır. İngiltərə və Fransa mənbələrinin də əvvəllər bu rəqəmi verdikləri bilinir.

Lozann konfransında Birləşmiş Erməni Heyətinin Lozann konfransındakı müttəfiq dövlətlər təmsilçilərinə verdiyi rəsmi sənəddə: "...Hələ də Türkiyə Ermənistanında, kəndlərdə 130.000, İstanbulda isə 150.000 erməni vardır..." deyildiyinə görə o zaman Türkiyədə 280 min erməninin qaldığı, 700 min erməninin isə başqa ölkələrə köçdüyü doğrudursa, cəmi erməni vətəndaşının sayını, qərb mənbələrinin ortaya qoyduqları ən yüksək rəqəmlə, yəni 1.555.000 olaraq götürsək belə, yenə də ölən ermənilərin sayı 600 mini aşmır, hətta 600 minin altında qalır. Bundan əlavə, unutmamaq lazımdır ki, bu itki rəqəminə

çala hərəkatında və düşmənlərin yanında yer alaraq türklərə qarşı vuruşub ölən ermənilərin sayı da daxildir.

Göründüyü kimi, 1,5 milyon ermənínin öldürülməsini iddia etmək tarixi həqiqətləri azdırmaqdan və ölü istismarı etməkdən başqa bir məna daşımır.

Bu mövzunu bitirərkən istər erməni təbliğatında, istərsə də qərbdəki bəzi çevrələrin diqqətə almadıqları bir mövzunu – türk tərəfinin itkisini də xatırlatmaq istərdik. Türk tərəfindən öldürülənlərin sayı erməni tərəfindən öldürülənlərin sayından qat-qat artıqdır. Erməni yazıçısı Boqos Nubara inanmaq olarsa, Şərqi Anadoluda öldürülən müsəlmanların sayı 1,4 milyondur. Fəqət bir çox mənbələrin ortaya qoyduqları rəqəm 2 milyonun üzərindədir!

Tarixi hadisələrin tərəfsiz və ciddi bir şəkildə təhlili erməni iddialarının həqiqətlərdən uzaq olduğunu ortaya qoyur. Elmi ölçülərə sadiq olan bütün tədqiqatçıların gec-tez bu nəticəyə gələcəkləri qaçılmazdır. Çünki ermənilərin iddiaları tarixin süzgəcindən keçirildiyi zaman bu iddiaların tarixi həqiqətlərdən uzaq olması açıq bir şəkildə ortaya çıxır.

İsmət paşanın Lozann konfransında vurğuladığı kimi, Türkiyənin heç kəsə torpaq borcu yoxdur. Doğrudur, ermənilər bir azlıq olaraq Anadoluda türklərlə birlikdə yüz illər boyu yaşamışlar. Bunu inkar edən də yoxdur. Ancaq bəlli bir tarix kəsimi içərisində müəyyən bir yerdə yaşamış olmaq heç kəsə o torpaqlara sahib çıxma haqqını verməz. Əgər belə olarsa, onda ermənilərin İrəvan xanlığını, Göyçə mahalını, Zəngəzuru... dərhal boşaltmaları lazımdır. Çünki onlar heç bir zaman bu torpaqlarda çoxluq təşkil etməmişlər. Bu həqiqəti araşdırmaq üçün tarixin dərinliklərinə getməyə ehtiyac yoxdur. XX əsrin başlarında İrəvan xanlığında yaşayan ermənilərin yüzdəsi 12 faiz olmuşdur. Sonradan Anadoludan, İrandan, İraqdan, Naxçıvandan və Gürcüstandan köçürülən ermənilər İrəvan xanlığına doluşduruldular. Hələ bu da onlara bir üstünlük vermədi, çünki "Ermənistan Respublikası" elan olunduqda o torpaqlarda yaşamağa başlayan ermənilərin yüzdəsi cəmi 42 faizi təşkil edirdi. Hər bir

millətin və ya cəmiyyətin bir zamanlar yaşadığı torpaqlara dönməyə qalxması və ya bunları tələb etməsi nəticəsində dünyanın necə bir mənzərə alacağı göz qabağındadır. Qaldı ki, erməniləri qovan da olmamışdır. Onlar düşmənlə əlbir olub dövlətə qarşı xəyanət, satqınlıq etdiklərinə və türklərə qarşı qeyri-insani hərəkət və qətliamlar törətdiklərinə görə, ölkə torpaqlarının bir yerindən digər bir yerinə və ya sərhədyanı ölkələrə yerləşdirilmişlər. Bir də ermənilərin hamısı bu davranışa tabe tutulmamışlar. Belə ki, Lozann konfransında Birləşmiş Erməni Heyətinin, Lozann konfransındakı müttəfiq dövlətlər təmsilçilərinə verdiyi rəsmi sənəddə eynən belə deyilir: "...Hələ Türkiyə Ermənistanında, kəndlərdə 130 000, İstanbulda isə 150 000 erməni vardır..."

Bu da bir həqiqətdir ki, ermənilər üçün talesizliyi onların fransızlar, ingilislər və ruslar kimi işğalçı güclərin quyruğuna taxılmaları təşkil etmişdir. Yəni bu talesizliyi ermənilər özləri yaratmışlar.

Uydurma mövzuların təbliğatı və terror hadisələri xaricində qalan ermənilərə bunu xatırlatmaqda fayda vardır: ermənilər uzun illər boyu özlərinə yardım edər kimi görünən bəzi ölkələr tərəfindən aldatılmışlar; onlara yardım edər kimi görünüb müxtəlif vədlərdə olanların əslində xüsusi faydaları arxasınca getdiklərini və erməni cəmiyyətini irəli sürüb onları bu xüsusi faydaları uğrunda tələf etdiklərini hələ anlamamışlarsa, çox təəssüflər olsun!..

## ERMƏNİ MƏNBƏLƏRİNDƏ LOZANN KONFRANSI VƏ SONRASI

22 dekabr 1922-ci ildə Lozann konfransında baş vermiş, ermənilər üçün çox önəmli olan bir hadisəni oxucularımızın nəzərinə çatdırmaq istərdik. Məsələ burasındadır ki, bu konfransda ermənilərin uydurmaları bir dəstək görmür, hər şey onlara qarşı cərəyan edirdi. Odur ki, Türkiyə erməniləri ilə Ermənis-

ıan Respublikasının təmsilçiləri Lozanna gələrək özlərinin də konfransda dinlənmələri üçün konfrans rəhbərlərinə müraciət etdilər. Onlar özlərinin erməni millətinin səlahiyyətli təmsilçiləri olduqlarını irəli sürərək konfransa etdikləri müraciətlərini qəbul etdirdilər və onların konfransın ikinci komissiyasında dinlənmələri qərarlaşdırıldı. Türk heyəti bu komissiyanın iclasında iştirak etməyi uygun görməyib salonu tərk etdi.

Komissiyada aparılan bu müzakirənin ermənilər üçün çox önəmli və son bir təşəbbüs olduğuna görə iclasda baş verənləri, erməni Hadisyanın, "Ermənistan Respublikasının doğuşu və irəlilməsi" və Novosartyanın, "Artıq Daşnaksutyunun görəcəyi iş yoxdur" mənbələrindən əldə etdiyimiz bilgiləri və komissiyanın protokol xülasəsini kitabımıza daxil etdik.

22 dekabr 1922-ci il
Protokol xülasəsi

Heyət: K Norandukyan, A Axaronyan, A Hadisyan, L Paşalyan komissiyanın qarşısına çıxmışdır.

Norandukyan və Axaronyan ermənilərin istəklərini komissiyaya təqdim etmiş, Norandukyan oxumuş, Axaronyan izahatlar vermişdir.

Müzakirə belə cərəyan etmişdir:

Ser Xoras Rumbold:

– Erməni yurdunu və Türkiyə əlaqələrini necə düşünürsünüz?

Axaronyan:

– Arzu etdiyimiz yurd Türkiyədən ayrı və müstəqil olmalıdır. Müttəfiqlərə asanlıq olsun deyə türklərin mənfəətlərini sağlamlaşdıran şəkillər də hazırdır. Məsələn, Britaniya istismarçıları rejimi kimi. Norandukyanın da bu mövzuda mənimlə eyni fikirdə olduğunu düşünürəm.

Norandukyan:

– Mən bu xüsusda bir az əvvəl raportumu oxudum.

Rumbold:

– Yerevan sərhədlərinin genişləməsi və erməni yurdu haqqında nə düşünürsünüz? Belə olduqda iki Ermənistan olmazmı?

Axaronyan:

– Ermənistan Respublikasının sərhədlərinin genişləməsi oranın Sovet İttifaqı rejimində olduğuna görə çətin bir işdir. Çünki Rusiya onunla məşğul deyildir. Rusiya Ermənistanında yeni bir erməni yurdunun quruluşu bir şey ifadə etməz. Biz Türkiyə tərəfindən zəbt edilmiş, ABŞ Prezidenti tərəfindən cızılmış sərhədləri istəyirik. Ancaq bir kəsim ilə kifayətlənirik. Keçmiş Ermənistan məsələsinin həllinə gəldikdə isə, Bolqarıstan və Şərqi Rumelidəki idarə şəkli bu xüsusda sizə bir nümunə ola bilər.

Rumbold:

– Sizcə, ən əlverişli torpaq parçası haradır? Xəritə üzərində göstərə bilərsinizmi?

(Axaronyan xəritə üzərində Rizə və Həsənqaladan keçərək Ərzurumu xaricdə buraxıb Muşa gedən və içərisinə Van gölünü alaraq İran sərhəddinə qədər olan bir sərhəd cızdı.)

Rumbold:

– Bu sərhədlər içərisində 700 000 erməni köçərilərini yerləşdirmək mümkündürmü? Bunların hamısı Türkiyə ermənilərimidirmi?

Axaronyan:

– Bəli, Türkiyə ermənilərididirlər və bu ərazidə yerləşdiriləcəklər.

Rumbold:

– O zaman Türkiyədə erməni qalmayacaqdırmı?

Axaronyan:

– Erməni yurdu qurulduqdan sonra ermənilərlə türklər arasında güclü bir sülh və dostluq yaranacaq və Türkiyədə qalmaq istəyən ermənilər yaxşı bir vətəndaş olacaqlar.

Rumbold:

– İndi bu ərazidə kimlər vardır?

Axaronyan:

– Başçıları kürdlərdir. Bunlar bələ müharibədən əvvəl bö-yük bir nüfuz təşkil edirdilər. Türklər isə azlıqda idilər. Çoxluq kurdlar və ermənilərdə idi. Kürdlər Ari irqinə mənsubdular və çox çətinliklə müsəlmanlaşmışdılar.

Delacroiks:

– Kurdlara olan inamımız mübahisəli ola bilər. Bütün kurd-lar sizdən yana deyildirlər. Onlardan bir çoxları erməni qətliamlarında iştirak etmişdilər. Kürd qoruyucu ordularının rolları meydandadır.

Axaronyan:

– Kurdlar qətliamdan artıq talançıdırlar. Bir çox kürd var-dır ki, bizimlə birlikdədirlər. Ermənistanda iki kürd polkumuz vardı. Bunlar sonuna qədər türklərlə vuruşdular.

Delacroiks:

– Bu mövzuda Norandukyanın da fikirini öyrənmək istər-dim.

Norandukyan:

– Kürdlərdən bəhs edilərkən onların 200-dən artıq olan tayfalarını da nəzərə almağımız lazımdır. Yezidilər və qızılbaş-lılar ermənilərlə dostdurlar. Bunların 1905-ci ildə 20.000 ermə-nini gizlətmiş olduqları unudulmamalıdır. Lakin məsələn, cəla-lılar ermənilərə qarşı müxalifdirlər. Kürdlərin qoruyucu ordu-ları bunlardan əmələ gətirilmişdi. Bunlar türk paltarı geyərək banditliklərini törədirdilər. Onlar başqa yerə göndərilmək istə-nildikdə, ikinci ordu komandanı Zəki paşa: "Bunlar hara getsə-lər, ənənələri olduğuna görə eyni şəkildə hərəkət edəcəklər"- deyərək, buna qarşı çıxmışdı.

Delacroiks:

– Bəhs etdiyiniz 700.000 ermənının hamısı Türkiyə ermənı-sidir, yoxsa onların arasında Rusiya erməniləri də vardır?

Axaronyan:

– Onların hamısı Türkiyə ermənisidir və geri dönmək üçün bir işarət gözləyirlər.

Delacroiks:

– Türkiyə Ermənistanı vilayətlərində yerləşmiş 130 000 erməni haqqında nə cə məlumatlarınız vardır? Onlar oralardan sürgün edilirlər, yoxsa öz arzularıyla çıxırlar?

Axaronyan:

- Həqiqət budur: küçələrdə, camilərdə ermənilərin müəyyən bir zaman içərisində çıxıb getmələri üçün elanlar yapışdırılmışdır. Sonra türk xalqı ermənilərə öz tərəflərində qalanların başına kim bilir nələr gələcəyini söyləmişlər. Qara qışa baxmayaraq bir çox çətinliklər altında Qara dəniz və xüsusilə də Suriyaya keçmək üçün ermənilər müxtəlif istiqamətlərdə getmişlər. Suriyadakı ermənilərin sayı 140 mini keçmişdir. Ərəb xalqının da belə pərişan köçərilərdən məmnun olmadıqları bilinir.

Laport:

– Bununla bərabər, bu, iqtisadi bir məsələdir. Ermənilərin gəlməsilə əməyin dəyəri düşmüşdür. Bu da təbii olaraq ərəblərin xoşlanmayacaqları bir şeydir.

Norandukyan:

– İskəndərun bölgəsindəki ermənilərin vəziyyəti daha yaxşıdır.

Laport:

– Mən də eyni düşüncədəyəm.

Rumbold:

– İndi Ermənistan Respublikasındakı xalqın əhalisi nə qədərdir və hansı irqlərdən əmələ gəlmişdir?

Axaronyan:

– Dostum Hadisyan məmləkətimizi yaxşı tanıyır. O, iki il Baş Nazir vəzifəsində işləmişdir, sizə məlumat verə bilər.

Hadisyan:

– Ermənistan Respublikasının əhalisi 1 400 000 mindir. Bunun 1 200 000-i erməni, 60 000-i müsəlmandır. Bu xalq 26 000 kv. km. ərazi üzərində yerləşmişdir ki, bunun da 9 000 kv. km kənd təsərrüfatına əlverişlidir. Son vaxtlarda bura yeni köçərilərin göndəriləcəyi sözü ortaya çıxınca, Ermənistan Respublikası bunu rədd etdi. Əlcəzairdən gəlmiş olan 10 000 adamı yer-

laşdırmak üçün çox çatinliklar çakildi. Ancaq Ermanistanı deyil, Qafqazın da bir qismini baslayan bu verimli arazi Qars, Sürmali va Naxçıvan türklari tarafından işgal edilmişdir.

Rumbold:

– Ermanistanda yaşayan musalmanlar neca oldu?

Axaronyan:

– Onların bir qismi Türkiyaya, bir qismi Qars vilayatina, bir qismi da Azerbaycana köçdü.

Rumbold:

– Xahiş edirom, Kilikyanın hansı kasiminda yurdunuzu qurmaq istadiyinizi xarita üzarinda gostarin.

Norandukyan Ocak, Ceyhan, Suriya sarhadlerila Fərat arasındakı bolganin içarisine Sis va Maraşı da alaraq gostardi.

Rumbold:

– Bu bolgaya na qadar ermani yerlaşdira bilərsiniz?

Norandukyan:

– 5 – 6 yüz min.

Başqan:

– Canablar, malumatlarınız qeyd edilmişdir. Biz muzakira edar, lazım olsa sizi yeni malumatlar almaq üçün takrar davət edarik...

Aşagıda Norandukyanın Lozann konfransının ikinci komissiyasında oxudugu maruzanin matni verilmişdir.

Maruze:

"...Canablar, bilirsiniz ki, bizim istaklarimiz çox normaldır. Ermanilarin na qadar sülha mohtac olduqlarını va bu konfransda onların xeyirli qayaləri yerinə yetirildikda na qadar xoşbaxt olacaqlarını da bilirsiniz. Faqat ortada bazi masalalarin olduğunu va bunlar uçün izahat vermayimizin lazım oldugunu anlayırıq. 1915-ci il hadisalari ermenilar va türklar arasında böyük bir uçurum yaratmışdır. Genc türklarin idaraçilari qanunsuz şekilda ancaq ermanilara – Türkiya hokumatinin sadiq vatandaşlarına qarşı deyil, mamlakatlarinin maddi manfeatlarina qarşı da bilgisizlik gostarmişlar. Alman safirinin va digarlarinin şahidliyini nazara almadan Türkiya ermanilarını asgara

alınmış, əsgəri xidmətlərini yerinə yetirmiş, sürgünə qətliama uğramış və sayılarının çox hissəsini itirmişlər.

Türk siyasətinin bu vəziyyəti olduqca acınacaqlı halda olmaqla bərabər, biz o məsələlərə qayıtmaq istəmirik. Gözlərimizi indiki vəziyyətə və gələcəyə çevirməyi daha üstün görürük. Təəssüflər olsun ki, türklər və ermənilər arasında qarşılıqlı səmimi bir dostluq yoxdur. Türkiyədə hökm sürən, sərt və qəti bir görünüş ərz edən vəziyyəti yüngülləşdirmək mümkün deyildir.

İsmət paşa həzrətləri bizim erməni yurdu qurmağımızı lazım bilmir, sadəcə xarici məmləkətlərdə olan mühacirlərimizin Türkiyəyə dönmələrinə izin verilməsini sülh üçün kifayətedici görür. Fəqət təəssüflər olsun ki, biz indiyə qədər meydana gələn və gələcəkdəki hadisələri nəzərə alıb yalnız bununla kifayətlənə bilmərik. Baxın, bir nümunə: Balıqkəsir, Bursa və Biqada yaşayan ermənilər türklərin sözlərinə güvənərək evlərində qalmışlar və sonra son hadisələr zamanı öldürülmüş, yox edilmişlər. Digər tərəfdən, Mondros mütarikəsindən sonra Anadoluya getmək cəsarətini göstərmiş olan həyatda qalan ermənilər də təkrar köç etmək yolunu tutmuşlar. Hər şeyini itirmiş olan qadınlar, uşaqlar, qocalar qışın soyuğunda, buzlar arasında Qara dəniz və Suriya yollarını tutmuş, sağlam olanlar isə həbsxanalarda saxlanmışlar.

Bu gün 700 000 Türkiyə ermənisi bu ölkələrə dağılmışlar:

345 000 Qafqazın müxtəlif yerlərinə, 140 000 Suriyaya 120 000 Yunanıstan və Adalar dənizindəki adalara, 40 000 Bolqarıstana, 50 000 İrana, geri qalanları isə başqa yerlərə. Bütün bunlar və bunların arasından xeyriyyə quruluşları tərəfindən nəzarət altına alınan 110 000 yetim uşaqlar nəzərə alınmayaraq köçə zorlanmışlar. Bütün bu köçkünlər böyük çətinliklər görmüş, saysız qurbanlar vermiş və indi də səbrsizliklə özlərinin bu acınacaqlı hallarına son veriləcək günü gözləyirlər. Bu çalışqan və fəal insanlar xeyriyyə təşkilatları tərəfindən nəzarət altındadırlar. Lakin belə bir yardımın da davam edə bilməyəcəyi ortadadır.

Heyf ki, həqiqət budur.

Cənablar, şübhəsiz ki, bu ailələrin qorxunc xatirələr buraxdıqlarını, onlar üçün bitməz-tükənməz mübarizələrin təkrar başlayacağını və onların keçmiş yurdlarına dönmələrinin təbii olduğunu qəbul edərsiniz. Heç bir izin, heç bir əmr, heç bir vəd güvən verə bilməz. Ancaq milli bir yurdun yaradılması keçmişin üzərinə bir pərdə çəkər, düşmançılik hisslərini aradan götürər və güvənliyi təmin edər.

İttifaq dövlətlərinin daha əvvəl milli yurd haqqında aldıqları bir qərar vardı. Bu qərar 1921-1922-ci illərdə London, Paris iclaslarında sağlamlaşdırıldı. Türklərin öz müstəqillikləri üçün savaşmış olan və əvvəllər imperatorluqlarının bir parçasını təşkil edən digər müsəlman millətlərinin müstəqilliklərini tanımış olduqları halda, niyə yenə digər vətəndaşlarına aid olan bu qədər alçaq könüllü bir istəyi rədd etdiklərini anlamırıq. İstər türk hökuməti, istərsə də xüsusi şəxslər bütün bu qarışıq irqlər içərisində ermənilərі də idarə etmişdilər.

Biz Ankara Milli Məclis hökuməti konstitusiyasının Böyük Britaniya hökuməti idarəsi altında müstəmləkə şəklində olacaq bir idarəyə, milli bir yurdun qurulmasına əngəl olacaq bir görüş irəli sürəcəyini zənn etmirik.

Təyin ediləcək yurda gəlincə, heyətimiz əsasən bunun yerini konfransa vermişdir. Bu yurd ya Şimal, ya da minlərcə ildən bəri ermənilərin yaşadıqları və ümumi müharibə səbəbilə müsəlmanların azalmış olduğu Kilikiyada olacaqdır.

Bunu da xatırlatmama izin verin ki, dünyanın bütün millətləri bizim davamızın haqlı olduğunu və bu yurdun qurulmasını qəbul etmişlər. Baxın, masanızın üstündə minlərcə amerikalı və avropalı xristian kilsələr və etibarlı şəxslər tərəfindən imzalanmış şikayət ərizələri vardır. İzin verin, bunu da diqqətinizə çatdırım: belə düşünənlər yalnız xristianlar deyillər. Hindistandan, İrandan, Azərbaycandan, yenə Türkiyədən bir erməni yurdunun qurulmasını haqlı və faydalı görən müsəlmanlar da vardır.

Nəhayət, problemin türk və insanlıq baxımından düşünülməsindən sonra, hörmətli cənablar, haqq qavramı baxımından

da bir neçə kəlmə ifadə etməyə izin verir. Haqq adına savaşmış olan güclü müttəfiqlər minlərcə dəfə Türkiyədəki millətlərə hürriyyət vəd etmişlər. 1915-ci ildəki faciəvi sürgündən sonra Amerikada və digər yerlərdəki ermənilər fransızların əmri altında (Şərq ordusunu) təşkil etmişlər. Vətənlərinin qurtuluşu işini müdafiə və himayə etmək üçün əsgərə alınma kağızını imzaladıqdan sonra (General Allenby) komandanlığı altında Fələstin, Suriya sərhədlərində müvəffəqiyyətlə vuruşmuşlar.

1920-ci ildə "Sevr müqaviləsi"ndə erməni sərhədlərinin cızılması ABŞ Prezidentinin hakimliyinə verilməsi və Millətlər Təşkilatının 22-ci maddəsi müttəfiqlərin erməni milləti haqqındakı xoş niyyətlərini doğrulayan böyük isbatlardır.

Siyasi vəziyyət Yaxın Şərqin taleyini təyin etmək və sülhün davamı üçün tərəfinizdən yeni bir müqavilənin hazırlanmasına ehtiyac göstərmişsə, əminik ki, türklərin istəklərindən əvvəl erməni məsələsi mövzusunda haqq-ədalətin həyata keçirilməsini unutmazsınız.

Müttəfiqlərin güclü olduğu nəzərə alınmayaraq – hələ vəziyyət belədir – "Sevr müqaviləsi" zamanı erməni heyətinə yanınızda yer alma izni verilmişdi. Prinsiplərinizi və vədlərinizi yerinə yetirəcəyiniz haqqında heç bir şey bizi ümidsiz buraxa bilməz. Sözlərimi bitirərkən demək istəyirəm ki, türklər erməni yurdu mövzusundakı fikirlərini dəyişdirəcəklər. Çünki bu vəziyyət, bu yeni quruluş Türkiyə üçün şərəfverici olmaqla yanaşı, gələcəkdə özləri üçün çalışqan, sadiq, fəal bir ünsürü əldə etmək baxımından hər tərəfdən ağıllıca bir addım atmaq demək olacaqdır.

Biz Yaxın Şərqdə sülh məsələsinin bu vəziyyətin təmini ilə sağlam əsaslar üzərində qurulacağına güvənirik."

Aşağıda Aaronyanın Lozann konfransının ikinci komissiyasında oxuduğu məruzənin mətni verilmişdir.

Məruzə:

"Dostum Norandukyanın çıxışından sonra söz alıramsa, bu ancaq erməni millətinin partiyalarıyla, mühacirlərilə burada si-

za ərz etdiyimiz istəklərdə birləşmiş olduğunu bildirmək üçündür. Bundan əlavə, bura özləri üçün ədalət istəmək məqsədilə gəlmiş olan türklərin bizə qarşı törətdikləri ədalətsizlikləri söyləmək istədim. Bu gün onlar ancaq Türkiyə Ermənistanının deyil, Ermənistan Respublikasının da böyük bir hissəsini zorla almışlar. Mən Rusiyaya və müttəfiqlərə aid məsələləri qarışdırmaq fikrində deyiləm. Fəqət bunu da deməliyəm ki, 1920-ci ilin axırlarında Ermənistan Respublikası müttəfiqlər tərəfindən təsdiq edildiyi zaman Kamal ordusu Ermənistana hücum etmiş və Qars şəhəri ilə Ərdəhan, Sürməli və Naxçıvanı işğal etmişlər.

Türklər Qafqaz ermənilərinin vəziyyətini olduqca ağırlaşdırmışlar. Çünki işğal olunan yerlərdən 180.000 erməni türklərin irəliləməsindən qaçmış və respublika ərazisinin geri qalan qisminə sığınmışlar. Bu rəqəmə müharibə zamanında, yenə Şərq şəhərlərindən qaçmış və buralara sığınmış olan 350.000 erməni də əlavə edilərsə, o zaman bu yerlərdə hökm sürmüş qıtlığın, yoluxucu xəstəliklərin səbəbləri aydın olar. Yalnız Amerikanın və Avropanın yardımıyla bunların böyük təsirləri yüngülləşdirilmişdir.

Türklərin bu müdhiş hərəkətləri 1921-ci il noyabr ayının 13-də Qarsda imzalanan müqavilə ilə haqlı göstərilmişdir. Həqiqətdə isə, yalnız bu müqavilə deyil, daha bir çox müqavilələr vardır. Bunlar da "Brest-Litovsk" (1918), "Aleksandropol" (Gümrü, 1920), "Qars" (1921) müqavilələridir. Sonrakı müqavilələr "Brest-Litovsk" müqaviləsinin təkrarıdır və hamısı da yuxarıda sayılan yerləri bizdən alırdılar. Mondros mütarikəsilə "Brest-Litovsk" və "Batum" müqavilələri hökmsüz qaldı. 1921-ci il "Batum müqaviləsi" tamamən ortadan qalxmış qəbul edildi. Böyük dövlətlərin heç biri "Qars müqaviləsi"nin varlığını tanımaq istəmədi.

Türklər bütün bu şəhərlərin hələ 1877 türk-rus müharibəsindən əvvəl də özlərinə aid olduğunu söyləyirlər. Əgər belə düşünəcək olsaq, o zaman Bolqarıstan da Türkiyəyə aid idi. Əgər özləri bir qədər uzaqlara gedərlərsə, o zaman iddia etdikləri hakimiyyət haqları, görəsən, haralara qədər uzanar?

Bu da nəzərə alınmalıdır ki, türklər çox güvəndikləri (Misak-i Milli) ilə Qarsı, Ardahanı, Batumunu iddia edirdilər. Bundan əlavə xatırlatmalıyam ki, Sürməli və Naxçıvan əsla türklərə aid olmamışdır. Bunları ruslar iranlılardan almışlar. Lakin türklər bu ikisinə də hakim oldular. Sürməlini özlərinə saxlayaraq Naxçıvanı Azərbaycana verdilər.

İndi erməni milli yurdu probleminə keçərkən, bu məsələnin çox zaman pis bir şəkildə müzakirə mövzusu olduğunu və yanlış anlaşıldığını nəzərinizə çatdırmağıma izin verin. Bizim xahiş etdiyimiz bir sığınacaq, bir mühacir yeri deyildir, biz köhnə vətənimizə, milli bir yurda sahib olmaq istəyirik.

Bilirsiniz ki, erməni millətinin çox acı zülm görməsi və əzilməsi məsələsilə birlikdə siyasi problemləri də vardır. Erməni məsələsindən 1856-cı il Paris və 1878-ci il Berlin konfranslarında bəhs edilmişdir. Əbdülhəmidin səltənət günlərində törədilən qətliamlardan sonra 1895-ci ildə islahat işi müzakirə olundu və nəticədə, yeddi şəhər haqqında qərarlar verildi. Alınmış qərarlar nəticəsində Ermənistana Vestenenk və Xof adlarında, biri hollandiyalı, digəri norveçli iki yüksək komissar göndərildi. Böyük müharibə çıxdı, türklər bu komissarların ikisini də qovdular və erməni problemini erməniləri yox edərək ortadan qaldırmağa çalışdılar. Bu faciəvi tarix hamımız tərəfindən bilinir və təkrarına ehtiyac yoxdur. Müttəfiqlərin tərəfini əsrlik iztirablarımıza qarşı böyük bir etimad və fədakarlıqla qəbul etdik. Onlar da bizə Türkiyədən, Rusiyadan ayrılmış, müstəqil və azad bir Ermənistan verməliydilər.

Bu gün bizə Qafqaz Ermənistanını və yenə ABŞ Prezidentinin cızdığı sərhədləri bir tərəfə qoyaq, heç olmasa bir Ermənistanın təşkili üçün nə qədər yetərsiz olsa da, dənizə bir çıxış limanıyla bərabər milli bir yurd vermək ən azından bir ədalətin yerinə yetirilməsi üçün olmazdımı?

Millətimiz 2500 il davamlı olaraq o qitələrdə yaşamışdır. Türklər oralarda bir üstünlük əsla göstərməmişlər. Ermənilərin alçaq könüllü olduğu qədər haqlı olan bu iddialarına qarşı, İsmət paşa 700.000 erməni mühacirlərimizə Kanada və Avstra-

liya yollarını göstarir. Bugünkü nöqtaya çatıncaya qadar biz vatanimiz üçün çox iztirab çakmiş va çox qanlar axıtmışıq. Millatimiz Kanada va Avstraliyaya getmamak uçün bir ruh va bir ürak olaraq ümumi qarmaqarışıqlığa atılmış va yalnız indiki vaziyyatini, galacayini deyil, keçmişini da ortaya qoymuşdur. Çünki bu harakat butun bir naslin keçmiş va galacakdaki nasillarla fizioloji bağlarının yox olmasını lazım bilirdi. Ümumi muharibaya qatılmış olan heç bir böyük va ya kiçik müttafiq millatin kiçik ermani millati qadar iztirablı günleri olmamışdır. Bu iztirablar da na qadar kiçik ölçüda olursa olsun, bir Vatan istamak haqqını ona vermakdadir.

Biza deyirlar ki, ermani qurtuluş harakatı Britaniyadan va çar Rusiyasından galan tasirlarla başlamışdır. Burada eşitdirmak istayiram ki, çar hökumati va sultan Turkiya Ermanistanındakı zülmü yox etmayi hadaf alan bütün harakatı mahv etmak xüsusunda eyni fikirda olmuşlar. Türk Ermanistanındakı qardaşlarının imdadına çatmaq üçün qurulmuş olan bütün Qafqaz dastalari sarhad boyunca rus ordusu tarafindan yox edilirdilar. Çünki çar hökumati sarhadlarinin canub kasiminda bir Ermanistan yaratmaq istamirdi.

İngiltarenin tasirli olduğu xabarlar da başqa bir afsanadir.

Bizim qurtuluş harakatımız Balkan millatlarinin harakatlarına yol açan darin sabablardan irali galmişdir. Türklarin va onlardan ayrılmış millatlarin qarşılaşdırılması tarixin na qadar haqlı, bu harakatların insanlıq va madaniyyatlar baxımından na qadar faydalı olduğunu göstarmak üçün kifayatedici bir asas ola bilar.

Bali, biz daima vatanimizin hürriyyati üçün çalışmışıq. Birlaşmiş Ermanistan bizim idealımız olacaqdır. Agar bu gün müttafiqlari bir Ermanistan yerina kiçik bir Ermanistan cızmağa zorlayan çatinliklar varsa, Kilikiyada milli bir yurdun qurulması taklifini müttafiqlarin arzusuna hörmat etmak va çalışmalarını asanlaşdırmaq üçün qabul edacayik.

Biz adalata çatacağımıza inanırıq. Çünki İngiltara, Fransa va İtaliyanın biza verdiklari sözlara güvanirik. O İngiltara ki, bir

gün içərisində bütün dünyaya qarşı Beynəlxalq müqavilələrin ancaq bir kağız parçasından ibarət olmadığını göstərmək üçün ayağa qalxmışdır. O Fransa ki, müttəfiqlərə bağlı qalmaq və insani böyük prinsiplərin ayaq altına alınmasının qarşısını almaq üçün bütün varlığı ilə meydana atılmışdır. O İtaliya ki, xaricilərin boyunduruğunu tanımamış və o boyunduruğu qırmaq üçün ortaya çıxmışdır. Onlar bizi tərk etməməlidirlər. Bu baxımdan biz inam içindəyik. Bu konfransın bizim davamızı ədil bir şəkildə çözmədən dağılmayacağına inanırıq. Biz bu işin ağırlığını bilirik. Lakin əminik ki, ədalətin tam və həqiqi olması üçün müttəfiqlərin ortaq və birləşmiş arzuları kifayətdir."

Türk millətinin düşüncələrinə tərcüman olan böyük dövlət adamı, bacarıqlı siyasətçi İsmət İnönünün: "Türk torpaqları bir erməni yurdu üçün parçalana bilməz. Nə Şərqi vilayətlərdə, nə də Kilikiyada ana vətəndən ayrılması mümkün olan bir qarış torpağımız hələ yoxdur. Onsuzda Türkiyə bu gün mövcud və müstəqil olan Ermənistan Respublikası ilə müqavilələr bağlamışdır. Digər bir Ermənistanın ola biləcəyini Türkiyə xəyalından belə keçirməz" şəklindəki sözləri bu məsələni dibindən söküb atdı. Ermənilərin bütün təşəbbüsləri nəticəsiz qaldı.

Erməni heyəti bütün bu nəticələrə baxmayaraq öz fəaliyyətlərindən geri durmurdu. Bu arada, daşnaksutyun komitəsi heyət təmsilçilərinə sırf siyasi qayələrinə görə özlərindən istifadə etmiş və bir zamanlar özlərinə vədlər vermiş dövlətlərin vasitəsilə erməni "problemini" yeni yollarla davam etdirmələrini bildirdi. Buna görə də Birləşmiş Erməni Təmsilçilər Heyəti Lozandan ayrılarkən konfrans iştirakçılarına bu bildirişi verdi:

**Erməni heyətinin bildirişi**
2 fevral 1923, Lozann

"Heyətimiz Lozann konfransı komissiyasının bildirişlərində və mətbuatda yayınlanan sülh müqaviləsi proyektinin ittifaq dövlətləri tərəfindən erməni problemini üzüstə buraxmış olduğunu anlamışdır.

Təmsilçılar heyəti bu şərtlər altında ittifaq dövlətləri və ermənilər üçün olduğu qədər türklər üçün də çox kədərli olan bu üzüstü buraxılmanın səbəblərini axtarmaq və müzakirə etmək istəməz. Lakin erməni heyətləri erməni məsələsinin təkrar çözülməmiş olaraq qaldığını və talesiz bir millətin vəziyyətinin daha da faciəvi bir şəkil aldığını göz qabağına qoymağa özlərini məcbur görürlər.

Böyük dövlətlər Türkiyə ermənilərinin qurtulması haqqında ancaq siyasi və insani baxımdan deyil, ermənilərin ümumi müharibə zamanı ittifaq dövlətlərinə göstərdikləri saysız xidmətlər səbəbilə verdikləri vədləri, şübhəsiz, xatırlayırlar.

İttifaq dövlətlərin çağrısı səbəbilədir ki, erməni könüllüləri dəstə-dəstə bunların bayraqları altında toplanmışdılar. Bu erməni könüllüləri vətənlərinin hürriyyəti vəd edilmiş şərtnaməni imzalamışdılar. Fələstin və Kilikiyada məşhurlaşmış şərq ordusunu meydana gətirmişdilər.

1918-ci ildə təkbaşına Qafqaz sərhədlərində vuruşan və türklərin Britaniya ordusuna və İraqa doğru irəliləmələrinə əngəl olan ermənilərin əsgəri gücü olmuşdur. Nəhayət, Bakıda qəhrəmanca müdafiə olunmalarıyla neftin qərb cəbhəsindəki Alman ordusuna çatmasının qarşısını alan da erməni əsgəri olmuşdur. Alman komandanlarının ifadələrinə görə, bu qılıq hərbin bitməsini tezləşdirmişdir.

Belə öyüləcək və ölçülə bilməyəcək dərəcədə çox olan fədakarlıqlar erməni millətinə çox baha başa gəlmişdir. Əgər onların maddi və həyati itkilərinə bir nəzər salsaq, 1 500 000 ermənini qətliam və sürgünlərlə məhv olduğunu və 700 000 erməninin yersiz-yurdsuz dolaşdığını, 100.000 yetimin xeyriyyə cəmiyyətlərinə yük olduğunu və Türkiyədə 10 milyon frank itkiyə uğradıqlarını görürük. Beləcə, erməni milləti övladlarından böyük bir qismini itirmiş, kilsələrindən, məktəblərindən və vətənindən məhrum qalmışdır.

1878 Berlin konqresi və bundan sonra erməni məsələsinin böyük dövlətlər tərəfindən ələ alınması üzərində durmayaraq, böyük dövlətlər tərəfindən ümumi müharibənin qayələri ara-

sında haqq və ədalətin olduğu haqqında verilən bildirişi xatırlamağımıza izin verin.

1919-cu ildə Versaillesdə bağlanan müqavilənin 22-ci maddəsi əsaslarıyla müttəfiqlər Osmanlı imperatorluğunda olan bir çox millətləri qurtarmaq istəmişlər ki, bunların başında ilk yeri ermənilər alırdı. "Sevr müqaviləsi" ilə 1920-ci ildə ittifaq dövlətləri müstəqil Ermənistanın sərhədlərini cızdılar. 1921-ci ildə London konfransında erməni yurdunun qurulmasını qərarlaşdırdılar. 1922-ci ildə Paris toplantısında "Böyük Dünya müharibəsi zamanı özlərinə qarşı müttəfiqlərin o qədər borclu olduqları ermənilərin içərisində olduqları pis vəziyyətə xüsusi olaraq diqqət göstərilməsini" bildirdilər. Nəticədə, Millətlər Təşkilatının ənənəvi arzularını təmin etmək üçün kiçik millətlərin müdafiə olunması əsasına riayət edilərək müttəfiqlər tərəfindən müharibə əsnasında döyüşən bir millət və hərbdən sonra müttəfiq olaraq tanınmış olan ermənilər üçün 1923-cü ildə Lozannda vədlərini həyata keçirəcək heç bir şey qərarlaşdırılmamış olduğunu diqqətinizə çatdırmağımıza, şübhəsiz, izin verərsiniz.

Bu şərtlər altında yaradılmış olan təmsilçilər heyəti zülm görmüş və qurban edilmiş bir millət adından dövlətlərdən bir dəfə daha ədalət və haqsevərlik yolundakı iztirablarına, əməllərinə mədəni aləmin dayana bilməyəcəyi erməni millətinin gələcəyi üzərində qərar vermələrini xahiş edər. Belə bir sülhün Yaxın Şərqdə istənilənı verməyəcəyini əlavə etmək də bizə düşər.

Bu bildirişi imzalayan təmsilçilər heyəti sizdən buna əhəmiyyət verməyinizi xahiş edərək səbrsizliklə cavabınızı gözləyir.

BİRLƏŞMİŞ ERMƏNİ HEYƏTİNİN
TƏMSİLÇİLƏRİ"

Erməni dostları birliyinin təmsilşiləri tərəfindən Çiçerinə belə bir yazı verildi:

"Lozann konfransının nəticəsi nə olursa olsun, erməni məsələsi qəti olaraq bir nəticəyə bağlanmadıqca bir müqavilə im-

zələnməməlidir. Bu gün milyonlarca imza ilə erməni milli yurdunun qurulmasını istəyən mədəni dünyanın ümumi düşüncəsi Türkiyə Ermənistanının varlığına son verəcək bir sülhün qəbul edilməməsi istəyindədir.

Erməni dostları birliyi və onun Lozann təmsilçiləri bu gün türk təhlükəsinin xaricində olan Qafqaz Ermənistan Respublikasını Sovet İttifaqı Rusiyasının qurtarmış olduğunu bilirlər. Fəqət bura yurdu gözləyən 800 000 erməni qaçqınını almaq üçün çox kiçikdir.

Ruslar Qafqaz Ermənistanının sərhəddini Van və Bitlis istiqamətində genişlətmək üçün türklərlə bir müqavilə bağlaya bilərlər. Beləcə, ruslar sərhədləri içərisində müstəqil bir hökumət yaratmaq üçün türklərin qarşı çıxmasıyla çətinliyə uğrayan müttəfiq dövlətlərlə və türklərlə erməni problemini çözmüş olarlar.

ERMƏNİ DOSTLARI BİRLİYİNİN
TƏMSİLÇİLƏRİ"

Çiçerin bu məktuba belə cavab vermişdir:

"Sizinlə və yanınızda olan Beynəlxalq Ermənistan Birliyi üzvlərilə olan görüşmələrim nəticəsində Lozann konfransında Rusiya, Ukrayna və Gürcüstanın erməni məsələsinin gözdən keçirilməsilə maraqlanmamış olduqlarını eşitdim. Halbuki bizim qatılmağımız bu problemin doğru bir şəkildə və həqiqət olaraq həll edilməsini təmin edərdi.

İndi isə Rusiya və Ukrayna hökumətlərinin sayları doğru olaraq müəyyən ediləcək erməni mühacirlərini sərhədləri içərisinə almağı təklif etdiklərini bildirirəm. Bu təklifimin əlaqədar şəxslərə eşitdirilməsini xahiş edirəm.

Dərin hörmətlə, ÇİÇERİN."

Mussoliniyə də Millətlər Təşkilatında erməni yurdu fikrinin müdafiəsini təmin etmək məqsədilə bu teleqraf çəkildi:

"Ekselans, bu sabahkı görüşməmizin nəticəsi olaraq sizə erməni yurdunun yaradılmasını asanlaşdıracaq aşağıdakı təklifləri ərz edirik. Əgər ittifaqda olan dövlətlər saysız vədlərinə baxmayaraq, erməni yurdu üçün bir şey edə bilməzlərsə, heç olmasa bunları təmin edə bilərlər:

1. Lozann müqaviləsinə həyata keçirilməsini Millətlər Təşkilatına buraxmaqla, prinsip olaraq erməni milli yurdunun qurulması üçün bir maddə qoya bilər və ya;

2. Erməni milli yurdunun qurulmasını prinsip olaraq qərarlaşdırdıqdan sonra bunun həyata keçirilməsini səfirlərin konfransına və yaxud da meydana gətiriləcək bir xüsusi komissiyaya verə bilərlər.

Yüksək şəxsinizdən bizim məsələmiz haqqında göstərdiyiniz xoş düşüncənizə görə təşəkkürlərimizin qəbulunu xahiş edirik. Müdaxilənizin istər ittifaq dövlətləri tərəfindən, istərsə də bütün vicdanı ilə iztirab çəkməkdə olan bir millət tərəfindən mükəmməl anlaşılacağına inanmağınızı istəyirik.

Dərin hörmətimizi qəbul edin.

BİRLƏŞMİŞ ERMƏNİ HEYƏTİNİN
TƏMSİLÇİLƏRİ."

Birləşmiş Erməni Heyəti Millətlər Təşkilatına belə müraciət etmişdir (9 avqust 1923):

"Rəis həzrətləri, erməni milləti tərəfindən səlahiyyətli qılınan Ermənistan Respublikası Təmsilçilər Heyəti 24 iyul 1923-cü ildə Lozanda müttəfiqlərlə türklər arasında bağlanmış müqaviləni sükut içərisində keçirə bilməz. "Sevr müqaviləsi"nin yerini tutan bu müqavilə "Sevr müqaviləsi"lə və onu təqib edən konfransların ümumi müharibə zamanında və ondan sonra müttəfiqlər tərəfindən verilən sözlərə əsaslanaraq ermənilərə vermiş olduğu haqları nəzərə almamaqla qalmır, açıq

olaraq ermənilərin varlığını da rədd edir. Bu üz ilə Ermənistan Respublikası Təmsilçilər Heyəti böyük dövlətlərin rəhbərlərinə müraciət etməklə, bu məsələ haqqında Millətlər Təşkilatının hörmətlə və önəmlə diqqətini çəkər.

Erməni məsələsinə aid olan bütün işlər hələ həll edilməmiş bir vəziyyətdə qalmaqdadır. İndiyə qədər Millətlər Təşkilatının müttəfiq dövlətlər yanında edilən müdaxilələri və qərarlarıyla erməni millətinə qarşı olan hissləri və marağından dərin minnətdarlıq daşıyan erməni təmsilçi heyəti adından sizdən bu ərizəmizdə bəhs edilən məsələlərin gündəliyə alınmasına yardım etməyinizi hörmətlə xahiş edirəm.

Dərin hörmətlərimi qəbul buyurmanızı xahiş edirəm, rəis həzrətləri.

ERMƏNİSTAN RESPUBLİKASI HEYƏTİNİN
RƏİSİ A. AXARONYAN"

Müttəfiq dövlətlərin təmsilçilərinə lazımi səbəbləri açıqlayan bu protest yazısı verilmişdir (9 avqust 1923):

"Lozann konfransından sonra "Sevr müqaviləsi"nin yerinə yeni bir sənəd imzalanmışdır ki, bunda erməni probleminə dair bir söz belə yoxdur. Müharibə edən millətlərdən ən çox yara alan, ittifaq qurmuş dövlətlərin böyük prinsiplərinə güvənərək müstəqilliyini əldə etmək üçün savaşa atılan və əhalisinin tam üçdə birini itirən millət bu gün özünü yalqız və unudulmağa məhkum bir vəziyyətdə hiss edir. Müttəfiqlərin parlaq vədlərinin nəticəsi və saysız qurbanlarının mükafatı olaraq Ermənistanın varlığını təmin edəcək nöqtələr "Sevr müqaviləsi"nə qoyulmuşdu. Müstəqillik və ədalət üçün savaşan millətlərdən heç biri müstəqil yaşamaq haqqını əldə etmək üçün ermənilər qədər baha ödəməmişdir. Ümumi sülhün müharibədən əvvəlki problemləri həll etdiyi doğrudursa, o halda vəziyyəti proqramlanamayacaq dərəcədə ağırlaşan tək millətin ermənilər olduğu da doğrudur. Zəfərin müsbət nəticələrindən yoxsul qalan və bunun bütün acılarını dadan erməni millətidir. Türkiyədə və bolşevik rejimi altında yaşayan iki milyon erməniyə toxunma-

yaraq deməliyəm ki, hələ bütün dünyaya yayılmış, ağır məhrumiyyətlərə, xəstəliklərə uğramış bir milyondan artıq erməni vardır. Bunlardan ancaq onda biri öz gücü ilə yaşamaqda və az-çox yaxşı bir vəziyyətdədir. Geri qalanı qanunların himayəsindən yoxsul və mühacir zopası altında dolaşmaqdadır. Türkiyə ermənilərinin ölkələrinə dönmələrinə və mallarından faydalanmalarına izin vermir. On mindən artıq yetim uşaq miras hüququndan məhrumdur. Müraciət edən ermənilər isə qanun xaricində sayılırlar. Nə ödəmə, nə də geri dönə bilmə?

Vətəndə qalan və zərərləri milyonları aşan mallar, kilsələr, məbədlər, kitabxanalar haqqında bir məlumatımız yoxdur. Bunların hamısı ya yanmış, ya da yox olmuşdur. Qalmışsa da, türk hökuməti tərəfindən zəbt edilmişdir.

Bu qədər tez unudulmağa tərk edilən erməni millətinin faciəvi vəziyyətini göstərmək üçün bunların hamısını hazırlamaq lazımdır. Bütün bu problemlər və bunlardan irəli gələn digər bir çoxları da indiyə qədər həll edilməmiş olaraq qalmışdır. Məlumdur ki, erməni məsələsi üçün Lozann aldatma şəklini aldı. Bu müqavilə ermənini nəzərə almayaraq, erməni milləti yoxmuş kimi imzalandı. Bir şərəfli millətin gələcəyini qərarsızlıq içərisində buraxan Lozann müqaviləsi nə sülhə, nə də haqq və ədalətə yaraya bilər.

Heyətimiz bu şərtlər altında, ittifaq dövlətləri tərəfindən müharibədən əvvəl, müharibə zamanı söz verilmiş "Sevr müqaviləsi" və onu təqib edən müqavilələrlə gücləndirilmiş olan bütün haqlarına bağlı məsələlər mövzusunda daha ehtiyatlı olacaqdır. Etiraz notamız necə şərh edilərsə edilsin, Ermənistan Respublikası heyəti erməni milləti tərəfindən özünə verilmiş ixtiyara hörmət edərək bütün gücüylə "Lozann müqaviləsi"nə qarşı çıxır.

Tarixin ən yaxşı hakim olacağı ümidlərilə doluyuq.

ERMƏNİSTAN RESPUBLİKASI HEYƏTİNİN
RƏİSİ, A AXARONYAN."

## LOZANNDAN SONRA ERMƏNİLƏRİN VƏZİYYƏTİ

Bu tarixi əsərimizin I-ci cildini "Lozann sülh müqavilə-si"ndən sonra ermənilərin düşdükləri vəziyyətdən bəhs etməklə bitirməyi uyğun gördük.

İllərdən bəri ermənilərin "qoruyucusu" vəziyyətində olan və sırf "insani" duyğularla hərəkət etdiklərini elan edib bir çox sözlər verən dövlətlər artıq özləri üçün bir fayda qalmayınca, Lozannda ermənilərı silib atmışdılar.

Avropanın müdaxiləsilə erməni məsələsinin həll ediləcəyinə illərcə böyük ümidlər bəsləyən ermənilər Türkiyədə hər şeyi itirdikdən sonra gözlərini təkrar Rusiyaya çevirdilər. Ermənilər türklərin Rusiyanı əzəldən bəri düşmən qəbul etdiklərini və arada milli bir nifrətin mövcud olduğunu düşündüklərinə görə, ümidlərini köhnə idarənin Rusiyaya dönüşünə bağlamağı və rus idarəsi ilə məşğul olmağı uyğun gördülər. Onlar Rusiyadakı rejimin erməniləri qoruyacağını və ermənilər üçün faydalı olacağını sandılar.

Lozandan sonra erməni çevrələrində bu düşüncəyə bir proqram şəkli verməl uyğun görüldü. Beləcə, bu dörd əsas üzərində çalışılmasına qərar verildi:

1) Ermənistan Respublikasındakı rejimdə müstəqil olaraq iqtisadiyyat və mədəniyyət əsaslarını gücləndirmək.

2) Bütün dünyaya dağılmış olan ermənilərdə dili, mədəniyyəti, milli ruhu və siyasi idealı yaşatmaq və qorumaq.

3) Avropa dövlətləri qarşısında, Millətlər Təşkilatında və siyasi cəmiyyətlər arasında ermənilərin iddialarını davam etdirmək və onların gerçəkləşməsi üçün şəraitlər hazırlamaq.

4) Ermənistan xalqına və mühacirlərinə xeyriyyə cəmiyyətlərinin mali yardımlarını hər nə bahasına olursa olsun təmin etdirmək, yetimləri oxutmaq, onları həyata yetişdirmək, möhtac ermənilərə yardım etmək, xəstələri müalicə etdirmək.

Avropada yaşayan ermənilərdən onları idarə edəcək bir təşkilat yaratmaq düşüncəsi, bəzi müxaliflərə baxmayaraq, ye-

nə daşnaksutyun komitəsinin keçmişdəki kimi, birləşmiş və müstəqil bir Ermənistanın bayraqdarlığını təmin etmişdi.

Daşnaksütyun komitəsinin başçılarından biri olan Kaçaznuninin "Lozann müqaviləsi"ndən sonra söylədiklərinə bir nəzər salaq ("Artıq Daşnaksutyunun görəcəyi iş yoxdur" əsərindən alınmışdır):

"1922-ci ildə Türkiyə ermənisinin davası çözülməyə başlandı. Lozann konfransında ilk dəfə rəsmən (home) kəlməsi söyləndi. "Sevr müqaviləsi" unudulmuşdu. Artıq nə müstəqil bir Ermənistan, nə də yarı müstəqil bir Ermənistandan bəhs edilirdi. Milli bir yurd, başqasının evi içərisində şübhəli bir yurd düşüncəsi ortaya atılmışdı. Buna sülhü qorumaq üçün son bir fədakarlıq deyilirdi. Məsələ mart ayında belə idi.

İl sonunda iş bir az fərqli bir vəziyyət aldı. (Yurd), dostca bir təklif və istək şəklində türklərin lütfünə verildi. Bir operetta dialoqu başlandı. Türklər bu düşüncəni rədd etməkdən və əhəmiyyət verməkdən, mədəni bir şəkildə çox üzgün göründülər. Müttəfiq Böyük dövlətlər, yaslı və ümidsiz jestlər etdilər: "Zavallı ermənilər üçün bütün vasitələrimizdən istifadə etdik, hər bir çarəyə baş vurduq, mümkün olan və olmayan hər şeyə təşəbbüs göstərdik, artıq bir şey etməyə gücümüz çatmaz..."- dedilər və kuponlar probleminə keçdilər.

Burada ortaya çıxan Çiçerin Sovet Rusiyası adından böyük yardım olaraq Türkiyə ermənilərinin həyatda qalanlarına Krımda, Volqa çayı sahillərində və Sibirdə yer təklif etdi...

Hökumət yurda, yurd da köçlərə, Sibirə döndü.

Dağ sıçanmı doğdu? Xeyr. Dağ tərif edilə, anladıla bilməyəcək dərəcədə iztirablar keçirdi, təməlindən sarsıldı, parça-parça oldu, içərisindən qanlar fışqırdı və sonra heç bir şey, hətta sıçan belə doğulmadı..."

Daha sonra Kaçaznuni belə demişdir:

"Bizim üçün hökumətin təşkili və siyasi bir liderlik daima qüdrətimizin üstündə bir şey olmuşdur. Biz daima hesablarımızda yanıldıq, uzaqgörən olmadıq, görəcəyimiz işlər haqqında bilgi sahibi olmadıq.

Həla Ermənistanın vəziyyəti nədir?

Araz və Sevan (Göyçə gölü) arasında olan kiçik bir cəmiyyət. Adı müstəqildir, lakin həqiqətdə Rusiya imperatorluğunun yarımmüstəqil üç respublikasından biridir. Türkiyə Ermənistanı yoxdur. Nə hökumət, nə yurd, nə də millətlərarası bir məsələ. Dava bağlanmış, öldürülmüş və Lozannda dəfn edilmişdir. Bundan əlavəsi də var: Artıq Türkiyə Ermənistanında erməni də yoxdur. Bundan sonra olması da məlum deyildir. Türklər qapılarını bərk-bərk bağladılar. Bunu zorlayaraq açmaq üçün də bizdə güc yoxdur.

Bir milyona yaxın əhali Ermənistan Respublikası içərisində, bir milyondan artığı da xaricdə, – Gürcüstan, Azərbaycan, Şimali Qafqaz, İran, Suriya, İstanbul və dünyanın hər tərəfinə dağılmış bir halda. Çöldəkilərin ancaq bir qismi Ermənistanda sığınacaq bir yer tapa bilər. Çox dar olan sərhədlər erməni şəhərlərindən çıxmış olanların içəriyə köç etmələrinə əngəldir. Daşnakların bir qismi də ticarətə bağlıdır. Ümumiyyətlə, xaricdakı ermənilər bugünkü Ermənistan üçün bir ünsür sayıla bilməzlər. Bugünkü vəziyyət belə davam etdikcə də bunlar Ermənistan üçün ögey övladdırlar. Daşnaklar birlikdə çalışmaq üçün əsasən ixtilalçı sosialist bolşeviklərə müraciət etmişlər, ancaq rədd olunmuşlar. Onlar istək və arzularıyla xaricdə yaşayırlar, daxilə alınmırlar. O halda qeyri-leqal, fəsadçı şəklində və ya daha geniş ölçüdə ixtilalçı olaraq çalışmaq qalır.

Biz çarlıq və sultan dövlətləri tərəfindən təqib edilmişdikmi? İllərcə Türkiyə Ermənistanında etdiklərimizi indi Ermənistanda edə bilmərikmi? Şübhəsiz, buna sahibik. İranın Qaradağında bir yuva qura bilərik (bir zamanlar Səlmasda qurduğumuz kimi). Və oradan Arazın digər tərəfinə insan və silah keçirə bilər, gizli əlaqələr qura bilərik. Biz silahlı çətələr saxlaya bilərik, Sünik və ya Tarlakyazı dağlarında, Sasun dağlarında, Şatak təpələrində, girilməz, alınmaz yerlərdə bir neçə kəndi üsyan etdirməyə, oradakıları ya xaricə və yaxud qırmağa gücümüz çatar. Sonra gurultulu nümayişlər törətməyə, hətta Yerevan içərisində bir neçə saat üçün hər hansı bir rəsmi idarəni bir zamanlar

Osmanlı bankasını işğal etdiyimiz kimi, işğal edər, bu və ya digər bir idarəni havaya uçurmağa, təşkilat qurmağa, şəxsi tədhişlərə, cinayətlər törətməyə qadirik. Sultanın və çarın vəzifəli şəxslərini öldürdüyümüz kimi, bir neçə bolşeviki öldürə bilərik. Ulduzcada Sultan Həmidin ayaqları altında partlatdığımız kimi, Miyasnikyan və ya Lukaşinin qarşısında bombalar partlada bilərik. Bütün bunları edə bilərik, lakin ortaya bir sual çıxır: hansı ümidlə edək?

Türkiyədə bu hərəkətləri törətdiyimiz zaman bu surətlə üzərimizə böyük dövlətlərin dostca marağını çəkirdik, lehimizə müdaxilələrini təmin etdiyimizi zənn edirdik. Artıq indi bu müdaxilənin həqiqi bir qiyməti yoxdur və mənə elə gəlir ki, hələ sınaqlara da ehtiyacımız yoxdur.

Əgər Avropa bizə Türkiyədə yardım etmədi və ya edə bilmədisə, artıq bundan artığını etmək istəməyəcəyini də anlamaq çətin deyildir. Rusiya yardım edə bilər. Buna görə işi Rusiyaya buraxmalı. Onsuzda bolşeviklər Ermənistanı istila etməmiş olsaydılar, onları çağırmağa biz məcbur olardıq.'

## MƏNBƏLƏR

1. Evald Banse, "Turkei," Berlin 1915.
2. Dr.Daqavaryan, "Ermani tarixi haqqında bir qaralama," Venedik, 1908.
3. "Peopls of all Nations" jurnalı, 1934, No 3.
4. Memoir sur lAsie Centrale, 1875.
5. The Historians of the World, cild VI, s. 401.
6. Renee Crousset, Histoire de lAsie, cild I, s. 72.
7. Renee Crousset, Histoire de lAsie, cild I, s. 72-73.
8. Sait Martin, Histoire des Arsacides, cild I, s. 28.
9. Qaşqarlı Mahmud, "Divan-i lüğat it türk," cild I, s. 286.
10. Bedros Keresteciyan, Dictonnaire Etymologique de la Langue Turk, cild I, s. 191-192.
11. Moise de Khoren, Histoire dArmenien, cild III, s. LXXI.
12. Inayetullah Cemal Ozkaya, Le Pekple Armenien et Les Tentavites de Reduire Le Peuple Turc en Servitude, İstanbul 1971, s. 10.
13. Qafqaz dilləri və xüsusilə köhnə ermənicə və köhnə gürcücə ixtisasçısı, SSRİ dil alimi Prof.N.Marrın dediyi kimi: "Erməni kilsəsinin ortodoks kilsəsindən ayrılmasına qədər ermənilərin milli bir adları yox idi." Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 97.
14. Revue des Etudes Armeniennes, cild I, Paris 1920, s. 2; Yahya Akyüz, "Türk Kurtuluş Savaşı və Fransız Kamuoyu," 1921-1922, Ankara 1975, s. 87.
15. M.Streck, "Ermeniye," İslam ensiklopediyası, cild XXXIII, 1964, s. 322; Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 101-106.
16. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 104.
17. N.Adontz, Histoire dArmenie: Les Origines du Xe Siecle ak VI (Av.J.C.), Paris 1946, s. 27-34.
18. R.Grousset, "Histoire de lArmenie: Des Origines 1071," Payot-Paris 1973, s. 42.
19. C.A.Burney, D.M.Lang, The Peoples of the Hills:
Ancient Ararat and Caucasus, 1971, s. 179.
* İpsos və ya İsos, Nuh dağının şərqində Suriya ilə Kilikiya arasında olan bir bölgədir.

20. Ayyıldız Hakkı Raif. "Ermenistan." Çiburı biraderler basım evi, 1946 s. 27
21. Abdullah Yaman, "Ermeni Məsələsi və Türkiyə," İstanbul 1972, s. 15
22. Sadi Koçaş. "Tarix boyunca ermənilər və türk erməni əlaqələri." Ankara, Atatürk basımevi, 1967, s. 42
23. Sadi Koçaş. "Tarix boyunca ermənilər və türk erməni əlaqələri." Ankara, Atatürk basımevi, 1967, s. 42
24. Sadi Koçaş, "Tarix boyunca ermənilər və türk erməni əlaqələri." Ankara, Atatürk basımevi, 1967, s. 42
25. Genelkurmay Askeri Tarih ve Stratejik etüt Başkanlığı arşivi, No 1 / 2, klasör 339, Dosya 1361, F.12
26. ATASE arşivi, No 1 / 2, klasör 401, dosya 1578, F.1-1
27. Sadi Koçaş, "Tarix boyunca ermənilər və türk erməni əlaqələri," Ankara, Atatürk basımevi, 1967, s. 42
28. M Hamidullah. "İslamda dövlət idarəsi," s. 127-128.
29. Həsən ibn Kahtaba, – Bizanslılarla müharibə edən Abbasi komandanı.
30. Böyük Buğa, Abbasi dövlətinin Babək üzərinə göndərdiyi türk komandanlarından Afşinin dostudur.
31. Aqratuni, ermənilərin tarixində çox mühüm mövqeləri olan bir kral sülaləsinin adıdır. M.VII əsrdən on birinci yüzilə qədər üçə ayrılmış olaraq hökumətlərini sürdürmüşlər. Sülaləyə əvvəl Əməvi Mərvan zamanında Aşot Baqratuni rəyasət edərək Ermənistanı idarəsi altına almış, sonra məğlub olaraq idarəni Mamikonyan xanədanına buraxmışkən Abbasilər zamanında təkrar hakimiyyəti əllərinə aldılar. Sonra bu sülalə bu şəkildə üçə bölündü:
   a) Ani Baqratları 885 – 1045
   b) Qars Baqratları 968 – 1064
   c) Taşirk Baqratları 982 – 1064
   Son Baqratlı kralı Qagik Kapadokiyada üsyan zamanı öldürüldü (1079). Beləliklə, xanədanlıq sondu.
32. İslam ensiklopediyası, cild IV, s. 320
33. Ahmet Hulki Saral, "Erməni məsələsi," s.39
34. İslam ensiklopediyası, cild IV, s. 319
35. Claude Cahen, Pre-Ottoman Turkey, New York 1968. Türkcəsi: Yıldız Moran, "Osmanlılardan əvvəl Anadoluda türklər," İstanbul 1979, s.79
36. Kimmerlərin proto-türklər olduqları haqqında M.Taner Tarhanın bu mühüm tədqiqinə bx. "Keçmiş çağda kimmerlər problemi," VIII türk tarix konqresi, cild I, Ankara 1979, s.355-369.

37. Bu gün ırali bir saviyyada olan "Saka / İskit araşdırmaları," Sakaların bir çox masalalara va aks duşuncalara baxmayaraq, manşalarini Orta Asiyaya bağlamaqda va bunların türk asilli olduqlarını qatiyyatla ortaya qoymaqdadır. Bx. A Zeki Velidi Toqan, "Ümumi türk tarixina giriş," I, cild II Baskı Istanbul 1970, s. 33-36, 405-409; romen tarixçisi Mixail Guboğlu sakaların (iskitlar) türklüyü haqqında bunları soylamakdadir. "Proto-türkar tarixda Seytsı ya da İskit adı ila tanınmışlar. İskitlerin çox qarışıq manşai haqqında da bazı etüdlar yazılmışdır, amma elmi asaları çox zaifdir. Çünki ancaq qrek – iskit va qrek – helen afsanalarına asaslanır... Acızana Ekrimca Şarqi Avropaya miladdan avval mininci ildan başlayaraq köçmüş iskitlarin damarlarında an keçmiş türk ya da proto-türk qanı olmuşdur... İskitlarin yediyina komas, içdiyina kısrak sütündan hazırlanmış kımız deyilirdi. Bu nov bir içki indiya qadar istar Orta Asiyada, istarsa da Monqolistanda istifada edilir. Sanatlari haqqında keçmiş qrek yazıçısı Anakreon (Sinciler çox yaxşı oxçular idi...) deya yazar." Mixail Quboğlu, "Romen millatinin keçmiş türk dövlatlari ila alaqalari haqqında," VIII türk tarix kongresi, cild II, Ankara 1981, s. 753; Sakalar ila alaqali son tadqiqatlar va köçlar haqqında bx. Baha-eddin Ögel, "Böyük Hun imperatorluğu tarixi," cild I, Ankara 1981, s. 182-166, 194-198, 461-464, 478-482.

38. "İdil (Volqa) bolqarların Şarqi Anadoluya galişlari haqqında," bx. A Zeki Velidi Toqan, "Ümumi türk tarixina giriş," s. 168-169; "İdil (Volqa) bolqarlarının türklüyü va faaliyyatlari haqqında," bx. Akdes Nimet Kurat, "IV-XVIII yuzillarda Qara danizin şimalındakı türk qövmlari va dövlatları," Ankara 1972, s. 108-118.

39. Çin manbalarinda "Hiunqan" adı ila keçan hunlar miladi 363-373 illari arasında Qafqazı aşaraq Şarqi Anadoluya girmişlar va Urfaya qadar uzanan bölgani istila etmişlar. Daha artıq malumat üçün bx "Gyula Nemeth, Atilla va Hunlar." Tercuma edan: Şerif Baştav, İstanbul 1962, s. 60; Artvin, Ərzincan, Muş, Bingöl va Əlazığda hun va hunlar adlı kandlarin olması, Şarqi Anadolunun salçuqlulardan çox avval türklaşdiyini göstarmakdedir.

40. Sabir türkları haqqında atraflı bir tadqiqat Şerif Baştav tarafindan aparılmışdır. Bx. "Sabir türklari," bülleten, cild V, sayı 17-18, Ankara 1941, s. 53-99.

41. Xazarların türklüyü va Qafqazdakı faaliyyatları haqqında bu asarlara baxın: Bahaeddin Ögel, "İslamiyyatdan avval türk kültür tarixi: Orta Asiya inanma va tapınmalarına göra," Ankara 1962, s. 223-237;

Akdes Nimet Kurat, "IV-XVIII yüzillarda Qara dənizin şimalındakı türk qövmləri və dövlətləri," Ankara 1972, s. 30-43; "İbn Fazlan Səyahətnaməsi," hazırlayan Ramazan Şeşen, İstanbul 1975, s. 76-80; Arthur Koestler, "Onüçüncü qəbilə: Xəzər imperatorluğu və mirası," Tərcümə edən Belkıs Çorakçı, 2-ci basçı, İstanbul 1977.

42. Peçenək və peçenək qitələrinin Anadolu torpaqlarında yerləşdirilmələri haqqında, bx. A.N.Kurat, "Peçenk tarixi," İstanbul 1937; İbrahim Kafesoglu, "Turk milli kültürü," Ankara 1977, s. 171-172.

43. Prof.Dr.Arif Erzen, "Eastern Anatolia and Urartians," İstanbul 1979, adlı əsərində ermənilərin Urartular ilə qəti surətdə bağlarının olmadığını və Urartu mədəniyyətinə sahib çıxma səylərinin elmi əsasdan nə dərəcədə yoxsul olduğunu ortaya qoymuşdur.

44. Türklər haqqındakı mənfi təbliğat istər erməni və rum, istərsə də erməni və rum tərəfdarları olan bəzi yazıçılar tərəfindən keçmişdən bəri aparılmaqdadır. Şübhəsiz ki, bu nöqtədə onları xristianlıq birləşdirir. Onların ortaya atdıqları siyasi mahiyyətdəki təbliğat artıq bu gün öz əhəmiyyətini itirmişdir. Bunlar tərəfindən irəli sürülən müxtəlif görüşlər, türk və bitərəf xarici elm adamları tərəfindən çürüdülmüşdür. Bu mövzuda yazılan iki mühüm əsəri: M.Fuad Köprülü, "Bizans Müəssisələrinin Osmanlı müəssisələrinə təsiri." Yayınlayan F.Köprülü, İstanbul 1981; Stanford J.Shaw and Ezel Kural Shaw, "History of the Ottoman Empire and Modern Turkey," 2 vol., London: Cambridge University Press, 1976-1977, incələməniz məsləhət bilirik.

45. "Urfalı Mateos Vekayi-naməsi və Papaz Qriqorun zey-li," Türkcəyə tərcümə edən: Hrant D.Andreasyan, Ankara 1962, s. 48.

46. Mehmet Altay Köymen, "Səlçuqlu dövrü, türk tarixi," Ankara 1963, s.243.

47. Yaves Ternon, Les Armeniens. Histoire dun genoside (Ermənilər: Bir soyqırımın tarixi), Paris 1977.

48. "Urfalı Mateos Vekayi-naməsi və Papaz Qriqorun zey-li," Türkcəyə tərcümə edən: Hrant D.Andreasyan, Ankara 1962, s. 122; R.Grousset, "Histoire de lArmenie Des Origines 1071," Payot-Paris 1973, s. 615-617.

49. "Urfalı Mateos Vekayi naməsi və Papaz Qriqorun zeyli," Türkcəyə tərcümə edən: Hrant D.Andreasyan, Ankara 1962, s. 111-112, 122.

50. Enver Ziya Karal, "Yaxın Şərq ticarət tarixi," Ankara 1975, s.407.

51. Türk hökmdarlarının ermənilərlə yaxşı davrandıqlarını bildirən erməni tarixçilərinin sözləri diqqətə dəyər. Urfalı Mathieu Səlçuqlu sultanı Məlik şah haqqında: "Məlik şah hakimiyyəti boyunca Uca Allahın yardımına nail oldu. O, bütün ölkələri fəth etdi. Ermənistanı sülh və asayişə qovuşdurdu," - deyir.

("Urfalı Matens vekayı naməsi və Papaz Qriqorun zeyli," Türkcəyə tərcümə edən: Hrant D. Andreasyan, Ankara 1962, s.146). Türkiyə ermənilərinin patriarxı Şinork Qalustyan da "Türklərin əsrlər boyunca ermənilərin dini və mədəni inkişafını təmin etməsini ifadə etmişdir." Bx. "Türk ermənilərindən gerçəklər," İstanbul 1980, Jamanak yayını, türkcə bölümü, s. 28.

52. Franz Babinger, "Mehmed der Eroberor und seine Zeit," Munich 1953, s.226. Zikr edən Halil İnancık. The ottoman Empire: "The klassikal age 1300-1600," London and New York 1973, s. 56-57.

53. Fatihin bu nitqi üçün bx. Kritovulos, "Tarihi Sultan Mehmed Han-i sani," Karolidi tərcüməsi, İstanbul 1328, s. 24-37.

54. Aspirations et Agissement Revolutionnaries des Comitens, avant et apres la proqlamation de la Constitution Ottomane, İstanbul 1917, s.7; R.H.Y.G.Gark, "Türk dövləti xidmətində ermənilər," 1453-1953, İstanbul 1953, s. 8.

55. Fuad Köprülü, "Türk ədəbiyyatının erməni ədəbiyyatı üzərindəki təsirləri," ədəbiyyat araşdırmaları, Ankara 1956, s. 239-269.

56. Enver Ziya Karal, "Osmanlı tarixi: Birinci məşrutiyyət və istibdad dövrləri (1876-1907)," cild VIII, Ankara 1962, s.126-127; Enver Ziya Karal. "Question Armenian, 1878-1923, Ankara 1975, s. 7.

57. Mikascha, II, Leipziq 1793, s.171. Türkcə tərcüməsi: B.Sıtkı Baykal. "Osmanlı tarixi," cild V, 1774-1912. Ankara 1948, s. 616.

58. Revue des deux Mondes, iyun 1867, s. 903-928. Edqar Granville, "La tsarizme en Asie Mineure," Revue Politique İnternationale, 1917; Türkcə tərcüməsi: Orhan Arman, "Çarlık Rusiyasının Türkiyədəki oyunları," Ankara 1967, s. 26-27.

59. Orhan Arman, "Çarlıq Rusiyasının Türkiyədəki oyunları," Ankara 1967, s. 30.

60. Y.Gark. "Türk xidmətində ermənilər," İstanbul 1952, s.1.

61. M.Vartanyan, "Erməni hərəkatının tarixi," Cenevrə 1914.

62. Varan, Van ilə Muş şəhərinin arasında bir monastırdır.

63. Doğan Avcıoğlu. "Türkiyənin nizam-intizamı," Ankara 1968, s. 59.

64. Prof.N.Yurqa, "Geschichte des Osmanisten Reiches," cild V, s. 606.

65. İsmail Hamdi Danişmend, "Osmanlı tarixinin xronoloqiyası," cild IV, s. 228.

66. *Sadı Koçaş, "Tarix boyunca ermənilər və türk erməni əlaqələri,"* Ankara, Atatürk basımevi, 1967, s. 90.

67. Stanford J.Shaw and Ezel Kural Shaw, "History of the Ottoman Empire and Modern Turkey," vol II, s. 202; Metin Kıratlı. "Modern Türkiyənin doğuşu," Ankara 1970, s.353.

68. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 156.
69. Enver Ziya Karal, "Question Armenian, 1878-1923, Ankara 1975, s. 9.
70. Stanford J.Shaw and Ezel Kural Shaw, "History of the Ottoman Empire and Modern Turkey," 2 vol. London Cambridge University Press, 1976-1977.
71. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 547-548.
72. Erməni patriarxı IV Ohannesin tarixində söylədiyini Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," adlı əsərində nəql etmişdir.
73. Necdet Sevinc, "Ajan məktəbləri," İstanbul 1975, s 40-42.
74. Necdet Sevinc, "Ajan məktəbləri," İstanbul 1975, s 48-49.
75. Ali Nadi Ünler, "Qaziantepin müdafiəsi," İstanbul 1969.
76. Uğurol Barlas, "Qaziantep Tibb Fakultəsinin tarixi," Karabük 1971.
77. Necdet Sevinc, "Ajan məktəbləri," İstanbul 1975, s. 50.
78. Necdet Sevinc, "Ajan məktəbləri," İstanbul 1975, s 116.
79. Altan Deliorman, "Türklərə qarşı erməni komitəçiləri," İstanbul 1975, s. 34.
80. Altan Deliorman, "Türklərə qarşı erməni komitəçiləri," İstanbul 1975, s. 35.
81. Necdet Sevinc, "Ajan məktəbləri, "İstanbul 1975, s 128; A Deliorman, "Türklərə qarşı erməni komitəçiləri," İstanbul 1975, s. 25-26.
82. Necdet Sevinc, "Ajan məktəbləri," İstanbul 1975, s 129.
83. "Erməni komitələrinin əməl və ixtilal hərəkatı," İstanbul 1916.
84. Mme Zabel və H. Asadoryan, "Orta məktəblər üçün dil bilgisi," İstanbul 1914, s. 16.
85. Mme Zabel və H. Asadoryan, "Orta məktəblər üçün dil bilgisi," İstanbul 1914, s. 16.
86. Mme Zabel və H. Asadoryan, "Kitabxana," s. 40.
87. Mme Zabel və H. Asadoryan "İkinci sinif dil bilgisi," s.32.
88. K.N. Basmacıyan, "Rəsmli erməni tarixi," İstanbul 1910, s.1.
89. K.N. Basmacıyan, "Rəsmli erməni tarixi," İstanbul 1910, s.82.
90. K.N. Basmacıyan, "Rəsmli erməni tarixi," İstanbul 1910, s.87.
91. K.N. Basmacıyan, "Rəsmli erməni tarixi," İstanbul 1910, s.88.
92. "Erməni komitələrinin əməl və ixtilal hərəkatı," İstanbul 1916, s. 115.
93. Tesavir ve Vesaik Albumunden Haklen Zave, s. 5.
94. Tesavir ve Vesaik Albumunden Haklen Zave, s. 5.
95. Başvəkalət arxivi, "Yıldız Evrakı," 1-ci qisim, No 35.
96. Başbakanlıq arxivi, "Yıldız Evrakı," 35-ci qisim.

97. Başvekalət arxivi, "Yıldız Evrakı," 18-ci qisim.
98. Başbakanlıq arxivi, "Yıldız Evrakı," 18-ci qisim.
99. Başbakanlıq arxivi, "Yıldız Evrakı," 18-ci qisim.
100. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 428.
101. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 429.
102. "Erməni komitələrinin aməl və ixtilal hərəkatı," İstanbul 1916, s. 34.
103. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 44.
104. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 447.
105. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 447.
106. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Ankara 1950, s. 448.
107. Avcıoğlu, "Milli qurtuluş tarixi," cild III, s. 1084.
108. Sarkis Atamyan, "The Armenian Community," Philosofikal Library, New York 1955, s. 136-137.
109. A. J. Alberry, "Religion in the Middle East," vol 1, Camberidge University Press, Camberidge 1969, s. 498.
110. Avendis K.Kojan, "The Armenian in Syria Under Ottoman Dominion," Harvard University Press, Camberidge 1965, s. 31.
111. Riçard Davey, "The Sultan and His Subjects," vol II, Charman and Hall Ltd., London 1897, s. 205.
112. George H Hepworth, "Through Armenia on Horsback," E.P Dutton, New York 1898, s. 325.
113. General Mayevski, "Van və Bitlis vilayətləri əsgəri statistikası," Mətbaa-i Asgeriye, İstanbul 1330, s. 134.
114. General Mayevski, "Van və Bitlis vilayətləri əsgəri statistikası," Mətbaa-i Asgeriye, İstanbul 1330, s. 137.
115. General Mayevski, "Van və Bitlis vilayətləri əsgəri statistikası," Mətbaa-i Asgeriye, İstanbul 1330, s. 215.
116. Başbakanlıq arxivi, "Yıldız Evrakı," 35-ci və 36-cı qisimlər.
117. Mavi kitab, 1896, No 3, Türkiyə s. 115.
118. Turqut Işıksal, "Erməni fəaliyyətləri ilə əlaqəli araşdırmalarda Osmanlı sənədlərinin əhəmiyyəti və 1893 merzifon hadisəsi, B.T.T. jurnalı, sayı 79-80-81, s.50-52.
119. Barbara Jelavich, The Ottoman Empire, The Great Powers and the Strait Question, P. IX. A.MTK No 551, 18.05. 1893.

120. Barbara Jelavich, The Ottoman Empire, The Great Powers and the Strait Question, P. IX. A MTK No 394, 22.04. 1893.
121. Barbara Jelavich. The Ottoman Empire, The Great Powers and the Strait Question, P. IX. A MTK No 9541.
122. Barbara Jelavich, The Ottoman Empire, The Great Powers and the Strait Question, P. IX. A MTK No 17370-17461-17469.
123. General Mayevski, "Van və Bitlis vilayətləri əsgəri statistikası," Mətbəə-i Əsgəriyə, İstanbul 1330, s. 142.
124. Graves Robert, "Storm Centres of the Near East," Hutchinson and Co Ltd., London 1925, s. 124.
125. Graves Robert, "Storm Centres of the Near East," Hutchinson and Co. Ltd., London 1925, s. 143.
126. Pears Edvin, "Turkey and Its People," Meuthuen and Co. Ltd., London 1911, s. 280-281.
127. Tahsin Paşa, "Əbdulhəmid və ulduz xatirələri," M.Ahmet Halim kitabxanası, İstanbul 1931, s. 174.
128. George Hepworth, "Throegh Armenia on Holsback," E.P. Dutton, New York 1898, s.339-342.
129. İsmət Bozdağ, "II Əbdülhəmidin xatirə dəftəri," karvan yayınları, İstanbul 1975, s. 55.
130. İsmət Bozdağ, "II Əbdülhəmidin xatirə dəftəri," karvan yayınları, İstanbul 1975, s. 57.
131. General Mayevski, "Van və Bitlis vilayətləri əsgəri statistikası," Mətbəə-i Əsgəriyə, İstanbul 1330, s. 136.
132. William L Langer, "The Diplomasy of imperialism 1890-1902, Alfred A Knopf, New York 1972, s.163.
133. Dr Fridtjof Nansen, "Armenia and the Near East," George Allen and Unwing Ltd., London 1928, 290.
134. Cəlal Bayar, "Mən də yazdım," cild V, Baha mətbəəsi, İstanbul 1967, s.240.
135. Faxrəddin Ərdoğan, "Türk ellərində xatirələrim," Yeni mətbəə, İstanbul 1954, s.10.
136. Əhməd Raşid Bəy, "Gördüklərim, etdiklərim," Türkiyə yayınevi, İstanbul 1955, s. 21.
137. "Müfəssəl Osmanlı tarixi," cild VI, s. 3367.
138. Hüsaməddin Ərtürk, "İki dövrün pərdə arxası," Pınar yayınevi, İstanbul 1964, s. 41, 42.
139. Levon Dabağyan, "Sultan II Əbdülhəmid və ermənilər," Son Havadis qəzeti, 28 noyabr 1981, s. 6.

140. Tahsin Paşa, "Əbdülhamid və ulduz xatirələri," M. Ahmet Halim kitabxanası, İstanbul 1933, s. 114.
141. Camal Paşa, "Xatirələr," Çağdaş yayınları, İstanbul 1977, s. 211.
142. Hikmət Bayur, "Turk inqilabının tarixi," cild II, k 4, s 125
143. Ahmet Bedevi Kuran, "İnqilab tariximiz və jontürklər," Tan mathəəsi, İstanbul 1946, s. 234-235.
144. Hikmət Bayur, "Türk inqilabının tarixi," cild I, k 1, s 387, 388
145. E. Ramseur, "Jon Türklər və 1908 ixtilalı," Sander yayınları, İstanbul 1972, s. 144.
146. E. Ramseur, "Jon Türklər və 1908 ixtilalı," Sander yayınları, İstanbul 1972, s 156
147. II Əbdülhamidin xatirə dəftəri, s. 59.
148. Dabağyan, "Sultan II Əbdülhamid və ermənilər," Son Havadis qəzeti, 12 oktyabr 1981, s. 6
149. "Erməni komitələrinin aməl və ixtilal hərəkatı," Mətbəə-i amirə, İstanbul 1332, s. 231.
150. F. Mondel, "What Realy Happened of Paris the Conference," Hodler and Stoughton, London 1921, s. 180
151. "Erməni komitələrinin aməl və ixtilal hərəkatı," Mətbəə-i amirə, İstanbul 1332, s. 42
152. Fəxrəddin Ərdoğan, " Türk ellərindən xatirələrim," Yeni mətbəə, İstanbul 1954, s. 39.
153. İsmail Hakkı Danışmend, "31 mart hadisəsi," İstanbul kitabevi, İstanbul 1961, s. 143.
154. "Erməni komitələrinin aməl və ixtilal hərəkatı," Mətbəə-i amirə, İstanbul 1332, s. 48
155. Yılmaz Öztuna, "Başlanğıcından Zamanımıza qədər Türkiyə tarixi," cild XII, Həyat yayınları, İstanbul 1967, s. 142
156. İsmail Hami Danışmend, "Osmanlı tarixi xronologiyası," Türkiyə yayınları, İstanbul 1972, cild. IV, s. 393.
157. Esat Uras. "Tarixdə ermənilər və erməni məsələsi," Belgə yayınları, İstanbul 1976, s. 551.
158. Damar Arıkoğlu, "Xatirələrim," Tan mətbəəsi, İstanbul 1961, s. 46-47.
159. Camal Paşa, "Xatirələr," Çağdaş yayınları, İstanbul 1977, s. 442.
160. Ənvər Balayır, "Talat paşanın xatirələri," Güvən basım evi, İstanbul 1946, s. 16.
161. F Hurşid Günday, "Həyatım və xatirələrim," Çeltik mətbəəsi, İstanbul 1960, s 36.

162. Lütfi Bəy "Osmanlı Sarayının son günləri," Hürriyyət yayınları, İstanbul, s. 153.
163. M.Ali Aynı, "Milliyyətçilik," Maarif basımevi, İstanbul 1943, s. 6.
164. Camal Kutay, "31 mart üsyanında Sultan Hamid," Camal Kutay kitablığı, İstanbul 1977, s. 246.
165. Ahmet Bedevi Kuran, "İnqilab tariximiz və jontürklər," Tan mətbəəsi, İstanbul 1946, s. 315.
166. İsmail Hami Danişmend, "Osmanlı tarixi xronoliyası," Türkiyə yayınları, İstanbul 1972, cild IV, s. 391.
167. Calal Bayar, "Mən də yazdım," cild III, Baha mətbəəsi, İstanbul 1967, s.758.
168. Əhməd Raşid Bəy, "Gördüklərim, eşitdiklərim," Türkiyə yayınevi, İstanbul 1964, s.152.
169. Qalib Kamal Söyləməzoğlu, "Hariciyyə hidmətində otuz il," Şakarı mətbəəsi, İstanbul 1949, cild I, s. 56.
170. "İnönünün xatirələri," Ulus qəzeti, 15 sentyabr 1968, s. 4.
171. "Talat paşanın xatirələri," Güvən basımevi, İstanbul 1946, s. 60.
172. "Talat paşanın xatirələri," Güvən basımevi, İstanbul 1946, s. 45.
173. Ahmet Rza, "Xatirələr," Cumhuriyyət qəzeti, 10 fevral 1950, s. 2.
174. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Belgə yayınları, İstanbul 1976, s. 453.
175. Vartanyan, "Yeni doğulan vətən və bizim yolumuz," Cenevrə 1910, s. 113-115.
176. Altan Dəliorman, "Erməni komitələri," s. 11.
177. "Erməni kabusu," Boston 1916, s. 150-151.
178. Mavi kitab, No 6, Türkiyə 1896, s. 38.
179. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Belgə yayınları, İstanbul 1976, s. 455-456.
180. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Belgə yayınları, İstanbul 1976, s. 540-542.
181. Mehmet Hocaoğlu, "Arxiv vəsiqələrilə Türkiyədə erməni məzalimi və ermənilər," Qardaş mətbəəsi, istanbul 1977, s.172.
182. Mixail Hovakimyan,"Kafqaz Vanteası," Tiflis, ermənicə.
183. Vartanyan, "Daşnaksutyunun tarixi," s. 252.
184. Vartanyan, "Daşnaksutyunun tarixi," s. 28.
185. Mixail Hovakimyan,"Kafqaz Vanteası," Tiflis, ermənicə.
186. "Daşnak" No 4, 20.04.1914, s. 262.
187. K Kudulyan, "Andranikin savaşları," Beyrut 1929, ermənicə.
188. Baş vəkalət arxivi, "Yıldız Evrakı," 24-cü qisim.

189. "5 mayıs 1879 tarixi genelge." Başbakanlıq dovlat arxivi, "Yıldız Evrakı," 24-cü qisim.
190. Abdullah Yaman, "Ermani masalasi va Turkiya," İstanbul 1973, s. 15.
191. Başbakanlıq arxivi, "Yıldız Evrakı," 35-ci qisim.
192. Mehmet Hocaoğlu, "Tarixda ermani mazalimi va ermanilar," İstanbul 1976, s. 197.
193. Başbakanlıq arxivi, "Yıldız Evrakı," 35-ci qısım.
194. Mehmet Hocaoğlu, "Tarixda ermani mazalimi va ermanilar," İstanbul 1976, s. 10.
195. Esat Uras, "Tarixda ermanilar va ermani masalasi," Ankara 1950, s. 458, 459.
196. Hayrenik qazeti, 1927, No 1.
197. Prof.Dr. Zeki Başar, "Ermanilardan gorduklerimiz," Ankara Universiteti yayınları, 354, 1974, s. 29.
198. Esat Uras, "Tarixda ermanilar va ermani masalası," İstanbul 1976, s. 134.
199. Esat Uras, "Tarixda ermaniler va ermani masalasi," İstanbul 1976, s. 146.
200. Kemal Taran, "Ermani iddiaları tutarsızdır," İstanbul 1984, s. 26.
201. Prof.Dr. Zeki Başar, "Ermanilerden gorduklerimiz," Ankara Universiteti yayınları 354, 1974, s. 43.
202. "Ermani komitalarının amal va ixtilal harakatı," İstanbul 1916.
203. M. Faxraddin Kırzıoğlu, "Qars şəhəri atrafında ermani mazalimi," s. 114.
204. Hikmat Bayur, "Turk inqilabının tarixi," Turk tarix qurumu yayınları, Ankara 1963, cild II, k. 2, s. 41.
205. "Talat paşanın xatiralari," Guven basımevi, İstanbul 1946, s. 65.
206. Camal Paşa, "Xatiralar," Çağdaş yayınları, İstanbul 1977, s. 415.
207. "Talat paşanın xatiralari," Guven basımevi, İstanbul 1946, s. 55.
208. Esat Uras, "Tarixda ermanilar va ermani masalası," Belge yayınları, İstanbul 1976, s. 587.
209. "Ermani komitalarinin amal va ixtilal harakatı," Matbaa-i amire, İstanbul 1332 (1916), s. 105.
210. "Ermani komitalarinin amal va ixtilal harakatı," Matbaa-i amire, İstanbul 1332 (1916), s. 201.
211. Hikmat Bayur, "Turk inqilabının tarixi," Turk tarix qurumu yayınları, Ankara 1963, cild III, k. 3, s. 55.
212. Esat Uras, "Tarixda ermanilar va ermani masalasi," Belge yayınları, İstanbul 1976, s. 769.

213. Matthew Smith Anderson, "The Eastern Question 1774-1923," Macmillan Co., New York 1966, s. 340.
214. Hikmət Bayur, "Türk inqilabının tarixi," Türk tarix qurumu yayınları, Ankara 1963, cild III, k. 3, s. 31-66.
215. Prof.Dr. Nimet Aktaş Kurat "Türkiyə və Rusiyə," Ankara Ü.D.T.C fakultəsi, İstanbul 1946, s.285.
216. M Philips Price, "Türkiyə tarixi," Çev. S Atalay, Ararat yayınevi, İstanbul 1979, s. 153.
217. Hikmət Bayur, "Türk inqilabının tarixi," Türk tarix qurumu yayınları, Ankara 1963, cild III, k. 3, s. 7.
218. "Erməni komitələrinin aməl və ixtilal hərəkatı," Mətbəə-i amire, İstanbul 1332 (1916), s. 237, 238.
219. Camal Paşa, "Xatirələr," Çağdaş yayınları, İstanbul 1977, s. 442-443.
220. F. Mondel, "What Realy Happened of Paris the Conference," Hodler and Stoughton, London 1921, s. 182.
221. A.J Alberry, "Religion in the Middle East," vol. I, Camberidge University Press, Camberidge 1969, s. 460.
222. Dr M Faxrəddin Kırzıoğlu, "Qars şəhəri ətrafında erməni məzalimi (1918-1920)," Qars turizm və tanıtma dərnəyi yayınları, Ankara 1970, s. 37.
223. Dr M Faxrəddin Kırzıoğlu, "Qars şəhəri ətrafında erməni məzalimi (1918-1920)," Qars turizm və tanıtma dərnəyi yayınları, Ankara 1970, s. 37, 38.
224. Cevdet Dursunoğlu, "Milli mücadilədə Ərzurum," Ziraat bankasının mətbəəsi, Ankara 1966, s. 25-43.
225. Camal Paşa, "Xatirələr," Çağdaş yayınları, İstanbul 1977, s. 441.
226. A.D Adamov, "Sovet dövləti arxivinin gizli sənədlərindən Anadolunun bölünməsi planı," Bəlgə yayınları, İstanbul 1972, s.140, 141.
227. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 634.
228. Jean Levn, "Daima hiyləgər," Çevirən Əli Rəşad, cild II, Qənaət kitabxanası, İstanbul 1339 (1923), s. 181.
229. Erol Ulubelen, "İngilis gizli sənədlərində Türkiyə," Yaylacıq mətbəəsi, İstanbul 1967, s.171.
230. Faxrəddin Ərdoğan, "Türk ellərindən xatirələrim," Yeni mətbəə, İstanbul 1954, s. 175.
231. Faxrəddin Ərdoğan, "Türk ellərindən xatirələrim," Yeni mətbəə, İstanbul 1954, s. 225.
232. İlcar, "Həyat, tarix," Oktyabr 1975, s. 34.

233. Dr. İ.Etem Güzel, "Kürdçülük gerçəyi," Kömen yayınları, Ankara 1977, s.52-53.
234. General Veysəl Ünüvar, "İstiqlal müharibəsində bolşeviklərlə səkkiz ay," Şirkəti Mürettebiye basımevi, İstanbul 1948, s. 4.
235. Mustafa Nuraddin, "Hubbi istiqlalın abidəsi Qaziantepin müdafiəsi," Matbaa-i Milli, İstanbul 1340 (1924), s.25-28.
236. Hikmət Bayur, "Türk inqilabının tarixi," Türk tarix qurumu yayınları, Ankara 1963, cild III, k. 4, s. 120.
237. Hikmət Bayur, "Türk inqilabının tarixi," Türk tarix qurumu yayınları, Ankara 1963, cild III, k. 3, s. 120, 121.
238. Matthew Smith Anderson, "The Eastern Question 1774-1923", Macmillan Co., New York 1966, s. 274.
239. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Belgə yayınları, İstanbul 1976, s. 634.
240. Gotthard Jaeschke, "Qurtuluş müharibəsi ilə əlaqəli ingilis sənədləri," Türk tarix qurumu yayınları, Ankara 1971, s. 47.
241. Gotthard Jaeschke, "Qurtuluş müharibəsi ilə əlaqəli ingilis sənədləri," Türk tarix qurumu yayınları, Ankara 1971, s. 47, 48.
242. Rize Mebusu Esat, "Adananın qurtuluş mücadələsi xatirələri," Ülkü mətbəəsi, İstanbul 1934, s. 20.
243. Rize Mebusu Esat, "Adananın qurtuluş mücadiləsi xatirələri," Ülkü mətbəəsi, İstanbul 1934, s. 23.
244. Rize Mebusu Esat, "Adananın qurtuluş mücadələsi xatirələri," Ülkü mətbəəsi, İstanbul 1934, s. 24.
245. Ali Saib, "Urfanın qurtuluşu və Kilikiya faciəsi," Ankara 1340 (1923)," s. 16-20.
246. Erol Ulubelen, "İngilis gizli sənədlərində Türkiyə," Yaylacıq mətbəəsi, İstanbul 1967, s.229.
247. Doç.Dr.Yahya Akyüz, "Qurtuluş savaşımız və Fransada erməni propaqandası," Sənədlərlə Türk tarixi jurnalı, sayı 66 s. 23.
248. "Harb tarixi vəsiqələri jurnalı," sayı 13, sənəd 350.
249. Hikmət Bayur, "Türk inqilabının tarixi," Türk tarix qurumu yayınları, Ankara 1963, cild III, k. 3, s. 87.
250. Bu zamanlarda Rusiyanın ordu qərargahı Ərzincandan Ərzuruma köçmüşdü.
251. Bu zaman kasımında Brest-Litovsk müqaviləsi müzakirə edilməkdə idi, buna görə Osmanlı ordusu ciddi tədbirlər almışdı.
252. Ayastefanos müqaviləsindən 40 il sonra Sovet Rusiyası ilə Osmanlı imperatorluğu arasında Brest-Litovskda 03 mart 1918-ci il tarixin-

da imzalanan müqaviləyə görə Türkiyənin sərhəddi 1877-1878-ci ildəki sərhəd olacaqdı, yəni Qars, Ərdahan və Batumi təkrar Türkiyə sərhədləri içərisinə girəcəkdi.
253. III Ordu məzalim dosyası.
254. Ahmet Refik, "İki komita, iki qırğın," İstanbul 1919, s.71.
255. Ahmet Refik, "İki komita, iki qırğın," İstanbul 1919, s.71, 72.
256. M.Fəxrəddin Kırzıoğlu, "Qars şəhəri ətrafında erməni məzalimi (1918-1920)," Ankara 1970, s. 83.
257. Ahmet Hulki Saral, "Erməni məsələsi," Ankara 1970, s.396-402.
258. Bəlgələr dosyası, bəlgə No 20.
259. Bəlgələr dosyası, bəlgə No 21-22.
260. Bəlgələr dosyası, bəlgə No 23.
261. Bayburt dosyası, bəlgə No 24.
262. III Ordu məzalim dosyası.
263. III Ordu məzalim dosyası.
264. Tarixçi Ahmet Refik (Altınay), "Qafqaz yollarında," adlı əsərində s. 45.
265. Tverdo Xlebov, "Xatirə" Ermənilər haqqında məqalələr-məcmuələr, s.273, 274; Memories of a Turkish Statesman, 1913-1919, By Djemal Pasha, New York 1922, s.284.
266. III Ordu məzalim dosyası.
267. Bəlgələr dosyası, bəlgə No 25. Ayrıca bax: "Memories of a Turkish Statesman (1913-1919)," s. 285-298.
268. M.Fəxrəddin Kırzıoğlu, "Qars şəhəri ətrafında erməni məzalimi (1918-1920)," Ankara 1970, s. 85.
269. III Ordu məzalim dosyası.
270. III Ordu məzalim dosyası.
271. III Ordu məzalim dosyası.
272. Bəlgələr dosyası, bəlgə No 31.
273. M.Fəxrəddin Kırzıoğlu, "Ədəbiyyatımızda Qars," – 2-ci kitab, İstanbul 1958, s.123-124.
274. Bəlgələr dosyası, bəlgə No 28.
275. Bəlgələr dosyası, bəlgə No 29.
276. Bəlgələr dosyası, bəlgə No 30.
277. Bəlgələr dosyası, bəlgə No 32.
278. "Ermənilərin Ahılkələkidəki türklərə qarşı törətdikləri vəhşət və qırğınlar," Ermənilər haqqında məqalələr-məcmuələr, cild II, s. 279-281; M.Fəxrəddin Kırzıoğlu, "Qars şəhəri ətrafında erməni məzalimi (1918-1920)," Ankara 1970, s. 50, 51.

279 1919-1920-ci illarda Qafqazda müsəlmanlara qarşı törədilən erməni məzalimi T.B.M.M. hökuməti, Şərq cəbhəsi komandanlığı 10-cu şöbəsinin yayımı, 1 yanvar 1921, Qars

280 1919-1920-ci illarda Qafqazda müsəlmanlara qarşı törədilən erməni məzalimi T.B.M.M. hökuməti, Şərq cəbhəsi komandanlığı 10-cu şöbəsinin yayımı, 1 yanvar 1921, Qars

281 M.Faxraddin Kırzıoğlu, "Qars şəhəri ətrafında erməni məzalimi (1918-1920)," Ankara 1970, s. 97-113

282 General Kazım Qarabəkir, "İstiqlal harbimiz," s. 292-304

283 Ahmet Refik, "İki komita, iki qırğın," İstanbul 1919, s 43

284 Ahmet Refik, "İki komita, iki qırğın," İstanbul 1919, s 68

285 Ahmet Refik, "İki komita, iki qırğın," İstanbul 1919, s 73

286 Ahmet Refik, "İki komita, iki qırğın," İstanbul 1919, s 74

287 Ahmet Refik, "İki komita, iki qırğın," İstanbul 1919, s 75

288 Mehmet Hocaoğlu, "Tarixdə erməni məzalimi və ermənilər," İstanbul 1976, s. 748-764.

289 Sadrettin İbrahim Hakkıoğlu, "Tarix yolunda Ərzurum," say: 11-12, s. 16

290 Prof.Dr. Zeki Başar, "Ermənilərdən gördüklərimiz," Ankara Universiteti yayımları, 354, 1974, s. 29, 30

291 Şevket Süreyya Aydemir, "Ənvar Paşa," cild 1 s. 75

292 Sami Önal, "Milli mücadilədə Ordu," Ankara 1968, s. 24, 25.

293 Prof.Dr. Zeki Başar, "Ermənilərdən gördüklərimiz," Ankara Universiteti yayımları, 354, 1974, s. 43

294 Prof.Dr. Zeki Başar, "Ermənilərdən gördüklərimiz," Ankara Universiteti yayımları, 354, 1974, s. 44

295 "Erməni komitələrinin əmal və ixtilal hərəkatı," Mətbəə-i amirə, İstanbul 1332 (1916), s. 194, 155

296 "Erməni komitələrinin əmal və ixtilal hərəkatı," Mətbəə-i amirə, İstanbul 1332 (1916), s. 277-290.

297 Mustafa Nurəddin, "Hubbi istiqlalın abidəsi Qaziantepin müdafiəsi," Mətbaa-ı Milli, İstanbul 1340 (1924) s 26

298 Arnold J.Toynbee, "The Westren Question in Grece and Turkey," New York 1970, s. 312.

299. Kazım Qarabekir, "İstiqlal harbiniz," İstanbul 1969, s 549, 627, 727

300 Kazım Qarabekir, "İstiqlal harbiniz," İstanbul 1969, s 523

301 Kamal Kocer, "Qurtuluş savaşında İstanbul (İşğal illərində M.M. qruppasının gizli fəaliyyətləri)," Vakıt basımevi, İstanbul 1946, s. 30, 31, 41, 195.

302 Kazım Qarabəkir, "İstiqlal harbiniz," İstanbul 1969, s 523, 524
303 Türkiyə Böyük Millət Məclisi, Şark Ceh. Kom. onuncu şöbə, 1 yanvar 1921, xülasə
304 S Akgün, "General Harbordun Anadolu gəzisi və raportu: "Qurtuluş müharibəsi başlağıcında," İstanbul 1981, s. 243. Raport üçün bx. "(Amerikan Military Mission to Amerika), Conditions in the Near East, 66 th Congress, 2 nd Session," Senat sənədi, No 266 (Washington1920) və Mandatory Over Armenia, raport made to Major General Harbord by brigadier General G.Van, H Moseley, 66 th Congress, 2 nd Session, Senato No 281, Washington 1920
305 Türk istiqlal harbi, cild III (Şərq cəbhəsi), s 308-311.
306 Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 701, 702.
307 Beynəlxalq əlaqələr tarixi. Diplomatiya tarixi, 3, may yayını, İstanbul 1978, s. 236, 237.
308 The Louzanne Conferece 1922-1923]: The mes and Congres in the Archives of Great Britain
309 S.L. Meray, Lozann konfransı: protokollar, sənədlər, Ankara 1978, cild I, s. IX
310. A Hadisyan: "Ermənistan Respublikasının doğuşu və irəliləməsi," s 335
311 S.L. Meray, Lozann konfransı: protokollar, sənədlər, A.Ü.S.B.F. yayınları No 291, dəstə I, cild I, kitab I, A.Ü. Basımevi 1969, s.17
312 S.L. Meray, Lozann konfransı: protokollar, sənədlər, A.Ü.S.B.F. yayınları No 291, dəstə I, cild I, kitab I. A.Ü. Basımevi 1969, s 185-186
313 S.L. Meray, Lozann konfransı: protokollar, sənədlər, A.Ü.S.B.F. yayınları No 291, dəstə I, cild I, kitab I, A.Ü. Basımevi 1969 s. 187
314 S.L. Meray, Lozann konfransı: protokollar, sənədlər, A.Ü.S.B.F. yayınları No 291, dəstə I, cild I, kitab I, A.Ü. Basımevi 1969, s. 200
315 S.L. Meray, Lozann konfransı: protokollar, sənədlər, A.Ü.S.B.F. yayınları No 291, dəstə I, cild I, kitab I, A.Ü. Basımevi 1969, s. 220
316 Ali Naci Karacan, "Lozann konfransı və İsmət paşa," T.İ.T.E. yayını, 3, maarif mat. 1943, s. 127-137
317 PRO, FO, CP, No 12404, Futher Correspondance Respekting Turkey," part V, April to June 1923
318 PRO, FO. 839 / 12, 20.01.1923.
319 PRO, FO. 839 / 12, 25.01.1923.
320 PRO, FO. 800 / 240 (Ryan papers), 15.01.1923

321. PRO, FO 800 / 240 (Ryan papers), 09.01.1923.
322. PRO, FO 800 / 151, 06.12.1921.
323. PRO, FO 371 / 4954 E 2775, Wardropdan (Tiflis) Qurzona (London), 04.03.1920.
324. PRO, FO 371 / 4954 E 2775, Wardropdan (Tiflis) Qurzona (London), 04.03.1920.
325. B. H. Dekmenjiyan, "Soviet – Turkish Relations and politics in the Armenian SSR," Soviet studies, cild XIX / 4 (aprel 1968).
326. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 606-608.
327. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 608.
328. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 609.
329. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 626.
330. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 626, 627.
331. General Mayevsky, Les Massacres d'Armenie, St. Peterburg, 1916.
332. General Mayevsky, Les Massacres d'Armenie, St. Peterburg, 1916, s. 43.
333. Leo, "Keçmiş," s. 356.
334. Schemsi Kara, "Turcs et Armeniens devant l'Histoire," Geneve, Imprimerie Nationale, 1919, s. 19.
335. Schemsi Kara, "Turcs et Armeniens devant l'Histoire," Geneve, Imprimerie Nationale, 1919, s. 31-32.
336. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 149.
337. Loise Nalbandyan, "Armenian Revolutionary Movement," University of Californiya Press, 1963, s.110-111.
338. "Erməni komitələrinin amal və iatilal hərəkatı," İstanbul 1917, s. 144-146.
339. Tchalkovchian Gr. "Le Livre Rouge," Paris 1919, s.12.
340. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 594.
341. Mehmet Hocaoğlu, "Tarixdə erməni məzalimi və ermənilər," İstanbul 1976, s. 570-571.
342. Mehmet Hocaoğlu, "Tarixdə erməni məzalimi və ermənilər," İstanbul 1976, s. 570-572.

343. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 596-600.
344. Məsələn, "Jurnal de *Guerre* du Deuxieme Regiment d'Artillerie de Forteresse d'Erzurum, 1919."
345. Schemsi Kara, "Turcs et Armeniens devant l'Histoire," Geneve, Imprimerie Nationale, 1919, s. 19.
346. Esat Uras, "Tarixdə ermənilər və erməni məsələsi," Bəlgə yayınları, İstanbul 1976, s. 604.
347. 1915 may ayı tarixli, "Bakanlar Kurulu Talimatı," Başbakanlık arxivi, İstanbul Meclis-i Vukala Mazbataları, c. 198, qərar No 1331 / 163.
348. İngiltərə Xarici İşlər arxivi, F.O. 371 / 4241 / 170751.
349. İngiltərə Xarici İşlər arxivi, F.O. 371 / 9158 / E 5523.
350. İngiltərə Xarici İşlər arxivi, F.O. 371 / 9158 / E 5524.

Prof. Fazil QARAOĞLU

# ERMƏNİLƏR VƏ HƏQİQƏTLƏR
## (RƏSMİ SƏNƏDLƏRLƏ)


Texniki redaktor: Raul KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Fəxri VƏLİYEV
Korrektor: Sığra OSMANOVA

Yığılmağa verilmişdir 01.06.2007
Çapa imzalanmışdır 10.07.2007
Nəşrin ölçüsü 84x108 1/32 Ofset çapı
Fiziki çap vərəqi 25,0
Sifariş 86. Sayı 1000 ədəd
Müqavilə qiyməti ilə

NURLAR

Bakı–Az1122, H.Zərdabi pr. 78. Tel. 4977021, 4971362
Faks 4971265 E-mail: office@[illegible]